Birləşdirmə siyasətini başa çatdırdıqdan sonra XVI əsrin son onilliklərində II Abdulla xan maliyyə-pul islahatı həyata keçirmişdi. Bunun sayəsində iqtisadi cəhətdən daha da güclənən Şeybanilər Xorasan uğrunda yenidən mübarizəyə başladılar. Özbəklərin Xorasan uğrunda mübarizəyə yenidən başlamasına təkan verən səbəblərdən biri də Qızılbaş Səfəvilər dövlətinin Məhəmməd Xudabəndə dövründə daxili çəkişmələr nəticəsində zəifləməsi və durğunluq dövrü yaşaması olmuşdu. Səfəvi-Osmanlı müharibələrinin II mərhələsinin 1578-ci ildə başlaması və döyüşlər zamanı hərbi cəhətdən qızılbaşların pərakəndəliyi və məğlubiyyətləri Qızılbaş-Şeybani münasibətlərinin yenidən gərginləşməsinə səbəb olmuşdu. Əraziləri daha da genişləndirmək niyyətində olan şeybanilər Mərkəzi Asiyanın digər hakim nəsilləri, özbəklər ilə mübarizə apardıqdan sonra Səfəvilər ilə üz-üzə gəldilər. Bundan sonra qızılbaşlar ilə siyasi mübarizəyə başlayan şeybanilər Şah I Abbasın hakimiyyətə gəlişi ilə güclü müqavimətlə rastlaşdılar. Şah Abbasa qədər siyasi cəhətdən parçalanmış vəziyyətdə olan Qızılbaş Səfəvilərin Osmanlılar ilə apardıqları müharibə dövləti daha da zəiflətmişdi. Bundan istifadə etmək istəyən şeybanilər Səfəviləri tamamilə Mərkəzi Asiyadana çıxarmaq istəyirdilər. Əvvəldə qeyd etdiyimiz kimi, Xorasan Mərkəzi Asiyanın açar bölgələrindən idi və bu bölgənin əldən çıxması qızılbaşlar üçün iqtisadi və siyasi gücün itirilməsi demək idi. Mərkəzi Asiyanın digər mühüm bölgələri olan Herat, Məşhəd, Mərv kimi ərazilər XVI əsr boyunca Qızılbaşların idarəçiliyinə olmuşdu. II Abdulla xan Qızılbaşların əlində olan bütün Mərkəzi Asiya vilayətlərini ələ keçirmək istəyirdi. Bir məsələni də qeyd edək ki, Səfəvi qızılbaş hərbi qüvvələrinin iki cəbhədə parçalanmasını təmin etmək məqsədilə Osmanlıların özbəklər ilə ittifaq yaratması və birgə hərbi hücumun təşkil edilməsi Azərbaycan Səfəvilər imperiyasının daha da tənəzzülünü təmin etdi. 1575-ci ildə Osmanlı sultanı III Murad (1574-1595) tərəfindən Şeybani hökmdarı Abdulla xana hərbi ləvazimatlar, silah-sursat, hətta əsgəri qüvvə ilə yardım etmişdi. Sünni dini birliyi olaraq Osmanlı-Şeybani ittifaqı kafir hesab edilən "şiə qızılbaşlara" qarşı yönəlmişdi. Əslində, dini bir mübarizə olmasa da hərbi münaqişə üçün əsas bəhanə verən dini ayrıseçkilik hərbi münaqişəyə yol açırdı. Bildiyimiz kimi, zəvvarlar üçün müqəddəs dini mərkəz olan Məşhəd şəhərində İmam Rzanın qəbri

yerləşirdi. Bu müqəddəs şəhərin şiə kafirlərdən azad edilməsi, Kiçik Asiyadan gedən möminlərə daha rahat və münasib şəraitin yaradılması əsas məqsəd olaraq göstərilir və bununla da həqiqi hərbi münaqişə din pərdəsi altında gizlədilirdi. Əgər dini cəhətdən müqəddəs hesab edilən şəhərin azad edilməsi əsas məram idisə, nəyə görə, şəhər ələ keçirildikdə dağıdılır və bununla da Qızılbaş Səfəvilərə ağır zərbə vurulur.

*Qızılbaş Səfəvi hökmdarı Şah I Abbasın Mərkəzi Asiya uğrunda mübarizəsi*. Gördüyümüz kimi, XVI əsrin 80-ci illərinin əvvəllərində hakimiyyət uğrunda Xorasan (şamlı, ustaclı) və Azərbaycan (təkəli, türkman) qruplaşması arasında kəskin mübarizə gedirdi. Qızılbaş əmirləri arasında birlik olmadığı üçün Səfəvi ordusu da Osmanlı qoşununa ciddi müqavimət göstərə bilmir, dövlətin mühüm vilayətləri bir-birinin ardınca işğal edilirdi. Belə bir vəziyyətdə hakimiyyətə iddialı olan Xorasan qruplaşması mərkəzi hakimiyyətə itaət etməkdən tamamilə boyun qaçırdı. Xorasan qruplaşmasına Herat hakimi Əliqulu xan Şamlı və Məşhəd hakimi Mürşüdqulu xan Ustaclı başçılıq edirdilər. Məhəmməd Xudabəndənin əmrilə Abbas Mirzənin lələsi təyin edilən Əliqulu xan Şamlı və Mürşüdqulu xan Ustaclı 1581-ci ildə Abbas Mirzəni şah elan edərək, Məhəmməd Xudabəndənin məmurlarının Xorasana daxil olmasının qarşısını aldılar [2, 28]. Xorasanı idarə edən qızılbaş sərkərdələrinin nümayəndəsinin – şahzadə Abbasın Səfəvi dövlətinin başçılığına gəlməsi Şeybanilərin vəziyyətini gərginləşdirir. Səfəvilərdəki qarışıqlıqdan istifadə edən Şeybanilər 1588-ci ildə Heratı ələ keçirsələr də, qızılbaşların kəskin müqaviməti ilə rastlaşırlar. Beləki, daha çox siyasi gücə malik olan Xorasan hakimləri şamlı və ustaclı tayfa başçılarına daha geniş səlahiyyətlər verdilər. Şah I Abbasın xarici siyasət istiqamətində əsas məqsədlərindən biri Xorasanın itirilmiş bölgələrinin geri qaytrarılması idi. Ordu quruculuğunda uğurlu islahatlar hesabına dövlətin hərbi qüdrətini artıran Qızılbaşlar qarşıya qoyulmuş məqsədə nail ola bildilər. 1598-ci ildə Abdulla xanın ölümü və bundan sonra Şeybanilər sülaləsində hakimiyyət uğrunda mübarizənin başlanması Mərkəzi Asiyada siyasi üstünlüyün Səfəvilərə keçməsinə səbəb oldu.

*Şeybani hökmdarı Əbdülmömin xan*. Abdulla xandan sonra hakimiyyətə oğlu Əbdülmömin xan keçir. 1582-ci ildən Bəlx hakimi olan Əbdülmömin xan 1598-ci ildən Buxara xanlığının hakimi və bütün özbəklərin hökmdarı elan edildi. Özbək xanı II Abdullanın yeganə varisi kimi Əbdülmömin özbəklər arasında böyük nüfuza malik idi. Əbdülmömin xan Teymurilərdən Badaşxan və Toxarıstanı da ələ keçirdir. Səfəvilərdə hakimiyyət uğrunda daxili çəkişmələr zamanı Bəlx hakimi olarkən Əbdülmömin qızılbaşlarla toqquşmuş, hətta müəyyən uğurlar da əldə edə bilmişdi. Taxta oturduqdan altı ay sonra Əbdülmömin xan atasının yaxın ətrafı tərəfindən sui-qəsd nəticəsində öldürülmüşdü. Lakin tez bir zamanda Mərkəzi Asiyada qüdrət və nüfuzunu bərpa edən Qızılbaş Səfəvilər özbəkləri geri çəkindirə bilirlər.

*Nəticə*. Şah I Abbas hakimiyyətə gələrkən qarşısına qoyduğu əsas məqsədlərdən biri Xorasanı yenidən Səfəviyyə imperiyasına birləşdirmək idi. Səfəvilərin XVI əsrin 70-ci illərində durğunluq yaşamasından istifadə edən qonşu dövlətlər imperiyanın ərazisi hesab edilən bir sıra vilayətləri ələ keçirmək istədilər. Qərbdən Osmanlılar, şərqdən isə Şeybanilər Səfəvi torpaqlarının ələ keçirilməsində maraqlı idilər, hətta hərbi ittifaq da yaradaraq birgə çıxış etmişdilər. Qızılbaş Səfəvi imperiyasının Şah I Abbas dövründə güclənməsi və əvvəlki nüfuzunu qaytarmaq uğrunda uğurlu siyasəti siyasi arenada öz müsbət nəticəsini verdi. Ordu və hərbi istiqamətdə aparılan islahatlar nəticəsində Qızılbaş Səfəvilər kifayət qədər güclənmiş və Şeybanilər ilə aparılan siyasi mübarizədə Xorasanı, eləcə də Mərkəzi Asiyada itirilmiş bir sıra bölgələri geri qaytara bilmişdilər. Şeybani hökmdarları II Abdulla və onun oğlu Əbdülmömin xanın dövründə Səfəvilərə qarşı bir sıra uğurlu addımlar atılsa da, nəticədə Səfəvilər qarşılarına qoyduqları məqsədə çata bilmişdilər.

## ƏDƏBİYYAT

1. Ağayev R.Ə. Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər). Bakı, Kür, 2004, 151 s.
2. Aşurbəyli S. Şirvanşahlar dövləti. Ruscadan tərcümə edəni Azər Bağırov. Bakı: Avrasiya Press, 2006, 416 s.

3. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinə qədər). Dosent M.Q. Abdullayevin elmi redaktəsi ilə. Bakı, Bakı Universiteti nəşriyyatı, 2014, 391 s.
4. Azərbaycan tarixi üzrə qaynaqlar. Professor S.S.Əliyarlı və dosent Y.M.Mahmudovun redaktəsi ilə. Bakı, Azərbaycan Universiteti, 1989, 328 s.
5. Azərbaycan tarixi. 7 cilddə, III cild. Bakı, Elm, 1999, 584 s.
6. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Redaktor: Süleyman Əliyarlı. Bakı, Azərbaycan, 1996, 872 s.
7. Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri. Azərbaycan dilinə çevirənlər akademik Z.M.Bünyadov və tarix elmləri namizədi N.R.Ağayeva, Bakı: Elm, 1999, 160 s.
8. Əfəndiyev O.A. Azərbaycan Səfəvilər dövləti. Bakı, Şərq-Qərb, 2007, 344 s.
9. Арапов Д.Ю. Из истории взаимоотношений Средней Азии и Ирана в конце века // Вестник Московского Университета. вып. 1, Москва, Московский Университет, 1969, с.68-81.
10. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку, Элм, 1981, 237 с.

**АЙСЕЛЬ КАРИБОВА**
*Доктор философии по истории,*
*преподаватель Бакинского Государственного Университета*

## СЕФЕВИДО-ШЕЙБАНИДСКИЕ ОТНОШЕНИЯ В ВТОРОЙ ПОЛОВИНЕ XVI ВЕКА

Во время правления Абдуллы II за Хорасан шла борьба между Шейбани и Сефевидами. Абдулмомин хан, пришедший к власти после него, был убит близким окружением отца. Однако кизилбашские Сефевиды, вскоре восстановившие власть и престиж в Средней Азии, смогли победить узбеков. Таким образом, когда к власти пришел шах Аббас I, он смог воссоединить Хорасан с империей Сефевидов, что было одной из его главных целей.

*Ключевые слова:* Сефевиды, Шейбаниды, XVI век, Центральная Азия, Хорасан, Абдулла II.

**AYSEL GARİBOVA**
*Phd, Lecturer of Baku State University*

## SAFAVİD-SHEYBANİDS RELATİONS IN THE SECOND HALF OF THE XVI CENTURY

During the reign of Abdullah II, there was a struggle for Khorasan between Sheibani and the Safavids. Abdulmomin Khan, who came to power after him, was killed by his father's close circle. However, the Kizilbash Safavids, who soon restored power and prestige in Central Asia, were able to defeat the Uzbeks. Thus, when Shah Abbas I came to power, he was able to annex Khorasan with the Safavid empire, which was one of his main goals.

*Keywords:* Safavids, Sheibanids, XVI century, Central Asia, Khorasan, Abdullah II.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 oktyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Mehman Abdullayev, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24)**

**LƏMAN ƏSƏDZADƏ**

*Bakı Dövlət Universitetinin II kurs magistrantı*
**asadzadehl@mail.ru**

# ALBAN ƏLİFBASI
# WOLFGANG SCHULZE VE JOSH GİPPERTİN TƏDQİQATLARINDA

*Məqalədə Qafqaz Albaniyasının əlifbası ilə bağlı müasir tədqiqatlara nəzər salınmaqla alman alimləri W.Schulze və J.Gippert yaradıcılığına konseptual yanaşılmış, Alban əlifbasının tədqiqatının aktuallığı, dövrümüzə qədər məlum olan nüsxələrin xronoloji ardıcıllıqla tarixi əks olunmuşdur. Məqalədə eyni zamanda Alban əlifbasının leksik, qrammatik quruluşu ilə bağlı məsələlər işıqlandırılmışdır. Alban əlifbasının deşifrə olunması, əlifbanın Azərbaycan xalqının əcdadlarından qalan qədim maddi və mənəvi irsi olması problemi qabardırılmışdır. Müəllif dövrün müasir və tədqiqata cəlb olunmayan tarixşünaslıq əsərlərinə muraciət etmişdir.*

*Açar sözlər*: Qafqaz Albaniyası, Alban əlifbası, Matenadaran, Sinay palimpsetsləri.

*Giriş*. Albaniya dövləti Azərbaycan tarixinin qədim dövlətçilik ənənələrinin ilk nümunələrindən biridir. Bu dövlət, ərazisində yaşayan xalqlar, bu xalqlardan miras qalan maddi və mənəvi mədəniyyət nümunələri hələ XIX əsrdən tədqiqatçıların diqqətini cəlb etmiş, araşdırılmağa başlanılmışdır. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qalibiyyət və otuz ilə yaxın işğal altında olmuş ərazilərimizin azad edilməsi Albaniya dövlətinin müasir dövrdə tədqiqata yenidən cəlb olunmasını bir daha aktuallaşdırdı. Xüsusilə də, Albaniyanın maddi mədəniyyəti və bu mədəniyyətin memarı olan xalqın etnik mənsubiyyəti məsələsi tarixçilərin diqqətini cəlb etməyə başladı. Mədəniyyətin bir parçası olan dil və əlifba məsələsi də tədqiqatlardan kənarda qalmamış, son dövrlərdə Alban mətnlərinin oxunmasına cəhdlər və bu istiqamətdə əldə olunan nailiyyətlər Alban əlifbasının mövcudluğu ilə bağlı həm Avropa tarixşünaslığında, həm də Vətən tarixşünaslığında olan mübahisəli fikirləri aydınlaşdırmaq üçün əhəmiyyətli addımlar olmuşdur. Alban əlifbasının oxunması istiqamətində işlər əsasən əlifbanın aşkar edilmiş əsas variantları üzərində aparılır. Alban əlifbasının bizə məlum olan qədim nüsxələri coğrafi ariala görə 3 qrupa bölünür:

1. *Matenadaran (erməni dərsliyində aşkar edilmiş yazılar);*
2. *Mingəçevir (S.Qazıyev tərəfindən tapılan 2 ədəd şamdan və lövhə üzərində olan Alban mətnləri);*
3. *Sinayda, Ketrin monastrı ( Monastrdakı palimpsetslərdəki albanca xristian mətnləri).*

Alban əlifbasının nüsxələrinin monastr və müqəddəs ərazilərdən tapılması onların Qafqaz regionunda əhəmiyyətli gücə malik olduqlarını təsdiqləyir. Bunun üçün nüsxələrin aşkar edilmə tarixlərinə xronoloji olaraq nəzər salaq. Alban əlifbasının mövcudluğu və ilk alban hərflərinin tapılması İliya Abuladzenin adı ilə bağlı olsa da, əlifbanı ilk dəfə 1924-cü ildə erməni alimi Nerses Akinyan erməni dərsliyinin birində aşkar etmişdir. Akinyan Alban əlifbasını nəşr etdirmək və dünyanı bu yeni tapıntı ilə tanış etdirmək istəsə də, onun müəllimi Mseriants bununla razılaşmır və əlyazma onun ölümündən sonra Matenadarana göndərilir. Görünür ki, alimlər qədim mənbələrdəki məlumatlara əsaslanaraq, uzun müddət Alban yazılarının axtarışında olmuşlar.

1937-ci ildə İliya Abuladze Matenadaranda 52 hərfdən (42 samit, 10 sait olmaqla) ibarət Alban yazılarını tapır. Akaki Şanidze tapılan Alban yazılarını incələyərək ilk 10 səsini deşifrə edir. O, yazıların həqiqətən də Alban əlifbası ilə yazıldığını təsdiqləmiş və fonetik quruluşunun Udin dili ilə oxşarlığını bildirmişdir. Ter-Qriqoryan Matenadaran (7117) nəşrlərinin iki nüsxəsi üzərində çalışmışdır. Erməni alimi Hıraçya Acaryan Alban yazılarının aşkar edildiyi ilin sentyabrın 28-də əlifbaya şübhə ilə yanaşan erməni alimlərini qınayaraq tapılan yazıların axtarılan Alban hərfləri olduğunu təsdiqləmişdir.

1948-ci ildə arxeoloq Saleh Qazıyev Mingəçevirdə Sudağılan adlı yerdə məbədin otaqlarının birində üzərində alban hərfləri olan xaç daşı və şamdamlar aşkar etmişdir. Lövhənin hündürlüyü 5-5,5 sm-dir. Şamdamlar 21 hərfdən və 4 sətrlik yazıdan ibarətdir. Abramyan dəfələrlə yazıları oxumağa cəhd etsə də, əlifbanı tam olaraq deşifrə etməyə nail ola bilməmişdir.

1975-ci ildə Sinay yarımadasının Ketrin monastırında Zaza Aleksidze ve onun ekspedisiyası tərəfindən ümümi olaraq 230-dan çox əlyazma, 1600-dan çox fraqment aşkar edilmişdir. Monastırdakı palimpsetslərdə əvvəlcədən yazılmış, daha sonralar isə silinmiş Alban yazıları aşkar edilmişdir. Palimpsets, əvvəlki bir mətnin silindiyi və məxmərin və ya perqamentin başqası üçün yenidən istifadə edildiyi bir əlyazmadır. Yeni bir mətnə hazırlamaq üçün əlyazmanı yumaq və ya qırmaqla əvvəllər yazılmış bir əsərin silinməsi, xüsusən də orta əsr kilsə dairələrində adi bir tətbiq idi. Palimpsest hazırlamağın motivi əsasən iqtisadi idi və perqamentin yenidən istifadəsi yeni dəri hazırlamaqdan daha ucuz idi. Adətən köhnə yazılarla daha çox maraqlanan müasir tarixçilər, silinmiş mətni bərpa etmək üçün infraqırmızı və rəqəmsal təkmilləşdirmə üsullarından istifadə edir. Alban yazılarının aşkar olunmasında da, infraqırmızı işıqlardan istifadə olunub. Qeyd etmək lazımdır ki, Həvari Pavelin Müqəddəs Kitab təlimlərinə istinad edən "Thesalonike" sözü deşifrə olunan ilk sözdür.

Ketrin monastırında tapılan əlyazmaların hərtərəfli tədqiqatı üçün 1990, 1994-cü illin noyabr-dekabr aylarında 3 ekspedisiya təşkil olunub. Zaza Aleksidzeyə görə, monastrın hücümlara və dağıntılara məruz qalmaması qədim əlyazmaların qorunmasında faydalı olmuşdur. Zaza Aleksidze əlifba haqqında deyir: 'Qafqaz Alban dili, əsasən indiki Azərbaycanda yaşayan Udin xalqının danışdığı dilin əcdadı olaraq təyin edilmişdir. Əlifba eramızın V əsrindən qədimə aiddir. Bu əlifbanın kim tərəfindən yaradıldığı bilinmir, baxmayaraq ki, qədim erməni mənbələrində Maştots (5 -ci əsr) nəzərdə tutulur' [1, s.1].

Alban yazılarının Qafqaz ərazisində deyil, Sinay yarımadasında tapılması uzun müddət linqivist və tarixçi alimləri düşündürmüşdür. Zaza Aleksidze Sinay yarımadasında Alban hərflərinin tapılmasını iki cür izah edir:

1. *Alban kilsəsi monofizitliyə keçməsindən sonra əlyazma Gürcüstana göndərilir. Oxucularını itirən mətinlər sonralar Sinaydakı Ketrin monastrına bağışlanılır;*
2. *Alban kilsəsi monofizitliyə keçəndən sonra əlyazmalar Qüdsdəki Fələstin monastırına, sonra müqəddəs Sava monastrına və nəhayət Sinaya aparılır.*

Həmin yazıların tədqiq edən alman alimi Gosh Gippert Ketrin monastırında tapılan palimsetlərdə şaquli şəkildə yazılan və Mingəçevirdə tapılan şamdan üzərindəki yazıları bərpa edərək, Alban əlifbasını oxuyur və əlifbaya uyğun **UNİCODE (U+10530-1056F)** sistem yaradır.

Avropa tarixşünaslığında Alban əlifbasının mənşəyi, tarixi, alban dilinin fonetik və leksik quruluşu müxtəlif alimlər tərəfindən araşdırılır. Bu tədqiqatçılardan Wolfgang Schulze , Gosh Gippert, Werner Seibt, Jan Pyer Mahe, Roman Lolua, Gilles Auther kimi alimləri misal göstərə bilərik. Bunlar arasında alman alimləri W. Schulze və G. Gippert Qafqaz dilləri üzərində geniş tədqiqatları ilə seçilirlər. Məqsədimiz alman alimlərinin Qafqaz Albaniyası əlifbasına konseptual olaraq yanaşmalarını müəyyən etmək və əldə olunan yeni nailiyyətləri işıqlandırmaqdır.

Schulze ümumi dilçilik, ümumi və xüsusi qrammatika nəzəriyyəsi, tipologiyasının çoxsaylı sahələrindən əlavə olaraq, Qafqaz dilləri və Qafqaz Albaniyasının dili ilə də məşğul olmuşdur. Wolfgang Schulze, Gosh Gippert, Jan Pyer Mahe, Aleksidze 2008-ci ildə *'The Caucasian Albanian palimpsests of Mount Sinai'* əsəri Alban əlifbasının deşifrə edilməsi, dilin mənşəyi məsələlərinə toxunulması baxımdan çox əhəmiyyətli əsərdir. Schulze Alban dilini üç əsas dialektə ayırır:

1. *Şərq dialekti; bu dialektə Qəbələ, Kiş ərazisində yaşayan albanlar aid edilir;*
2. *Mərkəz dialekti; bura Bərdə, Mingəçevirdə tapılan yazılar aiddir;*
3. *Qərb dialekti; Girdman və Xalxal bölgələri aid edilir.*

Wolfgang Schulzenin *'The Caucasian Albanian and the question of language and ethnicity', 'Some remarks on the Caucasian Albanian palimpsests'(with J. Gippert), 'From Caucasian Albanian*

*to Udi',* kimi irihəcmli məqalələrində alban dilinin leksikası və fonoloji quruluşu haqqında məlumat verir. Schulze görə, alban yazılarının tapılması linqivistika və Qafqazda mövcud olmuş qədim dillərin tədqiqatı üçün yeni işıq olmuşdur. Palimpsetslər üzərində araşdırmalar aparan alman alimi belə qənaətə gəlir ki, indiki Udin dili Alban dili ilə eyni nəsildəndir. Schulze, Alban dilinin qrammatik və leksik aspektən qədim erməni (OA) və gürcü dilindən fərqləndirərək Udin dilinə daha çox yaxın olduğunu bildirir və Alban dilini Old Udi, yəni qədim Udin dili adlandırır. Palimpsetslərdə istifadə olunan qaynaqların 52% Udin dili, 12,8% Şərqi Qafqaz dillərinin leksikası ilə əlaqələndirilir.

Qeyd edim ki, Schulze Qafqaz dil ailəsi və Qafqazda tarixən mövcud olmuş qədim dillərlə geniş maraqlandığı üçün Alban dilini Udin dili ilə eyni nəslə aid edir. O, Udin dilini iki əsas dialektə ayırır; birincisi Proto-Nic, ikincisi Oğuz dialektləridir. Schulze 510-cu ildən Albaniyada yazışmalar fars dillində aparılsa da, danışıq zamanı hansı dildən istifadə olunduğunu dəqiq müəyyən edə bilmir. Artıq orta əsrlərdə güclü alban etniki formalaşsa da, palimpsetslərdə alban etniki ilə bağlı məlumat yoxdur.

O, Alban dilində işlənmiş alınma sözləri 3 formada qruplaşdırır:

1. *Müasir Udində itirilmiş ləzgi ifadələrinin qorunması;*
2. *Qədim Qafqaz dillərində işlənmiş ortaq sözlər;*
3. *Tərcümələrdə istifadə olunan kilsə terminləri* [5, s.202].

*'The Caucasian Albanian and the question of language and ethnicity'* məqaləsinin əvvəlində albanlar haqqında məlumat verən qədim mənbələrə, Strabon, Plini, Kilikiya tarixçisi Hetuma, Koryuna istinadlar edərək alban əlifbasının tarixi, albanların etnik mənşəyini araşdırır. Məqalə beş hissədən ibarətdir; 1) *Giriş (İntroduction), 2) Albanlar, Udinlər və Qarqarlar (Albanians, Udis and Gargarians), 3) Alban xalqı, etnik və dil (Ethinicity, language and the people of Albania), 4) Qafqaz Albanları 'Alban' etniki üçün işarədirmi? (Caucasian Albanians as a maker of Albania ethnicity), 5) Nəticə (Summery).* Schulze 'Aluank' sözünün mənşəyini iki ehtimalla izah etməyə çalışır; Birincisi, sözün sonundakı k hərfi cəmlik bildirərək, sözün ermənicədə 'xoşxasiyyətli insanlar ölkəsi' mənasına gəlməsi ehtimalıdır, ikincisi isə farsca ifadə olan Arran sözünə zaman keçdikcə -ard, -ald sözləri daxil olmuş və ifadə Aluan kimi formalaşmışdır. Bu da 'yüksək, uca, dik' mənasındadır [2, s.288]. Schulze şəxsi interpretasiyasını əlavə edərək və Stabonun verdiyi məlumatlara dayanaraq ikinci ehtimalı daha çox inandırıcı qəbul edir. O, Qafqaz ərazisində Alban dilini əsas dominant danışıq dili kimi qəbul edir. Bu isə Albanların həm siyasi, həm də Qafqazdakı etnik gücünü göstərir. Mingəçevir tapıntıları Alban dilinin siyasi yerlərlə yanaşı, kilsənin dili olmasını təsdiqləmişdir. Schulze ehtimal edir ki, alban dili mənşəcə fars olanların da dili olmuşdur.

Qafqazın qədim dilləri üzərində geniş tədqiqat aparan alman alimi Gosh Gippertin Alban əlifbası ilə bağlı onlarla *('Albano-Iranica', 'The linguistic background of Caucasian Albanian literacy', 'The script of the Caucasian Albanians in the light of the Sinai palimpsests', 'Fragments of St. John's Gospel in the language of the Caucasians Albanians' və s.*) məqalələri vardır. Gippert 1987-ci ildə TITUS (Hind-Avropa Mətnləri və Dillərinin Tezaurusu) layihəsini yaratmış və hal-hazırda da onun lideridir. Layihənin əsas məqsədi Hind-Avropa və digər dillərdə yazılmış materialların tam rəqəmsal formada hazırlanmasıdır. O, 1999-cu ildə Qafqaz dillərində hərtərəfli material toplamaq məqsədi daşıyan ARMAZI (Qafqaz Dilləri və Mədəniyyətləri: Elektron Sənədlər) layihəsinə başladı.

Josh Gippertin Alban yazılarının oxunmasında böyük nailiyyətlər əldə etmişdir. Əlifbanın ilk 11 hərflərini 1940 və 1950-ci illərdə Şanidze, 1964-cü ildə Abramyan 1980 və 1981-ci illərdə Muravyev adlandırmışdır. Gippert əsərlərində palimpsetsləin tapılması Alban hərflərinin deşifrə edilməsini asanlaşdırdı. O, Sinay yarımadasında tapılan müqəddəs mətnlər haqqında məlumat verir; '*Palimpsetslərdə altı fərqli orginal əlyazma vardır. Bu əlyazmalardan ikisi alban, ikisi erməni, biri arami, digəri isə gürcü qrafikası ilə yazılıb. Alban yazılarından biri yaxşı qorunmuş və onu bərpa etmək, həmçinin oxumaq mümkün olmuşdur. Digərini isə oxumaq daha qəlizdir*'.

Gippert tərəfindən deşifrə olunan birinci alban mətnlərinin məzmununu John Gospelin məktubları, yəni İncildən tərcümə edilmiş müqəddəs mətnlər təşkil edir. Yazılan mətnlər əsasən Matta, Markos və Luka məktublarından fraqmentlərdir. Birinci Alban mətinlərində yazılan İncilin ayələri

Gippert tərəfindən təyin olunmuş və İncilə uyğun olaraq, nömrələnmişdir. Mətinlər Gippertin qeyd etdiyi kimi qədim Yunan mətinlərindən strukturuna görə fərqlənir. Müqəddəs şəxslərin adları sonda yazılmışdır. Yazılar *Qafqazda İncilin tərcüməsinin ən qədim formalarından biridir.*

Alban mətnlərinin leksikasını tədqiq edən Gippert albancada çox az sayda fars dilindən gələn alınma sözlər aşkar etmişdir. Bunu alim fars mənşəli sülalə Sasanilərin uzun müddət Qafqazdakı siyasi gücü ilə əlaqələndirir.

Gippert Alban əlifbası üzərindəki araşdırmalarında qeyd edir ki, Alban dilinin leksikasındakı bəzi ifadələr qonşu dillərdə də istifadə olunmuşdur. O belə nəticəyə gəlir ki, alban dilinin fonetik və morfoloji quruluşu digər Qafqaz dillərindən yəni, müasir erməni və qədim gürcü dilindən tamamilə fərqlənir. Bu dilin leksikası daha çox Udin dilinə yaxındır. O, Alban dilini də, udin dili kimi Nax-Dağıstan dil ailəsinin ləzgi qoluna aiddir. Schulze da Gippertin fikirləri bu aspektən bir-biri ilə ox-şarlıq təşkil edir.

*Nəticə.* Alman alimlərinin Alban dilinə, həmçinin Azərbaycan tarixinə böyük maraqla yanaş-maları sevindirici hal olsa da, Alban əlifbası ilə bağlı məsələlərdə xarici təsirlərin olduğu açıq-aşkar hiss olunur. Alban əlifbasının Azərbaycan tarixində hərtərəfli olaraq tədqiqata cəlb olunması bu baxı-mından vacib məsələdir. Qafqaz Albaniyasının tarixi və əlifbası Azərbaycan xalqının mənəvi sərvə-tidir. Əlifbanın tarixinin dərindən araşdırılması Azərbaycanlıların əcdadı olan albanların Qafqazın qədim sakinləri olması fikrini bir daha təsdiqləmiş olacaqdır. Təəssüf ki, xalqımıza qarşı planlanmış etnik təmizləmə siyasəti milli mədəni abidələrimizə qarşı da olmuşdur. Bu səbəbdən Cənubi Qafqaz ərazisində aparılan arxeoloji qazıntılar zamanı bizə yalnız Saleh Qazıyevin Mingəçevirdə tapdığı maddi nümunələr məlumdur. Mövcud olmuş albanca əlyazmalar isə ermənilər tərəfindən yandırılmış və məhv olunmuşdur. Hal-hazırda Avropa alimləri qədim Qafqaz dilləri və yeni mətnlərin tapılması yönündəki axtarışlarını davam etdirirlər. Alban əlifbasının nüsxələrinin tapılması albanların qədim yazı mədəniyyətinin əsas nümunəsidir. Bu bir daha sübut edir ki, azərbaycanlılar Qafqazın yerli mədəniyyətə və siyasi gücə malik olmuş əhalisidir. A.Klimov 1984-cü ildə yazdığı ensiklopediyasın-da bildirir: “Yeni tapıntılar təkcə Qafqazda deyil, Xristian Şərqinin tarixi mərkəzlərində ola bilər”.

Umid edirik ki, tezliklə yeni Alban mətnləri tapılacaq və əlifba tarixi ilə bağlı məsələlər öz həllini taparaq Azərbaycanın qaranlıq tarixlərinə işıq salacaqdır.

## ƏDƏBİYYAT

1. Aleksidze Z., Blair.B. ‘Caucasian Albanian script’// Journal "Azerbaijan International": August, 2003 (1 1.3), P.43.
2. J.Gippert, W.Schulze, Z.Aleksidze, J.Pyer Mahe-The Caucasian Albanian Palimpsets of Mount Sinai, Prebols Publisher, 2008, 208 s.
3. J. Gippert, W. Schulze, Some remarks on the Caucasian Albanian palimpsests // Iran and the Caucasus, 2007, №11, p.201-212.
4. J. Gippert, Relative Clauses in Vartashen Udi Preliminary Remarks’// Iran and Caucasus, 2011, № 15, p.207-230.
5. J. Gippert, Fragments of St. John’s Gospel in the language of the Caucasian Albanians// Textual Research on the Psalms and Gospelm/ The Tbilisi Colloquim on the Editing and History of Biblical Manuscripts, Boston: Brill 2012, p.237-244.
6. J. Gippert, The scripts of the Caucasian Albanians in the light of the Sinai palimpsest. Frankfurt, Prebols Publisher, 2012, p.39-50.
7. Qazıyev S.M. Mingəçevirdə Alban yazısı // Azərbaycan SSR Elmlər Akademiyasının hesabatları, 1948, № 9, s.45.
8. Wolfgang Schulze, ‘From Caucasian Albanian to Udi’ // Iran and Caucasus, 2015, № 19, p.149-177.
9. Wolfgang Schulze, Caucasian Albanian and the Question of Language and Ethnicity, Sprachen, Völker und Phantome; Sprach- und kulturwissenschaftliche Studien zur Etnizitat, De Gruyter, 2018, p.275-312.

10. W. Seibt, The Creation of Caucasian Alphabets as Phenomenon of Cultural History. Vienna publisher, 2011, p.132.

**ЛЯМАН АСАДЗАДЕ**
*2-й курс магистратуры Бакинского Государственного Университета*

## АЛБАНСКИЙ АЛФАВИТ В ИССЛЕДОВАНИЯХ ВОЛЬФГАНГА ШУЛЬЦЕ И ДЖОША ГИППЕРТА

В статье рассматриваются современные исследования кавказского албанского алфавита. Здесь концептуально рассмотрены работы немецких ученых В.Шульце и Я.Гипперта, отражена актуальность изучения албанского алфавита, история известных копий в хронологическом порядке. В статье рассматриваются вопросы, связанные с лексико-грамматическим строением албанского алфавита. Проблема расшифровки албанского алфавита, того факта, что алфавит является древним материальным и духовным наследием предков азербайджанского народа, преувеличивалась. Автор обращается к современным и неизведанным историческим произведениям того периода.

*Ключевые слова*: Кавказская Албания, Албанский алфавит, Матенадаран, Синайские палимпсеты.

**LAMAN ASADZADEH**
*2nd year master's degree of Baku State University*

## THE ALBANIAN ALPHABET IN THE RESEARCH OF WOLFGANG SCHULZE AND JOSH GIPPERT

The articles is investigated problems which are related to the Caucasian Albanian alphabet. Here, the investigations of German scientists W.Schulze and J.Gippert were conceptually approached, the relevance of the study of the Albanian alphabet, the alphabet of the known copies in chronological order are reflected. This article is explored issues which are related to the lexical and grammatical structure of the Albanian alphabet. The problem of deciphering the Albanian alphabet, the alphabet is spiritual heritage of the ancestors of the Azerbaijani people was emphasized. The author referred to modern and unexplored historiography of the problem.

*Keywords*: Caucasian Albanian, Albanian alphabet, Matenadaran, Sinai palimpsets.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 3 noyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Ellada Bakirova, t.e.d. Qabil Əliyev.*

**UOT 94**

**НАИДА ГАДЖИНСКАЯ**

*Доктор философии по истории, доцент*
*Азербайджанский Государственный Педагогический университет*
**n.hajinskaya@gmail.com**

# НЕКОТОРЫЕ ВОПРОСЫ ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ ЖАНА БАТИСТА КОЛЬБЕРА ВО ФРАНЦИИ

*В статье рассматриваются некоторые вопросы экономической политики Ж.Б.Кольбера, являвшегося министром финансов в правительстве короля Франции Людовика XIV. Ж.Б. Кольбер последовательно проводил политику меркантилизма, основанную на преобладающем развитии национальной промышленности и торговли, установлении высоких импортных пошлин, субсидировании национальных производителей, увеличении поступлений в госбюджет и усилении национальной безопасности. Благодаря осуществлению политики Ж.Б.Кольбера Франция для многих стран стала серьезной соперницей в вопросах торговли и промышленности, в колониальных делах. Именно в этот период начинается англо-французское противостояние в борьбе за торгово-колониальное преобладание. Заслугой Ж.Б.Кольбера, следует считать создание большого торгового и военного флота, основание монопольных, привилегированных торговых компаний, приобретение первых колоний.*

*Ключевые слова*: Франция, XVII век, Ж.Б.Кольбер, экономическая политика, меркантилизм, акционерные компании, первые колонии.

*Введение.* Вторая половина XVII века была эпохой величайшего переворота для Франции. Старая, давняя борьба консервативных феодальных сил с монархией окончилась полной победой в пользу абсолютной власти. С окончанием феодальной эпохи французская монархия стала искать опоры в людях нового поколения, чуждых по своему происхождению, духу и материальному состоянию той родовой аристократии, которая продолжала жить в роскоши и увеселениях. Чтобы противопоставить ей другую силу, не имевшую ничего общего с предрассудками и интересами феодального периода, короли приближали к себе либо иностранцев, которые были чужаками в этой стране и далекими от реалий ее повседневной жизни, либо людей среднего сословия. В этом отношении Жан Батист Кольбер стал, действительно, тем нужным человеком для короля Людовика XIV, который смог поднять Францию до уровня первостепенной державы. Умный, ревностный, добросовестный, не любивший ни роскоши, ни аристократического образа жизни, он в полной мере отвечал надеждам Людовика XIV.

После смерти в 1661 г. кардинала Мазарини, являвшегося первым министром короля и, фактически, негласным правителем Франции, на престол вступил король Людовик XIV, которому на тот момент исполнилось 22 года. Мазарини, являясь фаворитом матери короля Анны Австрийской, своим авторитетом и энергией постоянно подавлял молодого и неопытного Людовика XIV. При нем будущий король принимал лишь небольшое участие в государственных и военных делах. После смерти всесильного Мазарини Людовик XIV сразу вышел на передний план и в течение 54 лет самостоятельно правил Францией (14).

Главной задачей внутренней политики Людовика XIV на всем протяжении его правления было осуществление программы централизованной диктатуры. Можно сказать, что абсолютизм и экономическая политика Франции получили свою завершенную форму и окончательно определились именно при Людовике XIV.

Следует отметить, что идея экономических реформ, связанных с перестройкой общества в интересах государства, появилась в Западной Европе довольно поздно, в XVII в. Безусловно, каждый монарх в интересах своей страны должен был проводить определенную экономическую политику, чтобы обеспечить ее торгово-промышленное развитие, финансовое благополу-

чие и международный престиж. Но чтобы эта политика оказалась связанной с идеей осуществления широких реформ, требовался ряд условий (13, с.97).

В этом смысле важное, значение имела деятельность Ж.Б.Кольбера, занимавшего должность генерального контролера (министра финансов) Франции в правительстве Людовика XIV. Являясь инициатором осуществления широкой программы экономических реформ, сторонником роста могущества Франции, Кольбер последовательно проводил политику меркантилизма, основанную на преобладающем развитии национальной промышленности и торговли, установлении высоких импортных пошлин, субсидировании национальных производителей, увеличении поступлений в госбюджет и усилении национальной безопасности. Можно с уверенностью констатировать, что, именно с этого времени Франция становится для многих стран серьезной соперницей в вопросах торговли и промышленности, в колониальных делах. Этим и объясняется начало англо-французского противостояния в борьбе за торгово-колониальное преобладание, рынки сбыта и источники сырья (15).

Несмотря на стремление Людовика XIV править единолично, он все же последовал совету Мазарини, который рекомендовал Кольбера на должность генерального контролера финансов. Давая небольшую биографическую справку о Жане Батисте Кольбере, следует отметить, что происходил он из богатой купеческой семьи города Реймса. Поступив на государственную службу, Кольбер в скором времени обратил на себя внимание кардинала Мазарини, назначившего его управляющим своего хозяйства. Видя, с каким рвением и изобретательностью молодой Кольбер работал на своего хозяина, Мазарини перед смертью рекомендовал его Людовику XIV. В течение 20 с лишним лет (1661-1683), являвшихся периодом расцвета французского абсолютизма, Ж.Б.Кольбер жестко определял экономическую политику Франции, ускорив ее торгово-промышленное развитие (13, с.101). Фактически, встав во главе финансов, он сосредоточил в своих руках управление делами торговли, промышленности, путей сообщения, флота, а также ведал внутренними делами и внешней политикой государства.

В исторической литературе часто можно встретить тезис о том, что «Кольбер являлся верным слугой французского абсолютизма и всячески способствовал его укреплению». С этим невозможно не согласиться, учитывая тот факт, что, действительно, абсолютная монархия при Ж.Б.Кольбере достигла пика своего подъема и могущества, и только после его смерти начала ослабевать, постепенно превращаясь в тормоз дальнейшего развития производительных сил страны (16, с.143).

Известный историк XIX века Благосветлов Г.Е. оставил интересные сведения о деятельности Ж.Б.Кольбера на государственный службе. Находясь в подчинении у могущественного короля Людовика XIV, он в тоже время, во имя государственных интересов в деле достижения величия Франции, становился суровым и принципиальным критиком тех, кто подвергал сомнению его реформаторские идеи или допускал расточительство.

В качестве примера достаточно привести интересный факт из жизни Кольбера, когда он, отодвинув на второй план свое подчиненное положение и личные отношения, смело высказал королю горькую правду. Как известно, с 1661 г. под руководством Людовика XIV велось строительство дворца в Версале, ставшего своеобразным памятником эпохи «короля-солнца», художественно-архитектурным олицетворением идеи французского абсолютизма. Параллельно с этим, Версаль стал символом неумеренных и нерациональных государственных расходов, в связи с чем, Кольбер в своем послании Людовику XIV написал следующее: "Я объявляю вам, государь, что бесполезный обед в тысячу ливров необычайно оскорбляет меня (имелся в виду обед стоимостью 1000 ливров в Версале). Если бы нужны были миллионы по делу Польши, я продал бы все свое имение, заложил бы жену и детей и всю жизнь ходил бы пешком, чтобы только удовлетворить эту нужду». Известна также критика Кольбера по поводу бездумной траты денег королем на увеселения, покупку дорогих лошадей за границей: «Государь не должен забывать, что он утроил расходы по своим конюшням... Если вникнете, вы увидите, что ливреи, содержание людей и лошадей, жалованье и покупки -- все это с каждым годом увеличивается на 200.000 ливров. Прибавьте к этому игры свои и королевы, праздники, обеды и чрезвычайные балы, вы найдете, что по этому предмету истрачивается более 300.000

ливров. Ваши предшественники никогда не имели таких расходов, и они вовсе не составляют необходимости" (1).

Таким языком в официальных рапортах с Людовиком XIV не смел говорить никто. Решительный, гордый, самоуверенный тон Ж.Б. Кольбера ставил его в исключительное положение, заставляя окружающих людей считаться с его мнением и авторитетом.

Ж.Б.Кольбер стремился к возвышению Франции, превращению ее в великую державу, всестороннему развитию национальной промышленности, торговли, экономическому усилению буржуазии в рамках абсолютной монархии. Однако, результаты его деятельности в области экономических реформ не всегда соответствовали потраченным с его стороны усилиям. В условиях дворянско-абсолютистской Франции поставленные задачи были полны противоречий и, к сожалению, могли быть осуществлены только частично. Но и то немногое, что Кольберу все же удалось сделать для торгово-промышленного развития страны и ее экономического расцвета во второй половине XVII в., в период наивысшего подъема французского абсолютизма, заслуживает высокой оценки, пристального внимания со стороны историков и экономистов. Более того, его деятельность и проводимые реформы вызывали повышенный интерес у сторонников абсолютизма в соседних странах, которые готовы были позаимствовать и применить на практике у себя в странах многие черты экономической политики Кольбера (2, с.128).

Как известно, Франция, еще со средневековой эпохи, являлась типично аграрной страной с преобладающей численностью сельского населения, поэтому интересы деревни всегда занимали здесь главенствующее положение. Для Франции характерными были постоянные колебания покровительственной политики то в отношении промышленности, то в отношении сельского хозяйства. В отличие от других стран Европы, во Франции четко утвердилось мнение о том, что покровительство одной отрасли хозяйства может совершаться не иначе, как за счет другой. Исходя из этого, во Франции сформировались две противоположные экономические системы: с одной стороны, меркантилизм с четкой ориентацией на торгово-промышленное развитие страны, с другой - земледельческая система, поощряющая аграрное развитие страны. Например, при первых Бурбонах проводилась исключительно политика защиты интересов деревни. В свете сказанного, известны высказывания короля Франции Генриха XIV Бурбона о том, что "каждый крестьянин должен иметь по воскресеньям в своем супе курицу", и главы французского правительства Генриха IV, министра финансов М.Б.Сюлли о том, что "земледелие и скотоводство являются для государства двумя сосцами, и они вполне заменяют рудники Перу" (6, с.188).

В XVII в. направление экономической политики во Франции кардинально меняется и наступает понимание того, что политического могущества можно достичь не только успехами в аграрном секторе или прибегая к помощи оружия, но и успехами в торгово-промышленном развитии страны. Начиная с Людовика XIII и его первого министра, кардинала Ришелье, экономическая политика направляется в сторону поощрения развития промышленности и выражается в покровительстве мануфактурам, колониальной политике, которая в свою очередь должна обеспечить государство необходимыми рынками сбыта и источниками дешевого сырья. Именно к этому периоду относится стремление Франция завладеть международными рынками, постепенно вытесняя с них продукцию конкурирующих стран (12, с.76).

Экономическая политика Кольбера, получившая название кольбертизма, являлась, своего рода, вариантом политики меркантилизма, при которой стремление к активной роли в мировой торговле сочеталось с интенсивным развитием национальной промышленности. Особенностью ее было четкое регламентирование промышленности и покровительство торговле при условии создания предпосылок для дальнейшего укрепления абсолютной монархии (8, с.32). По мнению Кольбера, только избыток денег в стране создает величие и мощь государства, только широкое развитие торговли может оказать влияние на привлечение денег. А для создания торгового баланса необходимо развитие мануфактур и торговля теми товарами, которые будут способствовать притоку денег в страну. Например, чтобы обеспечить стране приток средств из-за границы и развивать, в первую очередь, те отрасли производства, кото-

рые пользуются повышенным спросом, Кольбер поощрял создание во Франции централизованных мануфактур по производству предметов роскоши: зеркал – по подобию венецианских, тонких сукон – по образцу голландских, медных и жестяных изделий – по примеру германских. Одновременно росла и промышленность, связанная с военным делом: из Англии тайно вывозились мастера, знакомые с производством стали, в Лионе началось производство оружия и налажено сталелитейное дело (7, с.264).

Огромное значение Ж.Б.Кольбер придавал привлечению иностранных специалистов, обладающих большим производственным опытом и владеющих передовыми технологиями. При Кольбере во Францию приехали сотни квалифицированных мастеров из других стран Европы (Италии, Голландии, Германии, Англии): ткачей, красильщиков, судостроителей, шахтеров, кузнецов, изготовителей зеркал. Крупным предпринимателям даровались дворянские звания, различные привилегии, предоставлялись субсидии, а также дома, которые они получали от государства для проживания. Более того, рабочих, которые были заняты у этих предпринимателей, освобождали от уплаты государственного налога – тальи. Чтобы не допустить утечку квалифицированных рабочих кадров из Франции за границу, в 1669 г. специальным указом была запрещена эмиграция французских рабочих, а пытающимся нелегально выехать из страны грозило тюремное заключение, в отдельных случаях – даже смертная казнь (9).

Для облегчения сбыта товаров в стране была проведена огромная работа по уничтожению внутренних таможен, снижению тарифов, улучшению шоссейных и речных путей, прокладыванию новых дорог и расширению старых. В 1666-1681 гг. была завершена работа по прорытию Лангедокского канала, соединявшего Средиземное море с Атлантическим океаном и открывавшего французским судам кратчайший и независимый от испанцев морской путь; начата постройка канала, ведущего от Артуа до порта Кале. Отсюда следовало, что главное внимание Кольбера было направлено на достижение и укрепление экономической мощи, финансового положения Франции, утверждение ее гегемонии в Европе (11).

Кольбер стремился к тому, чтобы Франция, имевшая богатейшие природные богатства, освободилась как от торгового посредничества Голландии, так и от необходимости ввоза дешевых английских товаров. Желая приспособить экономическое возвышение Франции к политическим институтам феодально-дворянской монархии, Кольбер всячески стремился сочетать в своей политике как интересы торгово-промышленной буржуазии, так и интересы дворянства.

Однако, существование феодально-абсолютистской монархии, как отмечалось выше, создавало определенные преграды на пути осуществления тех грандиозных задач, которые предусматривало правительство Кольбера. Безусловно, невозможно было идти по пути прогресса, всестороннего развития всех отраслей промышленного производства в стране, не искореняя старый монархический строй, не ломая пережитков изжившей себя эпохи. Вероятно, этим и объяснялось, какое огромное внимание Кольбер уделял развитию внешней торговли. То есть, по мнению Кольбера, соблюдая «активный торговый баланс», при котором вывоз превышал бы ввоз, можно было добиться колоссального притока денег в страну, обеспечивая тем самым ее расцвет и богатство (1). А имея такой доход извне, можно было достичь и роста военно-политического могущества Франции, которое обеспечивалось бы как наличием внутренних военных ресурсов в стране, так и наемных военных сил, которых в век наемных армий, легко можно было приобрести за определенные суммы денег в соседних государствах.

Политика меркантилизма, по Кольберу, предусматривала соблюдение «активного торгового баланса» двумя путями: сокращением ввоза (импорта) и увеличением вывоза (экспорта). Иными словами, поощряя развитие национальной промышленности и сокращая импорт из-за границы, правительство ставило преграды на пути покупки дворянами заграничных модных товаров и, наоборот, открывало широкий простор для производства и сбыта тех товаров, которые государство вынуждено было закупать за рубежом. Таким образом, Кольбер видел в развитии местного производства не только источник умножения национального богатства, но и средство обогащения государственной казны за счет сокращения импорта и расширения экспорта и, следовательно, достижения большего привлечения в страну извне драгоценных

металлов. Своей ближайшей цели Ж.Б.Кольбер добился: ввоз иностранных товаров во Францию был сокращен и значительно вырос их экспорт (5).

В области социально-демографической политики Ж.Б.Кольбер исходил из показателей производительного населения, увеличить который можно было как повышением рождаемости, так и сокращением безработицы. По мнению Кольбера, только наличие большого числа производительного населения может обеспечить рост экономического могущества государства (3, с.201).

Одним из выдающихся достижений и заслугой Ж.Б.Кольбера, бесспорно, следует считать создание большого торгового и военного флота, каким Франция до этого времени не обладала. При активном участии Кольбера было основано несколько монопольных, привилегированных компаний для ведения торговли с иностранными государствами: Ост-Индская, Левантийская, Северная, Вест-Индская. Эти компании находились под непосредственным контролем государства, которое само выступало как акционер, брало на себя часть расходов, вносило соответственно определенные капиталы, а затем часть прибылей поступала в государственную казну (10).

Для устранения иностранной конкуренции обеспечения условий для развития французского экспорта и роста могущества Франции, Кольбер предпринимает попытку приобретения колоний, куда вход конкурентам был бы прегражден. Неслучайно, его считают одним из основателей Французской колониальной империи. Вот некоторые примеры деятельности Ж.Б.Кольбера в этом направлении: в Индии в качестве опорной базы были захвачены Пондишери, в Северной Америке, по реке Миссисипи, была захвачена обширная территория, на которой основана французская колония Луизиана. Позднее, в 1803 г., Луизиана была продана императором Наполеоном Бонапартом США за 20 млн. долларов. Как известно, положение Франции в тот период было очень сложным, так как приходилось вести многочисленные войны с антифранцузской европейской коалицией государств. Помимо этого, продолжалась колонизация Канады и Антильских островов. В Африке французами был захвачен и позднее колонизован остров Мадагаскар. Колонии, по Кольберу, должны были служить источниками сырья и рынками сбыта для французских товаров и содействовать тем самым росту экономики и могущества Франции (3, с. 217).

Расширению товарообмена с колониями способствовало не только наличие тоннажа торгового, но и мощность военного флота, без которого Франция оказалась бы беззащитной перед лицом таких мощных морских держав, какими являлись Англия, Голландия и их торговые акционерные компании. По убеждению Ж.Б.Кольбера, только сильный военный флот может укрепить внешнеполитические позиции Франции, поднять ее авторитет на европейской арене. Благодаря беспрецедентному подъему судостроения, Франция вошла в тройку ведущих военно-морских держав и даже обогнала многие государства по количеству и тоннажу военных кораблей. Это было очень важно и для успехов в морской торговле: сильный военный флот был способен обеспечить надежную охрану границ, успешно бороться с пиратством, защитить свои колонии от иностранной контрабанды. Поэтому, капиталовложения в судостроение и смежные с ним области производства занимали видное место в общей инвестиционной программе Ж.Б.Кольбера (4).

Именно развитая промышленность, по мнению Кольбера, делала страну самодостаточной, повышала рост населения, стимулировала его занятость, ускоряла денежное обращение, обеспечивала поступление налогов, помогала развивать внутреннюю и внешнюю торговлю, повышать военно-морской потенциал государства.

*Заключение.* Подводя итог сказанному, следует отметить следующее:

1. Французский абсолютизм и экономическая политика государства получили свою завершенную форму во второй половине XVII в. при короле Людовике XIV;

2.Ростом своего влияния и могущества в этот период Франция была обязана деятельности на посту министра финансов Ж.Б.Кольбера, который являлся сторонником роста экономического могущества страны;

3. В своем стремлении укрепить финансовое положение страны Ж.Б.Кольбер проводил политику покровительства и поощрения капиталистической промышленности и торговли, установления высоких таможенных пошлин, соблюдения «активного торгового баланса» между ввозом (импортом) и вывозом (экспортом);

4. В разное время, даже спустя годы после смерти Ж.Б.Кольбера, во Франции снова и снова приходилось возвращаться к его экономической политике, сокращая ввоз, повышая вывоз, поощряя деятельность крупных мануфактур и привилегированных торговых компаний, расширяя и укрепляя старые колонии, захватывая новые;

5. В этом смысле, кольбертизм еще долгое время оставался, актуальным, в своем роде, явлением, являясь вектором, генеральной линией экономической политики французского абсолютизма не только в конце XVII, но и в XVIII в.

ЛИТЕРАТУРА

1. Благосветлов Г. Е. Кольбер и система его и Русское слово / 1860 – Викитека. - https://ru.wikisource.org› wiki › [Дата обращения: 01.12.2021].
2. Борисов Ю.В. Дипломатия Людовика XIV. М.: Международные отношения, 1991, 381 с.
3. Винсент Дж. Питтс. Коррупция при дворе Короля-Солнце. Взлёт и падание Никола Фуке. М., Олимп-Бизнес, 2017, 336 с.
4. Галерея экономистов - Жан-Батист Кольбер. - http://gallery.economicus.ru› Галерея экономистов [Дата обращения: 01.12.2021].
5. Жан-Батист Кольбер - История экономических учений. - https://bstudy.net › ekonomika › batist_kolber [Дата обращения: 01.12.2021].
6. Ивонина Л.И. Мазарини. М.: Молодая гвардия, 2007, 303 с.
7. История Франции. под ред.А.З Манфреда. М., издательство «Наука», 1972, Т.1, 357 с.
8.Кожокин Е.М. Государство и народ. От Фронды до Великой французской революции. М., Наука, 1989, с.70.
9. Кольбер - Русская историческая библиотека. - http://rushist.com › index.php › west › 317-colbert [Дата обращения: 01.12.2021].
10. Кольбертизм | Понятия и категории. - http://ponjatija.ru › node [Дата обращения: 01.12.2021].
11. Лангедокский канал: путь из Средиземноморья в Атлантику. - https://www.magicwaters.ru › info › langedokskiy-kana.. [Дата обращения: 01.12.2021].
12. Малов В.Н. Ж.-Б.Кольбер. Абсолютистская бюрократия и французское общество. М.: Наука, 1991, 240 с.
13. Малов В.Н. Жан-Батист Кольбер - реформатор XVII века (1619-1683) //Новая и новейшая история, 2000, - №3,- с.97-109.
14. Меркантилизм Кольбера - хорошо забытое старое?. - http://samlib.ru › [Дата обращения: 01.12.2021].
15. Реформаторы: Жан-Батист Кольбер – LiveJournal. - https://dervish-y.livejournal.com › [Дата обращения: 01.12.2021].
16. Явнова И.И., Гумеров Р. И., Становление идеологических взглядов Жана Батиста Кольбера // Международный научный журнал «Инновационная наука» №12-4/2016 ISSN 2410-6070, - с.140-154.

**NAHİDƏ HACİNSKAYA**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*

## JAN BATİST KOLBERİN FRANSADA KEÇİRDİYİ İQTİSADİ SİYASƏTİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Məqalədə Fransa kralı XIV Lüdovik hökumətində maliyyə naziri olmuş J.B.Kolberin iqtisadi siyasətinin bəzi məsələləri araşdırılır. J.B.Kolber ardıcıl olaraq milli sənayenin və ticarətin üstünlük

təşkil edən inkişafına, yüksək idxal rüsumlarının müəyyən edilməsinə, milli istehsalçılara subsidiyaların verilməsinə, dövlət büdcəsinin gəlirlərinin artırılmasına və milli təhlükəsizliyin möhkəmləndirilməsinə əsaslanan merkantilizm siyasətini həyata keçirirdi. J.B.Kolber siyasətinin həyata keçirilməsi sayəsində Fransa bir çox ölkələr üçün ticarət və sənayedə, müstəmləkəçilik işlərində ciddi rəqibə çevrildi. Məhz bu dövrdə ticarət və müstəmləkə hökmranlığı uğrunda mübarizədə ingilis-fransız qarşıdurması başladı. Böyük tacir və donanmanın yaradılması, inhisarçı və imtiyazlı ticarət şirkətlərinin yaradılması və ilk müstəmləkələrin əldə edilməsi J.B.Kolberin xidmətləri hesab edilməlidir.

*Açar sözlər*: Fransa, XVII əsr, J.B.Kolber, iqtisadi siyasət, merkantilizm, səhmdar cəmiyyətlər, ilk müstəmləkələr.

**NAIDA HAJINSKAYA**
*Associate Professor PhD of history*
*Azerbaijan State Pedagogical University*

## SOME QUESTIONS OF ECONOMIC POLICY OF JEAN BATISTE COLBERT IN FRANCE

The article examines some issues of the economic policy of J.B.Colbert, who was the finance minister in the government of King Louis XIV of France. J.B.Colbert consistently pursued a policy of mercantilism based on the predominant development of national industry and trade, the establishment of high import duties, subsidies to national producers, an increase in state budget revenues and strengthening of national security. Thanks to the implementation of the policy of J.B. Colbert, France for many countries became a serious rival in trade and industry, in colonial affairs. It was during this period that the Anglo-French confrontation began in the struggle for trade and colonial dominance. The merit of J.B. Colbert should be considered the creation of a large merchant and navy, the founding of monopoly, privileged trading companies, and the acquisition of the first colonies.

*Keywords*: France, XVII century, J.B.Colbert, economic policy, mercantilism, joint-stock companies, the first colonies.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 dekabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Elmira Hüseynova, t.e.d. Qabil Əliyev.*

**УДК 94**

**ПЕРВИНЕ ЭФЕНДИ**

*Научный сотрудник, диссертант Отдела «Истории и Экономики Арабских Стран» Института Востоковедения им. акад. З.Буниятова НАНА*
**pervinefendi@gmail.com**

# ПУТЕШЕСТВИЕ МУСУЛЬМАНСКОГО ПРОСВЕТИТЕЛЯ XIX В. ШЕЙХА РИФА`А БИН АС-САЙЙИДА БАДАВИ РАФИ` АТ-ТАХТАВИ ЗА «ЧИСТЕЙШИМ ЗОЛОТОМ» В ПАРИЖ

*Египетский просветитель Рифаа Рафи ат-Тахтави на основе впечатлений от своего пребывания во Франции написал книгу «Извлечение чистого золота из краткого описания Парижа или драгоценный диван сведений о Париже». В ней он описал наиболее яркие особенности различных сфер жизни в этом городе. Прежде всего он уделил внимание высокому уровню наук, искусств, благоустроенности улиц, а также богатству французов. Являясь символом начавшегося движения Возрождения – «ан-Нахда» (Пробуждение), ат-Тахтави подчеркивает необходимость для своей страны заимствовать положительные стороны жизни Франции для успешной модернизации и улучшения жизни египтян, но при этом говорит о необходимости при заимствовании новых знаний опираться на традиционную культуру и религию.*

*Ключевые слова*: Рифаа ат-Тахтави, Египет, Париж, наука, образование, модернизация.

*Введение*. Проект модернизации Египта начался с решения наместника турецкого султана в Египте Мухаммеда Али паши (1805-1848) и отвечал политическим потребностям того времени, так как Османская империя поддерживала постоянные контакты с соседними европейскими государствами. Однако поскольку эти отношения имели преимущественно форму военной конфронтации, то в османском обществе знания о европейских странах (Австрии, Италии, Франции и др.) были весьма поверхностными, а эпизодические поездки не меняли общей картины. Государственные деятели Турции не имели четкого представления о состоянии экономики, культуры и политическом строе европейских стран, с пренебрежением относились к различным сторонам материальной и духовной культуры европейцев. В связи с тяжелым внутренним положением империи, резко обострившимся после ряда жестоких военных поражений, наиболее дальновидные государственные деятели начинают по-новому оценивать достижения своих европейских соседей. Русский посланник И.И.Неплюев писал об этом в Санкт-Петербург: «Ныне турки хотят о Европе сведомы быть» (2, с.68).

Таким образом, роль образовательных миссий была одним из средств установления контактов с Западом и, следовательно, внесения в модернизацию по европейскому образцу. В марте 1826 г. состоялась встреча Мухаммеда Али с генералом французского военно-морского флота капитаном Огюстеном Бельяром. Убедив при встрече египетского пашу в необходимости дальнейшего прохождения учебной миссии египтян у себя в стране, Бельяр добивается разрешения о переводе самой большой группы в истории зарубежных учебных командировок – более сорока человек, в Париж (9, с.33).

*Анализ впечатлений египетского интеллектуала Рифаа Рафи ат-Тахтави от пребывания его во Франции в 1826-1831 гг.* Данная статья посвящена анализу впечатлений египетского интеллектуала Рифаа Рафи ат-Тахтави от пребывания его во Франции. В своем повествовании об этой стране он отмечал о высоком уровне развития французских наук, искусств и социальных служб, о позитивных и негативных сторонах французского общества. Наряду с этим, взявшись рассказывать своим соотечественникам о жизни далекой страны, он часто сравнивал Францию с его родным Египтом, признаваясь в том, что, несмотря на более высокую религиозность и лучшее развитие некоторых качеств у египтян, в материально-техническом смысле и в развитии общественных наук Египет очень сильно отстал от Франции и

нуждается в заимствовании ее достижений.

Рифаа Рафи ат-Тахтави родился 15 октября 1801 года, в знатной и зажиточной египетской семье именитых судей и ученых, чья родословная восходила к почетному роду имама Джафара ас-Садыка (18, с. 41; 1, с. 9). Как и многие юноши, к шестнадцати годам ат-Тахтави поступил в исламский университет аль-Азхар, где в свое время учились его дед и отец (10, с.23).

Период учебы в университете и его дни во Франции можно рассматривать как важные шаги в формировании жизни ат-Тахтави. Однако решающее значение в его карьере сыграли три наиболее именитых из шести главных шейхов-преподавателей аль-Азхара: аз-Забиди, Абд ар-Рахман аль-Джабарти (11, с.173) и ректор аль-Азхара, а также знаток многих традиционных арабских наук Хасан аль-Аттар (14, с.13; 11, с.73). Последний, в свою очередь, познакомился с западным бытом и мировоззрением, обучая арабскому языку некоторых французских офицеров и ученых, прибывших в Каир во время египетского похода Наполеона, и с сожалением отмечал, что арабо-мусульманский мир был очень отсталым по отношению к Западу. Поэтому он был убежден, что одного только религиозного знания вряд ли будет достаточно для модернизации египетского общества, которое погрузилось в невежество и оказалось раздираемо политическими конфликтами. Поэтому, когда Мухаммед Али поручил аль-Аттару выбрать трех имамов для сопровождения одной из первых египетских студенческих миссий, отправленных во Францию, он без колебаний предложил имя ат-Тахтави (7, с.15). Благодаря протекции своего наставника молодой имам получает место религиозного предводителя студенческой делегации численностью 44 человек (17, с.119-148). За время пребывания в Париже ат-Тахтави успел выучить французский, став главным переводчиком своей группы (3, с.38).

Находясь еще в путешествии, ат-Тахтави писал своему руководителю аль-Аттару о своей готовящейся книге «Извлечение чистого золота из краткого описания Парижа, или Драгоценный диван сведений о Париже», который был когда-то рекомендован самим шейхом еще до поездки во Францию (16, с.4). Являясь одним из наиболее выдающихся произведений среди мусульманских просветителей XIX века, книга о путешествии в Париж, представляемая собой своего рода энциклопедический справочник, после своего выхода вмиг стала популярной, найдя свое продолжение в переводах на многие иностранные языки: турецкий (1), английский (13), русский (3), французский (9), немецкий (6). В этой книге, пользуясь многими сочинениями арабских и европейских ученых и историков, сопровождая их своими мыслями и комментариями, ат-Тахтави описывает свои впечатления от многолетнего (1826-1831 гг.) пребывания в Париже. Размышляя, почему Мухаммедом Али была выбрана именно Франция как главная страна, от которой Египет стал заимствовать достижения в науках и искусствах, и почему сам он вместе с остальными египтянами был послан именно в эту страну, он решил, что, возможно, это связано с уважением французов к иностранцам и их веротерпимостью (20, сс.451-512), поэтому иностранцы ощущают себя там свободно, а также с тем, что Франция - одна из самых развитых стран Европы, а Париж - второй по величине западноевропейский город после Лондона, при том, что климат в нем лучше, а нравы людей - добрее (19, с.44; 1, с.51; 3, с.19).

Ат-Тахтави проявляет живой интерес к быту и нравам жителей Парижа (а также Франции в целом), к положению и роли женщин во французском обществе, стремлению французов к чистоте, к местной медицине, религиозности, к общественным баням Парижа, к столовым приборам а также подробно останавливается на описании наук и искусств Франции, французского языка в сравнении с арабским, политических событий, которым он был свидетелем. Все это очень подробно и ярко описано, и практически на каждой странице приведен отрывок из стихотворения какого-нибудь арабского поэта, что говорит о любви ат-Тахтави к поэзии. Он и сам проявил талант в стихосложении, написав несколько стихов о своих впечатлениях при пребывании во Франции.

«Тройным *«талаком»* я б развелся с Парижем,
То лишь для того, чтобы сочетаться с Каиром» (1, с.81).

Можно привести некоторые цитаты ат-Тахтави об устройстве французского государства

и достижениях его народа. «Страны франков [т.е. европейцев] богаты разного рода знаниями и правилами приличий, которые - этого нельзя отрицать - привлекают людей и украшают жизнь. Признано, что французы выделяются из всех франкских народов своей приверженностью к знаниям …» (20, с.131). «…Книги - их любимые собеседники… Разве можно сравнить эти комнаты со всем, что в них находится из приятностей, с нашими комнатами, где человека приветствуют понюшкой табаку из рук слуги…!» (20, сс.132-134; 3, сс.77-78).

Огромное развитие науки, ремесел, медицины, почтовой службы, удивительная чистота, опрятность и богатство французских городов и их жителей (по его словам, обычный парижанин среднего достатка богаче самого богатого каирского торговца) вызывает у ат-Тахтави с одной стороны восторг, а с другой - горечь и сожаление, что большей части этого лишен его родной Египет (8, с.173). «Клянусь Аллахом, все время, пока я находился в этой стране, я сожалел, что страны ислама лишены того, чем пользуются жители Франции» (20, с.17). В то же время он утешает себя тем, что истоки этих наук и искусств в их первоначальном виде восходят к арабам, а именно к периоду аббасидского халифата, у которого они и были заимствованы в то время европейцами. Ат-Тахтави является сторонником сохранения религиозных, культурных и языковых основ своего общества, и считает, что заимствовать следует только внешние, технические достижения, чтобы помочь странам исламского мира самоутвердиться и достичь уровня развития, богатства и влияния развитых государств Запада, что послужит для укрепления их позиций, как и позиций ислама, в мире.

Заметное место в книге ат-Тахтави занимает описание учебы во Франции, прочитанных им французских произведений, отчетов и экзаменов. По его словам, французские кураторы его группы очень высоко оценили его способности, особенно в языковедении и переводе. Говорит он и о своем опыте общения и переписки с известными французскими востоковедами, в частности, с египтологом Эдм - Франсуа Жомаром и Сильвестром де Саси. Он отмечает их интерес к современному Египту, хорошее знание арабского языка и арабских литературных сочинений (20, с.213).

Ат-Тахтави считал, что наука в Египте может развиваться только при условии свободы в обществе, а та, в свою очередь, неразрывно связана с настоящим просвещением, которое достигается только при понимании материала, а не механическом заучивании. Он доказывал это тем, что в Париже все, даже простые люди, умеют читать и держат дома книги, а общество образованно, что способствует свободе мысли и расцвету науки (13, с.548). Свободолюбие французов ат-Тахтави сравнивает со свободолюбием и благородством арабского народа. Он подчеркивает то, что перед законом (по крайней мере формально) во Франции равны все подданные, и даже король может быть судим, за плохие поступки, как и все остальные (15, с.83). Все это, по его мнению, является мудрым и полезным, а значит это нужно перенять и Египту.

В целом, ат-Тахтави старается объективно оценить французов, отмечая как их достоинства (начитанность и стремление к науке и знаниям, распространенные даже среди простолюдинов и маленьких детей, всеобщую грамотность, толерантность и уважение к иностранцам, заботу о своем здоровье и чистоте, верность слову и выполнение обещаний, богатую и интересную обстановку в доме), так и недостатки (чрезмерная, с его точки зрения свобода, данная женщинам, излишний рационализм и «вольнодумство»). Осуждает он и свойственную французам некоторую скупость, противопоставляя ее щедрости, по его мнению, врожденному качеству арабов (15, с.63). У него вызывает глубокую неприязнь то, что в Париже распространены кабаки, где некоторые простые люди пьют часто до потери человеческого облика, что неприемлемо для мусульманского Египта.

Одной из наиболее важных отраслей, где Египту и египтянам следует использовать французские знания и опыт, ат-Тахтави называл медицину. Он подробно описывает, как организована медицинская служба и как хорошо работают врачи в Париже, какими искусными лекарствами и диковинными приемами они пользуются, чтобы облегчить здоровье больных. Заботясь о здоровье своих читателей, он даже переписал большой отрывок из французской брошюры по медицине, надеясь, что она им поможет меньше болеть (15, с.117). Надо учитывать, что смертность и заболеваемость населения в Египте даже при Мухаммеде Али остава-

лась гораздо выше, чем во Франции, и египтяне страдали от многих болезней, которые французам удалось давно искоренить (4, сс.235-238).

*Заключение*. Ат-Тахтави постоянно обращается к читателям, живущим в мусульманских странах, в первую очередь в Египте, для которых и адресована его книга, и призывает их максимально вдуматься в приведенную им информацию. Главное утверждение ат-Тахтави, проходящее красной нитью через всю его книгу: несмотря на различие веры с Францией (и вообще с европейцами), мусульманам и арабам необходимо брать все то полезное, что постигли и чему научились европейские народы и понять причины, почему они так серьезно обогнали мусульманский мир. Изучая эти вопросы, он дает и религиозное обоснование необходимости приобретения полезных знаний у немусульман, опираясь на Коран и хадисы. Поддерживая успешные достижения и разумный синтез западной и восточной цивилизаций, ат-Тахтави не раз убеждает своего читателя в том, что не только европейская наука, но и европейская цивилизация, в целом, не противоречат исламу и Корану. Ат-Тахтави: «Я уже клялся Всевышним Аллахом, что ни в чем из рассказанного не погрешил против правды. И считаю должным довести до всех свое похвальное суждение об увиденных в этой стране полезных вещах … Если она появится [т.е. если книга когда-нибудь будет издана], не сочтите ее объем малым, клянусь вашей жизнью, в ней много хорошего» (19, с.18; 3, с.7).

В одном из писем Сильвестра де Саси адресованному Тахтави есть такие слова: «… дорогому и уважаемому брату шейху ар-Рафи Рифа ат-Тахтави, … такая книга принесет вам в вашей стране великую славу и сохранит память о вас в грядущих веках …» (20, с.213; 3, с.131).

ЛИТЕРАТУРА

1. Çiftçi, Cemil. Rifa'a Rafi Tahtavi. Paris gözlemleri (Tahlisü'l-İbriz fi Telhisi Paris ve el-Divanü'n-Nefis bi Eyvanı Paris). – İstanbul: «Ses Yayınları». - 1992. – 319 s.
2. Витол, А.В. Османская империя (начало XVIII в.). - Москва: «Наука» ГРВЛ. - 1987. - 136 с.
3. Кирпиченко, В.Н. Извлечение чистого золота из краткого описания Парижа, или Драгоценный диван сведений о Париже, - Москва: «Наука». - 2009.– 269 с.
4. Петрунина, Ж.В. Жизнь египтян в период правления Мухаммеда Али в представлениях российского общества XIX в. / Известия Самарского научного центра Российской академии наук. - т. 11. - № 2. - 2009. - 291с.
5. «Народы Азии и Африки» Витол, А.В. Из истории турецко-французских связей (посольство Йирмисекиз Челеби Мехмеда-Эфенди во Францию в 1720-1721 гг.). Москва: Изд. «Наука». - 1976, №4, - 123 с.
6. Herausgegeben, von Karl Stowasser. Al-Tahawi Rifa'a - Ein Muslim entdeckt Europa. Bericht über seinen Aufenthalt in Paris 1826-1831. München: C.H. Beck. –1989. - 339 p
7. Khaldoun, Nabwan. Al-Tahtawi Le Promethee arabe, Institut Du Monde Arabe, Centre Culturel Du Livre, - Casablanca: - 2019. – 112 p.
8. Louca, Anouar. Voyageurs et Ecrivains Egyptiens en France au XIX Siecle, Paris: Didier. - 1970. - 362 p.
9. Louca, Anouar. L'Or de Paris, Relation de voyage, 1826-1831, Paris: Sindbad. – 1988. – 342 p.
10. Laanatza M., Mejdell G., Stagh M., Vogt K., Wistrand B. Egypt Under Pressure: A Contribution to the Understanding of Economic, Social and Cultural Aspects of Egypt Today. Uppsala: Scandinavian Institute of African Studies. – 1986. – 158 p.
11. Nezar, Al-Sayyad. Cairo: Histories of a City. Harvard University Press, USA: - 2001. - 325 p.
12. Introduced and translated by Daniel L. Newman. "An Imam in Paris, Account of a Stay in France by an Egyptian Cleric (1826-1831), Takhlis al-Ibriz fi Talkhis Bariz aw al-Diwan al-Nafis bi-iwan Baris by Rifa' a Rafi' al-Tahtawi". SAQI. - London: - 2004. – 405 p.
13. Livingston J. W. Western Science and Educational Reform in the Thought of Shaykh Rifaa al-Tahtawi // International Journal of Middle East Studies. - Vol. 28. - № 4. - 1996. – 543-564 pp.
14. احمد عبد الله نجم. "الخلافة الاسلامية ومناقب الخلافة العثمانية. الشيخ حسن العطار، شيخ الجامع الازهر الاسبق". كلية الاداب جامعة عين شمس .القاهرة. ٢٠٠٦. ص.١٣.

15. رفاعة بدوي رافع الطهطاوي. كتاب تخليص الابريز الي تلخيص باريز أو الديوان النفيس بايوان باريس. مصر. ١٩٠٤. - ص. ٢٨٠.

16. صالح مجدى. "حلية الزمن بمناقب خادم الوطن رفاعة بك رافع الطهطاوى". القاهرة. ١٩٥٨. - ص. ٥١ .

17. عبد الحكيم عبد الغنى قاسم " تاريخ البعثات المصرية الى أوروبا" مكتبة مدبولي القاهرة: ٢٠١٠. – ص. ٧٤٢.

18. محمد عمارة "الأعمال الكاملة لرفاعة رافع الطهطاوي" ,الطبعة الأولى - دار الشروق – القاهرة. الجزء الأول. – ٢٠١٠.– ص. ٨٤٦.

19. محمد عمارة "الأعمال الكاملة لرفاعة رافع الطهطاوي" ,الطبعة الأولى - دار الشروق – القاهرة. الجزء لثاني. - ٢٠١٠ . - ص. ٨٤٦.

20. محمد عمارة "الأعمال الكاملة لرفاعة رافع الطهطاوي" ,الطبعة الأولى - دار الشروق – القاهرة. الجزء الخامس. - ٢٠١٠. – ص. ٥١٧ .



**PƏRVİNƏ ƏFƏNDİ**

*akad. AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun*
*“Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı” şöbəsinin elmi işçisi, dissertant*


## XIX ƏSRİN MÜSƏLMAN MAARİFCİSİ ŞEYX RİFAA BİN ƏS-SƏYYİD BƏDƏVİ RAFİ ƏT-TAHTAVİNİN PARİSƏ «DƏYƏRLİ İNCİ» ARDINCA SƏYAHƏTİ


Misir maarifcisi Rifaa Rafi ət-Tahtavi Fransa səyahətindən aldığı təəssuratlar əsasında «Paris səyahətindən əldə olunan dəyərli inci (qənimət) və ya qiymətli divan» adlı kitab yazdı. Əsərdə bu şəhərdəki həyatın müxtəlif sahələrinin əsas xüsusiyyətlərini işıqlandırıb. Əsərdə əsas diqqəti fransızların elm və incəsənətinin yüksək inkişafına, küçələrin abadlığına eləcə də əhalinin rifah halına yönəltmişdi. Yeni başlayan «ən-Nahda» (Dirçəliş) hərəkatının simvoluna çevrilən ət-Tahtavi ölkəsinin uğurlu inkişafını Fransa həyatının müsbət tərəflərindən nümunə götürülməsinin əhəmiyyətini vurğulamışdı. Eyni zamanda o, yeni biliklərin tətbiqi ənənəvi mədəni və dini dəyərləri unutmamağı tövsiyyə etmişdir.



*Açar sözlər*: Rifaa ət-Tahtavi, Misir, Paris, elm, təhsil, modernləşmə.



**PARVINA AFANDI**

*Doctoral student, Researcher of the Department of "History and Economy of Arab Countries"*
*of the Institute of Oriental Studies named after academician Z.Buniyatov of ANAS*


## THE TRAVEL OF THE MUSLIM EDUCATOR OF THE XIX CENTURY RIFAA RAFI AT-TAKHTAWI FOR THE "PURE GOLD" TO PARIS


The Egyptian educator Rifa'a Rafi at-Tahtawi, based on his impressions of his studies in France, wrote the book "Extracting Pure Gold from a Brief Description of Paris." In it, he described the most striking features of various spheres of life in this city. First of all, he paid attention to the high level of sciences, arts, livability of the streets, as well as the wealth of the French. He emphasizes the need for Egypt to borrow the positive aspects of French life in order to successfully modernize and improve the life of the Egyptians, but at the same time speaks of the need to rely on traditional culture and religion when borrowing new knowledge.



*Keywords*: Rifa'a Rafi at-Tahtawi, Egypt, Paris, science, education, modernization.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 oktyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.e.d.Nərgiz Axundova, t.e.d. İsmayıl Məmmədov.*


---

**UOT 94(479.24)**

**RAMİL NİFTƏLİYEV**
*AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun*
*"Yeni tarix və Azərbaycan xalqına qarşı soyqırımları tarixi"*
*şöbəsinin aparıcı elmi işçisi, t.ü.f.d, dosent*
**ramil.niftaliyev.67@mail.ru**

**HACI HƏSƏNOV**
*AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun*
*"Yeni tarix və Azərbaycan xalqına qarşı soyqırımları tarixi"*
*şöbəsinin şöbə müdiri, t.ü.f.d, dosent*

# QƏSBKARLAR TƏRƏFİNDƏN DƏFƏLƏRLƏ DAĞIDILMIŞ AZƏRBAYCAN ELMİ İNCİSİNİN - ƏRDƏBİL KİTABXANASININ TARİXİNDƏN

*Mövcud məqalədə müxtəlif qaynaqlar və ədəbiyyat materialları əsasında uzun əsrlər boyu Azərbaycanın orta əsrlər raritetlərinin əvəzolunmaz xəzinəsi olmuş Ərdəbil kitabxanasının tarixindən, yağılar tərəfindən dəfələrlə buradan yağtalanaraq yad ölkələrə aparılmış incilərinin məzmunu və əhəmiyyətindən söz açılır.*

*Açar sözlər*: Azərbaycan, Ərdəbil, Şeyx Səfi məqbərəsi, manuskript, işğal, qarət, Sankt-Peterburq.

*Giriş.* Məlumdur ki, XIX əsrin ilk sülsündə Rusiya çarizminin Güney Qafqazın, o cümlədən Quzey Azərbaycanın zəbt edilməsi uğrunda Osmanlı və Qacar türk imperiyaları ilə apardığı dörd qanlı müharibə dövründə nəinki Vətənimizin yüzlərlə kənd və şəhəri xarabalığa çevrilmiş, on minlərlə soydaşımız məhv olunmuş və ya mühacirətə getmək zorunda qalmış, həm də maddi və mənəvi sərvətlərimiz, mədəniyyət incilərimiz amansız və geniş qarət və soyğunlara məruz qalmışdı. Belə yağmalanmalara məruz qalmış mədəniyyət incilərimizdən biri də Ərdəbildəki Şeyx Səfi məqbərəsi olmuşdur.

Artıq 1827-ci ilin sonlarında Cənubi Azərbaycan ərazisinə səpələnmiş rus hərbi dəstələrinə əsas qüvvələrlə birləşmək üçün irəli hərəkət edərək Tehran yoluna çıxmaq əmri verildi. Mərkəzi qoşun dəstəsi Təbriz şəhərindən Miyanə istiqamətində hərəkət etməyə başladı. Bu zaman baron Brambeus adı ilə tanınan Sankt-Peterburq universitetinin şərqşünas professoru O.İ.Senkovski akademik X.D.Frenin məsləhəti və bilavsitə onun iştirakı ilə Azərbaycandan gətiriləcək nadir və az məlum olan əlyazmalar siyahısını tərtib etməklə, hazırladıqları "İran kitabxanaların nadir şərq manuskriptlərin əldə edilməsi haqqındakı" layihəsini çar I Nikolaya təqdim etdi [22, s.23]. Çar tərəfindən bəyənilən bu layihə onun xüsusi göstərişi ilə 1827-ci ilin mart-iyun aylarında Qafqaza ezam edilmiş imperiya Baş qərargah rəisi, infanteriya generalı İ.İ.Dibiçə verildi. İ.İ.Dibiç isə onu Qafqazdakı Rusiya qoşunlarının baş komandanı İ.F.Paskeviçə göndərdi [30, s.97]. Abbas Mirzənin Təbrizdəki kitabxanasındakı kitabların böyük əksəriyyətinin həmin dövr üçün müasir kitablar təşkil etdiyindən, bütün nəzərlər qədimi nadir kitabların saxlandığı Ərdəbil şəhərindəki Şeyx Səfi məqbərəsinin kitabxanasına yönəlmiş oldu.

Qeyd edək ki, tarixi mənbələrdə orta əsr kitabxanaları içərisində Şeyx Səfi kitabxanasının adı tez-tez çəkilir. Bu kitabxananın əsasının Şeyx Səfi tərəfindən 1301-ci ildə Ərdəbildə təşkil edilən Səfi xənagahının nəzdində qoyulması ehtimal edilir. Şah İsmayıl Xətai (1501-1524) hakimiyyətə gəldikdən sonra bu kitabxanaya xüsusi qayğı göstərilməyə başlandı. Belə ki, o, Ərdəbil şəhərində ulu babası Şeyx Səfinin şərəfinə dövrünün ən əzəmətli məqbərəsini tikdirmiş və bu məqbərənin yanında olan zəngin kitabxananı daha da genişləndirmişdi. I Şah İsmayıldan başlamış bütün Səfəvi hökmdarları tərəfindən dövrün nadir kitablarının Şeyx Səfi məqbərəsindəki kitabxanaya verilməsi və vəqf adı ilə təqdim edilməsi bir ənənəyə çevrilmişdi. Vəqf edilən kitabları satmaq və bağışlamaq qadağan olunduğuna görə əsasən vəqf hesabına zənginləşən Şeyx Səfi məqbərəsinin kitabxanası ən zəngin kitabxanaya çevrilmişdi. Səfəvi dövlət başçılarının ənənəsinə görə hər bir padşah bu kitabxananın qeydinə qalmalı idi [6, s.228].

Səfəvi hökmdarları özlərinin kitabxanalarının olmasına baxmayaraq Ərdəbil kitabxanasını yaddan çıxarmır, onun qeydinə qalır və bu dəfinəni yeni kitablarla zənginləşməsinə diqqət yetirirdilər. Həmin kitabxana müntəzəm olaraq Şərqin ən nadir kitabları ilə zənginləşirdi. I Şah Abbas hakimiyyəti illərində (1587-1629) kitabxanada külli miqdarda kitab yerləşdirilmişdi. Rusiya Milli Kitabxanasının şərq əlyazmaları şöbəsindəki Ərdəbil kolleksiyasından olan Nizaminin "Xəmsə" əlyazmasındakı qeyd bunu bir daha sübut edir. Qeyddə "... Abbas Səfəvi ki, Şeyx Səfi astanasında yüksək sahibidir, bu kitabı vəqf etmişdir, kim istəsə oxusun, bu şərtlə ki, onu kənara çıxarmasın" yazılmışdır [13, s.10]. Rusiya Milli Kitabxanasının Ərdəbil kolleksiyasının digər əlyazmasının qeydi 1017/1607 və 1021/1611-ci illərə aid edilir. Bu qeyddə də əlyazmanın Ərdəbildəki Şeyx Səfiəddin məqbərəsinə vəqf verildiyi göstərilir [21, s. 345]. Dəqiq tarixi göstərilməyən, Nizaminin Rusiya Milli Kitabxanasında saxlanılan qədimi əlyazmasında (Şifrə: Dorn-345) "Sirlər xəzinəsi", "Xozrov və Şirin" poemalarının yarısı yoxdur. Bu əlyazma da şah I Abbas tərəfindən vəqf olaraq Ərdəbil kitabxanasına verilmişdi [31].

Qeyd edək ki, həmin dövrdə "xüsusi ev kitabxanaları düzəltmək, tanınmış şair və alimlərin məşhur xəttatlar və rəssamlar tərəfindən zinətləndirilmiş əsərlərini toplamaq, yaxud yazdıraraq Şeyx Səfi məqbərəsinə, ayrı-ayrı məscidlərə vəqf etmək bir dəb halını almışdı" [1, s. 83].

Bu kitabxana haqqında Azərbaycanda olmuş səyyahların əsərlərində xeyli məlumat verilir. Belə ki, Vətənimizə təşrif buyurmuş səyyahlardan biri də 1637-ci ildə Holşteyn hersoqunun elçisi Adam Oleari olmuşdu. Oleari Ərdəbildə olarkən Şeyx Səfi məqbərəsinə getmiş, məqbərənin kitabxanası ilə tanış olmuşdu. Alman səyyahı memarlığımızın nadir incilərindən olan Şeyx Səfi kompleksini xüsusu heyranlıqla təsvir edirdi. Onun həmin məbədin zəngin kitabxanası haqqındakı məlumatı xüsusi maraq doğurur. Səyyah yazırdı ki, biz bu məbədi gəzə-gəzə çox geniş, tağ-tavanlı və qızıl suyu ilə bəzək vurulmuş məscidə oxşar bir zala daxil olduq. Bizim üçün burada ilk anda təəccüb doğuran böyük ustalıqla işlənmiş tağ-tavanı oldu. Bu tağ-tavanın çoxlu uzun, aşağıya doğru sallanan pillə-pillə çıxıntıları vardı. Elə təəccüblü də bu idi ki, bu nəhəng qübbə necə düzəldilmişdi və heç bir sütunu olmadan necə dayanırdı? Bu geniş zalda kitabxana yerləşirdi. Bağlı dolablarda müxtəlif kitablar var idi: kitablar dikinə deyil, üst-üstə qoyulmuş vəziyyətdə düzülmüşdü. Bu kitabların çoxu ərəb, bəziləri isə fars və türk dillərində idi. Onların bir hissəsi perqament, digəri isə kağız üzərində çox zərif xətlə yazılmışdı. Tarixi kitabları şəkillər bəzəyirdi. Cildləri qırmızı dəridən olub, üzərində qızılı rəngdə gül və yarpaq təsvirləri həkk olunmuşdu. Kitabxana yerləşdirilmiş bu zal Cənnətsəra adlanırdı. Ərdəbildə olmuş Evliya Çələbi də bu məbəd haqqında maraqlı məlumat verirdi [9, s.244 və s.261].

1667-ci ildə Ərdəbildə olmuş hollandiyalı səyyah Yan Streysin bu kitabxananın quruluşu haqqında fikirləri də maraq doğurur. Səyyah kitabxanada kitabların düzülməsi və onların mühafizəsi üçün şkaf üsulundan başqa, rəf üsulundan da istifadə edildiyini, şkaflarda olduğu kimi, kitabxana rəflərində də kitablar bir-birinin üstünə yığıldığını yazırdı. Adam Oleari kimi Yan Streys də kitabların bəzilərinə qızılı və gümüşü parçalardan üz çəkildiyini qeyd edirdi [9, s. 280]. Səyyahların fikri Şeyx Səfi məqbərəsinin kitabxanasının dünyanın ən zəngin və nadir kitab fonduna malik bir kitabxana olduğunu, kitabxanaya şahlar tərəfindən böyük qayğı göstərildiyini, müqəddəs bir yer hesab edildiyini bir daha təsdiq edir. Qeyd edək ki, həm məqbərə və həm də kitabxana Ərdəbil kitabxanasının kitablarını Rusiyaya daşınması prosesində iştirak etmiş P.E. adlı bir nəfərin qeydlərində də təsvir olunmuşdur [Bax: 18].

Ümumiyyətlə, Ərdəbil şəhəri XVI-XVII əsrlər boyunca Azərbaycanın, o cümlədən Səfəvilər dövlətinin ən mühüm ictimai-iqtisadi, dini və mədəni mərkəzlərindən olmuşdur. Buradakı Şeyx Səfi məqbərəsi dini müəssisə olmaqla yanaşı, həm də sahib olduğu geniş vəqflər hesabına iri bir iqtisadi təşkilat halına gəlmiş, eyni zamanda irfan ocağı sayılan Darülirşad xanəgahının sayəsində elm, təhsil, mədəniyyət və incəsənət mərkəzinə çevrilmişdi [12]. Azərbaycanın həm də "Darül-hikmə" adlanan Ərdəbil kitabxanası dünyanın əlyazmaları içərisində ölçülməz dərəcədə zəngin olmuşdur. Oradakı əlyazmaların əksəriyyəti kolleksiya toplamaq məqsədilə yarandığı üçün çox qiymətli nüsxələr idi. Məhəmməd Həsən xanın yazdığına görə bu əsərlərinin çoxunun cildləri qızıl və gümüşdən olmuşdur [13, s.8].

Səfəvilər xanədanının tənəzzülü dövründə və süqutundan sonra Ərdəbil kitabxanası öz əhəmiyyətini itirməyə başladı. Tez bir müddət içində bu məqbərə və onun zəngin kitabxanası baxımsızlıq üzündən acınacaqlı vəziyyətə düşmüşdü. Kitabxanaya yeni kitabların alınmaması onun əhəmiyyətini xeyli azaltmışdı. 1727-ci ilə aid bir Osmanlı sənədində Ərdəbil məqbərəsi kitabxanasına məxsus olan

744 cild əlyazma kitab qeydə alınmışdır [17, s. 56]. 1759-cu ildə 972 əlyazma kitablarının adlarından ibarət siyahı tərtib olunmuşdur. Bu kitabların 744-ü Quran və 228-i müxtəlif əsərlər idi [23, s.44-53].

Məşhur "Hacıbaba" romanının müəllifi 1812-ci ildə Ərdəbildə olmuş C.Moriyer bu kitabxana ilə maraqlanmış və kitabların olduqca pis vəziyyətdə saxlanıldığını görmüşdü. Onun yazdığına görə, kitabların xeyli hissəsi kitab rəflərinə yığılmaq əvəzinə döşəməyə tökülmüşdü [30, s.97].

Ərdəbil şəhəri ruslar tərəfindən 1828-ci ilin yanvarın 25-də işğal edildi. Rusların Ərdəbildən ələ keçirildikləri ən böyük qənimət yerli əhalinin müqəddəs ocaq hesab etdikləri Ərdəbil şəhərindəki Şeyx Səfi məscidinin kitabxanası oldu. Şeyx Səfi məscidini təsvir edən rus hərb tarixçisi yazırdı: "Bu məscidin divarların içində, aşağıda gözəl seçilmiş bir yerdə, tutqun bir qübbənin altında dünyanın hər yerindən müsəlman-şiələrin ziyarətə gəldiyi, həmin məbədin əsasını qoymuş müqəddəsin qəbri vardır. Ondan sağ tərəfdə Səfəvi monarxiyasının əsasını qoyan Şah İsmayılın uyuduğu qəbir yerləşir. Buradan bir qədər aralıda gümüş və xalis qızıl naxışları ilə haşiyələnmiş qapılar bütün şərqdə məşhur olan ərəb və fars əlyazmalarının saxlandığı işıqlı və əzəmətli kitabxanaya aparır" [24, s.315].

Tezliklə, kitabxananı Rusiyaya daşımaq məqsədilə general-adyutant P.P.Suxtelenin rəhbərliyi altında xüsusi komissiya təşkil edildi. P.P.Suxtelen 1828-ci ilin fevralın 9-da İ.F.Paskeviçə məxfi raportunda ayın 8-də Şeyx Səfi məscidinə nəzarət edən hacılar və din xadimlərini toplayaraq onlara Rusiya təbəəliyindəki çoxsaylı müsəlman nəslindən olanların tərbiyəsinə və savadlanmasına qayğı ilə yanaşan Rusiya hökumətinin Şərqin tanınmış yazarların kitab və əsərlərinə böyük ehtiyac duyduğundan bu kitabxanadakı kitabların tanınması və qeydə alınması üçün əmr aldığını bəyan etdikdən sonra, hacılar və din xadimlərinin razılığını ala bildiyini yazırdı. Onun yazdığına görə polkovnik Reut, bir sıra zabit və tərcüməçinin müşayiəti ilə qəbul edilən və qədimi sandıqlara yığılan kitablar yeddi nəfər din xadiminin, o cümlədən 4 mollanın möhürü ilə möhürlənmiş yeşiklərdə yola salınmağa hazırlanmışdı [20, s.589].

Sandıqlar yola salınmazdan öncə "hökmdarın sağlığına dua oxunmuş" və sonra yerli kasıblara 25 çervon ianə verilmişdi. P.P.Suxtelenin yazdığına görə kitabların əldə edilməsinə xərclənən məbləğ ümumilikdə 50 çervona çatırdı.

Sandıqlarda qədimi Quran nüsxələri və digər dini kitablarla birlikdə 166 ədəd kitabın yerləşdirildiyi göstərilirdi. Səkkiz yeşikdə yerləşdirilən kitablar əvvəlcə Ərdəbil qalasına daşınmış, sonra 41-ci yeger alayının iki taqımı, Ərdəbildən ələ keçirilmiş iki artilleriya qurğusu və 8 kazakın müşayiəti ilə Meşkinə aparılmışdı. Kitabxananın Meşkindən Tiflisə aparılması baron Reneyə həvalə edilmişdi. Yük Tiflisə çatan kimi orada kitablara yenidən baxılmasının tələb olunacağına əmin olan P.P.Suxtelen Tiflisin hərbi qubernatoru general-adyunant N.M.Sipyaginə, sandıqlar açılan zaman onun xüsusi nəzarəti altında komissiya təşkil edərək, kataloqun tərtib olunmasını xahiş etmişdi [20, s.589].

"Tiflisski vedomosti" qəzeti yazılırdı: "Rusiya İmperator Gvardiyası alaylarından ibarət Qafqaz korpusu qoşununun Persiyaya müzəffər yürüşü zamanı onun şimal paytaxtından İran taxt-tacı vəliəhdinin yanında fəxri mühafizəsi saxlanılan Azərbaycan paytaxtına daxil olması və Gürcüstanın paytaxtına Persiya qızılının gətirilməsi böyük əlamətdar tarixi hadisədir. Hal hazırda bir alay Rusiya silahı ilə sonuncu müharibə zamanı ələ keçirdikləri Abbas Mirzənin taxtını, Əlahəzrət imperatorun Moskva silah palatasında yerləşdiriləcək Təbriz sexlərində Persiya ustalarının tökmə üsulu ilə hazırladıqları 7 top, Ərdəbil şəhəri qraf Süxtelen tərəfindən alındıqdan sonra ələ keçirilən alimlər aləmi üçün bütün xəzinələrdən qiymətli Ərdəbil kitabxanası, rusların Azərbaycan vilayətində idarəçiliyi zamanı Ucan qalasından götürülən Abbas MİrzənIn qələbələri təsvir olunan iki xəritədən ibarət kurur və qəniməti müşayiət edir" [29].

Ahalsıx məscidinin kitabxanasından aparılan kitabları Ərdəbil kitabxanasının kitabları ilə müqayisə edən "Tiflisski vedomosti" qəzetinin redaktoru A.P.Senkovski yazırdı: "Ərdəbil kitabxanası əlyazmaları Ahalsıx kitabxanası əlyazmaları ilə müqayisədə cah-calallıdır. Ərdəbil kitabxanası kitablarının böyük hissəsi yalnız fars dilində yazılmışdır və bütövlükdə tarixçilər və şairlərin yaratdığı əsərlərdir. Axalsıx kitabları isə tədris müəssisələri üçün yazılmış dərsliklərdir" [1].

P.P.Suxtelen 1828-ci ilin fevralın 9-da Paskeviçə yazırdı: "Hacılar və mollalar mənə İran hökmdarlarının və digər tanınmışların əsrlərlə etdiyi ianə və səxavəti bu ədəbiyyatın qiymətli olduğunu göstərdiyini və böyük Rusiya imperatorunun böyük Şeyx Səfi məscidini mükafatsız qoymayacağına və bundan məhrum etməyəcəyinə ümid etdiklərini bildirirlər. Mən onları bu kitabların surətlə-

rini çıxarılacaqlarına inandırdım və imperator məscidin dağılmış vəziyyətdə olduğunu bilsə, ianə verəcəklərinə ümidləndirdim. Kitabların qaytarılması haqqında yazılı olaraq heç bir öhdəlik götürülməmişdir.” [20, s.589].

Ərdəbildən Təbrizə qayıdan P.P.Suxtelen ruhanilərin sakitliyinə nail olmaq üçün “götürülən kitablara görə Ərdəbil məscidinə 800 çervon mükafat olaraq hədiyyə verilməsi” ərizəsi ilə İ.F.Paskeviçə müraciət etdi. İ.F.Paskeviç yazırdı ki, “mən əmr etdim ki, bu məbləğ o şərtlə verilsin ki, bu kitabların üzünün köçürülməsi, yəni Rusiyada onların ancaq surətlərinin qalması təsdiq olunsun” [23, s.87].

Şahzadə Abbas Mirzə Ərdəbil kitabxanasının kitablarını Rusiyaya aparılmasına razılıq vermirdi. İ.F.Paskeviç hərb naziri A.İ.Çernışevə yazırdı: “Ərdəbil mollaları kitabxananın bizə verilməsinə razılıq versələr də, Abbas Mirzə onun Ərdəbildə saxlanmasıni təkid edirdi. Onu inadından döndərəndən sonra mən Ərdəbildən keçərək bizim sərhədə qayıdan general-leytenant qraf Suxtelenə Şeyx Səfi məqbərəsinə 800 çervon verərək, Ərdəbildən götürülən bütün kitabları tezliklə Gürcüstana göndərməsini əmr etdim. Bundan sonra Abbas Mirzə tələbini dəyişdirdi və bizə onlar tərəfindən heç bir maneçilik qalmadı” [14, s.635].

Rusiya imperiyası Xalq Təhsili Nazirliyinin Şərq əlyazmalarının yerləşdirilməsi haqqındakı hesabat xarakterli məruzəsində Sankt-Peterburq təhsil dairəsinin hamisi K.M.Borozdinin nazirlikdən əlyazmaların Senkovskinin xahişi ilə gətirildiyindən Universitetə verilməsi barəsində vəsatət qaldırılmasını xahiş etdiyi göstərilirdi. Belə ki, K.M.Borozdin Universitetin digər müəssisələrə nisbətən dərs vəsaitləri baxımından daha kasad olduğunu qeyd edirdi. K.M.Borozdinə görə, bu kitablar Universitetə verildiyi halda universitetin şərq ədəbiyyatı kafedrasının vəsaitlərinin zənginləşməsinə kömək etmiş olardı. Digər tərəfdən Rusiya Elmlər Akademiyasının rəhbərliyi akademik X.D.Frenin xahişi əsasında bu kitabların akademiyaya verilməsi ilə bağlı müraciət edildiyi bildirilirdi [14, s.657]. Nazirlər komitəsi isə kitabların bir hissəsinin Elmlər Akademiyasına, digər hissəsinin isə Universitetə verilməsini təklifi ilə çıxış edirdi. Lakin imperator I Nikolay, İmperator İctimai Kitabxanasının bütün arzu edənlərin baş çəkə biləcəyi ziyarətçilərinə qalibiyyətli müharibələrin hərbi qənimətlərini nümayiş etdirən və rus silahının şöhrətini daim xatırladan bir qurum olduğunu bildirməklə “Ərdəbil kitabxanası dövlət mülkiyyəti və İranla müharibənin hərbi qənimətidir; İctimai Kitabxanada saxlanılmalıdır” qərararını verdi [7, s.104]. İlk Şərq əlyazmalarının İctimai kitabxanaya Varşava işğal olanan zaman 1795-ci ildə gəririldiyini qeyd edən “Qafqaz” qəzetnin yazdığına “Persiya kompaniyası Avropa alimlərinə məlum olmayan Ərdəbil kitabxanasını Neva sahillərinə gətirdi” [5].

Tanınmış sovet mədəniyyət tarixçisi, tədqiqatçı B.P.Denike göstərirdi ki, “İmperator İctimai Kitabxanasının şərq manuskriptləri toplusunun iftixarı 1828-ci ildə bu kitabxanaya daxil olunmuş Ərdəbil kitabxanası hesab oluna bilər. Burada biz Şərqin kitab zinətinin möcüzəsini görürük: cah-cəlalla son dərəcə gözəl işlənilmiş parıltılı üzlüyü, çox keyfiyyətli kağızdan hazırlanan vərəqləri, nadir kalliqrafiya və ornament nümunələri, müxtəlif rənglərlə və qızılı naxışlarla bəzədilmiş çoxsaylı bənzərsiz miniatürlər. Manuskriptlərin böyük bir hissəsi Səfəvi sülaləsinin şahları üçün yazılmışdır və onlar tərəfindən bu kitabxanaya verilmişdir.” [4, s.177].

XIX əsrin 20-ci illərində Rusiya qoşunlarının Qacar və Osmanlı dövlətləri ilə apardığı müharibələri nəticəsində Sankt-Peterburq İmperator kitabxanasına 440 möhtəşəm və çox qiymətli əlyazmalar və 1851-ci ilədək müxtəlif yollarla çoxlu kitab kolleksiyaları gətirilmişdi [8, s.27]. İmperator I Nikolayın göstərişi əsasında gətirilən bu əlyazmalar arasında Səfəvi sülaləsinin qurucusu Şeyx Səfi türbəsindən gətirilən incə miniatür rəsmləri ilə bəzədilmiş 166 ədəd XIV-XVII əsrlərin əlyazmalarının Ərdəbil kolleksiyası bədii dəyərinə görə xüsusilə fərqlənirdi.

Mirzə Kazımbəyin 1836-cı ildə nəşr etdirdiyi məqaləsində Avropaya şərq dillərində yazılmış kitabların gətirilməsi və həmin kitabların tərcümə edilərək istifadəsi ətraflı şəkildə təsvir olunur. Bu məqalə məhz Avropaya daşınan şərq əlyazmalarının əhəmiyyətini dəyərləndirirdi [10, s.243-269]. Məqalə təssüf hissi doğurur.

Kitablar İmperator kitabxanasına verildikdən sonra, 1829-cu ilin əvvəllərində kitabların çeşidlənməsi və təsviri üçün İmperator İctimai kitabxanasının fəxri kitabxanaçısı akademik X.D.Frenlə yanaşı xüsusi dəvət olunmuş şərqşünas professorlar F.B.Şarmua və Mirzə Cəfər Topçubaşovun iştirakı ilə fransız dilində bu kolleksiyanın kataloqu hazırlandı [7, s.131]. 1811-ci ilin oktyabrın 13-dən İmperator İctimai Kitabxananın direktoru olmuş A.N.Oleninin təqdimatı əsasında 1829-cu ilin martın

14-də X.D.Fren 3.000 rubl, M.C.Topçubaşov 1.500 rubl, Şarmua isə brilliant qaşlı üzüklə mükafatlandırıldılar. Ərdəbil kitabxanası həm sayına görə, həm də bahalı əlyazmalarına görə kitabxananın daha zəif və azsaylı şərq dilləri əlyazmaları şöbəsini zənginləşdirmiş oldu [7, s.104]. Kataloq çar I Nikolaya təqdim olunduqdan sonra onun fransız və rus dillərində nəşrinə icazə verildi. Lakin naməlum səbəblərdən bu nəşr baş tutmamışdı.

Kataloqun hazırlanması gedişində əlyazmaların tərtib edilən təsvirləri haqqında məlumatlar dövrü mətbuata çapa verilirdi. Ərdəbil kataloqunu hazırlayan akademik X.D.Fren "Sankt-Petersburq alman qəzeti"nin 1829-cü ilin 44-cü sayında nəşr etdirdiyi "Die Bibliothek aus der Scheich-Sefy-Moschee zu Ardebil" ("Ərdəbildəki Şeyx Səfi məqbərəsinin kitabxanası" – R.N., H.H.) [22, s. 52] adlı məqaləsində onun təsvirini vermişdir.

Bu məqalə sonralar akademik B.A. Dorn tərəfindən alman dilində 1846-cı ildə Sankt-Peterburqda nəşr olunmuş "Das Asiatische Museum der Kaiseri. Akademik der Wissenschaften" (Kayseri Asiya Muzeyi. Elmlər Akademiyası – R.N., H.H.) kitabın 346-352-ci səhifələrində yer almış oldu [8, s.27].

Qeyd olunmalıdır ki, Şərq müsəlman əlyazmaları və yaxud manuskriptləri akademik X.D.Frenin tövsiyəsilə dəvət olunan, sonralar kitabxanaçı vəzifəsində işləyən İ.F.Gotvald tərəfindən qaydaya salınmışdı [7, s.131].

Lakin hələ də ümumi kataloq işlənilib hazırlanmamışdı. Bu iş akademik B.A.Dorna həvalə edildi. 1851-ci ildə Dorn "Catalogue des manuscrits et xylographes orientaux de la Bibliotheque Imperiale Publique de St. Petersbourg" (Sankt-Peterburqdakı İmperator İctimai Kitabxananın şərq əlyazmalar və ksiloqraflar kataloqu – R.N., H.H.) kitabını yazıb başa çatdıraraq nəşrə hazırladı [16, s.55]. 764 səhifəlik kataloqda 901 əlyazma haqqında məlumat verilirdi. Burada 255 fars, 247 ərəb əlyazması, 151 çin, 100 türk, 35 mancur, 28 hind, 15 gürcü, 14 yapon, 10 tibet, 9 efiop, 8 kopt, 6 qədim yəhudi, 5 suriya, 5 monqol, 2 kalmık və digər dillərdə olan əlyazmalar təsvir olunmuşdu [28, s.19].

XIX əsrin 50-ci illərində Nəsrəddin şah Qacarın Sankt-Peterburqda olmuş elçisi İmperator İctimai Kitabxanasına gələrək kitabxananın Şərq əlyazmaları şöbəsində saxlanan əlyazmalarla maraqlanmışdı. Şahın elçisi və onu müşayiət edənlər qiymətli əlyazmaları maraqla izləmiş, bu əlyazmaların nadir əlyazmalar olmasına və saxlanmasına təccüb etmişdi [5].

1926-1927-ci illərdə Ərdəbil toplusunun İrana qaytarmaq cəhdi göstəridi. Qaytarmanın təşəbbüskarı sovet vətəndaşı olmuş A.N.Hannibal bununla bağlı Ümumittifaq mədəni əlaqələr cəmiyyətinə müraciət etmişdi. Ümumittifaq mədəni əlaqələr cəmiyyəti Başelmə, xalq komissarı A.V.Lunaçarskiyə və Moskvadakı Dövlət Kitabxanasına müraciətlər göndərmişdi. Sənədlər paketi Leninqraddakı İctimai Kitabxanaya da verilmişdi. Akademik Y.N.Marr 1925-ci ildə İrana səfəri haqqındakı hesabatında Hannibalı Ənzəlidə yaşayan, "İranı çox sevən" bir insan kimi xatırlayırdı. Onun müsəlman "Əli Hannibal" (1902-1966) adını götürdüyü və Tehranda, Qəzvində və Abadanda etnoqrafiya muzeyləri yaratdığı məlum oldu. Ərdəbil toplusunun İrana qaytarılması məsələsi onlara Leninqrad etnoqrafiya muzeyi üçün eksponatlar toplayanda Y.N.Marr və onun həyat yoldaşı S.M.Marrla söhbətləri zamanı müzakirə olunmuşdu. İctimai Kitabxananın direktoru akad. N.Y.Marr onlara rəsmi cavab verə bilmədiyindən məsələ uzanırdı. Nəhayət kitabların qaytarılmaması üçün bəhanə tapıldı: "kitabların qaytarılması ilə bağlı müraciət İran hakim dairələri tərəfindən edilməmişdi". Digər tərəfdən SSRİ ilə İran arasındakı münasıbətlərdəki soyuqluq və bu münasibətlərin daha da pisləşməsi Ərdəbil kitabxanası ilə bağlı qaldırılmış növbəti məsələnin həll olunmamış qalmasını şərtləndirirdi [26, s.83].

2009-cu ilin əvvəllərində İran tarixçisi və Tehran Universitetinin ustadı Emadəddin Şeyxül-Hükəmayinin "Şeyx Səfiəddin Ərdəbili məqbərəsinin sənədlərinin kataloqu" adlı kitabı işıq üzü görmüşdür. İranın "İslami Şura Məclisi Muzeyinin Kitabxanası və Sənədlər Mərkəzi" tərəfindən Tehranda nəşr edilmiş bu əsər Azərbaycan tarixi ilə bağlı təxminən 800 sənədi əhatə edir və onlar haqqında müfəssəl məlumat verir. Məclis kitabxanasının müdiri, prof. Rəsul Cəfəriyan əsərə giriş sözü yazmışdır. E.Şeyxül-Hükəmayi kitabın müqəddiməsində "Şeyx Səfiəddin Ərdəbili və onun xanəgahı", "Şeyx Səfi məqbərəsinin arxivi", "Mədaxil və məxaric siyahıları", "Sənədlər məcmuəsinin əhəmiyyəti", "Sənədlərin tarixçəsi", "Sənədlərin pərakəndəliyi", "Sənədlərin vəziyyəti", "Kataloqun mətni" kimi məsələləri şərh etmiş, bu işdə ona yardımçı olan şəxslərə təşəkkürlərini bildirmiş, mövzu ilə bağlı gərəkli ədəbiyyatın siyahısını vermişdir. Müqəddimədə müəllif bir sıra maraqlı açıqlamalarla çıxış etmişdir [11].

Tədqiqatçı Emadəddin Şeyxül-Hükəmayin tərəfindən əvvəllər Şeyx Səfi məqbərəsinin arxivinə məxsus olmuş və bizim günlərimizə qədər salamat qalmış sənədlər hal-hazırda əsas etibarilə İranın müxtəlif kitabxanalarında və qurumlarında – Tehrandakı İran Milli Muzeyində, Vəqflər və Xeyriyyə İşləri İdarəsində, Milli Sənədlər İdarəsində, Təbrizdəki Azərbaycan Muzeyində, Ərdəbildəki Şeyx Səfi məqbərəsində mühafizə olunduğu müəyyənləşdirilmişdir. Bunlardan savayı, İrandakı və bəzi digər ölkələrdəki müəyyən kolleksiyalarda da bu arxivdən çıxmış ayrı-ayrı sənədlərə rast gəlindiyi göstərilir.

Sənədlərin müxtəlif yerlərə pərakəndə olmasının öz tarixçəsi vardır. Müəllif yazır ki, 1972-ci ildə Şeyx Səfi məqbərəsindən İran Milli Muzeyinə kitablarla yanaşı iki sandıq sənəd də gətirilmişdi. Bu sandıqlardan birində 1592-1781-ci illər arasında Şeyx Səfi məqbərəsi vəqflərinin illik mədaxil və məxariclərini göstərən və minlərlə vərəqdən ibarət olan sənədlər vardı. Bu sənədlərdə məqbərənin mülkiyyətində olan kəndlərdən, tarlalardan, imarətlərdən, hamamlardan, dəyirmanlardan, icarə haqlarından və s. gələn mədaxil, eyni zamanda əmlak satınalmalarına, təmirlərə, xəstələrin müalicəsinə, ərzaqlara, dəftərxana ləvazimatına və s. ehtiyaclara xərclənən vəsait, məqbərədə xidmət göstərən işçilər (şeyxlər, xadimlər, hafizlər, təhvildarlar, sufilər, müdərrislər, kitabdarlar, səhhaflar və s.) üçün nəzərdə tutulmuş məvaciblərə sərf olunan məbləğlər qeydə alınmışdır. Şübhə yoxdur ki, heç bir digər qaynaq Şeyx Səfi məqbərəsinin vəqflərinin iqtisadi tarixini bu sənədlər qədər dəqiq əks etdirə bilməz [11].

İranlı tədqiqatçı müqəddimədən sonra sənədlərin kataloqunu təqdim etmişdir. Burada sənədlərin şifrəsi, tarixi, növü, dili, orijinallığı, ölçüsü, vəziyyəti, coğrafiyası, məzmunu, imzalayıcısı, qazısı, katibi və s. haqqında məlumatlar verilmişdir. Şeyx Səfi məqbərəsi arxivinin sənədlərinin böyük əksəriyyəti hal-hazırda İran Milli Muzeyində saxlanılır. Müəllif öncə bu muzeydəki sənədlərin təsvirini vermiş, daha sonra isə Vəqflər və Xeyriyyə İşləri İdarəsində, Şeyx Səfi məqbərəsində və Azərbaycan Muzeyində mühafizə olunan sənədlərdən bəhs etmişdir. Kitab şəxs adları, ləqəblər, künyələr, yer adları, məkan növləri üzrə geniş göstəricilərlə təchiz olunmuşdur. Həmçinin sənədlərin xronoloji ardıcıllığa görə siyahısı da əsərdə yer almışdır. Heç şübhəsiz ki, bütün bunlar kataloqdan istifadəni xeyli dərəcədə asanlaşdıran amillərdir. Müəllif tərəfindən bir neçə sənədin surəti də nümunə kimi nəşr edilmişdir [11].

1983-cü ildə nəşr olunmuş "A.A.Bakıxanov. Əsərləri. Risalələri. Məktubları" adlı kitabda Rusiya Milli Kitabxanasının Arxiv sənədləri şöbəsindən götürülmüş Ahalsıx kitabxanasının 148 əlyazmasının siyahısı (fond 1, siyahı 1, 1829-cu il, iş 4, v.2-10) [3, s.270-278] və 1829-cu ildə Ərzurum və Bəyaziddən əldə edilən 45 ədəd kitab və əlyazmaların siyahısı (fond 1, siyahı 1, 1829-cu il, iş 4, v.38-40) [3, s.278-280] yer almışdır. Xosrov Mirzə vasitəsilə Sankt-Peterburqa gətirilmiş 18 qiymətli əlyazmanın siyahısı da məhz Rusiya Milli Kitabxananın Arxiv sənədləri şöbəsindədir (Отдел Архивных документов РНБ, ф.1, оп.1, 1829 г., д.4). Rusiya Milli Kitabxanasının Arxiv sənədləri şöbəsində həmçinin Ərdəbil kitabxanasının əlyazmaları siyahısını əldə etmək mümkündür (Отдел Архивных документов РНБ, ф.1, оп.1, 1828 г., д.17, 58 л.).

Rusiya Milli Kitabxanasından Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutuna gətirilmiş Ərdəbil kolleksiyasının 1481-ci ildə Dərviş Məhəmməd Tağı tətəfindən köçürülmüş Nizaminin "Xəmsə"sinin 45 miniatürlü əlyazma nüsxəsi (Şifrə: Dorn 339) bədii tərtibatı baxımından çox zəngindir. Miniatürlərdən ikisi "Sirlər xəzinəsi", on dördü "Xosrov və Şirin"də, doqquzu "Leyli və Məcnun"da, on ikisi "Yeddi gözəl"də, yeddisi isə "İsgəndərnamə"də verilmişdir. Nüsxənin iyirmi yeddi vərəqinə Şah Abbas kitabxanasının möhürü basılmışdır. Nizaminin Ərdəbil əlyazmaları kolleksiyasından gətirilmiş əlyazmalardan biri də 1507-ci ildə üzü köçürülmüş nəfis, qovluqlu və ornamentli meşin cildə tutulmuş "Xəmsə" nüsxəsidir (Şifrə: Dorn 340). Bu əsər Dornun hazırladığı kataloqda "Xosrov və Şirin" adı ilə göstərilmişdir [13, s.8].

Hal-hazırda kitabxananın əlyazmalar şöbəsinin Dornun kataloqunda İran mənşəli ərəb əlyazmaları olan "(Allahın) gözəl adları" (Şifrə: Dorn 56) [Bax: 19, s.137-147] və miniatür və kalliqrafiyalar toplanmış albomunda yerləşdirilən kalliqrafiyasından ayrı-ayrı nümunələr (Şifrə: Dorn 147-149) vardır. Burada kolliqrafiya, ornamentliyi və miniatür cəhətdən son dərəcə gözəl bədii tərtibata malik olan fars əlyazmaları saxlanılır. Minlərlə əlyazmadan 1333-cü ilin "Şahnamə"sindən Füzulinin XIX əsr "Divan"ına qədər 140 əlyazma Herat, Təbriz, Qəzvin, Şiraz, Məşhəd, İsfahan, Qacar və digər məktəblərin miniatürləri ilə bəzədilmişdir. Xosrov Dəhləvinin "Leyli və Məcnun" (Şifrə: Dorn 394-395), Səfəvi şahı Təhmasib tərəfindən 1524-1525-ci illərdə köçürülmüş Arifinin "Quy və çau-

qan" ("Top və çovkan" oyunun adıdır – R.N., H.H.) (Şifrə: Dorn 441), Şahinin "Divanı" (Şifrə: Dorn 417) və s. buna misal ola bilər [27, s.225-226].

Ərdəbil əlyazmalarından elmi məqsədlər üçün ilk dəfə əlyazmaların naxışları ilə maraqlanan İmperator İctimai kitabxanasının direktoru A.N.Olenin olmuşdur. Olenin özünün "Arxeoloji əsərlərində" "Şahnamənin" (Şifrə: Dorn 329) miniatürlərini öz arxeoloji tapıntıları ilə müqayisə etmək üçün istifadə etmişdir. 1912-ci ildə İsveç alimi F.R.Martin Londonda nəşr etdirdiyi "The miniature painting and painters of Persia, India and Turkey from the 8th to the 18th century" adlı tədqiqat əsərində albom formatında 271 ağ-qara illüstrasiyalar da təqdim etmişdir. Burada müəllif az qala ən yaxşı miniatürlərin hamısını verə bilmişdir. O, əsərin yazılmasında Ərdəbil toplumunun iki miniatür və kalliqrafiyaları toplanmış albomundan və dörd ədəbi əsərdən istifadə etmişdir.

Sonralar zaman keçdikcə Ərdəbil əlyazmaları mütəmadi olaraq elmi dövriyyəyə daxil olmağa başladı. Ədəbi və tarixi əsərlərin köhnə siyahıları mətnlərin və elmi araşdırmaların tənqidi nəşrlərinin hazırlanmasında istifadə edilmişdir. Miniatürlərdə həm də xarici tədqiqatçılar tərəfindən nəşr edildi. M.M.Dyakonovun və digərlərinin hazırladıqları "Leninqrad toplularının "Şahnamə" əlyazmasının İran miniatürləri" adlı kitab 1935-ci ildə nəşr olundu. Rusiya Milli Kitabxanasının əlyazmaları şöbəsi şərq fondunun sektor müdiri, Ərdəbil kitabxanasının kolleksiyası haqqında çoxsaylı məqalələrin müəllifi Vasilyeva Olqa Valentinovnanın yazdığına görə, Ərdəbil əlyazmaları kolleksiyasından azərbaycanlı tədqiqatçılardan A.Y.Qazıyev və K.Kərimov də istifadə etmişlər [23, c.44-53].

1996-1997-ci illərdə və 2001-ci ildə İran İslam Respublikasının DİN-nin Sənədlər Mərkəzinin Rusiya Milli Kitabxanası ilə birgə layihəsi üzrə çoxusu Ərdəbil toplumu olmaqla, 220 fars və ərəb əlyazmalarının mikrofilmləşdirilməsi həyata keçirilmişdi.

İllyuminləşdirilmiş Ərdəbil əlyazmaları 2002-ci ildən başlayaraq Rusiya Milli Kitabxanası tərəfindən Parisdə, Vaşinqtonda, Milanda, Londonda və Dohada beynəlxalq sərgilərdə nümayiş etdirilmək üçün göndərilməsinə başlanıldı.

Beləliklə, qaynaqlar və ədəbiyyat materiallarına hətta ötəri nəzər salınması göstərir ki, Azərbaycan tarixi, mədəniyyəti və s. aid qiymətli məlumatların unikal məxəzlərdən biri olan Ərdəbil kitabxanası əsrlərdən bəri müxtəlif qəbildən olan əcnəbilərin, habelə əcnəbi qəsbkarların diqqətini çəkmiş, qanlı müharibələri nəticəsində dəfələrlə qarət olunmuşdur. İndi bu biqiymət elmi saxlancın dəyərli incilərinin çoxu bir çox qonşu ölkələrinin arxiv, muzey və kitabxanalarında saxlanılmaqdadır. Onların axtarılaraq aşkara çıxarılması, heç olmasa bu qiymətli məxəzlərin surətlərinin Vətənə gətirilərək çap olunub geniş ictimaiyyətə çatdırılması, onlardan Vətən tarixinin bir çox məqam və mərhələlərinin öyrənilməsində istifadə olunmasına imkan yaradılması, düşünürük ki, hər bir Azərbaycan vətəndaşının milli borcu və şərəfi işidir.

## ƏDƏBİYYAT

1. Ахалцихская мечеть и библиотека (Из записок П.Санковского) // Тифлисские ведомости, 11 октября 1828 года.
2. Araslı H. XVII-XVIII əsrlərdə Azərbaycan ədəbiyyatı tarixi. – Bakı: Azərbaycan Universiteti, 1956. – 324 s.
3. Бакиханов А.К. Сочинения. Записки. Письма. – Баку: Элм, 1983. – 344 с.
4. Денике Б. Искусство востока. – Казань: Издание комбината издательства и печати А.Т.С.С.Р., 1923. – 250 с.
5. Фельетон // Кавказ, 9 апреля 1852 года.
6. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. 2 hissədə. 1 hissə. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004. – 328 s.
7. Императорская Публичная библиотека за сто лет, 1814-1914. – СПб.: Типография В.Ф. Киршбаума, 1914. – 586 с.
8. Казим-бек Ал. Роспись восточным рукописям и ксилографам Императорской Публичной Библиотеки в С. Петербурге // Современник, 1852, № 4, Отдел III. – С.17-43.
9. Mahmudlu Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. – Bakı: Təhsil, 2012. – 296 s.

10. Мирза Казем-Бек. О появлении и успехах восточной словесности в Европе и упадке в Азии // Журнал министерства народного просвещения. Москва, 1836, ч.21, отдел II. – С.243-269.
11. Musalı N. Ərdəbil məqbərəsinin arxiv sənədləri Azərbaycanın orta əsrlər tarixinin mənbəyi kimi. - http://bao.az/categories_Tarix/subcategories_azerbaycan-tarix/product_7077479858 [Müraciət tarixi: 01.12.2021].
12. Musalı N. Səfəvilər dövründə Ərdəbildə xəttatlıq və katib sənəti. - http://bao.az/categories_Medeniyy%C9%99t/subcategories_Medeniyy%C9%99tparent/product_1902392599 [Müraciət tarixi: 01.12.2021].
13. Nurəliyeva T. Əlyazma kolleksiyaları kataloqu. – Bakı: Nurlan, 2006. – 372 s.
14. Отношение гр. Чернышева к гр. Паскевичу, от 15-го ноября 1828 года, №1785 // Акты собранные Кавказской Археографической Комиссией. Том VII. Тифлис: Типография Главного управления Наместника Кавказского, 1878, документ 632.
15. Отношение гр. Паскевича к гр. Чернышеву, от 6-го июня 1828 года, №181 // Акты собранные Кавказской Археографической Комиссией. Том VII. Тифлис: Типография Главного управления Наместника Кавказского, 1878, документ 606,
16. Отчет о действиях Императорской С.Петербургской Академии Наук за 1851 г. // Современник, 1852, т.34, Отдел III. – С.39-60.
17. Özgüdenli O.G. Şeyh Safîu'd-Dîn Erdebilî'nin Türbesinde Bulunan Kitaplar // Marmara Üniversitesi Fen-Edebiyat Fakültesi Türklük Araştırmaları Dergisi. Sayı: 10. İstanbul, 2001. – S.43-56.
18. П.Э. Описание Ардебильской мечети // Тифлисские ведомости, 3 октября 1828 года.
19. Полосин В.В. Невербальная информация в арабских рукописях. – СПб.: Президентская библиотека, 2016. – 296 с.
20. Рапорт ген. - л. гр. Сухтелена 2-го ген. Паскевичу, от 9-го февраля 1828 года. – Ардебиль. Секретно // Акты собранные Кавказской Археографической Комиссией. Том VII. Тифлис: Типография Главного управления Наместника Кавказского, 1878, документ 547.
21. Рукописная книга в культуре народов востока. Очерки книга первая. – Москва: Главная редакция восточной литературы,1987. – 559 с.
22. Савельев П.С. О жизни и ученых трудах Френа. – СПб.: Типография Экспедиции заготовления государственных бумаг, 1855. – 81 с. с.23
23. Щербатов А.П. Генерал-фельдмаршал князь Паскевич. Его жизнь и деятельность. Т.3. – СПБ.: Типолитография Р. Голике, 1891. – 406 с.
24. Утверждение русского владычества на Кавказе. Том 4, часть 1. – Тифлис: Типография штаба Кавказского военного округа, 1906. – 320 с.
25. Васильева О.В. «Ардебильская библиотека есть государственная собственность и … принадлежит к хранению в Публичной библиотеке»: история поступления и описания (1828–1829) // Исторический архив, Москва, 2014, № 5. – С.44-53.
26. Васильева О.В. Ардебильское собрание: несостоявшаяся реституция // Азия и Африка меняющемся мире. XXVIII Международная научная конференция по источниковедению и историографии стран Азии и Африки. СПб., 2015.
27. Васильева О. В. Восточные рукописные фонды Российской национальной библиотеки // Письменные памятники востока, 2005, 1(2). – С.217-238.
28. Васильева О.В., Шилов Л.А. Академик Б.А. Дорн – библиотекарь Императорской Публичной библиотеки // Письменные памятники востока, 2005, 2 (3). – С.16-25.
29. Внутренные известие // Тифлисские ведомости, 11 июля 1828 года.
30. Ениколопов И. Грибоедов и Восток. – Баку: Азербайджан, 1998. – 184 с.
31. Васильева О.В., Ястребова О.М. Поэмы Низами в книжном искусстве (по материалам Отдела рукописей Российской национальной библиотеки) / Виртуальные выставки РНБ. - http://expositions.nlr.ru/ex_manus/nizami/1.php [Müraciət tarixi: 01.12.2021].

**РАМИЛЬ НИФТАЛИЕВ**
*Ведущий научный сотрудник отдела «Новая история и история геноцидов против азербайджанского народа» Института истории имени А.А.Бакиханова НАНА, доктор философии по истории, доцент*
**ГАДЖИ ГАСАНОВ**
*Заведующий отделом «Новая история и история геноцидов против азербайджанского народа» Института истории имени А.А.Бакиханова НАНА, доктор философии по истории, доцент*

## ИЗ ИСТОРИИ АРДЕБИЛЬСКОЙ БИБЛИОТЕКИ – АЗЕРБАЙДЖАНСКОЙ НАУЧНОЙ ЖЕМЧУЖИНЫ, НЕОДНОКРАТНО РАЗГРАБЛЕННОЙ ЗАВОЕВАТЕЛЯМИ

В данной статье на основе материалов из источников и литературы повествуется об истории Ардебильской библиотеки, являющейся в течении многих веков незаменимой кладезью средневековых раритетов Азербайджана, рассказывается о содержании и значении жемчужин, которые были разграблены и увезены в чужие страны.

*Ключевые слова*: Азербайджан, Ардебиль, мавзолей Шейха Сафи, манускрипт, оккупация, ограбления, Санкт-Петербург.

**RAMIL NIFTALIYEV**
*Leading researcher of the department "New history and history of genocides against the Azerbaijani people" of the Institute of History named after A.A. Bakikhanov of ANAS, Ph.D., associate professor*
**HAJI HASANOV**
*Head of the department "New history and history of genocides against the Azerbaijani people" of the Institute of History named after A.A.Bakikhanov of ANAS, Ph.D., associate professor*

## FROM THE HISTORY OF THE ARDABIL LIBRARY – THE AZERBAIJANI SCIENTIFIC PEARL REPEATEDLY PLUNDERED BY THE CONQUERORS

This article, based on materials from sources and literature, tells about the history of the Ardabil library, which for many centuries has been an irreplaceable storehouse of medieval rarities of Azerbaijan, tells about the content and the meaning of pearls that were shattered and taken away to foreign countries.

*Keywords*: Azerbaijan, Ardabil, scrool of Sheykh Safi, manuscript, irreplaceable, robbery, Sankt-Petersburg.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 dekabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Elmar Məhərrəmov, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24); UOT 39**

**TELMAN MUSAYEV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,*
*"Humanitar fənlər" kafedrasının müəllimi*
**telman.musaiev@mail.ru**

# XIX – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ QARABAĞ BÖLGƏSİNDƏ QOYUNÇULUĞUN VƏ YUN TƏDARÜKÜNÜN VƏZİYYƏTİ

*Xalçaçılıq sənəti Azərbaycanın Qarabağ bölgəsində tarixən yüksək inkişaf etmiş sənət sahələrindən biri olmuşdur. Məlumdur ki, bu sənət sahəsinin inkişafını şərtləndirən faktorların sırasında istehsalın xammalla – yüksək keyfiyyətli yunla təchizatı mühüm rol oynamışdır. Məqalədə XIX əsrin əvvəllərində Qarabağ bölgəsinin qoynçuluq təsərrüfatında yaranmış tənəzzülün səbəbləri və XIX əsrin ikinci yarısında qoyunçuluğun sürətli inkişafına təkan vermiş daxili və xarici amillər araşdırılır, eləcə də artan yun istehsalının XIX əsrin sonlarında xalça məmulatı istehsalının inkişafına təsiri müəyyənləşdirilir. Məqalədə həmçinin XX əsrin əvvəllərində bölgədə qoyunçuluğun tənəzzülünə səbəb olmuş əsas amillər araşdırılır.*

*Açar sözlər:* Qarabağ, xalçaçılıq, xammal bazası, qoyunçuluq, yun tədarükü.

*Giriş.* Azərbaycanın Qarabağ bölgəsi əsrlər boyu özünün incə toxunuşlu xalçaçılıq məmulatları ilə məşhur olmuşdur. Burada istrehsal edilən xalçalar əl əməyi, göz nurunun məhsulu olmaqla yanaşı, həm də bədii sənət nümunələri kimi istər ölkə daxilində, istərsə də xarici ölkələrdə böyük şöhrət qazanmışdır. Tədqiq olunan dövrdə xalçaçılıq sənətinin yüksək inkişafını şərtləndirən faktorların sırasında istehsalın təbii boyaq maddələri ilə yanaşı yüksək keyfiyyətli yunla təchizatı mühüm rol oynamışdır. Əslində xalaça-palaz istehsalı daha çox o rayonlarda yayılmışdı ki, orada qoyunçuluqla məşğul olunurdu. Azərbaycanın, o cümlədən Qarabağ bölgəsinin təbii-coğrafi şəraiti və faunasının zənginliyi hələ qədim dövrlərdən xalçaçılıq sənətini bol yunla təmin edən qoyunçululuğun geniş yayılmasına imkan yaratmışdı. Tədqiqatlar Azərbaycanda hələ mezolit dövründə əhalinin məişətinə daxil olan maldarlığın neolit dövründə geniş inkişaf etdiyini, eneolit dövründə yaylaq və qışlaq ərazilərində yarımköçəri qoyunçuluğun yüksək inklişaf səviyyəsinə qalxdığını göstərir. Mütəxəsislər hətta Qarabağ düzünü qoyunçuluğun beşiyi də hesab edirlər [3, s.33]. Son tunc və dəmir dövrlərində isə qoyunçuluq artıq heyvandarlığın əsasını təşkil etmişdir. Antik dövrün müəlliflərindən Heradot (e.ə.IV əsr), Starbon (e.ə. I əsr) və Klavdi Elman (II əsr) Qarabağ bölgəsinin də daxil olduğu Albaniyada qoyunçuluğun yüksək inkişafı və hədsiz məhsuldar qoyun sürüləri haqqında məlumatlar vermişlər. XIII – XV əsrlərdə Azərbaycanın tayfaları və onların qurduqları feodal dövlətlər qoyunçuluğa xüsusi önəm verərək qüdrətli dövlətlərə çevrilmişdilər [8, s.11-15]. Göstərilən məlumtlardan aydın olur ki, xalqımız, xüssusilə də yarımköçəri həyat tərzi keçirən tayfaları hələ qədim dövrlərdən qoyunçuluqla məşğul olmuş və tədqiq etdiyimiz dövrdə də fəaliyyət göstərmişlər. Qarabağın köklü tayfaları – cavanşir, otuziki, iyirmidörd, pərakəndə halda cavanşir və otuziki tayfalarının təkibinə daxil olmuş kəbirli və ətyeməzli camaatı və püsyan kürdləri tarixən bölgədə əkinçilklə yanaşı əsasən qoyunçuluqla məşğul olmuşlar və tədqiq etdiyimiz dövrdə də qoyunçuluq təsərrüfatının inkişafında mühüm rol oynamışlar.

*Qarabağ bölgəsində qoyunçuluq təssərüfatın inkişaf dinamikası.* XIX əsrin əvvəllərində Qarabağ bölgəsində qoyunçuluğun vəziyyəti haqqında tutarlı məlumatlar az olsa da, XVIII əsrin birinci yarısında tərtib edilmiş "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə verilən məlumatlarla tanışlıq bu barədə müəyyən fikir yürütməyə imkan verir. Doğrudur, "Müfəssəl dəftər"də bölgədə saxlanan qoyunların sayı haqqında heç bir məlumat verilmir. Lakin mənbədə adı keçən tayfaların istifadə etdiklər yaylaq və qışlaqlar, onaların əhatə etdiyi ərazilər, türk vergi orqanlarının "qoyun vergisi" adı ilə onlardan topladıqları vergilər haqqında aydın məlumatlar bölgədə qoyunçuluğun geniş yayıldığını söyləməyə əsas verir. Göstərilir ki, cavanşir və bu tayfanın tərkibində olan iyirmidörd tayfalarının oymaqları əsasən Kür çayı və Muxur dağının ətraflaırnda, Güştaş adlı yerdə, eləcə də Bayad, Dizaq, Vərəndə, Xaçın nahiyələrinin və Arasbar sancağının Xan arxı sahili ərazilərində, Ləmbəran kəndi ətrafında qışlayır, İrəvan ətrafı ərazilərdə, Güştaps nahiyəsi ərazisi,

Əlibəy çayı ətrafı və Həkəri nahiyəsəi, Naxçıvan sancağının Sisiyan yaylaqlarında yaylayırdılar. Otuziki tayfasının oymaqları Bayad, Çelaberd, Vərənd nahiyələrinin, Bərdə və Arasbar sancaqlarının ərazisində, Məğaviz dərəsi və Kür sahili ərazilərdə qışlayır, Qapan sancağı, İrəvan sərhədlərindəki və Təbriz əyalətindəki yaylaqlara köçürdülər. Püsyan kürdləri camaatı Bərgüşad nahiyəsində qışlayıb, İrəvan və Naxçıvan yaylaqlarında yaylayırdılar. "Müfəssəl dəftər"də hər bir oymaqdan toplanan vergilər haqqındakı məlumatlar əsasında apardığımız hesablamalar göstərir ki, Qarabağ bölgəsində yaşayan 45 oymaq, 1 camaatlıq və 2 topluluqda əhali qoyunçuluqla məşğul olurdu və buna görə 1727-ci ildə türk vergi orqanlarına 414470 ağça həcmində vergi ödəmişdilər [1, s.436-471]. Toplanan vergilərin miqdarından və oymaqların sayından görünür ki, qoyunçuluq cavanşir tayfasının oymaqlarında daha çox inkişaf etmişdi. 1723-cü ildə türk vergi məmurları bu tayfanın 24 oymağından ümumilikdə 197180 ağça "qoyun vergisi" toplamışdılar. Bu tayfanın təkcə 71 nəfər vergi ödəyicinin yaşadığı Köçərili oymağından "qoyun vergisi" adı altında 29000 ağça vergi toplamışdı ki, bu da oymaqdan toplanan ümumi verginin 54 %-dən çoxunu təşkil edirdi.

Kiçik Qafqaz dağlarının alp çəmənlikləri ilə zəngin yaylaqları bölgənin kəndlərində də qoyunçuluğun inkişafı üçün münbit şərait yaradırdı. Dövrün bu sahə üzrə tədqiqatçısı M.A.Skibitski yazırdı ki, Şuşa, Cəbrayıl və Cavanşir qəzaları Qarabağ bölgəsində qoyunçuluğun yayıldığı əsas qəzalar idi. Onun məlumatına görə Qarabağ bölgəsində istifadə üçün əlverişli 246515 desyatin yaylaq sahəsi var idi [24, s.1-3,12-13]. Qarabağ və Mil düzləri bölgənin əsas qışlaq rayonları idi. Qışda yağıntılar nəticəsində alçaq otlarla örtülmüş bu düzlər az tələbkar və dözümlü heyvan olan qoyun üçün təbii otlaqlara çevrilirdi [14, s.21].

Xanlıqlar dövrünə aid mənbələrdə Qarabağda xırda buynuzlu mal-qaranın sayı haqqında məlumat azdır. Mirzə Camal Qarabaği İbrahimxəlil xanın mal-qarasının sayı haqqında ümumi məlumat verərək yazırdı ki, "Xanın... xüsusi qoyun sürüləri, malı, camışı o qədər çox idi ki, saymaqla qurtarmazdı" [6, s.164]. Xanlıqlar dövründə qoyunçulardan natural vergi kimi yuyulmamış yun alınırdı [14, s.9].

Qarabağ bölgəsində qoyunçuluğun vəziyyəti haqqında ilk statistik məlumata XIX əsrin 30-cu illərinə aid mənbədə rast gəlirik. Mənbə bu dövrdə Qarabağ əyalətində 300 min qoyun və keçinin saxlandığı haqqında təxmini məlumat verilir [19, s.296]. Qeyd etmək lazımdır ki, Rusiya-İran müharibələri Qarabağ bölgəsinin qoyunçuluq təsərrüfatına da böyük zərbə vurmuşdu. Müharibələr zamanı qoyun sürülərinin qaçırılması haqqında o dövrün mənbələrində çoxlu məlumatlar var. Mənbələrin birində göstərilir ki, müharbə zamanı 24037 baş qoyun qaçırılmışdı [9, s.234]. Buna baxmayaraq Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra yaranan siyasi sabitlik, eləcə də XIX əsrin sonrakı onillklərində xalça məmulatlarına olan təlbatın sürətlə artması Qarabağda qoyunçuluğun sürətli inkişafına da təkan vermişdi. Belə ki, 1845-ci ilin məlumatına görə Qarabağ əyalətində 260000 baş qoyun və keçi var idi və satışa 18000 baş qoyun və 190775 rubl məbləğində 10960 pud yun çıxarılmışdı [25, s.91]. Bu məlumat, həm də XIX əsrin 40-cı illərində Qarabağ bölgəsində qoyunçuluğun kənd təsərrüfatının digər sahələri ilə müqayisədə daha az natural xarakter daşıdığını və əmtəəlik dərəcəsinin daha yüksək olduğunu göstərir. Əslində bu dövrdə Qarabağ bölgəsi qoyun və keçilərin sayına görə Azərbaycanın digər qəzalarından geridə qalırdı. Müqayisə üçün qeyd edək ki, elə bu dövrdə təkcə Yelizavetpol (Gəncə) qəzasında saxlanılan qoyun və keçilərin sayı 441180 başa çatırdı [25, s.86]. Buna baxmayaraq, XIX əsrin ikinci yarısından başlayaraq xalça məmulatlarına tələbatın sürətlə artması Qarabağ bölgəsində də qoyunçuluğun inkişafına ciddi təkan vermişdi. 1851-ci ildə Şuşa qəzasında yalnız qoyunların sayı 307562 başa yüksəlmişdi. Bu dövrdə Şuşa qəzası qoyun sayına görə Azərbaycan qəzaları arsında ilk yerlərdən birini tuturdu. 1855-ci ildə isə bu rəqəm bir az da artaraq 367580 başa çatmışdı [25, s.86]. XIX əsrin sonlarında, xüsusilə xarici bazarlarda xalça məmulatlarına tələbatın kəskin artması qoyunçuluğun inkişafına yeni təkan vermişdi. 1891-cı ilin məlumatına görə bu dövrdə Qarabağın 4 qəzasında saxlanılan qoyunların sayı birlikdə həmin əsrin 50-ci illəri ilə müqayisədə 2 dəfəyə yaxın artaraq 600 min başa çatmışdı [26, s.265]. Müqayisə üçün göstərək ki, Azərbaycanın əsas xalçaçılıq mərkəzlərindən biri olan Quba qəzasında həmin ildə 500 min baş qoyun qeydə alınmışdı. Bunu da xüsusu qeyd etmək lazımdır ki, tədqiq olunan dövrdə qoyunçuluğun vəziyyəti haqqında əlimizdə olan statistik məlumatlar reallığı heç də tam əks etdirmir. Belə ki, çar hökuməti yaylaq və qışlaqda, eləcə də kəndli təsərrüfatında olan

qoyunların hamısını siyahıya almaq iqtidarında deyildi. Digər tərəfdən, kəndlilər ağır vergilərdən yayınmaq üçün çox vaxt öz qoyunlarının miqdarı haqqında düzgün məlumat vermirdilər [15, s.71].

*Bölgədə yetişdirilən qoyun cinsləri.* Tədqiq olunan dövrdə, əsasən bölgədə yetişdirilmiş ən qədim "qarabağ" cinsi qoyunlar saxlanılırdı [22; 16, s.38]. Tədqiqatçı M.İ.Skibitski XIX əsrin sonlarında "qarabağ" cinsinin dözümlülüyünə, uzaq məsafəyə yol getməyə davamlılığına, yüksək nəsil vermə qabiliyyətinə və ətinin tamlığına görə bütün yerli cinslərdən yüksək qiymətləndirlidiyini qeyd edirdi [24, s.75]. "Qarabağ" cinsinin yunu qaba olub, əsasən boz-külrəngi idi və sürülərdə ağ və ya qara qoyunlara az rast gəlinirdi. Bu cinsin yun məhsuldarlığı isə istər keyfiyyəti, istərsə də qırxılan yunun miqdarına görə yaxşı sayılırdı. Belə ki, iki qırxımda qoyunlar 2,4 kq., qoçlar isə 3,6 kq. yun verirdi. Yunun tərkibində "ölü" tükün çox olması xalçaçılıq üçün əlverişli idi [20, s.253; 8, s.128-129]. Zəngəzur qəzasında yunu uzun və zərif olan "qızıl qoyun" cinsi yayılsa da sayı azlıq təşkil edirdi [24, s.75]. Mil düzündə isə az sayda yumuşaq və daha çox ağ rəngli yun verən "şahsevən" cinsi yayılmışdı [14, s.41]. XIX əsrin ikinci yarısında Qarabağ kəllədar təsərrüfatında "qarabağ" qoyun cinsinin uzun müddətli seleksiya nəticəsində "qaradolaq" adlanan yeni qoyun növü yaranmışdı. Bu qoyun növü ən çox Ağdam qəzasının cənub-şərqində, Kür çayı sahilində yayılmışdı. "Qaradolaq" növü "qarabağ" cinsinin uzaq məsafəyə yol getmək, yemləməyə az tələbkar, xəstəliklərə qarşı dözümlü və ən əsası, yunluq kimi əlamətlərini daşıyırdı. Tədqiqatçılar bu cins qoyundan alınan yunu keyfiyyətinə görə məşhur ingilis "mixni" qoyun cinsindən alınan yuna yaxın olduğunu qeyd edirlər. "Qaradolaq" cinsinin yunu da "qarabağ" cinsində olduğu kimi boz rəngli idi. Ağa yaxın boz rəngli yun müxtəlif rənglərə asanlıqla və yaxşı boyandığından xalçaçılıq üçün birinci dərəcəli hesab edilir, Qarabağ bölgəsinin bazarlarında böyük tələbatla satılırdı [18, s.101].

*Yun tədarükü.* Qoyunçuluq təsərrüfatının son məhsulu kimi yunun keyfiyyətli tədarükünün toxuculuq sənəti, xüsusilə də xalça məmulatı istehsalı üçün mühüm əhəmiyyət daşıyırdı. Yun qırxımının nə vaxt aparılması onun liflərinin uzunluğuna, şəffaflığı və təmizliyinə, boyaqqəbuletmə qabiliyyətinə təsir göstərirdi. Yun qırxımı adətən yazda ya kəndlərdə, ya da qışlaqlarda, ya da yayda yaylaqlarda həyata keçirilirdi. Yay qırxımından alınan yun az olsa da, yaz qırxımından alınan yuna nisbətən incə və təmiz olduğundan xalça toxuculuğu üçün daha yararlı idi. Yaz qırxımı yun çirkli olsa da yüksək lifliliyi ilə fərqlənirdi. Yüksək keyifyətli xalça istehsalı üçün zərif yunu və parlaqlığı ilə fərqlənən quzu yunundan istifadə olunurdu [10, s.26-27].

Kəndli təsərrüfatlarında xalçaçılıqla məşğul olan ailələr yunu özlərinin saxladıqları qoyunlardan əldə edirdilər. Şuşa şəhərində və digər böyük məntəqələrdə isə yunu bazarlarda dəllalardan alırdılar. Yunun alımı və satışı ilə əsasən yerli dəllalar məşğul olurdu [24, s.76-77]. Tədqiqatçı S.İ.Quli-şambarov yun tədarükü prosesini araşdıraraq dəllallar ordusunun fəaliyyətinin bu sahəyə mənfi təsirini müəyyənləşdirərək yazırdı ki, "payız və yaz qırxımı zamanı kreditorlar qoyunçuları mühasirəyə alır, yunu borc əvəzinə faizlə birlikdə onlardan alır və çox vaxt yunun qiymətini də onlar müəyyən edirdilər. Onalr qoyunçuların məhdud imkanlarından istifadə edərək bütün yunu onlardan çox aşağı qiymətə alırlar. Dəllallar kiçik kəndli təssərrüfatlarından topladıqları yunu əsas ticarət mərkəzi olan Şuşa şəhərində anabara yığırdılar [12, s.16]. Tədqiqatçı M.İ.Skibitski qeyd edir ki, "yay qırxımından əldə edilən yun üçün Şuşadan və Yelizavetpoldan dəllallar yaylaqlara gəlir və yunu böyük torbalarda aparırdılar. Onlarla hər hansı bir səbəbdən razılaşa bilməyən kəndlilər yaylaqdan enərkən yunu Şuşada, Tərtərdə, Gorusda və digər böyük yaşayış məskənlərində satırdılar. Dəllallar isə yunu Tiflis kontoruna gətirir, rənginə və keyfiyyətinə görə çeşidləndikdən sonra isə oradan xaricə – Marselə və başqa yerlərə göndərirdilər. Yerli əhalinin əlində qalan yun qaba parça və digər yun məmulatlarının istehsalı üçün – xalça, mafraş və başqa məmulatların hazırlanmasına sərf olunurdu" [24, s.76-77].

Mənbələrdə yunun iqtisadi əhəməyyəti haqqında da məlumatlar var. XIX əsrin əvvəllərində Qarabağ bazarlarında 1 batman quzu yunu 10 rubla satılırdı. XIX əsrin sonlarında isə yay qırxımı yunun qiyməti keyfiyyətinə görə 6-7 rubl, yaz qırxımı yunun pudunin qiyməti isə 2 rubl 50 qəpik – 3 rubl arası dəyişirdi [24, s.78].

Qarabağ bölgəsində istehsal olunan yunun miqdarı haqqında dəqiq statitik məlumat yoxdur. Nəzərə alsaq ki, hər qoyundan ildə, orta hesabla, 4 funt yun əldə edilirdi [26, s.267], onda Qarabağ bölgəsində XIX əsrin 90-cı illərində hər il 66457 pud yun istehsal edildiyini təxmin etmək olar.

Bölgədə tədarük olunan yunun böyük hissəsi yerlərdə xalça məmulatı istehsalının ehtiyaclarına sərf edilir, az bir hissəsi kənara çıxarılırdı [25, s.86]. Bunu 1914-cü ilin məlumatı da təsdiq edir. Belə ki, 1914-cü ildə Yelizavetpol quberniyasından təxminən 100 min pud həcmində yun xaricə ixrac edilmişdi ki, bura Şuşa və Şuşa qəzasında inkişaf etmiş yerli emal sənayesində istifadə edilən yun daxil deyildi [20, s.253].

*Yunun ilkin emalı.* Azərbaycanın digər bölgələrində olduğu kimi, Qarabağ bölgəsində də xalçaçı ustalar xalça toxunmasına keçməmişdən əvvəl əldə etdikləri yunu bir neçə mərhələdə emal edirdilər. Xalça məmulatlarının toxunmasında əsasən yaz qırxımından əldə edilmiş yuna üstünlük verilirdi. Yun emalının ilk mərhələsində tədarük edilmiş yunu boy və rənginə, həmçinin zərif və yaxud qaba, yumuşaq və yaxud codluğuna görə növlərə ayırırdılar. Daha sonra yunu yuyur, bunun üçün isə onu bir neçə saat ərzində soyuq suda isladırdılar. Bəzən yundakı artıq yağ təbəqəsini təmizləmək və yuylma prosesini sürətləndirmək üçün suya sidik cövhəri əlavə edirdilər. Yunun qurudulması mərhələsində, xüsusilə də yay mövsümündə yaxşı hava şəraitində bir gündə 32 kq. yunu yuyub qurutmaq mümkün olurdu [2, s.96]. Yun qurudulduqdan sonra didilir, zoğal, nar və ya heyva çubuğu ilə çırpılıb pardaxlanırdı. Sonraki mərhələdə yun bir neçə dəfə daranırdı. Bu proses ağır və çox vaxt tələb etdiyindən xalçaçılar bu işi qonuşu qadınların köməyi ilə birlikdə bir gündə başa çatdırırdılar. Bundan sonra əl iyi və ya əl cəhrəsi vasitəsilə yunun əyirilməsi və sarınması mərhələləri başlayırdı. Bu proseslə xalçaçı qadınların özləri digər təsərrüfat işlərindən asudə vaxtlarında məşğul olur və payızın sonlarında başa çatdırırdılar. Əldə edilmiş iplik onun hansı məqsədlə istifadə ediləcəyindən asılı olaraq sonrakı emaldan keçirilirdi. Toxunacaq xalça məmulatının növündən asılı olaraq dörd növ iplik – əriş, arğac, çin və qıraq iplik ayrılırdı. Ağrac və çin iplik ikiqat, qıraq və əriş iplik isə üçqat əyrilirdi. Sonuncu mərhələdə kələf halına salınmış iplikləri boyanmasına keçilirdi [13, s.29-38].

Tədqiq olunan dövrdə həm qoyunçuluq, həm də xalça məmulatı istehsalı ilə əsasən eyni təsərrüfatda məşğul olunduğundan kənd sənətkarları yunun emalı ilə özləri məşğul olurdular və bu iş ev peşəsi xarakteri daşıyırdı. Xalçaçılıq sənətinin geniş miqyas alması, bu sənətlə bağlı bir sıra yardımçı sahələrin də inkişafına təsir etmişdi. Belə yardımçı sənət sahələrində biri həllaclıq sənəti idi. Azərbaycan şəhərlərində yunun emalı ilə bu iş üzrə ixtisaslaşmış peşəkar sənətkarlar – həllaclar məşğul olurdu və həllac emalatxanaları fəaliyyət göstərirdi [7, s.29-38].

*Qoyunçuluq təsərrüfatında tənəzzül meyillərinin meydana çıxması.* XIX əsrin sonu – XX sərin əvvəllərinə aid mənbələrdəki məlumatlar Qarabağ bölgəsinin qoyunçuluq təsərrüfatında bu dövrdən başlayaraq tənəzzül meyillərinin meydana çıxdığını göstərir. XIX əsrin sonlarına aid məlumatlardan görünür ki, bölgənin 4 qəzasında kişik baş heyvan sayı 565711 başa düşmüşdü [24, s.52]. Halbuki, XX əsrin əvvəllərində Qafrqaz Kustar Komitəsinin apardığı tədqiqatlara görə bölgənin iqtisadi həyatında xalça məmulatı istehsalı hələ də mühüm yer tuturdu. Belə ki, XX əsrin əvvəllərində bölgə əhalisi hələ də gəlirlərinin 38%-ni xalça məmulatı istehsalından əldə edirdi [4, s.34]. Əhalinin 23%-i, sənətkarların isə 45%-i xalça toxuculuğu ilə məşğul idi [27, s.5-6] və bu sahənin inkişafı bölgədə yun tədarükündən əhəmiyyətli dərəcədə asılı idi. Lakin əldə olan məlumatlar Qarabağ bölgəsinin qoyunçuluq təsərrüfatında tənəzzül meyllərinin XX əsin əvvəllərində də davam etdiyini göstərir. 1902-ci ilin məlumatına görə bölgədə qoyunların sayı azalaraq 485719 başa düşmüşdü [23, s.212]. Bu tənəzzül ilk növbədə XIX əsrin sonu – XX əsrin əvvəllərində pambıqçılğın sürətli inkişafı və gəlirli sahəyə çevrilməsi ilə bağlı olmuşdu [11, s.66]. Qeyd etmək kifayətdir ki, əgər 1897-ci ildə Qarabağ bölgəsinin Şuşa və Cavanşir qəzalarında birlikdə 55 min pud pambıq yığılmışdısa [17, s.80], 1912-ci ildə pambıq yığımı 4 dəfə artaraq 223565 puda çatmışdı [21, s.57]. Pambıq sahələri əsasən bölgənin otlaq sahələri, xüsusilə də bölgənin əsas qoyunçuluq təsərrüfatları üçün mühüm əhəmiyyət daşıyan Şuşa və Cavanşir qəzalarındakı otlaqlar hesabına genişləndirilmişdi ki, bu da qoyunçuluğun yem bazasına ciddi təsir göstərərək qoyunlaırn baş sayının kəskin azalmasına səbəb olmuşdu.

Qoyunçuluq təsərrüfatında başlanmış geriləmə XX əsrin sonrakı illərində də pambıqçılığın sürətli inkişafı ilə yanaşı bölgədə milli münasibətlərdə, daha sonralar isə I Dünya müharibəsinin təsiri ilə ölkənin ictimai-siyasi həyatında başlanmış gərginliklər səbəbindən daha da güclənmişdi. Belə ki, təkcə Şuşa qəzasında qoyunların sayı 1913-cü ildə 107 min baş təkil etdiyi halda, 1917-ci ildə 3 dəfədən çox azalaraq 32 min başa düşmüşdü [5, s.143]. Bölgənin digər qəzalarında da vəziyyə-

tin eyni oduğunu təxmin etmək olar. Əldə edilən yunun əhəmiyyətli hissəsi hərbi ehtiyaclar üçün istifadə edildiyindən bölgə xalçaçıları ciddi xammal çatışmazlığı ilə üzləşmişdilər.

*Nəticə.* Göründüyü kimi, XIX əsrin əvvllərində Rusiya-İran müharibələrinin dağıdıcı təsiri ilə Qarabağ bölgəsinin qoyunçuluq təsərrüfatında yaranmış tənəzzül, XIX əsrin 40-90-cı illərində başlanmış yüksəlişlə əvəz olunmuşdu. Bu yüksəlişi şərtləndirən səbəblər sırasında qoyunçuluğun inkişafının ekstensiv xarakterinə baxmayaraq bölgənin kənd təsərrüfatında əsas rol oynamaqda davam etməsini qeyd etmək lazımdır. Bütün Azərbaycanda olduğu kimi, Qarabağ bölgəsində də qoyunçuluq sahəsində kapitalist münasibətlərinin inkişafı, ticari-əmtəə münasibətlərinin yayılması kənd təsərrüfatının digər sahləri ilə müqayisədə daha tez intişar tapmışdı. Belə ki, digər təsərrüfat sahələrinin kapitalistcəsinə yenidən qurulması üçün böyük vəsait tələb olunduğu halda, qoyunçuluq təsərrüfatında məhsulun reallaşdırılması üçün bazarların tapılması kifayət idi. Tədqiq olunan dövrdə qoyunçuluq təsərrüfatının başqa bir xüsusiyyəti muzdlu əməkdən geniş istifadə olunması idi [3, s.23-25]. Digər tərfədən, XIX əsrin sonlarında xalça məmulatlarına həm daxili, həm də xarici bazarlarda təlabatın artması ilə xalçaçılıq sənətinin çiçəklənmə dövrü yaşaması da əsas xammal mənbəyi kimi yun tədarükünə böyük təlabat yaratmışdı. Lakin qoyunçuluqda müşayət olunan inkişaf XIX əsrin sonu – XX sərin əvvəllərində tənəzzüllə əvəzlənmişdi. Tənəzzülün əsas səbəbləri sırasında bu dövrdə bölgədə pambıqçılıqda müşayət olunan görünməmiş inkişaf və geniş otlaq ərazilərinin pambıq əkinlərinə ayrılması mühüm yer tuturdu. XX əsrin əvvəllərində bölgədə baş vermiş millətlər arası gərginlik və I Dünya müharibəsinin başlanması ilə siyasi təlatümlər də qoyunçuluq təsərrüfatının tənəzzülünü şərtləndirən səbəblər sırasında idi. Qoyunçuluqdakı tənəzzül öz növbəsində xalça məmulatı istehsalına da öz mənfi təsirini göstərmişdi.

## ƏDƏBİYYAT


1. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı). Bakı: "Şuşa" nəşriyyatı, 2000, 576 s.
2. Həvilov H.A. Azərbaycan etnoqrafiyası. Bakı: "Elm", 1991, 256 s.
3. Xəlilov X. Qarabağın elat dünyası. Bakı: "Azərnəşr", 1992, 119 s.
4. Məmmədov N.R. Azərbaycan Respublikasının Qarabağ bölgəsinin tarixindən (1900-1930). Bakı: "Avropa", 2015, 384 s.
5. Məmmədov N.R. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Bakı: "Avropa", 2016, 960 s.
6. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi / Qarabağnamələr. I kitab. Bakı: "Yazıçı", 1989, s.104-148.
7. Mustafayev C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: "Elm" nəşriyyatı, 2002, 272 s.
8. Zeynalov M. Azərbaycanda qoyunçuluq. Bakı: "MBM" mətbəsi, 2008, 398 s.
9. Акты, собранные Кавказской Археографической Комиссией. Архив Главного управления наместника Кавказскою. Издан под редакцией председателя Комиссии А.Д.Берже. Тифлис: Типография Главного управления Наместника Кавказского, 1870, т. IV, док. 1135.
10. Алиева А. Ворсовые ковры Азербайджана XIX – начале XX века. Баку: "Элм", 1987, 143 с.
11. Гаджигасанский Х.Б. Хлопководство в России (Экономический очерк). Москва, 1915, 101с.
12. Гулишамбаров С. Обзор фабрик и заводов Закавказского края. Тифлис: Типография концелярии главноначальствующего гражданской частью на Кавказе, 1894, 418 с.
13. Доливо-Добровольская А.Г., Морозов Е.И. Обработка шерсти для производства ковров // Производство ковров. Сборник статей по технике ковроткачества под. Ред. Н.Н.Соболева. Москва: Изд-во КОИЗ, 1931, с.29-38.
14. Исаев М.Д. Ковровое производство Закавказья. Тифлис: Издание Научно-исследовательского Института Кавказоведения АН СССР, 1932, 224 с.
15. «Кавказский календарь» на 1897 год. V отдел, Издань по распоряжению Главноначальствующаго гражданской частию на Кавказе. Под ред. Е.Кондратенко. Тифлис: 1896, 573 с.

16. Калугин И.И. Иследования современного состояния животноводства Азербайджана. т. IV, (Овцы, козы и свиньи). Тифлис: Народный комиссариат земледелия Азербайджана, 1930, 279с.
17. Кондратенко Е.И. Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края, Тифлис: Закавказский стат. ком., 1899, 637 с.
18. Кулешов П.Н. Грубошерстное овцеводства. Москва: Новая деревня, 1925, 25 с.
19. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. ч. III, СПб.: Типография департамента внешней торговли, 1836, 392 с.
20. Памятная книга Елизаветпольской губернии на 1914 г. Тифлис: Типография Канцелярий Наместника Е.И.В. на Кавказе, 1914, 432 с.
21. Площадь, сбор и урожайность хлопчатника в Закавказьи 1909-1914 гг. и 1924-1928 гг. (Сост.: И.В.Авалишвили; Ред. А.М.Гончарова). Тифлис: Закав. Центр. Стат. Упр., 1928, 90 с.
22. Рчеулишвили М.Д. К истории овцеводство в Грузии. Тифлис: Издательство АН Груз. ССР, 1957, 220 с.
23. Сборник сведений о Елизаветпольской губернии. (Составлен Секретарем губернского статистического Комитета И.Л.Сегалом). Тифлис: Типография Т-ва «Веренчев и Каменмакер», 1902, 174 с.
24. Скибицкий М.И. Карабахские казенные летние пастбища // Материалы для устройства казенных летних и зимних пастбищ и для изучения скотоводства на Кавказе (с картой карабахских летних пастбищ), т. IV, Тифлис: Типография К.П.Козловского, 1899, с.1-298.
25. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку: Издательство АН Азерб. ССР, 1958, 364 с.
26. Хатисов К. Кустарные промыслы Закавказского края // Отчеты и исследования по кустарной промышленности в России. т.II, СПб.: Типография В. Киршбаума, 1894, с. 259-370.
27. ЦГИА. ф.1276, оп. 17, док. 485.

**ТЕЛЬМАН МУСАЕВ**
*Азербайджаский Государственный Университет*
*Нефти и Промышленности*

## СОСТОЯНИЕ ОВЦЕВОДСТВА И ПРОИЗВОДСТВА ШЕРСТИ В КАРАБАХСКОМ РЕГИОНЕ В XIX – НАЧАЛЕ XX ВВ.

Ковроткачество исторически было одним из самых высокоразвитых видов ремесла в Карабахском регионе. Известно, что среди факторов, определяющих развитие этого вида ремесла, немаловажную роль играла обеспеченность производства сырьем – высококачественной шерстью. В статье рассматриваются причины упадка овцеводства в Карабахском регионе в начале XIX века и внутренние и внешние факторы, способствовавшие развитию овцеводства во второй половине XIX века, а так же определяется влияние увеличения производство шерсти на развитие производство ковровых изделий в конце XIX века. В статье так же рассматриваются основные факторы, приведшие к упадку овцеводства в регионе в начале XX века.

*Ключевые слова*: Карабах, ковроткачество, сырьевая база, овцеводство, поставка шерсти.

**TELMAN MUSAYEV**
*Azerbaijan State Oil and Industry University*

## THE SITUATION OF SHEPHERDING AND WOOL SUPPLY IN THE KARABAKH REGION IN THE XIX - XX CENTURIES

The art of carpet weaving has historically been one of the most highly developed arts in the Karabakh region of Azerbaijan. It is known that among the factors determining the development of

this field of art, the supply of production with raw materials - high quality wool has played an important role. The article examines the causes of the decline in sheep breeding in the Karabakh region in the early 19th century and the internal and external factors that led to the rapid development of sheep breeding in the second half of the 19th century, as well as the impact of increased wool production on the development of carpet production in the late 19th century. The article also examines the main factors that led to the decline of sheep breeding in the region in the early twentieth century.

*Keywords:* Karabakh, carpet weaving, raw material base, sheep breeding, wool supply.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 oktyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Nərgiz Quliyeva, t.e.d. Qabil Əliyev.*

*Tarix və onun problemləri / История и её проблемы / History and its problems, 2021 №4, 53-56*

**UOT 94(479.24)**

**МУСА КУЛИЕВ**
*Нахчыванское отделение НАНА,*
*доктор философии по истории*
**kuliyevm@yandex.ru**

# ХАНСКАЯ ДОЧЬ-ЗАРРИНТАДЖ БЕГУМ НАХЧЫВАНСКАЯ

*В статье рассказывается о поиске одной фотографии. Здесь также говорится о жизни и общественной деятельности Зарринтадж Бегум дочери генерал-майора Калбалы хан Нахчыванского. Статья подготовлена на основе архивных материалов и изданных монографий.*

*Ключевые слова*: Ханская дочь, Нахчыван, Хунзах, Ираван, Фабержье, Алиханов-Аварский.

*Введение*. Фотографии и рисунки наряду с различного рода документами и памятниками также служат важным источником в исторических исследованиях. В центре Нахчывана, в здании, которое выделяется своей архитектурой, размещается дом-музей видного военного деятеля Азербайджана генерал-майора Джемшида Нахчыванского. Это здание представляет собой родовую усадьбу, здесь прошло детство азербайджанского военачальника. Экспонаты музея отражают биографию этого незаурядного человека. Среди них немало фотографий, запечатлевших различных представителей рода Кенгерли, к которому принадлежит Дж.Нахчыванский.

*Основная часть*. В 1987 году дочь Дж.Нахчыванского Алия-ханум передала в дар музею альбом, в котором также имеется небольшое количество исторических фотоснимков. По некоторым сведениям, этот альбом составил сам Дж.Нахчыванский. Спустя некоторое время члены семьи уничтожили многие фотографии из боязни репрессий. Среди утерянных фотографии его отца и матери, их родных.

Внимание автора этих строк, который неоднократно просматривал альбом, привлекла фотография женщины утонченной внешности. Из документов, хранящихся в музее, выясняется, что этот снимок был в 1990 году передан музею Алией-ханум, жившей в Баку. Фотография оформлена как снимок тетки Дж.Нахчыванского Хуршид, и на ней так и надписано по-русски – «тетя Джамшида». Автор решил провести поиски и по отцовской, и по материнской линии родственников Дж.Нахчыванского. В документах по передаче фотографии указано имя Хуршид, что побудило автора внимательно просмотреть имена в камеральном списке Калбалы-хана и в генеалогической таблице нахчыванского ханского рода. В документах Национального исторического архива Грузии и Государственного военно-исторического архива России, а также в послужных книгах Дж.Нахчыванского упоминается его супруга по имени Хуршид. В результате проведенных изысканий выяснилось, что Хуршид-ханум – потомок по прямой линии Ахмед-хана Макинского (1794-?), одного из образованных и прогрессивно мыслящих военных своего времени, представителя известного тюрко-азербайджанского племени баят. Он служил в российской армии, снискав высокий авторитет, и вышел в отставку в звании майора. В документах упоминаются сыновья Ахмед-хана Шукур и Сулейман (1819-1862), дочь Хуршид. Из них Шукур был женат на Лалабейим, дочери Эксана I Нахчыванского. Наряду с этим, дочь Ахмед-хана Хуршид была замужем за генерал-майором Калбалы II Нахчыванским, сыном Эксана. В Государственном военно-историческом архиве России имеется служебная книжка Калбалы, оформленная 10 мая 1877 года. Из этого документа явствует, что Калбалы II Нахчыванский женился на Хуршид-ханум около 1846 года, указаны также имена детей от этого брака и их возраст (1, с.114). Большую часть жизни Калбалы провел в ханском дворце – родовой усадьбе семьи, где и окончил свои дни.

В ходе поисков мы разослали копии хранящихся в музее фотографий потомкам нахчыванских ханов, которые живут в Баку, Тбилиси и в Иране. Среди них Исмаил хан, сын Назханым, дочери Мамедгулу-хана Иреванского и внучки Аббасгулу-хана Иреванского, которая

была замужем за одним из потомков макинского военачальника (сердара). Исмаил хан заявил, что на фотографии изображена дочь майора Ахмед-хана Макинского.

Исмаил хан лично знал многих представителей семей Нахчыванских и Иреванских, которые после 1920 года эмигрировали в Иран, но в силу преклонного возраста многое стерлось из его памяти. Поэтому он посоветовал отослать фотографии родственникам, живущим в Тегеране. Тегеранская родня макинского военачальника подтвердила, что на фотографии изображена Хуршид. Но автор статьи не удовольствовался этими свидетельствами и продолжил поиски, поскольку в некоторых книгах утверждается, что речь идет о фотографии Зеринтадж-бейим, последней дочери генерал-майора Калбалы II Нахчыванского, и автор сам склонялся к этой точке зрения. Наконец, у одного частного коллекционера в Москве нам попалась фотография неозначенной жительницы Нахчывана. Эта же фотография имеется в книге Рудольфа Иванова, посвященной генералу Максуду Алиханову-Аварскому, и здесь под снимком указано имя Зеринтадж-бейим (2, с.333). Для того, чтобы распутать этот узел, мы стали вести поиски вокруг обеих фотографий.

Зеринтадж-бейим, как указывалось, дочь Калбалы II, родилась в 1866 году в Нахчыване, о чем сообщается в одном из документов Государственного военно-исторического архива России. В том же архиве имеется другой документ, от 1877 года, в котором возраст Зеринтадж-бейим указан как 16 лет. Надо полагать, что дальнейшие розыски помогут преодолеть эту нестыковку и уточнить год рождения этой дамы. Мы полагаем, что 1866-й год более вероятен (3, с.99).

В связи с военной службой Калбалы-хану приходилось жить в Тифлисе и в Иреване. Он получил очень хорошее образование и относился к передовым людям своего времени, активно занимался общественной, просветительской и благотворительной деятельностью. И его дочь Зеринтадж-бейим, как мы убеждаемся из документов, принимала активное участие в общественной и политической жизни, особенно в Тифлисе и Гори. На этой теме хотелось бы остановиться несколько подробнее. Супруга выдающегося азербайджанского писателя и просветителя Джалила Мамедгулузаде Гамида Джеваншир в своих «Воспоминаниях о Мирзе Джалиле» писала: «На следующий день мы с Говхар-ханум опять пошли по домам. Вечером написали письма живущей в Гори супруге Фирудин-бека Кочарли, а также супруге Али-хана Аварского, приглашили их на собрание» (4, с.22). Отметим, что супруга генерала Максуда Алиханова Аварского, которая упоминается в вышеприведенном отрывке, - это как раз Зеринтадж-бейим, являвшаяся активным членом благотворительного общества, созданного в Тифлисе группой просвещенных мусульманских женщин. В этом контексте уместно отметить века и следующий примечательный момент: с начала XIX века женщины Нахчывана выплачивали членские взносы в просветительское общество, созданное при церкви Святой Рипсиме – одной из трех церквей Иревана. За счет этих средств в Иреване действовала гимназия, в которой дети азщербайджанцев учились на русском языке. Среди плоативших членские взносы была и Хуршид, а ее дочь Зеринтадж-бейим, как видим, продолжала просветительские традиции (5, с.126).

В 1890 году известный русский фотограф Дмитрий Ермаков, находясь в Нахчыване, сфотографировал Зеринтадж-бейим в зале ханского дворца. Интересна и снятая тогда же ее фотография во весь рост. Остается сожалеть, что принадлежность этой фотографии, долгое время хранившейся в различных музеях, включая и Национальный музей истории Азербайджана, оставалась неизвестной, на персональных выставках Д.Ермакова этот снимок выставлялся с надписью «нахичеванская бекша». Тот же Д.Ермаков сфотографировал Зеринтадж-бейим также в тифлисском дворце генерала М.Алиханова-Аварского, и эту фотографию сохранили родственники последнего. Именно благодаря сопостпавлению с этим снимков автору удалось уточнить, что на хранящихся в Баку фотографиях изображенна именно Зеринтадж-бейим. Теперь мы представляем вниманию читателей фотографии Хуршид-ханум и ее дочери Зеринтадж-бейим. Отметим, что эти фотографии важны и с точки зрения изучения азербайджанских женских костюмов XIX века.

Хуршид-ханум была верным спутником жизни Калбалы-хана Нахчыванского. Их дети сумели снискать авторитет и уважение не только в Российской империи, но и в других странах Восточной Европы. Пока мы не располагаем сведениями о последних годах жизни этой незаурядной женщины.

В Государственном историческом архиве России хранятся дела императорского камерального отдела. Среди этих документов есть один, посвященный весьма интересному для азербайджанского историка событию. Российский император во время путешествия на Кавказ встретился с Зеринтадж-бейим и был восхищен ее красотой и просвещенностью. Узнав, что перед ним младшая сестра генерала Гусейн-хана Нахчыванского, августейший гость высоко отозвался о доблести и отваге бойцов азербайджанской конницы кенгерли. Затем он подарил Зеринтадж-бейим браслет работы знаменитого Фаберже, украшенный бриллиантами, красными и синими агатами. Согласно документу, стоимость браслета составляла баснословную по тем временам сумму в 500 рублей (6, л.157).

Согласно документам Государственного Военно-Исторического Архива России в Москве, Зеринтадж-бейим вначале была замужем за Аббасгулу-ханом Эриванским. Мы не знаем, были ли у них дети. Около 1889 года Зеринтадж-бейим вышла замуж за видного российского военного, близкого друга семьи нахчыванских ханов Максуда Алиханова-Аварского. У них родились два сына – Адиль и Хафиз, первый из которых умер в младенчестве, а второй стал кадровым военным. В годы его учебы в Пажеском корпусе, согласно документам, его родители отправились на встречу с ним в одну из воинских частей близ Александрополя (ныне Гюмри). Но Зекринтадж-бейим по какой-то причине на встречу не пришла. Когда Максуд-хан с сыном ехали вместе, дашнаки подорвали карету; М.Алиханов-Аварский погиб, а Хафиз был ранен (5, с. 342). Выходившая в Тифлисе влиятельная официальная газета «Кавказ», все номера которой хранятся в центральной городской библиотеке, опубликовала 13 июля 1907 года подробный материал о гибели знаменитого генерала Алиханова-Аварского и его погребении в Александрополе: «В 6 часов гроб был вынесен мусульманами из часовни на двор, где мулла совместно с другими совершил, по магометанскому обряду, отпевание, по окончанию которого, под звуки «Коль славен», гроб подняли генералы, офицеры и отнесли на заранее приготовленный траурный лафет. Похоронная процессия двинулась к месту погребения, к «Холму Славу». Впереди процессии несли венки, которых было 12, ордена убитого генерала на 4-ых подушках, из которых резко выделялись два: орден св.Георгия и знак отличия Военного ордена. Затем следовало мусульманское духовенство, местные жители-магометане, пожелавшие почтить память своего единоверца, и лафет с гробом убитого, за которым шла супруга его с сыном – кадетом, брат её, офицеры и громадная публика» (7). Однако Зеринтадж-бейим решительно выступила против погребения мужа на холме ближе армянского кладбища. Прах генерала Алиханова был откопан и с почестями доставлен в Тифлис. Об этом сообщила газета «Кавказ»: «Вдова, сын и брат безвременно погибшего в Александрополе Генерала-лейтенанта АЛИХАНОВА извещают родных и знакомых, что прах их горячо любимого мужа, отца и брата будет отправлен из Александрополя в Дагестан для погребения во вторник, 17-го июля, с вечерним поездом» (8). В Тифлисе на вокзале совершена панихида и возложены венки. Для встречи прибыл командир Второго Кавказского армейского корпуса и другие начальствующие лица, эскадрон 44-го драгунского полка, рота Тифлисского гренадерского. Из Тифлиса поезд с телом отбыл в Баку. После совершения молитвы останки Алиханова в 9 часов утра отправлены с бакинским поездом на родину его, в сел. Хунзах, и Дагестан, где и будут преданы земле и наконец, в его родное горное село Хунзах, где и предан земле. Все это подробно описано в газете «Закавказье» (8). Газета также с похвалой отзывается о верности вдовы покойного Зеринтадж-бейим.

Читая материалы о Максуде Алиханове-Аварском – военном, писателе, историке, этнографе, имя которого выгравировано золотом на мраморной доске в Георгиевском зале Кремля, и его верной супруге, дочери азербайджанского ханского рода Зеринтадж-бейим, я вспомнил свою поездку в Хунзах в далеком уже 1980 году. Тогда гид негласно проводил меня к захоро-

нению генерала Алиханова-Аварского, которого советская идеология не жаловала, а его погребение было разрушено большевиками. Теперь здесь воздвигнут мавзолей. В поисках новых свидетельств верности, бесстрашия и таланта Зеринтадж-бейим автор этих строк отправился из Тбилиси в Кутаиси и в Гори. В последнем городе мне рассказали о том, какой удалой наездницей она была. Как и о том, что при большевиках Зеринтадж-бейим с сыном были арестованы и доставлены в Тифлис. По словам родственников генерала Алиханова в Хунзахе, Зеринтадж-бейим была этапирована на печально известные Соловки. Что касается ее сына Хафиза, то о его судьбе известий нет.

*Заключение*. Следственные документы по делу Зеринтадж-бейим хранятся в архивах силовых ведомств Российской Федерации и Грузии. Без их изучения нельзя конкретно судить о судьбе этой женщины. Мы будем продолжать работу в этом направлении.

ЛИТЕРАТУРА

1. Иванов Р.Н. Оборона Баязета: Правда и ложь. Москва: Герои Отечества, 2005, 224 с
2. Иванов Р.Н. Генерал Максуд Алиханов: Триумф и трагедия. Махачкала: Эпоха, 2003, 720 с.
3. ИсмаиловЭ.Э.Георгиевские кавалеры-азербайджанцыэМосква: Герои Отечества, 2005, 248 с.
4. Məmmədquluzadə H. Mirzə Cəlil haqqında xatirələrim. Bakı: Azərnəşr,1967, 212 s.
5. Нагдалиев Ф.Ф. Ханы Нахичеванские в Российской Империи. Москва: Новый Аргумент, 2006, 432 с.
6. РГИА (Российский Государственный Исторический Архив): Ф.468, Опись7, дело 337.
7. Газета “Кавказ” 13 июля 1907 года, № 138.
8. Газета «Закавказье», 19 июля(1августа)1907 года, № 142.

**MUSA QULİYEV**
*Tarix elmləri doktoru, professor*
*AMEA-nın Naxçıvan şöbəsi*

## XAN QIZI – ZƏRRİNTAC-BƏYİM NAXÇIVANSKİ

Məqalədə bir fotoşəklin axtarışından, həmçinin general-mayor Kəlbalı xan Naxçıvanskinin qızı Zərrintac bəyimin həyatından, ictimai fəaliyyətindən bəhs edilir. Məqalə arxiv materialları və nəşr edilmiş monoqrafiyaların əsasında hazırlanmışdır.

*Açar sözlər*: Xan qızı, Naxçıvan, Xunzax, İrəvan, Faberji, Alixanov-Avarski.

**MUSA GULIYEV**
*Doctor of Philosophy in History,*
*Nakhchivan branch of ANAS*

## DAUGHTER OF THE KHAN-ZARRINTAJ BEYIM NAKHCHIVANSKAYA

The article deals with the search for a photo. It also talks about the life and public activities of Zarrintaj Beyim, the daughter of Major-General II Kalbali khan Nakhchivanski. The article was published on the basis of printed books and archival documents.

*Keywords*: Daughter of the Khan, Nakhchivan, Khunzakh, Yerevan, Faberje, Alikhanov-Avarski.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 noyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçi: Akademik İsmayıl Hacıyev.*

**UOT 94(479.24)**

**ARİFƏ ADIGÖZƏLOVA**
*Bakı Dövlət Universiteti,*
*Azərbaycanın yeni və ən yeni tarixi kafedrasının dosenti*
**adigezelova@bk.ru**

# AZƏRBAYCAN CÜMHURİYYƏTİNƏ QARŞI – "MÜSTƏQİL SOVET AZƏRBAYCANI" ŞÜARI

*Sovet Rusiyası ilk hüquqi sənədlərində millətlərin müstəqil dövlət yaratmağa qədər öz müqəddəratını təyin etmək hüququna malik olduğunu bəyan etsə də, əslində hakimiyyət məsələsinə sinfi nöqteyi-nəzərdən yanaşaraq, milli dövlətçiliyə qarşı əks mövqedə dururdu. 1917-1918-ci illərdə Azərbaycan və Zaqafqaziya bolşevikləri də milli məsələdə yanlış mövqe tutaraq, milli demokratiyanın irəli sürdüyü ərazi muxtariyyəti ideyasını qətiyyətlə inkar edirdilər. 1918-ci ilin mart-aprel aylarında bolşevik-daşnak hərbi birləşmələrinin Bakı quberniyasında Sovet hakimiyyəti qurmaq adı altında həyata keçirdiyi milli qırğın siyasəti məhz muxtariiyyət ideyasına qarşı düşmən münasibətin nəticəsi olmuşdur. Lakin Mart qırğınlarından sonra Azərbaycan milli-demokratik qüvvələri artıq müstəqillik uğrunda mübarizə aparmağa başladılar və 1918-ci ilin 28 mayında Azərbaycan Xalq Cümhuriyyətini elan etdilər.*

*Artıq 1918-ci ilin sonları - 1919-cu ilin əvvəllərində bolşeviklər milli məsələdə öz səhvlərini başa düşərək, Azərbaycan Cümhuriyyətinə qarşı "Müstəqil Sovet Azərbaycanı" şüarını irəli sürdülər. Bununla bolşeviklər əslində Azərbaycanda dövlət çevrilişi üçün "münasib şərait yaratmaq" məqsədi güdürdülər.*

*Sovet Rusiyası da Qafqazda itirilmiş hakimiyyətini bərpa etmək üçün "Müstəqil Sovet Azərbaycanı" şüarını məqsədəuyğun hesab edərək, Azərbaycan bolşeviklərini öz işğal planına alət etmək istəyirdi. RK(b)P MK-nın 1919-cu il 19 iyul tarixli iclasında Azərbaycan Sovet Respublikasının müstəqilliyini tanımaq haqqında qərar qəbul edildi.*

*1919-cu ilin 4 oktyabrında RSFSR Xalq Xarici İşlər Komissarlığının Azərbaycan, Dağıstan və Gürcüstan fəhlə və zəhmətkeşlərinə müraciətində isə deyilirdi: "Sovet Rusiyası öz hakimiyyətini bərpa etmək üçün əldə silah sizin respublikanıza hücum etmək fikrində deyil. Əgər siz Qafqaz müsəlmanları və gürcüləri öz respublikanızın idarə formasından razısınızsa, sakit yaşayın, müqəddəratınızı özünüz təyin edin və bizimlə mehriban qonşuluq əlaqələri yaradın".*

*Lakin bu müraciət kommunist partiyasının əsl məqsədini pərdələmək üçün verilmişdi. Əslində RK(b)P-nin strateji məqsədləri, siyasi iddiaları təkcə Rusiya çərçivəsində məhdudlaşmır, ondan çox kənarlara çıxırdı.*

*Aprelin 27-də XI Qızıl Orduya arxalanan Azərbaycan kommunistləri hakimiyyəti ələ keçirdilər. Aprelin 28-də Azərbaycan Sovet Respublikası elan edildi. Bunun ardınca Rusiya Kommunist partiyası "Zaqafqaziya Sovet respublikaları ilə Sovet Rusiyasının ittifaqı" şüarını irəli sürdü.*

*Açar sözlər:* Sovet Azərbaycanı, bolşevik, millət, təyini-müqəddərat.

*Giriş*. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun daxili və xarici amillərinin obyektiv tədqiq edilməsi dövlət müstəqilliyi problemi ilə əlaqədar olduğu üçün bu gün də aktualdır. Bu baxımdan bolşeviklərin irəli sürdüyü "Müstəqil Sovet Azərbaycanı" şüarı Azərbaycan Cümhuriyyətinə qarşı təhlükə və təhdid xarakterli olub, onun süqutuna aparan yolda az rol oynamamışdı. İqtidara qarşı müxalifətçi mövqe tutan yerli bolşevik təşkilatlarının fəaliyyəti dövləti daxildən zəiflədən amillər sırasında xüsusi yer tuturdu.

Mövzunun tədqiq edilməsində məqsəd bolşeviklərin "Müstəqil Sovet Azərbaycanı" şüarının arxasında gizlədilən işğalçı planı işıqlandırmaqdır. Problemlə bağlı xarici, sovet və Azərbaycan tarixçilərinin elmi əsərləri, arxiv sənədləri və RK(b)P-nin, Qafqaz diyar partiya komitəsinin, və AK(b)P-nın materialları müqayisəli təhlil edilərək, Sovet Rusiyasının Azərbaycana və Qafqaza dair xarici siyasətinin əsil mahiyyəti əks etdirilmişdir. Sovet Rusiyası Azərbaycanı yenidən işğal etmək üçün ilk növbədə bu siyasəti cəlbedici şüarlarla pərdələməklə xalq kütlələrinin etimadını qazanmaq

istəyirdi, milli hakimiyyəti isə «xəyanətkar, sazişçi Müsavat hökuməti" adlandırmaqla xalqın şüurunda milli dövlətçiliyə qarşı mənfi münasibət formalaşdırırdı,

Sovet tarixşünaslığında Azərbaycan Cümhuriyyəti demokratik prinsiplər əsasında təşkil olunan Parlamentə və koalision hökumət kabinetlərinə malik olmasına rəğmən "mülkədar-burjua hökuməti", "fəhlə və kəndlilərin sinfi düşməni" kimi qələmə verilir, bolşevik partiyasının tarixə təqdim etdiyi sovet idarə üsulu isə yeganə "xalq hakimiyyəti" forması kimi göstərilir, Qızıl Ordunun qəsbkar yürüşlərinin Azərbaycan xalqına "azadlıq bəxş etdiyi" qeyd olunurdu.

Rusiyanın tarixini araşdıran xarici tarixşünaslığın nümayəndələri D.Allen və P.Muradov isə "Qafqazın çar Rusiyası tərəfindən işğalı ilə "Qafqazın Sovet Rusiyası tərəfindən işğalı" arasında tarixi paralelliyi göstərmişdilər. Riçard Payps "Rusiya inqilabı" əsərində qeyd edirdi ki, "Rusiyanın ucqar xalqlarının həqiqi mənafeyini ifadə edən yeganə ideya-siyasi cərəyan millətçilikdir, sosializm çar rejiminin milli istismar formasını əvəz edir." Onun fikrincə "nəzəri cəhətdən sosializm və milli inkişaf antipoddur." O, "bolşevik partiyasını həm ideologiya, həm də fəaliyyət üsulları baxımından tamamilə qeyri-demokratik partiya" kimi xarakterizə edərək, onu "əvvəl Rusiyada, sonra bütün dünya ölkələrində hakimiyyəti ələ keçirmək məqsədilə yaradılan sui-qəsdçilər dəstəsi" adlandırırdı [13, s.2].

***"Müstəqil Sovet Azərbaycanı" şüarı.*** Sovet Rusiyası ilk hüquqi sənədlərində ("Rusiya xalqlarının hüquq bəyannaməsi" – 1917-ci il 2 noyabr; "Rusiya və Şərqin müsəlman zəhmətkeşlərinə müraciət" – 1917-ci il 15 noyabr) millətlərin müstəqil dövlət yaratmağa qədər öz müqəddəratını təyin etmək hüququna malik olduğunu bəyan etsə də, əslində hakimiyyət məsələsinə sinfi nöqteyi-nəzərdən yanaşaraq, milli dövlətçiliyə qarşı əks mövqedə dururdu. 1917-1918-ci illərdə Azərbaycan və Zaqafqaziya bolşevikləri də milli məsələdə yanlış mövqe tutaraq, milli demokratiyanın irəli sürdüyü ərazi muxtariyyəti ideyasını qətiyyətlə inkar edirdilər. 1918-ci ilin mart-aprel aylarında bolşevik-daşnak hərbi birləşmələrinin Bakı quberniyasında Sovet hakimiyyəti qurmaq adı altında həyata keçirdiyi milli qırğın siyasəti də muxtariiyyət ideyasına qarşı düşmən münasibətin nəticəsi olmuşdur.

Şaumyan RSFSR XKS-nə məktubunda öz qələbəsinin əhəmiyyətindən yazırdı: "Müsəlman əks inqilabçı ünsürlərinin siyasi məqsədini – Zaqafqaziyanı Rusiyadan ayırmaq və türk protektoratlığına tabe etmək – nəzərə alsaq, aydın olar ki, onların Bakıda qələbəsi Rusiya üçün Zaqafqaziyanın itirilməsinə gətirib çıxara bilərdi" [7, s.347-348].

Lakin Mart qırğınlarından sonra Azərbaycan xalq kütləleri Sovet hakimiyyətindən tamamilə üz döndərdilər. Azərbaycan milli-demokratik qüvvələri isə artıq müstəqillik uğrunda mübarizə aparmağa başladılar və 1918-ci ilin 28 mayında Azərbaycan Xalq Cümhuriyyətini elan etdilər.

Bakı Soveti Zaqafqaziya zəhmətkeşlərinə 1918-ci il I iyun tarixli müraciətində "Zaqafqaziyanı Rusiyadan ayırıb, türk işğalçılarına satan" Seymi tənqid edir və Bakı proletariatı adından bütün zəhmətkeşləri "öz istismarçılarına və satqınlara qarşı üsyan qaldırmağa" çağırırdı [12, s.158].

Lakin nə Bakı Sovetinin bu çağırışları və nə də Azərbaycan Cümhuriyyətinə qarşı son hərbi savaşları bir nəticə vermədi. Sovet Rusiyasının neft bazasını itirməmək üçün Almaniya və İranla gizli sövdələşmələrə əl atması da uğursuz oldu. Azərbaycan xalqı öz milli hökuməti ətrafında birləşərək, Cümhuriyyət hakimiyyətini bütün ölkə ərazisində bərqərar etdi.

Artıq 1918-ci ilin sonları – 1919-cu ilin əvvəllərində bolşeviklər milli məsələdə öz səhvlərini düşdülər və onlara aydın oldu ki, "əvvəlki mövqeləri bolşeviklərin Azərbaycan fəhlə və kəndlilərinin rəğbətini qazanmasına mane olur" [9, s.76]. Hadisələrin gedişini öz xeyrinə dəyişmək üçün Azərbaycan bolşevikləri milli dövlətçiliyə qarşı "Müstəqil Sovet Azərbaycanı" şüarını irəli sürdülər. Lakin bu şüar uzun mübahisələrdən sonra qəbul edilmişdir.

1918-ci ilin noyabrında D.Bünyadzadə Azərbaycan bolşeviklərinin müstəqil Sovet Azərbaycanı haqqında fikirlərini V.İ.Leninə bildirmişdi. Sonralar Bünyadzadə bu barədə yazırdı: "Mən İliçə xəbər verdim ki, Azərbaycanda iki cərəyan var: bunlardan biri ondan ibarətdir ki, Bakı və Azərbaycan azad edildikdə müstəqil Sovet sosialist respublika yaratmaq lazımdır. II cərəyan ondan ibarətdir ki, heç bir respublika lazım deyil, Azərbaycanı quberniyalara bölmək və RSFSR-lə birləşdirmək lazımdır. İliç bu barədə açıq dedi ki, müstəqil respublika yaratmaq haqqında birinci rəy düzgündür, ikincisi rəy isə müstəmləkəçilik və hətta axmaqlıqdır" [3, s.230].

Əlbəttə ki, “vahid və bölünməz Rusiya” prinsipindən çıxış edən sovet rəhbərinin müstəqilliklə bağlı fikirləri səmimi deyildi və Azərbaycana qarşı hazırlanan hərbi təcavüz planını pərdələmək üçün irəli sürülmüşdü.

1919-cu il 4 yanvarda Həştərxan quberniyası icraiyyə komitəsi yanında Zaqafqaziya müsəlmanları işləri üzrə komissariat yaradıldı. Onun fəaliyyəti üçün əsas proqram N.Nərimanovun 1919 fevralında yazdığı “Biz Qafqaza nə şüarla gedirik?” əsəri oldu.

Həştərxanda olan Nərimanov bir sıra məruzə və çıxışlarında müstəqil Azərbaycan SSR yaratmağın lazım gəldiyini əsaslandırırdı. O, 1919-cu ilin yazında hümmətçilərin yığıncağında “Qafqazın işğal edilməsi haqqında mülahizələr” mövzusunda məruzə edərək göstərdi ki, “biz etiraf etməliyik, Zaqafqaziyadan çıxmağımız yerli əhali arasında elə bir təəssüf doğurmadı. Çünki biz nə onun adət-ənənələri, nə milli-tarixi görüşləri, sosial-məişət tərzi, nə mənəvi tələbatları, nə də psixologiyası ilə hesablaşmayaraq onun üçün tamam yad siyasət yeritdik... biz yalnız quru proqram üzrə hərəkət etdik... Bizim partiya rəhbərləri Qafqazda Rusiyadakı iş metodlarını tətbiq etmək istədilər. İkinci səhvimiz ondan ibarət oldu ki, biz yalnız fabrik və zavodlarda iş apardıq. Halbuki Zaqafqaziya zəhmətkeşlərinin əksəriyyəti kəndlilər idilər” [12, s.185-186].

N.Nərimanov məruzəsində mart hadisələri zamanı daşnakların törətdiyi cinayətlərə də toxunaraq qeyd edirdi: “Şamaxı faciəsini eşitdikdən sonra mənə aydın oldu ki, Bakıda sovet hakimiyyəti daşnakların əlində əsirdir. O cür qəddarlıqdan sonra müsəlman proletariatının Sovet hakimiyyətindən üz döndərməsi tamamilə təbii idi” [12, s.189].

Vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq, Nərimanov indi Qafqaza getməyin mümkünülyünü göstərirdi: “Bakıya qədər süngü ilə getmək lazımdır. Lakin Şərqə yalnız ideya və inamlarla tam silahlanmış halda irəliləmək lazımdır. Bunun üçün Bakını və Petrovskı tutmağa tələsməliyik. Petrovskı tutduqdan sonra biz Dağıstan Sovet Respublikasını, Bakını tutduqdan sonra isə Azərbaycan Sovet Respublikasını elan etməliyik... Biz sübut edərik ki, onların müstəqilliyinə qəsd etmirik, yalnız onu istəyirik ki, hakimiyyət proletariatın əlində olsun” [12, s.190-191].

1919-cu il mayın 2-də Ümumbakı partiya konfransı Sovet Azərbaycanının müstəqilliyi haqqında qətnamə qəbul etdi. Zaqafqaziyanın digər partiya təşkilatlarının müzakirəsində bu qərar qəbul edilmədi. Gürcü və erməni kommunistlərinin təkidilə Zaqafqaziya partiya konfransı (7-8 may) Bakı partiya konfransının “Müstəqil Sovet Azərbaycanı” haqda qərarını rədd etdi. Lakin tezliklə “müxalifətçilər” təslim oldular. Bakı partiya komitəsinin üzvü Mikoyan V.İ.Leninə 1919-cu il 22 may tarixli məktubunda bu qərarın qəbul edilməsinin zəruriliyini belə əsaslandırırdı: “İnqilabi hərəkatın müvəffəqiyyəti, çevriliş yolunda milli maneələri aradan qaldırmaq üçün, müsəlman zəhmətkeşlərinin etibarını qazanmaq üçün Bakı komitəsi Sovet Rusiyası ilə sıx iqtisadi və siyasi əlaqədə Sovet Azərbaycanının müstəqilliyini tanıyır. Bu şüar çox məşhurdur, bütün müsəlman zəhmətkeşlərini öz ətrafına toplaya və üsyan qaldıra bilər. Bakı təşkilatı Azərbaycanda hakimiyyətin ələ alınmasını növbəti vəzifə kimi irəli sürür” [8, s.135].

Göründüyü kimi, Sovet Rusiyası Qafqazda itirilmiş hakimiyyətini bərpa etmək üçün “Müstəqil Sovet Azərbaycanı” şüarını məqsədəuyğun hesab edərək, Azərbaycan bolşeviklərini öz işğal planına alət etmək istəyirdi.

1919-cu ilin yayında Nərimanov RK(b)P MK-da Azərbaycanda bolşeviklərin gələcək işləri barədə məruzə ilə çıxış etdi. Əsas taktiki məsələlər bunlar idi: Azərbaycanda Sovet hakimiyyəti qurularkən Sovet Rusiyasında yol verilmiş səhvləri təkrar etməmək, Şərqdə nümunəvi müstəqil Azərbaycan Sovet Respublikası yaratmaq.

Qafqaz diyar partiya komitəsinin ikinci plenumunda (28-29 may) bu məsələ yenidən müzakirə edildi. Plenum Zaqafqaziya zəhmətkeşlərinə xüsusi bəyannamə buraxdı. Burada deyilirdi ki, “Kommunist partiyası Ümumqafqaz federasiyasına, eləcə də Ümumrusiya federasiyasına daxil olan Azərbaycan, Gürcüstan və Ermənistan Sovet respublikaları yaratmağa nail olacaqdır”.

1919-cu il 19 iyulda RK(b)P MK Azərbaycan Sovet Respublikasının müstəqilliyini tanımaq haqqında qərar qəbul edi.

1919-cu ilin 4 oktyabrında isə RSFSR Xalq Xarici İşlər Komissarlığının Azərbaycan, Dağıstan və Gürcüstan fəhlə və zəhmətkeşlərinə müraciəti dərc edilir. Müraciətdə deyilirdi: “Sovet Rusiyası öz hakimiyyətini bərpa etmək üçün əldə silah sizin respublikanıza hücum etmək fikrində deyil...

Əgər siz Qafqaz müsəlmanları və gürcüləri öz respublikanızın idarə formasından razısınızsa, sakit yaşayın, müqəddəratınızı özünüz təyin edin və bizimlə mehriban qonşuluq əlaqələri yaradın" [12, s.230].

Lakin bu müraciət kommunist partiyasının əsl məqsədini pərdələmək üçün verilmişdi. Əslində RK(b)P-nin strateji məqsədləri, siyasi iddiaları təkcə Rusiya çərçivəsində məhdudlaşmır, ondan çox kənarlara çıxırdı. Belə ki, Kommunist internasionalının I konqresində Lenin "Beynəlxalq Sovet Respublikası" şüarını irəli sürmüşdü [2, c.37, s.556]. Bütün dünyada proletar inqilabının qələbəsi üçün şərait yetişmədiyi halda, bu, sadəcə olaraq inqilabı ixrac etməyin nəticəsi ola bilərdi. Lakin Avropada yeridilən siyasət özünü doğrultmur və Sovet Rusiyasının xarici siyasətinin mərkəzi Şərqə keçir. Bu məqsədlə yaradılmış Yaxın Şərq müsəlmanları şöbəsinin sədri N.Nərimanov RK(b)P MK-da məruzəsində qeyd edirdi ki, "Avropada sosial inqilabı fəhlələr arasında nə şifahi, nə də yazılı təbliğat deyil, iqtisadi böhran doğuracaq. Avropada iqtisadi böhranı sürətləndirmək üçün isə Şərqdə Avropa imperializminə qarşı hərəkatı sürətləndirmək lazımdır, çünki onların iqtisadi bazisi Asiyadadır" [12, s.240-241].

Bolşevik hökuməti daxildəki siyasi-silahlı qarşıdırmada üstünlük qazandıqca Azərbaycanın yenidən işğalına dair ideoloji-hərbi hazırlıq tədbirlərini də genişləndirirdi. Bu kımı tədbirlərə Muğan Sovet Respublikasının təşkilini və sinfi-ideoloji bazanın, yəni Azərbaycan Kommmunist (bolşeviklər) partiyasının yaradılması aid etmək olar [1, s.192-193].

1919-cu ildə Mikoyan başda olmaqla Bakı bolşevik təşkilatı Azərbaycanda dövlət çevrilişi üçün "münasib şərait yaratmaq" istiqamətində gərgin iş aparırdı. Bakı bolşevikləri başa düşürdülər ki, RK(b)P-nin təşkilatı olmaqla onlar azərbaycanlı kütlələr içərisində nüfuz qazana bilməyəcəklər, ona görə də "müstəqil" Azərbaycan Kommunist partiyası yaratmaq ideyasını irəli sürdülər. Lakin söhbət ancaq formal partiyadan gedirdi, əslində o, RK(b)P-nin təşkilatı olaraq qalırdı. Qafqaz diyar partiya komitəsi 1919-cu il avqust plenumunda bu təklifi millətçilik meyli kimi qiymətləndirərək rədd etdi. Yalnız 1920-ci ilin fevralında bu ideyanı həyata keçirmək mümkün oldu [6, s.58]. Fevral ayının 11-12-də AK(b)P-nın I qurultayı "Zaqafqaziya Sovet respublikaları ilə Sovet Rusiyasının ittifaqı" şüarını irəli sürdü [8, s.414].

Lenin tərəfindən Sovet Rusiyasına "hücum edən on dörd dövlət"in siyahısına salınan Azərbaycan onun təcavüzünün başlıca hədəfi kimi seçildi. Lakin Sovet hökuməti əvvəlcə diplomatik gedişlər edərək AXC-ni Rusiyadaxili hərbi qarşıdurmaya qatmağa çalışdı [1, s.200].

1920-ci il yanvarın 2-də RSFSR Xalq Xarici İşlər komissarı Q.Çiçerinin Azərbaycan hökumətinə notası Azərbaycanın istiqlalı məsələsinə ciddi təhlükə olmaqla, Paris sülh konfransının bu məsələyə öz münasibətini bildirməsini sürətləndirdi. Yanvarın 11-də Paris konfransının Ali şurası Azərbaycan istiqlaliyyətinin de-fakto tanınması haqda yekdilliklə qərar qəbul etdi [11, s.75].

RK(b)P bu məsələyə münasibətini belə ifadə edirdi: "Antanta kommunizm hərəkatından təcrid olunmaq məqsədilə Rusiyanın ucqarlarındakı kiçik dövlətlərin – Finlandiyanın, Azərbaycanın müstəqilliyini tanıdı" [8, s.375].

Bununla sovet Rusiyası Azərbaycanın istiqlaliyyətinin Avropa ölkələri tərəfindən tanınmasına əhəmiyyət vermədiyini göstərirdi.

1920-ci ilin ilk aylarında Azərbaycanın istiqlalının tanınması məsələsində Sovet hakimiyyəti və Kommunist Partiyası rəhbərliyində yekdil fikir yox idi. Çiçerin başda olmaqla bir qrup elə hesab edirdi ki, ümumdünya kommunist inqilabı üçün Şərq hələ hazır olmadığından əsas diqqət Qərb ölkələrində fəhlə və kommunist hərəkatına yönəldilməlidir. Lakin bu zaman Sovet Rusiyasında yaşayan Azərbaycan kommunistləri Şərqdə sosialist inqilablarının tam yetişdiyini iddia edir, bu səbəbdən də Azərbaycan Cümhuriyyətini tanımağın qəti əleyhinə çıxırdılar [4, s.37].

RSFSR Xarici işlər komissarlığı fevralın əvvəllərində Azərbaycan Cümhuriyyətinin istiqlalının tanınması məsələsi ilə əlaqədar RK(b)P Qafqaz diyar komitəsi və Bakı komitəsinin fikrini öyrənmək üçün sorğu göndərdi. Qafqaz diyar komitəsi Azərbaycan Xalq Cümhuriyyətini tanımaq fikrinə tərəfdar çıxdı. Fevralın 11-də Kirov Çiçerinə göndərdiyi teleqramda yazırdı ki, "Zaqafqaziya diyar komitəsi Azərbaycanın istiqlalını tanımağı zəruri hesab edir". Azərbaycan KP MK-sı isə fevral ayının 17-də Çiçerinin təkrar sorğusunu müzakirə edərək, Moskvaya bildirdi ki, o, Azərbaycanın müstəqilliyinin tanınmasını lüzumsuz və gərəksiz hesab edir. Azərbaycan KP MK-sı bunu belə

əsaslandırırdı ki, guya Azərbaycanın fəhlə-kəndli kütlələri bunun əleyhinədirlər. Azərbaycan Kommunist Partiyasının və Sovet Rusiyasında yaşayan Azərbaycan bolşeviklərinin mövqeyini bir az sonra Kirov və Stalin müdafiə etmiş, Azərbaycan Cümhuriyyətini tanımamaq haqqında qəti qərar qəbul edilmişdi [11, s.81-82].

Çiçerinin 20 fevral tarixli III notasında qeyd edilirdi ki, "Azərbaycanın müstəqilliyinin tanınması Sovet Rusiyası və Azərbaycanın qarşılıqlı münasibətlərinin müxtəlif məsələləri üzrə mürəkkəb danışıqların nəticəsi ola bilər" [1, s.202-203].

F.X.Xoyski 7 mart tarixli notasında Rusiyanın bu cür mövqeyini imperialist dövlətlərə xas olduğunu qeyd edərək bildirirdi ki, "əgər xalqların təyini müqəddərat hüququnun tanınması Sovet hakimiyyətinin qəti prinsipidirsə, o, uzun və mürəkkəb danışıqlardan asılı olmamalıdır. Çünki nəticələri müxtəlif ola bilər" [6, s.556-558].

Əslində nə Azərbaycan Cümhuriyyətinin, nə də Sovet Azərbaycanının müstəqilliyinin tanımaq niyyətində olmayan Sovet Rusiyası siyasi təzyiqlərlə Azərbaycan dövlətçiliyinin əsaslarını daxildən zəiflətməyi nəzərdə tuturdu. Belə ki, Azərbaycan Parlamentində təmsil olunan sosialist təmayüllü partiyalar və leqal fəaliyyət göstərən bolşeviklər milli hökumət əleyhinə təbliğat maşınını işə salaraq, Sovet Rusiyasının hərbi müdaxilə planlarına dəstək verirdilər. RSFSR hökuməti işğalçılıq məqsədlərini gerçəkləşdirməyə hazırlaşarkən ermənilərin də xidmətlərindən yararlandı. Onların təmsilçiləri (Pirumov və Zaxaryan) 1920-ci ilin əvvəlində Moskvaya gedib müəyyən ərazi güzəştləri əvəzində AXC-nin devrilməsinə öz yardımlarını təklif etdilər. 1920-ci ilin martında Sovet Rusiyası və ermənilərin Azərbaycan dövlətçiliyinə qarşı növbəti qəsdi – Qarabağ qiyamı təşkil olundu [1, s.205].

Apreldə XI Ordu Qafqaza daxil oldu. Bu orduya böyük neft yataqlarının mərkəzi olan Bakını tutmaq tapşırılmışdı 27 apreldə isə Yefremovun komandanlığı altında Mikoyan, Cəbiyev və Musabəyov daxil olmaqla "qırmızı" zirehli qatar gözlənilmədən Dərbənddən sərhədi keçdi və heç bir müqavimətə rast gəlmədən irəlilədi... Azərbaycan hökuməti bu haqda biləndə, artıq birinci qatar Biləcəriyə yaxınlaşırdı. Həmin gecə parlamentin iclası oldu. Parlament hakimiyyəti müsəlman kommunistlərə verməyə razı oldu. Müsavat hökuməti həbs edildi. Aprelin 28-nə keçən gecə Qızıl Ordu Bakıya daxil oldu [15, s.84]. Bu çevrilişdən Azərbaycan zəhmətkeşləri ancaq səhərisi - 28 apreldə xəbər tutdular.

May ayının 5-də Lenin Azərbaycan Sovet hökumətinə təbrik teleqramında bildirirdi ki, "Müstəqil Azərbaycan Respublikası öz sovet hökumətinin rəhbərliyi altında, RSFSR ilə birlikdə öz azadlıq və istiqlaliyyətini ... imperializmdən qoruyub saxlayacaqdır" [2, c.41, s.128].

Lakin çox keçmədən Rusiya Kommunist partiyası Azərbaycan Sovet Respublikasının formal müstəqilliyinə son qoydu və "Zaqafqaziya Sovet respublikaları ilə Sovet Rusiyasının ittifaqı" şüarını irəli sürdü.

*Nəticə*. Milli məsələnin ədalətli həlli gələcəkdə Rusiya imperiyasının dağılması demək olardı. Əlbəttə, Rusiya siyasi müstəvisində fəaliyyət göstərən heç bir siyasi qüvvə bunu istəmirdi. "Vahid və bölünməz Rusiya"nı öz idealı hesab edən istər çar mütləqiyyətinin, istər Müvəqqəti hökumətin, istərsə də Sovet hökumətinin milli siyasəti mahiyyətcə fərqlənmirdi.

Dövlət çevrilişi ilə hakimiyyəti ələ keçirən bolşeviklər ucqarlardakı milli-azadlıq hərəkatlarını özünə qarşı qaldırmamaq üçün dərhal xalqlara azadlıq vəd edən dekretlər verdilər. Millətlərin öz müqəddəratını təyin etmək hüququnu elan edən bolşevik lideri əslində bunun əleyhinə idi. Odur ki, Lenin hər cür milliliyi millətçilik damğasıyla gözdən salır, mücərrəd proletar beynəlmiləlçiliyini ona qarşı qoyurdu, milli-azadlıq hərəkatını sosial inqilab məcrasına yönəltməyə səy edirdi.

M.Ə.Rəsulzadə milli məsələyə dair Leninin mövqeyini belə izah edirdi: "Lenin zəif millətlərdə milli fikri öldürmək surətilə bütün Rusiyanı qeyri-milli bir hala qoymaq (denasionalizm etmək) istəyirdi"[14, s.90].

Azərbaycan Cümhuriyyətinə qarşı "Müstəqil Sovet Azərbaycanı" şüarının irəli sürülməsi də yalnız yerli bolşeviklərin vasitəsilə dövlət çevrilişi üçün "münasib şərait yaratmaq" və Sovet Rusiyasının Azərbaycanda itirilmiş hakimiyyətini bərpa etmək məqsədi güdürdü. Sovet rəhbəri məqsədinə nail olduqdan sonra Azərbaycan Sovet Sosialist Respublikasının formal müstəqilliyinə son qoyub, onu əvvəl Zaqafqaziya Sovet Respublikaları federasiyasının, sonra Sovet Sosialist Respublikaları İttifaqının tərkibinə daxil etdi.

ƏDƏBİYYAT

1.İsmayıl Musa. Azərbaycanın xarici siyasəti. I_hissə. Azərbaycan beynəlxalq munasibətlər sistemində (mart 1917-aprel 1920-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2011, 312 s.
2. Lenin V.İ. Əsərlərinin Tam Külliyyatı, [55 cilddə]. 37,40,41, 50,51, 52, 54-cü cildlər. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1981-1985.
3. Məmmədli Q. Nəriman Nərimanov. 1870-1925. Həyat və yaradıcılığının səlnaməsi. Bakı, Yazıçı, 1987, 356 s.
4. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı: Gənclik,1990, 94 s.
5. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). Баку: «Азербайджан»,1998, 632 s.
6. Балаев А. Азербайджанское национально-демократическое движение. 1917-1920. Баку: «Елм», 1990, 136 s.
7. Большевики в борьбе за победу социалистической революции в Азербайджане 1917-1918. Баку: Азербайджанское гос. изд-во, 1957, 700 s.
8. Борьба за победу советской власти в Азербайджане 1918-1920. Документы и материалы. Баку: Изд-во Академии наук Азербайджанской ССР, 1967, 569 s.
9. Гусейнов И.А. Историческое значение большевистского лозунга «Независимый Советский Азербайджан» // «Ученые записки АГУ», №10 1957, с.63-83.
10. Международная политика новейшего времени в договорах, нотах и декларациях. Ч. II. М.: Издание Литиздата НКИД, 1926, 463 s.
11. Мустафазаде Р. Две Республики. Азербайджано-российские отношения в 1918-1922 гг. М.: МИК, 2006, 360 s.
12. Нариманов Н. Избранные произведения. Т.2: 1918-1921. Баку, Азернешр, 1989, 765 с.
13. Ричард Пайпс. Русская революция.1918-1924. М.: Захарова, 2005, 351 s.
14. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
15.Сысоев В.М. Баку прежде и теперь. Баку, Отдельный оттиск из IY выпуска "Известий Азкомстариса". 1928, 165 с.

**АРИФА АДИГЁЗАЛОВА**
*Доцент кафедры новой и новейшей истории Азербайджана*
*Бакинского Государственного Университета*

## ЛОЗУНГ ПРОТИВ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ «НЕЗАВИСИМЫЙ СОВЕТСКИЙ АЗЕРБАЙДЖАН»

Советская Россия вероломно заявляла в своих первых правовых документах, что нации имеют право определять свою судьбу до создания независимого государства, на самом деле она выступала против национальной государственности с точки зрения классовой борьбы. В 1917-1918 гг. большевики Азербайджана и Кавказа также заняли неправильную позицию по национальному вопросу и категорически отвергли идею территориальной автономии, выдвинутую национальной демократией.

Политика национального геноцида, проводимая большевистско-дашнакскими воинскими частями в марте-апреле 1918 года под предлогом установления Советской власти в Бакинской губернии, явилась результатом враждебного отношения к идее автономии тем неимение после мартовских погромов национально-демократические силы Азербайджана начали борьбу за независимость и 28 мая 1918 года провозгласили Азербайджанскую Демократическую Республику. Уже в конце 1918 - начале 1919 годов, осознавая свои ошибки в национальном вопросе, большевики выдвинули против Азербайджанской Республики лозунг «Независимый Советский Азербайджан». Тем самым большевики стремились «создать благоприятные условия» для государственного переворота в Азербайджане.

Советская Россия также хотела использовать азербайджанских большевиков в качестве инструмента в своем плане оккупации, считая лозунг «Независимый Советский Азербайджан» целесообразным для восстановления утраченной власти на Кавказе. На заседании ЦК РК(б)П 19 июля 1919 года было принято решение о признании независимости Азербайджанской Советской Республики.

4 октября 1919 года в обращении Наркомата иностранных дел РСФСР к рабочим и трудящимся Азербайджана, Дагестана и Грузии говорилось: «Советская Россия не намерена нападать на вашу республику с оружием, чтобы восстановить свою власть. Если вас, кавказских мусульман и грузин устраивает форма правления вашей республики, живите в мире, определяйте свою судьбу и устанавливайте с нами добрососедские отношения».

Однако этот призыв был сделан, чтобы скрыть истинную цель Коммунистической партии. Фактически стратегические цели и политические претензии РК (б) не ограничивались Россией, а выходили за ее рамки.

27 апреля 1920 года азербайджанские коммунисты, опираясь на 11-ю Красную армию, захватили власть. 28 апреля Азербайджан был провозглашен Советской Республикой. После этого Коммунистическая партия России продвигала лозунг «Союз Закавказских Советских Республик и Советской России».

*Ключевые слова*: Советский Азербайджан, большевики, нация, самоопределение.

**ARİFA ADIGOZALOVA**
*Associate Professor of the Department of New and Contemporary History of Azerbaijan of Baku State University*

## SLOGAN AGAINST THE DEMOCRATIC REPUBLIC OF AZERBAIJAN "INDEPENDENT SOVIET AZERBAIJAN"

Soviet Russia treacherously claimed in its first legal documents that nations had the right to determine their own destiny before establishing an independent state; in fact, it opposed national statehood in terms of class struggle. In 1917-1918. The Bolsheviks of Azerbaijan and the Caucasus also took the wrong stance on the national question and categorically rejected the idea of territorial autonomy put forward by national democracy.

The policy of national genocide conducted by Bolshevik-Dashnak military units in March-April of 1918 under the pretext of establishing Soviet authority in the Baku province was the result of their hostile attitude towards the idea of autonomy, after the March massacres the national-democratic forces of Azerbaijan began the struggle for independence and proclaimed the Democratic Republic of Azerbaijan on May 28, 1918. Already at the end of 1918 and beginning of 1919, the Bolsheviks, realizing their mistakes in the national question, put forward the slogan of "Independent Soviet Azerbaijan" against the Republic of Azerbaijan. Thus, the Bolsheviks sought to "create favorable conditions" for a coup d'état in Azerbaijan.

Soviet Russia also wanted to use the Azerbaijani Bolsheviks as a tool in its plan of occupation, considering the slogan "Independent Soviet Azerbaijan" expedient to restore the lost power in the Caucasus. On July 19, 1919, the meeting of the Central Committee of the RC (b) P decided to recognize the independence of the Azerbaijani Soviet Republic.

On 4 October 1919, the address of the People's Commissariat of Foreign Affairs of the RSFSR to the workers and workers of Azerbaijan, Dagestan, and Georgia stated: "Soviet Russia does not intend to attack your republic with weapons to restore its power. If you, Caucasian Muslims and Georgians are satisfied with the form of government of your republic, live in peace, determine your fate and establish good neighborly relations with us".

However, this appeal was made to conceal the true aim of the Communist Party. In fact, the strategic aims and political claims of the RC (b) were not limited to Russia but went beyond it.

On April 27 1920, Azerbaijani Communists, supported by the 11th Red Army, seized power. On April 28 Azerbaijan was proclaimed the Soviet Republic. After that, the Russian Communist Party promoted the slogan "Union of Transcaucasia Soviet Republics and Soviet Russia".

*Keywords*: Soviet Azerbaijan, bolshevik, nation, self-determination.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94**

**QABİL BƏŞİROV**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

**TALEH CƏFƏROV**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,t.ü.f.d.*
**taleh.ceferov.83@mail.ru**

# "DÜNYA İNQİLABI" İDEYASINDAN SÜLH HAQQINDA DEKRETƏ DOĞRU: ÜMİDLƏR,GÖZLƏNTİLƏR VƏ NƏTİCƏLƏR

*Məqalədə kommunist inqilabının ayrıca götürülmüş bir ölkədə qalib gələ biləcəyinin mümkünlüyü məsələsində F.Engelsin mövqeyi, buna münasibətdə V.İ.Leninin baxışları təhlil olunur, Oktyabr çevrilişindən sonrakı dövrdə bolşeviklərin öz mövqelərini gücləndirmək üçün ilk Dünya müharibəsinin dayandırılması ilə bağlı siyasəti təhlil olunur.*

*Açar sözlər*: inqilab, kommunizm, kapitalist, ideya, sosializm, qurultay, türk, respublika.

*Giriş*. XIX-XX əsrin əvvəlləri dünyanın müxtəlif hissələrində yaşayan xalqların milli mübarizə, maddi rifahın yüksəldilməsi, sosial ədalətin təmin edilməsi uğrunda mübarizəsi tarixində mühüm bir mərhələdir. Bu dövrdə müxtəlif əhali qruplarının mənafelərinin müdafiə olunmasına,onların istəklərinin təmin edilməsinə istiqamət verə biləcək ideyalar, cərəyanlar təşəkkül tapırdı. Qarşıda duran problemlərin həlli üçün müxtəlif metodlar,vasitələr təklif olunurdu. Qeyd olunan dövrdə təşəkkül tapan ideyalardan biri də " dünya inqilabı" ideyası idi. XIX əsrin ortalarında irəli sürülən bu ideyanın baniləri K.Marks və F.Engels idilər. "Bütün ölkələrin proletarları, birləşin! "şüarının da müəllifləri olan bu şəxslər kapitalizm cəmiyyətini, buradakı qüvvələr nisbətini müqayisə edərək belə bir nəticəyə gəlmişdilər ki, mövcud quruluşun dəyişdirilməsi vəzifəsini öz üzərinə fəhlə sinfi götürməlidir. Kapitalizmə qarşı mübarizədə fəhlə sinfi həm özünü, həm də bütün dünya zəhmətkeşlərini istismardan xilas etməklə özünün beynəlxalq vəzifəsini yerinə yetirməlidir.

F.Engels 1847-ci ildə yazdığı" Kommunizmin prinsipləri" əsərində kommunist inqilabının hansı ölkələrdə baş verə bilməsinin mümkünlüyü məsələsinə münasibət bildirərək qeyd edirdi ki, "kommunist inqilabı yalnız milli inqilab olmayacaqdır, mədəni ölkələrin hamısında, yəni heç olmasa, İngiltərə, Amerika, Fransa və Almaniyada bir vaxtda baş verəcəkdir .... Kommunist inqilabı dünya inqilabıdır, buna görə də onun meydanı dünya olacaqdır" (10, s.334).

F.Engels qeyd edirdi ki,bu inqilabın ayrıca götürülmüş bir ölkədə baş verməsi mümkün deyil, çünki iri sənaye dünya bazarını yaratmış olmaqla yer kürəsinin bütün xalqlarını,xüsusilə mədəni xalqları bir-birinə elə bağlamışdır ki,bunlardan hər biri digərinin həyatinda nələr baş verdiyindən asılıdır. Bu ölkələrdən birində baş verəcək iqtisadi böhran digər ölkələrə də təsir göstərəcək. İqtisadi böhran sosial gərginliyi daha da dərinləşdirərək sosial partlayışlar üçün şərait yaradacaq.

F.Engels öz əsərində dünya inqilabının inkişaf səviyyəsi məsələsinə də münasibət bildirirdi. O qeyd edirdi ki, "mədəni ölkələrdən hansında sənaye daha çox inkişaf etmişsə, daha çox sərvət toplanmışsa və daha çox məhsuldar qüvvələr varsa, bundan asılı olaraq onların hər birində kommunist inqilabı daha sürətlə,yaxud daha yavaş inkişaf edəcəkdir"(10, s.334).

Kapitalist münasibətlərinin inkişaf səviyyəsinə görə Qərb ölkələri fərqli mövqedə idilər. Belə ki, Almaniya ilə müqayisədə İngiltərə,Fransa və Şimali Amerikada sənaye daha çox inkişaf etmişdi. Bu mənada kommunist inqilabının gedişi Almaniyada zəif ola bilərdi,İngiltərədə isə inqilab daha sürətlə getməli idi. İnkişaf etmiş sənaye ölkələrindəki proletar inqilabları dünyanın mədəni cəhətdən az inkişaf etmiş ölkələrinə də təsir göstərməli idi.

V.İ.Lenin dünya inqilabı haqqında K.Marks və F.Engelsin fikirlərini qəbul və müdafiə etməklə yanaşı, həmin ideyaya bir sıra əlavələr də edirdi.İmperializm mərhələsində kapitalist ölkələrinin həm iqtisadi, həm də siyasi cəhətdən qeyri-bərabər inkişaf etməsini, mövcud rejimə qarşı mübarizə aparan qüvvələrin mütəşəkkilliyindəki fərqli cəhətləri, qüvvələr nisbətindəki fərqi,yeni ərazilər uğrunda imperialist dövlətləri arasında mübarizənin güclənməsini nəzərə almaq əsasında V.İ.Lenin qeyd edirdi ki, proletar inqilabı Rusiyada baş verə bilər.

V.İ.Lenin qeyd edirdi ki, imperializm dövründə kapitalizmin iqtisadi inkişafının qeyri-bərabərliyi müxtəlif ölkələrdə sosialist inqilabının qələbəsi üçün ilkin siyasi şəraitin müxtəlif vaxtlarda yetişməsinə səbəb olur, kapitalist ölkələri arasında ziddiyyətlərin kəskinləşməsi və münaqişələrin baş verməsi isə imperializm sistemini zəiflədir və onu ən zəif halqasında yarmaq işini asanlaşdırır. Bu isə o deməkdir ki, sosialist inqilabının bütün və ya əsas kapitalist ölkələrində eyni zamanda qalib gələ bilməsi haqqında K.Marks və F.Engelsin əvvəllər yayılmış fikri yeni şəraitə uyğun gəlmir, bu mənada ona yeni müddəa əlavə edilməlidir. Bu ideya V.İ.Lenin 1915-ci ilin yayında yazdığı "Avropa Birləşmiş Ştatları şüarı haqqında" məqaləsində öz əksini tapdı. Lenin yazırdı: "İqtisadi və siyasi inkişafın qeyri-bərabərliyi kapitalizmin qəti qanunudur. Buradan belə bir nəticə çıxır ki, sosializmin əvvəlcə bir neçə və ya hətta ayrılıqda götürülmüş bir kapitalist ölkəsində qalib gəlməsi mümkündür" (6, s.393). 1915-ci ilin payızında yazdığı "Proletar inqilabının hərbi proqramı"nda isə V.İ.Lenin deyirdi: "Kapitalizm müxtəlif ölkələrdə son dərəcə qeyri-bərabər inkişaf edir.Əmtəə istehsalı şəraitində başqa cür ola da bilməz. Buradan belə bir qəti nəticə çıxır: sosializm bütün ölkələrdə eyni zamanda qələbə çala bilməz. Sosializm əvvəlcə bir və ya bir neçə ölkədə qələbə çalacaq,qalan ölkələr isə müəyyən bir zaman ərzində burjua ölkələri və ya burjua quruluşundan əvvəlki ölkələr halında qalacaqdır" (7, s.154).

Bolşeviklər Rusiyada hakimiyyəti ələ keçirməyə hazırlaşmaqla yanaşı həm də digər ölkələrdə inqilabların baş verməsini Rusiyada inqilabın qələbəsi üçün mühüm şərt hesab edirdilər. Mütləq monarxiyaya son qoymuş Fevral inqilabının qələbəsindən sonra Rusiyaya qayıdan V.İ. Lenin 1917-ci ilin aprelində yazırdı ki, "rus proletariatı yalnız öz gücü ilə sosialist inqilabını qələbə ilə başa çatdıra bilməz. Lakin o, rus inqilabına elə bir vüsət verə bilər ki, onun başlanması üçün daha yaxşı şərait yaratsın. O, özünün əsas, etibarlı əməkdaşı olan Avropa və Amerika proletariatının həlledici mübarizəyə başlaması üçün şərait yarada bilər" (8, s.93). V.İ.Lenin belə hesab edirdi ki, rus fəhlələrinin inqilabından sonra Almaniya və Fransanın fəhlə sinfi də inqilab edəcəklər.

1917-ci ilin oktyabr ayında silahlı üsyan yolu ilə Sank-Peterburqda hakimiyyəti ələ keçirən bolşeviklər tezliklə "dünya inqilabının" başlanmasına ümid edirdilər, buna Sovet hökumətinin qorunub-saxlanılması işində mühüm bir dayaq kimi baxırdılar. Bolşevik liderlərinin çıxışlarında da bu fikir tez-tez səslənirdi. Lenin qeyd olunurdu ki, "Qərbi Avropanın proletariatı sosializm işini tam və sarsılmaz qələbəyə çatdirmaqda bizə kömək edəcəklər" (9, s.5). Trotski 1917-ci ilin oktyabrın 26-da 2-ci Ümumrusiya Sovetlər qurultayındakı çıxışında bildirmişdi ki, Avropa xalqları imperializmi məhv etməsələr, biz də məğlub olacağıq. Ya rus inqilabı Qərbdə xalqların mübarizəsini gücləndirəcək, ya da bütün kapitalist ölkələri bizi əzəcəklər. Burada belə bir məsələni də qeyd etmək lazımdır ki, dünyanın siyasi həyatına 1917-ci ilin payızında daxil olan Sovet hökuməti əslində "dünya inqilabının" olmadığı bir şəraitdə öz mövcudluğunu qoruyub saxlaya bildi, sosializm quruculuğu doktrinasını həyata keçirtdi və buna nail olmaq üçün yol verilən, qəbul edilməsi qeyri-mümkün hesab edilən üsullardan, vasitələrdən də istifadə etdi. Sovet hökumətinin bu illərdə həyata keçirdiyi siyasət, imperiya əhalisinə münasibətdə tətbiq erdiyi repressiya cəmiyyətə maddi və mənəvi cəhətdən çox böyük ziyan vurdu, dağıntılara səbəb oldu.

2-ci Ümumrusiya Sovetlər qurultayında təşkil edilən ilk Sovet hökumətinin qəbul etdiyi sənədlərdən biri sülh haqqında Dekret idi.Bu Dekretlə Sovet hökuməti" müharibə edən bütün xalqlara və onların hökumətlərinə ədalətli, demokratik sülh bağlamaq üçün dərhal danışıqlara başlamağı" təklif etdi (3, s.12). Lakin bu çağırış Antanta ölkələri tərəfindən qəbul edilmədi. Bu ölkələrin səfirlərinin 1917-ci ilin noyabrın 9-da Petroqradda keçirilən yığıncağında öz hökumətlərinə hazırladıqları sənəddə qeyd olunurdu ki, Sovet hökumətinin müraciətinə münasibət bildirmək lazım deyil, çünki Xalq Komissarları Soveti güc yolu ilə yaradılmışdır, ölkə xalqları bu hökuməti tanımayıb. Almaniyanın mövqeyi isə fərqli idi. Bu isə onunla bağlı idi ki, Almaniya əslində məğlub vəziyyətində idi. İqtisadi və sosial gərginlik də getdikcə artirdı. 1917-ci ilin noyabrın 14(27)-də Almaniya bildirdi ki, danışıqlar aparmağa hazırdır.

Sovet hökumətinin sülh haqqında Dekreti ilk baxışda hökumətin digər dövlətlərin daxili işlərinə qarışmaq istəməməsi, sülhsevər ölkə təəssüratı yaradır. Bu həqiqətənmi belə idi? Bolşeviklər dünyada sülhün, əmin-amanlığın, siyasi sabitliyin bərpa və təmin olunmasına, sosial gərginliyin aradan qaldırılmasına maraqlı idi, yoxsa bu sənədlə bolşevik liderləri yeni yaradılmış hökuməti qoruyub-saxlamaq üçün xalqları dünya inqilabına çağırırdılar?

Əslində Dekretin məzmu və Sovet hökumətinin “dünya inqilabı” ideyasına sadiqliyi və ictimai-siyasi xadimlərin bəzi çıxışları belə bir nəticəyə gəlməyə imkan verir ki, sülh haqqında Dekret digər ölkələrin daxili işlərinə qarışmaq, dünya inqilabına çağırış idi. Bunu konkret faktlar əsasında əks etdirmək üçün Dekretin məzmununu təhlil etməklə yanaşı 1-ci Dünya müharibəsinə münasibətdə rus bolşeviklərinin fəaliyyətini də nəzərdən keçirmək lazımdır.

1-ci Dünya müharibəsinin başlanmasından sonra bolşeviklər bu müharibəni vətəndaş müharibəsinə çevirmək, öz hökumətlərinin məğlubiyyətinə nail olmaq məsələsini irəli sürdülər. V.İ.Lenin bu şüarının mahiyyətini “İmperialist müharibəsində öz hökumətinin məğlub olması haqqında” məqaləsində belə izah edirdi: “Müharibə zamanı inqilab, vətəndaş müharibəsidir, hökumətlər müharibəsinin vətəndaş müharibəsinə çevrilməsi isə, bir tərəfdən, hökumətlərin hərbi müvəffəqiyyətsizlikləri (“məğlubiyyəti”) nəticəsində asanlaşır, o biri tərəfdən isə, - hökumətlərin məğlub olmasına kömək etmədən həmin müharibənin vətəndaş müharibəsinə çevrilməsinə işdə səy etmək olmaz” (6, s.316).

Rusiya bolşevikləri xalqın yoxsul hissəsini və əsgərləri öz hökumətlərinə qarşı mübarizəyə hazırlamağı özlərinin beynəlmiləl borcu hesab edirdilər. Onlar həm də bildirirdilər ki, Rusiya proletariatı öz işi ilə digər ölkələrdəki sosial hərəkatları alovlandırmalı idi.

Müharibə illərində bolşeviklər cəbhədə əsgərlər içərisində təbliğat apararaq müharibə edən ölkələrin əsgərlərini qardaşlaşmağa, arxa cəbhədə əhalinin yoxsul hissəsini, cəbhədə isə əsgərləri öz hökumətləri əleyhinə üsyana çağırırdılar. Bu isə o demək idi ki, bolşeviklər bütün dünya fəhlələrini bütün ölkələrdə öz hökumətlərini devirməyə təhrik edirdi.

Sovet hökuməti sülh haqqında Dekretlə yalnız müharibədə iştirak edən dövlətlərə deyil, həm də Fransa, Almaniya və İngiltərənin fəhlələrinə müraciət etdi. Müraciətdə deyilirdi: “Bu ölkələrin fəhlələri tərəqqi və sosializm işinə ən böyük xidmətlər göstərmişlər: İngiltərədə çartizm hərəkatı böyük nümunələr vermişdir, Fransa proletariatı bütün dünyada tarixi əhəmiyyəti olan bir sıra inqilablar etmişdir, nəhayət, Almaniyada kütləvi proletar təşkilatlarını yaratmaq işində bütün dünyanın fəhlələri üçün nümunə ola biləcək uzun, inadlı və intizamlı fəaliyyət göstərilmişdir. Proletar qəhrəmanlığının və tarixi yaradıcılığın bütün bu nümunələri bizi əmin edir ki, həmin ölkələrin fəhlələri bəşəriyyəti müharibə dəhşətlərindən və onun törətdiyi fəlakətlərdən xilas etmək üçün indi öhdələrinə düşən vəzifəni anlayacaqlar və həmin fəhlələr hərtərəfli, qəti və ən fədakar fəaliyyət göstərməklə sülh işini və eyni zamanda əhalinin zəhmətkeş və istismar olunan kütlələri hər cür köləlikdən və hər cür istismardan azad etmək işini müfəffəqiyyətlə başa çatdırmaqda bizə yardım edəcəklər ... Biz proletar hərəkatının inkişafı üçün çox işlər görmüş olan ölkələrin şüurlu fəhlələrinə ... çartizm hərəkatının meydana gəlmiş olduğu İngiltərənin fəhlələrinə,dəfələrlə üsyanlarda öz sinfi şüurunun bütün gücünü göstərmiş olan Fransa fəhlələrinə, sosialistlər haqqındakı qanun əleyhinə mübarizənin bütün ağırlığını çəkmiş və qüdrətli təşkilatlar yaratmış olan Almaniya fəhlələrinə müraciət edirik” (9, s.17-18).

Kapitalizmin məhv edilməsi işində Qərb proletariatından kömək gözləyən, dünya inqilabının baş verəcəyinə inanan V.İ.Lenin 2-ci Ümumrusiya Sovetlər qurultayındakı çıxışında deyirdi ki ,”hər yerdə hökumətlərlə xalqlar arasında ixtilaf vardır, buna ğörə də biz xalqların müharibə və sülh məsələlərinə qarışmasına kömək etməliyik” (9, s.17). Petroqrad fəhlə və əsgər deputatları Sovetinin 25 oktyabr (7 noyabr) 1917-ci tarxli iclasında Lenin bildirirdi ki, “bizim vacib vəzifələrimizdən biri dərhal müharibəni qurtarmaqdır. Lakin indiki kapitalizm quruluşu ilə sıx əlaqədar olan bu müharibəni qurtarmaq üçün – hamıya aydındır ki, bundan ötrü kapitalın özünə qalib gəlmək lazımdır. Bu işdə bizə İtaliyada, İngiltərədə və Almaniyada artıq genişlənməyə başlayan ümumdünya fəhlə hərəkatı kömək edər (9, s.2).

Sovet hökumətinin dünya ölkələrinə və xalqlarına müraciət etməsi dövlətin daxili və beynəlxalq vəziyyəti ilə də bağlı ola bilərdi. Yeni yaranan hökumətin daxili həyatında ciddi problemləri var idi. Onun mövcudluğu ilə barışmaq istəməyən qüvvələrə qarşı mübarizə aparmaq məqsədilə ordu yaratmaq, təşkilati-texniki məsələləri həll etmək lazım idi, bu isə dünya müharibəsinin dayandırılması zərurəti yaradırdı. Digər tərəfdən, Rusiyanın müharibədə iştirak etməsi onun sosial dayaqlarının, o cümlədən hökumətin əsas dayağı olan fəhlə sinfinin də narazılıqlarına səbəb ola bilərdi. Bu isə hökumətin varlığı üçün böyük təhlükə demək idi. Sovet hökuməti digər dövlətlərlə də münasibətlərini nizamlamağa, dünya zəhmətkeşlərinin köməyindən istifadə etməyə çalışırdı. Bolşeviklərin fikrincə,

Avropada tezliklə inqilablar başlamalı idi. Rus proletariatı isə Avropada inqilabların başlanmasına kimi hakimiyyəti əlində saxlamağa çalışmalı idi (2, s.42).

1918-ci ilin payızından başlayaraq Avropanın bir sıra ölkələrində inqilablar başlandı. Avstriya-Macarıstan imperiyası süqut etdi. Bavariya respublika elan olundu. Bu respublikanın yaranmasına Sovet hökuməti xüsusi maraq göstərirdi. Bavariyada səfir olmuş A.İoffe sonralar yazırdı ki, inqilabçılar üçün silah alınmasına 100 min marka verilmişdi (4, s.320).

1919-cu ilin martında Moskvada Kommunist İnternasionalının təsis konqrensi keçirildi. Dünyanın 21 ölkəsindən gəlmiş 52 nümayəndə 35 partiya və qrupu təmsil edirdi. Konqrensdə deyd olundu ki, dünya kapitalizm sisteminin dağılması və kommunist inqilabları dövrünə daxil olmuşdur. Hazırki şəraitdə kommunustlərin qarşısında duran əsas vəzifə kapitalizmin məhvinin sürətləndirilməsi, inqilabların yaxınlaşması üçün öz səylərini artırmaqdır, yerli kommunistləri öz hökumətlərinə qarşı mübarizəyə hazırlamaqdır. Bu da digər dövlətlərin daxili işınə qarışmaq demək idi. Konqresdə Zinovyevin rəhbərliyi altında Kommunist İnternasionalının Mərkəzi İcraiyyə Bürosu da yaradıldı. Büro Kommunist İnternasionalının tərkibinə daxil olan partiyalar arasında əlaqələrin saxlanılmasını təmin etməli idi.

Lakin Sovet hökumətinin dünya inqilabına olan ümidləri özünü doğrultmadı. Almaniyadakı inqilab burjua-demokratik inqilabı çərçivəsindən kənara çıxa bilmədi. Avstriyada hakim qüvvələr mövcud rejimi qoruyub saxlaya bildilər. Macarıstan, Bavariya, Slovakiya sosialist respublikaları uzun müddət yaşaya bilmədilər. Fransa,İngiltərə və İtaliyada inqilablar baş vermədi. ABŞ da inqilablardan yan keçə bildi (11, s.16-17).

1917-ci ilin oktyabrında silahlı yolla hakimiyyəti ələ keçirib hökumət yaradan bolşeviklər milli məsələ ilə bağlı bir sıra sənədlər də elan etdilər. 1917-ci ilin noyabrın 2-də elan edilən "Rusiya xalqlarının hüquq bəyannaməsi"ndə ayrılmaq və müstəqil dövlət yaratmaq da daxil olmaqla Rusiya xalqlarının öz hüquqlarını sərbəst həll etmək, onların mədəniyyətlərinə, dinlərinə hörmətlə yanaşılacağı vəd olunurdu. Lakin bunlar vəd olaraq qaldı. Sovet hökuməti müxtəlif taktiki gedişlərdən, yalan və hiylələrdən istifadə edərək mahiyyət etibarı ilə unutar dövlət yaratdı. "Vahid və bölünməz Rusiya" prinsipindən çıxış edən V.İ.Lenin yeni bir imperiyanın əsasını qoydu. 1920-ci ilin sonuna kimi vaxtilə Rusiya imperiyasının tərkibində olan ərazilərdə sovetləşmə siyasəti əsasən həyata keçirildi. Müsəlman regionları da bolşeviklərin nəzarəti altına düşdü. Azərbaycan formal olaraq müstəqil sovet respublikası elan olundu. Krım, Volqqaboyu, Türküstan, Uralətrafı və Sibir Rusiya Federasiyası tərkibində muxtariyyat hüququ əldə etdilər.

Vətəndaş müharibəsinin davam etdiyi dövrdə Rusiya Şərq rayonlarında öz mövqeyini gücləndirməyə çalışmaqla yanaşı Asiyaya inqilab ixrac etmək siyasəti haqqında da düşünürdü və bu istiqamətdə müəyyən səylər göstərirdi. Hələ Sovet hökumətinin1917-ci ilin noyabrın 20-də elan etdiyi "Rusiya və Şərqin bütün müsəlman zəhmətkeşlərinə müraciəti"ndə də əslində bu fikir öz əksini tapırdı. Sənəddə Rusiyadan kənarda,müsəlman Şərqində yaşayan müsəlmanlar istismarçıları devirməyə çağrılırdı və onlara bu işdə kömək vəd olunurdu. Hələ 1918-ci ilin 22 martda İ.V.Stalinin imzası ilə "Tatar-Başqırd Sovet respublikası haqqında" əsasnamə elan olundu. Bu sənəddə qeyd olunurdu ki, Cənubi Uralın və Orta Volqaboyunun ərazisi Rusiya Sovet Federasiyasının Tatar-Başqırd Sovet Respublikası elan olunur (5, s.257). Yaradılması nəzərdə tutulan respublika Asiya ölkələrindəki inqilablara təsir və yardım göstərməli idi. Lakin xüsusilə başqırd liderlərinin, eləcə də regiondakı sovet hakimiyyəti orqanlarının bəzi nümayəndələrinin buna qarşı çıxış etmələri, bu respublika üçün nəzərdə tutulan ərazilərin bir hissəsinin ağqvardiyaçıların əlində olması ilə bağli bu planı həyata keçirmək mümkün olmadı (1, s.32).

1920-ci ilin sentyabrında Şərq xalqlarının Bakıda keçirilən birinci qurultayının fəaliyyətində də inqilabların Şərq rayonlarına doğru irəliləməsi məsələsi öz əksini tapdı. Qurultayda Şərq xalqlarının azadlıq hərəkatının müdafiə olunması barəsində müraciət də qəbul olunmuşdu. Bakı qurultayında yaradılmış" Təbliğat və Fəaliyyət Şurası" Şərq xalqları arasında təbliğat aparmalı, onların mübarizəsini dəstəkləməli idi.

*Nəticə*. 1921-ci ildən etibarən Sovet dövlətinin daxili və xarici siyasətində müəyyən dəyişikliklər başlanır. Həmin ilin martında bolşeviklər partiyasının 10-cu qurultayında iqtisadi siyasətin dəyişdirilməsi haqda qərar qəbul olundu. Yeni iqtisadi siyasətə keçidin ilk illərindən başlayaraq Sovet hökuməti bir sıra ölkələrlə də münasibətləri tənzimləməyə başlayır. Polşa, İran, Əfqanıstan, Türkiyə,

İngiltərə, Almaniya, İtaliya, Norveç və İsveçlə diplomatik-ticarət müqavilələri imzalanır. Sovet hökumətinin Qərb və Şərq ölkələri ilə əldə etdiyi bir sıra razılaşmalar ona siyasi təcrid vəziyyətindən çıxmağa,dünya bazarına qayıtmağa imkan yaratdı.

ƏDƏBİYYAT

1. Bəşirov Q., Piriyeva A.Türk xalqlarının sovet dövrü tarixi. Bakı, ADPU, 2009, 153 s.
2. Lenin V.İ. ƏTK: [55 cilddə]. Bakı, Azərnəşr, c.26, 1981, 678s.
3. Lenin V.İ. ƏTK: [55 cilddə]. Bakı, Azərnəşr, c.30, 1981, 649s.
4. Lenin V.İ. ƏTK: [55 cilddə]. Bakı, Azərnəşr, c.31, 1981, 753s.
5. Lenin V.İ. ƏTK: [55 cilddə]. Bakı, Azərnəşr, c.35, 1981, 676 s.
6. Барсенков А., Вдовин А. История России. 1917-1920. М., Аспект Пресс, 2010,846 с.
7. Декреты Советской власти. Т.1. М., Политиздат, 1957, 625 с.
8. История России. 20 - начала 21 в. /Под ред. Л.В.Милова. М., Владос, 2002, 960 с.
9. История татар. В 7 т. Т.7. Казань, АНРТ, 2013, 1008 с.
10. Маркс К., Энгелъс Ф. Сочинение. Изд.2. Т.4. М., Политиздат, 1955, 638 с.
11. Нежинский Л.Н. Внешняя политика Советского государства в 1917-1921 г. Курс на “мировую революцию”, или на мирное сосушествование? // История СССР, 1991, №6, с.3-26.

**ГАБИЛЬ БАШИРОВ**
*Азербайджанский Государственный Педагогический Университет*

**TALEH CƏFƏROV**
*Доктор философии по истории, Старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

**ОТ ИДЕИ "МИРОВОЙ РЕВОЛЮЦИИ"**
**О ДЕКРЕТА О МИРЕ: НАДЕЖДЫ, ОЖИДАНИЯ И РЕЗУЛЬТАТЫ**

В статье, посвященной победе коммунистической революции в одной отдельно взятой стране, рассматривается позиция Ф.Энгельса, взгляды В.И.Ленина, анализируется политика большевиков, проводимая после Октябрьского переворота, направленная на прекращение Первой мировой войны для укрепления своих позиций.

*Ключевые слова*: революция, коммунизм, капитализм, идея, социализм, съезд, тюрк, республика.

**GABİL BASHİROV**
*Azerbaijan State Pedagogical University*

**TALEH CƏFƏROV**
*Doctor of Philosophy in History,*
*Senior Lecturer at Azerbaijan State Pedagogical University*

**FROM THE IDEA OF A "WORLD REVOLUTION"**
**TO THE PEACE DECREE: HOPES, EXPECTATIONS AND CONSEQUENCES**

The article analyzes Engels' position on the possibility of a communist revolution in a separate country, Lenin's views on it, and the policy of the Bolsheviks in the post-October Revolution period to stop the First World War in order to strengthen their position.

*Key words*: revolution, communism, capitalist, idea, socialism, congress, turk, republic.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 noyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.e.d.Sevinc Seyidova, t.e.d. İbrahim Zeynalov.*

UOT 94

**İKRAM AĞASİYEV**
*tarix elmlər doktoru, professor,*
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*

**SEYİDMƏMMƏD MƏMMƏDZADƏ**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı*
**TarixVeOnunProblemleri@gmail.com**

# KUBAN XALQ RESPUBLİKASININ YARANMASI, FƏALİYYƏTİ VƏ SÜQUTU

*Məqalə Şimali Qafqazda 1918-1920-ci illər arası mövcud olmuş Kuban Xalq Respublikasinin tarixinə həsr olunmuşdur.Məqalədə Kuban respublikasının tarixi-coğrafiyası, əhalisi, daxili və xarici siyasəti haqqında elmi ictimaiyyətə az məlum olan məlumatlar verilir. Müəlliflər Azərbaycan Xalq Cümhuriyyəti ilə eyni illərdə mövcud olmuş bu gənc respublikanın yaranma, fəaliyyət xüsusiyyətlərini araşdırmış, onun süqutuna gətirən amilləri göstərmişlər.*

*Açar sözlər*: "Könüllü Ordu", Azərbaycan, Denikin, Biçeraxov, Dağ Respublikası, ağ hərəkat, Xoyski.

*Giriş*. Məqalə Rusiya imperiyası dağıldıqdan sonra Qafqazda yaranmış gənc dövlətlətlərdən birinə-Kuban Xalq Respublikasının tarixinə həsr olunmuşdur.

Kuban ölkəsinin adı bu ərazidə axan Kuban çayının adından götürülmüşdür. Tarixdə bu çayın adı müxtəlif formalarda göstərilsə də, son minillikdə yalnız Kuban adı işlədilir ki, bu söz də ərazidə yaşayan Qaraçay və Balkar xalqlarının dilində “koban” yəni “çay” və yaxud “böyük çay” deməkdir. Kuban adının bu ərazilərdə yüzillərlə yaşamış qıpçaq tayfalarının öz adından, yəni “kuman”adından yarandığını iddia edən baxışlar da mövcuddur (10).

Kuban Respublikasının əraziləri indiki Rusiya Federasiyasının cənubunu, Qafqazın şimali-qərbini əhatə etmişdir. Mövcud olduğu dövrdə qərbdən Qara və Azov dənizi ilə əhatələnən Respublika şimaldan Böyük Don Qoşunu-Don Respublikası, şərqdən Dağlı Respublikası və cənubdan Gürcüstan Demokratik Respublikası ilə həmsərhəd idi. Respublika ərazilərində Rusiya imperiyası dövründə (1860-1917-ci illərdə) Kuban vilayəti mövcud olmuşdur ki, 1897-ci ilin əhalinin siyahıya alınmasının nəticələrinə görə bu vilayətin ərazisi 86,64 min kv.km və əhalisinin sayı 1,92 mln. olmuşdur. 1918-1919-cu illərdə Kuban vilayəti ərazilərindən savayı Azov dənizi sahili bəzi kazak əraziləri də Respublikaya daxil edilmiş və ərazi 94 min kv.km çatmışdır. Əhalisinin 47,36 %-ni ukraynalılar, 42,56%-ni ruslar, yerdə qalanları isə balkarlar, qaraçaylar, almanlar və s. təşkil edirdi (7). XIX əsrin sonlarına yaranan bu etnik durum Kuban Respublikası dövründə də əhəmiyyətli dəyişikliyə uğramamışdır. Rəsmi dövlət dili kimi Ukrayna və rus dilləri işlədilirdi. Siyasi quruluşuna görə parlament respublikası olan bu dövlətin paytaxtı əsası hələ 1793-cü ildə qoyulan Yekaterinodar (indiki Krasnodar-**müəllif)** şəhəri idi. Yekaterinodardan savayı Kuban respublikası ərazisində Soçi, Novorossiysk, Anapa, Yeysk, Maykop kimi böyük şəhərlər var idi.

**Mövzunun aktuallığı** ilə bağlı qeyd etmək lazmdır ki, keçmiş Rusiya imperiyası ərazilərində Vətəndaş müharibəsi dövründə (1918-1920) müxtəlif siyasi qüvvələrin bolşevizmə qarşı mübarizədə məğlubiyyəti və bu uğursuzluğun səbəblərinin araşdırılması həmişə aktualdır. Çünki Azərbaycan Xalq Cümhuriyyəti, Kuban Xalq Respublikası və keçmiş Rusiya imperiyası ərazilərində yaranan sair gənc dövlətlərin süqutunun səbəblərindən ən başlıcası anti-bolşevik qüvvələr arasındakı ziddiyyətlər, onların bir araya gələ bilməməsi olmuşdur ki, bu səhvlər Sovet hakimiyyətinin sonrakı illərində bütün SSRİ xalqlarına, o cümlədən Şimali Qafqazda yaşayan əhaliyə minlərlə qurbanlar hesabına başa gəlmişdir.

Azərbaycan tarixşünaslığında ilk dəfə Kuban Xalq Respublikasının tarixinə həsr olunmaşı tədqiqatın **elmi yeniliyini** şərtləndirir. Məqalədə Kuban Xalq Respublikasının yaranmasının tarixi şərtləri, yaranması, fəaliyyəti və süqutunun səbəbləri araşdırılır. Tədqiqatın **məqsədi** 1918-1920-ci illərdə mövcud olmuş Kuban Xalq Respublikasının yaranışından süqutuna qədərki tarixini yığcam

çəkildə araşdırmaq, Azərbaycan Xalq Cümhuriyyəti ilə müqayisədə onun fəaliyyətində özünü büruzə verən etno-siyasi və reqional xüsusiyyətləri üzə çıxarmaqdır ki, bu da həmin dövrdə istər Azərbaycanda, istərsə də, ümumən Şimali Qafqazda gedən mürəkkəb məsələlərə aydınlıq gətirilməsinə yardımçı olacaqdır.

*Əsas mətn*. 1917-ci il 27 fevral tarixdə Fevral burjua-demokratik inqilabının qələbəsi nəticəsində 304 il Rusiyanı idarə edən Romanovlar sülaləsi devrildi. İri sənayeçilərin, torpaq sahiblərinin, orta burjuaziyanın maraqlarına uyğun olaraq Müvəqqəti hökumət və cəmiyyətin yoxsul təbəqələrinin maraqlarının müdafiəçisi kimi çıxış edən Fəhlə Deputatları Sovetləri hakimiyyətə gəldi. Beləliklə, Rusiyada ikihakimiyyətlilik bərqərar oldu.

Müvəqqəti hökumət yerlərdə öz hakimiyyət orqanlarını yaradırdı və 1917-ci ilin aprelin 17-də Kuban vilayətinin mərkəzi olan Yekaterinodarda Kuban Kazak Qoşunlarının daxili idarəetmə orqanı kimi Kuban Radası yaradıldı. Özünü Kubanda ali dövlət orqanı elan edən Kuban Radası, həmçinin başda A.P.Filimonov olmaqla Müvəqqəti kazak hökuməti də yaratdı. Bu hökumətin əsas vəzifələri kazak silkinin maraqlarını müdafiə etmək, kazak olmayanlar tərəfindən onların torpaqlarının ələ keçirilməsinin qarşısını almaqdan ibarət idi. Gündəlik fəaliyyətində Kuban Radası Müvəqqəti hökumətin qərarlarını əsas götürürdü. Hələ Müvəqqəti hökumət dövründə Kuban Radası iclaslarındakı Rusiyanın gələcək dövlət quruluşu ilə bağlı müzakirələr aparılırdı və Rusiyanın yeganə mümkün dövlət quruluşu forması kimi federal, demokratik respublika göstərilirdi. Bu məsələ ilə bağlı Radanın üzvü Makarenko demişdir: “Federasiya ucsuz-bucaqsız dövlətimizdə yaşayan hər bir millətə öz müqəddəratını təyin etmək imkanı verə bilər və bu, bütün dövlətin rifahının ən etibarlı təminatıdır” (8, s.58).

25 oktyabr 1917-ci il tarixdə Petroqradda Sovet hakimiyyəti elan olundu və tezliklə Sovet hakimiyyəti əyalətlərdə bərqərar olmağa başladı. Artıq 1917-ci ilin noyabrında Sovet hakimiyyəti Qaradəniz quberniyasında (Tuapse), dekabrda isə Novorossiyskdə qalib gəldi.

1917-ci ilin Oktyabr çevrilişindən və Müvəqqəti hökumətin ləğv edilməsindən sonra noyabr ayında Kuban Radası özünü Kuban vilayətində ali dövlət orqanı elan etməklə bərabər Kuban Qoşun Radasından Kuban Diyar Radasına çevrildiyini elan etdi. Diyar Radası öz üzvlərindən ibarət daimi fəaliyyət göstərən Kuban Qanunverici Radasını yaratdı. Kuban Qanunverici Radası Kuban Diyar hökumətini yaratdı və bu hökumətin sədri L.L.Bıç idi (8, s.8). Tezliklə antibolşevik mövqedə dayanan Kuban hökuməti Cənubi Qafqaz Komissarlığı ilə əlaqələr yaratdı. Eyni zamanda, Kubanda bolşeviklər də fəaliyyətini gücləndirmişdi. 6-8 dekabr 1917-ci il tarixdə Qaradəniz quberniyası Sovetlər qurultayı baş tutdu. Bu qurultayda A.İ.Rubinin başçılıq etdiyi bolşeviklər üstünlük təşkil edirdilər. 1918-ci ilin yanvarında Armavirdə, Maykopda, Tixoretskidə, Temryukda və Kubanın başqa stanitsalarında sovet hakimiyyəti bərqərar oldu.

*Kuban Xalq Respublikasının yaranması və fəaliyyəti*. 28 yanvar 1918-ci il tarixdə Kuban Diyar Hərbi Radasının başçısı N.S.Ryabovol keçmiş Kuban vilayəti ərazilərində Kuban Xalq Respublikasını elan etdi. Bu respublika gələcək Rusiya Federativ Respublikasının tərkibinə daxil olmalı idi. Lakin Rusiyada sovetləşmənin sürətlə getməsi və Rusiya Federativ Respublikasının yaranmasına ümidlərin azalması fonunda 16 fevral 1918-ci il tarixdə Kuban Xalq Respublikası özünü müstəqil elan etdi (3, s. 435). Kuban Xalq Respublikasında qanunverici orqan funksiyasını Kuban Diyar Radası (Şurası) və Kuban Qanunverici Radası yerinə yetirirdi. İcra hakimiyyətinə Baş Ataman başçılıq edirdi. O, eyni zamanda qoşunların Ali Baş komandanı vəzifəsini də yerinə yetirirdi. Baş Ataman Diyar Radası tərəfindən 4 illik müddətə seçilirdi. Hökumət Baş Ataman tərəfindən yaradılırdı və Qanunverici Rada qarşısında hesabat verirdi (3, s.435). Respublikada əsas nüfuzlu siyasi qüvvələr “qaradənizlilər” və “xəttçilər” sayılırdı. “Qaradənizli”lərin bir qismi Ukrayna separatizmi mövqelərində dayanırdığı halda, “Xəttçilər” rusdilli kazaklardan ibarət idi və onlar “vahid və bölünməz Rusiya” mövqeyini müdafiə edirdilər. “Xəttçilərin” və Kuban zabitlərinin bir hissəsi Cənubi Rusiya Silahlı Qüvvələrini (ВСЮР) dəstəkləyirdi.

Siyasi parçalanma Kuban Respublikasının siyasi sabitliyinə də öz təsirini göstərmişdi. Respublikanın 2 illik mövcudluğu dövründə 3 ataman və 5 hökumət başçısı dəyişmişdi. Hökumətin tərkibi isə 9 dəfə dəyişmişdi. Respublikanın siyasi vəziyyətini mürəkkəbləşdirən amillərdən biri də cəmiyyətdə mövcud olan sosial qarşıdurma idi. Kazak təbəqəsi, hansı ki, əhalinin 50%-ə qədərini təşkil

edirdi, torpaq fondunun 80%-ni öz əlində cəmləşdirmişdi. Kazakların "priqorodnıye" adlandırdığı kəndlilərə isə torpaqların yerdə qalan 20% düşürdü, baxmayaraq ki, onlar əhalinin 50%-dən çoxunu təşkil edirdilər. "Priqorodnıy" sözü "başqasının torpağını çəpərləyib özünə qatan" deməkdir (2, s.614) və kazaklar hesab edirdilər ki, kəndlilərin torpaqları keçmişdə kazaklara məxsus olmuş, zaman-zaman Kubana köçüb gələn kəndlilər onların torpağını mənimsəmişlər. Kəndlilər ("priqorodnıye") hətta seçib seçilmək hüququndan məhrum idilər.

Kubanda bolşeviklərin ekspansiyası getdikcə güclənirdi. Bolşeviklər Kuban Cənub inqilab ordusunu yaratdılar ki, onun da qərargahı Krımskaya stanitsasında yerləşirdi. Tez bir zamanda inqilabi tədbirlər həyata keçirildi: sənaye müəssisələri, mülkədar malikanələri, milliləşdirildi. Kazak olmayan və gəlmə adlandırılan əhaliyə torpaq paylandı. Siyasi sahədə də dəyişikliklər həyata keçirildi - köhnə dövlət aparatı yenisi ilə əvəz edildi. 1918-ci ilin yanvar, fevral aylarında Kubanın bir hissəsini ələ keçirən bolşevik Qırmızı qvardiyası və 39-cu Piyada diviziyasının hissələri 14 mart 1918-ci il tarixdə Kubanın paytaxtı Yekatinodara hücuma keçdilər. Bu dövrdə Kuban kazakları neytral qalmağa üstünlük verdilər, bolşeviklərlə ağların mübarizəsində heç bir tərəfi müdafiə etmədilər və adı çəkilən tərəflərin hərbi birləşmələrinə daxil olmaqdan imtina etdilər.10-13 mart 1918-ci il tarixdə Tuapsedə Qaradəniz vilayəti ərazisində mərkəzi Novorossiysk olmaqla Qaradəniz Sovet Sosialist Respublikası elan olundu. 28-30 may 1918- ci il tarixdə Kuban və Qaradəniz sahilinin III Fövqəladə Sovetlər qurultayı Qaradəniz Sovet Sosialist Respublikası ilə Kuban Sovet Respublikasının birləşməsi haqqında qərar qəbul etdi və yeni respublika Kuban-Qaradəniz Sovet Respublikası adlandırıldı .

Ağır vəziyyətə düşən Kuban Diyar hökuməti 30 mart 1918-ci ildə Novodmitriyevskoye stanitsasında "Könüllü Ordu" komandanı general L.Q.Kornilovla ittifaq bağladı və 3 minlik Kuban Ordusu "Könüllü Ordu"nun tərkibinə daxil oldu (4, s.325). 1918-ci ilin baharından payızına qədər Kubanın çox hissəsi bolşeviklərin hakimiyyəti altında qaldı. Bolşeviklər kazaklara məxsus torpaqları milliləşdirir, onu kəndlilərə pulsuz paylayırdılar ki, bu da kazaklarla kəndlilər arasında qanlı toqquşmalara səbəb oldu. 23 iyun 1918-ci il tarixdə Novoçerkassıda Kuban hökumətinin iclası keçirildi. İclasda əsas müzakirə olunan bir məsələ var idi - Kuban hökuməti daha çox hara meyl etməlidir - Ukraynaya, yoxsa "Könüllü Ordu"ya. İclasda səs çoxluğu ilə daha çox "Könüllü Ordu" ilə yaxınlaşma xətti qəbul olundu.

1918-ci ilin payızında kazak ərazilərinin böyük hissəsi bolşeviklərdən azad edildi. Bundan sonra "Könüllü Ordu" rəhbərliyi ilə kazak siyasi liderləri arasında ziddiyyətlər daha da kəskinləşməyə başladı. Yerli kazak əhalisinin maraqlarını müdafiə edən kazak liderlərin fəaliyyəti "Könüllü Ordu" rəhbərliyinin fikri ilə toqquşurdu və onlar Denikinin "vahid və bölünməz Rusiya" siyasətinə qarşı çıxırdılar.Don və Kuban kazaklarının "Könüllü Ordu" rəhbərliyinə qarşı çıxması ordu komandanı general A.İ.Denikinin kazak rayonlarının daxili işlərinə qarışmasına gətirirdi.1 noyabr 1918-ci il tarixdə Yekaterinodarda Kuban Radasının açılışı günü Denikin nitq söylədi. O, nitqində bütün qüvvələri bolşevizmə qarşı birləşməyə çağırdı və gələcəkdə Rusiya dövlətinin muxtariyyətlərdən ibarət olacağını, kazakların əsrlərlə formalaşan yaşam tərzinə qayğı ilə yanaşılacağını bəyan etdi (8, s.17). Ancaq kazak rəhbərləri, eləcədə general P.N.Krasnov Denikinin bəyanatına inanmır, onu "siyasi oyun" hesab edirdilər. Bu barədə P.N.Krasnov yazırdı ki, "general Denikinin bayrağında vahid və bölünməz Rusiyadan savayı heç nə yoxdur".

1918-ci il dekabrın sonunda bölşevizmə qarşı olan bütün qüvvələr tərəfindən general A.İ.Denikin Cənubi Rusiya Silahlı Qüvvələrinin və Don ordusunun Baş komandanı kimi qəbul edildi. Kazakların general Denikinə güzəşti beynəlxalq aləmdə baş verən hadisələrlə bağlı idi. Kubanda, Donla müqayisədə Cənubi Rusiya Silahlı Qüvvələrinə münasibət daha kəskin idi. Çünki Kubanda müstəqilliyə can atan qüvvələr daha ağır çəkiyə malik idilər. A.İ.Denikin də Kuban kazaklarına xüsusi münasibət göstərir, hər vasitə ilə onların müstəqillik meyllərinin qarşısını almağa çalışırdı. Məsələn "Könüllü Ordu" tərkibində ayrıca Don Ordusu olduğu halda, Denikin Kuban ordusunun yaranmasına icazə vermirdi (4, c.326).

1919-cu ilin yazında Kuban hökuməti qonşu dövlətlərlə əlaqələr yaratmaq fəaliyyətinə başladı. Azərbaycan Xalq Cümhuriyyəti keçmiş Rusiya ərazilərində yaranan yeni dövlətlərlə, o cümlədən Kuban Xalq Respublikası ilə əməkdaşlığa xüsusi önəm verirdi. Nazirlər Kabinetinin sədri və Xarici İşlər Naziri F.X.Xoyskinin 3 aprel 1919-cu il tarixli əmri ilə doktor Cəfər bəy Rüstəmbəyov Azər-

baycan Xalq Cümhuriyyətinin Kuban Xalq Respublikasında diplomatik nümayəndəsi kimi təsdiqləndi (1, v.1). Azərbaycan Xalq Cümhuriyyəti ilə Kuban Respublikasının daha sıx əməkdaşlığına Denikin və "Könüllü Ordu" əngəllər yaradırdı. Kuban kazak hakimiyyət orqanlarının fəaliyyətinə nəzarəti gücləndirmək üçün "Könüllü Ordu"nun komandanı general Denikin mütəmadi olaraq onların daxili işlərinə qarışırdı ki, bu da kazakların narazılığına səbəb olurdu.

Kuban respublikası ilə Denikin arasında ziddiyyətlər 13 iyun 1919-cu il hadisəsindən sonra daha da kəskinləşdi. Həmin gün Kuban Diyar Radasının sədri N.Ryabovol Denikinin ünvanına kəskin çıxış etdi və bu çıxışına görə N.Ryabovol Rostovda denikinçilər tərəfindən güllələndi.14 iyun 1919-cu il tarixində keçirilən iclasında Kuban Radası N.S.Ryabovolun ölümünü bütün Kuban diyarı üçün ağır itki kimi qiymətləndirdi (9, s.352). N.Ryabovolun öldürülməsi Kubanda kütləvi narazılığa səbəb oldu və Kuban kazakları Denikinin "Könüllü Ordu"sunu tərk etməyə başladılar (5, s.58-67).

1919-cu ilin payızında Kuban Diyar Radası Rusiyadan ayrılmaq xətti götürdü. Qonşu Gürcüstanla və Ukrayna Xalq Respublikası ilə fəal şəkildə danışıqlara başladı. Eyni zamanda Kuban Respublikasının nümayəndələri millətlər liqasında Kuban Xalq Respublikasının bu quruma qəbulu haqqında məsələ qaldırdılar və Dağlı Respublikasının nümayəndələri ilə müqavilə bağladılar, Ağ hərəkata açıq meydan oxuyaraq Gürcüstan və Petlyura ilə əlaqələr yaratdılar. Cəbhədə vəziyyətin gərginləşməsi və Kuban Radasının Qaradənizli hissəsinin Denikinə qarşı təbliğatı general Denikini məcbur etdi ki, Kuban kazaklarına qarşı qəti hücuma keçsin. Kuban Qanunverici Radası Denikin tərəfindən ləğv edildi, onun ən tanınmış 10 üzvü həbs olundu. Kuban Radasında təmsil olunan qaradənizli deputatlar Vrangelin əmri ilə hərbi-səhra məhkəməsi tərəfindən güllələndilər. Ancaq Kuban rəhbərliyi ilə Cənubi Rusiya Silahlı Qüvvələri arasında mübarizə bitmədi. Qanunverici Radanın ləğvindən heç iki ay keçməmiş o, yenidən bərpa edildi və Cənubi Rusiya Silahlı Qüvvələrinə edilən bütün güzəştlər ləğv edildi (18). Kuban kazaklarının Cənubi Rusiya Silahlı Qüvvələrini tərk etməsi Denikin ordusunun döyüş qabiliyyətinin aşağı düşməsinə səbəb oldu.

*Kuban Xalq Respublikasını süqutu.* 1920-ci ilin əvvəllərində Rusiyada gedən Vətəndaş müharibəsinin bütün cəbhələrində köklü dəyişikliklər baş verdi. Bolşeviklər yanvarın 2-də Tsaritsanı, 8-də isə Rostovu ələ keçirərək Cənub cəbhəsində Denikinin qoşunlarını sıxışdırmağa nail oldular. 1920-ci ilin fevralında və martın əvvəllərində cəbhədə Qırmızı Ordu daha da fəallaşdı və hücuma keçdi.Eyni zamanda Denikindən narazı Kuban kazakları "Könüllü Ordun"nu tərk etməyə başladılar. Kuban kazaklarının "fəsaliyyətinin qarşısını almaq üçün Denikin Kubana "qayda-qanun" dəstələri göndərdi. Bu Kuban kazaklarını hiddətləndirdi və onlar Denikin ordusunun Kubanı tərk etməsi tələbini irəli sürdülər. Kazaklar etiraz əlaməti olaraq bolşeviklərin tərəfinə keçməyə başladılar (6, s.315-316). 1920-ci il 3 mart tarixdə Qırmızı Ordu Kuban-Novorossiya əməliyyatına başladı. Könüllülərdən ibarət korpus, Don və Kuban orduları geri çəkilməyə başladılar və 17 mart 1920-ci il tarixdə Qırmızı Ordu Yekaterinodara daxil oldu, Kuban ordusu Gürcüstan sərhədlərinə sıxışdırıldı. Kuban Xalq Respublikası, Kuban hökuməti və Kuban kazak qoşunları ləğv edildi. Kubanda sovet hakimiyyəti bərqərar oldu. Kuban Qaradəniz sahili ərazilərlə birləşdirildi və 29 mart 1920-ci ilm tarixdə mərkəzi Yekaterinodar olmaqla RSFSR-in tərkibində Kuban-Qaradəniz vilayəti yaradıldı.

Kuban Xalq Respublikasının və digər Şimali Qafqaz dövlətlərinin süqutundan sonra bolşeviklər üçün Cənubi Qafqaza yol açılmış oldu. Bu hadisələrdən bir necə həftə sonra XI Qızıl Qrdu Azərbaycan Xalq Gümhuriyyətini də işğal etdi.

*Nəticə.* Kuban Xalq Respublikası iki ildən artıq bir dövrdə fəaliyyət göstərdi və bu dövrdə Kuban siyasi rəhbərliyi milli azadlıq hərəkatının lideri rolunu yerinə yetirməyi bacarmadı. Kuban hökumətlərinin xarici siyasətindəki qeyri -müəyyənlik Kuban Xalq Respublikasının inkişafına mane oldu. Həm Antanta ölkələri, rus bolşevikləri, həm də rus ağ qvardiyası Kubanın müstəqilliyini inkar etdilər.

Azərbaycan Xalq Cümhuriyyəti, Gürcüstan Demokratik Respublikası və sair yeni yaranan milli dövlətlərdən fərqli olaraq Kuban rəhbərliyində tarixi məsuliyyəti üzərinə götürəcək və Rusiya İmperiyasının dağılmasının əlverişli şəraitində Kuban əhalisini müstəqil bir dövlət həyatına aparan nə bir lider, nə də bir siyasi partiya yox idi. Kubanın müstəqilliyi, Konstitusiyasının qəbul edilməsi - bütün bunlar Denikinin satellitinə çevrilən, ümumrusiya hakimiyyətinin bərpası haqqında düşünən hökumət tərəfindən müvəqqəti hesab edildi.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Tarix Arxivi, f.897, siy 1, iş 120.
2. Rusca-Azərbaycanca lüğət.Beşinci nəşri.-11 cild.Bakı,-"Azərbaycan Sovet Ensiklopediyasıın Baş redaksiyası",1990, -712 c.
3. Білий Д. Д. Кубанська народна республіка // Енциклопедія історії України: Т. 5: Кон - Кю. / Редкол.: В.А.Смолій (голова) та ін. НАН України. Інститут історії України. - К.: В-во «Наукова думка», 2008. - 568 с.
4. Деникин А.И. Очерки русской смуты: Борьба русского генерала Корнилова. Август 1917 - апрель 1918. - Мн.: Харвест, 2002, - 400 с. (Воспоминания.Мемуары).
5. Микола Рябовол - український державник із Кубані. // Ренат Польовий. Кубанська Україна. Київ. Діокор. 2002.- С.58-67.
6. Кубанское казачество // Гражданская война и военная интервенция в СССР. Энциклопедия. Москва. - «Советская энциклопедия», 1983, - с.310-311.
7. Первая всеобщая перепись населения Российской Империи 1897 г. Распределение населения по родному языку и уездам Российской Империи кроме губерний Европейской России. Кубанская область.// Elektron resurs:http://www.demoscope.ru/weekly/ssp/emp_lan_97_uezd.php?reg=4 [Müraciət tarixi: 27.10.2021].
8. Протокол № 6 заседания 29 сентября 1917 года в помещении Зимнего театра.// Протоколы и стенограммы заседаний Кубанских краевой и Законодательной Рад. 1917–1920 гг. Сборник документов: в 6 т. / под ред. А.А.Зайцева. – (Проект «Библиотека Кубанского края»). – Краснодар: Перспективы образования. Т. 4. – Краснодар, 2016. – 404 с.
9. Ратушняк О. В.. Политические искания донского и кубанского казачества в годы Гражданской войны в России (1918-1920 гг.) // Альманах «Белая гвардия», № 8. Казачество России в Белом движении. - М., «Посев», 2005. - С.17-23.
10. Что такое Кубань? Значение слова Кубань в словаре географических названий.Elektron resurs.URL: https://diclist.ru/slovar/ geograficheskiy/k/ kuban. html [Müraciət tarixi: 27.10.2021].

**ИКРАМ АГАСИЕВ**
*Доктор исторических наук, профессор,*
*Институт истории имени А.А. Бакиханова НАНА*

**СЕИДМАМЕД МАМЕДЗАДЕ**
*Докторант Института истории имени А.А. Бакиханова НАНА*

# СОЗДАНИЕ, ДЕЯТЕЛЬНОСТЬ И ПАДЕНИЕ КУБАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ

Статья посвящена истории Кубанской Народной Республики, которая находилась на Северном Кавказе и просуществовала с 1918 по 1920 год. В статье освещены малознакомые научной общественности страницы исторической географии, населения, внутренней и внешней политики Кубанской Республики. Авторы исследовали особенности становления и деятельности этой молодой республики, существовавшей в те же годы, что и Азербайджанская Демократическая Республика, и указали на факторы, приведшие к ее распаду.

*Ключевые слова*: «Добровольческая армия», Азербайджан, Деникин, Бичерахов, Горская республика, белое движение.

**İKRAM AGASİYEV**
*Doctor of Historical Sciences, Professor,*
*Institute of History named after AA Bakikhanov of ANAS*

**SEYİDMAMMAD MAMMADZADEH**
*Doctoral student of Institute of History named after AA Bakikhanov of ANAS*

## ESTABLISHMENT, ACTIVITIES AND LIQUIDATION OF THE KUBAN PEOPLE'S REPUBLIC

The article is devoted to the history of the Kuban People's Republic, which was located in the North Caucasus and existed from 1918 to 1920. The article highlights the pages of the historical geography, population, domestic and foreign policy of the Kuban Republic, which are little known to the scientific community. The authors investigated the features of the formation and activities of this young republic, which existed when the Azerbaijan Democratic Republic existed and pointed out the factors that led to it. liquidation.

*Keywords*: "Volunteer Army", Azerbaijan, Denikin, Bicherakhov, Mountain Republic, white movement.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 oktyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər:t.ü.f.d. Ramil Niftəliyev, t.e.d. Qabil Əliyev.*

UOT 32:93/94

**XAQAN BALAYEV**
*Bakı Mühəndislik Universitetinin "Ümumi fənlər" kafedrasının dosenti,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*
**xabalayev@beu.edu.az**

# 1930-CU İLLƏRDƏ SOVET AZƏRBAYCANINDA MİLLİ DİLİN HÜQUQLARI UĞRUNDA MÜBARİZƏ

*1936-cı ildə Sovet İttifaqının yeni konstitusiyası qəbul edildi. Bunda sonra müttəfiq respublikaların, o cümlədən Sovet Azərbaycanının da yeni konstitusiyası qəbul edildi. Azərbaycan SSR-in konstitusiya layihəsində türk (Azərbaycan-müəllif) dilinin dövlət dili (20-ci maddə) olması məsələsi öz əksini tapsa da, bu maddə 1937-ci il martın 14-də keçirilmiş Fövqəladə 9-cu Ümumazərbaycan Sovetlər qurultayında qəbul edilməmişdi. Eyni zamanda qurultayın sənədlərində "türklər" adı "azərbaycanlı", "türk dili" isə "Azərbaycan dili" ilə əvəz edilmişdi. Bu Sovet hökumətinin SSRİ-də yaşayan türk xalqlarının Türkiyə təsirindən uzaqlaşdırılması istiqamətində yürütdüyü məqsədyönlü siyasətin növbəti tədbirlərindən biri idi. Sonrakı dövrlərdə türk xalqlarının yazı sistemini təşkil edən latın əlifbasından kiril əlifbasına keçilmişdi.*

*Açar sözlər*: Sovet Azərbaycanı, Sovet İttifaqı, konstitusiya, Azərbaycan dili, dövlət dili.

*Giriş*. 1936-cı ildə Sovet İttifaqının yeni konstitusiyası qəbul edildi. Bunda sonra müttəfiq respublikaların, o cümlədən Sovet Azərbaycanının da yeni konstitusiyası qəbul edilməli idi. Bu dövrdə Azərbaycan rəhbərliyinin qarşısında duran əsas məsələlərdən biri konstitusiyaya dövlət dili haqqında maddənin daxil edilməsi idi.

1937-ci il konstitusiyası hazırlanarkən, layihənin 20-ci maddəsində Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dilinin türk dili olduğu qeyd edilmişdi və layihə 1936-cı ildə Fövqəladə IX Ümumazərbaycan Sovetlər qurultayına bu cür təqdim olunmuşdu. Lakin Azərbaycan rəhbərliyi yeni Sovet konstitusiyasını qəbul edən 8-ci Fövqəladə Sovetlər qurultayında (5 dekabr 1936-cı il) iştirak edib Moskvadan qayıdandan sonra həmin maddə layihədən çıxarılmış, 1937-ci il martın 14-də Fövqəladə 9-cu Ümumazərbaycan Sovetlər qurultayında Azərbaycan SSR konstitusiyası dövlət dili haqqında maddə olmadan təsdiq edilmişdi. (2).

XX əsrin 30-cu illərində Azərbaycanda sosial həyatın bir sıra sahələrində, o cümlədən təhsil sahəsində də milli dilin tətbiqi məsələsi aktuallığını qoruyub saxlamışdı.

1938-ci ildə Azərbaycanın təhsil sistemində rus dilinin tədrisi ilə əlaqədar ciddi dəyişiklik baş verdi. Azərbaycan İnqilab Komitəsinin hələ 1920-ci il avqustun 16-da verdiyi əmrnaməyə əsasən təhsilin türk dilində aparıldığı məktəblərdə rus dili, azlıqda qalan millətlərin məktəblərində türk, yaxud rus dili məcburi fənn kimi tədris olunmalı idi. Lakin sonradan, görünür, türkdilli məktəblərin sayı sürətlə artdığına və müvafiq sayda rus dili müəllimləri hazırlamaq imkanı olmadığına görə, yaxud hazırlanmadığına görə əmrnamənin həmin maddəsi geniş tətbiqini tapmamışdı. Azərbaycan XKS-nin və Azərbaycan K(b)P MK-nın 23 mart 1938-ci il tarixli qərarında bu, düşmən əməli kimi qiymətləndirilmişdi.

1938-ci il martın 13-də ÜİK(b)P MK Bürosunun və SSRİ XKS Rəyasət Heyətinin birgə iclasında Sovet İttifaqının qeyri-rus məktəblərində rus dilinin məcburi tədrisi haqqında geniş qərar qəbul etdi. Arxivdə maraqlı bir sənəd saxlanılır. İclasda iştirak edən M.C.Bağırov Stalinin çıxışını özünəməxsus iri hərflərlə aralı və yayğın tərzdə konspektləşdirmişdi:

"Yoldaş Stalin:
1. Bütünlükdə rus dilinə keçilməməlidir, rus dili bir fənn kimi tədris olunmalıdır.
2. Bütün fənlərin ana dilində tədrisi təmin olunmalıdır.
3. (Bağırovun xətti oxunmadığı üçün aydın deyil -*müəllif*).
4. Bütün xalqların və millətlərin əlaqəsi üçün bir vahid dil lazımdır.

5. Əgər alman dili münasib olsaydı, mən ona səs verərdim. Fransız dili münasib olsaydı, mən ona səs verərdim (Stalin özünəməxsus istehzalı yumorundan da qalmamışdı -*müəllif*). Rus dili ən münasibidir. Misal üçün, gürcü, azərbaycanlı, ukraynalı harada biliyini artırmalıdır? Xaricə getməlidir, ya zəngin rus mədəniyyəti əsasında... (ardı yoxdur, yəqin ki, oxunmalıdır: biliyini artırmalıdır – *müəllif*).

Ancaq rus dilinin tədrisi ana dilinin sıxışdırılması kimi hesab edilməməlidir.
Hansı ildən başlamalı?

1) 4 illik təhsildə - 2-ci ildən
2) 7 illikdə - 3-cü ildən." (8, 67).

Stalinin çıxışından qərarın obyektiv şəraitin tələbi ilə qəbul edildiyi görünür. Həqiqətən, bir ölkə daxilində yaşayan yüzlərlə xalqın və millətin nümayəndələri ümumi bir ünsiyyət dili vasitəsilə əlaqə saxlamaq məcburiyyətində idilər. Bu dilin rus dili olması da şübhə doğura bilməzdi və onun təhsil prosesində öyrənilməsindən daha səmərəli bir təlim vasitəsi də düşünmək olmazdı.

Həyatın özü ikidilliliyi məcburi edirdi. Böyük Sovet İttifaqının vətəndaşları yüzlərlə səbəb üzündən daim ölkə daxilində yerlərini dəyişirdilər və ana dillərindən əlavə rus dilini də bilməli idilər.

Azərbaycanda da Azərbaycan-rus ikidilliliyi bərqərar olmağa başlayırdı və qeyd olunmalıdır ki, qoşadillilik, yaxud çoxdillilik Azərbaycan üçün yeni bir təzahür deyildi. Azərbaycan tarixən həmişə çoxmillətli ölkə olmuş, müxtəlif dilli ölkələri birləşdirən karvan yollarının kəsişdiyi məkanda yerləşmişdir. Erkən orta əsrlərdən başlayaraq ölkədə Azərbaycan dili ilə yanaşı həyatın müxtəlif sahələrində fars və ərəb dilləri işlənməyə başlanmışdı. Ərəb dili elm dili, fars dili poeziya dili, türk dili isə məişət əlaqələri və canlı danışıq dili funksiyalarını yerinə yetirirdilər. Ərəb mənşəli "zü-l-lisaneyn" (iki dili bilən) və "lü-l-əlsina" (dilləri bilən) istilahları meydana gəlmişdi. ( 3, 22-23).

Lakin bununla belə, Leninin milli siyasətinin əsas müddəalarından biri pozulmuşdu. Lenin yazırdı ki, "Biz yalnız bir şeyi: məcburiyyət (kursiv Leninindir -*müəllif*) ünsürü olmasını istəmirik...Biz bu fikirdəyik ki, böyük və qüdrətli rus dilini hər hansı bir adamın dəyənək gücünə (kursiv Leninindir -*müəllif*) öyrənməsinə ehtiyac yoxdur... Məcburiyyət (dəyənək) isə yalnız bir şeyə səbəb olar: məcburiyyət böyük və qüdrətli rus dilinin başqa milli qruplar arasında yayılmasını çətinləşdirər, başlıcası isə ədavəti kəskinləşdirər, milyonlarla yeni çəkişmə törədər, incikliyi, qarşılıqlı anlaşılmazlığı və i.a. qüvvətləndirər" (4, 317).

Lakin, görünür, Leninin nəzərdə tutduğu kimi rus dilinin təbii intişarı otuzuncu illərin sonunda qaneedici olmamışdı ki, ÜİK(b)P MK və SSRİ XKS həmin qərarı qəbul etməli olmuşdular.

Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK 1938-ci il martın 23-də ÜİK(b)P MK və SSRİ XKS-nin qərarını rəhbər tutaraq, "Azərbaycanın qeyri-rus məktəblərində rus dilinin məcburi öyrənilməsi haqqında" qərar qəbul etdilər.

Qərarın preambulasında qeyd olunurdu ki, "Azərbaycanın qeyri-rus məktəblərində rus dilinin tədrisi olduqca qeyri-qənaətbəxş təşkil olunmuşdur. Bu, Azərbaycanın qeyri-rus məktəblərində rus dilinin tədrisini hər vasitə ilə pozmağa çalışan əksinqilabi trotskiçi-buxarinçi və burjua-millətçi ünsürlərin apardıqları təxribat işinin nəticəsidir. Azərbaycan xalqının düşmənləri-burjua millətçiləri SSRİ-nin qardaş xalqları ilə əlaqə və ünsiyyət yaratmaq işində Azərbaycan gənclərinə hər vəchlə mane olmağa cəhd göstərmiş və bununla da Azərbaycan gənclərini böyük rus xalqının zəngin elmi və mədəniyyəti əsasında elmi-texniki biliklər sahəsində özünü təkmilləşdirmək imkanlarından məhrum etmişlər."(8,58). Qərarın "Azərbaycanın xalq maarifində-qeyri-rus məktəblərində rus dilinin öyrənilməsi işindəki ziyankarlığın nəticələrini ləğv etməkdən ötrü" qəbul edildiyi qeyd olunurdu.

Dövrün partiya-hökumət sənədləri baxımından çox geniş, əhatəli və mükəmməl olan bu qərar rus dilinin öyrənilməsi ilə əlaqədar kompleks tədbirləri (kadr hazırlığı, maddi-texniki baza, müvafiq dərslik və ədəbiyyat nəşri və sair) özündə ehtiva edirdi. 1938-1939-cu tədris ilində 2 min rus dili müəllimi hazırlanması, Bakıda ikinci rus pedaqoji texnikumunun açılması və Sabir adına Pedaqoji Texnikum üçün tikilməkdə olan binanın rus pedaqoji texnikumuna verilməsi, həmin texnikum üçün 250 nəfərlik yataqxana tikilməsi, Azərbaycan Pedaqoji İnstitutunda, Azərbaycan Dövlət Universite-

tində, Müəllimlər İnstitutunda hərəsinə 105 nəfər qəbul etməklə rus dili müəllimi hazırlayan şöbələrin açılması, respublikaya kənardan dəvət olunan müəllimlər üçün mənzillər ayrılması, onlarla adda lüğət və dərsliklər, rus dilində dərslik və qiraət kitabları nəşr edilməsi və sair tədbirlər nəzərdə tuturdu.

Qərarın sonunda göstərilirdi ki, XKS və Azərbaycan K(b)P MK ana dilinin – Azərbaycan dilinin bütün Azərbaycan məktəblərində tədrisin əsasını təşkil etməsi etibarilə əhəmiyyətini qeyd edərək, Azərbaycan SSR-də məskunlaşmış bütün xalqların rus dilini öyrənməsi işinə müstəsna əhəmiyyət verirlər.

ÜİK(b)P MK 13 mart 1938-ci il tarixli qərarın icrasına xüsusi əhəmiyyət verdiyinə görə dərs ili ərəfəsində - iyulun 14-də yenidən məsələni müzakirəyə çıxarmış, müvafiq qərar qəbul etmişdi. İyulun 20-də Azərbaycan K(b)P MK bürosu da həmin qərarı rəhbər tutaraq, "Qeyri-rus məktəblərində rus dilinin tədrisi haqqında ÜİK(b)P MK və SSRİ XKS-nin qərarının yerinə yetirilməsinin gedişi haqqında" qərar qəbul etmiş, respublikanın partiya və sovet orqanlarına lazımi tapşırıqlar vermişdi (6, 189).

Qəbul edilmiş qərarlar respublikada rus dilinin öyrənilməsi işinə ciddi təkan vermiş, bütün sonrakı illərdə əhəmiyyətli rol oynamışdı.

Həmin dövrdə - otuzuncu illərin sonlarında Azərbaycan dili də respublikanın çoxmillətli əhalisi arasında getdikcə daha çox ümumünsiyyət dilinə çevrilməkdə idi. Oxucuları tamamilə azaldığına görə Bakıda nəşr olunan "Baku eşçese" (tatar dilində) və "Kommunist" (tat dilində) qəzetləri MK bürosunun 9 aprel 1938-ci il tarixli qərarı ilə bağlanmışdı. Azlıq təşkil edən millətlər onlar üçün qanunlarda təsbit olunmuş ana dilində təhsil almaq hüquqlarından da tədricən imtina edirdilər. İbtidai məktəblərdə ana dilində oxuyan şagirdlər sonrakı siniflərdə Azərbaycan dilində təhsil almaqda çətinlik çəkirdilər.

İlk dəfə 1938-ci ildə Astarada talışdilli ibtidai məktəblər ləğv edilmişdi. Astara Rayon Partiya Komitəsinin birinci katibi V.H.Axundov Azərbaycan KP-nin XIV qurultayındakı (7-14 iyun 1938-ci il) çıxışında bu məsələni qaldıraraq demişdi: "İki kəlmə talış dili haqqında qeyd etmək lazımdır. Cəsarətlə demək istəyirəm ki, talış dilinin 4-cü sinfə qədər aparılması məsələsində böyük ziyançılıqlar vardır ... Buna görə haqlı olaraq kolxozçular tələb edir ki, 4-cü sinifdən sonra Azərbaycan dilinə keçincə, 1-ci sinifdən Azərbaycan dilinə keçsək daha yaxşı olar. Zənn edirəm, qurultay bu məsələni nəzərə alacaq ... Yeni rəhbərlikdən xahiş edirəm bu məsələni qarşısına qoysun" (1, 162).

Qurultaydan sonra V.Axundov MK-nın məktəb şöbəsində məsələnin həll olunmasını xahiş etmişdi. Azərbaycan SSR Ali Sovetinin birinci sessiyası (18-22 iyul 1938-ci il) keçirilən günlərdə yenidən MK-nın məktəb şöbəsinə müraciət etsə də, məsələnin həll edilmədiyini görən V.Axundov Astaraya qayıdandan sonra məsuliyyəti öz üzərinə götürərək, məsələni RİK sessiyasının müzakirəsinə çıxartdırmış, talışdilli ibtidai məktəblərin ləğv edilməsi haqqında qərar qəbul etdirmişdi. Əleyhdarları bundan istifadə edib MK-ya şikayət məktubu göndərəndən sonra rayona gəlmiş komissiya məktəblərin həqiqətən talış əhalisinin istəyi ilə bağlandığını müəyyənləşdirmiş və məsələ bununla da bitmişdi (5, 76-78).

Azlıqda qalan millətlərin Azərbaycan dilində təhsilə keçilməsində Lenin milli siyasətindən irəli gələn demokratik prinsiplərin gözlənilməsinə ciddi nəzarət edilir və bu prosesin heç bir zor tətbiq etmədən, xalqların öz arzusu ilə, könüllü davam etməsinə şərait yaradılırdı. Yengiloylarla bağlı hadisə bu cəhətdən səciyyəvidir. 1937-ci ildə Zaqatala, Qax, Balakən rayonlarının bəzi kəndlərində Maarif Nazirliyinin sərəncamı ilə yengiloylar Azərbaycan dilində təhsil almağa başlamışdılar. Bəzi kəndlərdə isə təhsil gürcü dilində saxlanılmışdı. Məsələ MK-da araşdırılarkən, Azərbaycan dilində təhsilin tətbiq edilməsinin heç də yengiloyların əksəriyyəti tərəfindən müdafiə edilmədiyi məlum olanda, MK bürosunun 27 iyul 1937-ci il tarixli qərarı ilə gürcü dilində tədris bərpa edilmiş, eyni zamanda sovetlərdə yengiloylara öz ana dilində xidmət göstərilməsi haqqında tapşırıq verilmişdi (7, 255).

*Nəticə.* Yuxarıda yazılanlara yekun olaraq deyə bilərik ki, azlıqda qalan millətlərin Azərbaycan dilində təhsilə keçilməsində Lenin milli siyasətindən irəli gələn demokratik prinsiplərin gözlənilməsinə ciddi nəzarət edilir və bu prosesin heç bir zor tətbiq etmədən, xalqların öz arzusu ilə, könüllü davam etməsinə şərait yaradılırdı. Yengiloylarla bağlı hadisə bu cəhətdən səciyyəvidir. 1937-ci ildə Za-

qatala, Qax, Balakən rayonlarının bəzi kəndlərində Maarif Nazirliyinin sərəncamı ilə yengiloylar Azərbaycan dilində təhsil almağa başlamışdılar. Bəzi kəndlərdə isə təhsil gürcü dilində saxlanılmışdı. Məsələ MK-da araşdırılarkən, Azərbaycan dilində təhsilin tətbiq edilməsinin heç də yengiloyların əksəriyyəti tərəfindən müdafiə edilmədiyi məlum olanda, MK bürosunun 27 iyul 1937-ci il tarixli qərarı ilə gürcü dilində tədris bərpa edilmiş, eyni zamanda sovetlərdə yengiloylara öz ana dilində xidmət göstərilməsi haqqında tapşırıq verilmişdi (7, 255).

ƏDƏBİYYAT:

1. Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının XIV qurultayında Astara Rayon Partiya Komitəsinin birinci katibi V.H.Axundovun çıxışı. ARSPİHDA (Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi), f.(fond) 1, s.(siyahı) 74, i. (iş) 26.
2. Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın Azərbaycan dövlət dili haqqında məsələnin müzakirəsinə həsr olunmuş 2 noyabr 1995-ci il tarixli iclasının materialları / "Azərbaycan" qəzeti, 4,7, 9-11 noyabr 1995.
3. Quliyev Ə.Q. Azərbaycan dilinin funksional inkişafı (məsələnin qoyuluşu). – Azərbaycan SSR-də ikidilliliyin linqvistik və sosiolinqvistik məsələlərinə həsr olunmuş elmi-nəzəri konfransın məruzələrinin tezisləri. B., 1988, 29 s.
4. Lenin V.İ. Məcburi dövlət dili lazımdırmı? - Əsərlərinin tam külliyyatı. [55 cilddə]. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, c.24, 1980, s.315-317.
5. Материалы о прекращении преподавания талышского языка в школах Астаринского района. – Личное дело Ахундова Вели Гусейн оглы – первого секретаря Астаринского РК КП (б) Азербайджана в 1937-1938 гг. ГАППОДАР, ф.1, о.25, д.2836.
6. О ходе проведения решения ЦК ВКП(б) и СНК СССР по преподаванию русского языка в нерусских школах. Постановление ЦК КП (б) Азербайджана и СНК Азербайджанской ССР от 20 июля 1938 г. ГАППОДАР, ф.1, о.74, д.510.
7. О языке преподавания в школах ингилойцев. Постановление бюро ЦК КП Азербайджана от 27 июля 1937 г. ГАППОДАР, ф.1, о.74, д.474.
8. Об обязательном изучении русского языка в нерусских школах Азербайджана. Постановление СНК Азербайджанской ССР и ЦК КП (б) Азербайджана от 23 марта 1938 г. ГАППОДАР, ф.1, о.74, д.493.

**ХАГАН БАЛАЕВ**
*Доцент Бакинского инженерного университета,*
*доктор философских наук по политическим наукам*

## БОРЬБА ЗА ПРАВА НАЦИОНАЛЬНОГО ЯЗЫКА В СОВЕТСКОМ АЗЕРБАЙДЖАНЕ В 1930-х гг.

5 декабря 1936 года была принята новая Конституция СССР. После этого все союзные республики приняли свои новые конституции. Несмотря на то, что в проекте конституции Азербайджанской ССР имелось положение о турецком (азербайджанском-ред.) языке как государственном (20-ая статья), данная статья была изъята на IX Чрезвычайном Всеазербайджанском сьезде Советов, состоявшем 14 марта 1937 года. Одновременно в документах сьезда название «турки» было заменено на «азербайджанцы», а «турецкий язык» на «азербайджанский язык». Это было очередным звеном в целенаправленном процессе, проводимым Советским правительством по отрыву тюркских народов, живущих в СССР от влияния Турции. В дальнейшем последовал перевод их письменности с латинского алфавита на кириллицу.

*Ключевые слова*: Советский Азербайджан, Советский Союз, конституция, азербайджанский язык, государственный язык.

**KHAQAN BALAYEV**
*Associate Professor of Baku Engineering University,*
*Doctor of Philosophy in Political Science*

## THE STRUGGLE FOR THE RIGHTS OF THE NATIONAL LANGUAGE IN SOVIET AZERBAIJAN IN THE 1930S

In 1936, a new constitution of the Soviet Union was adopted. After that, a new constitution of the allied republics, including Soviet Azerbaijan, was adopted. Although the draft constitution of the Azerbaijan SSR reflected the issue of Turkish (Azerbaijani-ed.) As the state language (Article 20), this article was not adopted at the 9th Extraordinary All-Azerbaijani Congress of Soviets held on March 14, 1937. At the same time, in the documents of the congress, the name "Turks" was replaced by "Azerbaijani", changing the names both of the nation and its language. This was one of the next steps in the purposeful policy of the Soviet government to distance the Turkic peoples living in the USSR from Turkish influence. In the following periods, the Cyrillic alphabet was changed from the Latin alphabet, which formed the writing system of the Turkic peoples.

*Keywords*: Soviet Azerbaijan, the Soviet Union, constitution, the Azerbaijan language, state language.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 noyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Bilal Dədəyev, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94(479.24)**

**MƏHARƏT OSMANLI**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin dosenti*
**meharetosmanli77@gmail.com**

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ VƏ AVROPA DÖVLƏTLƏRİNİN MÖVQEYİ

*Məqalədə İkinci Qarabağ müharibəsinə Avropa dövlətlərinin ikitərəfli və çoxtərəfli əsasda mövqeyi araşdırılmışdır. Azərbaycan Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş torpaqlarını 44 günlük müharibə nəticəsində işğaldan azad edərək öz ərazi bütövlüyünü təmin etdi. Müharibə dövründə Böyük Britaniya, İtaliya, Almaniya, Macarıstan, Moldova, Bosniya-Hersoqovina, Gürcüstan kimi Avropa dövlətləri Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması yolunda apardığı müharibəni dəstəklədi. ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin təzyiqlərinə baxmayaq, Azərbaycan həm hərbi, həm də siyasi sahədə qələbə qazandı.*

*Açar sözlər*: İkinci Qarabağ müharibəsi, ərazi bütövlüyü, Avropa dövlətləri, münaqişə, işğal, təcavüz, qələbə.

*Giriş.* İkinci Qarabağ müharibəsinin başlanmasında Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsi üçün mühüm beynəlxalq siyasi şərait və Azərbaycanın daxilində xalqın siyasi əzmkarlığı və birliyi böyük rol oynadı. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra 30 il ərzində Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin diplomatik yolla həll edilməsi üçün bütün vasitələrdən istifadə edərək, ordu quruculuğu sahəsində mühüm addımlar atdı, dünyanın ən qabaqcıl hərbi potensialına sahib olan dövlətlərdən birinə çevrildi. Azərbaycan dövləti beynəlxalq münasibətlər sistemində gərgin diplomatik fəaliyyət nümayiş etdirərək münaqişənin sülh yolu ilə beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipləri çərçivəsində həllinə tərəfdar oldu. Bunun üçün dünyanın mühüm beynəlxalq təşkilatları – BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzünü əks etdirən, onu qınayan bir sıra mühüm qərar və qətnamələr qəbul olunsa da, bu sənədlər kağız üzərində qaldı, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi prosesində ikili standartlar nümayiş etdirildi. Lakin Azərbaycan xalqı, Azərbaycan dövləti beynəlxalq hüquq prinsiplərini güc yolu ilə həyata keçirməyə nail oldu. İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yeni reallıqlar yarandı. Bu baxımdan İkinci Qarabağ müharibəsində Azərbaycan diplomatiyası və Avropa dövlətlərinin bu məsələdə mövqeyinin araşdırılması mühüm elmi-siyasi əhəmiyyət kəsb edir.

* * *

Dövlət müstəqilliyinin bərpa edilməsindən sonra Ermənsitan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar öz nəticəsini vermədi. 2016-cı ilin aprelində atəşkəs rejimi dövründə Azərbaycan və erməni qoşunlarının təmas xəttində ən böyük hərbi qarşıdurma baş verdi. Həmin il aprelin 1-2-də bütün cəbhə boyu Azərbaycanın mövqeləri və yaşayış məntəqələri erməni silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldı. Aprel döyüşləri nəticəsində erməni tərəfinin xeyli canlı qüvvəsi və hərbi texnikası məhv edildi. Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altında olan 2 min hektardan çox ərazisi azad edildi. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi və Füzuli rayonunun İranla sərhəd ərazilərinin təhlükəsizliyi təmin edildi. Aprel döyüşlərindən sonra Rusiyanın vasitəçiliyi ilə atəşkəs əldə edildi [8]. Aprel döyüşləri Azərbaycan xalqının döyüş əzmini, nəticəsiz danışıqlardan usandığını və Azərbaycan dövlətinin gücünü göstərdi. Aprel döyüşləri İkinci Qarabağ müharibəsinin müjdəçisi oldu.

2018-ci ildə Ermənistanda Nikol Paşinyanın hakimiyyətə gəlişi danışıqlar prosesinə əngəllər törətməyə başladı. Ermənistan rəhbərliyinin sərsəm bəyanatlar verməyə başlaması danışıqları dalana dirədi. 2019-cu ilin martında Ermənistanın müdafiə naziri Nyu-Yorkdakı erməni icmasının nümayəndələri ilə görüşü zamanı “yeni torpaqlar üçün yeni müharibə”nin zəruriliyi haqqında bəyanat verdi. Ermənistan rəhbərliyi danışıqlarda Dağlıq Qarabağın ayrıca tərəf kimi iştirak etməsinə təkid

etməklə və N.Paşinyan isə 2019-cu ilin avqustunda Xankəndinə etdiyi qanunsuz səfəri zamanı "Qarabağ Ermənistandır və nöqtə" deməklə sülh prosesinə ağır zərbə vurdu [8].

2020-ci il iyulun 12-də Ermənistanın silahlı qüvvələri Tovuz rayonunun Ağdam kəndi istiqamətində Azərbaycan silahli qüvvələrinin Azərbaycan – Ermənistan sərhədindəki mövqelərinə hücuma keçdilər. Hücumun əsas səbəblərindən biri bu bölgənin mühüm strateji əhəmiyyətə malik olması, enerji və nəqliyyat kəmərlərinin məhz bu ərazidən keçməsi idi. Azərbaycanın Tovuz rayonuna qarşı edilən təxribat nəticəsində Azərbaycanın 11 hərbçisi həlak oldu, bir neçəsi yaralandı, həmçinin dinc sakinlər həyatlarını itirdilər, mülki obyektlərə, kəndlilərin evlərinə və xəstəxana binasına ciddi zərər yetirildi. Bundan əlavə, Ermənistanın hərbi-siyasi rəhbərliyinin məqsədi bölgədə yeni gərginlik mənbəyi yaratmaq və münaqişənin coğrafi genişləndirilməsi yolu ilə özünün də iştirakçısı olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) müdaxiləsinə bəraət qazandırmaq idi [11].

İyul hadisələrindən sonra 2020-ci il sentyabrın əvvəllərində separatçı rejimin başçısı Araik Arutyunyan sərt bir bəyanatla çıxış etdi. Onun sözlərindən nəticəyə gəlmək olardı ki, Dağlıq Qarabağ separatçıları üçün Ermənistanla Azərbaycan arasındakı danışıqlar, o cümlədən "Madrid prinsipləri" – münaqişənin tənzimlənməsi məqsədilə ATƏT-in Minsk qrupu tərəfindən Azərbaycan və Ermənistana təklif olunan əsas paket qətiyyən qəbuledilməzdir. Bununla yanaşı, işğal etdiyi Azərbaycan ərazilərinin qanunsuz məskunlaşdırılması ilə bağlı erməni tərəfin həyata keçirdiyi siyasət, Livan ermənilərinin məqsədyönlü şəkildə həmin rayonlara köçürülməsi və Dağlıq Qarabağla Ermənistan arasında yol infrastrukturunun inşa edilməsi vəziyyəti daha da ağırlaşdırdı və danışıqlar prosesini dayandırdı. Yaranmış vəziyyətdə rəsmi Bakıya danışıqları davam etdirməkdən ötrü siyasi müstəvi qalmamışdı [11].

Ermənistanın 2020-ci il sentyabrın 27-də növbəti hərbi təxribatından sonra Azərbaycan Ordusu 44 gün ərzində əks-hücum əməliyyatı apardı. 28 il müddətdə ATƏT-in Minsk qrupu çərçivəsində həllini tapmayan Dağlıq Qarabağ konflikti ikinci fazasına qədəm qoydu. Müharibə dövründə Ermənistan beynəlxalq hüquq normalarını və humanitar hüquq prinsiplərini pozaraq Azərbaycanın mülki əhalisinə, maddi-mədəni irsinə, mülki obyektlərinə qarşı müharibə cinayətləri törətdi. Aktiv döyüşlərin davam etdiyi müddətdə təcavüzkar hücumlar əsasən Bərdə, Tərtər, Gəncə, Mingəçevir, Ağcabədi şəhərlərinə istiqamətlənmişdi. Mülki əhalini hədəf alan hücumlar arasında ən çox insan ölümü ilə nəticələnənləri oktyabrın 11-i və 17-si Gəncə şəhərinin, oktyabrın 28-i isə Bərdə şəhərinin ballistik raket atəşinə tutulması ilə baş vermişdir. Ümumilikdə İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın Azərbaycan ərazisinə etdiyi raket hücumları nəticəsində 93 dinc sakin həyatını itirmiş, 410 mülki şəxs yaralanmışdır [1].

Недостаточно четко в «Международной конвенции о борьбе с террористическими взрывами» 1997 года урегулирована проблема противодействия актам терроризма с использованием оружия массового уничтожения. В частности, не вполне ясно, охватывается ли нормами Конвенции все виды оружия массового уничтожения или его отдельные виды. Представляется, что Конвенция применима лишь по отношению к актам терроризма, совершенным с использованием взрывного или иного смертоносного устройства, в то время как перечень видов ОМУ не ограничивается только бомбовым оружием. Так, «Конвенцией о запрещении бактериологического оружия» 1972 года, а также «Конвенцией о запрещении химического оружия» 1993 года предусмотрено, что под оружием понимаются также и микробиологические или другие биологические агенты или токсины и токсичные химикаты и их прекурсоры отдельно от боеприпасов и устройств, могущих их содержать [2, с.185-190]. Кстати, новой формой терроризма, которая для достижения своих террористических целей использует компьютеры и электронные сети, а также современные информационные технологии является кибертерроризм. Его как одну из наиболее опасных разновидностей киберпреступности можно отнести к так называемым технологическим видам современного терроризма. В отличие от традиционного, этот вид терроризма использует в террористических акциях новейшие достижения науки и техники в области компьютерных и информационных технологий, радиоэлектроники, генной инженерии, иммунологии [4, с.235].

Таким образом, конвенционные механизмы по борьбе с международным терроризмом, разработанные и принятые мировым сообществом в XX столетии, имели ряд существенных недостатков, без устранения которых сегодня нельзя рассчитывать на успешную борьбу с этим злом. В связи с этим можно сделать вывод о том, что используемый в вышеперечисленных Конвенциях метод определения терроризма посредством перечисления конкретных деяний, в которых он может отобразиться, вряд ли можно считать перспективным. Данное обстоятельство нашло более точное отражение в выводах известного ученого Бояр Созоновича, где он отмечает, что «не принижая роль и значение соответствующих международных «предметных» Конвенций по борьбе с отдельными видами и формами международного терроризма, вместе с тем, нельзя не принять во внимание их ограниченность. Даже в совокупности они не представляют собой упорядоченной и скоординированной системы мер». По мнению ученого, «по мере развития науки и техники постоянно будут возникать новые виды и формы терроризма, которые на каком-то этапе выпадут из поля действия международных «предметных» Конвенций. Таким образом, работа в данном направлении не снимает с повестки дня необходимость разработки универсального международно-правового документа, который охватил бы всю проблему в целом» [5, с.196].

Следует заметить, что в течение длительного времени борьба с международным терроризмом не входила в число приоритетных и безотлагательных задач мирового сообщества. Лишь после террористических атак 11 сентября 2001 года в США, в результате которых масштаб человеческих и материальных потерь был шокирующим, была объявлена глобальная война против международного терроризма на различных государственных, региональных и международных уровнях. Хотя, в самих Соединенных Штатах, начиная с 1958 года было утверждено несколько десятков договоров и законов, касающихся в той или иной степени вопросов борьбы с терроризмом, к наиболее важным из которых относились секретная исполнительная директива президента США за №39 (июнь 1995 г.), закон «О борьбе с терроризмом и применении смертной казни» (апрель 1996 г.), исполнительная директива президента США за № 62 (май 1998 г.), вместе с тем, суть американской Стратегии Национальной Безопасности все эти годы сводилась к тому, чтобы вести борьбу с международным террориз-

мом вне пределов США. В тоже время, возможность внутренней угрозы для национальных интересов США всерьез никто не рассматривал [8].

Как известно, 11 сентября 2001 года члены террористической организации «Аль-Каида» захватили четыре пассажирских авиалайнера, два из которых направили в башни Всемирного торгового центра, третий – в здание Пентагона, а четвертый – упал в штате Пенсильвания. Эти атаки привели к гибели около 3000 людей граждан 78 стран мира и причинили колоссальный материальный ущерб, исчисляемый миллиардами долларов США. Международная реакция на теракты 11 сентября 2001 года была единогласной и практически все страны заявила о своей поддержке США. 12 сентября 2001 года Совет Безопасности ООН в экстренном порядке принял резолюцию за № 1368, в которой самым решительным образом осудил террористические нападения против США, отмечая о своей решимости бороться с угрозами для международного мира и безопасности, вызываемыми террористическими актами, подтвердил «неотъемлемое право на индивидуальную или коллективную самооборону в соответствии с Уставом ООН». В резолюции за № 1373, принятой 28 сентября 2001 года Совет Безопасности ООН, указывая, что такие действия, как и любой акт международного терроризма, представляют собой угрозу для международного мира и безопасности, вновь подтвердил неотъемлемое право на индивидуальную или коллективную самооборону и привал бороться всеми средствами, в соответствии с Уставом ООН, с угрозами для международного мира и безопасности, создаваемыми террористическими актами. В данной резолюции подчеркивалась необходимость принятия ряда мер по борьбе с международным терроризмом. Среди них: пресечение финансирования терроризма, отказ в предоставлении убежища террористам и их сообщникам, активизация и ускорение обмена оперативной информацией в целях предотвращения и пресечения террористических нападений, а также учреждение Комитета СБ ООН по борьбе с терроризмом и его исполнительного директората [5, с.132-133].

Одним из наиболее важных нормативно-правовых актов, принятых в США в направлении противодействия террористическим угрозам, стал закон «О предоставлении дополнительных полномочий спецслужбам в сфере борьбы с терроризмом», утвержденный в октябре 2001 года [8]. В законе, в частности, было оговорено, что он допускает применение «превентивных мер» не только к подозреваемому, но к его близким и знакомым. Данный законодательный акт заметно расширил права федерального руководства, правоохранительных органов и администрации штатов в целях выявления и пресечения готовящихся терактов, как на территории США, так и за их пределами. Таким образом, закон «О предоставлении дополнительных полномочий спецслужбам в сфере борьбы с терроризмом» определил принципиально новый подход к противодействию международному терроризму в новом XXI веке.

На следующий день после терактов 11 сентября Североатлантический Совет НАТО заявил, что если источник терактов находится за пределами США, то он будет рассматриваться как акт вооруженного нападения против одного или более членов Альянса в Европе и Северной Америке. Следовательно, в соответствии с пятой статьей Североатлантического договора, принятого в Вашингтоне 4 апреля 1949 года, государства-члены НАТО заявили о своей готовности к осуществлению коллективной самообороны. 2 октября 2001 года Генеральный секретарь НАТО выступил с заявлением, в котором утверждалось, что Североатлантический Совет пришел к выводу, что было совершено вооруженное нападение против члена Альянса, и в соответствии со статьей 5 США и Великобритания 7 октября 2001 года начнут военную операцию против «Талибан» и «Аль-Каиды» на территории Афганистана. При этом президент США Дж.Буш-младший в своем обращении к американской нации заявил: *«каждое государство должно сделать свой выбор. В этом конфликте невозможно занять нейтральную позицию. Если какие-то правительства поддерживают преступников и убийц невинных людей, то они сами становятся преступниками и убийцами и на свой страх и риск вступают на этот путь»*. В соответствии со статьей 51 Устава ООН, США после начала военной операции незамедлительно уведомили СБ ООН о том, что они вместе с другими государствами приступили к осуществлению мер в порядке реализации своего неотъемлемого права на индивидуальную и коллективную самооборону. В уведомлении указывалось, что правительст-

во США «собрало четкую и убедительную информацию о том, что центральную роль в связи с этими атаками играла террористическая организация «Аль-Каида», поддерживаемая режимом «Талибан» в Афганистане». В резолюциях за № 1378 от 14 ноября 2001 года и за № 1390 от 20 января 2002 года СБ ООН поддержал международные усилия по искоренению терроризма в соответствии с Уставом ООН. Кроме того, СБ ООН в резолюции за № 1386 от 20 декабря 2001 года санкционировал создание Международных сил содействия безопасности. Таким образом, СБ ООН в своих резолюциях полностью поддержал осуществление коллективных операций против международного терроризма и тем самым поддержал создание антитеррористической коалиции по борьбе против международного терроризма в целом, и «Талибана» и «Аль-Каиды», в частности [5, с.133].

В дальнейшем, в рамках ООН были приняты ключевые решения, существенно расширившие возможности международного сотрудничества в целях предотвращения угрозы международного терроризма (следует также вспомнить о солидарности мирового сообщества по данной проблематике во время принятия «Декларации о мерах по ликвидации международного терроризма», которая была утверждена резолюцией 49/60 Генеральной Ассамблеи ООН от 9 декабря 1994 года) (7). Среди этих решений можно выделить резолюцию Совета Безопасности ООН за № 1624 от 14 сентября 2005 года. Так, в данной резолюции, в частности, был установлен законодательный запрет подстрекательства к совершению террористических актов. Резолюция призывала государства предотвращать такое поведение на своей территории и отказывать в предоставлении убежища лицам, причастным к такому подстрекательству. Важнейшим международным документом в сфере борьбы с терроризмом является также Глобальная контртеррористическая стратегия ООН, отраженная в принятой Генеральной Ассамблеей резолюции от 20 сентября 2006 года. Спустя два года после принятия Стратегии, Генеральная Ассамблея ООН подвела итоги ее реализации и одобрила резолюцию 62/272 от 15 сентября 2008 года, определяющую дальнейшие пути развития международного сотрудничества. В резолюции было вновь выражено решительное осуждение терроризма во всех его формах и проявлениях, кем бы, где бы и с какой бы целью он не осуществлялся [5, с.196].

Необходимо отметить, что правовую основу сотрудничества дополняет и национальное законодательство государств. На сегодняшний день большинством государств были приняты законы по борьбе с терроризмом: в Великобритании, это - закон о терроризме (2006 г.), во Франции – закон «О борьбе с терроризмом и посягательствами на государственную безопасность» (1988 г.) и закон «Об ориентации и планировании в области внутренней безопасности (2002 г.), в Испании – закон «О борьбе с вооруженными бандами и террористическими элементами» (1984 г.), в России – Федеральный закон Российской Федерации № 35-ФЗ «О противодействии терроризму» (2006). Правовые основы сотрудничества были заложены также и в Докладе Группы высокого уровня по угрозам, вызовам и переменам, подготовленном и представленном Генеральному секретарю ООН в 2004 году. В Докладе особо подчеркивалось, что террористические организации создают вооружённую негосударственную сеть с глобальным охватом и современным потенциалом. Оценки и выводы, содержащиеся в Докладе Группы высокого уровня побудили Генерального секретаря ООН призвать государства-члены ООН и организации гражданского общества по всему миру присоединиться к разработке и реализации стратегии всеобъемлющей борьбы с терроризмом. В связи с выводами, озвученными в Докладе Группы высокого уровня, как уже было вышеотмечено, 8 сентября 2006 года Генеральная Ассамблея ООН на 60-ой сессии приняла Глобальную контртеррористическую стратегию ООН, которая впервые объединила все 192 государства-члена в рамках противостояния общей угрозе – терроризму [1, с.61-62].

Еще одним ключевым аспектом борьбы с терроризмом является проблема политики государственного терроризма, которой мировое сообщество начало уделять внимание с начала 70-х годов XX столетия. Так, в «Декларации о принципах международного права», принятой резолюцией Генеральной Ассамблеи ООН за № 2625 от 24 октября 1970 года, впервые было заявлено о недопустимости и неприятии любых разновидностей государственного терроризма. В данном документе говорится, что каждое государство должно воздерживаться «от орга-

низации или поощрения организации иррегулярных сил или вооруженных банд, в том числе наемников, для вторжения на территорию другого государства …», и «от организации подстрекательства, оказания помощи или участия в актах гражданской войны или террористических актах в другом государстве, или от потворствования организационной деятельности в пределах своей территории, направленной на совершение таких актов». Согласно Декларации о принципах, «ни одно государство не должно организовывать, разжигать, финансировать, подстрекать или допускать подрывную, террористическую или вооруженную деятельность, направленную на насильственное свержение строя другого государства, ровно, как и способствовать ей, а также вмешиваться во внутреннюю борьбу в другом государстве» [5, с.176].

Как отмечает азербайджанский исследователь Р.Севдималиев, *«политика государственного терроризма в резолюции Генеральной Ассамблеи ООН за № 39/159 от 17 декабря 1984 года была охарактеризована как «любые конвенции, доктрины или идеологии, какие-либо действия государств, направленные на вооруженное вмешательство и оккупацию, насильственное изменение или подрыв общественно-политического строя других государств, дестабилизацию и свержение их правительств». В соответствии с «Меморандумом о развитии международного права», принятом на 44-ой сессии Генеральной Ассамблеи ООН в 1989 году, «политика государственного терроризма проявляется в виде агрессии, необъявленных войн и других открыто противоправных действиях против других стран и народов»* [5, с.176].

Известно также, что в соответствии с американским законом о борьбе с терроризмом Государственный департамент США, начиная с 1996 года, представляет президенту и Конгрессу доклад, посвященный международному терроризму. В этом документе излагается взгляд американской администрации на проблему борьбы с международным терроризмом, приводятся результаты анализа угрозы терроризма в различных регионах мира, указываются государства, поддерживающие международную террористическую деятельность, а также приводится перечень международных террористических организаций и статистические данные совершенных за истекший период терактов. В соответствии с докладами Госдепартамента США, в первой половине 2000-х годов Иран, Сирия, Ливия, Ирак, Судан, Северная Корея, Куба и Афганистан были названы в качестве государств-спонсоров международного терроризма. После свержения движения «Талибан» и режима Саддама Хусейна, Афганистан и Ирак были исключены изданного списка [5, с.177].

Доклады Госдепартамента США свидетельствуют о том, что борьба с международным терроризмом является одним из приоритетных направлений деятельности официального Вашингтона по обеспечению национальных интересов США. При этом интересен тот факт, что из более чем 500 террористических организаций, осуществляющих деятельность во многих регионах мира, США обращают внимание на те, которые представляют угрозу национальным интересам своей страны. Такая избирательность приводит к тому, что, например, «АСАЛА», «Дашнакцутюн» и другие армянские террористические организации, активно сотрудничающие со многими международными террористическими организациями, не включены в этот список (кстати, первым в списке американских авторов, внесших серьезный вклад в изучение проблем транснационального армянского терроризма является сотрудник группы анализа угроз Управления безопасности Госдепартамента США Эндрю Корсун, опубликовавший еще в 1982 году в «Бюллетенях Государственного Департамента США» статью под заголовком «Армянский терроризм: Обзор») [3, с.115].

Таким образом, можно констатировать, что на сегодняшний день международному сообществу так и не удалось разработать всеобъемлющий конвенционный механизм по борьбе с международным терроризмом. В связи с глобализацией исходящих от международного терроризма угроз и неготовностью, независимо от политической, экономической и военной мощи, как отдельно взятых государств, так и всего цивилизованного сообщества к адекватному ответу этим угрозам, в повестке дня международного сообщества сегодня в наиболее острой форме встает актуальная проблема по разработке нового пакета международно-правовых норм, включающего в себя, в первую очередь, создание универсальных механизмов по борьбе

с международным терроризмом. Хочется надеяться, что в новом всеобъемлющем пакете документов сумеют найти отражение универсальные принципы, цели, формы проявления международного терроризма, а также способы и средства борьбы мировых государств с ними.

ЛИТЕРАТУРА

1. Гаркуша И.В., Самойленко Е.Н. Комплексные правовые основы национальных и международных систем борьбы с терроризмом // Вестник Таганрогского института управления и экономики, 2015 № 2, с.61-62.
2. Ерохин Д.В. Международно-правовые основы противодействия терроризму // Вестник Омского университета, серия «Право», 2018, № 2, с.185-190.
3. Кузнецов О.Ю. История транснационального армянского терроризма в XX столетии. Баку: изд. дом «Şərq-Qərb», 2015, 412 с.
4. Севдималиев Р.М. Международный терроризм – глобальная проблема современности. Баку: Elm, 2004, 312 с.
5. Севдималиев Р.М. Международный терроризм и политико-правовые проблемы борьбы с ним. Баку: Elm, 2011, 246 с.
6. «Будет ли в Катаре «арабская весна»? - http://www.georgiatimes.info/analysis/74656-1.html [Дата обращения: 16.11.2021].
7. «Декларация о мерах по ликвидации международного терроризма» Генеральной Ассамблеи ООН. - http://www.nbuv.gov.ua/texts/polit/94oonlmt.htm [Дата обращения: 16.11.2021].
8. Добаев И.П., Немчина В.И. Организационно-практический опыт некоторых стран в борьбе с международным терроризмом. - http://scienceport.ru/anlytics/organizatsionno-prakticheskiy-opyt-nekotorykh-stran-v-borbe-s-mezhdunarodnym-terrorizmom/ [Дата обращения: 16.11.2021].

**TARİEL ABBASOV**
*t.ü.f.d., Bakı Dövlət Universiteti*
*Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dosent əvəzi*

## BEYNƏLXALQ TERRORLA MÜBARİZƏNİN BEYNƏLXALQ HÜQUQİ BAZASININ HAZIRLANMASINA DÜNYA İCTİMAİYYƏTİNİN TÖHFƏSİ

XX əsrin 2-ci yarısından başlayaraq terrorizmlə mübarizə məqsədilə dünya ictimayyəti tərəfindən Birləşmiş Millətlər Təşkilatı, eləcə də bir sıra reqional təşkilatlar çərçivəsində çoxsaylı qanunvericilik aktları, beynəlxalq konvensialar və sazişlər, bəyannamələr və qərarlar şəklində böyük hüquqi baza yaradılmışdır. Beynəlxalq terrorizmlə mübarizə ABŞ-ın milli maraqlarının təmin edilməsinə dair rəsmi Vaşinqtonun prioritet istiqamətlərindən biridir. Eyni zamanda bu günə qədər beynəlxalq ictimayyət beynəlxalq terrorizmlə mübarizə üçün hərtərəfli konvensiya mexanizmini inkişaf etdirə bilməyib.

*Açar sözlər*: ekstremizm, beynəlxalq terrorizm, konvensiya, bəyannamə, saziş, qətnamə, Taliban, ASALA.

**TARİEL ABBASOV**
*Phd., Acting Associate Professor of the Department of*
*New and Contemporary History of the Countries of Europe and America, Baku State University*

## CONTRIBUTION OF THE WORLD COMMUNITY TO THE DEVELOPMENT OF THE INTERNATIONAL LEGAL FRAMEWORK FOR COMBATING INTERNATIONAL TERRORISM

Since the 2nd half of the 20th century the world community to counter terrorism have created large legal framework with form of numerous legislature acts, international conventions and agreements, declarations and resolutions both within the UN and a number of regional organizations. The fight against international terrorism is one of the priority areas of official Washington on

ensuring the national interests of the United States. However today the international community had failed to develop a comprehensive convention mechanism to combat international terrorism.

*Keywords*: extremism, international terrorism, convention, declaration, agreement, resolution, Taliban, ASALA.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 noyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Elmira Hüseynova, s.e.d. Adil Mirabdullayev.*

**UOT 327; 930.22**

**ƏLİMUSA İBRAHİMOV**
*Siyasi Elmlər üzrə Fəlsəfə Doktoru,*
*Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər fakültəsinin müəllimi*
**ialimusa@mail.ru**

# İRAN-RUSİYA MÜNASİBƏTLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

*Məqalədə müasir dövrdə İran-Rusiya münasibətlərinin əsas istiqamətləri nəzərdən keçirilir. Müəllif İran və Rusiya arasında siyasi, iqtisadi və hərbi münasibətlərin qısa xarakteristikasını təqdim edir. İran-Rusiya münasibətlərində son onilliklərdə baş verən dəyişikliklərə xüsusi diqqət yetirilir.*

*Açar sözlər*: İran, Rusiya, əməkdaşlıq, münasibətlər, maraqlar.

*Giriş.* İran-Rusiya münasibətlərini nəzərdən keçirərkən biz əməkdaşlığın müxtəlif səviyyələrini: ikitərəfli, regional və beynəlxalq əməkdaşlığı təhlil etməliyik. Bu kontekstdə məqalədə İran və Rusiyanın regional və beynəlxalq sahələrdə siyasi əməkdaşlığı təhlil edilir, habelə iki ölkə arasında iqtisadi-ticari və hərbi-texniki sahələrdə münasibətlərin inkişafı araşdırılır.

Amerikalı sosioloq və politoloq Samuel Hantinqton səkkiz qlobal dominant sivilizasiyanı fərqləndirir: Qərb sivilizasiyası, İslam sivilizasiyası, Latın Amerikası, pravoslav (Rusiya), Afrika, hind, yapon və Çin (Konfutsi) sivilizasiyaları. Onun fikrincə, bu sivilizasiyalar öz mədəniyyətlərini geosiyasi qarşıdurma halına gətirə biləcək qədər güclüdür. Müasir dünyada qarşıdurmada iştirak edən üç şərq sivilizasiyası (pravoslav - Rusiya; Konfutsi - Çin; İslam - İran) uzun müddətdən bəri öz rəqibinə, yəni Qərb sivilizasiyasına qarşı mübarizə aparır [1, s.30].

11 sentyabr 2001-ci il hadisələri ABŞ-ın Əfqanıstan və İraqı işğal etməsi, habelə yeganə fövqəldövlət mövqeyinə sahiblənməsi üçün başlanğıc nöqtəsi oldu. Lakin Çin, Rusiya kimi ölkələr, habelə bəzi Avropa və müsəlman ölkələri ABŞ hegemonluğunun davam etməsindən narahatdır. Bu dövlətlər çoxqütblü sistemin yaradılması üçün daha fəal səy göstərirlər [2].

Hal-hazırda İran və Rusiya özlərinin dünya səhnəsində yerindən və rolundan narazıdır. Onlar istədikləri mövqeyə çatmaq üçün status-kvonu dəyişdirmək strategiyasına yönəlmişlər. Politologiya doktoru Maykl Smit Rusiya və İranın ABŞ-a qarşı xarici siyasət davranışının əksəriyyətinin onların identikliyi ilə müəyyən olunduğunu iddia edir. Onların siyasəti maddi tələblərə əsaslanmır, iki ölkədə hökm sürən normalar, dəyərlər, mədəniyyət, ideologiya və inancların qarşılıqlı əlaqəsi əsasında formalaşmışdır [3, s.16].

Moskva Dövlət Universitetinin professoru A.Q.Duqin müasir siyasi və iqtisadi dünya nizamının yaradılması prosesini belə xarakterizə edir: SSRİ-nin dağılması həm güclü simmetrik fövqəldövlətin, həm də bütöv nəhəng ideoloji düşərgənin yox olmasına gətirib çıxardı. Bu, iki qlobal hegemonluqdan birinin sonu oldu. Dünya nizamının bütün strukturu bu andan etibarən dönməz keyfiyyət dəyişikliyinə məruz qaldı. Bu zaman ABŞ-ın rəhbərlik etdiyi və liberal-demokratik kapitalist ideologiyası əsasında qurulmuş qütb yaşadı və sosial-siyasi sistemini (demokratiya, bazar, insan hüquqları ideologiyası) qlobal miqyasda genişləndirməyə davam etdi. Buna birqütblü dünya nizamı deyilir [4, s.21].

İranın keçmiş xarici işlər naziri, İranın ali rəhbərinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Velayəti qeyd etmişdir: "ABŞ öz hegemonluğu şəraitində fəaliyyət göstərsə də, bir çox hallarda öz məqsədlərinə çatmağa müvəffəq olmamışdır. Bunun bariz nümunəsi Yaxın Şərq, həmçinin Əfqanıstan, İraq, Suriyadakı vəziyyətdir". Velayəti hesab edir ki, İran, Rusiya və Çin çoxqütblü dünyanın yaradılması və qurulması üçün əməkdaşlıq etməlidirlər. Bundan əlavə, o, Şanxay Əməkdaşlıq Təşkilatının çoxqütblü dünyanın inkişafı aləti olduğuna inanır [5, s.45].

Xarici siyasət strategiyası mövqelərin əlaqələndirilməsində və müasir beynəlxalq münasibətlərin və regional böhranların tənzimlənməsində beynəlxalq təşkilatların və regional strukturların xüsusi rolunu vurğulayır. Lakin qeyd etmək lazımdır ki, hazırda əksər ekspertlər heç bir konkret ölkəni ABŞ-a qarşı dura biləcək qüvvə kimi görmür.

Politoloq Cahangir Kərami hesab edir ki, "1990-2000-ci illərdə beynəlxalq sistem birqütblü və çoxqütblü sistem arasında dalğalanırdı. 11 sentyabr terror aktları respublikaçıları ABŞ-ın siyasi

Olimpinin zirvəsinə yüksəltdi və onlar ölkənin qlobal siyasi sistemin mərkəzində mövqe tutmasını təmin etdi. ABŞ öz liderliyini digər ölkələrə qəbul etdirdi və tədricən hegemonluğunu artırdı, lakin Amerika xarici siyasəti İraq və Əfqanıstanda sabitlik problemlərini həll edə bilmədi. Bundan əlavə, kapitalist sisteminin iqtisadi böhranı, Çinin davamlı iqtisadi artımı, prezident Putinin hakimiyyəti altında Rusiyanın dirçəlməsi, qlobal anti-kapitalist hərəkatlar, qlobal vətəndaş cəmiyyətinin formalaşması - bütün bu amillər beynəlxalq münasibətlərin təbiətində köklü dəyişikliklərə səbəb oldu. Bu gün heç bir hökumət dünyadakı vəziyyətə nəzarət etmir. ABŞ artıq dünyanı təkbaşına idarə edə və dünya nizamının gələcəyini müəyyən edə bilməz" [6].

Florida Universitetinin professoru Mohiuddin Mesbahi İraq böhranından sonra ABŞ-ın hegemonluğunun ABŞ liderləri üçün kövrək və problemli olduğunu qeyd edir: "ABŞ, Avropa, Rusiya, Çin, İran və beynəlxalq münasibətlərin qeyri-dövlət aktorları arasında gələcək beynəlxalq sistemin formalaşdırılması sahəsində çətinliklər mövcud olsa da, beynəlxalq sistem dəyişir və inkişaf edir" [7].

"Şərqə baxış" İran elitasının mühafizəkar qanadının xarici siyasətinə xas olan konseptual yanaşmadır. Buna baxmayaraq, liberal qanadın təkid etdiyi Qərblə Şərq arasında tarazlıq əldə etmək istəyi İslam Respublikasının ilk növbədə Şərq istiqamətində xarici siyasət təşəbbüslərinə səbəb olur. İranlı siyasətçi H.Taliya yazır: "Çin, Rusiya, Hindistan və İran Şərqdə, Qərbdə, Mərkəzi və Şimali Asiyada və Avropanın bir hissəsində yerləşən dörd böyük dövlət kimi birqütblü dünya nizamının həyata keçirilməsinin qarşısını ala bilərlər" [8, s.19].

İranlı politoloq S. Firuzabadi hesab edir ki, çoxqütblü beynəlxalq sistem İranın tərəqqisi üçün daha yaxşı şərait yaradardı və bu tip beynəlxalq sistem mövcud sistemlə müqayisədə İranın inkişafına daha az mane olardı. Bunun səbəbi gücün fərqli qütblər arasında bölünməsi və bir ölkənin beynəlxalq sistemdə hökmranlığının çətinləşməsidir[9, s.40]. Bu İran ekspertinin fikrincə, İran, Rusiya və Çin Amerika demokratiyası, yeni dünya düzəni, insan hüquqları, terrorizmlə mübarizə, NATO-nun Şərqə doğru genişlənməsi və ABŞ-ın Yaxın Şərqdə, Cənub-Şərqi və Mərkəzi Asiyada hökmranlığı kimi məsələlərdə ortaq mövqelərə malikdir.Buna görə də onlar vahid cəbhə - Amerika hegemonluğundan fərqli yeni bir güc qütbü yarada bilərlər.

Hegemonluq əleyhinə diskurs və çoxqütblü sistem qurmaq istəyi ilə paralel olaraq İran İslam Respublikası iki strateji məqsəd güdür: 1) şərq siyasətinin yenilənməsi; 2) cənub xarici siyasət istiqamətinin inkişafı.

"Şərqə baxış" siyasəti çərçivəsində İran Şərq dövlətləri, xüsusilə Çin və Rusiya ilə strateji ittifaq yaratmağa çalışır. Bu səbəbdən İran ŞƏT-ə tamhüquqlu üzv olmaq istəyir. Bundan əlavə, İran İslam Respublikası Latın Amerikasının Venesuela, Nikaraqua, Boliviya və antiimperialist yönümlü digər ölkələri ilə əlaqələrini genişləndirməyə çalışır. İran kimi regional dövlətlərin nüfuzunun artmasına zəmin yaradan beynəlxalq aləmdə rəqabət mühitinin yaradılması Tehrana birqütblü sistemi dəyişdirmək və ölkənin iqtisadi qüdrətini artırmaq fürsəti verə bilər.

İran və Rusiya arasındakı münasibətlər tarixində iqtisadi əlaqələr həmişə iki ölkənin əməkdaşlığının əsas sahələrindən biri olmuşdur. Yaxın coğrafi mövqe müsbət amil kimi iki ölkənin iqtisadi əlaqələrinə təkan vermişdir. Postsovet dövründə ikitərəfli münasibətlərin inkişafına anti-Amerika ictimai rəyin, müəyyən bölgələrdə ortaq maraqların inkişafı, Çeçenistan böhranında İranın təmkinli mövqeyi və iqtisadi-ticari faydalılıq kömək etmişdir. Hər iki ölkə daim ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün yeni yollar axtarır, energetika, ticarət, nəqliyyat və digər sahələrdə əməkdaşlıq edir.

İran-Rusiya münasibətləri V.Putinin 2000-ci ildə hakimiyyətə gəlişindən, M.Xatəminin Moskvaya səfərindən və onillik əməkdaşlıq haqqında müqavilənin imzalanmasından sonra xeyli inkişaf etmişdir [11, s.102]. Artıq 2005-ci ildə Rusiya İranın yeddinci ticarət tərəfdaşına çevrilmiş və bu dövlətin bütün idxal mallarının 5,33% -ni təmin etmişdir.

Rusiya Federasiyasının Prezidentinin və İran İslam Respublikası Prezidentinin 16 oktyabr 2007-ci ildə Tehranda keçirdiyi görüşdə tərəflər Rusiya-İran ticari-iqtisadi əməkdaşlığının həcmini artırmaq niyyətlərini bir daha bəyan etdilər. İqtisadi sahədə əməkdaşlığın dərinləşdirilməsin potensialını reallaşdırmaq məqsədilə iki ölkənin ticari-iqtisadi əməkdaşlığına dair bir sıra hökumətlərarası sənədlərin bağlanması barədə razılıq əldə olundu.

Ölkələr arasında iqtisadi əlaqələrin inkişafının ən mühüm amillərindən biri də coğrafi mövqe və müvafiq nəqliyyat sisteminin mövcudluğudur. İranın cənubda Hind okeanı ilə həmsərhəd olması iki ölkə arasındakı münasibətlərə müsbət təsir göstərir. İran, Rusiya və Hindistanın 2000-ci ildə

imzaladığı şimal və cənub dəhlizi haqqında saziş layihəsi regionun iqtisadi inkişafına əhəmiyyətli dərəcədə kömək edə bilər. Bu yol Hindistanı Şimali Avropa ilə ən qısa və etibarlı şəkildə birləşdirir. Rusiya, Mərkəzi Asiya və Qafqaz ölkələri üçün Hindistanla İran vasitəsilə mal mübadiləsi iqtisadi cəhətdən daha məqsədəuyğundur [12, s.149].

Buşəhr atom elektrik stansiyası iki ölkənin iqtisadi əməkdaşlığının əsas simvoluna çevrilmişdir, hərşənd bu layihənin əhəmiyyətinə siyasi məsələlər kölgə salmışdır. Moskvanın inamlı addımlarına baxmayaraq, Buşəhr layihəsi Moskva ilə Vaşinqton arasında gərginlik mənbəyinə çevrildi. ABŞ hökuməti İranın nüvə məsələsini Rusiya ilə cari münasibətlər kontekstində qiymətləndirirdi. Rusiya İranın Beynəlxalq Nüvə Enerjisi Agentliyinin qaydalarına əməl etdiyini vurğulayaraq, Tehrana heç bir mühüm texnologiya vermədiyini açıqladı. 2004-cü ilin iyununda V.Putin bildirdi ki, İran beynəlxalq birliyin nüvə proqramının şəffaflığı və Agentliklə əməkdaşlığa dair tələblərinə məhəl qoymasa, Rusiya Buşəhr atom elektrik stansiyasının inşasını dayandıracaq, lakin İran təşkilat qarşısında bütün öhdəliklərini yerinə yetirir, ona görə də bu əməkdaşlığa son verilməsi üçün səbəb yoxdur. Tədricən ABŞ hökuməti Buşəhr layihəsi ilə bağlı etirazlarına son qoydu.

Rusiya Xarici İşlər Nazirliyinin Diplomatiya Akademiyasının Qlobal Məsələlər və Beynəlxalq Təşkilatlar Mərkəzinin direktoru Vladimir Orlov və onun həmkarı Aleksandr Vinnikov Rusiya cəmiyyətinin İranla nüvə əməkdaşlığı ilə əlaqədar ABŞ-ın iradlarına reaksiyalarını üç kateqoriyaya ayırır. Birinci kateqoriyaya Vaşinqtonun İranın nüvə siyasətini və onun məsələsini BMT Təhlükəsizlik Şurasında müzakirəyə çıxarmasını ABŞ-nın nüvə bazarına hakim olmaq və Rusiyanı bu bazardakı payından məhrum etmək məqsədi güddüyünü düşünənlər daxildir. İkinci kateqoriya hesab edir ki, Vaşinqtonun Tehrana qarşı siyasəti bu ölkədəki İsrail lobbisinin güclü təsiri altındadır. Üçüncü kateqoriya isə əmindir ki, amerikalılar İran “kart”ından istifadə edərək Rusiya ilə digər məsələlərə dair danışıqlarda üstünlük əldə etmək istəyirlər [13, s.57].

Eyni zamanda, İranla nüvə əməkdaşlığı Rusiya üçün xüsusi əhəmiyyətə malikdir. Reaktorun İrana satılması nəticəsində Rusiya böyük gəlir əldə etmişdir. İkincisi, İran Rusiyaya bildirmişdir ki, Buşəhr elektrik stansiyası işə düşərsə, o, Rusiyadan digər nüvə reaktorları almağa hazır olacaq. Üçüncüsü, Buşəhr AES-in inşasında Rusiya mühəndislərinin və texniki işçilərinin iştirakı sayəsində Rusiyanın nüvə sənayesi daha dinamik xarakter qazanmışdır. Dördüncüsü, V.Putin İranla nüvə əməkdaşlığına son qoymağa yönəlmiş beynəlxalq təzyiqlərə qarşı çıxmaqla Rusiyanın beynəlxalq siyasətdə müstəqilliyi ilə bağlı ictimai rəyi təmin etmişdir.

Digər tərəfdən İran Rusiyanın ticarət tərəfdaşı hesab olunur və ticarət iki ölkə arasındakı yaxınlaşmada vacib amildir. Hələ Birinci Dünya müharibəsi ərəfəsində Rusiya İranla ticarətdə birinci yeri tuturdu [14, s.44]. İranın Rusiyadan ixrac etdiyi əsas mallar dəmir və polad təbəqələr, ağac və sellüloz-kağız məmulatları, dənli bitkilər, yanacaq-energetika məhsulları, dayaqlar və üzən platformalardır; İranın Rusiyaya əsas ixrac məhsulları arasında ərzaq və kənd təsərrüfatı məhsulları, həmçinin avtomobillər və plitələr, keramika və filizlər kimi mallar əsas yer tutur.

Buna baxmayaraq, İran və Rusiya arasında ticari-iqtisadi mübadilə inkişaf etsə də, bu münasibətlər siyasi-hərbi əməkdaşlıqla müqayisədə çox irəliləməmişdir. İki ölkə arasında ticari-iqtisadi əməkdaşlığın inkişafına dair çoxsaylı sazişlər imzalansa da, onların bir çoxu həyata keçirilmə mərhələsində maneələrlə üzləşmişdir.

Bir sıra ekspertlər iki ölkə arasında iqtisadi əməkdaşlığın müvafiq inkişafının olmamasının səbəblərini aşağıdakılarla əlaqələndirirlər:

- iki ölkənin sahibkarlarının Avropa və Şərqi Asiya bazarlarına yönəlməsi;
- ölkələrin bankları və sığorta təşkilatları arasında sistemli qarşılıqlı əlaqələrin olmaması;
- son illərdə ikitərəfli öhdəliklərin yerinə yetirilməməsi;
- İrana qarşı beynəlxalq sanksiyalar;
- iş adamlarının iki ölkənin bazarları haqqında kifayət qədər məlumatlı olmaması [15, s.132].

İqtisadi və ticari əlaqələrinin inkişafı iki əsas şərtlə mümkündür. Birincisi, ölkələrin bir-birlərinə ehtiyacı; ikincisi, liderlərin siyasi əməkdaşlığı. Lakin iqtisadiyyatın qloballaşması dövründə iqti-

sadi münasibətlər sağlam məntiq və fayda ilə müəyyən edilir və hətta siyasi baxımdan dost münasibətləri olan ölkələr iqtisadi məntiqə əməl etmədikdə geniş iqtisadi və ticarət əlaqələri formalaşmır. Başqa sözlə, istehsalçılar və sahibkarlar üçün fayda və iqtisadi maraq olmadığı təqdirdə, güclə və siyasi liderlərin tələbi ilə iki ölkə arasında sabit iqtisadi əlaqələr yaratmaq mümkün deyildir.

Nəticədə, Rusiya və İran liderlərinin istəyi və siyasi iradəsi iqtisadi əməkdaşlığın təşviqinə əsaslansa da, iki ölkənin iqtisadi sistemlərinin bir-birini tamamlamaması və neft və qaz satışları gəlirlərindən eyni dərəcədə asılılıq səbəbindən bu səylər müsbət nəticə verməmişdir.

İki ölkənin ixracının əsas hissəsini xammal və enerji təşkil edir. Statistik məlumatlar göstərir ki, iki ölkənin iqtisadiyyatı enerji ehtiyatlarının ixracatından çox asılıdır və təbii olaraq dünya bazarlarında neft və qaz qiymətlərinin dalğalanmasına həssasdır. Neft ixracatından asılı olan ölkələrdə şəffaf inzibati sistem üçün vacib şərt olan səmərəli idarəetməni təmin etmək çətindir. Hökümət bürokratiyasının artması nəticəsində neft satışından gəlirlərin səmərəli istifadəsində problemlər yaranır [16, s.18]. Buna görə də iqtisadiyyatın qloballaşması dövründə ölkələr arasında iqtisadi mübadilənin böyük hissəsinin barter şəklində baş verdiyini nəzərə alsaq, Rusiya və İran, neft və qaz istisna olmaqla, bir-birinin bazarlarında təklif edə biləcəkləri digər əsas strateji mallara sahib deyildir.

Digər tərəfdən, iki ölkənin iqtisadiyyatının enerji ixracatından asılılığı potensial olaraq onlar arasında rəqabətə səbəb ola bilər. Rusiya və İran dünya bazarlarına qaz ixracı və Xəzər dənizinin enerji ehtiyatlarının tranziti marşrutları məsələlərində rəqib hesab olunur. Rusiya uzun müddətdir ki, fövqəldövlət siyasəti yürüdür və İran kimi bir rəqib tərəfindən, xüsusən də Avropanın enerji bazarında onun mövqelərinin zəiflədilməsi ilə barışa bilməz. Rusiya hökuməti Mərkəzi Asiya və Qafqaz ölkələrini də Rusiyanın enerji nəqli marşrutlarından istifadə etməyə çağırmışdır. Əksinə, İran cənub marşrutlarını Xəzər dənizinin enerji ehtiyatlarının daşınması üçün ən əlverişli yol hesab edir. Əlbəttə ki, ABŞ bu günə qədər İranın Xəzər dənizinin enerji ehtiyatlarının öz ərazisi ilə Avropa bazarlarına nəqli səylərinə maneçilik törədir, bu da Rusiyaya nəinki bölgədən enerji daşıyıcılarının öz ərazisi vasitəsilə tranzitindən qazanc əldə etməyə, həm də enerji ixracatçılarına və istehlakçılarına siyasi təsirini artırmağa imkan vermişdir [17, s.62].

İranla Qərb arasında gərginliyin azalması və Avropa dövlətlərinin yeni qaz təminatı mənbələri əldə etməyə can atması halında bu məsələdə dəyişiklik gözləniləndir. Buna görə də iki ölkənin iqtisadi sistemlərinin oxşarlığı və enerji ixracatından asılılığı onların münasibətlərində destruktiv amilə çevrilə bilər.

Ölkələrin iqtisadi əlaqələrinə mənfi təsir göstərən digər amil qlobal iqtisadiyyatda müqayisəli üstünlük prinsipi ilə əlaqədardır. Hazırda dünya iqtisadiyyatında beynəlxalq əmək bölgüsü mövcuddur. Ölkələrin resursları azdır və dövlətlər yalnız dünya bazarlarına ən aşağı qiymətə və ən keyfiyyətli şəkildə təklif edə biləcəkləri mal və xidmətlər istehsal edirlər. Əksinə, müqayisəli üstünlüyü olmayan mallar digər ölkələrdən alınır. Rusiya və xüsusilə İran beynəlxalq standartlara cavab verən və dünya bazarında oxşar mallarla rəqabət apara biləcək mallar istehsal etmir. Belə şəraitdə hər iki ölkə ehtiyaclarını digər bazarlardan təmin edir. Məsələn, enerji sektorunda “Lukoyl” və “Qazprom” kimi Rusiya şirkətləri İran bazarında neft emalı zavodlarının tikintisi və maye təbii qaz istehsalı obyektlərinin qurulması üçün texniki və mühəndislik sahələrində Avropa və Amerika şirkətləri ilə rəqabət aparmağa qadir deyildir.

Bundan əlavə, İranın xarici siyasətində iqtisadi məqsədlər prioritetə malik deyildir. İranın xarici siyasəti, əsasən, siyasi məqsədlərə yönəlmişdir, iqtisadi diplomatiyaya daha az əhəmiyyət verilir. Başqa sözlə, İran hökumətinin son otuz ildəki hərəkətləri nəzərə alındıqda, siyasətin iqtisadiyyatdan üstün olduğunu və xarici siyasət alətlərindən iqtisadi maraqları təmin etmək və digər ölkələrlə iqtisadi əlaqələri inkişaf etdirmək üçün istifadə edilmədiyini görmək olar.

Əksinə, Rusiya Federasiyasının xarici siyasətinin məqsədi, Sovet İttifaqı dövründən fərqli olaraq, milli maraqların təmin edilməsinə, iqtisadi mənfəət əldə etməyə və çoxqütblü dünyaya nail olmağa yönəlmişdir. Bu məqsədlə Rusiya iqtisadi diplomatiya kursu seçərək, Ümumdünya Ticarət Təşkilatına üzv olmuşdur və qlobal iqtisadiyyatda fəal iştirak edir. Rusiya hökuməti iqtisadi proqramlarını Qərb ölkələrinin təklif etdiyi qlobal iqtisadiyyatı tənzimləyən prinsiplərə uyğun olaraq işləyib hazırlamışdır və Rusiyanın dünyanın inkişaf etmiş sənaye ölkələri ilə iqtisadi əməkdaşlığı art-

maqdadır. Nəticə etibarilə iki dövlətin beynəlxalq iqtisadiyyatda müxtəlif yönümlü hərəkətləri də nəzərə alınmalıdır.

İqtisadi maneələrlə yanaşı, İran və digər ölkələr arasında iqtisadi əlaqələrin inkişafına maneə kimi İranın siyasi və ideoloji sisteminə də diqqət yetirilməlidir. Dini ideologiya və İran hakimiyyət orqanlarının xarici ölkələrə münasibəti digər ölkələrlə iqtisadi münasibətlərin inkişafı yolunda maneədir. İran Konstitusiyasına əsasən, İranın əksər infrastruktur və sənaye layihələrində əcnəbilərin iştirakı qadağandır və ya çətin şərtlərlə mümkündür. Dini və ideoloji məhdudiyyətlər səbəbindən İran hakimiyyəti turizm kimi ən çiçəklənən iqtisadi sektorda Rusiya kimi ölkələrlə əməkdaşlıq edə bilmir. Beləliklə, İslam şəriətinin qanunları və kişi- qadın münasibətlərini, iranlılarla əcnəbilər arasındakı münasibətləri tənzimləyən qaydalar, iranlıların milli adət-ənənələri İranla iqtisadi-ticari əlaqələrə ciddi təsir göstərir [18].

Ümumdünya Ticarət Təşkilatının statistikasına əsasən, son 10 ildə, Rusiyanın əsas iqtisadi tərəfdaşları AB, Çin, Türkiyə, ABŞ, Yaponiya, Ukrayna və Belarus olmuşdur, İranın əsas iqtisadi tərəfdaşları isə AB ölkələri, Çin, Birləşmiş Ərəb Əmirlikləri, Yaponiya, Cənubi Koreya, Hindistandır [19]. Müasir dünya "iqtisadi qarşılıqlı asılılıq" paradiqmasına söykənir. İqtisadi qarşılıqlı asılılıq dövlətlər, firmalar və fərdlər arasında qarşılıqlı iqtisadi əlaqələrin mövcudluğudur, bu əlaqələr olmadan heç kim keçinə bilməz. Buraya daha çox maliyyə, ticarət, elmi-texniki, sənaye əlaqələri daxildir. İran və Rusiyanın oxşar iqtisadi sistemini nəzərə alsaq, iqtisadi sahədə belə qarşılıqlı asılılıq müşahidə olunmur. Hər iki ölkənin iqtisadi inkişaf üçün müasir texnologiyalara və xarici investisiyalara ehtiyacı vardır, onlar bu sahədə bir-birinin ehtiyaclarını ödəyə bilməz. Buna görə də iki ölkə liderlərinin iqtisadi əməkdaşlığı artırmaq səylərinə baxmayaraq, indiyə qədər əhəmiyyətli dəyişikliklər baş verməmişdir.

Hərbi güc ölkənin milli təhlükəsizliyini qorumaq üçün zəruri vasitədir, müasir silahlar hərbi gücün mühüm komponentidir. Müvafiq silahları olmayan heç bir ordu xarici təhdidlər qarşısında özünü inamlı hiss edə bilməz. Ölkələrin silahlarının keyfiyyəti və miqdarı müharibələrin gedişində və sülh dövründə dövlətlərin manevr qabiliyyətinə ciddi təsir göstərir.

Səkkiz illik İran-İraq müharibəsi başa çatdıqdan sonra İran İslam Respublikası silah çatışmazlığı hiss edirdi. İraq və Körfəz ölkələri isə mürəkkəb hərbi silahlara sahib idi. Səudiyyə Ərəbistanının sərəncamında olan 100 "Tornado" və F-15 təyyarəsi bütün İran hərbi qüvvələrindən güclü idi. İraq ordusu ərəb ölkələrinin dəstəyi ilə ənənəvi və qeyri-ənənəvi silahların istehsalına böyük kapital yatıraraq, bölgədəki güc balansını öz xeyrinə dəyişdirə bilmişdi. Bu, Qərb tərəfindən İrana silah satışına qoyulan qadağanın İranın hərbi gücünün azalmasına səbəb olduğu və ölkənin milli təhlükəsizliyinə təhlükə yarandığı bir dövrdə baş verirdi. Təhlükəsizliyə yaranmış təhdidlərə qarşı çıxmaq üçün İranın müdafiə qabiliyyətinin artması zəruri olduğundan, silah və hərbi texnologiyanın alınması tələb olunurdu. Müxtəlif səbəblərə görə Avropa ölkələri İrana silah satmağa hazır deyildi. İranın Çin, Şimali Koreya və Rusiya ilə belə əməkdaşlıq imkanları mövcud idi. ABŞ və Şimali Koreyanın təzyiqi səbəbindən Çin yeni texnologiyalı silahlar baxımından bəzi məhdudiyyətlər yaşayırdı. Buna görə də Rusiya İranın müdafiə və hərbi ehtiyaclarını ödəmək üçün yeganə uyğun seçim oldu. Beləliklə, İran Rusiyadan ən böyük silah alıcısına çevrildi və hərbi əməkdaşlıq İranla Rusiya arasında yaxınlaşma üçün ən mühüm motiv oldu.

Tehran və Moskva arasında hərbi-texniki əməkdaşlığın inkişafında yeni mərhələ 1989-cu ildə İran parlamentinin sədri Əli-Əkbər Haşimi Rəfsəncaninin şimal qonşusuna səfəri oldu. O və M.S.Qorbaçov SSRİ ilə İran İslam Respublikası arasında münasibətlər və dostcasına əməkdaşlığın prinsipləri haqqında bəyannamə imzaladı. Bəyannamənin mətnində elan olunan yeni məqamlar Sovet İttifaqının müdafiə qabiliyyətinin gücləndirilməsi sahəsində İran tərəfi ilə əməkdaşlığa razılıq verməsi haqqında müddəa, habelə uzunmüddətli iqtisadi proqramın nəzərdə tutulması idi. Bu səfər zamanı iki ölkənin razılığı ilə İrana hərbi texnika və hərbi texnologiaların satışı üçün təxminən iki milyard dollar ayrıldı. 1990-cı illərin əvvəllərində Rusiya 1989-cu il müqaviləsi çərçivəsində İrana 3 sualtı qayıq və 8 MİQ-29 təyyarəsi, həmçinin T-72 tankının istehsal texnologiyasını satdı [20, s.190]. Rusiyada əldə edilən sualtı qayıqların gücü 2500 ton idi. Bu sualtı qayıqlar dizel mühərrikli olsa da, onların əldə edilməsi iranlıların geosiyasi xəyallarının tərkib hissəsi idi və Tehranın İran körfəzində və Oman dənizində regional gücünü artırdı.

1990-cı illərdən bəri Rusiya və İran hərbi-texniki sahədə əlaqələrin inkişafı sahəsində ciddi maneələrlə üzləşmişlər. Bu maneələr, əsasən, xarici amillərlə şərtlənir. B.Yeltsinin siyasi baxımdan Qərb yönümlü hökuməti İrana silah satmasının ABŞ-ın qəzəbinə səbəb olacağını təsəvvür etmirdi, çünki bu dövrdə İranda hakimiyyətə gəlmiş Haşimi-Rəfsəncani hökuməti də Qərblə münasibətləri bərpa etməyə çalışırdı. Lakin davam edən düşmənçilik və inamsızlıq Tehran və Vaşinqton arasında diplomatik əlaqələrin bərpasına mane oldu.

ABŞ və onun Yaxın Şərq müttəfiqləri əvvəlcə Rusiyanın İrana silah satması məsələsində kəskin mənfi mövqe tutdular. 1995-ci ilin mayında Moskvada Boris Yeltsin ABŞ Prezidenti Bill Klintonla görüşdə ABŞ-ın təzyiqlərinə tab gətirmədi və İranla əvvəllər imzalanmış bütün hərbi müqavilələrin icrasını vaxtından əvvəl, 1999-cu ilin sonuna qədər başa çatdırmağı vəd etdi. Eyni zamanda, Rusiya tərəfi Tehranla heç bir yeni hərbi saziş bağlamamağa söz verdi. Bu razılaşmaların rəsmi ikitərəfli ifadəsi 30 iyun 1995-ci il tarixli Protokol oldu. Sənədi Rusiyanın baş naziri Viktor Çernomırdin və ABŞ-ın vitse-prezidenti Albert Qor imzalamışdı. Beləliklə, ABŞ hökuməti İranın hərbi gücünün bərpasının qarşısını almağa çalışırdı. Bu razılaşma İran və Rusiyanın hərbi əməkdaşlığını məhdudlaşdırdı. 1996-cı ilə qədər Rusiya artıq İran tərəfinə üç dizel mühərrikli sualtı qayıq vermişdi. Müvafiq müqavilə Rusiya gəmiqayırma zavodlarında İran üçün daha dörd sualtı qayığın inşasını nəzərdə tuturdu. Lakin Qor-Çernomırdin protokolu bu müddəanın reallaşmasına imkan vermədi. Sualtı qayıqlara dair müqavilələrin ümumi dəyəri 1,6 milyard dollar həcmində qiymətləndirilirdi. Nəticədə Rusiyaya vurulan zərər milyardlarla dollara, itirilmiş mənfəət isə on milyardlarla dollara çatdı.

Vladimir Putinin Kremlə gəlməsi ilə Rusiya tərəfi amerikalılarla əvvəlki razılaşmalardan imtina etmək qərarına gəldi. 3 noyabr 2000-ci ildə Moskva Qor-Çernomırdin Protokolundan çıxması barədə Vaşinqtonu xəbərdar etdi. 2001-ci ilin oktyabrında bağlanan yeni müqavilə əsasında Rusiyanın hər il İrana 300-400 milyon dollar dəyərində silah satması qərara alındı. 2005-ci ilin dekabr ayında 700 milyon dollardan çox dəyəri olan 29 hava hücumundan müdafiə sisteminin satışına dair müqavilə imzalandı. İki ölkə arasındakı hərbi əməkdaşlıq barədə məlumatlar məxfi olsa da, məlumdur ki, kosmik texnika və ballistik raketlər sahəsində əməkdaşlıq hələ 1992-ci ildə başlanmış və sonradan xeyli sayda rusiyalı mütəxəssisin İranda işləməsi ilə daha yüksək səviyyəyə çatmışdır. Aerokosmik sənayesində Rusiya "Zəhra" İran peykinin yaradılmasında iştirak etmiş və 2005-ci ilin oktyabrında elmi tədqiqat məqsədi ilə "Sina-1" ilk birgə Rusiya-İran kosmik gəmisi kosmosa buraxılmışdır [21, s.59].

Beləliklə, müstəqil ölkələrə münasibətdə avrasiyaçı yanaşma çərçivəsində Çin və Hindistandan sonra İran Rusiyadan silah alan üçüncü böyük alıcı olmuşdur. Qərb ölkələri İrana silah satmadığı halda, Rusiya İrana bəzi hərbi texnika nümunələrinin istehsal texnologiyasını satmışdır, İranda çoxlu sayda rusiyalı hərbi müşavir işləyir. Əlbəttə, İranın Rusiyadan hərbi asılılığı, Rusiyanın hərbi sənayesindən iqtisadi asılılığı İranın Rusiya ilə siyasəti çərçivəsində "yaxın xaric" bölgəsində müəyyən addımlar atmasına səbəb olmuşdur. Rusiya ilə İran arasındakı əlaqələrin hərbi-texniki əməkdaşlıq xətti üzrə inkişafı ikitərəfli münasibətlərin bütün kompleksini yeni səviyyəyə qaldırır. İran regional kollektiv təhlükəsizlik sistemlərinin üzvü deyildir, bölgənin ütün problemlərin yalnız regional dövlətlərin gücü ilə həllinin prinsipial tərəfdarı kimi çıxış edir.

*Nəticə*. Yuxarıda qeyd olunanları ümumiləşdirərək aşağıdakı nəticələri ifadə etmək mümkündür:

Hal-hazırda İran və Rusiya özlərinin dünya səhnəsində yerindən və rolundan narazıdır. Onlar istədikləri mövqeyə çatmaq üçün status-kvonu dəyişdirmək strategiyasına yönəlmişlər.

Hegemonluq əleyhinə diskurs və çoxqütblü sistem qurmaq istəyi ilə paralel olaraq İran İslam Respublikası iki strateji məqsəd güdür: 1) şərq siyasətinin yenilənməsi; 2) cənub xarici siyasət istiqamətinin inkişafı.

"Şərqə baxış" siyasəti çərçivəsində İran Şərq dövlətləri, xüsusilə Çin və Rusiya ilə strateji ittifaq yaratmağa çalışır. İran kimi regional dövlətlərin nüfuzunun artmasına zəmin yaradan beynəlxalq aləmdə rəqabət mühitinin yaradılması Tehrana birqütblü sistemi dəyişdirmək və ölkənin iqtisadi qüdrətini artırmaq fürsəti verə bilər.

İran və Rusiya arasındakı münasibətlər tarixində iqtisadi əlaqələr həmişə iki ölkənin əməkdaşlığının əsas sahələrindən biri olmuşdur. Yaxın coğrafi mövqe müsbət amil kimi iki ölkənin iqtisadi əlaqələrinə təkan vermişdir. Postsovet dövründə ikitərəfli münasibətlərin inkişafına anti-Amerika ictimai rəyin, müəyyən bölgələrdə ortaq maraqların inkişafı, Çeçenistan böhranında İranın təmkinli mövqeyi və iqtisadi-ticari faydalılıq kömək etmişdir. Hər iki ölkə daim ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün yeni yollar axtarır, energetika, ticarət, nəqliyyat və digər sahələrdə əməkdaşlıq edir.

İran-Rusiya münasibətləri V.Putinin 2000-ci ildə hakimiyyətə gəlişindən, M.Xatəminin Moskvaya səfərindən və onillik əməkdaşlıq haqqında müqavilənin imzalanmasından sonra xeyli inkişaf etmişdir.

Ölkələr arasında iqtisadi əlaqələrin inkişafının ən mühüm amillərindən biri də coğrafi mövqe və müvafiq nəqliyyat sisteminin mövcudluğudur. İranın cənubda Hind okeanı ilə həmsərhəd olması iki ölkə arasındakı münasibətlərə müsbət təsir göstərir.

Buşəhr atom elektrik stansiyası iki ölkənin iqtisadi əməkdaşlığının əsas simvoluna çevrilmişdir, hərşənd bu layihənin əhəmiyyətinə siyasi məsələlər kölgə salmışdır. İranla nüvə əməkdaşlığı Rusiya üçün xüsusi əhəmiyyətə malikdir. Reaktorun İrana satılması nəticəsində Rusiya böyük gəlir əldə etmişdir. V.Putin İranla nüvə əməkdaşlığına son qoymağa yönəlmiş beynəlxalq təzyiqlərə qarşı çıxmaqla Rusiyanın beynəlxalq siyasətdə müstəqilliyi ilə bağlı ictimai rəyi təmin etmişdir.

Azərbaycan-Rusiya mədəni münasibətlərinin inkişaf xarakterinə görə iki mühüm formasının nəzərə çarpacaq rolundan bəhs etməyə imkan verir: Birinci mərhələ, yaxud birinci xarakterik forma həm Azərbaycan, həm də Rusiya Federasiyasının tərkibində fəaliyyət göstərən və hər iki xalqın mədəni irsini yaşadan, eləcə də bu istiqamətdə təşkilatlanan azərbaycanlı və rus mədəni və ictimai birliklərinin rolundan ibarətdir; İkinci xarakterik forma isə hər iki dövlətin rəsmi idarə və təşkilatları, eləcə də dövlət rəhbərləri səviyyəsində həyata keçirilən münasibətlər sistemini əhatə edir [1;137]. Birinci xarakterik formada daha çox diasporaların fəaliyyəti diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, Rusiya tarixinin XX əsrin 90-cı illərində olan bir dövründə fəaliyyət göstərən Azərbaycan təşkilat və ictimai birlikləri məlum hadisələr səbəbindən çox böyük gərginliklərlə qarşılaşmışlar. 1989-cu ilin oktyabr ayında Moskva şəhər soveti tərəfindən rəsmi qeydiyyatdan keçmiş, dekabrdan isə fəaliyyətə başlayan "Ocaq" Azərbaycan Mədəniyyət Cəmiyyəti adlı birlik Rusiyada ilk Azərbaycan təşkilatlardan biridir. Cəmiyyətin ən mühüm vəzifəsi Rusiya Federasiyasında yaşayan digər xalqlarla, habelə rus icmaları ilə mədəni əlaqələr yaratmaq və onları genişləndirməkdən ibarətdir. Bu istiqamətdə Rusiyada müxtəlif mövzularda müntəzəm olaraq konfranslar keçirilmiş, Azərbaycan incəsənət ustalarının konsert və yaradıcılıq gecələri təşkil olunmuş, milli bayramlarımız qeyd edilmişdir. Rusiya-Azərbaycan mədəni əlaqələrində mühüm rol oynayan cəmiyyət və ictimai birliklər 1993-cü ildən daha da artmağa başlamışdır. Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında mədəni münasibətlərin inkişafında 1993-cü ildə yaradılmış "Rusiya-Azərbaycan Dostluq Cəmiyyəti"nin fəaliyyəti xüsusi qeyd olunmalıdır. Bu cəmiyyət son illərdə Rusiya-Azərbaycan mədəni əlaqələrinin dirçəldilməsi, milli dəyərlərin təbliği, rus icmaları ilə mədəni, ictimai münasibətlərin qurulması məsələlərində xüsusilə fərqlənir [2]. 1997-ci ildə Moskvada fəaliyyətə başlayan "Birlik" cəmiyyəti Rusiya Federasiyasında Azərbaycan diasporunun formalaşması, lobbiçilik ənənələrinin yaradılması istiqamətində mühüm işlər görmüşdür. Transmilli geosiyasi fenomen hesab olunan diasporlar Rusiyada Azərbaycan həqiqətlərinin çatdırılmasında, eyni zamanda mədəniyyət incilərimizin təbliği və qorunması istiqamətində əsas qurumlardır. Rusiya və Azərbaycan arasında mədəni münasibətlərin irəliləyən xətlə inkişafı bu istiqamətdə dövlətlərin yeni rəsmi qərarlar verməsinə gətirib çıxartdı. 1995-ci il iyunun 6-da Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında Bakıda

mədəni və elmi əməkdaşlıq haqqında saziş imzalandı. 1996-cı ildə Rusiya Prezidenti Boris Yeltsinin verdiyi "Rusiyada yaşayan xalqların milli-mədəni muxtariyyəti haqqında" fərman Rusiya dövlətinin həm də Azərbaycana, onun tarixi mədəniyyətinə, mənəvi dəyərlərinə daha yaxından bələd olmaq üçün mühüm bir addım olmuş, eyni zamanda mədəni sahədə əməkdaşlığın gedişinə daha da təkan vermişdir.

Dövrün siyasi proseslərinin öyrənilməsi gostərmişdir ki, 90-cı illərin əvvəllərində mədəni münasibətləri normal məcrada inkişaf etdirmək mümkün olmamış, Rusiya-Azərbaycan mədəni münasibətlərində XX əsrin 90-cı illəri elə bir ciddi irəliləyişlə yadda qalmamışdır. Prezident Heydər Əliyevin 1997-ci il iyul ayında Rusiya Federasiyasına ilk səfəri çərçivəsində "Dostluq, əməkdaşlıq, qarşılıqlı təhlükəsizlik haqqında" müqavilə imzalanması digər sahələrlə yanaşı, iki ölkə arasında müasir mərhələdə strateji tərəfdaşlığın özülünün qoyduğunu göstərir. Rusiya Federasiyasında rəsmi səfərdə olarkən Azərbaycan Prezidenti Heydər Əliyev vurğulamışdır: "Biz Rusiyanı dost ölkə hesab edirik. Rusiya böyük dövlətdir. Biz ötən illər ərzində Rusiya ilə birgə həyatdan çox şey əxz etmişik və bunu yüksək qiymətləndiririk. Biz münasibətləri möhkəmlədəcək və inkişaf etdirəcəyik!" [4; 87, 126-142]. Bütün bunlar getdikcə intensiv və səmərəli fəaliyyət mərhələsinə qədəm qoyan mədəni münasibətlərdən xəbər verir [6;142]. Rusiya Federasiyası və Azərbaycan arasında dostluq əlaqələrinin inkişafında 1997-ci ilin aprel ayının əvvəllərində Azərbaycanda Rusiya mədəniyyəti günlərinin keçirilməsi mədəni əlaqələrin inkişafı istiqamətində atılmış ən mühüm addımlardan olmuşdur. Azərbaycanda Rusiya mədəniyyət günlərinin qarşılıqlı dostluq münasibətlərindən xəbər verdiyini qeyd edən Prezident Heydər Əliyev Azərbaycanda Rusiya mədəniyyəti günləri başlanmasından çox məmnun qaldığımı bildirir və əmin olduğumu söyləyir ki, mədəniyyət günləri uğurla kecəcək, ölkələrimiz, xalqlarımız arasında münasibətlərin daha da inkişaf etməsinə böyük töhfə olacaqdır [3]. Azərbaycanda Rusiya mədəniyyəti günləri bir həftə boyunca davam etmiş və Rusiya incəsənət ustalarının maraqlı çıxışları ilə yaddaqalan olmuşdur. Mədəniyyət günləri çərçivəsində tədbirlər təkcə Bakıda deyil, Azərbaycanın ayrı-ayrı bölgələrində-Naxçıvan, Gəncə, Sumqayıt, Şəki və Lənkəranda da baş tutmuşdur. Bir həftə davam edən Rusiya Federasiyasının mədəniyyət günləri aprelin 6-da Respublika sarayında Rusiya incəsənət ustalarının konserti ilə yekunlaşmışdır [2].

Məlumdur ki, mədəniyyət sahəsində, xalqlar arasında qarşılıqlı yaxınlaşmada rəsmi nümayəndələrin gediş-gəlişi, imzalanmış qərar və layihələr mühüm əhəmiyyətə malik olmuşdur. 1998-ci ildə imzalanmış bir sıra mühüm sənədlər də Azərbaycan-Rusiya mədəni münasibətlərinin inkişafından xəbər verirdi. Elə eyni ildə imzalanmış Sankt-Peterburq və Bakı arasında razılaşma da bu qəbildən olmuş vərazılaşmaya əsasən, Sankt-Peterburq şəhərində Nizami Gəncəvinin heykəlinin ucaldılması nəzərdə tutulmuşdur. Yuxarıda da qeyd etdiyimiz kimi, xalqların bir-birinə yaxınlaşması, onların arasında səmimi dostluğun qurulmasında mədəni əlaqələrin, milli dəyələrə qarşılıqlı hörmətin rolu xüsusi əhəmiyyət kəsb edir. Bəzi hallarda siyasətin və iqtisadiyyatın görə bilmədiyi missiyanı xalqların ədəbiyyatı və musiqisi daha böyük uğurla yerinə yetirir. Bu baxımdan Azərbaycan paytaxtı Bakıda A.S.Puşkinin, Rusiyanın mədəniyyət mərkəzi Sankt-Peterburqda Nizami Gəncəvinin heykəllərinin təntənəli açılışı böyük əməkdaşlıqdan xəbər verir və bu mədəni əməkdaşlıq indi də davam etməkdədir... [6;3-8]. Azərbaycan-Rusiya mədəni münasibətlərinə cavab olaraq Heydər Əliyev ölkəmizdə Puşkinə olan hörməti, onun əsərlərinə olan münasibəti yüksək qiymətə layiq olduğunu qeyd edərək bildirmişdir: "Mən minnətdaram ki, burada, Moskvada tez-tez Azərbaycan mədəniyyəti günləri, həm də Moskva mədəniyyəti günləri keçirilir. Bundan əlavə, ümumiyyətlə, respublikamıza Rusiya Federasiyasının mədəniyyət xadimləri doğma yaxın adamlar kimi tez-tez gəlirlər. Bizimkilər də buraya tez-tez gəlirlər. Bütün bunlar tamamilə təbiidir və mən belə hesab edirəm ki, münasibətlərimizin möhkəmlənməsi və inkişafı üçün mühüm amillərdir..." [3].

1998-ci ildə fevralında hər iki xalqın mədəni münasibətlərini həyata keçirən "Azərbaycan-Dağıstan Dostluq Cəmiyyəti" yaradılmışdır. Cəmiyyətin əhəmiyyətini nəzərə alaraq təsis konfransına Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev təbrik məktubu ünvanlamışdır. Belə bir cəmiyyətin yaranması və fəaliyyəti Rusiya Federasiyasının Azərbaycanla o cümlədən Dağıstan Respublikası ilə mədəni əlaqələrinin dinamik inkişafına təkan vermişdir.

XXI əsrin ilk illərində mədəni münasibətlər daha da yüksələn xətlə inkişaf etmişdir. Artıq iki ölkə arasında mədəni əməkdaşlığın inkişafı istiqamətində daha əməli addımlar atılmağa başlandı.

Rusiya-Azərbaycan mədəni münasibətlərinin davamı kimi 23 aprel 2002-ci ildə Azərbaycan Dövlət İncəsənət Muzeyində Rusiyanın məşhur muzeylərinin-Dövlət Keramika və "XVIII əsrin Ksukova malikanəsi"nin, həmçinin Tver bədii qalereyasının kolleksiyaları əsasında "XVIII-XX əsrlərin rus incəsənəti" adlı sərgi açılması xüsusilə yaddaqalan olmuşdur.

Məlumdur ki, Azərbaycan Respublikasında rus dilində çoxsaylı qəzet, jurnal, elmi-kütləvi ədəbiyyat buraxılır, müəyyən verilişlər hazırlanır. 1997-ci il 3 iyulda Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında İnformasiya-mədəniyyət Mərkəzlərinin təsis edilməsi və fəaliyyətinin şərtləri haqqında saziş imzalandı.2001-ci ilin avqust ayında Ulyanovsk vilayəti və Azərbaycan Respublikası Teleradio verilişləri şirkəti ilə birlikdə Azərbaycan mədəniyyətinə həsr edilmiş teleşou və tamaşalar hazırlanaraq göstərilmişdir [2]. 2004-cü il 6 fevralda Moskvada Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyi (AzərTAc) ilə Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlıq haqqında sazişin imzalanması informasiya əməkdaşlığının daha yaxşı təşkilinə şərait yaratmışdır.

"2004-2006-cı illər üzrə humanitar sahədə imzalanan əməkdaşlıq Proqramı" və "2007-2009-cu illər üzrə humanitar sahədə əməkdaşlıq proqramı" uğurla icra olunmuş və proqram çərçivəsində qarşılıqlı bir çox layihələrə imza atılmışdır.

2005-ci ilin Rusiyada Azərbaycan ili kimi qeyd olunması iki ölkə arasında mədəni əməkdaşlığın inkişafı baxımından böyük hadisə hesab oluna bilər. 2005-ci il 16 fevral tarixində Dövlət Kreml Sarayında Azərbaycan Respublikası və Rusiya Federasiyası Prezidentləri İlham Əliyev və Vladimir Putinin iştirakı ilə Rusiyada Azərbaycan ilinin təntənəli açılış mərasimi baş tutdu, keçirilən tədbirlər çərçivəsində Rusiyada Azərbaycan mədəniyyəti və incəsənəti yüksək səviyyədə təqdim olundu.

2006-cı il isə Azərbaycanda Rusiya ili kimi qeyd olunmuşdur. 2006-cı il 21 fevral tarixində Heydər Əliyev Sarayında Azərbaycan Respublikası və Rusiya Federasiyası Prezidentləri İlham Əliyev və Vladimir Putinin iştirakı ilə Azərbaycanda Rusiya ilinin təntənəli açılış mərasimi keçirildi. Rusiya mədəniyyətinin Azərbaycanda tanıdılması istiqamətində keçirilən tədbirlərə ölkəmiz yüksək səviyyədə ev sahibliyi etmişdir.

16-18 aprel 2007-ci il tarixlərində Moskvada növbəti dəfə Azərbaycan mədəniyyəti günləri baş tutmuşdur.

2009-cu il 30 iyun tarixində Moskvada İttifaqlar evinin Sütunlu zalında Azərbaycan mədəniyyət günlərinin açılışı mərasimi keçirildi. Tədbirdə Azərbaycan Respublikasının Mədəniyyət və turizm naziri Əbülfəz Qarayevin başçılıq etdiyi nümayəndə heyəti iştirak edirdi. Mədəniyyət günləri daha sonra 2 iyul tarixində Kazan şəhərində davam etdirildi və Azərbaycan mədəniyyətin Rusiyada geniş miqyaslı təbliği aparıldı [7].

23-24 sentyabr 2009-cü il tarixlərində isə Azərbaycanda Rusiya Federasiyasının mədəniyyət günləri keçirildi.

2011-ci il 17 may tarixində Moskvada Dövlət Kreml Sarayında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümünə həsr edilmiş təntənəli mərasimin keçirilməsi Rusiyanın Azərbaycan müstəqilliyinə verdiyi dəyəri nümayiş etdirdi. Mehriban Əliyeva öz çıxışında Rusiyanın Azərbaycan üçün əhəmiyyətli əməkdaş olmasını bir daha vurğulamışdır.

2011-ci il 19 oktyabr tarixində M.İ.Rudomino adına Xarici Ədəbiyyat Dövlət Kitabxanasında Azərbaycan Mədəniyyət Mərkəzinin təntənəli açılışı mərasimi baş tutdu. 2012-ci il 23 noyabr tarixində isə M.İ.Rudomino adına Xarici Ədəbiyyat Dövlət Kitabxanasının atriumunda dahi Azərbaycan dramaturqu, filosofu və mütəfəkkiri Mirzə Fətəli Axundovun abidəsinin açılışı mərasimi keçirildi. 2011-ci ildən etibarən Azərbaycan və Rusiya Prezidentlərinin himayəsi altında "Bakı Beynəlxalq Humanitar Forumu" keçirilməsinə başlanıldı. Hər il baş tutan forum əhəmiyyətli mədəni hadisə hesab olunur.

6 may 2013-cü il tarixində Moskvada İttifaqlar Evinin "Sütunlu zal"ında Heydər Əliyevin 90 illiyi münasibətilə səfirlik, Heydər Əliyev Fondunun Rusiya Nümayəndəliyi və Ümumrusiya Azərbaycan Konqresinin birgə təşkilatçılığı ilə yubiley mərasimi və "Heydər Əliyevin sevimli əsərləri" adlı konsert proqramı keçirildi.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Bakıya səfəri çərçivəsində 13 avqust 2013-cü il tarixində "2015-ci ilədək humanitar sahədə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əməkdaşlıq Proqramı" imzalanmışdır. 19 iyun 2014-cü ildə Moskvada Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Rusiya Federasiyasının Mədəniyyət Nazirliyi arasında 2014-2016-cı illər üzrə mədəniyyət sahəsində əməkdaşlıq proqramı imzalandı. 20 iyun 2014-cü il tarixində isə Moskvada dahi Azərbaycan və sovet bəstəkarı, SSRİ xalq artisti Qara Qarayevin yaşadığı binaya xatirə lövhəsinin vurulması ilə əlaqədar təntənəli mərasim keçirilməsi böyük bəstəkara Rusiyada olan böyük sevgidən xəbər verir. 10 aprel 2015-ci il tarixində Moskvada Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Birinci Avropa Oyunlarının təqdimat mərasimi keçirilmiş, Azərbaycanda baş tutan bu böyük mədəni hadisə Rusiya ictimaiyyətinə təqdim olunmuşdur.

Son illər ərzində Rusiyada azərbaycanlı rəssamların (Mikayıl Abdullayev, Tahir Salahov, Rasim Babayev, Fərhad Xəlilov, Sakit Məmmədov, Əşrəf Heybətov, Toğrul Nərimanbəyov, Abbas Kazımov, Arif və Orxan Hüseynovlar, Qeyyur Yunus, Natiq Məmmədov, Məryəm Ələkbərli, Rəşad Mehdiyev və s.) çoxsaylı sərgiləri keçirilmişdir. Xüsusilə vurğulamaq lazımdır ki, ənənəvi incəsənət nümunələri ilə yanaşı, ölkəmizin gənc və istedadlı rəssamlarının konseptual incəsənət növündə yaratdığı əsərləri Moskvanın ən nüfuzlu incəsənət məkanlarında keçirilən tematik sərgilərdə, festival və biennallarda nümayiş etdirilir. Bundan əlavə, ötən illər ərzində Azərbaycanın müasir təsviri incəsənət nümunələrinin geniş şəkildə təqdim olunduğu "FLY TO BAKU" sərgisi, ölkəmizə həsr olunmuş müxtəlif foto-sərgilər keçirilmişdir. Moskvada Azərbaycan musiqiçilərinin iştirakı ilə konsert proqramları ("Qaya" kvartetinin 50 illik yubileyi, ölkəmizin caz ifaçılarının iştirakı ilə "JAZZ.AZ" konserti və s.), teatrlarımızın (Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı, Dövlət Pantomima Teatrı) Rusiyaya qastrol səfərləri baş tutmuş, Rusiya səhnələrində Azərbaycan müəlliflərinin (Polad Bülbüloğlunun "Məhəbbət və Ölüm" baleti, Qara Qarayevin yeni quruluşda səhnələşdirilmiş "Yeddi gözəl" baleti, Fikrət Əmirovun "Min bir gecə" baleti və s.) əsərləri nümayiş etdirilmiş, həmçinin mədəniyyət sahəsində ikitərəfli əməkdaşlığın inkişafına xidmət edən digər çoxsaylı tədbirlər keçirilmişdir.

*Nəticə.* 1991-2020-ci illər ərzində Rusiya və Azərbaycan arasında mədəni sahədə əlaqələrdə yüksək naliyyətlər əldə olunmuşdur. Əlaqələrin inkişafında həm Azərbaycanda, həm də Rusiyada fəaliyyət göstərən, hər iki xalqın mədəni irsinin qorunub saxlanmasında mühüm rolu olan Azərbaycan və Rysiya mədəni və ictimai birlikləri, hər iki dövlətin rəsmi qurum və təşkilatları; həmçinin hər iki ölkənin diasporaları mühüm rol oynayırlar.

## ƏDƏBİYYAT

1.Abdullayev E. Azərbaycan beynəlxalq aləmdə. Bakı, Qanun, 1999, 247 s.
2.Azərbaycanda Rusiya mədəniyyəti günləri //Azərbaycan qəzeti, 1 aprel 1997.
3.Azərbaycan-Rusiya münasibətlərində yeni mərhələ. Rusiya Federasiyasının prezidenti V.Putinin Azərbaycana rəsmi səfəri //Azərbaycan qəzeti,11 yanvar 2001.
4.Azərbaycan-Rusiya münasibətlərində yeni mərhələ. Bakı, Qismət, 2001, 184 s.
5. Azərbaycan-Rusiya münasibətləri yüksələn xətlə inkişaf edir //Respublika qəzeti, 30 mart, 2004.
6. Məmmədov E. Müasir dövrdə Azərbaycan-Rusiya əlaqələri. Bakı, 2014,171s.
7. Moskvada Ocaq cəmiyyətinin 20 illiyi qeyd olunub //525-ci qəzet, 19 mart, 2009.
8. Rusiya Federasiyasında Azərbaycan mədəniyyəti günləri // Xalq qəzeti, 28 yanvar 2002.

**АЙНУРА МАМЕДОВА**
*Преподаватель БакинскогоГосударственного Университета,*
*Д.ф.п.и.*

## КУЛЬТУРНЫЕ СВЯЗИ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ И АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

В стать исследуются основные направления и развития в сфере культурных связей между Российской Федерацией и Азербайджанской Республикой. Статья рассматривает роль основных форм развития Российско-Азербайджанских культурных отношений. Первая харак-

терная форма состоит из роли азербайджанских и российских культурных и общественных объединений, действующих как в Азербайджане, так и в Российской Федерации и сохраняющих культурное наследия обоих народов, а также организации работающих в этом направлении. Вторая характерная форма охватывает систему отношений на уровне официальных ведомств и организаций обеих стран, а также глав государств. В статье также обращается внимание на деятельность диаспор обоих стран.

*Ключевые слова*: Российская Федерация, Азербайджанская Республика, связи, организации, общественные объединения, диаспора.

**AYNURA MAMMADOVA**
*PhD in history, lecturer of Baku State University*

## RELATIONS BETWEEN THE RUSSIAN FEDERATION AND AZERBAIJAN IN THE FIELD OF CULTURE

The article reflects the main directions and development of relations between the Russian Federation and the Republic of Azerbaijan in the field of culture. The article allows us to talk about the significant role of two important forms of Russian-Azerbaijani cultural relations due to their developmental nature: The first characteristic form is the role of Azerbaijani and Russian cultural and public associations operating in both Azerbaijan and the Russian Federation and living the cultural heritage of both peoples, as well as organized in this direction; The second characteristic form covers the system of relations at the level of official departments and organizations of both countries, as well as heads of state. The article also draws attention to the activities of the diasporas of both countries.

*Keywords*: Russian Federation, Republic of Azerbaijan, relations, organizations, public associations, diaspora.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 noyabr2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Abutalıb Cəlilov, t.e.d. Sevinc Əliyeva.*

UOT 94(479.24); UOT 94

**İLHAMƏ ÖMƏROVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası "Tarix" kafedrasının baş müəllimi*
**omarovai@yahoo.com**

# ŞUŞA BƏYANNAMƏSİNİN CƏNUBİ QAFQAZIN REGİONAL TƏHLÜKƏSİZLİYİ ÜÇÜN ƏHƏMİYYƏTİ VƏ RUSİYANIN MARAQLARI

*Elmi məqalə 44 günlük müharibədən sonra Azərbaycan və Türkiyə arasında imzalanan "Şuşa bəyannaməsi"ndən, o cümlədən Rusiya Federasiyasının bu məsələyə münasibətinə həsr olunubdur. Məqalədə imzalanan sənədin Cənubi Qafqazın regional təhlükəsizliyi üçün əhəmiyyəti, Rusiya Federasiyasının məsələyə münasibətinin və maraqlarının öyrənilməsi qarşıya məqsəd olaraq qoyulmuşdur.*

*Tədqiqatlar zamanı sənədin regional təhlükəsizlik üçün əhəmiyyətinin qiymətləndirilməsi məqsədilə imzalanan əvvəlki sənədlərlə müqayisəli təhlili, sənədin mətninin kontent təhlili aparılmışdır. Proseslərə Rusiya Federasiyasının münasibətinin dəqiq şəkildə qiymətləndirilməsi üçün Rusiya Federasiyası rəsmilərinin fəaliyyətinin ivent analizi, onların verdikləri müxtəlif səviyyəli açıqlamaların isə kontent analizi aparılmışdır.*

*Məqalədə gəlinən başlıca nəticə ondan ibarətdir ki, Rusiyanın həyati maraq zonasına aid etdiyi Cənubi Qafqazda Türkiyənin mövqeyini gücləndirən belə bir sənədin imzalanmasında rəsmi Moskvanı narahat edən bir sıra məqamlar olmuşdur. Lakin müəyyən geosiyasi proseslər və bölgədə yaranan yeni şərait, Türkiyə amili bəzi məsələlərdə Rusiyanın kəskin reaksiya verməsinin qarşısını almış, lakin bununla bərabər proseslərə təsir imkanlarını qorumaq üçün Rusiya Federasiyası tərəfindən də müəyyən addımlar atılmışdır.*

*Açar sözlər*: Şuşa bəyannaməsi, Azərbaycan, Türkiyə, Rusiya, post-münaqişə, geosiyasi proseslər.

*Giriş*. 2020-ci ilin sentyabr-noyabr ayları ərzində baş verən və Azərbaycan Respublikası ərazilərinin Ermənistanın işğalından azad edilməsi ilə nəticələnən müharibə regionda yeni geosiyasi şəraiti formalaşdırdı. Azərbaycanın yaratdığı yeni geosiyasi reallıq Cənubi Qafqazda marağı olan dövlətlərin regiona təsir imkanları və vasitələrində də dəyişikliklərə gətirib çıxardı. XX əsrin 90-cı illərindən etibarən Cənubi Qafqaza yenidən regional geosiyasi güc mərkəzi kimi qayıdan Türkiyənin mövqeyi daha da gücləndi.

Bölgəni özünün yaxın təhlükəsizlik zonasına aid edən Rusiya müharibənin sonuna yaxın Qafqazı özünün həyati maraq zonasına aid etdiyini bir daha göstərdi. Belə ki, hər zaman Cənubi Qafqazda Rusiyanın forpostu rolunu oynayan işğalçı Ermənistanı labüd və daha ağır məğlubiyyətdən xilas etdi.

Geosiyasi proseslər səbəbindən Rusiya-Türkiyə yaxınlaşması bölgədə marağı olan digər aktorların təsir imkanlarını, nüfuzunu xeyli zəiflətdi. 44 günlük müharibə dövründə Türkiyənin proseslərdə fəal diplomatik-siyasi iştirakı Azərbaycan, Rusiya və Ermənistan dövlət rəhbərləri tərəfindən imzalanmış üçtərəfli bəyanatda da öz əksini tapdı. Azərbaycanın dövlət başçısı İlham Əliyev xalqa müraciətində bu məqama toxunaraq Türkiyənin rəsmi şəkildə atəşkəsə nəzarət edəcək mərkəzə cəlb edilməsinin böyük əhəmiyyətinin olduğunu qeyd etmişdi *[6]*. Bu məqamı bəzi təhlilçilər Türkiyənin Cənubi Qafqazdakı varlığının Rusiya tərəfindən təsdiqi kimi qiymətləndirirlər [3, s.68]. 2020-ci il noyabrın 10- da Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanatdan sonra regional təhlükəsizliyə dair bir sıra digər sənədlərin imzalanması zərurəti ortaya çıxdı.

*Azərbaycan-Türkiyə əməkdaşlığına dair imzalanan "Şuşa Bəyannaməsi" nə baxış*. Cənubi Qafqazda Rusiya və Türkiyənin maraqlarının digər maraqlı güclərə qarşı üst-üstə düşməsi sonuncu dəfə XX əsrin 20-ci illərində baş vermişdi. O zaman, Türkiyə Böyük Millət Məclisi hökuməti və Ru-

siya Sovet Sosialist Respublikası arasında 1921-ci ilin martında imzalanan Moskva müqaviləsi regiona münasibətdə bu iki dövlətin münasibətlərini müəyyənləşdirmişdisə [4, s.25-31], həmin ilin oktyabrında imzalanan Qars müqaviləsi daha çoxtərəfli bir anlaşma idi, beynəlxalq xarakter daşıyırdı və Cənubi Qafqaza dair məsələləri daha dəqiq şəkildə tənzimləyirdi. Məlum olduğu kimi, Qars müqaviləsi xüsusən ermənilərin Azərbaycanın Naxçıvan bölgəsinə iddialarının qarşısının alınmasında, həmçinin Batum və ətraf ərazilərdəki əhalinin hüquqlarının müdafiəsi məqsədi ilə özünüidarənin yaradılması baxımından bu günə qədər mühüm beynəlxalq siyasi əhəmiyyətini qoruyub saxlamaqdadır [5, s.222]. O zaman kifayət qədər çətin vəziyyətdə olan Türkiyə Cənubi Qafqazın Sovet Rusiyasının nüfuz dairəsinə keçməsi ilə razılaşmalı olsa da, bir çox ərazilərin, o cümlədən Azərbaycanın Naxçıvan bölgəsinin təhlükəsizliyinin təmin edilməsi, eləcə də onun əbədi olaraq Azərbaycanın himayəsi altında təsbit olunması ilə bağlı müddəalarının müqavilədə əksini tapmasına nail ola bilmişdi. Bu baxımdan bölgəyə hər hansı kənar müdaxilənin olacağı təqdirdə onu müdafiə etmək hüququnu Moskva və Qars müqavilələrinə əsasən özündə saxlamaqla Türkiyə böyük diplomatik qələbə qazanmışdı. Bu, Türkiyə, Qafqaz və Mərkəzi Asiya türkçülüyünü bir-birinə bağlayan mühüm strateji mövqeyin qorunması demək idi. Baxmayaraq ki, tarixi Azərbaycan torpaqları olan Zəngəzurun qərb hissəsinin əsassız şəkildə Ermənistan SSR-yə verilməsi ilə birbaşa quru əlaqəsi yenə də kəsilmiş oldu.

Qars müqaviləsi regional təhlükəsizlik baxımından əhəmiyyətli bir sənəd idi. Bu baxımdan 2021-ci il iyunun 15-də AR Prezidenti İlham Əliyev və TC Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ndə məhz Qars müqaviləsinə istinad edilməsi heç də təsadüfi sayılmamalıdır [1].

Ümumilikdə götürdükdə, 2021-ci ilin iyununda TC Prezidenti R.T. Ərdoğanın Şuşaya səfər etməsi, burada rəsmi qarşılanma mərasiminin keçirilməsi nəinki Azərbaycanın, ümumilikdə Cənubi Qafqazın, Türk dünyasının tarixində yeni bir dönəmin başlanğıcı hesab edilə bilər [7; 9].

Şuşa bəyannaməsi hüquqi əhəmiyyətli bir sənəd olmaqla özündən əvvəl imzalanmış 4 mühüm sənədə əsaslanırdı. Yuxarıda da qeyd etdiyimiz kimi, ilk sənəd 1921-ci ilin oktyabr ayının 13-də imzalanmış Qars müqaviləsi idi. Tərəflər imzalanan bu sənədə sadiq olduqlarını ifadə edirdilər. Bu həm də 2021-ci ilin oktyabrında imzalanmasının 100 ili tamam olan beynəlxalq müqavilənin bir daha təsdiqlənməsi və gündəmə gətirilməsi idi.

Azərbaycan Respublikasının müstəqilliyini bərpa etməsindən sonra imzalanmış və ikitərəfli əlaqələri yeni səviyyələrə yüksəldən üç sənəd isə rəhbər sənədlər olaraq bəyannamədə qeyd olunmuşdu. Bunlardan birincisi 1994-cü il fevralın 9-da imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə", ikincisi isə "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol" idi. İki ölkəni hüquqi olaraq strateji tərəfdaşa çevirən 2010-cu il avqustun 16-da imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə" isə bəyannamədə adı çəkilən və rəhbər tutulan sonuncu sənəd idi [1].

Şuşa bəyannaməsinin şərhi və regional təhlükəsizlik perspektivləri. "Şuşa bəyannaməsi"ndə işğaldan azad edilmiş və iki dövlətin başçılarının görüşünün keçirildiyi Şuşa şəhərinin Azərbaycanın və bütövlükdə türk dünyasının qədim mədəniyyət beşiyi olduğu bəyan edilir, burada keçirilən görüşün tarixi əhəmiyyəti vurğulanırdı.

Sənəddə Türkiyə və Azərbaycan respublikaları beynəlxalq hüququn prinsip və normalarına, eləcə də BMT-nin nizamnaməsinə uyğun şəkildə dünyada və bölgədə sülh, sabitlik və təhlükəsizliyin təmin olunmasında ortaq səylərin davam etdirilməsinin mühüm əhəmiyyətə malik olduğunu bəyan edirdilər. Bəyannamədə Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ikitərəfli əlaqələrə dair söylədikləri tarixi fikirlərə istinad edilir, bu ifadələr hər iki qardaş xalqın mənəvi irsinin qiymətli bir hissəsi kimi dəyərləndirilirdi. Bəyan olunurdu ki, Azərbaycan apardığı ədalətli müharibə nəticəsində 30 ildən bəri davam edən ədalətsizliyə, Ermənistanın işğalçılıq siyasətinə son qoyulmuş, əraziləri azad edilmiş, beynəlxalq hüququn və qəbul edilmiş sənədlərin icrası təmin edilmişdir [1].

Bu fəaliyyətlərin həyata keçirilməsində Türkiyənin Azərbaycana verdiyi mənəvi-siyasi dəstək bəyannamədə xüsusi vurğulanırdı. Müharibədən sonrakı dövrdə bu dəstəyin əməli-praktiki səviy-

yələrdə davam etdirilməsi zərurətinə toxunulur və yazılırdı ki, Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasının erməni işğalından azad edilmiş bölgələrində Rusiya ilə birlikdə yaradılmış mərkəzin fəaliyyətinə verdiyi töhfə bölgədə sabitliyin təmin olunmasında əhəmiyyətli rol oynayacaq, inkişafa, tərəqqiyə töhfələr verəcəkdir. Tərəflər müttəfiqlik əlaqələrinin qurulmasının leqal və siyasi mexanizmlərini müəyyən edərkən dövlətlərin suverenlik, müstəqillik, ərazi bütövlüyünün toxunulmazlığı, beynəlxalq səviyyədə tanınan sərhədlərin icrası, daxili işlərə qarışmamaq prinsiplərini rəhbər tutacaqlarını bəyan edirdilər [1].

Hər iki ölkənin öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirdikləri, beynəlxalq və regional miqyasda sabitlik və inkişaf vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan dövlətlərarası münasibətlərin inkişaf etdirilməsi, eləcə də konfliktlərin, dünyanı və regionu narahat edən təhlükəsizlik məsələlərinin həlli istiqamətində ortaq mövqedən çıxış edəcəkləri qeyd olunmuşdu. Türkiyə və Azərbaycan bundan sonrakı mərhələdə də qarşılıqlı maraq doğuran beynəlxalq məsələlərdə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirəcəklərini, uzlaşdırılmış mövqedən çıxış etməklə əməkdaşlığı dərinləşdirəcəklərini bəyan edirdilər. Xüsusən, BMT, ATƏT, AŞ, TDƏŞ, İƏT çərçivəsində qarşılıqlı dəstək və əməkdaşlıq əhəmiyyətli məqamlar kimi qeyd olunurdu [1].

Sənəddə diqqəti cəlb edən başlıca cəhət hərbi və təhlükəsizlik məsələləri ilə bağlıdır. Əslində bu maddə gələcək perspektivdə regionda marağı olan dövlətlərin, o cümlədən, Rusiyanın Azərbaycanda hərbi hərəkət imkanlarını məhdudlaşdırırdı. Belə ki, tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Azərbaycan və Türkiyə birgə məsləhətləşmələr həyata keçirəcək, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olaraq addımlar atacaq, qarşılıqlı zəruri yardım göstərəcəklər. Belə şəraitdə iki ölkənin silahlı qüvvələrinin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulurdu [1]. Azərbaycanın və Türkiyənin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, tərəflərin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin həyata keçirilməsi də bəyannamədə əksini tapan mühüm məqamlardan idi. İki ölkə ordularının çağdaş şərait və standartlara uyğun olaraq yenidən formalaşdırılması, modernləşdirilməsi istiqamətində birgə səylərin davam etdirilməsi nəzərdə tutulurdu. Müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyətin mübadiləsi, birgə təhsil və təlimlərin keçirilməsi, silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlıq və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi də bəyannamədə vurğulanırdı [1].

Sənəddə Azərbaycan və Türkiyənin digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsinə dəstəyi ifadə olunurdu. Bu da kifayət qədər diqqəti cəlb edən məsələdir. Məlum olduğu kimi, Türkiyə-Azərbaycan-Gürcüstan formatında bu istiqamətdə məsləhətləşmələr və müəyyən fəaliyyətlər əvvəlki dövrlərdə keçirilmişdi [8, s.130-131]. Başqa bir məsələ Pakistan, İsrail kimi dövlətlərlə ortaq hərbi təlimlər ola bilərdi. Eyni zamanda bölgə dövlətlərinin ordularının tam NATO standartlarına uyğunlaşdırılması istiqamətində müəyyən addımlar atılacağı da istisna edilmir.

Şuşa bəyannaməsində Azərbaycan və Türkiyə milli və dövlətlərarası öhdəlikləri, beynəlxalq razılaşmaları əsas götürməklə su sahəsində, aerosektorda, eləcə də kosmik sahədə qarşılıqlı olaraq texniki imkanlarla bağlı təcrübələrini bölüşməsini, texnoloji mübadiləni həyata keçirmələrini, müştərək qabiliyyətlərin inkişaf etdirilməsini nəzərdə tuturdu. Bu məqsədlərlə ortaq proyektlərin reallaşdırılmasını təşviq etmək, qarşılıqlı olaraq müdafiə sənayesi texnologiyalarının inkişafına töhfələr bəxş etmək, sahib olduqları müxtəlif hərbi vasitələrlə təchiz etmək, onların istehsal edilməsi ilə bağlı texnoloji bilikləri və imkanları qarşılıqlı şəkildə paylaşmaq, ortaq araşdırma və istehsalat fəaliyyətlərinin gerçəkləşdirilməsi, iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsini dəstəkləmək əzmində olduqlarını bəyan edirdilər. Türkiyə və Azərbaycan arasında bu əməkdaşlığın, xüsusən hərbi-siyasi sahədəki əməkdaşlığın üçüncü dövlətlərə qarşı yönəlmədiyi də xüsusilə qeyd olunmuşdur

[1]. Məqsəd, sadəcə olaraq, müxtəlif dövlətlərin işğalçılıq və təcavüzkarlıq siyasətinə son qoymaq, hərbi vasitələrdən siyasi təzyiq aləti kimi böyük güclərin istifadə etməklərinin qarşısını almaq idi.

Şuşa bəyannaməsində kibertəhlükəsizlik sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanır, bu sahədə ortaq elmi tədqiqatların aparılması, mütəxəssis hazırlığının həyata keçirilməsi, qarşılıqlı texniki əməkdaşlığın təşviqi məsələlərinə də toxunulurdu.

Azərbaycan və Türkiyə ticarət-iqtisadi əlaqələrdə milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə ortaq istehsalın qurulması, sərmayələrin yatırılması üçün daha əlverişli şəraitin inkişaf etdirilməsi istiqamətində səylərini gücləndirəcəklərini bəyan edirdilər. Bunun üçün Azərbaycan və Türkiyə mallarının sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər görülməsi nəzərdə tutulurdu. Bu Azərbaycan-Türkiyə ittifaqının gələcəkdə regionun digər ölkələri və türk dövlətləri üçün də vacib cazibə mərkəzinə çevrilməsini təmin edə bilərdi.

Sənəddə bölgənin və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qaz mənbə və marşrut şaxələndirilməsini təmin edən strateji Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Türkiyə və Azərbaycanın qabaqcıl rolu qeyd edilirdi. Azərbaycan və Türkiyə bu enerji dəhlizinin səmərəli istifadə olunması və daha da inkişaf etdirilməsi üçün səylərini davam etdirəcəkdilər. Tərəflər dünya enerji bazarlarındakı prosesləri nəzərə alaraq bölgənin enerji təchizatı təhlükəsizliyinin gücləndirilməsi üçün əməkdaşlığa töhfə verəcək səylərin artırılaraq davam etdirilməsi niyyətlərini ifadə edirdilər.

Bəyannamədə Azərbaycan və Türkiyənin ərazisindən keçən Şərq-Qərb/Orta beynəlxalq nəqliyyat koridorunun rəqabət qabiliyyətinin gücləndirilməsi məqsədilə qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi niyyətləri bəyan olunurdu. İki ölkə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat koridorlarının Azərbaycan - Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirəcəkdilər. Tərəflər iki ölkəni birləşdirən Azərbaycanın qərb bölgələri ilə Naxçıvan MR arasında koridorun (Zəngəzur dəhlizi) açılmasının və bunun davamı olaraq Naxçıvandan Qarsa uzanan dəmiryolunun inşa edilməsinin Türkiyə ilə nəqliyyat-kommunikasiya əlaqələrinin daha sıx xarakter almasına mühüm töhfə verəcəyini qeyd edirdilər [1]. Bu, eyni zamanda, Rusiyanın da maraqlarına cavab verirdi. Bu cür şəbəkənin genişlənməsi Rusiya məhsullarının daha təhlükəsiz və ucuz şəkildə Aralıq dənizi sahillərinə çıxmasını təmin edə bilərdi.

Sənəddə Türkiyə və Azərbaycan arasında münasibətlərin indiki miqyasının və səviyyəsinin həm bölgədəki, həm də dünyadakı sülh və inkişafa ərməğanlar verdiyi, əlaqələrin, ancaq iki dövlətə deyil, paralel olaraq regiona sülh və inkişafı gətirməklə başda region ölkələri olmaqla beynəlxalq birliyin sabitlik, sülh və maraqlarına xidmət edəcəyi vurğulanırdı. İki ölkə bölgə və dünyada sabitliyə və təhlükəsizliyə mənfi təsir göstərən müxtəlif təhdidlərin, xüsusən terrorizmin müxtəlif formalarına, təzahürlərinə, maliyyələşdirilməsinə, eləcə də kütləvi qırğın silahlarının yayılmasına, transmilli cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotik maddələrin qeyri-qanuni dövriyyəsinə, insan alverinə, illeqal köçlə mübarizə sahəsində ortaq səyləri və əməkdaşlığı genişləndirmək və dərinləşdirmək niyyətlərini də sənəddə ifadə etmişlər. Sənəddə, həmçinin, Türkiyə Cümhuriyyətinin uzun illər ərzində əziyyət çəkdiyi terrorçuluğa qarşı mübarizədə Azərbaycan Respublikasının dəstəyi ifadə edilmişdi. Belə ki, Türkiyənin suverenliyinə, torpaq bütünlüyünə, beynəlxalq səviyyədə təsbit edilmiş sərhədlərinin toxunulmazlığına qarşı bütün təhdidlər Azərbaycan Respublikası tərəfindən pislənilir. Azərbaycan tərəfi terrorizmin müxtəlif forma və təzahürlərinə qarşı mübarizədə qardaş dövlətin yanında olduğunu qətiyyətlə bəyan edirdi [1].

Bəyannamədə dünyanın ayrı-ayrı ölkələrində yaşayan Azərbaycan və türk icmaları, diaspor təşkilatları arasında əməkdaşlığın daha da dərinləşdirilməsi, onların qarşılaşdıqları ümumi problemlərin həll edilməsi məqsədi ilə birgə işlərin həyata keçirilməsi və müntəzəm həmrəyliyin nümayiş etdirilməsindən ötrü səylərin birləşdiriləcəyi qeyd edilmişdi. İki ölkə milli məqsəd və mənafelərin mühafizəsi ilə əlaqədar olaraq tarixi gerçəkliklərin qlobal ictimaiyyətə doğru şəkildə təqdim edilməsi üçün diaspor fəaliyyətinin əlaqələndirilməsini və qarşılıqlı dəstəkləmə siyasətlərini bəyan edirdilər. Bu baxımdan ümumdünya erməni diasporunun və işğalçı Ermənistanın türklərə və Türkiyəyə qarşı heç bir əsası olmayan qondarma iddialarının, tarixi hadisə və proseslərin, faktların dəyişdirilməsi, siyasiləşdirilməsi, təhrif edilməsi cəhdlərinin bölgədə sabitliyə və sülhün davamlılığına zərbə vurduğuna diqqət cəlb edilir, bu baxımdan 1915-ci il olayları ilə bağlı olan arxivləri açan Türkiyənin

Ermənistanda, eləcə də başqa dövlətlərdəki arxivlərin açılmasına və bu istiqamətdə tarixçilər tərəfindən tədqiqatların aparılmasına istiqamətlənmiş səylərinə qətiyyətli dəstək ifadə olunurdu.

Sənəddə Azərbaycan və Türkiyənin müvafiq strukturları arasında kommunikasiya və informasiya sahələrində əməkdaşlığın gücləndirilməsi zərurətindən bəhs edilmiş, ictimai diplomatiya məsələlərinə toxunulmuşdu. Bu barədə yazılırdı: "Tərəflər 10 dekabr 2020-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu"na uyğun olaraq Azərbaycan-Türkiyə Media Platformasının imkanları nəzərə alınmaqla, iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahələrində əməkdaşlığı daha da gücləndirəcəklər və bu çərçivədə xarici işlər nazirlikləri arasında davamlı olaraq informasiya üzrə sıx məsləhətləşmələr və mübadilələr həyata keçiriləcəkdir" [1].

İki ölkənin müxtəlif siyasi institutları arasında əlaqələrin inkişafının münasibətlərin daha da intensivləşməsinə xidmət edəcəyi diqqətə alınaraq parlamentlərarası əməkdaşlıq məsələlərinə də sənəddə toxunulmuşdu.

Azərbaycan və Türkiyə xalqlarının ortaq tarixi köklərini, dəyərlərini əsas götürərək tarixən yaradılmış irsin, mədəni mirasın mühafizəsi üçün ortaq fəaliyyətlər gerçəkləşdirmək niyyətlərini də ifadə edirdilər. Sənəddə türk dünyasının birliyinə, bərabərliyinə, inkişafına təkan verəcək səylərin daha da gücləndirilməsinin vacibliyi vurğulanır, türk xalqlarının ortaq mədəni mirasının qlobal miqyasda tanıdılması, təbliği istiqamətində birgə əməkdaşlığı gücləndirəcəklərinə dair iradə ortaya qoyulurdu və yazılırdı: "Tərəflər Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər" [1].

Sənəd imzalandıqdan sonra prezidentlər mətbuata birgə bəyanatlarla çıxış etdilər. Azərbaycanın dövlət başçısı İlham Əliyev nitqində sənədin əlaqələri ən yüksək səviyyəyə qaldırdığını qeyd etmiş, burada göstərilən müddəaların Azərbaycan və Türkiyənin gələcək əməkdaşlığının təminatçısı olduğunu bəyan etmişdi [2].

TC prezidenti R.T. Ərdoğanın nitqində yer alan fikirlə bölgədə marağı olan dövlətlərə, o cümlədən Rusiya Federasiyasına yenidən çağırış edilirdi. Türkiyənin dövlət başçısı öz nitqində qeyd edir ki, müharibənin dayandırılmasından sonra regiondakı bütün ölkələr üçün yeni dövr başlamışdır, əməkdaşlıq üçün imkanlar vardır. O, irəli sürülən altılıq platformasının əhəmiyyətinə də toxunaraq qeyd edir ki, bu format Rusiya, Türkiyə, İran + Azərbaycan, Ermənistan, Gürcüstanı əhatə edir. Belə bir təklifin irəli sürülməsində başlıca məqsədin regionda sülhün yaradılması olduğunu vurğulayan Ərdoğan bunun üçün Azərbaycan və Türkiyənin siyasi rəhbərliklərinin hər cür fədakarlığa hazır olduqlarını bildirdi. O, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin də belə fədakar addımlar atmağa hazır olduğunu diqqətə çatdırdı. Məhz, bu istiqamətdə addımların Cənubi Qafqazı sülhə və sabitliyə qovuşduracağını dedi [2].

*Rusiyanın Cənubi Qafqazdakı maraqları və bəyannaməyə münasibəti*. Aparılan təhlillərdən göründüyü kimi, sənəddə Rusiyanı da maraqlandıran məqamlar var. Bəyannamənin imzalanmasından sonra Rusiya dövlət başçısı Vladimir Putin tərəfindən bununla bağlı konkret açıqlama verilməsə də Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın şərhi Rusiyanın bölgədəki prosesləri diqqətlə izlədiyini göstərirdi. Şərhdə qeyd olunurdu ki, Rusiya Azərbaycanın və ya Ermənistanın üçüncü tərəflərlə ikitərəfli münasibətlərini Qarabağ məsələsi ilə qarışdırmağı düzgün hesab etmir. M.Zaxarovanın fikrincə, regionda ikitərəfli əlaqələr, o cümlədən hərbi əlaqələr başqa ölkələrə qarşı qurulmamalıdır. Moskva Bakı ilə İrəvan arasında dialoqun normallaşmasına yönəlmiş bütün addımları dəstəkləyir. O, həmçinin əlavə etdi ki, Cənubi Qafqazda əməkdaşlıq mehriban qonşuluq prinsipləri əsasında və təbii ki, bütün region ölkələrinin maraqlarını nəzərə almaqla inkişaf etməlidir [11].

Bu açıqlama bir çox regional və qlobal məsələlər münasibətdə Türkiyə ilə oxşar mövqedən çıxış etmələrinə baxmayaraq 2021-ci ilin iyununda imzalanan Şuşa Bəyannaməsində Rusiyanı kifayət qədər narahat edən məqamların olduğunu göstərirdi. Bu, uzun zaman sonra Türkiyənin bölgədə nüfuzunu və varlığını kifayət qədər gücləndirən sənəd idi. Digər tərəfdən Rusiyanın gələcək perspektivdə Azərbaycana təzyiq imkanlarını azalda bilərdi. Bu baxımdan Rusiya həm də bu tipli

sənədlərin və əməkdaşlığın gələcəkdə regionun digər respublikaları üçün də cazibə mərkəzinə çevrilə biləcəyini qiymətləndirirdi. Digər bir tərəfdən, Türkiyə Prezidentinin Brüsseldə keçirilən NATO zirvə toplantısı başa çatdıqdan dərhal sonra 2021-ci il iyunun 15-də birbaşa Azərbaycan Respublikasına səfər etməsi, bu səfər zamanı belə bir sənədin imzalanması da Rusiya üçün kifayət qədər narahatlıq doğuran amil idi. İki ölkənin siyasi liderləri arasında etimad mühitinin mövcud olmasına baxmayaraq Rusiya Türkiyənin NATO üzvü olduğunu unutmur və məsələnin bu kontekstdən dəyərləndirməsini də aparır.

Şuşa Bəyannaməsinin imzalanmasından sonra Azərbaycanda Türkiyənin hərbi bazalarının yaradılmasına dair verilən mesajlara və başlanan müzakirələrə isə Rusiya tərəfi rəsmi səviyyədə açıqlama olmadığı üçün təmkinli yanaşmağa çalışırdı. Rusiya Xarici İşlər Nazirliyinin bəyannamənin imzalanması ilə əlaqədar şərhindən bir gün sonra iyunun 18-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov bu barədə sualı cavablandırarkən belə məlumatların hələlik şayiə şəklində olduğunu bildirmiş və demişdi ki, biz bu məsələni müzakirə etməmişik və şayiələrə münasibət bildirmirik. [10].

Sənəddə Azərbaycan və Türkiyənin digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsi məsələsinin qeyd edilməsi də Rusiya üçün maraqlı məsələlərdən biri idi. Yuxarıda da qeyd edildiyi kimi, Türkiyənin Azərbaycan və Gürcüstanla birgə əməkdaşlıq və təlimlər sahəsində əvvəlki dövrlərdə qazanılmış müəyyən təcrübələri var idi [8, s.130-131]. RF ilə Gürcüstan arasında isə Abxaziya və Cənubi Osetiya məsələlərinə yanaşmadan dolayı bir sıra məsələlər dondurulmuş vəziyyətdə qalmaqda idi. Başqa bir məsələ Pakistan, İsrail kimi ABŞ-a mövqe yaxınlığı ilə seçilən dövlətlərlə ortaq hərbi təlimlər ola bilərdi. Təbii ki, həyati təhlükəsizlik maraqları zonasına daxil etdiyi bölgədə yeni hərbi gücün və ittifaqın meydana çıxması Rusiyanın əvvəlki kimi sərbəst hərəkət imkanlarını məhdudlaşdırırdı. Rusiya Federasiyasının regional əməkdaşlıq məsələlərinə daha konstruktiv şəkildə yanaşmasını diktə edən vəziyyət yaradırdı.

Şuşa bəyannaməsində dünyanın ayrı-ayrı ölkələrində yaşayan Azərbaycan və türk icmalarının ortaq hərəkətinin təmin edilməsi istiqamətində müddəaların olması da Rusiyanın diqqətini cəlb edir. Həmçinin, diaspor təşkilatlarının imkanlarından ortaq istifadə Türkiyənin Rusiyadakı mövqeyini də gücləndirə bilər. Rusiyada böyük bir Azərbaycan diasporunun mövcudluğu buna imkan verir.

Tərəflərin türk dünyasının inteqrasiyası istiqamətində atacaqları addımlara da sənəddə işarə vermələri ərazisində çoxsaylı türk xalqlarının yaşadığı ölkə kimi Rusiya üçün maraq doğurmaya bilməzdi. Əslində Rusiyada bir sıra təhlilçilər müxtəlif illərdə Avrasiya Birliyi ilə bağlı irəli sürdükləri məsələlərdə bu birliyi slavyan və türk xalqlarının birliyi kimi nəzərdən keçirməyi təklif edirdilər.

*Nəticə*. Beləliklə aparılan təhlillər göstərir ki, Rusiyanın həyati maraq zonasına aid etdiyi Cənubi Qafqazda Türkiyənin mövqeyini gücləndirən belə bir sənədin imzalanmasında rəsmi Moskvanı narahat edən bir sıra məqamlar olmuşdur. Lakin müəyyən geosiyasi proseslər və bölgədə yaranan yeni şərait, Türkiyə amili bəzi məsələlərdə Rusiyanın kəskin reaksiya verməsinin qarşısını almış, lakin bununla bərabər proseslərə təsir imkanlarını qorumaq üçün Rusiya Federasiyası tərəfindən də müəyyən addımlar atılmışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi: [Elektron resurs]/AR Prezidentinin saytı. -2021, 16 iyun. URL: https://president.az/articles/52122 [Müraciət tarixi: 13.10.2021].
2. Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. 15.06.2021. // Azərtac. URL: https:azertag.az/xeber/Azerbaycan_ve_Turkiye_prezidentleri_metbuata_birge_beyanatlarla_chixis_edibler__YENILANIB_VIDEO-1807667 [Müraciət tarixi: 13.10.2021].
3. Cahangirli, C.X. Post-konflikt dövründə Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq / C.Cahangirli. –Bakı: Elm və təhsil, -2021. 168 s.
4. Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində). –Naxçıvan: Əcəmi, -2004. -140 s.

5. Hacıyev, İ.M., Kəlbizadə, E.H. Naxçıvan tarixinə dair qaynaqlar /İ.M.Hacıyev, E.H.Kəlbizadə. Naxçıvan: Əcəmi, 2018. -238 s.
6. İlham Əliyev xalqa müraciət edib: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin saytı. -2020, 10 noyabr. URL: https://president.az/articles/45924 [Müraciət tarixi: 13.10.2021].
7. Kaya, E. Türkiye-Azerbaycan İlişkilerinde Yeni Bir Sütun: Şuşa Beyannamesi: [Elektronik kaynak] / ANKASAM, -2021, 16 Haziran. URL: https://www.ankasam.org/turkiye-azerbaycan-iliskilerinde-yeni-bir-sutun-susa-beyannamesi/ [Müraciət tarixi: 13.10.2021].
8. Taşkın, M. Bağımsızlığından sonra Gürcistan-Türkiye ilişkileri /Yüksek lisans tezi. – İzmir, -2006. - 151 s.
9. Veliyev, C. Şuşa Beyannamesi ve Türkiye-Azerbaycan ilişkilerinde yeni ufuklar: [Elektronik kaynak] / Anadolu Ajansı, 2021, 16 Haziran. URL: https://www.aa.com.tr/tr/analiz/susa-beyannamesi-ve-turkiye-azerbaycan-iliskilerinde-yeni-ufuklar/2275640 [Müraciət tarixi: 13.10.2021].
10. Лавров назвал слухами информацию о возможном создании военных баз Турции в Азербайджане : [Электронный ресурс] / ТАСС ИА, -2021,17 июнь. URL: https://tass.ru/politika/11686205 [Müraciət tarixi: 13.10.2021].
11. МИД России прокомментировал Шушинскую декларацию: [Электронный ресурс] / Верелг Нюз, -2021, 17 июнь. URL: https://verelq.am/ru/node/89261 [Müraciət tarixi: 13.10.2021].

**ИЛЬХАМА ОМАРОВА**
*Старший преподаватель кафедры «История»*
*Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ВАЖНОСТЬ ШУШИНСКОЙ ДЕКЛАРАЦИИ ДЛЯ РЕГИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ ЮЖНОГО КАВКАЗА И ИНТЕРЕСОВ РОССИИ

Научная статья посвящена «Шушинской декларации», подписанной между Азербайджаном и Турцией после 44-дневной войны, а также отношению Российской Федерации к этому вопросу. Целью статьи является исследование значения подписанного документа для региональной безопасности Южного Кавказа, отношения и интересов РФ.

В ходе исследования был проведен сравнительный анализ подписанного документа с предыдущими документами и контент-анализ текста для оценки важности региональной безопасности. Для точной оценки отношения РФ к процессам был проведен событийный анализ деятельности официальных лиц. Главный вывод статьи заключается в том, что подписание такого документа, укрепляющего позиции Турции на Южном Кавказе, который Россия считает зоной жизненных интересов, вызвало у официальной Москвы ряд вопросов. Однако определенные геополитические процессы и новые условия в регионе, турецкий фактор не позволили России резко отреагировать на некоторые вопросы, но в то же время РФ предприняла определенные шаги для защиты своей способности влиять на этот процесс.

*Ключевые слова*: Шушинская декларация, Азербайджан, Турция, Россия, постконфликтный период, геополитические процессы.

**İLHAMA OMAROVA**
*Senior Lecturer of the Department "History"*
*of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## THE IMPORTANCE OF THE SHUSHA DECLARATION FOR THE REGIONAL SECURITY OF THE SOUTH CAUCASUS AND RUSSIA'S INTERESTS

The scientific article is dedicated to the "Shusha Declaration" signed between Azerbaijan and Turkey after the 44-day war, as well as the attitude of the Russian Federation to this issue. The signing of this document, of course, attracted the attention of global and regional players, including the Russian Federation. The purpose of the document is to study the importance of the signed document for the regional security of the South Caucasus, the attitude and interests of the RF.

During the current research, a comparative analysis with the previous documents signed to assess the importance of the document for regional security, the content analysis of the text of the document was conducted. In order to accurately assess the attitude of the Russian Federation to the processes, an event analysis of the activities of the officials of the Russian Federation was conducted, and the content analysis of the statements made at various levels was made.

The main conclusion of the article is that the signing of such a document, which strengthened Turkey's position in the South Caucasus, and which Russia considers a zone of vital interest, had a number of points of concern to official Moscow. However, certain geopolitical processes and new conditions in the region, the Turkish factor prevented Russia from reacting sharply on some issues, but at the same time the RF has taken certain steps to protect its ability to influence the process.

*Keywords*: Shusha Declaration, Azerbaijan, Turkey, Russia, post-conflict, geopolitical processes.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 oktyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Firdovsiyyə Əhmədova, t.e.d. Sani Hacıyev.*

**UOT 32:93/94**

**ÜLVİYYƏ ATAŞOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının Baş müəllimi*
**ulviyyaatashova@gmail.com**

**MAİŞAT VƏLİMƏTOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
**maishatvalimatova@gmail.com**

# QLOBAL İQLİM DƏYİŞİKLİYİ VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

*İqlim dəyişikliyi bütün qitələrdəki hər bir ölkəyə təsir edir. Bu, milli iqtisadiyyatları dağıdır, insanlar, cəmiyyət və ölkələrə bu gün, o cümlədən gələcəkdə çox böyük təsir edir. İnsanlar iqlim dəyişikliyinin, həmçinin, dəyişən hava şəraitinin, dəniz səviyyəsinin qalxmasının və daha ekstremal hava hadisələrinin təsirlərinə məruz qalırlar. "İstixana" effekti yaradan qazların emissiyaları iqlim dəyişikliyinə təkan verir və onun sahəsini genişləndirir. İqlim dəyişikliyi hazırda tarixdəki ən yüksək, təhlükəli səviyyəyə çatmışdır. Heç bir tədbir görülməzsə, dünyanın orta səth temperaturunun 21-ci əsrdə 3 dərəcə selsi artacağı ehtimal olunur, dünyanın bəzi ərazilərinin daha çox istiləşəcəyi gözlənilir. Ən zəif və ən həssas insanlar daha çox təsirə məruz qalırlar. İqlim dəyişikliyinin qarşısının alınması, ölkələrin daha təmiz, daha möhkəm iqtisadiyyata keçməsini təmin etmək üçün əlçatan, miqyası tənzimlənə bilən tədbirlər mövcuddur. Dəyişikliyin tempi sürətlənir, çünki daha çox insan alternativ və bərpa olunan enerji mənbələrinə və bir sıra digər tədbirlərə yönəlir ki, bu da emissiyaların azalmasına ,uyğunlaşma səylərinin artmasına səbəb olacaqdır. Lakin iqlim dəyişikliyi milli sərhədlərə məhəl qoymayan qlobal problemdir. Müxtəlif ərazilərdə baş verən emissiyalar dünyanın bütün insanlarına mənfi təsir göstərir. Bu, beynəlxalq səviyyədə koordinasiya və həll edilməli olan bir məsələdir, o cümlədən, inkişaf etməkdə olan ölkələrin aşağı karbonlu iqtisadiyyata doğru keçid etməsinə kömək etmək üçün beynəlxalq əməkdaşlıq tələb edir.*

*Açar sözlər*: Təbii iqlim dəyişikliyi, antropogen iqlim dəyişikliyi, istixana qazları, qlobal istiləşmə, beynəlxalq müqavilələr, qlobal əməkdaşlıq, Paris sazişi.

*Giriş*. Qlobal iqlim dəyişikliyi həm insanlardan qaynaqlanan emissiyanın səbəb olduğu qlobal istiləşməni, həm də bunun nəticəsində hava modellərində özünü göstərən böyükölçülü dəyişiklikləri əhatə edir. Əvvəlki dövrlərdə də iqlim dəyişiklikləri olmasına baxmayaraq, 20-ci əsrin ortalarından bəri insanlar Yer kürəsinin iqlim sisteminə misli görünməmiş dərəcədə təsir göstərmiş və qlobal miqyasda dəyişikliklərə səbəb olmuşdur. Buna görə də İqlim dəyişiklikləri və onların canlı aləmə təsiri dünya birliyini getdikcə daha çox narahat etməkdədir. Qeyri-sabit hava şəraiti dünyanın bir sıra ölkələrində hiss olunmaqda və problemlər yaratmaqdadır. Bu problemlərə diqqətin artması özünü bir sıra beynəlxalq tədbirlərin, o cümlədən elmi və praktiki konfransların keçirilməsində göstərir. İqlim Dəyişmələri üzrə Hökümətlərarası Ekspertlər qrupunun son qiymətləndirmə hesabatına görə son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artıb. Temperaturun artması isə əsasən antropogen amillərlə bağlıdır. Antropogen amillərin əsasını istilik effekti yaradan qazlar: karbon, metan, azot oksidi, və xlor-flüor birləşmələr təşkil edir. Son 100 illik kosmik müşahidələr göstərir ki, tufanların, çovğunların həm intensivliyi, həm də tezliyi artıb. İsti küləklər, qasırğalar, yağıntılar güclənib. Eyni zamanda, sel, daşqın hadisələrinin də sayı artıb. Okeanın səthi əvvəllər 1000 metr dərinliyə qədər qızırdısa, artıq qızma 2000 metr dərinliyə qədər çatır. Bu da isti axınların daha da qızmasına səbəb olur. Yəni bütün bu təbii fəlakətlərin artımında əsas amil iqlim dəyişmələridir [1].

İqlim dəyişikliyinin səbəblərinə görə 2 növü mövcuddur: Təbii və antropogen. Antropogen iqlim dəyişikliyi insanın Yer kürəsinin iqliminə təsiri ilə müəyyən edilsə də, təbii iqlim dəyişikliyi Yerin tarixi boyu baş vermiş və davam edən təbii iqlim dövrləridir.

*Təbii İqlim Dəyişikliyi.*Yerin iqlimi həmişə daxil olan və çıxan enerjinin miqdarı ilə idarə edilmişdir. İnsanların təsiri olmadan Yerdə iqlimi idarə edən təbii dövrlər var. Yerin təbii iqlim dəyişikli-

yinə töhfə verən əsas amillər Yerin günəş ətrafında orbiti, günəşimizdən gələn enerji, okeanın təbii soyuma və isinmə dövrləri və vulkanik fəaliyyətdə daimi dəyişkənlik ilə müəyyən edilir. Bununla yanaşı, təbii iqlim dəyişikliyinin səbəbləri kimi aşağıdakıları da göstərə bilərik:

- Milankovitch dövrləri – Yer Günəş ətrafında hərəkət edərkən, onun yolu və oxunun əyilməsi bir qədər dəyişə bilər. Milankoviç dövrləri adlanan bu dəyişikliklər Yerə düşən günəş işığının miqdarına təsir göstərir. Bu, Yerin temperaturunun dəyişməsinə səbəb ola bilər. Bununla belə, bu dövrələr on və ya yüz minlərlə il ərzində baş verir və çətin ki, bu gün müşahidə etdiyimiz iqlim dəyişikliklərinə səbəb olsun.
- El Nino Cənub Salınması (ENSO) – ENSO Sakit Okeanda suyun temperaturunun dəyişməsi nümunəsidir. «El Nino» ilində qlobal temperatur istiləşir, «La Nina» ilində isə soyuyur. Bu nümunələr qısa müddət ərzində (aylar və ya illər) qlobal temperatura təsir göstərə bilər, lakin bu gün müşahidə etdiyimiz davamlı istiləşməni izah edə bilməz.
- Günəş şüalanması – Günəşdən gələn enerjinin dəyişməsi keçmişdə Yerin istiliyinə təsir göstərmişdir. Ancaq iqlimimizi dəyişdirəcək qədər güclü bir şey hələki baş verməmişdir. Günəş enerjisindəki hər hansı bir artım Yerin bütün atmosferini istiləşdirəcək, lakin biz istiləşməni yalnız alt təbəqədə görə bilərik.
- Vulkan püskürmələri – Vulkanlar iqlimimizə qarışıq təsir göstərir. Püskürmələr Yeri soyudan aerozol hissəcikləri əmələ gətirir, lakin onlar həm də onu istiləşdirən karbon dioksidi buraxırlar. Vulkanlar insanlardan 50 dəfə az karbon qazı istehsal edir, ona görə də bilirik ki, onlar qlobal istiləşmənin əsas səbəbi deyil. Bunun üzərinə vulkan püskürmələrinin dominant təsiri soyutmadır, istiləşmə deyil.

Nəzərə alınmalı başqa bir amil Yerin tarixi boyu baş verən buzlaqların irəliləmələri və geri çəkilmələridir. Son 650.000 ildə təxminən yeddi buz dövrü olmuşdur, ən sonuncusu təxminən 12.000 il əvvəl sona çatmışdır. O vaxtdan bəri Yer, 16-cı əsrdən 19-cu əsrə qədər baş verən kiçik buz dövrü kimi tanınan buzlaq irəliləyişini yaşadı. Bununla belə, Yer kürəsi hələ də bu buzlaq irəliləyişindən irəli gələn təbii istiləşmə prosesindədir və bir çox iqlim dəyişikliyini inkar edənlər səhv olaraq bunun hazırkı iqlim dəyişikliklərinin səbəbi olduğunu iddia edirlər. Təbii iqlim faktorları hazırkı qlobal istiləşməyə müəyyən təsir göstərsə də, insan tərəfindən törədilən amillər daha böyük əhəmiyyətə malikdir.

*Antropogen İqlim Dəyişikliyi* birbaşa yandırılan qalıq yanacaqların miqdarı, aerozolların buraxılması, meşələrin qırılması nəticəsində torpağın dəyişməsi ilə bağlıdır. Qalıq yanacağın yanmasının məhsulu istixana qazının emissiyasıdır. İstixana qazları Yer atmosferindəki istiliyi tutan və onun kosmosa qaçmasını dayandıran qazlardır.

İstixana qazları həm insan, həm də təbii mənbələrdən yaranır. Karbon qazı, metan və azot oksidi kimi qazlar təbii olaraq atmosferdə olur. Digərləri, məsələn, xloroflorokarbonlar (CFCs) yalnız insan fəaliyyəti ilə istehsal olunur.

Günəşdən gələn qısa dalğalı radiasiya Yerə çatdıqda, onun çox hissəsi düz keçərək səthə düşür. Yer bu radiasiyanın çox hissəsini udur və daha uzun dalğalı infraqırmızı şüalar yayır.İstixana qazları birbaşa kosmosa keçmək əvəzinə bu infraqırmızı radiasiyanın bir hissəsini udur. Daha sonra atmosfer bütün istiqamətlərdə radiasiya yayır, onun bir hissəsini yenidən səthə göndərir və planetin istiləşməsinə səbəb olur. Bu proses "istixana effekti" kimi tanınır. İstixana effekti yaşamağımız üçün çox vacibdir. Əslində, istixana qazları olmasaydı, Yer indikindən təxminən 30 dərəcə soyuq olardı. İstixana qazları və onların istiləşmə təsiri olmasaydı, biz sağ qala bilməzdik.

Bununla belə, Sənaye İnqilabından bəri biz havaya getdikcə daha çox istixana qazı buraxırıq və daha çox istilik tuturuq. Yer kürəsini isti, sabit temperaturda saxlamaq əvəzinə, istixana effekti planeti daha sürətli qızdırır. Bu "gücləndirilmiş istixana effekti" adlandırılır və bu, iqlim dəyişikliyinin əsas səbəbidir [2].

İstixana qazlarını müxtəlif yollarla istehsal edirik:

Yanan mədən yanacaqları – Neft, qaz və kömür kimi qalıq yanacaqların tərkibində minlərlə ildir yerin altında "bağlanmış" karbon qazı var. Bunları qurudan çıxarıb yandırdığımız zaman yığılmış karbon qazını havaya buraxırıq.

Meşələrin qırılması – Meşələr atmosferdən karbon qazını çıxarır və saxlayır . Onların kəsilməsi karbon qazının daha tez yığılması deməkdir, çünki onu udmaq üçün ağaclar yoxdur. Nəinki bu, ağacları yandırdığımız zaman saxladıqları karbonu buraxır.

Kənd təsərrüfatı – Bitkilərin əkilməsi və heyvanların yetişdirilməsi havaya müxtəlif növ istixana qazları buraxır. Məsələn, heyvanlar istixana qazı kimi karbon qazından 30 dəfə güclü olan metan istehsal edirlər. Gübrə üçün istifadə edilən azot oksidi on dəfə pisdir və karbon qazından təxminən 300 dəfə güclüdür!

Sement – Sement istehsalı iqlim dəyişikliyinə daha bir «töhvə»dir və bütün karbon qazı emissiyalarının 2%-nə səbəb olur [2].

*İqlim dəyişikliyinin təsirləri.* Son 100 ildə Arktikada orta hava temperaturu təxminən 5°C artıb. Son məlumatlar göstərir ki, yaxın bir neçə onillikdə Arktikada yay vaxtı dənizdə buz örtüyü,demək olar ki, qalmayacaq.

Antarktika buz təbəqəsi yer üzündəki ən böyük buz kütləsidir, yer səthindəki bütün şirin suyun təxminən 90%-ni təşkil edir və təxminən 14 milyon kv/km ərazini əhatə edir. Bu buz dünyanın iqliminə təsir göstərməkdə, günəş enerjisini əks etdirməkdə və qlobal temperaturun tənzimlənməsində mühüm rol oynayır. Qərbi Antarktika yarımadasının hissələri yer üzündə ən sürətlə istiləşən yerlər sırasındadır. Hətta kiçik miqyaslı ərimənin də qlobal dəniz səviyyəsinin yüksəlməsinə əhəmiyyətli təsirləri ola bilər.

Okeanlar həyati əhəmiyyət kəsb edən “karbon yuvaları”dır, yəni onlar böyük miqdarda karbon dioksidi udur və onun atmosferin yuxarı təbəqələrinə çatmasının qarşısını alır. Okeanları daha turşu edən suyun temperaturunun artması və karbon qazının normadan yüksək konsentrasiyasıdır ki, artıq okeanlara öz təsirini göstərməkdədir. Mərcan riflərinin 1,5°C-də daha 70-90% azalacağı proqnozlaşdırılır. 2°C istiləşmədə demək olar ki, bütün mərcan rifləri yox olacaq. Bu, təkcə vəhşi təbiət üçün faciə deyil: təxminən yarım milyard insan zülalın əsas mənbəyi kimi mərcan riflərindəki balıqlardan istifadə edir.

Meşələr həyati əhəmiyyət kəsb edir, çünki onlar istixana qazı olan karbon dioksidi udurlar və dünya iqlimini tənzimləməyə kömək edirlər. İqlim dəyişikliyinin müxtəlif növ meşələrə təsiri də müxtəlifdir. Sub-Arktika boreal meşələrinin xüsusilə pis təsirlənəcəyi ehtimal olunur, temperatur yüksəldikcə ağac xətləri tədricən şimala doğru geri çəkilir. Bol biomüxtəlifliyin olduğu Amazon kimi tropik meşələrdə belə iqlim dəyişikliyinin kəskin şəkildə olması məhvə səbəb ola bilər.

Çaylar və göllər insanları və heyvanları içməli su ilə təmin edir, onlar əkinçilik, sənaye üçün mühüm resursdur. Dünyadakı şirin su mənbələri artıq dərinləşdirmə, bəndləmə, çirklənmə, hasilat, lilləmə və invaziv kimi proseslərə görə təhlükə altındadır. İqlim dəyişikliyi problemi daha da gücləndirir və pisləşdirir.

Dağlıq bölgələrdə buzlaqların əriməsi şirin su ekosistemlərinə təsir göstərir. Himalay buzlaqları Yangtze, Sarı, Qanq, Mekonq və Hind kimi böyük Asiya çaylarını qidalandırır. Bir milyarddan çox insan içməli su, kanalizasiya, kənd təsərrüfatı və su elektrik enerjisi üçün bu buzlaqlardan istifadə edir [3].

İqlim dəyişikliyi artıq milyonlarla insanın həyatı üçün təhlükədir – lakin bunun həlli yolları var. İqlim dəyişikliyi ilə bağlı bütün həllərin əsası istixana qazları emissiyalarının azaldılmasıdır və bu, mümkün qədər tez sıfıra enməlidir.Həm meşələr, həm də okeanlar iqlimimizi tənzimləməkdə həyati əhəmiyyətli rol oynadığından, meşələrin və okeanların karbon dioksidi udmaq üçün təbii qabiliyyətinin artırılması da qlobal istiləşməni dayandırmağa kömək edə bilər.

İqlim dəyişikliyini dayandırmağın əsas yolları hökumətə və biznesə təzyiq göstərməkdir. Bunlardan bir neçəsinə nəzər yetirək:

Qalıq yanacaqları yerdə saxlamaq. Qalıq yanacaqlara kömür, neft və qaz daxildir və nə qədər çox çıxarılıb yandırılarsa, iqlim dəyişikliyi bir o qədər güclənəcək. Bütün ölkələr öz iqtisadiyyatlarını mümkün qədər tez qalıq yanacaqlardan uzaqlaşdırmalıdırlar.

Bərpa olunan enerjiyə investisiya etmək. Əsas enerji mənbələrimizi təmiz və bərpa olunan enerjiyə dəyişmək qalıq yanacaqlardan istifadəni dayandırmağın ən yaxşı yoludur. Bunlara günəş, külək, dalğa, gelgit və geotermal enerjilər daxildir.

Davamlı nəqliyyata keçid. Benzin və dizellə işləyən avtomobillər, təyyarələr və gəmilər qalıq yanacaqlardan istifadə edir. Avtomobildən istifadənin azaldılması, elektrikli nəqliyyat vasitələrinə keçid və təyyarə səyahətinin minimuma endirilməsi təkcə iqlim dəyişikliyini dayandırmağa kömək etməyəcək, həm də daha təmiz ekoloji mühitdə yaşamağımıza imkan yaradacaq.

Meşələri qorumaq. Meşələr iqlim dəyişikliyi ilə mübarizədə mühüm əhəmiyyət kəsb edir və onların qorunması həyati əhəmiyyətli məsələdir. Meşələrin sənaye miqyasında kəsilməsi böyük miqdarda karbon udmaq qabiliyyətinə malik nəhəng ağacları məhv edir. Bununla belə, şirkətlər heyvandarlıq, soya və ya palma yağı plantasiyalarına yer açmaq üçün meşələri məhv edirlər. Hökumətlər daha məntiqli qanunlar çıxarmaqla bunun qarşısını ala bilər.

Okeanları qorumaq. Okeanlar həm də atmosferdən çoxlu miqdarda karbon qazını udur ki, bu da iqlimimizi sabit saxlamağa kömək edir. Lakin onların çoxu həddən artıq neft və qaz çıxarma üçün istifadə olunur. Okeanları və onlarda həyatı qorumaq son nəticədə özümüzü iqlim dəyişikliyindən qorumağın bir yoludur.

İstehlakı azaltmaq. Bizim internet, moda, yemək və digər həyat tərzi seçimlərimizin hamısı iqlimə fərqli təsir göstərir. Bu, çox vaxt dizaynla olur – məsələn, moda və texnologiya şirkətləri real olaraq tələb olunandan daha çox məhsul buraxacaqlar. Ancaq bu məhsulların istehlakını azaltmaq çətin olsa da, əlbəttə ki, buna dəyər. Daha varlı ölkələrdə ümumi istehlakın azaldılması planetə daha az yük qoymağa kömək edə bilər.

Plastiki azaltmaq. Plastik neftdən hazırlanır və neftin çıxarılması, emalı və plastikə (və ya hətta geyim üçün polyester) çevrilməsi prosesi əhəmiyyətli dərəcədə karbon tutumudur . Təbiətdə tez parçalanmır, buna görə də çoxlu plastik yandırılır, bu da emissiyalara kömək edir. Plastikə tələbat o qədər sürətlə artır ki, plastiklərin yaradılması 2050-ci ilə qədər qlobal karbon büdcəsinin 17%-ni təşkil edəcək. Bununla belə, dünya hökumətləri tərəfindən irəliləyiş olduqca yavaş olmuşdur. Karbon emissiyalarının azaldılması ilə bağlı bir çox öhdəliklər qoyulmuşdur, lakin onların çoxu məcburidir və hədəflər tez-tez göz ardı edilir [4].

**İqlim dəyişikliyi ilə bağlı ən mühüm beynəlxalq müqavilələr:**

**Monreal Protokolu, 1987**. İqlim dəyişikliyi ilə mübarizə məqsədi daşımasa da, Monreal Protokolu bu məsələ ilə bağlı gələcək diplomatiya üçün model olan tarixi ekoloji razılaşma idi. Dünyanın hər bir ölkəsi sonda ozon təbəqəsini zədələyən xloroflorokarbonlar (CFC) kimi maddələrin istehsalını dayandırmağı tələb edən müqaviləni ratifikasiya etdi.Bu protokol ozon təbəqəsini məhv edən maddələrin təxminən 99 faizini aradan qaldırmağa müvəffəq olmuşdur. 2016-cı ildə tərəflər Kiqali Dəyişikliyi vasitəsilə iqlim dəyişikliyinə töhfə verən güclü istixana qazları olan hidrofluorokarbonların (HFC) istehsalını azaltmaq barədə razılığa gəldilər.

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC), 1992.** Birləşmiş Ştatlar da daxil olmaqla 197 ölkə tərəfindən ratifikasiya edilmiş əlamətdar saziş iqlim dəyişikliyinə açıq şəkildə toxunan ilk qlobal müqavilə idi.

**Kioto Protokolu, 2005.** Kyoto Protokolu 1997-ci ildə qəbul edilən və 2005-ci ildə qüvvəyə girən ilk hüquqi iqlim müqaviləsi idi. O, inkişaf etmiş ölkələrdən tullantıları 1990-cı il səviyyəsindən orta hesabla 5 faiz aşağı azaltmağı tələb etdi və ölkələrin tərəqqisinə nəzarət etmək üçün bir sistem yaratdı. Lakin müqavilə inkişaf etməkdə olan ölkələri, o cümlədən əsas karbon emissiyaları Çin və Hindistanı hərəkətə keçməyə məcbur etmədi. Birləşmiş Ştatlar sazişi 1998-ci ildə imzalasa da, heç vaxt onu ratifikasiya etməyib və daha sonradan imzasını geri götürüb.

**Paris sazişi. 2015.** Parisdə 197 ölkədən olan dünya liderləri ölkələrinin istixana qazı emissiyalarını azaldacaqlarını vəd ediblər. Paris razılaşmasının məqsədi qlobal istiləşməni 2ºC-dən 1,5°C-ə qədər məhdudlaşdırmaqdır. Müqavilə bütün ölkələrdən fərqli vəziyyətləri və şəraitləri nəzərə alaraq hərəkətə keçməyi tələb edir. Müqaviləyə əsasən, ölkələr həm təsirin azaldılması, həm də uyğunlaşma üzrə tədbirlər görmək üçün məsuliyyət daşıyırlar. Razılaşma 4 noyabr 2016-cı il tarixində qüvvəyə minmişdir [5; 6].

Dünyanın ikinci ən böyük emitenti olan Birləşmiş Ştatlar keçmiş prezident Donald Trampın 2020-ci ilin noyabrında qüvvəyə minmiş qərarı ilə razılaşmadan çıxan yeganə ölkə idi . Bununla belə, prezident Co Bayden ilk iclasında ABŞ-ı sazişə yenidən daxil etdi. Bununla yanaşı, bir neçə ölkə sazişi rəsmi olaraq təsdiq etməyib: Eritreya, İran, İraq, Liviya və Yəmən.

Dövlətlərlə yanaşı hər bir insan da iqlim dəyişikliyinə qarşı mübarizə aparmalıdır. Əslində, bu, faydasız görünə bilər, amma edə biləcəyimiz çox şey var, hansı ki, hamısı iqlim dəyişikliyinə qarşı mübarizəyə böyük töhfələr verir. Bunlar aşağıdakılardır:

- Su israfını azaldın. Suya qənaət etmək karbon çirklənməsini də azaldır. Çünki suyunuzu vurmaq, qızdırmaq və təmizləmək üçün çoxlu enerji tələb olunur. Odur ki, daha qısa duş qəbul edin, dişlərinizi fırçalayarkən kranı bağlayın və WaterSense etiketli qurğu və cihazlara keçin.
- Daha yaxşı lampalar alın. LED lampaları adi közərmə lampalarından 80 faizə qədər az enerji sərf edir. Onlar həm də uzunmüddətli perspektivdə daha ucuzdur: Ənənəvi 60 vattlıq lampanı əvəz edən 10 vattlıq LED lampanın ömrü boyu sizə 125 dollar qənaət edəcək.
- Fişləri çəkin: Birlikdə götürsək, evinizdəki rozetkalar, ehtimal ki, təxminən 65 müxtəlif cihazı gücləndirir Ona görə də tam doldurulmuş cihazları evinizin rozetkalarına qoşmayın, nadir hallarda istifadə olunan cihazları elektrik şəbəkəsindən ayırın və ya onları elektrik zolaqlarına qoşmayın , kompüterlərinizi və monitorlarınızı istifadə edilmədikdə avtomatik olaraq ən aşağı güc rejiminə endirmək üçün tənzimləyin.
- Enerji qənaət edən cihazlara investisiya qoyun.»Enerji səmərəliliyi emissiyaları azaltmağın ən ucuz yoludur». Soyuducu, paltaryuyan maşın və digər məişət texnikası üçün alış-veriş edərkən Energy Star etiketinə baxın. Hansının ən səmərəli olduğunu sizə xəbər verəcəkdir [7].

*Nəticə*. Onilliklər ərzində tibb işçiləri və elm sahəsində olan nüfuzlu nəşriyyatlar iqlim dəyişikliklərinin təbiətə və insan sağlamlığına təsir göstərmələri barəsində xəbərdarlıq ediblər. "Ekstremal temperatur, məhvedici hava şərtləri və əsas ekosistemlərin irimiqyaslı deqradasiyası kimi şəraitdə sağlamlığa və sağ qalma faktoruna olan təsirlər iqlim dəyişikliyinin yalnız bir sıra nəticələridir" Bu nəticələr isə əhalinin ən həssas təbəqələrinə daha çox təsir göstərirlər. Bura uşaqlar, qocalar, etnik azlıqlar, daha kasıb şəraitdə yaşayan icmalar və müəyyən xəstəliklərə sahib insanlar daxildirlər. Hətta insanların yoxsul olmasının səbəbi də qlobal iqlim dəyişikliyidir.Heç bir şey etməsək, vəziyyət daha da pisləşəcək. Lakin, bu gün hərəkət etdiyimiz müddətdə iqlim dəyişikliyinin sürətini yavaşlada bilərik. David Suzukinin də dediyi kimi,yeddi milyarddan çox insanın yaşadığı dünyada hər birimiz vedrədə bir damlayıq. Ancaq kifayət qədər damcı ilə istənilən vedrəni doldura bilərik [8; 9].

## ƏDƏBİYYAT

1. İqlim dəyişikliyi. Hidrometeorologiya / Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin saytı. - http://eco.gov.az/az/hidrometeorologiya/iqlim-deyismeleri [Müraciət tarixi: 02.12.2021].
2. Causes of climate change. / Met Office, Weather Observations Website (WOW). - https://www.metoffice.gov.uk/weather/climate-change/causes-of-climate-change [Müraciət tarixi: 02.12.2021].
3. 10 Reasons Why We Should All Care About Climate Chance. / WWF. - https://www.wwf.org.uk/updates/10-reasons-why-we-should-all-care-about-climate-change [Müraciət tarixi: 02.12.2021].
4. What are the solutions to climate change? / GreenPeace. - https://www.greenpeace.org.uk/challenges/climate-change/solutions-climate-change/ [Müraciət tarixi: 02.12.2021].
5. Paris Agreement. Paris, 12 December 2015 / UN Treaty Collection. - https://treaties.un.org/Pages/ViewDetails.aspx?src=IND&mtdsg_no=XXVII-7-d&chapter=27&clang=_en [Müraciət tarixi: 02.12.2021].
6. Sustainable Devolopment Goals. Goal 13: Take urgen action to combat climate change and its impacts. - https://www.un.org/sustainabledevelopment/climate-change/ [Müraciət tarixi: 02.12.2021].
7. 10 Ways You Can Fight Climate Change / Green America. - https://www.greenamerica.org/your-green-life/10-ways-you-can-fight-climate-change [Müraciət tarixi: 02.12.2021].

8. Emil Noisy. Tibb işçiləri dünya liderlərini iqlim dəyişikliyi ilə mübarizədə təcili tədbirlər görməyə çağırıblar / Technote, 08.09.2021. - https://technote.az/suni-zeka-ve-elm/tibb-iscileri-dunya-liderlerini-iqlim-deyisikliyi-ile-mubarizede-tecili-tedbirler-gormeye-cagiriblar [Müraciət tarixi: 02.12.2021].
9. What You Can Do: Top 10 things you can do about climate change. - https://davidsuzuki.org/what-you-can-do/top-10-ways-can-stop-climate-change/ [Müraciət tarixi: 02.12.2021].

**УЛЬВИЯ АТАШОВА**
*Старший преподаватель Академии государственного управления
при Президенте Азербайджанской Республики*

**МАИШАТ ВАЛИМАТОВА**
*Академия государственного управления
при Президенте Азербайджанской Республики*

## ГЛОБАЛЬНОЕ ИЗМЕНЕНИЕ КЛИМАТА И МЕЖДУНАРОДНОЕ СОТРУДНИЧЕСТВО

Изменение климата затрагивает каждую страну на всех континентах. Он разрушает национальную экономику и оказывает глубокое влияние на людей, общества и страны сегодня, а также в будущем. Люди подвергаются воздействию изменения климата, а также изменения погодных условий, повышения уровня моря и других экстремальных погодных явлений. Выбросы парниковых газов способствуют изменению климата и расширяют его масштабы. Изменение климата сейчас достигло наивысшего и самого опасного уровня в истории. Если не будет предпринято никаких действий, ожидается, что в 21 веке средняя температура поверхности мира повысится на 3 градуса по Цельсию, а в некоторых частях мира станет еще теплее. Больше всего страдают самые слабые и чувствительные люди. Существуют доступные и масштабируемые меры по предотвращению изменения климата и обеспечению перехода стран к более чистой и сильной экономике. Темпы изменений ускоряются по мере того, как все больше людей обращаются к альтернативным и возобновляемым источникам энергии и ряду других мер, которые позволят сократить выбросы и активизировать усилия по адаптации. Однако изменение климата – это глобальная проблема, игнорирующая национальные границы. Выбросы в различных регионах оказывают негативное влияние на всех людей во всем мире. Это вопрос, который необходимо координировать и решать на международном уровне, включая международное сотрудничество, чтобы помочь развивающимся странам перейти к низкоуглеродной экономике.

*Ключевые слова*: Естественное изменение климата, антропогенное изменение климата, парниковые газы, глобальное потепление, международные соглашения, глобальное сотрудничество, Парижское соглашение.

**ULVİYYE ATASHOVA**
*Senior Lecturer of the Academy of Public Administration
under the President of the Republic of Azerbaijan*

**MAİSHAT VALIMATOVA**
*Academy of Public Administration
under the President of the Republic of Azerbaijan*

## GLOBAL CLIMATE CHANGE AND INTERNATIONAL COOPERATION

Climate change is affecting every country on every continent. It is disrupting national economies and affecting lives. Weather patterns are changing, sea levels are rising, and weather events are becoming more extreme.Emissions of greenhouse gases contribute to climate change and expand its

scope. Climate change has now reached the highest, most dangerous level in history. If no action is taken, the world's average surface temperature is expected to rise by 3 degrees Celsius in the 21st century, and some parts of the world are expected to become even warmer. The weakest and most sensitive people are more affected. There are affordable, scalable measures to prevent climate change and ensure countries move to a cleaner, stronger economy. The pace of change is accelerating as more people turn to alternative and renewable energy sources and a number of other measures, which will reduce emissions and increase adaptation efforts. However, climate change is a global problem that ignores national borders. Emissions in different areas have a negative impact on all people around the world. This is an issue that needs to be coordinated and addressed at the international level, including international cooperation to help developing countries transition to a low-carbon economy.

*Keywords*: Natural climate change, anthropogenic climate change, greenhouse gases, global warming, international agreements, global cooperation, Paris agreement.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 dekabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: s.ü.f.d.Cahangir Cahangirov, s.e.d Adil Mirabdullayev.*

**UOT 94(479.24)**

**SƏBİNƏ PİRİYEVA**
*Sumqayıt Dövlət Universitetinin nəzdində*
*Sumqayıt Dövlət Texniki Kollecinin ictimai elmlər və tarix fənn birləşməsinin müəllimi*
**sabina.m.79@mail.ru**

# AZƏRBAYCAN RESPUBLİKASINDA QADIN SİYASƏTİ VƏ QADIN HÜQUQLARI

*Ölkəmizin dövlət siyasətində qadın siyasəti və hüquqları insan hüquqlarının əsas və ayrılnaz hissəsini təşkil edir. Hal-hazırda dünya miqyasında ,həmçinin respublikamızda qadın hüquqlarını, həmçinin qadın və kişi arasındakı bərabərliyi, gender bərabərliyini təmin etmək üçün bərabər şərtlər yaradılmışdır. Mühüm strateqiyalar qadın siyasətində uğurla həyata keçirilir. Respublikamızda Azərbaycan qadınlarının idarəetməyə cəlb edilməsinə, onların fəal iştirakına , xüsusi diqqət ayrılır. Onların geniş fəaliyyətləri üçün bütün şəraitlər yaradılmışdır.*

*Açar sözlər*: siyasət, hüquq, qadın, gender.

*Giriş*. Azərbaycan xalqının qəhrəmanlıqla dolu keçmişinə nəzər saldıqda, görərik ki, istər vətənin müdafiəsində, milli dövlətçiliyin formalaşmasında və idarə olunmasında, istərsə də xalqımıza məxsus milli-mənəvi dəyərlər sisteminin yaşadılmasında xidmətləri olan qadınlarımıza hörmət və ehtiram hər zaman göstərilmişdir. Bəli, qadın istənilən cəmiyyətdə böyük qüvvədir. Müstəqilliyimizin ötən 29 ilində ictimai-siyasi, sosial-mədəni və digər sferalarında biz bunun dəfələrlə şahidi olmuşuq. İstər Azərbaycan xalqının XX əsrin 80-ci illərinin II yarsında nümayiş etdirdiyi milli azadlıq hərəkatında, istər I Qarabağ döyüşlərində, istərsə də, Azərbaycan Respublikasının dövlət quruculuğunda aktiv iştirak edən nümunəvi qadınlarımız olub, indi də var. Kimdir müasir Azərbaycan qadını? O, bu gün ana olmaqla yanaşı, həm də bacarıqlı siyasətçi, millət vəkili, iş adamı, müəllim, həkim, aqronom, diplomat, hakim, alim, dövlət məmurudur. Bu, bir tərəfdən qadın fəallığı sahəsində mövcud olan çoxəsrlik tarixə söykənən zəngin ənənələrlə bağlıdırsa, digər tərəfdən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən dövlət qadın siyasəti və Azərbaycan qadınlarına yaradılan şəraitlə bağlıdır.

Azərbaycanda qadın siyasəti milli mənəvi dəyərlərə söykənərək, dünyanın ən mütərəqqi təcrübəsinə uyğun olaraq qanunvericilik yolu ilə həyata keçirilir [2, s.163]. Qüvvədə olan qanunvericilikdə dövlət qadın siyasətinin əsas istiqamətlərini aşağıdakı kimi qeyd etmək olar: cəmiyyətin bütün sahələrində qadın və kişi bərabərliyinin təmin olunması; məişət zorakılığının və istənilən zorakılıq hallarının qarşısının alınması; insan alverinə qarşı mübarizə; qadınların ictimai həyatda, xüsusilə qərar qəbul etməklə bağlı sahələrdə rolunun artırılması; qadınların ailədə hüquqlarının, o cümlədən analıqla bağlı hüquqlarının təmin olunması; çoxuşaqlı, əlil, məcburi köçkün və digər qadınların sosial müdafiəsinin həyata keçirilməsi.

Ölkəmizdə milli qadın siyasəti tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət statusu almışdır. Həmin dövrdə ilk dəfə olaraq müsəlman Şərqində məhz Azərbaycanda qadına seçmək və seçilmək hüququnun verilməsi tarixi nailiyyət hesab olunurdu. Bununla da nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl qadına cəmiyyət həyatında siyasi proseslərə qoşulmaq hüququ verilmişdir. Baxmayaraq ki, Avropa və ABŞ qadınları bu hüquqları əldə etmək üçün uzun müddət feminizm və sufrajizm hərəkatını davam etdirdilər. Bütün müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb XX əsrin əvvəllərində Bakıda Hacı Zeynalabdin Tağıyev tərəfindən yaradılmışdır. Bu məktəbləri açan Azərbaycanın xeyriyyəçi və maarifpərvər sahibkarları, ziyalılar başa düşürdülər ki, qızların təhsil alması çox vacibdir. Təhsilli qadın təhsilli millət, təhsilli nəsil və uğurlu gələcək deməkdir. Azərbaycanda qadınların təhsil alması, qadınlar arasında savadsızlığın aradan qaldırılması, qadın sağlamlığı, onların iqtisadi azadlığının təmin olunması məsələləri daim öz aktuallığını saxlamışdır.

Ümummilli Lider Heydər Əliyev qadınların idarəetmə və hakimiyyətin bütün sahələrində irəli çəkilməsini vacib bilmişdir. O, qadın hüquqlarının müdafiəsini beynəlxalq və milli aspektdən öz si-

yasi fəaliyyətinin tərkib hissəsi saymış, milli qadın hərəkatının formalaşması, genişlənərək institutlaşması üçün böyük işlər görmüşdür. Həmin illərdə ölkə rəhbərinin imzaladığı qadınların cəmiyyətdəki statusunun təmin olunması ilə bağlı fərman və sərəncamlar qadın hüquqlarının reallaşması və təminatı istiqamətində irəliyə doğru atılmış tarixi addımlar oldu. 1995-ci ildə sentyabrın 4-dən 15-dək BMT-nin təşəbbüsü ilə Pekində keçirilən Qadın məsələlərinə dair 4-cü Ümumdünya Konfransında qadınlarımızın iştirakı isə müasir qadın hərəkatına yeni nəfəs gətirdi. Ümummilli lider Heydər Əliyev "4-cü Ümumdünya Qadın Konfransına hazırlıqla əlaqədar Azərbaycan qadınlarının Milli Komitəsinin yaradılması haqqında" 15 sentyabr 1994-cü il tarixli fərman imzaladı. Azərbaycan qadınlarının Milli Komitəsində dövlət strukturlarının qadın rəhbərləri və qeyri-dövlət qadın təşkilatlarının nümayəndələri təmsil olunurdu. Pekin konfransına ciddi hazırlaşan Milli Komitə qadınların cəmiyyətdəki statusunu artırmağa və cinslər arasında bərabərliyə nail olmağa yönəlmiş bir sıra tədbirlər - konfranslar, dəyirmi masalar, müzakirələr, sərgilər təşkil etdi.

1995-ci ildə Çin Xalq Respublikasının paytaxtı Pekində keçirilən IV Ümumdünya Qadın Konfransında qadınların cəmiyyətdə vəziyyətinin yaxşılaşdırılması sahəsində 12 strateji istiqamət qadın və təhsil, qadın və sağlamlıq, qadınlara qarşı zorakılıq, qadınlar və silahlı münaqişələr, qadınlar və yoxsulluq, qadınların insan hüquqları, qərar qəbuletmədə qadınların rolu və digər bu kimi vacib məsələlər diqqət mərkəzinə gətirildi. Bu gün qürurla deyə bilərik ki, həmin konfransın iştirakçısı olan qadınların əksəriyyəti rəhbər vəzifələrdə çalışır, ölkənin ictimai-siyasi həyatında aktiv iştirak edirlər. Pekin Konfransına ilk adekvat cavabı Azərbaycan hökuməti verdi. Bu konfransdan sonra respublikamızda qadınların fəallığı daha da artdı və onların problemlərinə digər ölkələrdə olduğu kimi Azərbaycanda da diqqət və maraq çoxaldı. Böyük siyasi iradə tələb edən məsələlərdən biri də bu sahədə fəaliyyət göstərən xüsusi dövlət qurumunun olması idi. Məhz bu məqsədlə 1998-ci ildə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı.

Azərbaycan Respublikası Qadınları təşkilatlanaraq problemləri müzakirə edir, bu istiqamətdə gələcəkdə görüləcək məsələləri dövlət və cəmiyyət qarşısında qaldırır. Bu baxımdan, 1998, 2003, 2008 və 2013-cü illərdə keçirilmiş Azərbaycan qadınlarının qurultayları ölkədə qadın hərəkatının fəallaşmasının təsdiqidir. Azərbaycanda fəaliyyətdə olan ailə, qadın, uşaq yönümlü QHT-lər respublikada formalaşan vətəndaş cəmiyyətinin çox mühüm tərkib hissəsidir. Qadınların ictimai aktivliyi ilə yanaşı, onların siyasətdə iştirakçılığı da artmaqdadır. Hazırda minlərlə qadın müxtəlif partiyaların sıravi və ya Siyasi Şurasının üzvü kimi fəaliyyət göstərir. Azərbaycanda qadınların sahibkarlıqla məşğul olması haqqında statistik rəqəmlər də müsbət dinamikadan xəbər verir: belə ki, əgər 2012-ci ildə 73469 nəfər sahibkar qadın var idisə, 2016-cı ilin əvvəlinə bu rəqəm 113 889 nəfərə qalxmışdır, yəni 20%-ə çatmışdır. 2017-ci ildə isə 143.090 nəfərə qədər də artaraq 21%-ə yaxınlaşmışdır. Qadınların iqtisadi cəhətdən gücləndirilməsi ailə münasibətlərinə də təsir edir. Ailə büdcəsinə öz töhfəsini verməklə yanaşı, qadının özünə inam hissi artır, ailədə iqtisadi cəhətdən asılı olmur, eyni zamanda özlərinin iqtisadi və ictimai həyatda bərabər iştirakını təmin etmiş olurlar.

Qadınlarımız üçün son dövrlərdə müxtəlif qeyri-hökümət təşkilatları, könüllü birliklər və xeyriyyə fondları yaradılmaqdadır. Bütün bu qurumların əsas məqsədi qadınlarımızı maarifləndirmək, onlara cəmiyyətdə baş verən hadisələrə daha diqqətlə yanaşmağı və bu proseslərdə yaxından iştirak etməyi tövsiyyə edir. Qadın Resurs Mərkəzləri də məhz bu məqsədlə yaradılıb və burada digər məsələlərlə yanaşı maliyyə əməliyyatlarının aparılması, ailə büdcəsinin düzgün formalaşdırılması, biznes planların qurulması, yazılması sahəsində qadınlarımıza təlimlər keçirilir. Ailənin gəlirləri, onun düzgün xərclənməsi və digər məsələlər izah olunur. Burada digər bir məqam da kiçik və orta biznes fəaliyyətinə başlayan qadınlara resuslardan, xüsusilə banklardan biznes kreditin səmərəli şəkildə götürmək qaydaları öyrədilir. Bir məsələni unutmaq olmaz ki, qadın hüquqlarının müdafiəsini təmin etmək məqsədilə məişət zorakılığının aradan qaldırılması vacibdir. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi gender əsaslı zorakılıqla mübarizə aparmaq, mövcud qanunvericiliyi təkmilləşdirmək, yanlış fikirləri dəyişmək üçün layihələr keçirir, araşdırmalar aparır.

Azərbaycan Respublikasında gender bərabərliyinin təmin edilməsi və qadınların səlahiyyətlərinin genişləndirilməsi ölkə siyasətinin mühüm prioritetlərini təşkil edir. Bu, bütün sahə və istiqamətləri əhatə edir. Cəmiyyətin bütün sahələrində qadınlar üçün uyğun şəraitin yaradılması, məşğulluq, sağlamlıq, təhsil və sosial siyasət sahəsində gender bərabərliyinin inkişaf etdirilməsi üçün mühüm

səylər göstərilmişdir. Ölkəmizdə əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, yoxsulluğun ləğv olunması, davamlı iqtisadi inkişafa nail olunması, bütün sahələrdə gender bərabərliyinin təmin olunması istiqamətində hökumətin həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verir. Azərbaycan Respublikasında qadınlarımızın imkan və bacarıqlarının reallaşdırılması, keyfiyyətli fəaliyyət göstərməsi çox vacibdir. Elə dövlətin də əsas məqsədi qadınların cəmiyyətin həyatında daha aktiv iştirak etməsinə nail olmaqdır.

Qeyd etmək lazımdır ki, gender bərabərliyi, qadınların imkanlarının genişləndirilməsi inkişafın fundamental əsasıdır və qloballaşma prosesində önəmli yer tutur. Qadınlar üçün uyğun şəraitin yaradılması, məşğulluq, sağlamlıq, təhsil və sosial siyasət sahəsində gender bərabərliyinin inkişaf etdirilməsi üçün belə tədbirlərin mühüm əhəmiyyəti vardır. Ölkə prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü sosial siyasətdə qadın siyasəti aparıcı yer tutur. Həmçinin Azərbaycan Respublikasının I vitse-prezidenti Mehriban xanım Əliyeva da hər zaman qadınlarımızın hüquqlarının qorunmasına, onların cəmiyyətdə layiqli mövqe qazanmaları üçün müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi təşəbbüs göstərir. Heydər Əliyev fondu valideyin himayəsindən məhrum olmuş, həmçinin sağlamlıq imkanları məhdud uşaqlar üçün yaradılan müəssisələrdə onların istedad və bacarıqlarının üzə çıxarılması bütün imkanları səfərbər etmişdir.

Eyni zamanda Azərbaycan Respublikası bütün sahələrdə olduğu kimi, qadın siyasətində də beynəlxalq əməkdaşlığa daha çox diqqət yetirir. Azərbaycan dövləti Ailə, Qadın və Uşaq məsələləri üzrə Dövlət Komitəsinin mütəxəssislərini dünyanın aparıcı ölkələrində keçirilən sessiyalarda, konfranslarda iştirak edərək yeni təcrübələrin öyrənilməsinə müsbət yanaşır, həmçinin müxtəlif mübadilə proqramlarında yaxından iştirak edirlər. Bu tədbirlərdə Azərbaycan dövləti həmin təşkilatlara üzv olur, beynəlxalq sənədlərin qəbulu prosesində də fəal iştirak edir. Qeyd etmək lazımdır ki, Azərbaycan dövləti Türkiyə, Litva, Fransa, Belarus, Mərakeş, Küveyt, İordaniya, İran İslam Respublikası, Sloveniya ilə ikitərəfli əməkdaşlıq haqqında saziş imzalanmışdır.

*Nəticə*. Beləliklə,biz bir sıra beynəlxalq təşkilatlarla o cümlədən BMT, ATƏT, MDB kimi təşkilatlarla yaxın tərəfdaşıq. Həmin əməkdaşlıq ölkədə qadın və uşaqların inkişafı ilə bağlı mühüm layihələrin həyata keçirilməsinə və təcrübə mübadilələrinin aparılmasına hüquqları müstəqil təkan verir.

Qadın siyasəti və qadın Azərbaycan dövlətinin əsas prioritet sahələrindəndir. Məqalədə qadın hüquqları həm qanunlar, həm də bir sıra məcəllələrlə (Ailə, Mülki, Cinayət, İnzibati Xətalar və s.) təsbit olunmuşdur. Elmi məqalənin praktik əhəmiyyəti bundan ibarətdir ki, oxucu, xüsusən də tələbə və gənclər qadın siyasəti və qadın hüquqları haqqında geniş məlumat əldə edəcəklər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun, 2017, 45 s.
2. Hadı Rəcəbli, Azərbaycan Respublikasının Sosial Müdafiə Sistemi. Bakı, MBM, 2012, 408 s.
3. Ümumi sosiologiya. Professor Z.T.Qalenkovanın redaktorluğu ilə. Tərcüməçi f.e.d., prof. İ.Ə.Rüstəmov. Bakı, Diplomat nəşriyyatı, 2007, 494 s.
4. Vahidov F.Q., Ağayev T.B. Sosiologiya. Bakı, "Zərdabi LTD" MMC, 2013, 352 s.

**САБИНА ПИРИЕВА**

*Преподаватель социальных наук и истории*
*Сумгаитского государственного технического колледжа*
*при Сумгаитском государственном университете*

# ПРАВА ЖЕНЩИН И ПОЛИТИКА ЖЕНЩИН В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

Реализация и обеспечение прав женщин являющиеся неотьемлемой составной частью прав человека занимает одно из важнейших мест в государственной политике нашей страны. В настоящее время в мировых масштабах, а также в нашей республике созданы равные условия для обеспечения женских прав, равенства между женщинами и мужчинами, в том числе

гендерного равенства. В области женской политики успешно осуществляются важные стратегии. Уделяется особое внимание развитию азербайджанских женщин, их активному участию в жизни нашей республики и привлечение их к управлению. Созданы все условия для их обширной деятелности.

*Ключевые слова*: политика, право, женщины, гендер.

**SABINA PIRIYEVA**
*Lecturer of Social Sciences and History*
*of Sumgait State Technical College at Sumgait State University*

**WOMEN'S RIGHTS AND WOMEN'S RIGHTS**
**IN THE REPUBLIC OF AZERBAIJAN**

Implementation and maintenance of women`s rights, which are an integral part of human rights in our country plays an important role in public policy.

At present, the importance of women`s rights, including gender equality. The creation of equal appertunities for the promotion of equality between women and men is being given worldwide attention. Including our publication important strategies in the field of women`s policy are being continued successfully. Special attention is paid to the development of Azerbaijan women, their active participation in the life of the republic and their involvement in governance. All conditions are created in our country for their extensive activity.

*Keywords*: politics, law, women, gender.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 oktyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: s.ü.f.d.R. Gəncəliyeva, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 94(479.24)**

**ANAR HƏMİDOV**
*Bakı Dövlət Universiteti*
**anarhamidov@bsu.edu.az**

# AZƏRBAYCAN SSR-DƏ YÜKSƏK İXTİSASLI ELMİ-PEDAQOJİ KADRLARIN HAZIRLANMASI İŞİ (XX əsrin 70-80-ci illərinin əvvəlləri)

*Məqalədə ümumilli lider Heydər Əliyevin 1969-cu il 14 iyul Azərbaycan SSR-nin rəhbəri seçildiyi andan tariximizdə oynadığı misilsiz xidmətləri göstərilmişdir. Tədqiqat aparılan illərdə mühüm əhəmiyyətə malik elmi-pedaqoji milli kadrların hazırlanması istiqamətində mühüm baza rolunu oynayan elmin, təhsilin inkişafına da xüsusi diqqət və qayğıərən məsələlərə toxunulmuşdur. Həmçinin Azərbaycan xalqının elmi-intellektual potensialının gücləndirilməsi işi, ali təhsil müəssisələrində elmi-pedaqoji kadrların hazırlanması işinə diqqətin əvvəlki illərlə müqayisəli təhlililinin aparılması məsələləri də məqalədə öz əksini tapanmışdır.*

*Açar sözlər*: Heydər Əliyev, Azərbaycan SSR, XX əsrin 70-80-ci illərinin əvvəlləri, elm, təhsil, elmi-pedaqoji kadr.

*Giriş.* Müasir Azərbaycan tarixində yeni bir mərhələnin başlanmasını ehtiva edən 14 iyul 1969-cu il tarixli qərar milli tariximizə ümumilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi böyük bir əsrin başlanğıcı kimi daxil olmuşdur. Bu inkar edilməz bir faktdır ki, dövlətimizdə təhsilin dünyanın inkişaf tendensiyalarına uyğun olan hazırkı mərhələyə çatması və onun inkişaf etdirilməsində Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Bu gün ölkəmizdə fəaliyyət göstərən ali təhsil müəssisələrinin güclü elmi-pedaqoji kadr potensialı öz başlanğıcını məhz XX əsrin 70-ci illərindən Heydər Əliyevin rəhbərliyi altında təhsil sahəsində aparılan məqsədyönlü siyasətdən almış, həyata keçirilən genişmiqyaslı təhsil quruculuğu gələcək inkişaf perspektivlərinin güclü təməlini qurmuşdur. Tədqiqat aparılan dövrdə Azərbaycanda bütün ali təhsil məktəbləri əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə qalxmış, bu yöndə aparılan davamlı dövlət siyasəti Azərbaycan xalqının təhsil, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində misilsiz rol oynamışdır.

Heydər Əliyev hakimiyyətə gələrkən xalq maarifi müəssisələrinin saxlanılmasına çəkilən xərclər xeyli az olduğundan onun artırılmasına böyük səylə çalışır və buna nail olurdu. Xalq maarifi müəssisələrinin saxlanılmasına ayrılan xərclər 1969-cu ildən başlayaraq hər il daim artırılırdı. Məsələn, Azərbaycanın 1977-ci il Dövlət büdcəsində xalq maarifinin saxlanılmasına 377,1 mln. manat ayrıldı ki, bu da 1976-cı illə müqayisədə 19,3 mln. manat çox idi. 1978-ci ildə isə xalq maarifi müəssisələrinin saxlanılmasına Dövlət büdcəsindən 384,3 mln. manat ayrıldı. Bu da 1976-cı illə müqayisədə 8,9% çox idi. Sonrakı illərdə də xalq maarifinin saxlanılması və inkişafına ayrılan xərclər artırıldı. Məsələn, 1981-ci ildə xalq maarifi müəssisələrinin maliyyələşdirilməsinə əvvəlki illə müqayisədə 4,7% çox olmaqla 723,5 mln. manat ayrıldı [1, s.58].

Ümumiyyətlə dünyada gedən qloballaşma prosesi insanların təfəkkürünün yeni reallıqlara paralel şəkildə uyğunlaşmasını, irimiqyaslı informasiyanı təhlil etmək bacarığı ilə operativ qərarlar verməyi bilən, bacaran yeni nəsil kadrların hazırlanmasını tələb edir. Belə bir şəraitdə ali təhsil sistemi xüsusi funksiya yerinə yetirir. Beləliklə, təhsil quruculuğu elə yaradılmalıdır ki, informasiya-texnoloji, texniki, mədəni sahələrdə innovasiya gedişatlarının artan sürəti zəminində düzgün istiqamət seçmək bacarığına sahib olan yaradıcı pedaqoji kadrlar hazırlana bilsin.

Ümummilli lider Heydər Əliyev hələ 1970-1980-ci illərdə informasiya texnologiyalarının inkişafı sahəsinə xüsusi diqqət yetirmiş, müvafiq mütəxəssislərin hazırlanmasına qayğı göstərmiş, bugünkü inkişafın təməlini qoymuşdur. Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanda milli təhsil quruculuğundan danışarkən demişdir: "...Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq". Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir [2].

Dövlət tərəfindən görülən bu kimi tədbirlər, yəni elmi-pedaqoji kadr hazırlığı işininin fəaliyyətinə diqqətin artırılmasından xəbər verirdi. Məqsəd təhsil işçilərinə pedaqogika, psixologiya, inklüziv

təhsil, bütövlükdə təhsil sahəsi üzrə bütün baş verən, ortaya çıxan yenilikləri çatdırmaqla, təhsilin elmi əsaslar üzrə təşkili və idarə olunmasını təmin etmək, həyata keçiriləcək ali təhsil islahatının keyfiyyətini təmin etmək vəelmi-pedaqoji kadrların hazırlanmasından ibarətdir. Qeyd olunan məslələrə baxdıqda məlum olur ki, elmi-pedaqoji kadrların hazırlanması işi üçün lazım olan şərait yaradılmalı, professor-müəllim heyətinin yenilənməsinə və gəncləşməsinə diqqət yetirilməlidir. Nəticə olaraq görülən bu işlərin sonunda, elm və təhsil sahəsində çalışan kadrların peşəkarlıq səviyyəsi yüksəlirdi.

Ümumilli liderimiz Heydər Əliyev milli kadrları "qızıl fondumuz" adlandırmış, "Bilik yeganə meyardır" tezisini irəli sürmüş, ali məktəblərdə rəsmi tələblərə əməl olunması və biliyin düzgün qiymətləndirilməsini vurğulamış, "uşaqlar və gənclər üçün saflıq və işə sədaqətli münasibət nümunəsi" olan müəllimlərin şərəfli işləməsini xüsusi qeyd etmişdir [3, s.65].

Bundan sonra elmi-pedaqoji mütəxəssis hazırlığının yeni sistemi formalaşmağa başladı. Bununla əlaqədar olaraq rəsmi dövlət orqanlarının diqqət və qayğısını nümayiş etdirən mühüm qərarlar qəbul edildi. Nəticə etibarilə elmi və elmi-pedaqoji kadr hazırlı işinin əsas vasitəsi olan doktoranturada təhsil alanların sayı artdı, kadr hazırlığı respublikanın ali pedaqoji təhsil müəssisələrinin tələbatına uyğun davam və inkişaf etdirildi.

Doktorant və dissertant hazırlığında mühüm mərhələ onların dissertasiya mövzularının düzgün seçilməsi ilə bağlıdır. Düzgün tərtib olunan plan dissertasiya işinin vacib tərkib hissəsidir. Tədqiqat mövzularında təkrarçılığa yol verilməməsi məqsədi ilə 1974-cü ildə Azərbaycan ETPEİ-də Pedaqoji və Psixoloji elmlər üzrə Elmi-Tədqiqatları Əlaqələndirmə Şurası yaradıldı. 1934-cü ildən indiyədək namizədlik və doktorluq dissertasiyası müdafiə edənlərin siyahısı dövrlər üzrə qruplaşdırılıb nəşr olunmuşdur. Bu, pedaqoji elmlərin inkişafında və elmi-pedaqoji kadr hazırlığında xüsusi mərhələ hesab olunmalıdır. Elmi-pedaqoji kadr hazırlığında, aspirant və dissertantların elmi hazırlıq səviyyəsinin yüksəldilməsində 1978-ci ildən başlayaraq hər il keçirilən ali məktəb aspirantlarının respublika elmi konfransları da böyük rol oynamışdır. Gənc tədqiqatçıların elmi yaradıcılıqlarının hesabatına çevrilən belə ənənəvi konfranslar elmin başqa sahələri ilə yanaşı, pedaqogikanın nəzəriyyəsi və tarixinin müxtəlif istiqamətləri və problemləri üzrə geniş elmi fikir mübadiləsinə meydan açırdı [4].

*Nəticə.* Məqalədə qeyd olunmuş məsələlərdən qazanılan təcrübə və araşdırmalar göstərir ki, cəmiyyətin siyasi-iqtisadi və sosial-mədəni həyaının inkişafında təhsilin əvəzsiz xidməti və rolu vardır. Məhz elm, təhsil vasitəsilə cəmiyyətin tələb və tələbatına müvafiq olaraq kadrlar hazırlanır və mövcud insan kapitalı inkişafın davamlılığına möhkəmliliyinə şərait yaradır. Ona görə də təhsillə bağlı ciddi elmi araşdırmaların aparılması, nəzəri və praktik istiqamətlərdə problemlərin tədqiqi, cəmiyyətin inkişafına xidmət edən təkliflərin həyata keçirilməsi vacib cəhətlərdəndir[5].

Aydın olduğu kimi, təhsildə yüksək keyfiyyətə malik olmaq bir qayda olaraq bu sahədə çalışan pedaqoji kadrların bilik, bacarıq və peşəkarlıq səviyyəsindən asılıdır. Hal-hazırda ölkəmizdə hüquqi, demoqrafik dövlət quruculuğunun sürətlə inkişaf etdiyi dövrdə bu cürsəriştəlimütəxəssislərin hazırlanması məqsədilə təhsildə genişmiqyaslı, çağdaş dövrününün tələblərindən irəli çıxan islahatlar aparılır, pedaqoji kadr hazırlığı işinin səmərəliyinin yüksəldilməsi və müasirləşdirilməsi zəruri məsələ kimi qarşıya qoyulmuşdur.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi, iqtisadi və sosial-mədəni kurs Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilmiş, dövlətin iqtisadi inkişaf səviyyəsinə görə regionda söz sahibi ölkəyə çevrilmiş, siyasi sabitlik və iqtisadi inkişaf elm, təhsil sisteminin təşəkkülünə, təkmilləşdirilməsinə və islahatların aparılmasına da şərait yaratmış, bu sahədə tutarlımüvəffəqiyyətlərin əldə olunmasına səbəb olmuşdur. Ölkəmizdəelm və təhsilin inkişaf tarixinin, kadr hazırlığı işinin təhlili bir daha göstərir ki, ulu öndər Heydər Əliyevin bütün islahat təşəbbüsləri ölkə başçımız, müzəffər ali baş komandan cənab İlham Əliyev tərəfindən yeni formada və beynəlxalq arenada qazanılmış təcrübə əsasında uğurla davam və inkişaf etdirilmiş, ölkəmizin tərəqqisinə çox böyük töhfə vermişdir.

ƏDƏBİYYAT

1. Musa Qasımlı. Heydər Əliyev - İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, 608 s.

2. Hümeyir Əhmədov. Azərbaycanda elmi-pedaqoji kadr hazırlığının tarixi və müasir vəziyyəti // Azərbaycan məktəbi elmi-nəzəri, pedaqoji jurnal. Bakı, Radius MMC, 2021, №3/696, s.96.
3. Abbas Səmədov. Ümumillili liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı. Gəncə, Gəncə Dövlət Uuniversiteti nəşriyyatı, 2010, 498 s.
Valideyn himayəsindən məhrum olan uşaqların hüquqlarının müdafiəsi uşaq siyasətinin prioritet istiqamətlərdən biridir. Uşaqların müstəqil özünü ifadə etmək bacarıqlarının, cəmiyyətdə öz hüquq və maraqlarının müdafiəsi ilə bağlı proseslərdə aktiv iştirakının təmin edilməsi, həmçinin asudə vaxtlarının səmərəli keçirilməsi istiqamətində müəyyən nəticələr əldə olunmuşdur.

*Müstəqillik illərinin ilk dövrlərində uşaq siyasətinin və bu sahədə beynəlxalq əməkdaşlığın inkişaf tarixi.* 1992-ci ildə Azərbaycan BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına qoşulmuşdur. Bu beynəlxalq sənəd ölkəmizin qoşulduğu ilk beynəlxalq sənədlərdən biri olmuşdur. Bu milli qanunvericilikdə təkmilləşdirmə işinin aparılmasına, yeni mexanizmlərin yaradılmasına və uşaqlara qarşı zorakılıqla mübarizəyə ünvanlanan ümumi prinsiplərin formalaşdırılmasına təkan vermişdi. Bu Konvensiyanı ratifikasiya etməklə, dövlətimiz bütün uşaqların, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqlarının müdafiəsinə qərarlı olduğunu bütün dünyaya sübut etdi. Azərbaycan Hökuməti Konvensiya üzrə BMT-nin Uşaq Hüquqları Komitəsinə dövri məruzələr təqdim etməyə başladı [1].

Azərbaycan, eyni zamanda, "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında", "Uşaqların kənd təsərrüfatında işə buraxılmasının minimum yaşı haqqında", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair", "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasına (Lanzarotta) və digər Konvensiyalara da qoşulmuşdur. Dövlət tərəfindən ratifikasiya edilmiş konvensiyalara əsasən daxili qanunvericilikdə mühüm islahatlar aparılmışdır.

XX əsrin sonlarında iqtisadi keçid dövrünün ciddi problemləri, Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın 20 faizini zəbt etməsi bir sıra xoşagəlməz, mənfi sosial hadisələrin baş verməsinə gətirib çıxarmışdır. Ölkədə bir milyon Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür, onların üç yüz mindən çoxu uşaqlardır. Bu da təbii ki, uşaq problemlərini və onların hüquqlarının kobud surətdə pozulmasını yaradan amildir. 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirilməsi faktları qeydə alınmaqda davam edir. Bu hərbi münaqişə zamanı 175 uşaq qətlə yetirilmiş, yaralanan uşaqların sayı isə yüzlərlə olmuşdur. Dövlətimiz münaqişə müddətində 214 uşağın əsir və girovluqdan azad edilməsinə nail olmuşdur, 66 uşaq itkin düşmüşdür [2].

*Valideyn himayəsindən məhrum olan uşaqların hüquqlarının müdafiəsi sahəsində qanunvericilik bazasının yaradılması.* Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi sahəsində qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasinin qanundan, digər normativ hüquqi-aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

Müvafiq icra hakimiyyəti orqanları valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların və onların arasından olan şəxslərin sosial müdafiəsi üzrə məqsədli proqramları hazırlayır və həyata keçirir, onlar üçün mərkəzləşmiş xüsusi yaşayış yerləri, habelə təhsil, sosial xidmət və digər müəssisələrin bazasında sosial uyğunlaşma və reabilitasiya üzrə dövlət müəssisələri yaradırlar [3].

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından olan şəxslərin sosial müdafiəsi üzrə maliyyə xərcləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən minimum dövlət sosial standartlarına əsaslanır. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, habelə onların arasından olan şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyi ilə digər sosial müdafiə tədbirləri də müəyyən edilə bilər.

Uşaq siyasətinin reallaşmasında güclü qanunvericilik bazasının yaradılması çox vacib idi. Keçən dövr ərzində davamlı olaraq milli qanunvericilik və normativ-hüquqi aktlar təkmilləşdirilmiş, uşaq hüquqlarının müdafiəsi, normal formalaşması və uşaqların sağlam böyüməsinə yönəlmiş bir çox Dövlət Proqramları, Tədbirlər Planları qəbul edilmişdir.Bu proqramlar uşaqların hüquq və maraqlarının müdafiəsi, vahid dövlət uşaq siyasətinin formalaşdırılması, bu siyasətin tənzimlənməsi, həyata keçirilməsinin təmin edilməsi, uşaqların fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsinin təmin olunması sahəsində milli konsepsiyanı inkişaf etdirməyə yönəlmişdir.

Uşaq hüquqlarının müdafiəsini təmin etmək məqsədilə 19 may 1998-ci ildə "Uşaq hüquqları" haqqında qanun qəbul edilmişdir. Qəbul olunmuş bu mühüm hüquqi sənəd uşaqların hüquqlarını və azadlıqlarını, onlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir, ailə, cəmiyyət və uşaq münasibətlərinin əsas istiqamətlərini tənzimləyir. Həmçinin 2009-cu ilin "Uşaq ili" elan edilməsi uşaq siyasəti istiqamətində əlavə tədbirlərin həyata keçirilməsinə geniş imkanlar açmış, dövlət orqanlarının və vətəndaş cəmiyyətinin diqqətini daha da artırmışdır. "Uşaq ili" çərçivəsində uşaqların sağlamlığının möhkəmləndirilməsi ilə bağlı müxtəlif layihələr reallaşdırılmışdır. Bu sahədə atılan əməli addımlar sırasında perenatal qulluq sistemində islahatların aparılması, yeni doğulanlara müasir qulluq təcrübəsinin tətbiqi, bu sahədə müvafiq proqramların həyata keçirilməsi qeyd oluna bilər. Dövlət tərəfindən müasir tələblərə cavab verən 7 yeni perenatal mərkəz yaradılmışdır.

22 iyun 1999-cu ildə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasinin qanunu qəbul olunmuş və bu qanun valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının müdafiəsi sahəsində en prioritet normativ-hüquqi aktlardan biridir.

Uşaqların hərtərəfli inkişafında, intellektual və hüquqi biliklərə yiyələnməsində Ümumrespublika Uşaq Forumlarının keçirilməsi uşaq hüquqlarının müdafiəsi sahəsində mühüm addımlardan biri idi. Azərbaycan Uşaqlarının Ümumrespublika Forumlarının maraqlı tarixi var. Azərbaycan Respublikası Prezidentinin "Uşaq ili" çərçivəsində 17-18 dekabr tarixlərində Azərbaycanda ilk dəfə Azərbaycan Uşaqlarının I Ümumrespublika Forumu keçirilmişdir [4]. Uşaqların öz hüquq və mənafeləri ilə bağlı qərarların qəbul olunmasında iştirakının təmin edilməsi ilə bağlı hər üç ildən bir keçirilən bu forumlar Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və UNİCEF-in Azərbaycan nümayəndəliyinin dəstəyi ilə reallaşmışdır.

Uşaq hüquqlarının qorunması və qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində kifayət qədər geniş tədbirlər proqramı həyata keçirilibdir. Bu sıradan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 noyabr tarixli 180 nömrəli Qərarı ilə "İnsan alverinə məruz qalmış uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması Qaydalar"ının qəbul edilməsini misal gətirmək olar. Lakin zaman keçdikcə, ölkədə uşaq məsələləri kompleks yanaşma tələb edirdi. Və bu zərurət bu sahədə fəaliyyət göstərəcək dövlət qurumunun yaranmasına səbəb oldu. 6 fevral 2006-cı il tarixli Sərəncamı

ilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı [5]. Yarandığı gündən etibarən Komitə ailə, qadın və uşaq hüquqlarının müdafiəsi sahələrində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir, bu siyasətin həyata keçirilməsi və inkişafını təmin edir, qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

2007-ci il iyulun 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatlarının "Uşaqların Xilası" ("Save the children") Təşkilatı arasında "Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin təhvili haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikas Prezidentinin 24 avqust 2007-ci il tarixli 2355 saylı Sərəncamı ilə Goranboy və Şüvəlan, 15 fevral 2011-ci il tarixli 1328 saylı Sərəncamına əsasən isə Qəbələ, İsmayıllı, Zaqatala, Göygöl, Zərdab, Ağdam, Saatlı, Sabirabad, Hacıqabul rayonlarında fəaliyyət göstərən "Uşaq və Ailələrə Dəstək Mərkəzləri" Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tabeçiliyinə verilmişdir.

2010-cu ildə Komitənin təklifi və yaxından iştirakı ilə Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin Qanunda məişət zorakılığından əziyyət çəkən yetkinlik yaşına çatmamış şəxslərin hüquqlarının və mənafelərinin müdafiəsi ilə bağlı müəyyən müddəalar mövcuddur.

Uşaq məsələləri ilə əlaqədar dövlət qurumları arasında koordinasiya və nəzarət sisteminin təkmilləşdirilməsi çox vacib idi. 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilmişdir. Dövlət müəssisələrində uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinqi aparılır və bu monitorinq nəticəsində tövsiyələr hazırlanır.

Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı yaradılmış, artıq məlumatlar daxil edilir. Hazırda bütün yerli icra hakimiyyətlərində müvafiq yerli icra orqanlarının nümayəndələrindən ibarət Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları yaradılmışdır. Monitorinq qrupları eyni zamanda, zərərçəkmiş uşaqlarla profilaktik işi təşkil edir, onlara lazımi psixoloji və hüquqi yardımlar göstərir.

Qeyd etmək yerinə düşər ki, sağlam ailə mühiti uşaqların inkişafına təsir göstərir. Məsələ yalnız ali təhsildə, yaxşı işlə təmin olumaqdan, övladına ailə qurmaqda kömək etməkdən ibarət deyil. Əgər valideyn övladları ilə mütəmadi ünsiyyət qurmursa, onların həyatına, xüsusən də, keçid yaş dövründə etinasız yanaşırsa, əlbəttə, həmin uşaqlar bir sıra sosial-psixoloji problemlərlə üzləşəcəklər. Bir çox hallarda məişət zəminində baş verən zorakılıq zamanı uşaqlar həm zorakılığın şahidi, həm də zorakılığın qurbanı olurlar. Həmin uşaqlar çox ciddi psixoloji zədələr alırlar ki, bunun da sonradan ağır fəsadları yaranır. Onların sosial-psixoloji reabilitasiya keçməsinə böyük ehtiyac vardır. Bütün bu və digər məsələlər nəzərə alınaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət məcəllələrinə dəyişikliklərin edilməsi haqqında qanun layihələri hazırlanmışdır. 2015-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Qanunlar qəbul edilmişdir.

Ümumiyyətlə, müvafiq sahələrdə görülmüş işlər sırasında ilk olaraq qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi çox vacibdir. Həmin qanunların qəbul edilməsi yeni düşüncə tərzinin formalaşmasına və müəyyən stereotiplərin aradan qaldırılmasına təkan vermişdir. Nikah yaşı 17-dən 18-ə qaldırılmış, erkən nikahların qarşısının alınması məqsədi ilə qanunvericilikdə valideyn məsuliyyəti müəyyənləşdirilmişdir.

"Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə", "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair" Dövlət Proqramları, eyni zamanda, tərəflərin nikahdan əvvəl məcburi tibbi müayinədən keçməsi ilə bağlı Ailə Məcəlləsinə edilən dəyişiklik isə həm ailələrimizin, həm də gələcək nəsillərin sağlamlığına xidmət edir. Uşaqların təhsildən yayınması, əməyə cəlb edilməsi və onların məruz qaldığı digər sosial-psixoloji problemlər valideyn məsuliyyətinin artırılmasını zəruri edir. Bütün bu və digər məsələlər nəzərə alınaraq, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Qanunları qəbul edilmişdir.

Azərbaycan Repsublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə daim uşaq və gənclər üçün yaradılan imkanlar genişləndirilir. Bu imkanların reallaşması üçün müasir tipli məktəblər,

tibb ocaqları, idman kompleksləri tikilir və ya təmir edilir. Dövlət tərəfindən mütəmadi olaraq qaçqın və məcburi köçkün uşaqları üçün xidmətlərin təminatına, böyüməkdə olan nəslin sağlamlığına, təhsilinin inkişafına, hüquqlarının müdafiəsinə, uşaq iştirakçılığına yönəlmiş genişmiqyaslı tədbirlər və bu istiqamətdə görülən işlər gücləndirilməkdədir. Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın uşaq məsələlərinə diqqəti bu sahəyə qayğının daha da artırılmasına səbəb olur. Mehriban xanımın təşəbbüsü ilə xüsusilə həssas təbəqədən olan uşaqların hərtərəfli inkişafı, keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması, kimsəsiz, fiziki sağlamlığında problemi olan uşaqların sosial-psixoloji reabilitasiyası üçün resurs mərkəzinin yaradılması, bu uşaqların gələcəkdə məşğulluğunun təmin edilməsi, eləcə də müxtəlif peşələrin öyrədilməsi istiqamətində önəmli layihələr həyata keçirilir. "Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi çərçivəsində yüzlərlə təhsil ocağı tikilib istifadəyə verilmişdir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı” və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması” layihəsi çərçivəsində 100-dək körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunmuşdur. "Təhsilə dəstək” və "İnklüziv təhsil” proqramları, eləcə də "Məzun Evi Sosial” Müəssisəsi Fondun xidmətləri sırasında xüsusi vurğulanmalıdır.

Azərbaycanda uşaq hüquqlarının təmin edilməsi sahəsində demək olar ki, hər il qəbul edilən yeni hüquqi sənədlər bu sahənin inkişafı prosesini daha da sürətləndirir. "Uşaqların icbari dispanserizasiyası” haqqında qanunun qəbul edilməsi, təhsil qanunvericiliyində, sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı qanunvericilikdə yeni təminatların təsbit edilməsi, sosial təminatın gücləndirilməsi dövlətin uşaqlara olan diqqətinin nəticəsidir. İnternetdən, mediadan gələn zərərli informasiyalardan uşaqların qorunması üçün dövlət tərəfindən milli qanunvericilk bazasının təkmilləşdirilməsi istiqamətində işlər aparılıb, təhlükəsizlik proqram sistemləri yaradılmışdır.

***Tədqiq edilən dövr ərzində valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı statistik dinamikarın təhlili aşağıdakı nəticələrə gəlməyə imkan vermişdir:***

Müstəqillik əldə etdikdən sonra uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən mühüm addımların nəticəsi olaraq bu istiqamətdə bir çox göstəricilər üzrə müsbət statistik dinamikaların qazanılmasına nail olmuşuq. Valideynini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqlar üçün internat məktəblərinin sayı 1991-ci ildə 2, 2015-ci ildə isə 3 olmuşdur, həmin məktəblərdə uşaqların sayına nəzər salsaq, 1991-ci ildə 505 uşaq, 2014-cu ildə isə bu rəqəm azalaraq 398 olmuşdur. İnternat müəssisələrində təlim tərbiyə alan valideynini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların sayı 1991-ci ildə 955, 2015-ci ildə isə 602 olmuşdur. Körpələr evlərində həmin qrupa daxil olan uşaqların sayı 1991-ci ildə 150, 2011-ci ildə isə 43 azalmışdır [6].

Müsbət göstəricilər həmçinin erkən nikah, məişət zorakılığı, ana və uşaq ölümü və digər məsələlər üzrə əldə olunub. Azərbaycan qanunvericiliyi yetkinlik yaşına çatmayan qız uşaqlarının nikaha cəlb edilməsini qadağan edir ki, bu da Milli Məclis tərəfindən Ailə Məcəlləsində qızlar üçün evlilik yaşının 18 yaş müəyyən edilməsi nəticəsində mümkün olmuşdur. Azərbaycan Respublikası Cinayət Məcəlləsində yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə xüsusi maddə ilə məsuliyyət müəyyən edilmişdir. Belə ki, nikah yaşına çatmayanı nikaha daxil olmağa məcbur edən şəxs - üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Statistik göstəricilərə görə 2011-ci ildə 15-17 yaşlı analar tərəfindən doğulan uşaqların sayı 4392 olmuşdur. 2012-ci ildə onların sayı 3236 nəfərə, 2013-cü ildə isə 2855 nəfərə enmişdir. 2011-ci ildə 18 yaşadək nikaha girən qızların sayı 5138 idisə, 2012-ci ildə 295, 2013-cü ildə isə 229-a qədər azalmışdır . Məişət zorakılığı zəminində zorakılıqla bağlı cinayətlər 2011-ci ildə 2043, 2012-ci ildə 1514, 2013-cü ildə 713 olmuşdur. 5 yaşadək uşaqlar arasında ölənlərin sayına nəzər yetirsək, görərik ki, 1992 ildə ölən uşaqların sayı 7563 idisə, 2014-ci ildə bu rəqəmlər 3 dəfədən çox azalaraq 2092 olmuşdur. [6] 1995-ci ildə cinayət törətmiş 14-17 yaşda olan uşaqların sayı 945 nəfər idi, 2015-ci ildə isə bu göstərici iki dəfə azalaraq 477 təşkil edibdir. Məhkum olmuş 14-17 yaşda olan uşaqların sayı 1995-ci ildə 615 nəfər təşkil edirdi, 2015-ci ildə isə bu rəqəm 3 dəfə azalaraq, 286 çatmışdır.

*Nəticə*. Hazırda ölkədə iki milyondan çox uşaq vardır. Müasir Azərbaycanda uşaqlar üçün müvafiq xidmətlərin təminatına, təhsilin inkişafına, hüquqların müdafiəsinə, sağlamlığına, uşaq inkişa-

fına dair bütün imkanlar yaradılıbdır. Mövcüd dövr ərzində araşdırılan müqayisəli statistik rəqəmlərin analizi respublikada həmin dövr ərzində uşaq hüquqlarının müdafiəsi sahəsində aparılan uğurlu islahatların göstəricisi kimi qeyd oluna bilər.

Müstəqillik illərində valideyn himayəsindən məhrum olan uşaqların hüquqlarının müdafisəi istiqamətində aparılan siyasət, qəbul olunan normativ-hüquqi sənədlər, davamlı islahatlar müasir dövrünün uğurlu uşaq siyasətinin təməlini qoymuşdur. Həmin dövrdə qəbul olunan qanunlar, reallaşan dövlət proqramlar və həyata keçirilən maarifləndirici tədbirlər uşaq hüquqların müdafisəi sahəsində yeni düşüncə tərzinin formalaşmasına və müəyyən stereotiplərin aradan qaldırılmasına təkan veribdir.

ƏDƏBİYYAT

1. “Uşaqların layiqli vətəndaş kimi formalaşması prioritet istiqamətdir” - Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru Bahar Muradova ilə müsahibə. 01.06.2020. - http://www.azerbaijan-news.az/view-190336/usaqlarin-layiqli-vetendas-kimi-formalasmasi-prioritet-istiqametdir [Müraciət tarixi: 01.12.2021].
2. V. Məmmədəliyev, B.Sadıqov, A.Rzayev, A.Sofiyeva. Children are innocent victims of war, Bakı: Neoprint, 2017, 34 s.
3. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU, 22 iyun 1999. - http://www.e-qanun.az/framework/3859 [Müraciət tarixi: 01.12.2021].
3. “Dövlət uşaq siyasəti uğurla davam edir” - Azərbaycan Respublikası *Milli Məclisin Ailə, Qadın və Uşaq məsələləri Komitəsinin sədri Hicran Hüseynova ilə müsahibə,* 23 noyabr 2017 il. - https://sesqazeti.az/news/interview/648503.html [Müraciət tarixi: 01.12.2021].
4. Ailə, Qaın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin illik hesabatları, 6 fevral 2016-cı il. - http://scfwca.gov.az/page/illik-hesabatlar [Müraciət tarixi: 01.12.2021].
5. “Azərbaycanda Uşaqlar” Statistik məcmuə/2020, Bakı: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi nəşri, 2020, səhifə 22.
6. Uşaq ölümü (5 yaşadək uşaqlar), Statistik məcmuə, 20 aprel 2020-ci il. - https://www.stat.gov.az/source/demoqraphy/ [Müraciət tarixi: 01.12.2021].

**РАИДА АМИРБЕКОВА**
*Диссертант Азербайджанского Университета,*
*сотрудница Государственного комитета по делам семьи, женщин и детей*

## ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА ПО ЗАЩИТЕ ПРАВ ДЕТЕЙ, ЛИШЕННЫХ РОДИТЕЛЬСКОГО ПОПЕЧИТЕЛЬСТВА (1991-2015 годы)

В данной статье анализируются основные направления по реализации государственной политике в области защиты прав детей, лишенных родительского попечительства в годы независимости. Также автором исследуется результаты реализуемых инициатив посредством анализа динамики статистических показателей.

*Ключевые слова*: независимость, детская политика, родительское попечительство, законодательство, международные конвенции, государственные программы, детские учреждения, статистические показатели.

**RAİDA AMİRBAYOVA**
*Doctoral student of Azerbaijan University,*
*employee of the State Committee on Family, Women and Children*

## THE STATE POLICY OF REPUBLIC OF AZERBAIJAN ON PROTECTION OF CHILDREN DEPRIVED FROM PARENTAL CARE IN THE YEARS OF INDEPENDENT (1991-2015 years)

This article analyzes the main directions of the implementation of the state policy on protection of children deprived from parental care in the years of independence in the Republic of Azerbaijan.

The author also studies the results of the implementation of the initiative by analyzing the dynamics of statistical indicators.

*Key words*: independence, children policy, deprived from parental care, legislation, international conventions, state programs, child institutions, statistical data.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 dekabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 32:93/94**

**TURAL QASIMOV**
*Bakı Dövlət Universitetinin Politologiya və sosiologiya kafedrasının doktorantı*
**turalqasimov12@gmail.com**

# SİYASİ ELİTANIN TİPOLOGİYASI VƏ BAŞLICA FUNKSİYALARI

*Siyasi hakimiyyətin – əsas spesifik cəhətlərindən biri legitimlikdir. Legitimlik hakimiyyətin həyata keçirilməsini müdafiə etmək, onun qanuniliyini təsdiqləmək formasıdır, bütövlükdə dövlət tərəfindən və yaxud onun ayrıca strukturları və institutları tərəfindən tətbiq edilən konkret idarəetmə formasının bəyənilməsidir. İlk başlanğıcdan qanuna əsaslanan, cəmiyyətin özü və xarici dövlətlər tərəfindən rəsmən tanınan hakimiyyəti xalq qəbul edir. Belə hakimiyyət cəmiyyətlə siyasi hakimiyyətin qarşılıqlı münasibətində konsensusun qərarlaşmasına imkan yaradır, xalq, cəmiyyət bu hakimiyyətin rəhbər rolunu etiraf edir.*

*Açar sözlər*: siyasi hakimiyyət, siyasi elita, legitimlik, dövlət, siyasi leqal.

*Giriş*. Tarixi təcrübə təsdiqləyir ki, hakimiyyətin legitimliyi hələ onun səmərəli siyasi hakimiyyət olması demək deyildir. Qanuna əsaslanan, legitim hakimiyyət səmərəli olmaya da bilər. Legitim hakimiyyətin səmərəli cəhətlərindən biri demokratik prinsiplər və dəyərlər əsasında inkişaf etmiş müasir cəmiyyət yaradılmasına nail olmaqdan ibarətdir.

"Legitimlik" sözü etimoloji cəhətdən öz başlanğıcını latın dilində leqalis – qanunsuzluq məvhumundan əldə etmişdir". "Legitimlik" termini (fransız dilində legimite – qanunçuluq sözünü ifadə etməklə) bir neçə məna kəsb edir. İlk əvvəl bu termin XIX əsrin başlanğıcında Fransada təşəkkül tapıb və praktiki olaraq "leqallıq" termini ilə eyniləşdirilir. Leqallıq sözü də fransız dilində legimite məvhumundan götürülmüşdür. Leqallıq zorakılıqla qəsb edilən hakimiyyətdən fərqli olaraq qanuni əsasa malik olan hakimiyyəti ifadə etmək mənasında istifadə olunmuşdur. Lakin "legitimlik" termini ciddi hüquqi məzmun kəsb etmir və konstitusiyada təsbit edilmir. Legitimlik hakimiyyətin psixoloci xarakteristikası kimi səciyyələnir və sırf leqallığa qarşı mənalanır. Legitimlik qanunçuluğun sinonimi kimi səciyyələnmir. Çünki siyasi hakimiyyət heç də həmişə hüquqa və qanuna əsaslanmır, lakin əhalinin bir qismi tərəfindən həmişə bu və ya digər cəhətdən müdafiə olunur, siyasətin real subyektləri tərəfindən hakimiyyətin dayağı kimi səciyyələnir və leqallıqdan fərqlənir. Buna görə "legitimliyin hər bir tipi minimal sosial konsensusun mövcudluğunu nəzərdə tutur" (1, 19).

*Əsas mətn*. Müəyyən siyasi sistemlərdə hakimiyyət leqal və qeyri-legitim ola bilər. Müstəmləkəçi ölkələrin müstəmləkə dövlətlərində tətbiq etdiyi idarəetmə buna misal ola bilər, digərlərində legitim, lakin qeyri-leqal müşahidə edilə bilər, məsələn, əhalinin böyük əksəriyyətinin müdafiə etdiyi inqilabi çevrilişlərdən sonra, nəhayət hakimiyyət həm leqal və eləcə də legitim mahiyyət kəsb edə bilər, məsələn, seçkilərdə müəyyən qüvvələrin qələbəsindən sonra.

Legitimlik politoloji baxımdan hakimiyyətin vətəndaşlar tərəfindən müdafiəsi və qəbul olunması kimi başa düşülür. Bu o deməkdir ki, legitimlik siyasi hakimiyyətin və siyasi elitanın idarə edilənlərin əksəriyyəti tərəfindən təsdiqidir, etiraf olunmasıdır. Bu cəhəti "legitimlik" anlayışının terminoloji mənası da təsdiqləyir. Legitimlik termini latın dilində "legitumus" sözündən götürülüb qanuni mənasını əks etdirir. "Hakimiyyətin legitimliyi" termini elmə ilk dəfə Maks Veber tərəfindən gətirilmişdir.

Siyasi hakimiyyətin və onun daşıcıyısı siyasi elitanın legitimliyi mühüm əhəmiyyətə malikdir. Siyasi praktika sübut edir ki, cəmiyyətin hakimiyyəti müdafiə etməsi, ona inamı hakimiyyətin rasionallığı üçün vacib şərtdir. Əksinə, vətəndaşların siyasi hakimiyyətin və siyasi elitanın qanuniliyinə zəif inamı bu hakimiyyətin və onun başlıca daşıyıcısının (siyasi elitanın) qeyri-sabitliyinin başlıca səbəblərindəndir. Heç də təsadüfi deyil ki, hər bir siyasi hakimiyyət xalqın inamını qazanmağa çalışır. Bu məqsədlə müxtəlif üsul və vasitələrdən istifadə edilir, ayrı-ayrı sənədlər, fərmanlar, qərarlar, qanunvericilik aktları nəşr olunur. Legitimləşmənin obyektini adətən dövlət və onun orqanları, icti-

mai quruluş, siyasi rejim, həyata keçirilən siyasi və iqtisadi proqramlar və s. təşkil edir. Siyasi hakimiyyətin və siyasi elitanın legitimliyi üçün dövlət xadimləri, siyasi lider böyük rol oynayır.

Legitimlik hakimiyyətin əhalinin geniş təbəqələri tərəfindən müdafiə olunmasını təcəssüm etdirməklə, bütün siyasi rejimlərin ən dəyərli məqsədidir. Hakimiyyətin sabitliyini və möhkəmləyini ilk növbədə məhz legitimlik təmin edir. Əhalinin hakimiyyətin siyasətinə müsbət münasibəti və onun idarə edən elitanın səlahiyyətini qəbul etməsi (bütün problemlər üzrə) ictimai rəy fonunda formalaşır. Əhalinin hakimiyyəti bəyənməsi və müdafiə etməsi müxtəlif siyasi və vətəndaş ənənələri, ideologiyanın yayılması mexanizmi, dövlətin və cəmiyyətin müəyyən təşkilatları ilə bağlıdır.

Əhali idarə edənləri, eləcə də o zaman müdafiə edə bilər ki, onlar dövləti pis idarə edirlər. Belə halda legitimlik hətta idarəetmənin zəiflədiyi şəraitdə də formalaşa bilər.

Legitimlik həmçinin əhali tərəfindən yox, məhz dövlət (hökumət) tərəfindən və siyasi strukturlar (hökumət partiyaları) tərfindən formalaşdırıla bilər. Bu strukturlar kütləvi şüurda idarə edən rejimin fəaliyyətinin müsbət qiymətləndirilməsinin təkrar istehsalına çalışırlar. Belə legitimlik vətəndaşların dövlətə münasibətdə müəyyən qaydaları və münasibətləri müdafiə etmək üçün öz borcunu yerinə yetirmək hüququna əsaslanır. Bu, hakimiyyətin, elitar strukturların, təşəkkül tapan siyasi institutların yeritdiyi davranış xəttinin insanların ədalətli inamını müdafiə etmək qabiliyyətindən asılıdır.

Belə legitimliyin formalaşması üçün dövlətin institsional və kommunikativ resursları çox böyük əhəmiyyət kəsb edir. Beləliklə, legitimlik mahiyyət etibarilə qanuniliklə, leqallıqla, dövlət hakimiyyətinin hüquqi cəhətdən əsaslandırılması və onun cəmiyyətdə mövcudluğunun möhkəmləndirilməsi ilə eyniləşdirilir (2, 218-219).

Legitimlik həmçinin xarici siyasi mərkəzlər, başqa sözlə dost dövlətlər və beynəlxalq təşkilatlar vasitəsilə formalaşa bilər. Legitimliyin belə mənbəyi çox vaxt beynəlxalq münaqişələr şəraitində dövlət başçılarına aid seçkilərdə istifadə olunur.

Legitimlik kateqoriyası həm də siyasətçilərin özünün, müxtəlif institutların, normaların və dövlətin ayrıca orqanlarının xarakteristikası üçün tətbiq edilir. Başqa sözlə, dövlətin daxilində də müxtəlif siyasi subyektlər müxtəlif xarakterə malik ola bilər və ictimai və ya beynəlxalq rəy tərəfindən müxtəlif səviyyədə müdafiə edilə bilər. Məsələn, Yuqoslaviyada prezident institutu ölkə daxilində geniş səviyyədə müdafiə olunur, lakin beynəlxalq aləmdə kəskin şəkildə pislənir, çünki xeyli ölkələr Miloşeviçi hərbi cinayətkar kimi tanıyırlar. Və yaxud əksinə, ayrıca siyasətçilər və ya partiyalar ölkədə kəsin tənqidə məruz qala bilərlər, lakin xaricdə demokratik hərəkatın nümayəndəsi kimi müdafiə oluna bilərlər. Həmçinin, əhali parlamenti müdafiə edə bilər və hökumətin fəaliyyətinə qarşı etiraz edə bilər, eləcə də prezidenti müdafiə edə bilər və nümayəndəli orqanların fəaliyyətinə neqativ münasibətini təzahür etdirər. Beləliklə, legitimlik ayrıca siyasətçilərlə hakimiyyət orqanlarının iyerarxiyalı əlaqəsinin təşkilinə imkan verməklə müxtəlif intensivlik kəsb edə bilər. M.Dyuverjenin qeyd etdiyi kimi, xalqın razılaşdığı hər cür rejim legitimdir. Bir sözlə, leqal hakimiyyət hüquqi cəhətdən əsaslandırılan və hakimiyyətin hüquqi varlığıdırsa, legitimlik hüquqi funksiyaya malik deyildir və hüquqi proses kimi səciyyələnmir.

Siyasi hakimiyyətin və onun başlıca daşıyıcısı siyasi elitanın legitimliyi mühüm əhəmiyyətə malikdir. Çünki bir qayda olaraq xalqın, cəmiyyətin mövcud hakimiyyəti bəyənməsi və müdafiə etməsi, ona inamı hakimiyyətin rasionallığı üçün zəruri şərtdir. Əhalinin siyasi hakimiyyətin qanuniliyinə inamının olmaması mövcud cəmiyyətin qeyri-sabitliyi üçün əsas amillərdən sayılır. Heç də təsadüfi deyil ki, bu və ya digər ölkədə hakimiyyətə yiyələnən hər hansı sosial qüvvə hər şeydən əvvəl, vətəndaşların inamını əldə etməyə çalışır. Bunun üçün müxtəlif üsul və vasitələrdən istifadə edilir. Legitimləşmənin obyektini dövlət və onun orqanları, siyasi recim, həyata keçirilən siyasi və iqtisadi islahatlar və digər tədbirlər təşkil edir. Əlbəttə, siyasi hakimiyyətin legitimliyi xeyli dərəcədə həmçinin siyasi liderin, dövlət xadimlərinin fəaliyyətinin xarakteri ilə müəyyənləşir. Ölkəyə rəhbərlik edən şəxs bir qayda olaraq legitimliyin təminatçısı olmalıdır. Bu zəruri şərt hakimiyyətin rasionallığı və eləcə də ölkədə sabitliyin bərqərar olması üçün olduqca vacibdir.

Mövcud siyasi institutların qanuniliyinə və effektivliyinə inamın yaranması müxtəlif üsullarla əldə edilir. Alman sosioloqu M.Veber legitimliyin üç ideal tipini fərqləndirmişdir: ənənəvi, harizmalı, rasional-leqal. Lakin legitimliyin bu tipləri praktikada açıq-aydın bir-birinə qarşı durmurlar. Onlar daha çox qovuşurlar və bir-birini tamamlaya bilərlər (3, 128).

Hakimiyyətin legitimliyinin ilk tarixi tipi ənənəvilik (rəhbərlərin, kralların hakimiyyəti) hesab olunur. Ənənəvi legitimlik ənənəviliyin müqəddəs xarakterinə dərin inama və bu ənənə sayəsində hakimiyyətə gələnlərin legitimliyinə əsaslanmışdır. Hakimyyətin özü isə cəmiyyətin hökmdara və məcburetməyə tabe olması ənənəsinə əsaslanmışdır. Beləliklə, mövcud qaydaların müqəddəsliyinə və ədalətli olmasına inam yaranmışdır. Legitimliyin ənənəvi tipi indiki zamana qədər saxlanmışdır və nəzərə çarpacaq dərəcədə transformasiya edilmişdir. Məsələn, kral hakimiyyətinin ənənəvi legitimliyi hazırda bir sıra ölkələr üçün reallıqdır: Nepal, Səudiyyə Ərəbistanı, Oman, İordaniya, Küveyt və digərləri. İnkişaf etmiş Yaponiya və İngiltərə kimi ölkələrdə kral hakimiyyətinin saxlanması monarxiya institututunun simvolik rolunu əks etdirir. Bir sözlə, legitimliyin bu tipinə irsi idarəetmə tipində, xüsusilə monarxiya dövlətlərində təsadüf olunur və ənənələr idarəetmənin əsası kimi çıxış edir. Ənənəvi hakimiyyətdə liderlər, rəhbərlər ənənəni pozurlarsa onların legitimliyi kütlələrin gözündən düşür, həm də ola bilər ki, onlar hakimiyyətdən kənarlaşdırılsın. Buna görə M.Veber qeyd edirdi ki, irsi monarxiyanı demokratiya şəraitində də saxlamaq vacibdir, belə halda çoxəsrlik ənənəyə malik olan dövlətin nüfuzunu möhkəmləndirmək mümkündür (4, 661).

Legitimliyin ikinci tipi harizmalı hakimiyyətdir. Hakimiyyətin harizmalı tipi modernləşmiş cəmiyyətdə yaylımışdır. Harizma liderin xüsusi istedadını, ilahi qabiliyyətini təcəssüm etdirməklə onu xüsusi keyfiyyətlərə malik olan fövqəlinsan kimi səciyyələndirir. Elmi ədəbiyyatda belə şəxslərə Məhəmməd, Solomon, Makedoniyalı İskəndər, Sezar və başqaları aid edilir. Harizma elementlərinə həm də Lenin, Stalin, Mao, De Foll, Hitler, Ruzvelt, Çörçill və digərləri malik idilər.

Hakimiyyəti harizmalı tipi affektli (qeyri-təbii) fəaliyyətə əsaslanır və qeyri-adi şəraitdə inkişaf edən cəmiyyətlər üçün səciyyəvidir. Hökmranlığın harizmalı tipi mahiyyət etibarilə nüfuz hakimiyyətidir, harizmalı hakimiyyətin nüfuzuna, istedadının gücünə əsaslanır. Hakimiyyətin həyata keçirilməsinin belə tipinə hər şeydən əvvəl, ictimai inkişafın keçid və dönüş mərhələlərində, inqilabi dəyişikliklər, dərin və mürəkkəb sosial-siyasi islahatlar, milli müharibələr dövründə təsadüf edilir. Harizmalı hökmranlıq tipi çox vaxt cəmiyyətdə azadlığın olmadığı şəraitdə inkişaf edir. Harizmalı nüfuz norma və qaydalarla bağlı deyildir. O, ideyalardan çox, kütlələrin rəhbərə sədaqəti və onun xüsusi keyfiyyətlərinə inamdan asılıdır. Harizmalı legitimliyin təşəkkülü üçün rəhbərin xüsusi keyfiyyətlərə malik olmasından daha vacib olan onun ardıcılları tərəfindən qəbul olunmasıdır, ona hörmət edilməsidir. Harizmalı hakimiyyət ənənəvi və leqal hakimiyyətlə müqayisədə nisbi sabitliyə malikdir.

Legitimliyin harizmalı tipinin növlərindən biri rəhbərə sitayiş etməkdən ibarətdir. Bu xüsusiyyət dinamiklik kəsb etməyən avtoritar və totalitar cəmiyyətlər üçün səciyyəvidir. Sitayiş etməyin bütün növləri üçün ümumi cəhət odur ki, aşağıların yuxarılara, hamının isə liderə şəxsi sədaqəti tələb edilir. Millətin və ya xalqın "atasına" məhəbbət formalaşdırılır.

Legitimliyin üçüncü tipi sayılan rasional-leqal legitimlik demokratik dövlətlər üçün səciyyəvidir. Rasional (demokratik) legitimlik elə rasional və demokratik proseduralar əsasnıda təşəkkül tapır ki, bunun sayəsində hakimiyyət sistemi formalaşır və nəticə etibarilə insanlar ədalətin mövcudluğunu etiraf edirlər. "Demokratiya o zaman mümkündür ki, fərdi olanın, ayrıcanın özünü ifadəsini nəzərdə tutur və stimullaşdırır" (5, 38-39).

Hakimiyyətin leqallığı idarəetmə və tabeçilik münasibətlərini tənzimləyən hüquqi normalara, konstitusiyaya əsaslanır. Bu normalar dəyişikliklər, qanunla müəyyənləşdirilən proseduralar üçün imkan yaradır. Siyasi elita öz hakimiyyətini əsaslandırmaq üçün fəaliyyətdə olan qanunvericiliyə müraciət edir və vətəndaşların azad iradəsini, seçimini, qanun çərçivəsində fəaliyyət göstərən bərabərhüquqlu bütün siyasi qüvvələri, dövlətin fəaliyyət sferasının məhdudlaşdırılmasını nəzərdə tutur. Rasional-eqal legitimlik cəmiyyətin bütün strukturlarının, o cümlədən dövlət orqanlarının qanuna ciddi əməl etmələrini ifadə edir, əhalinin bütün təbəqələrinin siyasi institutlarda təmsil olunmasını, vətəndaşların dövlət quruluşuna inamını, şəxsiyyətin ayrıca liderə, rəhbərə yox, məhz qanuna tabeçiliyini əks etdirir.

Rasional-hüquqi meyara əsaslanan legitim hakimiyyət özünün uzunmüddətli olacağına təminat verir. Bunu daha çox demokratik siyasi recimlərlə səciyyələnən dövlətlərdəki siyasi hakimiyyət və onun daşıyıcısı siyasi elita şərtləndirir, belə dövlətlərin siyasi və iqtisadi sisteminin yüksək inkişaf səviyyəsi reallaşdırılır. Siyasi praktika təsdiqləyir ki, hər bir yeni demokratik dövlət faydalı seçimə üstünlük kateqoriyasını fərqləndirir (6, 140).

Radikal sosial-iqtisadi dəyişikliklər dövründə bir qayda olaraq hakimiyyətin qanuniliyinin böhranı müşahidə olunur. Köhnə recim legitimliyi itirir, yeni recim isə hələ ona yiyələnmir. Yeni rejimin vəziyyəti xeyli dərəcədə ondan asılıdır ki, öz legitimliyini təsdiqləməyə hansı üsulla cəhd edir.

Praktika göstərir ki, legitimliyin ilk iki tipi ilə müqayisədə sabit legitimliyi məhz rasional-hüquqi üsul şərtləndirir, başqa sözlə hakimiyyətə inam və ona rəğbət sabit legitimliyə aparan qanuni yolun mövcudluğu ilə qəbul edilir. Cəmiyyətdə – siyasi aləmdə razılaşdırılan nisbi "oyun qaydaları" formalaşır. (7, 46).

Rasional – hüquqi üsul dövlətdə cəmiyyət arasında müəyyən məsafə çərçivəsində yüksək siyasi mədəniyyəti nəzərdə tutur. "Mədəniyyət siyasi sistemin öyrənilməsinin açarıdır" (8, s.86). Siyasi mədəniyyət cəmiyyətin siyasi sisteminin fundamental xarakteristikasıdır.

Elmi ədəbiyyatda qeyd edildiyi kimi, etnik legitimliyin təzahürü də mümkündür, başqa sözlə hakimiyyət strukturlarının milli əlamət ürə formalaşması nəzərə çarpa bilər. Etnik legitimlik yerli milləti təmsil edən şəxslərin yüksək fəallığı sayəsində inkişaf edir. Etnik legitimlik tarixi perspektivlik kəsb etmir, çünki dünya inkişafının aparıcı meyli konstitusiyaya əsaslanan, legitimliyin rasional-hüquqi tipi kimi səciyyələnir.

Alimlər legitimliyin digər növlərini də fərqləndirirlər:

– praqmatik (nemətlərin mübadiləsinə razılıq);

– ideoloji (hakimiyyət və sosial gerçəklik haqqında müəyyən təsəvvürlərin təbliği);

– vətənpərvər (insanın öz ölkəsi və onun siyasəti ilə fəxr etməsi);

– texnokratik (siyasət texniki bilik və vərdişlər tələb edən sənət kimi nəzərdən keçirilir).

Bəzi tədqiqatçılar legitimliyi daha universal və dinamik xarakterə malik anlayış kimi müəyyənləşdirməyə cəhd edirlər. Məsələn, D.Held legitimliyin M.Veber tərəfindən müəyyənləşdirilən tipləri ilə yanaşı, "əhalinin təhlükə altında saxlanması" tipinin mövcudluğunu da qeyd edir və bildirir ki, insanlar hakimiyyəti müdafiə edərkən onun tərəfindən özlərinə təhlükə yarana biləcəyini də düşünürlər, həm də hakimiyyəti ona görə bəyənir və müdafiə edirlər ki, onun tərəfindən təhlükəyə məruz qalmasınlar (9, 100). Elmi ədəbiyyatda legitimliyin normativ (əhali ilə hakimiyyətin siyasi prinsiplərə aid təsəvvürlərinin üst-üstə düşməsi), yüksək normativlik (həmin prinsiplərin tam uzlaşması) və digər növlərinin mövcudluğunu da bildirirlər.

*Nəticə*. Müxtəlif hakimiyyət tiplərinin vətəndaşlar tərəfindən müdafiəsi və qəbul olunması cəmiyyətin inkişafının tarixi şəraitindən, təşəkkül tapan konkret-tarixi situasiyadan, ölkədəki siyasi mühitdən və digər amillərdən asılıdır. Legitimliyin meyarının müəyyənləşdirilməsində iki başlıca fikir istiqaməti daha çox yayılmışdır. Liberal və praqmatik legitimliyə aid liberal (demokratik) görüş ondan ibarətdir ki, yalnız elə hakimiyyəti təsdiqləmək lazımdır ki, demokratik qaydalar əsasında formalaşmışdır. Praqmatik yanaşmaya görə, hakimiyyətin legitimliyi problemində başlıca cəhət onun formalaşması qaydaları yox, məhz hakimiyyətin cəmiyyətdəki situasiyanı idarə etmək qabiliyyətidir, onun sabitliyini saxlamaqdan, effektli fəaliyyətdən ibarətdir.

Aydın məsələdir ki, tam legitimliyə nail olmaq heç yerdə mümkün deyildir. Legitimliyin diapazonu çox genişdir: rejimin ümumxalq bəyənilməsindən tam inkar edilməsinə qədər. Hətta inkişaf etmiş demokratiyalarda siyasi sistemin qüsura malik olduğunu vətəndaşlar etiraf edirlər.

## ƏDƏBİYYAT

1. Легитимность и легитимация в России/Под ред. С.А.Ланцова. СПб., СПбГУ, 1995, 397 с.
2. Франк С.Л. Из размышлений о русской революции // Новый мир, 1990, № 4, с.214-226.
3. Мухайев Р.Т. Теория политики: Учебник. М.: Юнити, 2005, 623 с.
4. Вебер М. Избранные произведения. М.: Прогресс, 1990, 808 с.
5. Абдульгасан А. Демократия. Наличная и должная. Б.: Адилоглу, 2005, 179 с.
6. Шмиттер Ф. Угрозы и дилеммы демократии // Век XX и миг. 1994, № 7-8. - http://old.russ.ru/antolog/predely/1/dem2-2.htm [Müraciət tarixi: 06.04.2021].
7. Дравязка С.П. Социальное правовое государство и государство вообще // Вестник. Белорус.ун-та. Сер.3, 1996, №2, с.45-48.

8. Эндреун У.Ф. Сравнительный анализ политических систем: Монография. М.: Аспект-Пресс, 2000, 467 с.
9. Соловьев А.И. Политология: Учебник. М.: Аспект-Пресс, 2006, 560 с.

**ТУРАЛ КАСУМОВ**
*Докторант кафедры Политологии и социологии Бакинского Государственного Университета*

## ТИПОЛОГИЯ И ОСНОВНЫЕ ФУНКЦИИ ПОЛИТИЧЕСКОЙ ЭЛИТЫ

В статье описываются понятия политической власти и политической элиты, выясняется их легитимность. Кроме того, подчеркиваются исторические типы политической легитимности и принимаются во внимание наиболее ценные идеи, имеющиеся в политологи.

*Ключевые слова*: политическая власть, политическая элита, легитимность, государство, политический, легальный.

**TURAL KASUMOV**
*Doctoral student of the Department of Political Science and Sociology of Baku State University*

## TYPOLOGY AND BASIC FUNCTIONS OF THE POLITICAL ELITE

The article describes the concepts of political power and political elite, it turns out their legitimacy. In addition, historical types of political legitimacy are emphasized and the most valuable ideas available in political science literature are taken into account.

*Keywords*: political power, political elite, legitimacy, state, political, legal.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 aprel 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: f.ü.f.d. Fazil Vahidov, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 32:93/94**

**TOĞRUL SALMANZADƏ**
*Bakı Dövlət Universitetinin doktorantı*
**togrulsalmanzada@gmail.com**

# SİVİLİZASİYALARARASI MÜNASİBƏTLƏRDƏ DİALOQ ANLAYIŞININ TƏHLİLİ

*Soyuq müharibədən sonrakı dövrə nəzər saldıqda bipolyar (ikiqütblü) dünya nizamının dağılmasından sonra yeni qütblərin hansı mərkəzlər və ya hansı sistemlər, ideologiyalar əsasında formalaşması ilə bağlı bir qeyri-müəyyənlik var idi. Belə bir şəraitdə sivilizasiya kimliyi anlayışının yüksəlişi dünya siyasətində sivilizasiyalararası dialoq problemini də gətirdi. Yeni dünya nizamına alternativ olaraq da təqdim olunan sivilizasiyalararası dialoqun qeyd olunan problemləri nə dərəcədə həll etmək imkanında olduğu, bu dialoqun hansı çərçivələri əhatə etməsi müasir siyasi elmdə müzakirə mövzusudur. Araşdırmanın məqsədi müasir dövrdə ictimai-siyasi diskursda tez-tez müraciət olunan sivilizasiyalararası dialoq anlayışını təhlil etmək və burada istifadə olunun dialoq terminin tarixi olaraq və müasir siyasətşünaslıqda hansı kontekstləri əhatə etdiyini öyrənməkdir. Tədqiqatın metodologiyası müasir siyasi elmin, konfliktologiyanın və siyasi fəlsəfənin tədqiqat üsullarına əsaslanır. Mövzunun işlənməsi zamanı biheviorizm, strukturalizm, konseptual analiz, tarixi və siyasi analiz metodlarından istifadə edilmişdi. Tədqiqatın elmi yeniliyini sivilizasiyalararası münasibətlərin tarixi inkişaf prosesinə müraciət etməklə dialoqun necə formalaşmasını və onunla müqayisədə müasir zamanda olan dialoqun təhlil edilməsi təşkil edir. Bununla yanaşı hazırda sivilizasiyalararası dialoqa mane olan amillər, xüsusən, fundemantalizmin yüksəlişi təhlil olunmuşdur. Tədqiqatın nəticəsi. Sivilizasiyalararası dialoqu inkişaf etdirmək üçün ilk növbədə beynəlxalq münasibətlərə olan yanaşmada dəyişiklik olmalı, beynəlxalq mühit qarşıdurma məkanı kimi deyil, əməkdaşlıq kimi qəbul olunmalıdır. Sivilizasiyalararası dialoq həm daxili, həm də xarici siyasətlə bağlı olduğu üçün prosesdə tərəflər kimi yalnız dövlətlərin iştirakı və ya dövlətlərə müraciət olunması özü də dialoqun məhdudlaşmasına səbəb olur. Beynəlxalq münasibətlərin digər aktorları olan hökumətlərarası təşkilatların, qeyri-hökumət təşkilatlarının da bu prosesdə iştirakı vacib amildir. Bununla yanaşı, sivilizasiyalar və onların əsas təmsilçiləri olan dövlətlər daxilində fundamentalist yanaşmaların yüksəlişinin qarşısı alınmalıdır, çünki mahiyyət etibarilə fundamentalizm özü dialoqu inkar edir.*

*Açar sözlər*: sivilizasiya, dialoq, kimlik, sülh, təhlükəsizlik, fundamentalizm.

*Giriş*. Sivilizasiyalararası dialoq termininin elmi-siyasi ədəbiyyata daxil olması əsasən XX əsrin ikinci yarısına təsadüf etsə də, əslində, dialoq problemi bütün bəşər tarixi boyu mövcud olmuşdur. Müasir dövrdə qarşılıqlı əlaqələrin inkişaf etməsi, ideoloji, dini, regional birliklərin yaranması, mədəni kimlik problemin üzə çıxması və bu fonda siyasi institutların fəaliyyəti siyasi elmdə *"sivilizasiyalararası dialoq"* probleminin ortaya çıxmasına səbəb oldu. Sivilizasiyalararası dialoqdan danışarkən ilk növbədə *"sivilizasiya"* və *"dialoq"* anlayışlarının mahiyyətini araşdırmaq, onu digər qarşılıqlı əlaqələrdən fərqləndirən xüsusiyyətləri və sivilizasiyalararası dialoqun konturlarını müəyyən etmək lazımdır.

Soyuq müharibədən sonrakı dövrə nəzər saldıqda bipolyar (ikiqütblü) dünya nizamının dağılmasından sonra yeni qütblərin hansı mərkəzlər və ya hansı sistemlər, ideologiyalar əsasında formalaşması ilə bağlı bir qeyri-müəyyənlik var idi. Belə bir şəraitdə sivilizasiyalararası münasibətlər probleminin ortaya çıxması *mədəni qütbləşmə* üçün ideal şərait yaradırdı. Tarixən formalaşmış olan və dərin siyasi, iqtisadi, mədəni dayaqlara sahib olan sivilizasiya amili, bu vaxta qədər praktiki olaraq Qərb və Şərq blokları altında təmsil olunan digər qütblər (Uzaq Şərq, Latın Amerikası, və. s.) üçün də yenidən formalaşma imkanı yaradırdı. Beləliklə, sivilizasiya münasibətləri həm də yeni beynəlxalq münasibətlər sistemində multipolarizasiyanın (çoxqütblülük) əsas sütunu kimi çıxış etməyə başladı. Bütün bu proseslər isə sivilizasiyalararası dialoqun beynəlxalq sülh və təhlükəsizliyin təminində əsas faktor kimi nəzərdən keçirilməsini tələb edir.

Yeni dünya nizamına alternativ olaraq da təqdim olunan sivilizasiyalararası dialoqun qeyd olunan problemləri nə dərəcədə həll etmək imkanında olduğu və bu zaman hansı məsələlərin bu kontekstdən kənarda qalacağı da müzakirə mövzusudur. Bununla yanaşı, sivilizasiyalararası dialoq dövlətlərarası münasibətlərə aid olmaqla yanaşı, bu məqsədə tam nail olmaq çün qeyri-dövlət aktorları, xüsusilə, mədəni qruplar arası münasibətləri də əhatə etməlidir. Bütün bunlara baxmayaraq, sivilizasiyalararası dialoq anlayışı bir sülh və təhlükəsizlik yanaşması kimi qəbul olunsa da, bu konteksdə bəhs olunan sülh və təhlükəsizlik məsələsi də ənənəvi müharibənin olmaması kimi xarakterizə olunan təhlükəsizlik anlayışından fərqli konteksdə nəzərdən keçirilməlidir.

*Sivilizasiyalararası münasibətlərdə dialoq anlayışı.* Sivilizasiyalararası dialoqun bir çox tərəfdarları bu prosesi müəyyən bir çərçivədə baş verən əlaqə kimi qiymətləndirirlər və belə hesab edirlər ki bu baxımdan sivilizasiyalar əsasən "toxunulmamış" qalır. Ənənəvi anlamda isə sivilizasiyalar arasında hər zaman onların fundamental olaraq formalaşmasına şərait yaradan faktor elə dialoq olmuşdur. Beləliklə, sivilizasiya münasibətlərində dialoqa iki fərqli yanaşma ortaya çıxır:

1) ənənəvi dialoq – sivilizasiyaların yaranması, formalaşması ilə xarakterizə olunur;

2) müasir sivilizasiyalararası dialoq – sivilizasiyalar arasında əlaqələrin yumşaldılması, onların öz ictimai-siyasi və mədəni təsisatlarını qorumasını nəzərdə tutur.

Böyük Britaniyanın Şefild Universitetinin professoru Con Hobson qeyd edir ki, əslində bu "dialoq" sivilizasiyalararası dialoq anlayışında istinad olunandan fərqlidir və tarixən sivilizasiyaların kifayət qədər dəyişməsinə səbəb olmuşdur. Hobsona görə, dialoq sivilizasiyaların bir-birlərini yeni ideyalarla, texnologiyalar, institutlar vasitəsilə formalaşdırdığı, Avropa mərkəzçi olmayan fundamental və qlobal bir anlayışdır [2, s.14].

Müasir dövrdə Qərb ideyaları kimi təqdim olunan bir çox ideyalar əslində bu tarixi sivilizasiyalararası dialoq prosesi nəticəsində yaranmış olan ümumbəşəri ideyalardır. Hazırda isə bunun bütün tərəflər tərəfindən qəbul olunması növbəti mərhələdə daha müfəssəl qarşılıqlı əlaqələr və inkişaf üçün şərait yaradar. C.Hobson da qeyd edir ki, *"sivilizasiyalararası alış-veriş"* yalnız Qərbin yüksəlişində həyati olmamış, eyni zamanda müsbət mənada Avropanın mədəni identikliyinin formalaşmasında (650-1500-cü illər arası), daha sonra isə bu proses 19-cu əsrdə Çinə doğru hərəkət edir) təkanverici qüvvə olmuşdur. Daha sonra C.Hobson Avropada olan reformlara diqqət çəkir və qeyd edir ki, "insan azad və rasional varlıq kimi" ideyası əslində İslam mütəfəkkirlərinin fikirlərinin mərkəzində yer tuturdu. Eyni zamanda bu ideyalar Martin Lüter Kinqin də təlqin etdiyi ideyalarla tamamilə üst-üstə düşür [2, s.15].

Meqana Nayak və Erik Selbinin müəllifi olduğu "Beynəlxalq münasibətlərin yenidən mərkəzləşməsi" adlı kitabında isə qeyd olunur ki, Universal İnsan Hüquqları Bəyannaməsini hazırlayan BMT İnsan Hüquqları Komissiyasının üç üzvündən ikisi (Çarlz Malik Livandan, Pen-çan Çanq Çindən) Orta Şərq və Asiya mədəniyyətlərinin nümayəndələri idilər [2, s.16].

Bütün bunlar onu göstərir ki, hazırda dünyada mövcud olan beynəlxalq hüquq, adət və normalar, eyni zamanda digər universal dəyərlər tarixi sivilizasiyalararası dialoq nəticəsində yaranmışdır və bundan sonrakı proseslərin, təhlükəsizlik məsələlərinin həllində də dialoq universal imkanlar yaradır.

Pınar Bilgin konfliktologiya və təhlükəsizlik sahəsində olan yanaşmalara diqqət çəkərək qeyd edir ki, bu sahədə olan problemlərin həlli üçün də sivilizasiyalararası dialoq imkanlarından yararlanmaq lazımdır. Qeyd olunan sahədə mövcud olan araşdırmalar əsasən Qərb konsepsiyalarına söykənir və buna görə də digər situasiyaların analiz olunmasında məhdud imkana malikdir. Bu baxımdan, sivilizasiyalararası dialoq müxtəlif dövlət və qeyri-dövlət aktorları arasında olan təhlükəsizlik problemlərini həll etməkdə siyasi-etika kimi qiymətləndirilməlidir [2, s.18].

Professor Hans Köşler qeyd edir ki, hazırkı qloballaşma şəraitində müxtəlif və hətta bəzən əks dünyagörüşlərini, dəyərləri əks etdirən sivilizasiyalar arasında dialoq qlobal sülh üçün zəruri faktordur. Konseptual olaraq biz sivilizasiyanı həm mədəniyyət anlayışının, həm də insanların həyat-dünya qavrayışının daxil olduğu bir anlayış kimi başa düşürük. Bu baxımdan sivilizasiya müxtəlif tarixi dövrlərdə və həmçinin dillərdə, etnik, siyasi sistemlərdə özünü xüsusi mədəni formalarda göstərir [8, s.2-3].

Müasir qeyri-bərabər güc balansı sistemində sivilizasiyalar arasında ədalətli və davamlı dialoqu təmin etmək üçün bərabərlik prinsipinin təmin olunması əsas prinsip olmalıdır. Ümumilikdə isə

dialoq insanların həm individual, həm də kollektiv olaraq bir varlıq kimi özlərini reallaşdırmasının əsas xüsusiyyətidir. Dünya nizamına nəzər saldıqda isə aydındır ki, burada münasibətlər daha mürəkkəb qarşılıqlı asılılıq şəraitindədir və bu konteksdə sivilizasiyaların mədəni və fəlsəfi qermenevtikası bir amili nəzərə almalıdır ki, sivilizasiyalararası dialoq dünyada sülh və sabitlik üçün əsas tələblərdən biridir, çünki o, daha ədalətli dünya nizamının qurulmasına imkan yaradır. Digər tərəfdən isə, sivilizasiyalararası dialoq siyasi və sosial-iqtisadi vakuumda baş vermədiyi üçün dünya nizamının ədalətli və balanslı olması bu dialoqun baş tutması üçün ilkin şərtdir. Hans Köşler bu prosesi *"interaktiv dialoq çevrəsi"* adlandırır və alman filosofu Hans-Corc Qeydemerə fəlsəfi qermenevtikasına istinad edərək qeyd edir ki, bu heç də məntiqi ziddiyyətin göstəricisi deyil və təbii olaraq bütün insan münasibətlərində mövcud olan qarşılıqlı asılılığın bir nümunəsidir [8, s.2-3].

Hantinqton tərəfindən demokratiya, insan hüquqları kimi institutların yalnız Qərbə məxsus kimi təqdim olunması, eyni zamanda müsəlmanlar tərəfindən də demokratiya, qadın hüquqları kimi dəyərlərin "yad" kimi qəbul olunması ilə nəticələnmişdir. insan hüquqları kimi fundamental məsələlərə Qərb fəlsəfəsində daha çox rast gəlinsə də, əslində bir çox sivilizasiyalarda mövcud olmuş və qarşılıqlı dialoq nəticəsində inkişaf etmişdir [2, s.15-16].

Xavier Giyom isə dialoq barədə deyir: "Dialoq anlayışı özü başqalarını necə qəbul etməklə müəyyən olunur, yəni özündən əlavə bir şüuru (burada sivilizasiyanı kollektiv şüur olaraq qəbul etmək olar) bərabər hüquqlar və öhdəliklərlə qəbul etmək" [4, s.8].

*Fundamentalizmin yüksəlişi yeni təhdid kimi.* Sivilizasiyalararası dialoqa və qlobal nizama böyük təhlükə hesab olunan "sivilizasiyaların toqquşması" tezisi ortaya çıxan zaman da hər kəs, bu paradiqmanı irəli sürən Samuel Hantinqton belə millətlər arasında sülhün təmini üçün sivilizasiyaların dialoqu ideyasını qəbul edirdi. [6, s.49] Daha sonra 2001-ci ilin BMT Baş Assambleyası tərəfindən "Sivilizasiyalararası dialoq ili" elan olunması və 2005-ci ilin BMT Sivilizasiyalar Alyansının yaradılması bu ideyanın praktiki cəhətdən dünya siyasətində qəbul olunması demək idi.

Buna baxmayaraq, həm Qərbdə, həm Şərqdə, eləcə də digər sivilizasiyalarda yeni minillikdən başlayaraq fundamentalist yanaşmaların yüksəldiyini görürük. Fundamentalizmi müəyyən bir sivilizasiya çərçivəsində formalaşmış dəyərlərin həddən artıq yüksəldilməsi və onları ali qəbul etməklə digərlərini tarixi inkişaf prosesində istisna etmək kimi izah edə bilərik. Bu cür yanaşmalara nümunə kimi Qərbdə olan avrosentrik yəni Avropa mərkəzçi yanaşmanı, Şərqdə isə dini radikal qrupların fəaliyyətini və ideologiyasını götürmək olar.

Con Hobson qeyd edir ki, Hantinqton Qərb sivilizasiyasının öz dəyələri və institutları ilə yüksək səviyyədə inkişafa nail olmasını müdafiə etməsi onun avrosentrik baxışlarından qaynaqlanır [5, s.153]. Baxmayaraq ki, Hantinqton Amerika məktəbinin nümayəndəsidir, onun Qərb sivilizasiyasına baxışlarında Latın Amerikasını yad kimi görməsi avrosentrizmi aydın göstərir. Avrosentrist yanaşmaya görə Qərb sivilizasiyası uzun müddət xristianlıq (protestant), plüralizm, individualizm, qanunun aliliyi kimi özünəməxsus dəyərləri və institutları seçilmişdir, bu da onun hazırkı səviyyəyə qalxmasına imkan yaratmışdır; lakin bu baxış digər sivilizasiyaların töhfələrini görməzdən gəlir və sivilizasiyaların iyerarxik düzülüşünü yaradır.

Avrosentrizmin yaranmasını koloniyalaşdırma dövrü ilə əlaqələndirsək də bu baxış sistemi daha sonralar intibah dövrünü də əhatə etməklə post-kolonial zamanda qərbin baxışında hakim olaraq qaldı və öz mərkəzini Amerikaya doğru dəyişməyə başladı. Fransis Fukuyamanın [3] və Samuel Hantinqtonun [6] tezisləri də bu mənada avrosentrizmin davamı sayıla bilər. Sosialist modelin çöküşü və qloballaşma faktorunun meydana gəlməsi qərbin yeni ideoloji səlib yürüşü etməsinə yəni öz rasionalist adlandırılan dünyagörüşün bütün dünyaya yayması üçün yeni imkan yaratdı. Qərb bu ideoloji yayılmanın bəşəriyyət üçün faydalı olduğunu irəli sürür və əslində doğrudur ki, ideoloji yayılma sayəsində bir çox ölkələr yeni daha üstün texnologiyalardan istifadə etmək imkanı qazandı, eyni zamanda iqtisadi əlaqələrin genişlənməsi müxtəlif sivilizasiyalar arasında süni də olsa tolerantlığı artırdı. Digər tərəfdən isə bu cür iqtisadi əlaqələr, texnoloji üstünlük bazasında formalaşan əlaqələr dünya mədəniyyətinin və sivilizasiyaların bənzərləşməsinə və onlar arasında antoqonizmə səbəb olur. Beləliklə, sivilizasiyalararası dialoq olmadan qloballaşma digər sivilizasiyalar üçün təhlükə və hegemonluq altında qalma kimi qəbul olunur.

Sivilizasiyalararası dialoqdan danışarkən bu prosesə təsir edən əsas amillərdən biri olan beynəlxalq münasibətlər sisteminə olan yanaşmaları da nəzərə almaq lazımdır. Belə ki, Hantinqtonun irəli sürdüyü sivilizasiyaların toqquşması nəzəriyyəsi realist beynəlxalq münasibətlər sisteminin bir təzahürü idi, çünki orada olan kimlik, assimilyasiya, təhdid və toqquşma problemləri əsas etibarilə siyasi institut olaraq dövlətləri narahat edən problemdir. Eyni zamanda, Kenet Voltzun struktur realizm yanaşması da Hantinqtonun fikirlərində geniş müşahidə olunur [9]. Belə ki, soyuq müharibədən sonra dağılmış olan cəbhəni bərpa etmək üçün Hantinqton sivilizasiya amilinə müraciət edir və Qərbin beynəlxalq sistemdə öz dominantlığını qorumaq üçün buna məcbur olduğunu da etiraf edir.

Hantinqton 2004-cü ildə ABŞ-ın daxili problemlərindən bəhs edən "Biz kimik?: Amerikan milli kimliyinə təhdidlər" kitabında sivilizasiyaların toqquşması ideyasının hakim olduğu yeni beynəlxalq siyasi sistemdə digər sivilizasiyaların və onların dəyərlərinin ABŞ daxili siyasətinə və dəyərlərinə təsirindən, ispan dilli immiqrantların anqlo-protestant kimliyinə, amerikanların dil, mədəniyyət birliyinə təhlükə yaratmasından, disinteqrasiyanı böyütməsindən bəhs edir. Eyni zamanda qeyd edir ki, Qərbin qlobal güc kimi formalaşması bu sivilizasiyanın modernləşməyə açıqlığı, individualizm, sosial iyerarxiyanın olmaması və yaratdığı texnoloji üstünlüklərə bağlıdır [7, s.8-11]. Con Hobson isə eyni ildə nəşr olunan "Qərb sivilizasiyasının Şərq kökləri" kitabında sivilizasiyalararası dialoqun və qarşılıqlı təsirin əslində tarix boyu mövcud olduğunu sübut edir. Hobson qeyd edir ki, Şərq 2 əsas proses – assimilyasiya və mənimsəmə vasitəsi ilə Qərbin yüksəlişinə yol açdı. Şərqlilər ilk dəfə qlobal iqtisadiyyat və qlobal kommunikasiya şəbəkəsi yaratdılar və onun vasitəsi ilə Şərq ideyaları, institutları və texnologiyaları yayılaraq Qərbə çatdı və orada assimilyasiya olundu. İkinci mərhələdə, XVI əsrdən etibarən avropalılar bu resursları və sistemi mənimsəməklə Qərbin yüksəlişinə nail oldular və Şərqin köməyi olmadan Qərb bunu (iqtisadi imkanları) özlüyündə yaratmamışdı [5, s.2-3].

Qeyd olunan faktlar bugünkü sivilizasiyalararası dialoq təşəbbüsləri ilə birbaşa əlaqəli olmasa da, sivilizasiyalararası əlaqələrin və mənimsəmənin tarix boyu mövcud olduğunu, müasir dünya irsinin ortaq yaradıldığını göstərir. Bu cür araşdırmalar eyni zamanda inkişafın, müxtəlif ideya və institutların Hantinqtonun təqdim etdiyi kimi yalnız Qərbə məxsus olmadığın göstərir.

Sivilizasiyalara yanaşma da mövcud olan əsas problemlərdən biri də onların mahiyyətinə dini fundamentalizmin yüklənməsidir. Pınar Bilginin qeyd edir ki, hətta sivilizasiyalararası dialoq təşəbbüsləri zamanı Qərbin sekulyarizmlə bağlı uğurları da xristianlıq və iuadizm ənənəsinin irsi kimi təsvir olunur və digər sivilizasiyalara qarşı olan müsbət münasibəti belə bu faktorların nəticəsi kimi təqdim edirlər. Bu cür yanaşma keçmiş Çexiya prezidenti Vaklav Havelin çıxışında Şərqin Qərbdən demokratiya öyrənməsi və qarşılığında Qərbin də transsedental dəyərləri yenidən oyatmaq üçün Şərqə müraciət etməsi kimi ifadə olunmuşdu. Özlüyündə sivilizasiyalararası mübadilə anlayışı ehtiva etsə də bu fikir də Qərbi daha üstün mövqedə - iyerarxik formada təqdim edərək dialoq üçün əngəl yaradır [1, s.1107].

*Nəticə*. Sivilizasiyalararası dialoqu inkişaf etdirmək üçün ilk növbədə beynəlxalq münasibətlərə olan yanaşmada dəyişiklik olmalı, beynəlxalq mühit qarşıdurma məkanı kimi deyil, əməkdaşlıq kimi qəbul olunmalıdır. Sivilizasiyalararası dialoq həm daxili, həm də xarici siyasətlə bağlı olduğu üçün prosesdə tərəflər kimi yalnız dövlətlərin iştirakı və ya dövlətlərə müraciət olunması özü də dialoqun məhdudlaşmasına səbəb olur. Beynəlxalq münasibətlərin digər aktorları olan hökumətlərarası təşkilatların, qeyri-hökumət təşkilatlarının da bu prosesdə iştirakı vacib amildir. Sivilizasiyaların münasibətlərində klassik realist yanaşma dialoqa əngəl yaradan səbəblərdən biridir və dialoqdan danışarkən sivilizasiya münasibətlərinə Hantinqtonun realist fikirləri çərçivəsində istinad ictimai sferanın istisna olmasına gətirib çıxarır.

İkinci növbədə isə, sivilizasiyalar və onların əsas təmsilçiləri olan dövlətlər daxilində fundamentalist yanaşmaların yüksəlişinin qarşısı alınmalıdır, çünki mahiyyət etibarilə fundamentalizm özü dialoqu inkar edir. Eyni zamanda bu cür ideologiyalar sivilizasiyalar və ölkələr daxilində də dini, etnik, mədəni zəmində münaqişələrin yaranmasına səbəb olur. Dialoq həm sivilizasiyalararasında həm də sivilizasiyalar daxilində həyata keçirilməli olan bir prosesdir, çünki sivilizasiyalar özləri monolit birliklər deyil. Belə olan halda isə multikulturalizm sivilizasiyalar daxilində birgəyaşayışın təmin edilməsi üçün imkan yardır.

ƏDƏBİYYAT

1. Bilgin, P. Civilisation, Dialogue, Security: The Challenge of Post-Secularism and the Limits of Civilisational Dialogue // Review of International Studies, Published By: Cambridge University Press - 2012, vol. 38, no. 5, pp. 1099-1115.
2. Bilgin, P. Dialogue of Civilisations: A Critical Security Studies Perspective // Perceptions, - Spring 2014, Volume XIX, Number 1, p.9-24.
3. Fukuyama, F. The End of History? // The National Interest, Published By: Center for the National Interest - Summer 1989, No.16, pp.3-18.
4. Guillaume X. Foreign Policy and the Politics of Alterity: A Dialogical Understanding of International Relations // Millennium, 2002, 31(1), p.1-26.
5. Hobson, J. M. The Eastern Origins of Western Civilisation. Cambridge, UK: Cambridge University Press, 2004, 394 p.
6. Huntington, S. P. The Clash of Civilizations? // Foreign Affairs, Published by: Council on Foreign Relations, 1993. vol. 72, no. 3, pp.22-49.
7. Huntington, S. P. Who are We?: The Challenges to America's National Identity. New York: Simon & Schuster, 2004, 428 p.
8. Köchler, H. Dialogue among Civilizations in the Global Era. [Electronic resource] / International Progress Organization Online Publications, - Vienna, 2014.
URL: www.i-p-o.org/Koechler-Dialogue-of-Civilizations-Global-Era-IPO-OP-2014.pdf [Müraciət tarixi: 18.09.2021].
9. Waltz, K.N. Theory of International Politics (2nd edition). Publisher: Waveland Press, 2010, 256p.

**ТОГРУЛ САЛМАНЗАДЕ**
*Докторант Бакинского Государственного Университета*

## АНАЛИЗ КОНЦЕПЦИИ ДИАЛОГА В МЕЖЦИВИЛИЗАЦИОННЫХ ОТНОШЕНИЯХ

С началом периода после холодной войны возникла неуверенность в том, какие центры, системы или идеологии сформируют новую политическую систему после краха старого биполярного мирового порядка. В такой напряженной ситуации появление концепции цивилизационной идентичности принесло проблему диалога цивилизаций в мировую политику. Степень, в которой межцивилизационный диалог, как альтернатива новому мировому порядку, может решить эти проблемы, и масштабы этого диалога являются предметом дискуссий в современной политической науке. Целью исследования является анализ концепции диалога между цивилизациями, которая часто используется в современном социально-политическом дискурсе, и изучение контекста, в котором термин диалог использовался исторически и используется в современной политической науке. Методология исследования основана на исследовательских методах современной политологии, конфликтологии и политической философии. Итак, при разработке темы были использованы методы бихевиоризма, структурализма, концептуального анализа, историко-политического анализа. Научная новизна исследования - анализ формирования диалога в историческом развитии отношений между цивилизациями и изучение современного диалога в сравнении. При этом анализируются факторы, препятствующие диалогу между цивилизациями, в частности, рост фундаментализма. Результатом исследования является то, что для развития диалога между цивилизациями, прежде всего, необходимо изменение подхода к международным отношениям, а международная среда должна восприниматься как область сотрудничества, а не конфронтации. Поскольку диалог между цивилизациями связан как с внутренней, так и с внешней политикой, ограничение участвующих сторон государствами или обращение только к государствам само по себе ограничивает перспективы диалога. Участие межправительственных и неправительственных организаций, которые являются другими участниками международных отношений, также

является важным фактором в этом процессе. В то же время необходимо предотвратить рост фундаменталистских подходов внутри цивилизаций и в государствах как основных представителях цивилизаций, потому что фундаментализм по своей сути отрицает диалог.

*Ключевые слова*: цивилизация, диалог, идентичность, мир, безопасность, фундаментализм.

**TOGRUL SALMANZADEH**
*Doctoral student of Baku State University*

## ANALYSIS OF THE CONCEPT OF DIALOGUE IN INTER-CIVILIZATIONAL RELATIONS

With the beginning of the post-Cold War period, there was uncertainty about which centres, systems or ideologies would form the new political system after the collapse of the old bipolar world order. In such a tense situation, the rise of the concept of civilizational identity has brought the problem of dialogue of civilizations in world politics. The extent to which inter-civilizational dialogue, as an alternative to the new world order, can solve these problems, and the scope of this dialogue, is the subject of discussion in modern political science. The study aims to analyse the concept of dialogue among civilizations, which is frequently used in modern socio-political discourse, and study the context in which the dialogue term has been used historically and are using in modern political science. The research methodology is based on the research methods of modern political science, conflictology and political philosophy. So, behaviouralism, structuralism, conceptual analysis, and historical and political analysis methods have been used in the development of the topic. The scientific novelty of the research is the analysis of how dialogue is formed during the historical development of relations between civilizations and the study of modern dialogue in comparison. At the same time, the factors hindering the dialogue among civilizations, in particular, the rise of fundamentalism, have been analysed. The result of the study is, to develop the dialogue between civilizations, first of all, there must be a change in the approach to international relations, and the international environment must be perceived as an area of cooperation, not confrontation. Since the dialogue between civilizations is related to both domestic and foreign policy, limiting the participating parties to states, or appealing only to states, itself limits the prospects of dialogue. The participation of intergovernmental and non-governmental organizations, which are other actors in international relations, is also an important factor in this process. At the same time, the rise of fundamentalist approaches within civilizations and in the states, as the primary representatives of civilizations, must be prevented, because, fundamentalism in its essence denies dialogue.

*Keywords*: civilization, dialogue, identity, peace, security, fundamentalism.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: s.e.d. Hikmət Məmmədov, s.e.d. Adil Mirabdullayev.*

UOT 32:93/94

**KÖNÜL HÜSEYNOVA**
*Bakı Dövlət Universitetinin doktorantı*
**konulhuseynova2@bsu.edu.az**

# COVİD-19 PANDEMİYASININ AVROPADA MİQRASİYA PROSESLƏRİNƏ TƏSİRİ

*Bu məqalədə Covid-19 pandemiyasının Avropada miqrasiya proseslərinə necə təsir etdiyi araşdırılır. Pandemiya nəticəsində insanların hərəkətliliyinə qoyulan məhdudiyyətlər və sərhədlərin qapanması ilə Avropa sərhədlərində yaranmış vəziyyət təhlil edilir. Həmçinin Avropa İttifaqının yaranmış böhrandan çıxmaq üçün gördüyü tədbirlərə diqqət yetirilir.*

*Açar sözlər*: pandemiya, miqrasiya, miqrasiya böhranı, hərəkət məhdudiyyəti, sərhəd zorakılığı, Avropa "qalxanı", Miqrasiya və Sığınacaq üzrə Yeni Pakt.

*Giriş*. İlk dəfə 2019-cu ilin dekabrında Çində aşkarlanan COVİD-19 virusu tədricən bütün dünyaya yayılaraq iqtisadi və siyasi proseslərə ciddi şəkildə təsir göstərdi. Pandemiyanın əsas nəticələrindən biri də insanların hərəkətliliyinə qoyulan məhdudiyyətlər oldu. İnsanların hərəkətliliyinə qoyulan bu məhdudiyyətlər Avropada miqrasiya proseslərinə də təsir etdi. Avropa İttifaqının miqrasiya siyasəti pandemiyaya qədər də mürəkkəb xarakter daşıyırdı. Belə ki, Afrika və Yaxın Şərqdəki münaqişələrdən, xüsusilə Suriya vətəndaş müharibəsindən sonra Avropaya miqrant axını daha da kütləvi hal almışdı və Aİ-nı ciddi böhran ilə üz-üzə qoymuşdu. 2020-ci ilin martın əvvələrində Türkiyənin sərhədləri açaraq qaçqınların Avropaya keçməsinə icazə verməsi və bunun ardınca geniş şəkildə vüsət alan Covid-19 pandemiyası Avropa sərhədlərindəki vəziyyəti daha da gərginləşdirdi. Pandemiya düşərgələrdə ağır şəraitdə yaşayan, sərhədlərdə və gəmilərdə qapanıb qalan miqrantların vəziyyətini daha da ağırlaşdırdı. Məqalədə, pandemiyanın Avropaya miqrant axınına necə təsir etməsi və Aİ-nın böhrandan çıxmaq üçün gördüyü tədbirlər araşdırılmışdır.

*Avropa İttifaqının xarici sərhəd rejimi*. Liberal-demokrat Avropa dövlətlərinin öz sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün xüsusilə pandemiya dövründə tətbiq etdiyi sərt sərhəd rejimi və miqtrantlarla bağlı yürütdüyü siyasət birmənalı qarşılanmamışdır. Aİ-nın xarici sərhəd rejimi əslində davam edən imperializmin təzahürü kimi qiymətləndirilir. Aİ sərhəd rejimi elə qurulmuşdur ki, bu qeyri-avropalıların Avropada qanuni sığınacaq əldə etmək imkanını məhdudlaşdırır. Mövcud beynəlxalq hüquqa görə immiqrasiya üzərində sərhəd suverenliyi demək olar mütləqdir. Yəni dövlət qeyri-vətəndaşların xaric edilməsi üzrə suveren hüququnu məhdud istisnalarla özündə saxlıyır. Belə ki, beynalxalq insan hüquqları və beynəlxalq qaçqın hüququ dövlətin qeyri-vətəndaşları xaric etmə hüququnu yalnız sığınacaq axtaranların xüsusi kateqoriyasına münasibətdə məhdudlaşdırır. Iqtisadi miqrantlar -hansı ki onların hərəkəti əsasən daha yaxşı həyat motivasiyasına əsaslanır-bu istisnaların əhatə dairəsinə daxil deyil. Bura mənşə ölkələrində müəyyən təqib formaları riski ilə həyatları təhlükə altında olanlar aid edilsə də, iqtisadi miqrantlar üçün oxşar müdafiələr mövcud deyil (1, s.1509). Cənub Yarımkürəsindən Aİ-na daxil olmaq istəyən iqtisadi miqrantlar - beynəlxalq hüquqa görə hərəkətlilik hüququ olmayan sərbəst kateqoriya - qanunsuz miqrantlar hesab olunur. Bəzi hərəkətlərin "azadlıq", digərlərinin isə "uyğunsuz sayıldığı və təhdid olaraq qəbul edildiyi" bu ikili yanaşma müstəmləkə dövründən bəri klasik liberal fikirdə davam edir (12, s.342). "İqtisadi miqrant" termini beynəlxalq miqrantların bir kateqoriyası üçün ləqəb halına gəlib və yerli əhali tərəfindən şübhə, mərhəmət və getdikcə daha çox düşmənçiliklə qarşılanır. Avropanın Afrika miqrantlarına reaksiyası buna bariz nümunədir. 2014-2018-ci illər arasında 1.8 milyon nəfərdən çox qaçqın və miqrantlar Avropaya çatmaq üçün həyatlarını riskə ataraq Aralıq dənizi üzərindən səyahətə üz tutmuş və onlardan ən az 17 min nəfəri həyatlarını itirmişdir (8). Avropa dövlətlərinin xüsusilə "qaçqın" statusundan kənarda qalan beynəlxalq miqrantlara bu münasibəti dövlətin qeyri-vətəndaşların xaric etmə ilə bağlı suveren hüququna əsaslanan doğru iddia hesab edilir (1, s.1512). Liberal dəyərlərə əsaslanan qərb qeyri-avropalılara münasibətdə bu dəyərlərə məhəl qoymur. Hətta sərmayə və mallar üçün universal sərbəst hərəkətin təmin olunduğu halda, insanlar üçün - xüsusilə Cənubun irqləşdirilmiş işçi sinifləri üçün - oxşar sərbəst hərəkətin qarşısı alınır. Göründüyü kimi, burada da liberalizmin

digər ziddiyyətləri ortaya çıxır. Tom Farerin "sərhədləri olan liberalizm" anlayışı əslində mövcud beynəlxalq hüququn yaxşı təsviridir. Tom Farer iddia edir ki, Avropa liberalizmini qorumaq üçün bağlanan sərhədlər həqiqətən lazımdır və Qlobal Şimal dövlətlərinin Cənubdan miqrantların qarşısını almağa hüquqi və mənəvi haqqı vardır (13, s.37). Beləliklə, Liberal mövqeyə görə beynəlxalq miqrantları xaric etmək üçün dövlətin suveren hüququ "nəinki icazə verilən, hətta ədalətlidir" və beynəlxalq hüququn mövcud normalarına tam uyğundur (1, s.1515). Uzun zaman mövcud olan bu mövqe karonavirus böhranı zamanı daha da gücləndirilmişdir. Cənubdan miqrasiyanın Avropa dövlətləri üçün fövqəladə bir məsələyə çevrilməsi, daha sərt sərhəd rejimi tətbiq edilməsinə gətirib çıxardı. Aİ problemi sərhəddən kənarda həll etmək və xaricdən idarə etmək üçün Türkiyə və Liviya ilə beynəlxalq razılaşmalara girdi. 2020-ci il Martın əvvəlində Türkiyə hökuməti Yunanıstana doğru miqrant axınının qarşısını almaq üçün Aİ qarşısında götürdüyü öhdəlikdən imtina etdi. Türkiyə "qapıları açdığını" və Suriyadan gələn qaçqınların Avropaya keçməsinə icazə verdiyini bəyan etdikdən sonra Yunanıstan sahillərində böyük miqrant və qaçqın axını ilə üzləşdi. Aİ-nın Frontex agentliyi dərhal hərəkətə keçdi və yunan sahil mühafizəçiləri Egey dənizində miqrantlara hücum etdi. Təhlükəsizlik qüvvələrinin yeni gələnlərə tez-tez şiddət göstərməsi insan haqları müdafiəçilərinin qınağına səbəb olurdu. Yunanıstandan çəkilən görüntülər polisin qaçqın düşərgələrində gözyaşardıcı qazdan istifadə etdiyini və insanları Avropa sahillərinə aparan gəmilərə atəş açdığını göstərir ki, bu da qaçqınlarla bağlı beynəlxalq konvensiyalara açıq şəkildə ziddir (7). Yunanıstan təhlükəsizlik qüvvələrinin ölkə sərhədində miqrantlara qarşı qeyri-insani və zorakı rəftarına baxmayaraq, Avropa İttifaqı liderləri Yunanıstanı Avropanın qaçqınlara qarşı "qalxanı" kimi qiymətləndirdilər. Avropa Komissiyasının sədri Ursula von der Leyen miqrantlara və qaçqınlara qarşı mübarizəyə kömək etmək və sərhəd təhlükəsizliyini gücləndirmək üçün Yunanıstana AB fondlarından 700 milyon avro ayırmağı vəd etdi. Humanitar pozuntulardan narahat olmayan xanım Von der Leyen birgə mətbuat konfransı zamanı çıxışında *"Yunanıstan hakimiyyəti vəziyyəti nəzarət altına almaq üçün çox çətin bir vəzifə qarşısındadır… Bu sərhədlər yalnız Yunanıstan sərhədi deyil, o eyni zamanda Avropa sərhəddidir… belə bir vaxtda bizim Avropa qalxanımız olduğu üçün Yunanıstana təşəkkür edirəm"* deyə bildirmişdi (14).

*Aİ sərhədində miqrasiya böhranı və görülən tədbirlər*. Türkiyə sərhədləri açdıqdan sonra növbəti həftə Dünya Səhiyyə Təşkilatı pandemiya elan etdi və əksər Avropa ölkələri qapanma və karantin tədbirləri tətbiq etməyə başladı. Başlanğıcda, sağçı Avropa qüvvələri karonavirusun yayılmasına görə Afrika miqrantlarını günahlandırdılar, halbuki bu dəlilərin əksinə idi və virusdan istifadə edərək sərhədlərin daha da sərtləşdirilməsini nəzərdə tuturdu. Covid-19 virusunun ilk olaraq geniş şəkildə vüsət aldığı Avropa dövlətlərindən biri İtaliya oldu. İtaliyada böhran elə bir səviyyəyə çatmışdı ki, artıq onu idarə etmək çox çətin idi. Belə bir vəziyyətdə, İtaliyanın ifrat sağçı qüvvələri ölkədəki koronavirusun yayılmasını siyasiləşdirməyə çalışaraq, ölkənin sərhədlərini müdafiə etmədiyi üçün İtaliya hökumətinə hücum etdi. Hətta İtaliyanın ifrat sağçı keçmiş daxili işlər naziri Matteo Salvini, baş nazir Cüzeppe Kontenini "İtaliyanı və italyanları müdafiə edə bilmirsə" istefa verməyə çağırdı (9). Genuyadakı mətbuat konfransı zamanı da Salvini "hökumətin koronavirusu lazımınca qiymətləndirmədiyini, miqrantların virusun mövcudluğunun təsdiqləndiyi Afrikadan gəlməsinə icazə verilməsinin məsuliyyətsizlik olduğunu" bildirmişdi (9). Halbuki, Avropa indiyə qədər aşkarlanan Covid-19 hallarına görə Afrikanı çox arxada qoyur və bu vaxta qədər Afrikada yalnız bir təsdiqlənmiş Covid-19 hadisəsi Misirdə aşkarlanmışdı. Qeyd etmək lazımdır ki, xilas edilən miqrantlar uzun illərdi İtaliya sahillərində quruya çıxarılır və bu heç vaxt İtalyanlar arasında böyük xəstəliyin yayılmasına səbəb olmamışdır, ancaq çox sayda miqrant məhz onları xilas etmək istəyinin olmaması səbəbindən dənizdə ölmüşdü (5). Beləliklə, Daniel Trillinqin məqaləsində vurğulandığı kimi, miqrantlar koronavirus yaymırlar, amma millətçilər yenə də onları günahlandırırlar. İtaliyaya miqrant axınının infeksiya bumuna səbəb olması iddiası tam əsasız idi. Bu İtaliya səhiyyə orqanlarının məlumatlarında da tamamilə inkar olunurdu, belə ki, yeni miqrantlar arasında karonavirus hallarının, ümümi əhali və səyahət edən sakinlər arasındakı infeksiya sayı ilə müqayisədə "minimal" olduğu göstərilirdi (16).

İtaliyada virusun yaratdığı böhran digər ölkələri də tədbir görməyə vadar etdi. Fransada, Marin Le Pen koronavirusun yayılmasından istifadə edərək, Fransanın İtaliya ilə sərhədini bağlamaq üçün yeni çağırış etdi və açıq sərhədlər üzrə Şengen müqaviləsi faktiki olaraq dayandırıldı (5). Almaniya

və İspaniyada da ifrat sağçı partiyaların liderləri eyni çağrışları etdi və tədricən sərhədlər qapandı. Beləliklə, 2020-ci ilin Mart və İyun aylarında Aİ-da daxili sərhəd nəzarətinin yenidən tətbiq olunması, Şengen sərbəst hərəkət zonasının dayandırılmasını şərtləndirdi. Bağlanan daxili milli sərhədlər karantin və test olunması tələbləri ilə yenidən açıldı. İyul ayından Aİ Şurası müəyyən vacib səyahətlərə icazə vermək üçün üzvlərin qlobal qapanmaları tədricən aradan qaldırılmasını tövsiyyə etdi. Şübhəsiz ki, hərəkət məhdudiyyətləri yoluxucu xəstəliklərin yayılmasına qarşı tədbirin əsas hissəsini təşkil edirdi. Lakin nəzərə alınmalıdır ki , Avropa kontekstində milli sərhəd siyasəti heç də vahid formada, dəlilə əsaslanaraq və ayrı-seçkilik edilmədən tətbiq olunmamışdır. Müvafiq infeksiya göstəricilərindən asılı olmayaraq, Qlobal Cənubun əksəriyyətindən hərəkətliliyə qoyulan məhdudiyyət effektiv şəkildə saxlanıldı. Reallıq isə Cənubun bəzi hissələrində məsələn, Kuba və Viyetnam kim sosialist ölkələr pandemiya ilə Qərbin əksər kapitalist dövlətləri ilə müqayisədə daha effektiv mübarizə aparırdı. Eyni zamanda Qlobal Cənubda bir sıra ölkələr üzərinə, Braziliyadan Bangladeşə qədər, İtaliyaya daxil olmaq üçün səyahət qadağası qoyulsa da, ABŞ İtalyaya girişi tam qadağan edilmiş ölkələr siyahısına daxil edilməmişdi. Qadağa siyahısı COVİD-19 infeksiya səviyyəsinə əsaslanırdı, lakin ən yüksək yoluxma halı olan ABŞ bu siyahıya daxil edilməmişdi. ABŞ-dan səyahət yalnız turizm üçün səyahət kimi ümumi məhdudiyyətləri ehtiva edirdi, ancaq iş, biznes, sağlıq, təhsil, və ailə səbəbləri ilə səyahətə icazə verilirdi. Pandemiya şəraitində belə sərhəd rejiminin qurulması sinifi və irqi əsaslarda qalır və təhlükəsizlik və ictimai sağlıq ölçüləri dərin bir şəkildə siyasi və iqtisadi iyerarxiyaya əsaslanırdı.

Pandemiya boyunca, Aİ-nın rəngli insanlara qarşı sərhəd zorakılığı davam etməkdə və bəzi hallarda hətta şiddətlənməkdə idi. Miqrantları yenidən açıq dənizlərə sürükləmək, artıq Yunanıstanda işləyən və yaşayan miqrantların toplanması və deportasiya edilməsi üçün Aİ Yunanıstanı “qalxan” kimi istifadə etməkdə davam edirdi. Yunanıstanın millətçi Yeni Demokratiya hökuməti, bu vaxt, Ege adalarında- Midilli və Sakız adaları - Avropa siyasətinin tələyə düşürdüyü sığınacaq axtaranlar üçün "qapalı" düşərgələr başqa sözlə, təcridxanalar qurmaqla bağlı mübahisəli planının irəli sürülməsində bir səbəb kimi koronavirus infeksiyası riskini göstərdi (5). Karonavirus pandemiyasının kölgəsində, Yunan səlahiyyətliləri deportasiya mexanizmlərini də işə saldılar. Miqrantların tez-tez “çadıra bənzər” kim təsvir etdikləri, Yunan Sahil Mühafizəsinin miqrantları qovmaq üçün istifadə etdiyi xilasedici sallar, əslində, gəmi qəzası zamanı təcili evakuasiya üçün nəzərdə tutulub. Onlar daşıma üçün deyil, yalnız qayıq və ya gəmi batarkən xilasetmə üçün, kömək gələnə qədər sağ qalanları su üstündə sağ saxlamaq üçün hazırlanmışdır. Onlar yanacaq və ya mühərriklə təchiz olunmayıb, idarə olunan deyil, və minimal qorunma təmin edir. Martın 23-dən bəri ən azı 11 insidentdə miqrantların belə xilasedici sallarda sürükləndiyi aşkar edilib (10). Qanuna görə, bu geri qaytarmalar geri-göndərməmə ilə bağlı beynəlxalq hüququn standartının pozulması riski daşıyır. Bu prinsip qaçqınların beynəlxalq müdafiəsinin mərkəzində dayanır, və sığınacaq axtaranların təqib olunacaqları, işgəncə, qeyri-insani, alçaldıcı rəftara məruz qala biləcəyi hər hansı bir yerə geri qaytarılmasını qadağan edir. Geri qaytarmalar eyni zamanda Yunanıstanın, işgəncə, qeyri-insani və ləyaqəti alçaldan rəftarın qadağan edilməsi və yaşamaq hüququ ilə bağlı insan hüquqları üzrə öhdəliklərini də pozur (10). Türkiyə Sahil Mühafizəsinin üzvləri bu görüntülər barədə məlumat versələr də, ancaq Yunan səlahiyyətliləri bunlara nə aydınlıq gətirdi, nə də sənədləşdirdi.

Pandemiya Aİ üzv dövlətlərinin xilas olunmuş miqrantları sahildə saxlamaq qətiyyətini ikiqat artırdı və bir halda bir qrup miqrant ticarət tankerində bir aydan çox müddətində çarəsiz saxlanıldı (4). Bir ay ərzində gəmi beynəlxalq sularda qapanıb qalmış, görünür, heç bir ölkə xilas olunmuş miqrantları qəbul etmək istəməmişdir. Halbuki, BMT-nin Dəniz Hüququ üzrə Konvensiyası bütün gəmilərin üzərinə təhlükədə olan insanları xilas etmək və onları təhlükəsiz yerə çatdırmaq öhdəliyi qoyur. Lakin son bir neçə ildə Avropa hökumətləri, dövlət tərəfindən həyata keçirilən axtarış-xilasetmə əməliyyatlarının miqyasını azaltmaqla, QHT gəmilərini sıxışdıraraq, və gəmilərin quruya çıxma icazəsini rədd edərək Afrika və Asiyadan arzuolunmaz miqrasiya marşutlarını bağlamağa çalışır (4). Beləliklə, Aralıq dənizində Aİ tərəfindən maliyələşdirilən Liviya sahil mühafizəsi və milisləri təkcə qalxan deyil həmçinin qılınc rolunu oynayırdı, nəticədə Avropaya gedən miqrantları güllələnərək öldürülür və yüzlərlə insan yoxa çıxırdı (15). Müxtəlif aktorlar (BMT-nin agentlikləri, regional təhqiqat orqanları və qeyri-hökümət təşkilatları) dövlət agentliklərinin birbaşa və ya gizli

formada kriminal şəbəkə və silahlı qruplaşmalar ilə əlbir olaraq miqrantlara qarşı yaşamaq hüququ da daxil olmaqla insan hüquqları pozuntusunda cavabdeh ola biləcəyini bildirmişdilər. Məsələn, BMT-nin Liviyada Dəstək Missiyası silahlı qruplar, qaçaqmalçılar və insan alverçiləri, özəl işəgötürənlər, polis, Liviya Sahil Mühafizəsi və Qanunsuz Miqrantlarla Mübarizə Departamenti tərəfindən Liviyada miqrantlara qarşı insan hüquqlarının geniş şəkildə pozulması barədə məlumat verir (2, s.8). "New Humanitarian" jurnalı Liviyada miqrantlara qarşı insan hüquqları pozuntusu və onların taleyi ilə bağlı vəziyyəti aşağıdakı kimi izah edir:

- Aİ-nin dəstəklədiyi Liviya Sahil Mühafizəsi tərəfindən bu il dənizdə tutularaq Liviyaya qaytarılan 6200 nəfərin yarısından çoxunun taleyindən xəbər yoxdur;
- Liviya rəsmiləri rəsmi məlumat bazasını saxlamadığına görə, BMT agentlikləri insanları geri qaytarıldıqdan sonra hara getdiyini izləyə bilmir;
- Çox güman ki, "rəsmi" təcridxanalara aparılmaq əvəzinə, Liviya daxili işlər nazirliyinə bağlı milislər tərəfindən idarə olunan qaranlıq "qeyri-rəsmi" obyektlərdə yoxa çıxırlar;
- BMT agentliklərinin "qeyri-rəsmi" təcridxanalara heç bir girişi yoxdur;
- İstintaq təcridxanalarında saxlanılan şəxslər sistematik şəkildə qəsb və zorakılıqla üzləşirlər;
- Dənizdə durdurma və saxlanma sistemi Aİ və Aİ üzv dövlətləri tərəfindən maliyyələşdirilir və dəstəklənir (15).

Belə ki, sərhədləri boyunca kütləvi miqrasiyanın qarşısını almaq üçün bəzi dövlətlər miqrantları öz ərazilərinə çatmamış və ya onların yurisdiksiyasına və nəzarətinə keçmədən dayandırmaq üçün ekstrateritoriallıq siyasətinə əsaslanırlar (2, s. 10). Belə siyasətə, başqa ölkələrdə agentliklərin miqrantları və qaçqınların qaytarılması, xilas edilməsi və ya buraxılması, saxlanması, həbs olunması üçün təlimi, yardım və maliyələşdirilməsi daxildir. Əgər Liviya nümunəsində olduğu kimi, həmin dövlətlər yaşamaq hüququ da daxil olmaqla insan hüquqları pozuntusuna görə ciddi məsuliyyət daşıyırsa belə siyasət ciddi narahatçılıq doğurur. Lakin, bütün bu hallarda Aİ və onun sərhəd dövlətləri beynəlxalq hüquqa uyğun olaraq hərəkət etdiklərini israr edirlər. Qeyd olunduğu kimi Beynəlxalq hüquqda həmçinin geri göndərməmə anlayışı mövcuddur ki, bu qaçqınların və sığınacaq axtaranların təqib oluna biləcəkləri bir ölkəyə qayıtmağa məcbur etməmək təcrübəsini nəzərdə tutur. Lakin suverenin xaric etmək hüququ sistemli şəkildə geri göndərməmə öhdəliyini kölgədə qoyur (12, s.345). Beləliklə, təcrid etmə siyasəti və COVİD-19 qapanmaları nizamsız miqrasiyanın təbiətinə və miqyasına təsir etdi, amma zəruriliyinə təsir göstərmədi. Miqrantlar iri tutumlu qaçaqçılıq əməliyyatlarından daha kiçik qruplarda və müxtəlif gediş nöqtələrindən, məsələn daha Liviyadan deyil Tunisdən, hərəkət etməyə davam etdilər.

*Miqrasiya və Sığınacaq üzrə Yeni Pakt*. Avropaya kütləvi miqrant axını zamanı sərhəd dövlətlərinin xüsusilə Yunanıstan və İtaliyanın dərin böhranla üzləşməsi təkcə yerləşdikləri coğrafi mövqeyə görə deyil, həmçinin miqrasiya proseslərinin tənzimlənməsi ilə bağlı İttifaqın yaratdığı hüquqi sistemin nəticəsidir. Belə ki, Dublin Konvensiyası Avropa Birliyi üzv dövlətlərdən birində sığınacaq üçün daxil olmuş müraciətlərə baxılmasına cavabdeh olan dövləti müəyyən edən sistemin əsasını qoymuşdur. Qeyd edək ki, Dublin Konvensiyası 1990-cı ildə qəbul edilmiş 1 sentyabr 1997-ci ildə qüvvəyə minmişdir. Konkret olaraq, Konvensiyanın 6-cı maddəsində bu məsələ öz əksini tapmışdır: *"Avropa Birliyinə üzv olmayan dövlətdən gələn, sığınacaq üçün müraciət edən şəxsin üzv dövlətin sərhədini quru, dəniz, və ya havadan qeyri-qanuni keçdiyi sübuta yetirildikdə, daxil olduğu həmin üzv dövlət sığınacaq üçün müraciətə baxmağa cavabdehdir"* (6, s.4). Bu prinsipə uyğun olaraq Konvensiya cavabdeh dövlətin müəyyən edilməsi ilə bağlı obyektiv meyyarlar müəyyənləşdirir. Lakin Konvensiyanın işləməsində müxtəlif problemlər üzə çıxmışdır. Nəticədə humanitar müdafiə üçün müraciətlər Konvensiyanın əhatə dairəsinə daxil deyil, ailələrin birləşməsi şərtləri həddən artıq ciddi müəyyən edilib və ən əsası üzv dövlətlərdən birinə qeyri-qanuni girişlə bağlı güclü sübutun təqdim edilməsindəki çətinliklər Konvensiyanı bir çox hallarda yarasız edir. Beləliklə, Dublin Konvensiyası sığınacaq axtaranların daxil olduqları ilk Avropa İttifaqı üzv dövlətində qalmalı və sorğularına orada baxılmalı olan bir sistem təqdim etdi. Qeyd edək ki, Dublin konvensiyası sonralar Dublin II (2003) və Dublin III (2013) tənzimləmələri ilə əvəzlənmişdir. Bu tənzimləmənin son versiyası olan Dublin III Qaydası Yunanıstan kimi Aİ-nin "xarici sərhədlərində" olan dövlətlər üzərinə böyük və ədalətsiz yük qoydu. 2015-ci ilin iyununda Aİ Yunanıstana "miqrasiya idarəçiliyi"ndə

verilən qeyri-mütənasib rolu daha da gücləndirdi: "qaynar nöqtə" yanaşmasının elanı ilə bir neçə Ege adaları sığınacaq axtaranların yoxlanılması üçün məkana çevrildi və qitəyə gediş qadağan edildi (10).

Dublin tənzimləmələrindən əlavə miqrasiya ilə bağlı İttifaqın konkret olaraq 2019-2024-cü illər üçün prioritet məsələlərini əks etdirən Miqrasiya və Sığınacaq üzrə Yeni Pakt elan edilmişdir. 2020-ci ilin sentyabrında nəşr olunan yeni miqrasiya paktı İttifaqın miqrasiya siyasəti ilə bağlı müəyyən məsələləri əks etdirir və miqrasiya üçün yeni başlanğıc elan edir. "Paylaşılan məsuliyyət", "həmrəylik" kimi mütərəqqi terminlərlə bəzədilmiş, "tərəfdaşlıq" və "dayanıqlılıq" dan bəhs edən paktın əslində siyasi məqsədi açıq şəkildə daha idarə olunan və prosessual bir Avropa qalasına yönləndirilmişdi. Miqrasiya siyasətinə cavabdeh olan Avropa Həyat Tərzinin Təbliği üzrə Aİ Komissiyasının müvəkkili paktı üç mərtəbəli bir ev kimi təsvir edir. Onun təhlilində "birincisi, insanların daha yaxşı həyat üçün öz ölkələrində qalması üçün mənşə və tranzit ölkələri ilə razılaşmaları nəzərdə tutan xarici aspektdir. İkincisi, yeni Avropa Sərhəd və Sahil Mühafizəsi ilə xarici sərhədimizi daha çox heyət, qayıqlar, alət və vasitələrlə idarə etmək üçün möhkəm bir sistemdir. Planın yuxarı və ən son "mərtəbəsi" "daimi, effektiv həmrəylik sistemi" kimi təsvir edilir" (11). Əslində birinci sütunda əsas təməl prinsip təcrid və kənarlaşdırma olaraq qalır, məqsəd isə Türkiyəni yenidən geri gətirilməsi və oxşar sövdələşmələrin başqa yerlərdə də həyata keçirilməsidir. Paktın ikinci mərtəbəsi, onsuz da həddindən artıq böyük olan Fronteksin daha da gücləndirilməsini nəzərdə tutur. Ən üst mərtəbə, sığınacaq axtaranların qəbul edilməsi, işlənməsi və deportasiya edilməsinə görə Aİ daxilində məsuliyyətin daha yaxşı bölüşdürülməsi və sərhəd dövlətlərin yükünün yüngülləşdirilməsi üçün daimi və effektiv həmrəylik sisteminin qurulmasını təmin edir. Bu yanaşma, Aİ-nın əsas fərqləndirici xüsusiyyəti həmrəylik anlayışını gücləndirir: lakin miqrantlarla deyil, üzv dövlətlər arasındakı həmrəylik. Bu isə əslində qeyri-həmrəylik - biz və onlar - deməkdir (12, s.346). Son nəticədə, pakt həmin məqsədlərə çatmır, bu daha çox ittifaq daxilində qəti miqrasiya əleyhdarlarını sakitləşdirmək üçün qəbul olunmuş bir aktdır. Əsas məsuliyyət əksər hallarda yenə də ilk gəliş dövlətlərinin üzərinə düşür və burada paylaşılan məsuliyyət isə istəyə bağlıdır yəni üzv dövlətlər deportasiya üçün pul ödəyərək bundan yayına bilirlər. Ümumilikdə, paktın ehtimal olunan mümkün nəticələri, qaynar nöqtələrdə gələnlərin daha sürətli yoxlanması, dar qaçqın anlayışından kənarda qalanların daha çox deportasiyası, və hətta daha çoxunun dənizə geri itələnməsi olacaq. Bütün bunlar isə əhalinin sağlamlıq tələbləri ilə əsaslandırılacaq.

*Nəticə*. Beləliklə, Avropa İttifaqının pandemiya zamanı miqrantlarla bağlı yürütdüyü siyasət düşərgələrdə acınacaqlı şəraitdə yaşayan miqrantların vəziyyətini daha da ağırlaşdırdı. Pandemiyadan istifadə edərək daha sərt sərhəd rejiminin tətbiqi xüsusilə, Yunanıstan sahillərində sərhəd zorakılığını artırdı. Lakin sərhədlərin qapanması və hərəkət məhdudiyyətləri Avropaya miqrasiya axınını dayandırmadı. Pandemiya miqrant axınının həcminə deyil onun forma və hərəkət istiqamətlərinə təsir etdi.

Nəticədə, pandemiya açıq sərhədlərin, inkluziv əmək hüquqlarının, və sərhədli kapitalizmin ləğv edilməsinin zərurriliyini gücləndirirdi. Bu həmçinin göstərir ki, hərəkət rejimi sərvət bölgüsünə görə deyil sağlamlıq prriroritetlərinə əsasən, sinfi və irqi kənarlaşdırmaya görə deyil toplumların və yerlərin ehtiyaclarına görə, daha yaxşı müəyyən oluna bilər. Miqrasiya və hərəkətlilik, ətraf mühit və ictimai sağlamlıq gündəliyi əsasında idarə oluna və formalaşdırıla bilər. Bu bəziləri üçün doğuşdan gələn bir haqq kimi sərbəst hərəkətin təbəqələşmiş əsaslarına, başqaları üçün maneə olan irqi fərqlər kimi miflərə əsaslanmamalıdır. Reallıq budur ki, beynəlxalq hüquq əmtəə və malların sərbəst hərəkətini asanlaşdırmışdır amma insanların çoxu milliyyətinə görə və ya milliyyətçilik kölgəsində qalan irqə görə bunu edə bilmir. Azad ticarət və azad bazarlar toxunulmaz hesab olunursa, Qlobal Cənubun iqtisadi istismarı qlobal bərabərsizliyi və iqlim fəlakətini dərinləşdirməyə davam edəcək. Bu kontekstdə, daha çox insan əksəriyyəti də Cənub Yarımkürəsindən, daha uzun müddət üçün yaşayışa yararlı regionlara, məsələn Avropa kimi, köçməyə məcbur olacaq. Tarixən formalaşmış mövcud sərhəd rejimləri isə absurd bir sistemdir, lakin bu rejim beynəlxalq hüquq sistemi tərəfindən səmərəli şəkildə asanlaşdırılır və qanuniləşdirilir.

## ƏDƏBİYYAT

1. Achiume, E. T. (2019). Migration as decolonization. Stan. L.Rev., 71, 1509.

2. Agnes Callamard, Special Rapporteur of the Human Rights Council, Unlawful Death of Refugees and Migrants, UN Doc. A/72/335 (Aug. 15, 2017).
3. Communication from The Commission to The European Parliament, The Council, The European Economic and Social Committee and The Committee of the Regions on A New Pact on Migration and Asylum COM/2020/609 Final.
4. Daniel Trilling, A Commercial Ship Saved 27 Migrants, but Now the EU Has Abandoned it at Sea, GUARDIAN (Sept. 4, 2020).
5. Daniel Trilling, Migrants Aren't Spreading Coronavirus – but Nationalists are Blaming Them Anyway, GUARDIAN (Feb. 28, 2020).
6. European Community Member States: Convention Determining the State Responsible for Examining Applications for Asylum Lodged in One of the Member States of the European Communities. (1991). International Legal Materials, 30(2), 425-444. doi:10.1017/S0020782900017666
7. Jon Stone, EU Chief Praises Greece as 'Shield' of Europe After Police Attack Refugees at Border, INDEPENDENT (March 3, 2020).
8. Latest Global Figures, Missing Migrants Project, https://perma.cc/C86M-TPGC (last updated Apr. 18, 2019).
9. Lorenzo Tondo, Salvini Attacks Italy PM Over Coronavirus and Links to Rescue Ship, GUARDIAN (Feb. 24, 2020).
10. Niamh Keady-Tabbal & Itamar Mann, Tents at Sea: How Greek Officials Use Rescue Equipment for Illegal Deportations, JUST SECURITY (May 22, 2020).
11. Nikolaj Nielsen, New EU Migration Pact "To Keep People in Their Country", EU Observer (Sept. 14, 2020).
12. Reynolds, J. 2020. "Fortress Europe, Global Migration and the Global Pandemic". AJIL Unbound 114: 342–348.
13. Tom Farer, Migration and Integration: The Case for Liberalism with Borders (2019).
14. Ursula von der Leyen, President, Eur. Comm'n, Remarks at the Joint Press Conference with Kyriakos Mitsotakis, Prime Minister of Greece, Andrej Plenković, Prime Minister of Croatia, President Sassoli and President Michel (March 3, 2020) Statement/20/380.
15. Mat Nashed, What Happens to Migrants Forcibly Returned to Libya? NEW HUMANITARIAN (Aug. 5, 2020).
16. Gaia Pianigiani & Emma Bubola, As Coronavirus Reappears in Italy, Migrants Become a Target for Politicians, N.Y. TIMES (Aug. 28, 2020).

**КЕНЮЛ ГУСЕЙНОВА**
*Докторант Бакинского Государственного Университета*

## ВЛИЯНИЕ ПАНДЕМИИ COVID-19 НА МИГРАЦИОННЫЕ ПРОЦЕССЫ В ЕВРОПЕ

В этой статье исследуется, как пандемия Covid-19 влияет на миграционные процессы в Европе. Анализируется ситуация на европейских границах в результате ограничения мобильности людей и закрытия границ во время пандемии. Также рассматриваются меры, принятые Европейским союзом для выхода из кризиса.

*Ключевые слова*: пандемия, миграция, миграционный кризис, ограничение передвижения, насилие на границах, европейский «щит», Новый пакт о миграции и убежище.

**KONUL HUSEYNOVA**
*Doctoral student of Baku State University*

## IMPACT OF THE COVID-19 PANDEMIC ON MIGRATION PROCESSES IN EUROPE

This article examines how the Covid-19 pandemic affected the European migration processes. The situation on European borders as a result of restrictions on human mobility and the closure of

borders during the pandemic is analyzed. The measures taken by the European Union to overcome the crisis are also examined.

*Keywords*: pandemic, migration, migration crisis, mobility restrictions, border violence, European "shield", New Pact on Migration and Asylum.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 oktyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Kərəm Məmmədov, s.e.d. Adil Mirabdullayev.*

**UOT 94**

**BALAMİRZƏ MƏMMƏDLİ**
*Bakı Dövlət Universiteti*
**balamirzamammadli@bsu.edu.az**

# STALİNQRAD DÖYÜŞÜ: TARİXİN ƏN QANLI SAVAŞI VƏ II DÜNYA MÜHARİBƏSİNDƏ ƏSASLI DÖNÜŞÜN BAŞLANĞICI

*Stalinqrad döyüşünü Böyük Vətən müharibəsi və İkinci dünya müharibəsi ilə yanaşı heç şübhəsiz ki, bütün bəşər tarixinin ən qanlı döyüşü hesab etmək olar. 200 gün – gecə və gündüz davam etmiş bu dəhşətli döyüş hər iki tərəf üçün nəhəng itkilərə səbəb olsa da, SSRİ-nin həlledici qələbəsi onu şanlı bir hadisəyə çevirmişdir. Çünki, məhz Stalinqrad döyüşü ilə müharibənin gedişində əsaslı dönüşün başlanğıcı qoyulmuş, alman ordusu tərəfindən strateji neft mədənlərinin cəmləşdiyi Volqaboyu və Qafqazın, xüsusilə Bakının neft mədənlərini ələ keçirməsi təhlükəsinin qarşısı alınmış, ilk dəfə 1941-ci ilin qışında Moskva döyüşündə puç edilmiş nasist ordusunun məğlubedilməzliyi mifi bir daha məhv edilmişdir. Məhz buna görədir ki, Stalinqrad döyüşü fenomeni üzərindən 80 il keçməsinə baxmayaraq, dünya tarix elmində bu günə kimi böyük aktuallıq kəsb edir. Hitler niyə məhz Stalinqrad şəhərini hədəfə aldı? Necə oldu ki, Moskva ətrafındakı döyüş nəticəsində 150-300 km geri oturdulan alman ordusu yenidən güclənərək Stalinqrad üzərinə şiddətli hücuma keçdi? Stalinqrad döyüşünün başlanmasından yalnız 4ay sonra əhəmiyyətli bir əks-hücuma keçməyi ("Uran" əməliyyatı) bacaran sovet ordusu azğın düşmənin hücumunu necə dayandıra bildi? Və nəhayət, bu böyük döyüşün nəticəsi, müharibədə oynadığı rolu və əhəmiyyəti nə oldu? Hazırki məqalədə bütün bu kimi maraq doğuran məsələlər təhlil edilmiş və döyüş zamanı baş vermiş mühüm proseslər geniş elmi ədəbiyyat əsasında tədqiq olunmuşdur.*

*Açar sözlər*: Stalinqrad, Böyük Vətən müharibəsi (1941-1945), ikinci dünya müharibəsi, "Blau" planı, "Uran" əməliyyatı, əsaslı dönüşün başlanğıcı.

*Giriş*. Moskva ətrafındakı döyüşdə vermaxtın ağır məğlubiyyəti nəticəsində nasist Almaniyası rəhbərliyinin SSRİ-ni qısa zamanda tamamilə darmadağın etməklə bağlı hazırladığı "Barbarossa" planının iflasa uğramasına baxmayaraq, 1942-ci ilin yazına qədər alman ordusu Sovet İttifaqının böyük ərazilərini, xüsusilə Ukrayna SSR, Belorusiya SSR və Baltikyanı ölkələri işğal etmişdi. Digər ərazilərdə də, müharibə almanlar üçün uğurla davam edir, Atlantik okeanında ağalığı ələ keçirmək uğrunda mübarizədə alman sualtı qayıqları öz rəqiblərinə ciddi təhlükə yaradır, Afrikanın şimalında feldmarşal Ervin Rommelin ordusu uğurlu hərbi əməliyyatları davam etdirirdi. 1941-ci ilin qışında alman ordusunun itkilər verərək geri çəkilməsinə baxmayaraq, Adolf Hitler əmin idi ki, yeni bir hücumla Qırmızı ordunu əzə biləcək. Çünki, vermaxtın "Mərkəz" ordu qrupundakı canlı qüvvənin çox hissəsi yenidən təchiz olunmuş, komplektləşdirilmiş, həmçinin, almanların nə "Şimal", nə də "Cənub" ordu qrupu qış ərzində elə bir ciddi itkiyə məruz qalmamışdır. Məhz bu səbəbdən də, alman komandanlığı Sovet İttifaqına cənub istiqamətdə hücumla bağlı yeni plan hazırlamağa başladılar. SSRİ-nin cənubuna hücum Qafqazdakı (xüsusilə, Bakı və Qroznıdakı) neft mədənlərinin, o cümlədən ölkənin mərkəzini Qafqaz, Xəzər dənizi və Mərkəzi Asiya ilə birləşdirən birləşdirən əsas arteriya olan Volqa çayının ələ keçirilməsini təmin etməli idi. Xüsusilə, Stalinqrad şəhərinin işğalına şəxsən böyük önəm verən Hitler hesab edirdi ki, bu şəhərin tutulması alman ordularının qərb və şimal cinahlarının təhlükəsizliyini təmin edərək onların Bakıya doğru irəliləməsinə və Almaniya üçün son dərəcə strateji əhəmiyyət kəsb edən neft resurslarının ələ keçirilməsinə əlverişli şərait yaradacaq [10, s.528].

Adolf Hitler 5 aprel 1942-ci ildə şərq cəbhəsində yeni hərbi əməliyyatlarla bağlı 41 nömrəli direktiv imzaladı. Həmin direktivdə Hitler bildirirdi: "Alman komandanlığı və ordusunun nəzərə alaraq biz yenidən təşəbbüsü ələ keçirməli və düşməni öz iradəmizə tabe etdirməliyik. ...Məqsəd sovetlərin sərəncamında olan qüvvələri tamamilə məhv etmək və onları mühüm hərbi-iqtisadi mərkəzlərdən məhrum etməkdir. Bunun üçün bizim və müttəfiqlərimizin sərəncamında olan silahlı qüvvələrin bütün ordularından istifadə edəcəyik" [16, s.380].

Ümumiyyətlə, Hitler Stalinqrad şəhərinin ələ keçirilməsini bir neçə səbəbdən çox vacib hesab edirdi. Bunlardan ən başlıcası Stalinqradın Volqa çayı sahillərində, strateji cəhətdən son dərəcə əhəmiyyətli olan nəqliyyat yollarının kəsişdiyi ərazidə yerləşməsi və Rusiyanın mərkəzini SSRİ-nin cənub bölgələri ilə, o cümlədən Qafqaz ilə birləşdirən böyük bir sənaye şəhəri olması idi. Belə ki, Stalinqradın ələ keçirilməsi Almaniyanın SSRİ üçün həyati əhəmiyyət kəsb edən su və quru nəqliyyat kommunikasiyalarını kəsməsinə, Qafqazda irəliləyən vermaxt qüvvələrinin xüsusilə sol cinahını etibarlı şəkildə əhatə etməsinə və sovet ordusunun onlara qarşı çıxan bölmələrinə ciddi təchizat çətinliyi yaratmasına imkan yaradacaqdı. Həmçinin, Hitlerin ən əsas düşməni olan sovet lideri İosif Stalinin adını daşıyan şəhərin ələ keçirilməsi həm də Reyxin əsgərlərinə və əhalisinə böyük ruh yüksəkliyi verəcək və bu da, Almaniyanın ideoloji qələbəsi olacaqdır.

Alman ordusunun bütün əsas əməliyyatlarının kod adı adətən rənglərlə bağlı olduğu kimi (məsələn, Polşanın işğalı üçün "Vays (ağ)", Fransanın işğalı üçün "Rot (qırmızı)", Belçika və Hollandiyanın işğalı üçün "Gelb (sarı)" və s.), vermaxtın SSRİ-yə 1942-ci il yay kampaniyasını nəzərdə tutan hücum əməliyyatının da kod adı "Blau" (mavi) planı adlanırdı. Barbarossa əməliyyatının davamı olan "Blau" hücum əməliyyatı özündə iki tərəfli hücum planını birləşdirirdi: birincisi, alman ordusunun sağ cinahının Bakıdakı neft mədənlərini ələ keçirməsinə yönəlmiş Edelveys planı və ikincisi, vermaxtın sol cinahının Volqa çayı boyunca Stalinqrad istiqamətində irəliləməsini nəzərdə tutan Fişreyxer planı [12, s.40]. "Blau" hücum əməliyyatının başlanması 1942-ci ilin mayın sonlarına planlaşdırılsa da, bir neçə alman və rumın hərbi birləşmələrinin Krımda Sevastopolun mühasirəsi ilə məşğul olması səbəbindən, hücumun başlanması Sevastopolun işğalının tamamlanmasına qədər gecikdi. Buna baxmayaraq, almanların 6-cı ordusu mayın 23-də bir neçə sovet ordusunu mühasirəyə almış, Qızıl ordu Xarkov döyüşündə 267 min nəfər, o cümlədən 200 min nəfər əsgər və zabit, 652 tank, 58 min at və s. itkilər vermişdi [2, s.216].

Beləliklə, "Blau" əməliyyatı, hələ 1941-ci ildə general-feldmarşal Gerd fon Rundştedtin komandanlığı ilə Ukrayna SSR ərazisini ələ keçirmiş "Cənub" ordu qrupunun 28 iyun 1942-ci ildə cənubdan Bryansk cəbhəsinə, şimaldan Voronej cəbhəsinə hücumu ilə başlandı. İlk vaxtlar, mühasirəyə düşməkdən ehtiyat edən sovet ordusu taktiki olaraq geri çəkilməyə başladı [3, s.75]. İyulun 6-da Don çayını keçən alman ordusu artıq Voronej şəhərinin böyük bir hissəsini ələ keçirdilər və bu o demək idi ki, almanlar artıq Stalinqrad şəhərinə addım-addım yaxınlaşırdılar.

*Stalinqrad döyüşünün müdafiə mərhələsi.* Stalinqrad döyüşünün başlanma tarixi sovet və rus tarixşünaslığında 17 iyul 1942-ci il hesab edilir. Bununla yanaşı, Rusiya tarixçisi A.İsayev yazır ki, artıq 16 iyulda, axşam saat 20:00-da 4 alman tankının Zolotoy xutoruna atəş açması və bir neçə T-34 sovet tankını vurması ilə artıq Stalinqrad döyüşləri başlanmışdı [18]. 17 iyulda, 62 və 64-cü sovet ordu birləşmələri Tsimla və Çir çayları ətrafında 6-cı vermaxt ordusunun avanqardları (öndə gedən hərbi hissələri – B.M.) ilə üz-üzə gəlmişdilər. Döyüşlərin başlanğıcında sovet ordusunun alman hücumlarının qarşısını almaqda çətinlik çəkməsi səbəbindən, bir neçə həftə ərzində alman ordusu 400 km irəliləməyə nail oldu ki, bu da sovet əsgərləri arasında nizam-intizamım pozulmasına və çaxnaşmaya səbəb oldu [2, s.216]. İyulun sonlarına kimi, alman ordusu sovetləri Don çayı boyunca sıxışdırdı. Qeyd etmək lazımdır ki, bu zaman almanlar vermaxtın müxtəlif cinahlarını möhkəmləndirmək üçün öz müttəfiqləri olan İtaliya, Macarıstan və Rumıniya kimi ölkələrin ordularının köməyindən də istifadə edirdilər. Xüsusilə, italyan diviziyalarının Stalinqrad döyüşlərində iştirakı bir çox tarixçilərin əsərlərində geniş xatırlanır. Məsələn, alman tarixçisi Rolf Diter Müller yazır ki, italyan ordusu yalnız kütləvi mərmi atəşləri və alman istehkamlarının dağıdılması zamanı məcbur olaraq geri çəkilmişdilər [11, s.84]. R.D.Müllerin fikrinə əsaslanaraq belə demək mümkündür ki, Stalinqrad döyüşündə alman ordusu ilə yanaşı, italyan hərbi birləşmələri də sovet ordusuna qarşı heç də az müqavimət göstərməmişdilər.

1942-ci ilin iyulun 25-də feldmarşal Fridrix Paulyusun komandanlıq etdiyi 6-cı alman ordusu Kalaç şəhərinin qərbində sovet ordusunun ciddi müqaviməti ilə üzləşdi və bununla da avqustun 11-nə qədər davam edən Kalaç döyüşləri başlandı. Kalaç döyüşləri başlanandan sonra, sovet lideri İ.Stalin SSRİ xalq müdafiə naziri kimi 1942-ci ilin iyulun 28-də "Bir addım da geri çəkilməmək" haqqında 227 №-li əmr imzaladı. Həmin əmrdə sərəncam olmadan döyüş meydanından geri çəkilmək qadağan edilir, qorxaqlıq və qətiyyətsizlik göstərənlərin sərt cəzalandırılması nəzərdə tutulurdu.




*Müharibə dövrünün sovet təbliğat plakatı: "Stalinin əmri – Vətənin əmridir"*

Lakin, qeyd etmək lazımdır ki, gözlənilən əskinə olaraq 227 №-li əmr bir çox hallarda taktiki səhvlərə və mənfi nəticələrə də səbəb olurdu. Bununla bağlı, rus tarixçisi B.Sokolov qeyd edir ki, Stalin edam və cəza batalyonlarının qorxusu altında Qırmızı ordunun daha inadla vuruşacağını və düşmənə daha güclü zərbələr endirəcəyini ümid etsə də, reallıqda bəzən bu əksinə çıxırdı. Bütün yüksək rütbəli komandirlər repressiyalardan çəkinərək hərbi əməliyyatların gedişində ordunu geri çəkməyə gecikir və bu da yalnız əlavə itkilərə səbəb olurdu [24, s.45].

Sovetlərin tələsik hücumları alman ordusunu geri oturda bilməsə də, onların hərbi sursat təchizatını zəiflədərək müvəqqəti də olsa, dayandıra bildi. Almaniyanın quru qoşunlarının Baş qərargahı (Oberkommando des Heeres) rəisi olan general Frans Qalder öz gündəliyində qeyd edir ki, bu zaman "silah-sursat və yanacaq çatışmazlığı problemi 6-cı ordunun zərbə qüvvəsini iflic etmişdi" [8, s.284]. Lakin, Kalaç döyüşləri zamanı, havada üstünlüyə malik olan Lüftvaffe təyyarələri sovet ordusunun işini çətinləşdirirdi. Belə ki, alman təyyarələri Qırmızı ordunun həm canlı qüvvəsinə, həm də tanklarına, texnikasına, artilleriya qurğuları və istehkamlarına aviazərbələr endirir, nəqliyyat qovşaqlarını, dəmiryollarını bombalayır və bununla da, 6-cı orduya havadan dəstək verirdilər. Həmçinin, general Volfqanq Pikertin 9-cu zenit diviziyası da öz zenit qurğuları ilə sovet istehkamlarına zərbələr endirir, alman təyyarələrinin havadakı təhlükəsizliyini təmin edirdi. F.Paulyus şəxsən özü Pikertin 6-cı ordu ilə sıx əməkdaşlığını çox yüksək qiymətləndirmişdir [9, s.184]. Beləliklə, bütün bunlar Kalaç döyüşlərində sovet ordusunun, xüsusilə tank korpuslarının ağır itkilər verməsi ilə nəticələndi. 6-cı alman ordusu isə, avqustun sonlarına kimi Stalinqrad şəhərinin bir neçə kilometrliyinə çatdı. Belə olan təqdirdə, sovet rəhbərliyi və hərbi komandanlığı Stalinqrad şəhərinin müdafiəsini daha da möhkəmləndirmək üçün ciddi tədbirlər görməyə başladı: general Andrey Yeryomenko Cənub-qərb cəbhəsinin yeni komandanı təyin edildi, o zaman kommisar olan Nikita Xruşşov və Yeryomenkoya Stalinqradın müdafiəsinin təşkil edilməsini planlaşdırmaqla bağlı xüsusi tapşırıq verildi [6, s.48].

1942-ci ilin avqustun 23-nə qədər Stalinqradın 400 min nəfər sakinindən təxminən 100 min nəfəri artıq evakuasiya edilmişdi [18]. Həmin gün, aviasiya generalı Volfram fon Rixthofenin komandanlığı altında Almaniya HHQ-nin (Lüftvaffe) 4-cü hava donanması tərəfindən Stalinqrad şəhərinin ən uzun və ən dağıdıcı bombardmanı başlandı və 48 saat ərzində şəhər üzərinə təqribən 1000 ton bomba yağdırıldı [5, s.122].

Alman aviasiyasının bombardmanı zamanı on minlərlə sakinin həlak olmasına və şəhərin böyük bir hissəsinin yerlə yeksan olmasına baxmayaraq sovet zavod və fabriklər ağır şəraitdə istehsal fəaliyyətini davam etdirirdi: məsələn, Stalinqrad traktor fabriki alman ordusu tərəfindən yandırılana qədər T-34 tanklarının istehsalına davam etmişdir. Stalinqrad Şəhər Müdafiə Komitəsi qadınların, uşaqların və yaralıların da Volqanın sol sahilinə təxliyə edilməsinə dair qərar qəbul etmişdi. Şəhərdə qadınlar və uşaqlar daxil olmaqla bütün vətəndaşlar səngərlər və digər istehkamların tikilməsinə cəlb olunurdular. Belə çətin şəraitdə, sovet əsgərləri canları bahasına şəhəri müdafiə edir, N.Y.İlyin, V.Y.Zaytsev kimi sovet snayperləri təkbaşına yüzlərlə nasist əsgərini məhv edərək düşmənin canlı qüvvəsinə ağır zərbə vururdular. Şəhərdə küçə döyüşləri xüsusilə şiddətli xarakter almışdı. Almanlar şəhərdəki bu şiddətli döyüşləri acı istehza ilə "siçovul müharibəsi" (Rattenkrieg) adlandırırdılar [4, s.514-517].

Qeyd etmək lazımdır ki, Stalinqrad döyüşləri zamanı Almaniyanın hərbi doktrinasını bütün qoşun növlərinin, piyadaların, mühəndislərin, artilleriyaçıların, aviasiyanın birgə fəaliyyəti təşkil edirdi.

Stalinqrad döyüşü həm Adolf Hitler, həm də İosif Stalin üçün nüfuz məsələsi idi və bu baxımdan da onun strateji əhəmiyyəti böyük idi. Məhz buna görə idi ki, sovet komandanlığı Qırmızı ordunun Moskva, aşağı Volqa və digər bölgələrdəki strateji ehtiyat qüvvələrini Stalinqrada gətirir, SSRİ-nin bütün ərazilərindəki aviasiya qüvvələri Stalinqrad ərazisinə cəlb olunurdu. Hər iki tərəfin əsgərləri, xüsusilə ordu komandanları dərin psixi gərginlik içərisində idilər. Bunu belə bir maraqlı fakt da təsdiq edir ki, döyüşlər gedən vaxt feldmarşal Fridrix Paulyusun gözlərində və bədəninin müxtəlif hissələrində sinir tiki ("tik" fransız sözü olub, tibbi termin kimi "əzələlərin dartılması, qıc olması" anlamına gəlir. – B.M.) başlanmış, sovet generalı Vasili Çuykovda ekzema (dəri iltihabı – B.M.) başlanmışdı [3, s.141].

*Stalinqrad döyüşünün hücum mərhələsi*. Qışa doğru almanların təchizatının pisləşəcəyini nəzərə alan SSRİ Ali Baş Komandanlığı Stavkası və Baş qərargah 1942-ci ilin sentyabrından etibarən əks-hücum planı hazırlamağa başladılar [17.104]. Noyabrın 13-də strateji əks-hücum planı "Uran" kod adı altında Stalinin sədrliyi ilə Stavka tərəfindən təsdiq edildi. Əks-hücum planının əsas ideyasını düşmənin mühasirəyə alınması və məhv edilməsi təşkil edirdi. Həmin vaxt, sovetlərin əks-hücum planından almanların xəbərsiz olması kəşfiyyatın zəif olması ilə əlaqədar idi və sonradan görkəmli sovet marşalı Georgi Jukov öz xatirələrində bunun "almanların operativ səhvi" olduğunu qeyd etmişdir [17].

Beləliklə, 1942-ci ilin 19 noyabrı, səhər saat 7:30-da sovet artilleriyasının güclü zərbələri ilə Don çöllərində sakitlik pozuldu, Cənub-qərb cəbhəsi (general N.Vatutinin komandanlığı altında) və Don cəbhəsi (general K.Rokossovskinin komandanlığı altında) eyni vaxtda əks-hücuma keçdilər [15, s.193]. Bununla da, "Uran" əməliyyatının icrası başlandı. Bu, Stalinqrad döyüşünün ikinci mərhələsinin başlanması idi. Sovet və rus tarixşünaslığına görə, əgər birinci mərhələ (17 iyul-18 noyabr 1942) müdafiə dövrü idisə, ikinci mərhələ (19 noyabr 1942-2 fevral 1943) artıq hücum dövrü idi. Bir gün sonra, general Andrey Yeryomenkonun komandanlığı altında Stalinqrad cəbhəsi də hücuma keçdi. Noyabrın 23-də Cənub-qərb və Stalinqrad cəbhələrinin tank və mexanikləşdirilmiş birləşmələri birlikdə hərəkətə keçərək Volqa və Don çayları arasında alman ordusunun əsas qruplaşmasını mühasirəyə aldılar. Stalinqradda mühasirəyə düşən alman əsgər və zabitlərinin sayı ilə bağlı tarixçilər müxtəlif rəqəmlər qeyd edirlər. Sovet tarixçilərinin məlumatına görə, bu rəqəm 330 min nəfər, alman tarixçilərinə görə 250-280 min nəfərdir [25, s.244]. Belə bir gərgin vaxtda, noyabrın 23-dən 24-nə keçən gecə vermaxt komandanlığı belə qərara gəldi ki, Stalinqraddakı alman qoşunları təcili şəkildə geri çəkilsinlər. Əvvəlcə Hitler bu qərarla razılaşsa da, noyabrın 24-ü səhəri feldmarşal Paulyusa radioteleqram göndərərək Stalinqradda qalmaq əmri verdi. Qərarı reyxsmarşal German Görinqin təsiri altında verən Hitler hesab edirdi ki, Lüftvaffenin havada üstünlüyü mühasirəyə düşən alman ordusunun üstünlüyünü təmin edərək onu mühasirədən çıxara biləcək [7, s.474].

Alman komandanlığı mühasirədə çıxmağa – deblokadaya hazırlaşmaq məqsədilə feldmarşal Erix fon Manşteynin komandanlığı altında 20 alman diviziyası və 2 rumın diviziyasından ibarət "Don" adlanan yeni ordu qrupu təşkil etdilər. Manşteyn Hitler inandırdı ki, onun ordusu güclü zərbələr endirərək sovetlərin mühasirə halqasını yaracaq və Paulyusun ordusu ilə birləşərək alman ordu-

sunun Volqa və Don çayları arasındakı əvvəlki (Qırmızı ordunun noyabr əks-hücumuna qədərki) vəziyyətini bərpa edəcək. Bu məqsədlə, biri Kotelnikov rayonunda, digəri Tormosina rayonunda olmaqla iki zərbə qruplaşması yaradılmışdı [25, s.245]. Beləliklə, 1942-ci ilin dekabrın 12-də Manşteynin ordu qrupu mühasirədəki alman ordusunu xilas etmək məqsədilə "Vintersqevitter" ("qış tufanı") adlanan strateji hücum əməliyyatına başlayaraq Kotelnikov rayonundan hücuma keçdi. Dekabrın 24-nə qədər Stalinqrad cəbhəsinin sovet ordusu vermaxtla ağır müdafiə döyüşləri aparmalı oldu. Bu müddət ərzində almanların Kotelnikov qruplaşması 40 kilometrə qədər irəliləməyi bacararaq Mışkova çayına çatdılar [22, s.139]. Alman komandanlığının planına görə, həmin vaxt ikinci qruplaşma "Donnerşlaq" ("göy gurultusu") kod adı olan əməliyyatla Tormosina rayonundan hücuma keçməli idi. Belə olan, təqdirdə sovet komandanlığı almanların bu hücumlarının qarşısını almaq məqsədilə, təcili olaraq daha əvvəl hazırlanmış "Saturn" planında dəyişiklik etdi və "Kiçik Saturn" kod adı altında yeni strateji hücum planı hazırlandı. Dekabrın 16-da sovet ordusunun hücumu ilə həmin əməliyyatın icrası başlandı.

Qırmızı ordunun "Kiçik Saturn" əməliyyatına başladığı zaman alman-faşist ordusu Stalinqradda son dərəcə çətin vəziyyətlə üzləşdilər. Onlar sovet aviasiyası tərəfindən sistemik olaraq bombardman edilir, sovet artilleriyası tərəfindən atəşə tutulurdu. Həmçinin, alman ordusu arasında aclığın yayılması da ölüm hallarını qarşısıalınmaz edirdi. Alman komandanlığı nəqliyyat aviasiyası ilə ordunun təchizatına və heç olmasa bəzi qoşun hissələrini təxliyyə etməyə cəhd göstərsə də, sovet təyyarəçiləri bundan xəbər tutaraq qarşısını alırdı. Dekabrın 23-də feldmarşal Manşteyn Stalinqradda mühasirədə qalan alman ordusunu xilas etmək cəhdindən imtina edərək öz qüvvələri ilə yeni sovet hücumlarının qarşısını almaq üçün müdafiə mövqeyinə keçməli oldu [1, s.153].

Mühasirəyə alınmış alman ordusunun böyük çətinlik içərisində olduğunu alman əsgərlərinin öz evlərinə yazdıqları məktubları da təsdiq edir. Məsələn, Valter adlı alman əsgəri öz məktubunda yazır:

"*Əziz xala! Biz hələ Stalinqrad mühasirəsindəyik və yeyəcək bir şeyimiz demək olar yoxdur. Nə siqaret, nə şnaps* (şnaps – almanların alkoqollu içkilərə verdiyi addır – B.M.), *hətta çörək belə çatmır. Biz əsasən at əti ilə qidalanırıq və mən aclıqdan onu bir neçə dəfə çiy də yemişəm. Ən əsası isə tezliklə hər şeyin yaxşı olacağına dair heç bir heç bir perspektiv də yoxdur. Sizin Valter. 31.12.42*" [25, s.248].

Bruno adlı başqa bir alman əsgərinin öz evinə göndərdiyi məktubunda yazdıqları mühasirədəki alman ordusunun xüsusilə təchizat baxımdan son dərəcə ağır vəziyyətdə olduğunu bir daha təsdiq edir:

"*Mənim əzizlərim! Artıq yeni il ərəfəsidir və ev haqqında düşünəndə mənim qəlbim titrəyir. Burada hər şey pis və ümidsizdir. Artıq 4 gündür mən çörək yemirəm, yalnız naharda sup, səhər və axşam isə bir qurtum qəhvə ilə keçinirəm. ...Hər tərəfdə aclıqdır, hər yer bit-birə və çirkdir. Günorta və axşam sovet təyyarəçiləri bizi bombalayır, artilleriya atəşi demək olar ki kəsilmir. Əgər yaxın günlərdə möcüzə baş verməsə burada həlak olacam. ...Gecələr yata bilmirəm, gözləri açıq uzanaraq öz taleyim haqda fikirləşirəm: Nə vaxt və necə qurtulacağıq? Başımıza nə gələcək? – mərmidən ya qranatdan ölüm? Yoxsa xəstəlikdən? Daha ümidim yoxdur. Ürəkdən sevgi ilə sizin Bruno. 31.12.42*" [25, s.248].

Bütün bunlara baxmayaraq, 1943-cü ilin yanvarın 8-də sovet komandanlığı mühasirədə olan alman ordusuna təslim olmağı təklif edəndə Hitler sağlam düşüncəyə zidd şəkildə kapitulyasiyanı qadağan etdi. Belə olan təqdirdə, sovet komandanlığı mühasirədə olan alman ordusunun ləğvi ilə bağlı qəti qərara gəldi və bu işin icrası general Konstantin Rokossovskinin komandanlığı altında olan Don cəbhəsinə tapşırıldı. Yanvarın 10-da mühasirədəki alman-faşist ordusunu parçalayaraq məhv etmək məqsədilə Don cəbhəsi hücuma keçdi və bununla da, Stalinqrad döyüşündəki son hərbi əməliyyat olan "Koltso" əməliyyatı (10 yanvar – 2 fevral 1943) başlandı. Sovet ordusu hücumun ilk günündə 26000 əsgər və tankların təqribən yarısı qədər itki verdilər [3, s.356]. Yanvarın 22-də əlavə haqırlıqlardan sonra Don cəbhəsi yenidən hücuma keçdi və 26-sı Mamayev kurqanı ətrafında alman qruplaşması iki hissəyə parçalandı [25, s.249]. Şəhərdə döyüşlər bir neçə gün davam etdi. Yanvarın 31-də cənub qruplaşması feldmarşal Fridrix Paulyus başda olmaqla əsir düşdü. Ümumilikdə, "Koltso" əməliyyatı zamanı 2500 zabit və 24 general olmaqla 91 min nəfər alman əsgəri əsir düşdü

[15, s.199]. 1943-cü ilin 2 fevralında mühasirədəki şimal qruplaşması da təslim oldu və bununla da, Stalinqrad döyüşü başa çatdı.



*Sovet ordusuna əsir düşmüş alman feldmarşalı Fridrix Paulyus*

*Stalinqrad döyüşünün nəticəsi.* 200 gün davam edən Stalinqrad döyüşü zamanı faşist bloku sovet-alman cəbhəsindəki bütün qüvvələrinin ¼-i qədər itki verdilər. Döyüşün gedişində vermaxt ilə yanaşı nasist Almaniyasının müttəfiqi olan ölkələrin orduları – rumın, italyan, macar və xorvat orduları da darmadağın edildi, xilas olan hissələri isə tamamilə demoralizə olundu. Məsələn, feldmarşal E.Manşteyn sonradan özünün "itirilmiş qələbələr" adlandırdığı xatirələrində Stalinqrad döyüşündə vermaxt ilə bir cəbhədə vuruşmuş general Petre Dumitreskunun komandanlıq etdiyi 3-cü rumın ordusu ilə bağlı yazır: "Dumitresku özünün demoralizə olunmuş ordusu ilə birgə tək mübarizə aparmaqda gücsüz idi. Ona görə də əsgərləri arxa cəbhəyə, vətənə göndərməkdən başqa onun çarəsi qalmadı" [20, s.405]. Beləliklə, Stalinrqad döyüşlərində faşist blokundan təqribən 1,5 milyon nəfərə yaxın əsgər və zabit (HHQ də nəzərə alınmaqla) öldü, yaralandı və ya əsir düşdü [15, s.200]. Sovet ordusunun isə canlı qüvvə itkiləri 1 milyon 130 min nəfər oldu. SSRİ-də Stalinqrad müdafiəçilərinin fədakarlığı yüksək qiymətləndirildi. 112 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü, 700 min nəfər "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif olundu [25, s.250]. Stalinqrada "qəhrəman şəhər" adı verildi.

Sovet ordusunun Stalinqraddakı qələbəsi bütün dünyada böyük əks-səda doğurdu. ABŞ prezidenti Franklin Delano Ruzvelt 1943-cü ilin fevralın 5-də Stalinə müraciətində Stalinqrad döyüşünü epik bir mübarizə adlandıraraq, bütün amerikalıların onun həlledici nəticəsinə görə bayram etdiyini bildirdi [19]. 26 fevral 1943-cü ildə ABŞ-ın məşhur "New York Times" qəzeti Stalinqrad qələbəsi ilə bağlı qeyd etdi: "Sovet ordusu təkcə özünün ən böyük müasir ordu olduğunu sübut etmədi, həm də Sovet İttifaqını qüdrətli dünya dövlətinə çevirdi" [14, s.69]. Böyük Britaniya kralı VI Georq Britaniya xalqının dərin heyranlıq əlaməti olaraq qəhrəman şəhərin sakinlərinə Fəxri qılınc hədiyyə etdi. 1943-cü ilin 29 noyabrında, Tehran görüşü zamanı kral VI Georqun adından həmin qılınc Stalinə təqdim edildi [14, s.75-78].

*Stalinqrad döyüşündə azərbaycanlıların iştirakı.* Stalinqraddakı qanlı döyüşlərdə H.Aslanov, B.Abbasov, M.Hüseynzadə, H.Sadıqov və s. kimi minlərlə azərbaycanlı döyüşçülər də iştirak etmiş və misilsiz rəşadət göstərmişlər. Stalinqrad cəbhəsinin tərkibinə daxil olan 55-ci əlahiddə tank polkunun komandiri olmuş əfsanəvi tank qoşunları sərkərdəsi general-mayor Həzi Aslanov 1942-ci ilin dekabrında mühasirədə olan alman ordusunu xilas etməyə cəhd göstərən feldmarşal Manşteynin "Don" ordu qrupunun ön hissələri ilə üzə-üzə gəlmiş, düşmənin onlarla tank və texnikasını, habelə yüzlərlə canlı qüvvəsini məhv etmiş, Stalinqrad döyüşündəki qəhrəmanlıqlarına görə 22 dekabr 1942-ci ildə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Mükafat vərəqində göstərilirdi ki, Həzi Aslanovun polku 15 dekabrdan 19 dekabra kimi Verxne-Kumski rayonunda 30 tankı, 50 avtomaşını və faşist batalyonunu məhv etmişdir [13, s.62-63].

Azərbaycanlı snayper Baloğlan Abbasov Stalinqrad cəbhəsində snayper hərəkatının təşəbbüskarlarından biri olmuşdur. Yalnız 50 gün ərzində onun hazırladığı snayperlər Stalinqrad döyüşü

zamanı 615 nəfər, şəxsən özü isə düşmənin 106 nəfər əsgər və zabitini məhv etmişdir. B.Abbasov 1942-ci ilin noyabrın 23-də, "Uran" əməliyyatının gedişində almanlarla əlbəyaxa döyüş zamanı həlak olmuş, ölümündən sonra "Qırmızı ulduz" ordeni ilə təltif olunmuşdur [21, s.18]. İkinci dünya müharibəsi zamanı partizan hərəkatının görkəmli nümayəndəsi olmuş Mehdi Hüseynzadə Stalinqrad döyüşündə minomyot taqımının komandiri kimi iştirak etmiş, 1942-ci ilin avqustunda Kalaç şəhərində ağır yaralanaraq əsir düşmüş və Almaniyaya göndərilmişdir. Berlində üç ay ərzində alman dilini öyrənmiş, 1943-cü ilin ortalarında Ştranse düşərgəsindən qaçaraq Yuqoslaviya, Triest və İtaliyada partizan dəstələrinə qoşulmuş, ölümündən sonra (1956-cı ildə) Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür [13, s.83]. Stalinqrad döyüşündə iştirak etmiş başqa bir rəşadətli azərbaycanlı döyüşçü Həmzə Sadıqov düşmənə güclü müqavimət göstərmiş, hətta alman generalı İohann fon Rodenburqu əsir götürmüşdür [23].

*Nəticə.* Beləliklə, İkinci dünya müharibəsi zamanı nasist Almaniyası üzərində qələbədə son dərəcə mühüm rol oynamış Stalinqrad döyüşünün tarixi əhəmiyyətini aşağıdakı kimi ümumiləşdirmək olar:

Birincisi, sovet ordusu məhz Stalinqraddakı qələbə ilə strateji təşəbbüsü düşməndən alaraq öz əlinə keçirdi və Leninqraddan Qafqaz dağlarının ətəklərinə kimi geniş cəbhədə ümumi hücuma keçdi. Beləcə, Stalinqrad döyüşündə qələbə təkcə Böyük Vətən müharibəsində deyil, bütövlükdə ikinci dünya müharibəsində əsaslı dönüşün başlanğıcını qoydu. Bununla bağlı, ikinci dünya müharibəsinin iştirakçısı olmuş amerikalı astronavt Donald Sleyton sonradan öz xatirələrində yazırdı: "Almanlar Stalinqradda məğlub olanda sevincimizin həddi yox idi. Hər kəs başa düşürdü ki, bu, müharibədə dönüşdür, bu, faşizmin sonunun başlanğıcıdır" [19].

İkincisi, Stalinqraddakı qələbə SSRİ-nin hərbi gücünü bütün dünyaya nümayiş etdirdi, sovet ordusu vermaxta və onun müttəfiqlərinə vurduğu sarsıdıcı zərbə ilə bütövlükdə nasist Almaniyasının hərb maşınını silkələdi.

Üçüncüsü, Stalinqrad döyüşünün nəticəsi mühüm beynəlxalq əhəmiyyət kəsb etdi. Belə ki, bu döyüşdən sonra nasist Almaniyasının nüfuzu aşağı düşdü. Bundan başqa, Stalinqraddakı qələbə antifaşist mübarizəsinin yüz milyonlarla iştirakçısına böyük mənəvi və siyasi təsir göstərdi, Avropa, Asiya ölkələrində Müqavimət hərəkatlarına güclü təkan verdi və hətta, faşist bloku ölkələrində, habelə Almaniyanın özündə də antifaşist hərəkatını gücləndirdi. Sovet İttifaqının beynəlxalq nüfuzu isə, bütün dünyada yüksəldi.

Dördüncüsü, alman-sovet cəbhəsində vermaxtın mühüm strateji qruplaşmalarının məğlubiyyəti faşist blokuna daxil olan bütün ölkələrə ciddi zərbə oldu, Berlin-Roma-Tokio oxunun süqutunu sürətləndirdi. İtaliyada faşist lider Mussolini həbs edildi və yeni italyan hökuməti təslim olaraq faşist blokunu tərk etdi. Nasist Almaniyasının satellitləri olan Rumıniya, Macarıstan, Slovakiya kimi ölkələrdə daxili siyasi böhran başlandı, həmin ölkələrin rəhbərləri müharibədən çıxmaq, ABŞ və Böyük Britaniya ilə serparat sülh müqaviləsi bağlamaq üçün yollar axtarmağa başladılar. Yaponiya özünün SSRİ-yə qarşı planlaşdırdığı hücumdan ("Kantokuen" planı) imtina etdi.

Beşincisi, 1941-ci ilin qışında Moskvadakı məğlubiyyətdən sonra Stalinqradda da ağır məğlubiyyət həm vermaxt əsgərləri arasında döyüş ruhunu, həm də nasist Almaniyasının əhalisi arasında mənəvi ruhu aşağı saldı. Müharibədən sonra alman generalı E.Butlar yazırdı: "Almaniya təkcə döyüşdə məğlub olmadı, həm də döyüşlərdə sınanmış ordusunu itirdi, müharibənin əvvəlində qazandığı, lakin hələ Moskva döyüşündə sönməyə başlamış şöhrətini bu dəfə tamamilə itirdi. Bu itki ən tez zamanda bütün müharibənin gedişinə əhəmiyyətli mənfi təsir göstərdi və ilk növbədə Almaniyanın xarici siyasət mövqeyini sarsıtdı [15, s.201-202].

Altıncısı, Stalinqrad döyüşündə qələbə Sovet İttifaqının bütün xalqları arasında birliyi, müxtəlif millətlərdən döyüşçülər və komandirlər arasında vahid birliyi, dözümü əhəmiyyətli dərəcədə gücləndirdi.

## ƏDƏBİYYAT

1. Adam W., Ruhle O. With Paulyus at Stalingrad. Barnsley, Pen & Sword Military, 2015, 240 p.
2. Baxşəliyev T. Slavyan ölkələri tarixi 1917-2015. Bakı, Şərq-Qərb, 2018, 872 s.
3. Beevor A., Cooper A. Stalingrad. London, Viking, 1998, 493 p.

4. Bellamy C. Absolute War: Soviet Russia in the Second World War. New York, Alfred A. Knopf & Random House, 2007, 813 p.
5. Bergström C. Stalingrad: The Air Battle, November 1942 – February 1943. Midland Publishing, 2007, 144 p.
6. Craig W. Enemy at the Gates: The Battle for Stalingrad. New York, Reader's Digest Press, 1973, 457 p.
7. Erickson J. Road To Stalingrad. London, Cassell Military, 2003, 608 p.
8. Fritz S. Ostkrieg: Hitler's War of Extermination in the East. Lexington, University Press of Kentucky, 2011, 640 p.
9. Hayward J. Stopped At Stalingrad: The Luftwaffe and Hitler's Defeat in the East, 1942–1943. Lawrence, University Press of Kansas, 1998, 393 p.
10. Ian K. Hitler: 1936–1945: Nemesis. New York, W.W. Norton, 2000, 1115 p.
11. Müller R. The Unknown Eastern Front: The Wehrmacht and Hitler's Foreign Soldiers. I.B. Tauris Limited, 2012, 320 p.
12. Peter A. Stalingrad 1942. Oxford, Osprey Publishing, 2007, 96 p.
13. Азербайджан в годы Великой Отечественной войны 1941-1945 гг. Автор-составитель Г.Заплетин. Москва, 2015, 126 с.
14. Белов Д. Сталинград в оценке общественности Великобритании и США 1942–1945 гг. Волгоград-Самара, Издательство Ас Гард, 2011, 220 с.
15. Великая Отечественная война Советского Союза 1941-1945: Краткая история. Москва, Воениздат, 1984, 560 с.
16. Дашичев В. Совершенно секретно! Только для командования! Москва, Наука, 1967, 752 с.
17. Жуков Г. Воспоминания и размышления. 2-е изд. Кн. 2. Москва, 1974, 448 с.
18. Исаев А. Сталинград. За Волгой для нас земли нет. Москва, Яуза, 2008, 444 с.
19. История Второй мировой войны 1939-1945. Том 6. Коренной перелом в войне. Москва, Воениздат, 1976, 520 с.
20. Манштейн Э. Утерянные победы. Москва, АСТ, 2002, 896 с.
21. Павленко П. Балаоглан Абасов. Баку, Военное Издательство Народного Комиссариата Обороны, 1943, 23 с.
22. Решающий вклад Советского Союза в разгром нацистской Германии в годы Второй мировой войны. Москва, ВУ, 2020, 420 с.
23. Садыгов Ф., Велизаде Р. Забытый герой Сталинградской битвы. Баку, Çıraq, 2015, 152 с.
24. Соколов Б. Чудо Сталинграда. Москва, Алгоритм, 2013, 400 с.
25. Хисамутдинова Р. Великая Отечественная война Советского Союза (1941-1945 годы): военно-исторические очерки. Оренбург, Издательство ОГПУ, 2014, 476 с.

**БАЛАМИРЗА МАМЕДЛИ**
*Бакинский Государственный Университет*

## СТАЛИНГРАДСКАЯ БИТВА: САМОЕ КРОВОПРОЛИТНОЕ СРАЖЕНИЕ В ИСТОРИИ И НАЧАЛО КОРЕННОГО ПЕРЕЛОМА ВО ВТОРОЙ МИРОВОЙ ВОЙНЕ

Сталинградская битва самое кровопролитное и масштабное сражение не только в Великой Отечественной войне и Второй мировой войне, но и во всей истории человечества. В этом ужасном сражении, длившемся 200 дней и ночей, с обеих сторон было убито более 2 миллионов человек, также были понесены десятки тысяч потерь в технике, орудиях, танках, самолетах и т.д. Хотя Сталинградская битва была тяжелая пора для Советского Союза, как и для нацистской Германии, но решительная победа советской армии превратила ее в славное событие. Потому что, именно в Сталинградской битве было оправдано начало коренного перелома в ходе войны, не позволившего немецкой армии захватить Поволжье и Кавказ, особенно Баку, где были сосредоточены стратегические нефтяные месторождении, в очередной

раз развенчан миф о непобедимости гитлеровской армии, впервые потерпевшей поражение в битве под Москвой зимой 1941 года.

В статье рассматриваются основные цели и планы нацистской Германии, связанные с нападением на Сталинград, ход боевых действий, важные столкновения в ходе этой битвы и наконец, основные результаты Сталинградской битвы, ее стратегическое значение и роль в войне.

*Ключевые слова*: Сталинград, Великая Отечественная война (1941-1945), Вторая мировая война, план «Блау», операция «Уран», начало коренного перелома.

**BALAMIRZA MAMMADLI**
*Baku State University*

## BATTLE OF STALINGRAD: THE BLOODIEST ARMED CINFLICT IN HISTORY AND THE BEGINNING OF MAJOR TURNING POINT IN WORLD WAR II

The Battle of Stalingrad is the bloodiest and largest war not only in the Great Patriotic War of Soviet Union and World War II, but also in the history of mankind. In this terrible battle, which lasted 200 days and nights, more than two million people were killed on both sides, also tens of thousands losses were given in equipment, guns, tanks, aircraft and etc. Although, Battle of Stalingrad was as painful for the Soviet Union as it was for Nazi Germany, but the decisive victory of the Soviet army turned it into a glorious event. Because it was in the Battle of Stalingrad that the beginning of a major turning point in the course of the war was justified, preventing the German army from capturing the Volga region and the Caucasus, especially Baku, where strategic oil fields were concentrated, the myth of the invincibility of the Nazi army, which was first defeated in the battle of Moscow in winter of 1941, was once again debunked.

The article examines the main goals and plans of Nazi Germany related to the attack on Stalingrad, the course of hostilities, important clashes during this battle and, finally, the main results of the Battle of Stalingrad, its strategic importance and role in the war.

*Keywords*: Stalingrad, Great Patriotic War (1941-1945), World War II, Case Blue, Operation Uranus, the beginning of major turning point.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 oktyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Abutalıb Cəlilov, t.e.d. Qabil Əliyev.*

**UOT 327: 140.8; UOT 327: 930.22; UOT 32:93/94**

**AYAZ HACIYEV**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının dissertantı*
**ayazhaciyev@yahoo.com**

# ZƏİF VƏ GÜCLÜ DAVAMLI İNKİŞAF MODELLƏRİ

*Dayanıqlı inkişaf modellərinin tədqiqi inkişaf və ətraf mühit arasındakı əlaqə mövzusunda davam edən mübahisələrin davamıdır. İnkişafın davamlılığını hədəfləyən yanaşmaların ortaq nöqtəsi, uzunmüddətli dövrdə insanın rifahının yüksəldilməsi üçün nə edilməsi lazım olduğunu araşdırmaqdır. Lakin bu yanaşmaların əsas arqumentləri fərqli olduğundan, fəaliyyət təklifləri də dəyişir. Məsələn, zəif davamlılıq tərəfdarları texnoloji inkişaf, təbii və insan istehsalı kapitalın əvəzetmə imkanları və insanların problemləri həll etmək imkanları sayəsində ehtiyatların tükənməsinin baş verməyəcəyinə və inkişafın stabil davam edəcəyinə inanırlar.*

*Güclü davamlılığı dəstəkləyənlər isə inkişafın sərhədləri olduğunu iddia edirlər. Belə ki, onlara görə, dünyadakı insanların əsas ehtiyaclarını ödəmək üçün məhdud bir böyümə vacibdir. Bununla yanaşı, rifahın yüksəldilməsi üçün kəmiyyət artımı ilə xarakterizə olunan inkişafın keyfiyyətli davamlı inkişafla əvəz edilməsi də güclü davamlı inkişafın vacib prinsiplərindəndir.*

*Açar sözlər*: Güclü davamlı inkişaf, kapital, zəif davamlı inkişaf, neoklassik, arqument, aspektlər, metodoloji xüsusiyyətlər.

*Giriş*. Elmi-nəzəri səviyyədə davamlılıq və davamlı inkişaf anlayışları müxtəlif formalarda müəyyənləşdirilməyə çalışılmış və zamanla fərqli baxış aspektləri meydana çıxmışdır. Məlum olduğu kimi, davamlı inkişaf gələcək nəsillərin rifahının təmin edilməsinin ən uyğun yolu kimi gələcək nəslin də bugünkü qədər ehtiyatlarla təmin edilməsində görür. Bu nöqtədə müəyyən bir səviyyədə qorunması lazım olan resurs ehtiyatının xarakteri üzərində müəyyən müzakirələr ortaya çıxır [1].

Digər tərəfdən ətraf mühitin, təbiətin iqtisadi və sosial amillərdən asılılığının səviyyəsinin müəyyənləşdirilməsi ilə bağlı da müəyyən müzakirələr diqqəti cəlb etməkdədir. İlk növbədə ondan başlamaq lazımdır ki, insanın istehsal etdiyi kapital ilə təbii kapital arasındakı əvəzetmə əlaqəsinə toxunan müzakirələr zəif və güclü davamlılıq anlayışlarının, başqa sözlə zəif və güclü davamlı inkişaf modellərinin ortaya çıxmasına səbəb olmuşdur.

Zəif və güclü davamlı inkişaf modellərinin ortaya çıxması, onları bir-birindən fərqləndirən əsaslar, prinsiplər, eyni zamanda bu yanaşmaların tərəfdarlarının arqumentlərinin öyrənilməsi və təhlili mühüm aktuallıq kəsb edir [2].

Zəif davamlılıq anlayışının mənşəyi neoklassik iqtisadi inkişaf nəzəriyyəsi ilə əlaqəlidir. Konsepsiyanın metodoloji xüsusiyyətləri Solov tərəfindən yaradılmışdır. Zəif dayanıqlılıq yanaşması insan istehsalı olan kapitalın antroposentrik bir yanaşma kimi təbii kapitaldan daha vacib olduğunu əsaslandırır. Buna görə də, maşın, fabrik və liman kimi fiziki kapitalın mövcud olduğu yerdə davam edən nəsillərin ətraf mühiti çirkləndirməsi və ya bərpa olunmayan mənbələri istehlak etməsi problem kimi görünməməlidir. Xülasə, belə qənaətə gəlmək olar ki, təbii kapital insan istehsalına çevrildiyi müddətcə davamlılıq üçün təhlükəli bir tendensiya yoxdur [3].

Zəif davamlılığı ölçmək üçün istifadə edilə bilən göstərici Pearce və Atkinson tərəfindən təklif edilmişdir. Bu göstərici insan istehsal olan kapital və təbii kapitalın amortizasiyasını bir ölkənin ehtiyatlarından çıxarmaqla neoklassik qənaət qaydasına əsaslanan ölçü ortaya qoyur. Daha sonra Hamilton tərəfindən həqiqi ehtiyat adlandırılan bu göstərici $Z = SY\text{-}\delta MY\text{-}\delta NY$ formatda müəyyən edilir.

Burada $Z$ real əmanətlər, $Y$ milli gəlir $\delta M$ və sırasıyla, müvafiq olaraq insan istehsalının və təbii kapitalın amortizasiya dəyərləri göstərilir. Yuxarıdakı tənlikdə göstərilən bu zəif davamlılıq indeksi sıfırdan böyükdürsə, zəif davamlılığın müvafiq iqtisadiyyat üçün etibarlı olduğunu söyləmək olar. Dünya Bankı davamlılığı ölçmək üçün bu göstəricini qəbul etmiş və dünyanın müəyyən bölgələri üçün faktiki əmanət hesablamalarını dərc etməyə başlamışdır.

Zəif dayanıqlılıq yanaşması, texnoloji kapitalın təbii kapitalı əvəz edə biləcəyi əsas fərziyyəsi səbəbindən ekoloji iqtisadi cərəyan tərəfindən geniş tənqid edilmişdir. Bundan əlavə, Pearce və Atkinson tərəfindən irəli sürülmüş yuxarıda göstərilən davamlılıq göstəricisi bir çox digərləri tərəfindən də tənqidə məruz qoyulmuşdur. Bu tənqidlərdən ən diqqət çəkənlərindən biri, zəngin fosfat mənbələri çıxarmaq üçün təxminən yüz il davam edən mədən fəaliyyəti nəticəsində təbii mühitinin 80%-nin məhv edildiyi Sakit okean adası ölkəsi olan Naurunun, yuxarıda göstərilən tənliyə-formulaya görə ən davamlı ölkə olduğunun göstərilməsi olmuşdur [4].

*Davamlı inkişafın modelləri*. Ayres Pearce və Atkinson tərəfindən təklif olunan göstəricidən istifadə edərək Martínez-Alier, Cabeza Gutes sənayeləşmiş Şimal ölkələrinin, keçmişdə təbii qaynaqlarının əhəmiyyətli bir hissəsini məhv etsələr də, yüksək davamlılıq dərəcələrinə sahib ölkələr kimi dəyərləndirilə biləcəklərini qeyd etmişlər [7].

Gowdy və O'Hara isə zəif davamlı inkişaf meyarlarının qorunub saxlandığı halda ekosistemlərin və növlərin məhv olması və ya fosil yanacaqlarının tükənməsinin davamlılıqla heç bir ziddiyyət təşkil etmədiyini ifadə edən yanaşmanı tənqid etmişlər [8].

Zəif davamlı inkişaf ideyasına görə, iqtisadi böyümənin müəyyən məhdudiyyətləri olsa da, böyümə (inkişaf) ətraf mühitin keyfiyyətinin təmin edilməsində və qorunmasında əsas vasitədir. Brundtland Hesabatı ilə uyğun olan bu yanaşma, bütün sənayeləşmiş və inkişaf etməkdə olan ölkələr üçün daha çox böyümə təklif edir. Zəif davamlılıq yanaşması neoklassik iqtisadiyyatda təbliğ olunan Kuznets Əyrisi hipotezi ilə üst-üstə düşür. Müvafiq olaraq, iqtisadi artım ekoloji problemlərin həllində kömək etmək üçün resurslar təmin edir və buna görə ekoloji tənzimləmə və böyümə yolu ilə keyfiyyət artır [9].

Zəif davamlılıq yanaşması, mənbələr arasında problemsiz bir şəkildə əvəzləmə aparıla biləcəyinə inanaraq, iqtisadi artımın sonsuz davam etməsi üçün heç bir ekoloji təhlükə görmür. Kapital fondunu təşkil edən texnoloji və təbii kapital bu yanaşmaya görə bir-birləri ilə problemsiz əvəz edilə biləcəyi üçün ümumi kapital fondunun miqdarı qorunmalıdır.

Bu gün resurs istifadəsinin israfçılığını nəzərə alaraq, zəif davamlı inkişaf yanaşmasının həyata keçirilməsi ilk növbədə vacib addım ola bilər. Ən azından, böyümənin məhdudiyyətlərinin olduğunu qəbul edir və istehlak etmədən müəyyən bir kapitalın gələcəyə saxlanmasının zəruri olduğunu göstərir. Lakin bu yanaşmanın çatışmazlığı, əsas təbii ehtiyatların heç bir əvəz olmadan tükənəcəyi təqdirdə insan həyatının qeyri-sabit olacağını nəzərə almamasıdır. Çünki bu vəziyyətdə insan tərəfindən istehsal edilən kapital heç bir kömək göstərə bilmir [5].

Dünyanın indiki mənzərəsinin ortaya qoyduğu vəziyyəti nəzərə alaraq, ekoloji məsuliyyət üçün ekosistem tərəfindən göstərilən xidmətlərə zərər verməyən bir inkişafın təmin edilməli olduğu qənaətinə gəlinir. Bu baxımdan, bu yanaşmanın əksi olan və daha real hesab olunan güclü dayanıqlılıq yanaşmasının arqumentləri daha cəlbedici qəbul edilir.

İqtisadi artım hədlərinə daha ehtiyatlı bir yanaşma olan güclü davamlı inkişaf yanaşması, inkişafın davamlılığının ekoloji məsuliyyətlə əldə edilə biləcəyini vurğulayır. Ekoloji məsuliyyətin təmin edilməsi iqtisadi məqsədəuyğunluq və sosial həmrəyliyin vacib şərtlərindən biri kimi göstərilir [5].

Güclü davamlılıq yanaşması, texnoloji və təbii kapitalın bir-birini tamamilə əvəz edilə bilməyəcəyini və müəyyən dərəcədə qarşılıqlı tamamlayıcı olduğunu iddia edir. Bu yanaşmaya görə, təbii kapital üçün əvəzetmə yoxdur və təbii kapital bu gün iqtisadi fəaliyyətin məhdudlaşdırıcı elementinə çevrilmişdir. Əksər ekoloji iqtisadçılar tərəfindən qəbul edilən bu yanaşma ilk növbədə ekoloji dayanıqlığı təmin etməyə əsaslanır [6].

Güclü davamlılıq və zəif davamlılıq arasındakı fərq ilk əvvəl Pearce, Markandya və Barbier tərəfindən irəli sürülmüşdür. Turner və Pearce-in töhfələri ilə güclü və zəif dayanıqlılıq arasındakı fərq daha da aydınlaşmış və güclü davamlılıq yanaşması ekoloji elm adamları tərəfindən neoklassik ekoloji ədəbiyyatda davamlılıq ideyasına cavab olaraq getdikcə daha çox qəbul edilmişdir.

Güclü davamlılıq anlayışı əsasən ekoloji iqtisadçıların insanların mütləq biofiziki sərhədlərin mövcud olduğu bir dünyada yaşadıqları anlayışına əsaslanır. Bu anlayışın təbii nəticəsi olaraq ekoloji iqtisadiyyat təbii kapitalın quruluşunun digər kapital növlərindən (fiziki kapital (K), insan kapitalı (H) və sosial kapital (SC)) fərqli olduğunu göstərir. Müvafiq olaraq, ilk növbədə təbii kapital yer üzündəki canlılar üçün bir həyat dəstəyi sistemidir [6].

Ekosistemlər canlılar üçün qida, içməli su və digər bərpa olunan mənbələr verməklə bərabər, irsi məlumatların qorunması, torpağın qorunması və bərpası, su dövranı, üzvi və mineral qida maddələrinin çevrilməsi, çirkləndiricilərin süzülməsi və bitkilərin mənimsənilməsi, əkinlərin mənimsənilməsi və asimilasiyası kimi həyati əhəmiyyətli funksiyalar da daşımaqdadır. Beləliklə, ekosistemlər və biomüxtəliflik, digər kapital növlərinin sahib olmadığı forma və əhatə dairəsində çoxfunksiyalı bir baza ortaya qoyur [10].

İkincisi, təbii kapitalın dönməzliyi və ya demək olar ki, dönməzliyin (quasi-irreversibility) qeyri mümkünlüyü məqamı da nəzərə alınmalıdır. Təbii kapitalın bəzi növləri məhv edildikdən sonra yenidən qurula bilməz. Bununla birlikdə, insan tarixinin əvvəlindən olduğu kimi, kapital məhv edildiyi təqdirdə insan istehsalı çoxalda bilər. Neumayer, ozon tükənməsini və qlobal istiləşməni demək olar ki, geri dönməzliyin nümunəsi kimi verərəkən, biomüxtəlifliyin itkisini geri dönməzlik nümunəsi kimi verir. Ozon təbəqəsinin və iqlimin bərpa olunmasına icazə verildikdə - bu proses bir insan həyatı baxımından baxıldıqda müddət çəkməsinə baxmayaraq - onlar əvvəlki vəziyyətlərinə qayıda biləcəklər [11].

Təbii kapitalın yuxarıda təsvir olunan xüsusiyyətləri səbəbindən güclü davamlılıq, insan kapitalının təbii kapitalla əvəz edilə biləcəyi ehtimalına qarşı çıxır. İnsan kapitalı və insan istehsalı kapital; təbii kapitalın müxtəlif formaları (məsələn, mis-alüminium); bərpa olunan və bərpa olunmayan təbii kapital arasında əhəmiyyətli bir əvəzetmə ola bilər. Lakin Daly-yə görə, təbii kapital insan istehsalını tamamlayır, çünki istehsal üçün xammal və enerji verir və insan kapitalı tərəfindən istehsal olunan tullantıları udur. Buna görə fərqli kapital növləri ilə əlaqədar ehtiyatları ayrıca qorunması vacibdir. Bu baxımdan güclü davamlılıq aşağıdakı formulada olduğu kimi müəyyənləşdirilir:

$$K \geq 0, \geq 0, SC \geq 0, N \geq 0.$$

Müvafiq ədəbiyyatda güclü davamlılıq yanaşması ilə bağlı iki fərqli rəy var. Bu şərhlərdən birincisi; həm texnoloji kapitalın, həm də təbii kapitalın məcmu dəyəri və təbii kapitalın ümumi dəyəri ən az sabit olmalıdır. Bu təfsirə görə güclü davamlılığa zəif davamlılıq daxildir. Buna əlavə olaraq, təbii kapital ehtiyatının ümumi dəyərini sabit saxlamaq üçün bərpa olunmayan mənbələrin istifadəsindən əldə olunan gəlirlər ilə bərpa olunan mənbələri inkişaf etdirmək üçün yenidən təbii kapitala investisiya qoymaq lazımdır. Bu təfsir izlərini Pearce və digərləri tərəfindən təklif olunan kölgə layihə yanaşmasında görmək olar. Bu yanaşma xərc-səmərə təhlilinə əsaslanaqla, həyata keçiriləcək layihələrin ətraf mühitə vurduğu zərərin bu layihələrin vurduğu ziyanı ödəmək üçün tətbiq ediləcək kölgə layihələrinin ekoloji faydasının dəyərindən az olmasını tələb edir [5].

Güclü davamlılığın ikinci təfsiri, əvəz edilə bilməyən təbii kapital fondunun pul dəyəri kimi deyil, fiziki ehtiyat kimi qorunub saxlanılmasını şərtləndirir. Hicksgil tərifinə görə gəlir davamlı istehlakdır. Ancaq təbii kapitalın məhv edilməsinə əsaslanan istehlaka gəlir deyilməməlidir, çünki təbii kapitalın istehlakı əslində mənfi bir sərmayədir. Əgər belədirsə, bu təbii kapital fondundan əmələ gələn axınlar istifadə olunarsa, bərpaetmə qabiliyyəti aşılmamalıdır. Beləliklə, təbii kapitalın ekoloji funksiyaları pozulmayacaq. Bu təfsirin bir uzantısı olaraq kritik təbii kapital (CNC) anlayışı təklif edilmişdir. Ekins, Simon, Deutsch, Folke və De Groot, həssas təbii kapitalı müəyyənləşdirmək üçün ətraf mühit funksiyalarına köklənərək, Ciriacy-Wantrup'un 1952-ci ildə edilən bir araşdırmasına əsaslandıqları üç meyar ortaya qoymuşlar. Müvafiq olaraq, bu ekoloji funksiyaların rifah təmin edilməsi baxımından əvəz edilməməsi, itkisi geri dönməyən və itirilməsi digər böyük miqyaslı itkilərə səbəb olan zərif təbii kapitalı müəyyənləşdirir. Daly güclü davamlılıq üçün dörd maddədən ibarət bir proqram təklif etdi. Bu maddələrin birincisi, bir iqtisadiyyatın metobolizma ölçüsü olaraq təyin etdiyi cari həcm dünyanın daşıma qabiliyyətinə uyğun olaraq məhdud olmalıdır [12].

İkinci maddə, texnoloji irəliləmələrin həcminin təkcə kəmiyyət artımı deyil, səmərəli artımı təmin edilməlidir; üçüncüsü, bərpa olunan mənbələrin toplanması sürəti yenilənmə sürətindən çox olmamalıdır; tullantıların buraxılması isə ətraf mühitin assimilyasiya qabiliyyətindən artıq olmamalıdır. Son müddəaya görə, bərpa olunmayan təbii ehtiyatlar bərpa olunan əvəzedicilərin əmələ gəlməsi sürətindən daha sürətli istehlak edilməməlidir [13].

Təhlillərdən göründüyü kimi, dayanıqlı inkişaf konsepsiyalarında ətraf mühit, ekologiya, təbii resurslar və onların mühafizəsi mühüm yer tutur. Ətraf mühitin mühafizəsi isə özlüyündə iqtisadi böyümə və sosial amillərdən asılıdır.

Dayanıqlı inkişaf konsepsiyasının elementlərindən biri olan ətraf mühitin mühafizəsinin iqtisadi və sosial amillərdən asılılığını kəmiyyətcə tədqiq etmək üçün Dietz ve Rosa tərəfindən IPAT və ImPACT çərçivələrinin bazasında STİRPAT modelləşdirmə çərçivəsi təklif edilmişdir [14].

STIRPAT dayanıqlı inkişafın bütün komponentlərini iqtisadi perfomans, sosial ədalət, ekoloji tədbirlər və institusional qabiliyyətləri bir biri ilə əlaqələndirir [11].

IPAT bəşəri fəaliyyətlərin ətraf mühit üzərində təsirini təhlil edən geniş yayılmış bir modeldir. IPAT 1970-ci illərin əvvəllərində Ehrlich-Holdren/Commoner arasında ətraf mühit üzərində antropogen təsirlər mövzusunda gedən debatlardan yaranmışdır və hal-hazırda da ətraf mühitdə baş verən dəyişikliklərin arxasındakı səbəblərin təhlili üçün geniş istifadə olunur.

IPAT modeli ətraf mühitə təsir edən amilləri üç əsas kateqoriyaya bölür. Bunlar: əhali, rifah (istehsalın adam başına düşən istehlakı) və texnologiyadır (adam başına düşən istehlak və ya istehsalın təsiri). Beləliklə, I=PAT (1) Burada I – ətraf mühitə təsir, P, A və T isə müvafiq olaraq əhali, rifah və texnologiyadır.

Waggoner və Ausubel də təsirlərlə mübarizədə potensial addımları və siyasət qərarlarını qiymətləndirmək üçün başlangıc mərhələsində IPAT dan istifadə etmişlər. Onlar İPAT eyniliyini yenidən konseptuallaşdıraraq ImPACT adlandırmış və T-ni ÜDM vahidinə düşən istahlak (C) və istehlak vahidinə düşən təsir (T) olmaqla iki yerı ayırmışlar: I=PACT [11].

Məsələn, karbon diokisd (CO2) emissiyasını ənənəvi IPAT eyniliyi vasitəsilə analiz etsək məcmu emissiyanın-əhalinin (P), adam başına ÜDM-nin (A) və ÜDM vahidinə düşən CO2 emissiyalarının (T) hasili olduğunu görərik. Bunun əksinə olaraq, ImPACT modeli CO2 emissiyalarının, əhalinin (P), adam başına [7].

ÜDM-nin (A), ÜDM vahidinə düşən enerji istehlakı (C) və enerji istehlakı vahidinə düşən CO2 emissiyası (T) hasilinə bərabər olduğunu qəbul edir. ImPACT modelinin başlıca məqsədi təsirləri azaltmaq üçün dəyişdirilməsi mümkün olan faktorları aşkar etmək və bir-birinə təsir edən mühüm faktorları müəyyən etməkdir. IPAT və ImPACTin əsas üstünlükləri ekoloji prinsiplərə əsaslanmaları, aydın və konkret spesifikasiyaları və təkanverici qüvvələrdəki dəyişikliklərin təsirlərini izah etmə qabiliyyətidir [8].

IPAT və ImPACT modellərinin zəif cəhətləri isə onların eynilik olmaları və beləliklə də, hipotez testlərinin yoxlanılmasına imkan verməmələridir. Yuxarıda qeyd edildiyi kimi, IPAT və ImPA CT konsepsiyalarının ən böyük çatışmazlığı odur ki, bu konsepsiyalar eyniliklərə əsaslandıqlarından onlar təsir faktorlarının stoxastik davranışlarını və qeyri-proporsional dəyişmələrini nəzərə ala bilmir. Bu çatışmazlıq qeyd edilən konsepsiyaların ətraf mühit üzrə aparılan empirik tədqiqatlarda geniş tətbiqinə ən mühüm maneə olmuşdur. Bu çatışmazlıqlardan qaldırmaq üçün Dietz və Rosa əhali sayının, rifah halının və texnologiyanın ətraf mühit üzərində stoxastik təsirlərini regresiya təhlili əsasında qiymətləndirmək üçün İPAT modelini stoxastik hala modifə etmiş və onu STİRPAT adlandırmışlar. STRIPAT modeli təkanverici qüvvələrin ətraf mühit üzərində müxtəlif təsirlərini analiz etmək üçün müvəffəqiyyətlə istifadə edilmişdir [9].

IPAT və ImPACT dən fərqli olaraq STIRPAT modeli deterministik tənlik deyil və o daha çox hipotezlərin empirik təhlilini aparmağa imkan verən stoxastik modeldir.

*Nəticə.* Ümumilikdə qeyd etmək lazımdır ki, STIRPAT modelləşdirmə çərçivəsinin üstün cəhəti ondan ibarətdir ki, o, dayanıqlı inkişafın komponentləri olan iqtisadi perfomans, sosial ədalət, ekoloji tədbirlər və institusional qabiliyyətləri bir biri ilə əlaqələndirir. Bu modeldən, uyğun sahədə tədqiqat aparan mütəxəssislər güclü bir ekonometrik alət kimi geniş istifadə edə bilərlər [14].

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə (2003-2012-ci illər) Milli Strategiya". "Xalq qəzeti", Bakı, 2003.

2. Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı". Bakı, 2004. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 noyabr tarixli 517 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
3. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, 2012. Azərbaycan Respublikası Prezidentinin. 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. "Azərbaycan 2020: gələcəyə baxış". İnkişaf konsepsiyası, 39 s.
4. Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 06 oktyabr 2016. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 6 oktyabr 2016-cı il.
5. Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı, "Təhsil", 2013, 224s.
6. Ələkbərov U. Davamlı insan inkişafının əsasları. Bakı, "Təhsil", 2007, 132 s.
7. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi veb saytı. - http://eco.gov.az/az/45-etik-davranislar [Müraciət tarixi: 13.10.2021].
8. Həsən Məmmədov. Son beş il ərzində Azərbaycan 2030 Gündəliyinə nail olmaq istiqamətinə sadiqliyini nümayiş etdirib. Naxçıvan Dövlət Universiteti. "Statistika xəbərləri, № 3/2019". İl 5, cild 3, iyul-sentyabr, s.64-73. - http://unazerbaijan.org/az/dayaniqli-inkisaf-məqsədləri/dayaniqli-inkisaf-uzrə-2030-cu-il-gundəliyi/ [Müraciət tarixi: 13.10.2021].
9. Ulduz Musayeva, 2018 /12. - http://sehiyye.gov.az/metbuat/660-azrbaycan-shiyysi-uurlar-v-perspektiv-vziflr-azrtac.html [Müraciət tarixi: 13.10.2021].
10. Həsən Məmmədov. // Naxçıvan Dövlət Universiteti. "Statistika xəbərləri, № 3/2019". İl 5, cild 3, iyul-sentyabr, səh. 64-73. - http://unazerbaijan.org/az/dayaniqli-inkisaf-məqsədləri/dayaniqİHnkisaf-uzrə-2030-cu-il-gundəliyi/ [Müraciət tarixi: 13.10.2021].
11. Əli Əhmədov. İyunun 10-da Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Birləşmiş Millətlər Təşkilatının (BMT) Dayanıqlı İnkişaf Məqsədləri üzrə seçilmiş 17 gənc səfirin təqdimat və mükafatlandırma mərasimi keçirilib. - http://www.azerbaijan-news.az/view-171242 /dayaniqli-inkisaf-meqsedleri-azerbaycanda-ugurla-reallasir [Müraciət tarixi: 13.10.2021].
12. Urxan Ələkbərov. 08 oktyabr, 2015. - https://sustainabledevelopment.un.org/post2015/summit [Müraciət tarixi: 13.10.2021].
13. Azərbaycan Respublikası üzrə Minilliyin İnkişaf Məqsədlərinin göstəriciləri. Azərbaycan-Türkiyə münasibətləri II beynəlxalq elmi konfransının materialları. - https://www.stat.gov.az/source/millennium/source/MDG_az-05.01.2017.pdf [Müraciət tarixi: 13.10.2021].
14. Resolution adopted by the General Assembly. Distr.: General 18 September 2000. 9 s. - https://www.un.org/millennium/declaration/ares552e.pdf [Müraciət tarixi: 13.10.2021].

**АЯЗ ГАДЖИЕВ**
*Диссертант Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республик*

## СЛАБЫЕ И СИЛЬНЫЕ МОДЕЛИ УСТОЙЧИВОГО РАЗВИТИЯ

Изучение моделей устойчивого развития является продолжением продолжающихся дебатов о взаимосвязи между развитием и окружающей средой. Общим знаменателем подходов к устойчивому развитию является изучение того, что необходимо сделать для улучшения благосостояния людей в долгосрочной перспективе. Однако, поскольку основные аргументы этих подходов различны, предложения к действию также меняются. Сторонники слабой устойчивости, например, считают, что технический прогресс, возможности замещения природного и искусственного капитала и способность людей решать проблемы не приведут к истощению ресурсов и что развитие будет продолжаться стабильно.

Сторонники сильной устойчивости утверждают, что у развития есть пределы. Поэтому, по их мнению, ограниченный рост важен для удовлетворения основных потребностей людей в

мире. В то же время одним из важных принципов сильного устойчивого развития является замена развития, характеризующегося количественным ростом, качественным устойчивым развитием для повышения благосостояния.

*Ключевые слова*: сильное устойчивое развитие, капитал, слабое устойчивое развитие, неоклассика, аргумент, аспекты, методологические особенность.

**AYAZ HAJIYEV**
*Doctoral student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## WEAK AND STRONG MODELS OF SUSTAINABLE DEVELOPMENT

The study of sustainable development patterns is a continuation of the ongoing debate about the relationship between development and the environment. The common denominator of sustainable development approaches is to explore what needs to be done to improve human well-being in the long term. However, since the main arguments for these approaches are different, suggestions for action also change. Proponents of poor sustainability, for example, believe that technological advances, the ability to substitute natural and artificial capital, and the ability of humans to solve problems will not deplete resources and that development will continue to be sustainable.

Strong resilience advocates argue that development has limits. Therefore, in their opinion, limited growth is essential to meet the basic needs of the people in the world. At the same time, one of the important principles of strong sustainable development is to replace development characterized by quantitative growth with qualitative sustainable development in order to improve well-being.

*Keywords*: strong sustainable development, capital, weak sustainable development, neoclassicism, argument, aspects, methodological features.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 oktyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: s.ü.f.d. Davud Həşimov, s.e.d. Adil Mirabdullayev.*

**UOT 32:93/94**

**MANAF BAĞIRZADƏ**
*Azərbaycan Respublikasının Prezidenti Yanında*
*Dövlət İdarəçilik Akademiyasının müəllimi, s.e.f.d*
**mbagirzadeh@yahoo.com**

**ÜLKƏR MUXTAROVA**
*Azərbaycan Respublikasının Prezidenti Yanında*
*Dövlət İdarəçilik Akademiyasının tələbəsi*
**ulkermuxtarova2001@gmail.com**

# KAPİTALİZM VƏ SOSİALİZMİN TƏNƏZZÜL SƏBƏBLƏRİ, YENİ İCTİMAİ FORMASİYA

*Bu gün düyada ən çox yayılan idarəetmə sistemləri kapitalizm və sosializmdir. İzahı verilərkən hər iki sistem bir-birinin əksi olaraq izah olunur. Kapitalizmdə mənfəət öndə olduğu halda, sosializmdə bərabərlik öndədir. Kapitalizm sərbəst bazar iqtisadiyyatını təbliğ edir, sosializm isə iqtisadiyyatda dövlətin yüksək nəzarətinin mütləq olduğunu vurğulayır. Hər iki sistem də bir-birindən fərqləndiyi halda ikisində də ortaq ünsürlər var. Bu ünsürlər kapitalizmdə iqtisadi ədaləti, sosializmdə isə bazar iqtisadiyyatını təmin etməklə, sistemləri tamamlayır. Lakin sosializmdə bazar iqtisadiyyatının və fərdlərin iqtisadi, sosial, siyasi azadlıqlarının olmaması ölkənin inkişafının qarşısını alır. Azadlıqların məhdudluğu və digər siyasi səbəblər xarici investisiyaların ölkəyə daxil olmasının qarşısını alır. Kapitalizmdə isə ədalətin məhdudluğu, rəqabətdə əxlaqın qorunmaması, sosial bərabərsizliyin həddən artıq olması onun tənəzzülünü qaçınılmaz edir. Hər iki sistemin tənəzzülündən ortaya çıxan qlobalizm zamanla yeni dünya nizamı oldu. Qlobalizmdə artıq həm iqtisadiyyata, həm də dünya siyasətinə təsir edən qüvvələr dövlətlər deyildir. Artıq beynəlxalq münasibətləri müəyyən edən əsas aktorlar çoxmillətli şirkətlər, qeyri-hökumət təşkilatları, media kartelləri, tədqiqat və beyin mərkəzləridir. Bu gün Amnesty İnternational, Greenpeace və Doctors Without Borders kimi aparıcı qeyri-hökumət təşkilatları, aparıcı araşdırma və beyin mərkəzlərindən biri olan Davos Dünya İqtisadi Forumunun və ya böyük media imperiyası olan "CNN-Time Warner"in, Bazar dəyərinə görə dünyanın ən böyük şirkətlərindən biri olan "Microsoft" və onun kimi digər iri şirkətlərin dünya nizamına təsirlərini görmək mümkündür.*

*Açar sözlər*: Kapitalizm, sosializm, qlobalizm, informasionalizm, ictimai formasiya.

*Giriş.* Kapitalizm hələ 16-17-ci əsrlərdən yaranmış ictimai-sosial quruluşdur. Onun əsasında bazar təsərrüfatının inkişafı, sənaye sahəsinin üstünlüyü, iqtisadi ictimai ədalət və stimul durur. Dünyaya nəzər salsaq, görərik ki, dünya ölkələrinin böyük hissəsi, o cümlədən, Azərbaycan öz iqtisadi-sosial siyasətini bu quruluşun əsasında qurur.

Kapitalizm hər şeyin dəyərinin universal sərmayə olaraq deyə biləcəyimiz valyuta ilə ölçüldüyü, bir sistemdir. Kapitalizmə görə ortada böyük sərvət vardır. Hər kəs sərvəti istifadə etmək və sahiblənməkdə azaddır. Sərvəti sahiblənmək haqqında dəqiq bir sərhəd və necə sahib olmaq haqqında təlimat yoxdur. Ortaq mülkiyyət çox məhdud bir halda dəyərləndirilir.

Başqalarına zərər vermədiyiniz sürədə, qərar verməkdə və istədiyinizi etməkdə azadsınız. Lakin bu sistemdə, işləyən pul qazanırkən işləməyən ac gəzməyə məhkumdur. Buna görə də sərvəti alan adam, artıq onun sahibidir. Çünki kapitalizmə görə güclü olan qazanmışdır. Nəticə olaraq kapitalizmdə "bacarıqlı" adam zəngin olacaq, "bacarıqsız" isə ac qalmağa məhkum olacaqdır. Sərvətə sahib olmaq uğrunda mübarizə zamanı isə zəyif səviyyədə əxlaq və ədalət prinsiplərinə riayət edilir. Bu zaman insanlar "Necə sahib olursan, ol" mottosu ilə hərəkət edirlər və sonda "Vəhşi kapitalizm" ortaya çıxır [1, s.280-285].

Sosializm, istehsal vasitələrinin sosiallaşması və bu şəkildə sosial sinifləri ləğv edərək cəmiyyətin yenidən qurulmasını hədəfləyən siyasi ideologiyaların bütünüdür. Elmi sosializmin banisi Karl Marks və Friderix Engelsdir. Sosializm fərd yerinə cəmiyyət anlayışının önə çıxdığı düşüncə tərzidir. Burada siyasi bərabərliyin iqtisadi bərabərliklə təmin elilməsinin lazım olduğu ifadə edilmiş, əks halda tam bir azadlığın ola bilməyəcəyi də iddia edilmişdir [1, s.9].

Nəzəri sosializm etatist bir modeldir və burada ifadə olunduğu kimi iqtisadiyyat geniş kütlələrin xeyrinə istifadə olunmalıdır. Dövlətçilik prinsipinin tətbiq olunduğu sistemdə cəmiyyət yararına hərəkət edilsə də, fəal güc həmişə dövlət olur. Başqa sözlə desək dövlət hər şeyə sahibdir, ancaq sahib olduqlarını sinfi fərqliliyi olmadan yalnız cəmiyyətin yararı üçün istifadə edir. Başqa sözlə desək, dövlət əsas kapitalın sahibidir. Şəxsi mülkiyyət deyil, ümumi, kollektiv mülkiyyət vardır və bu şəkildə nəzəri olaraq insanların insanları istismar etməsinin qarşısı alınacaqdır. Qısacası, dövlət cəmiyyət adına hər şeyi idarə edən gücdür. Sosializmin kapitalizmdən fərqləndirən ən böyük cəhətlərdən biri də məhz budur. Gücün bir partiyanın və ya bir qrup şəxsin əlində cəmlənməsi və bu gücün xalqın xeyrinə ədalətli şəkildə paylanması nəzəriyyədə mükəmməl görünsə də, təcrübədə fərqlidir. Reallıqda var olan sərvət güc partiyası və onların yandaşları tərəfindən istismar edilir və xalqa qalan kiçik miqdar sərvətin ədalətli, yalnız səmərəsiz şəkildə paylanması həyata keçirilir. Səmərəsiz bir cəmiyyətdə isə iqtisadi inkişaf mümkün deyil.

Məhz sosializmin ən böyük ziddiyət yaradan hissəsi də həddindən artıq ədalətlilik, kapitalizmin isə həddindən artıq səmərəlilik idi. Dünya iqtisadi münasibətlərində də gördüyümüz kimi ədalət və səmərilik arasında müəyyən tarazlıq vardır [3]. Bu tarazlıq pozulduğu halda uzun müddət üçün inkişaf təmin edilə bilməz. Bəs səmərilik və ədalət nədir və nə üçün bu qədər önəmlidir?

*Kapitalizm və Sosializmin Yetərsizliyi*. Əvvəlcə iqtisadi ədalət və səmərəliliyin nə olduğunu anlayaq. İqtisadi ədalət sosial ədalətin və rifah iqtisadiyyatının tərkib hissəsidir. Bu, iqtisadi institutların qurulması üçün əxlaqi və etik prinsiplər məcmusudur, burada son məqsəd hər bir insanın layiqli, məhsuldar və yaradıcı həyat sürməsi üçün kifayət qədər maddi zəmin yaratmaq imkanının olmasıdır. Müasir iqtisadiyyat kapitalın və əməyin hər kəsin daha yaxşı olması üçün bölüşdürülməsi konsepsiyası ətrafında fırlanır. Buna görə də, iqtisadi ədalətin kökündə bütün bazar iştirakçılarına ədalətli davranıldığı təqdirdə iqtisadiyyatın daha uğurlu olacağı fikri dayanır. Beləliklə, məqsəd ədalətin bu konsepsiyaya uyğun işləməsi ilə hər kəsə potensial olaraq inkişaf etmək və çiçəklənmək üçün imkanlar yaratmaqdır [4].

İqtisadi səmərəlilik isə, iqtisadiyyatdakı bütün malların və istehsal amillərinin ən qiymətli istifadələri üçün bölüşdürülməsi və ya ayrılması və məsrəfləri aradan qaldırılması və ya minimuma endirilməsidir. İqtisadi səmərəlilik məsrəfləri və səmərəsizliyi minimuma endirməklə yanaşı, hər bir fərdi və ya quruma ən yaxşı şəkildə xidmət etmək üçün hər bir resursun optimal şəkildə bölüşdürüldüyü iqtisadi vəziyyəti nəzərdə tutur.

İqtisadi ədalətə nail olmaq əmək haqqı boşluqlarının və fərdi gəlirlərdəki digər çatışmazlıqların aradan qaldırılmasını əhatə edə bilər. Məsələn, öz bacarıqlarından tam istifadə etməyən işlərdə çalışan işçi qüvvəsinin üzvləri ola bilər. Bu, adətən işçilərin peşəkar qabiliyyətlərinin tam potensialını əks etdirməyən əmək haqqı almasına gətirib çıxarır. Nəticədə, bacardıqları ən yüksək gəliri əldə etmirlər.

Mümkün əmək haqqının bu cür itkisi iqtisadiyyatda səmərəsizliyə səbəb olur, çünki həmin işçilər orada tam şəkildə iştirak etmək üçün gəlirə malik olmayacaqlar. Əgər bu səmərəsizlik əhəmiyyətli ölçülərə çatarsa - əhalinin böyük bir hissəsi mal və xidmətlər almırsa, əks halda qazanclarını xərcləmiş ola bilər - bu, iqtisadiyyatı ləngidə bilər. Sosial müdafiə sistemi, işsizliyə qarşı sığorta və s. bu kimi tədbirlərdən bəziləri, cəmiyyətin ən çox ehtiyacı olan üzvlərinə kömək etmək məqsədi daşıyır. Fərdi gəlir vergisi kimi siyasi alətlər imkanlı insanların imkansızlara nisbətən dövlətə daha böyük maliyyə dəstəyini təmin edir. Bu cür siyasi tədbirlər ədaləti hədəf alsa da, onların pis cəhəti səmərəliliyin azalmasıdır. Dövlət gəliri varlılardan alaraq yoxsullara verdikdə, çox işləmənin mükafatını azaltmış olur. Nəticədə, insanlar daha az işləyir, daha az əmtəə və xidmətlər istehsal edirlər. Bu zaman ədalətlilik artmış, lakin səmərəlilik azalmış olur. Səmərəliliyin azalması iqtisadi stimulun aşağı düşməsinə səbəb olur. Hər bir vətəndaş əldə etdiyi əmtəədən gəlir vergisi verir. Yüksək maaş alan şəxsin gəlir vergisi də buna düz mütənasib olaraq artır. Proqressiv vergitutmanın məqsədi gəlir bərabərsizliyini aradan qaldırmaq və sosial xidmətlər, ictimai infrastruktur və təhsil üçün vəsait təmin etməkdir . Bu da məhz ədaləti artırır və nəticədə, cəmiyyətdə daim olması lazım olan ədalət və səmərəlilik tarazlığı yaranmış olur.

Bir az əvvəl də qeyd etdiyimiz kimi, kommunizmin tənəzzülünün əsl səbəblərindən biri də səmərəliliyin aşağı olması idi. Bu zaman şəxslərdə iqtisadiyyatdi stimul yox idi və bu da iqtisadiyyatın

tənəzzülünün əsas səbəbi idi. Bir zavod işçisini misal olaraq göstərmək olar. Bu zaman çox işləyən işçi ilə az işləyən işçi ayın sonunda eyni gəliri əldə edirsə və eyni həyat şəraitində yaşayırsa, bu zaman yaxşı işçi stimulu itirir və gələcək ay eyni nəticəni göstərmir. Bu misalı cəmiyyətin digər sahələrinə də aid etmək mümkündür. Stimul öldükdə isə tənəzzül qaçınılmaz olur.

Bunun ən gözəl nümunəsi isə Sovet Sosialist Respublikaları İttifaqıdır. SSRİ-də güc bir partiyanın əlində toplanmışdı və müxalifət partiyaları qadağan olunmuşdu. İnsanların söz, vicdan və din azadlıqları tapdanmışdı. Xalqın özəl mülkiyyətə sahib olması isə qadağan edilmişdi. Bu zaman kollektiv təsərrüfat yaradılmışdı.

Sovet İttifaqında 1927-ci ildə sənayenin inkişafı üçün əməyi və kapitalı azad etməklə yanaşı, ərzaq istehsalını təşviq etmək məqsədilə kənd təsərrüfatının tədricən və könüllü kollektivləşdirilməsi siyasəti qəbul edildi. 1929-cu ildə təsərrüfatların cəmi 4%-i kollektivlərdə olduğu üçün Stalin kəndlilərin torpaqlarını, əmək alətlərini və heyvanlarını müsadirə etməyi əmr etdi; kolxoz ailə təsərrüfatını əvəz etdi. Hansı məhsulun nə qədər istehsal ediləcəyinə, kəndlilərə əməyinin nə qədər ödəniləcəyinə və nə qədərinin hansı qiymətə bazara daxil olacağına dövlət qərar verəcəkdi [5, s.255-280]. Müqavimət göstərən fermerlər təqib olunur, sürgün edilir, hətta öldürülürdü. Lakin bir müddət sonra kollektiv təsərrüfüt tənəzzülə uğradı. 1932-33-cü illərdə kollektiv təsərrüfüt dağıdıcı kənd aclığına səbəb oldu [6, s.201]. Bundan sonra kiçik islahatlar keçirildi(1970-ci illərdə istehsalı artırmaq üçün bir stimul olaraq kolxozçulara müxtəlif mallar üzrə mənfəət təmin edildi), ancaq bu da təsərrüfatı lazım olan qədər diriltmədi.

Eyni kollektivləşdirmə prosesləri 1955-ci ildə Çində həyata keçirilməyə başalandı. Çində Hər bir kommunada sənaye, ticarət, təhsil, kənd təsərrüfatı və hərbi işlərə mərkəzdən idarəetməni təmin edən iqtisadi və inzibati vahid işçi qüvvəsinə və bütün istehsal vasitələrinə nəzarət edirdi. Kommunal şəraitdə yaşayan işçilər həm sənaye, həm də kənd təsərrüfatı işlərini yerinə yetirir, hərbi hissəyə dəstək verirdilər. Onlar kommunal uşaq bağçalarından, hamam otaqlarından, bərbərxanalardan və oxşar obyektlərdən istifadə edirdilər. Əmək haqqı və imtiyazlar dövlət tərəfindən idarə olunurdu və bütün məhsullar dövlət qurumları vasitəsilə bazara çıxarılırdı. 1959-cu ilə qədər demək olar ki, bütün Çin təsərrüfat işçiləri kommunaların üzvləri idi. Böyük kollektivlərin səmərəsizliyi və idarəetmə problemləri, təbii fəlakətlər və hökumət səhvləri ilə birlikdə islahatlara səbəb oldu. 1960-cı illərin əvvəllərində; bəzi kommunalar şəxsi təsərrüfatlara bölünürdü [7]. Çinin bu günkü iqtisadi inkişafı da məhz müəyyən qədər sosialist təsərrüfatından imtina edib bazar iqtisadiyyatına keçməsi hesabına başa gəlmişdir.

Bəs kapitalizmin ən böyük hissəsi hesab olunan bazar iqtisadiyyatı nə üçün bu qədər önəmlidir?

1776-cı ildə Adam Smit özünün "Xalqlar sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" adlı əsərində iqtisadi nəzəriyyədəki ən məşhur fikri irəli sürmüşdür: Bazarlarda qarşılıqlı əlaqədə olan təsərrüfat və şirkətlər sanki "gözəgörünməz əl" tərəfindən arzu olunan nəticələrə doğru yönəldilir [8]. Nəyi alıb nəyi satmaq kimi qərarları qəbul edərkən ailə və müəssisələr qiymətə nəzər saldıqlarına görə özləri də bilmədən öz hərəkətlərinin ictimai fayda və məsrəflərini nəzərə almış olurlar. Nəticə etibarilə, qiymətlər həmin fərdi qərar verənlərin hərəkətlərini elə şəkildə yönləndirir ki, cəmiyyətin bütövlükdə rifahı maksimal dərəcədə artmış olsun. Bu, kommunizmin süqutunun səbəblərini də izah edir. Kommunist ölkələrində qiymətlər bazarlarda müəyyən edilmir, mərkəzi planlaşdırıcı tərəfindən diktə olunurdu. Mərkəzi planlaşdırıcılar sərbəst bazar iqtisadiyyatı şəraitində qiymətlərdə əks olunan bütün məlumata malik deyildilər. Mərkəzi planlaşdırıcılar iqtisadiyyatı məhz bazardakı "gözəgörünməz əli" nəzərə almadan idarə etməyə çalışdıqlarına görə uğursuzluğa düçar oldular.

Sosializmin tənəzzülü kapitalizmin qabiliyyəti demək deyildir. Kapitalizm sistemi pul üstünə qurulmuş bir sistemdir. Neçə il yaşayacağınız belə gəlirinizə, pulunuza bağlıdır. Bunu Afrika ölkələrindəki yaşam sürəsi ilə Şimali Avropa ölkərəndəki yaşam sürəsini müqayisə etməklə aydınlaşdırmaq olar. Pula əsaslanan nizmda heç kimə güvənə bilməzsiniz. Həkiminiz sizə əməliyyat olamalı olduğunuzu deyəndə bunu sizin sağlamlığınız üçün, yoxsa pul qazanmaq üçün dediyini bilə bilməzsiniz. Kapitalizmin olduğu bir dünyada insanlar bir-birlərinə güvənə bilməz. Kapitalizmi anlamaq üçün 30 il əvvəlki gəlir dağılımına və bugünkü gəlir dağılımına baxmaq kifayətdir. Çox qısa zaman-

da varlı ilə kasıb arasındakı fərq, daha doğrusu uçurum, qat-qat artaraq bu günkü qəbul edilməz hala gəlmişdir və bu fərq hər gün dəfələrlə artmağa davam etməkdədir.

Nəticədə, nə sosializmin, nə kapitalizmin nəzəriyyədəki kimi mükəmməl olmadığını görürük. Kapitalizm də, sosializm də vəd etdiyini yerinə yetirə bilmədi və özünü doğrultmadı.

*Qlobalizm və post kapitalizm.* Hazırda tənəzzülə uğramış kapitalizm və sosializmdən sonra dünya nizamına təsir edən bir sistemin formalaşdığını görürük. Bu sistem globalizmlə birlikdə yüksəlməktədir. Qlobalizm insanların, malların və məlumatların milli sərhədləri maneəsiz keçə bilməsi inancına əsaslanan ideologiyadır. İqtisadi baxımdan, qlobalizm azad ticarət vasitəsilə dünya miqyasında xalqların qarşılıqlı asılılığını təsvir edir.

1989-cu ildə Berlin Divarının dağılmasından sonra 1990-cı illərdən bəri demək olar ki, hər sahədə tez-tez rastlaşdığımız qloballaşma sözü təkcə iqtisadi anlayış kimi deyil, həm də yaşadığımız beynəlxalq sistemi təsvir etmək üçün istifadə olunur.

Əsl mənası tam dərk edilmədən və müzakirə edilmədən bütün dünyada müsbət və ya mənfi reaksiyalara səbəb olan bir söz olan qloballaşmanın başqa bir bədbəxtliyi də Soyuq Müharibə bitdikdən sonra, bu müharibəyə başlayan siyasətçilərin izlədiyi siyasətlərlə əlaqələndirilməsidir [9, s.5-22]. Bu yanaşmanın təbii nəticəsi olaraq qloballaşmanın nə demək olduğunu tam anlamadan müsbət və ya mənfi dəyər mühakimələri formalaşmışdır.

Qloballaşmanın tərəfdarları və tənqidçiləri öz fikirlərini əsaslandırmaq üçün tez-tez inkişaflardan və statistik məlumatlardan istifadə edirlər. Qloballaşmanın faydaları ilə bağlı yekdil rəyin olduğunu söyləmək olar. Davamlı iqtisadi inkişaf, yüksələn həyat standartları, texnoloji tərəqqi və biliklərin daha sürətli yayılması qloballaşmanın ən bariz faydalarındandır.

Digər tərəfdən, qloballaşmanı yalnız iqtisadi fəaliyyətlərə təsir edən amil kimi görmək məhdud perspektivi əks etdirir. Bu kontekstdə malların və kapitalın sərbəst hərəkəti ilə yanaşı, insanların daha tez-tez səyahət etməsi, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı və internetdən istifadənin artması qloballaşmanın aparıcı hərəkətverici qüvvələrindəndir. Qloballaşmanın gündəmə gətirdiyi anlayışlar arasında şəffaflıq da var. Gəlirlərin daha ədalətli bölgüsü, korrupsiyanın azalması, hətta siyasi azadlıqların və insan haqlarına hörmətin artması qloballaşma ilə birbaşa mütənasib olaraq inkişaf edən amillərdəndir.

Qloballaşma son illərdə ən çox müzakirə olunan və dərc olunan mövzulardan biridir. Qloballaşmanın zərərlərinə diqqət çəkən, ölkələr və regionlar arasında mövcud disbalansları artıran təsirləri vurğulayan nəşrlərlə yanaşı, xüsusilə son illərdə qloballaşmanın müsbət tərəflərinə diqqət çəkən əsərlər dərc olunub. Tomas Fridmanın "Lexus və Zeytun Ağacı" [10], Con Mikletveit və Adrian Vuldricin "Mükəmməl Gələcək" [11], Paskal Zakarinin "Qlobal Mən" əsərlərinin indi geniş şəkildə qəbul edilən mənfi cəhətlərinə toxunmaqla yanaşı, əsasən qloballaşmanı müdafiə edən və onun müsbət cəhətlərini vurğulayan əsər kimi diqqəti cəlb edir. Bütün bu əsərlərin ümumi cəhəti ondan ibarətdir ki, qloballaşma sənaye inqilabından sonra dünyanı dəyişdirən və özünü yeni beynəlxalq sistem kimi təsdiqləyən ən böyük qüvvədir.

John Micklethwaitt və Adrian Wooldridge "Mükəmməl Gələcək" kitabında qloballaşmanın yeni beynəlxalq sistem olduğuna işarə edərək, bu yeni dünya düzəninin yeni hakim sinfi üçün də bir termin yaratdılar: "Kosmokratlar". Siyasətçilər, iş adamları, akademiklər və diplomatlardan ibarət yeni elit təbəqənin qlobal iqtisadiyyata rəhbərlik etdiyini irəli sürən Micklethwait və Wooldridge, çox səyahət edən və informasiya və kommunikasiya texnologiyalarından, xüsusən də internetdən tez-tez istifadə edən kosmokratların sayının bütün dünyada təxminən 20 milyon olduğunu iddia edirlər. Bu iki müəllif bildirdilər ki, informasiya və kommunikasiya texnologiyaları sahəsində başgicəlləndirici irəliləyişlər, azad ticarət, səmərəlilik və şəffaflıq müəyyənedici xüsusiyyətlər kimi ortaya çıxdığı, Qloballaşma adlanan yeni beynəlxalq münasibətlər nizamının yaradıcıları və bələdçiləri kimi müəyyən etdiyi kosmotratların, qloballaşmanın mənfi təsirlərinin aradan qaldırılmasında, müsbət təsirlərinin artırılmasında nə dərəcədə uğurlu olacağını isə, şübhəsiz ki, zaman göstərəcək [12, s.9].

Yeni nəsil filosoflardan biri olan Slavoj Zizek "İmperatorluğun fəlsəfəsi və onun tələləri" adlı əsərində köhnə sənaye cəmiyyətinin etibarsız hissəsi olan marksizmə yeni bir əlavə kimi dəyərləndirir [13]. Netokratiyada olan iqtisadi determinizmin və xətti tarixi təkamülün mənbələrini Stalinist marksizmdə görür. Xətti tarixi təkamülü sənayedən biliklərin idarə edilməsinə və kapitalist və prole-

tariatın antaqonizmini yeni netokrat və konsumtaratın antaqonizminə keçidlə izah edir. Onun fikrincə, istehsalın əsas rolu itirildiyi üçün "netokratiya" termini yeni istehsal üsulu üçün yetərli deyildir. Bu zaman diqqət istehsal prosesindən çox istehlakın təmin edilməsinə yönəldilir. Alexander Bard və Söderqvist Jan izafi dəyərin formalaşmasında müəyyənedici amili kapitalistdən çox istehlakçının üzərinə qoyurlar. Çünki son nöqtədə, kapitalistin iqtisadi fəaliyyət olmadan izafi dəyərlə bağlı öz gözləntilərinin və təxminlərinin nə olmasının heç bir əhəmiyyəti yoxdur. Zizekin qeyd etdiyi kimi, lazımi məlumatlara çıxış iqtidar üçün açar vəziyyətinə gəldiyi, netokratik elita tərəfindən hazırlanan və manipulyasiya edilən məlumatların istehlakçılar tərəfindən istehlakı qeyri-maddi sərvətin rolunu azaldır.

*Nəticə.* Nəticə olaraq deyə bilərik ki, müasir cəmiyyətin inkişafından danışarkən, informasiya cəmiyyətinə gedən yolun, qloballaşmanın, informasiyanın bəşəriyyətin inkişafına təsirinin artmasının və informasiyaya sürətli çıxışın bu gün səmərəli inkişafın mühüm amilinə çevrilməsi nəzərdə tutulur. Bu paradiqma iqtisadiyyatda və cəmiyyətdə informasiya əməyinin və informasiya məhsullarının üstünlüyünü və yenidən qurulmasını xəbər verir. Bütün bu cərəyanlar "kapitalizm" ifadəsi əvəzinə "informasionalizm" termininin işlədilməsi təkliflərinə səbəb olmuşdur.

İnformasionalizm elmin, biliyin və informasiya texnologiyalarının ictimai istehsalda həlledici rol oynadığı informasiya cəmiyyəti və post-sənaye cəmiyyətinin şərtlərini əhatə edir [14, s.447]. Əslində, informasiya cəmiyyəti intellektual xidmətlərin rolu artmış, çevik istehsal və yeni idarəetmə sistemləri formalaşdıran, yeni texno-iqtisadi əsaslar formalaşdıran postindustrial cəmiyyətin formasıdır və inkişaf xarakterinə təsir göstərir. Bu, müasir cəmiyyətin inkişaf formasıdır və informasiya və informasiya texnologiyaları əsasında qurulmuşdur.

## ƏDƏBİYYAT

1. Dascălu, D.I. (2014). Individualism and Morality in the Post-communist Capitalism. Procedia-Social and Behavioral Sciences, 149, 280-285.
2. Karl Marx, Ekonomi politiğin eleştirisine katkı, Ankara, Sol Yayınları, 2005, s.9.
3. Piotr Sztompka Trust: a sociological theory. Cambridge: Cambridge university press, 1999. -214.
4. Hoppe, Hans-Hermann. Theory of Socialism and Capitalism, Obern, A.Ludwig von Mises Institute, 1989,275 p.
5. Davies, R.W. (1974). The Soviet Rural Economy in 1929–1930: The Size of the Kolkhoz. In Essays in Honour of EH Carr, pp.255-280. Palgrave Macmillan, London.
6. Davies, R. W. (1984). The Socialist Market: A Debate in Soviet Industry, 1932–33. Slavic Review, 43(2), 201-223.
7. Collective farm: In China / Infoplease. The Columbia Electronic Encyclopedia, 6th ed. Columbia University Press, 2012. - https://www.infoplease.com/encyclopedia/ecology/cultivation/agriculture/collective-farm/in-china [Müraciət tarixi: 26.11.2021].
8. Adam Smith (1979). An Inquiry into the Nature and Causes of the Wealth of Nations. Vol.I. Oxford, Oxford University Press, 543 p. - http://files.libertyfund.org/files/220/0141-02_Bk.pdf [Müraciət tarixi: 26.11.2021].
9. Arditi, B. (2004). From globalism to globalization: the politics of resistance. New Political Science, 26(1), 5-22.
10. Friedman, T.L. (2000). The Lexus and the olive tree: Understanding globalization. Farrar, Straus and Giroux.
11. Micklethwait, J., & Wooldridge, A. (2014). The state of the state: the global contest for the future of government. Foreign affairs, 93(4), 118-132.
12. Küreselleşme – Yeni Dünya Düzeni / Türkiye Cümhuriyeti Dışişleri Bakanlığının internet sayfası.- https://www.mfa.gov.tr/kuresellesme-yeni-dunya-duzeni.tr.mfa [Müraciət tarixi: 26.11.2021].
13. ZizEK Slavoj. The Ideology of the Empire and its Traps. 2004. - http://www.lacan.com/ziztrap.htm [Müraciət tarixi: 26.11.2021].
14. Bevir Mark, ed., Encyclopedia of governance, Sage Publications, 2006, p.447.

**МАНАФ БАГИРЗАДЕ**
*Преподаватель Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам*

**УЛЬКАР МУХТАРОВА**
*Академия Государственного Управления при Президенте Азербайджанской Республики*

## ПРИЧИНЫ УПАДКА КАПИТАЛИЗМА И СОЦИАЛИЗМА, НОВЫЙ МИРОВОЙ ПОРЯДОК

Сегодня наиболее распространенными системами правления в мире являются капитализм и социализм. В объяснении обе системы описываются как противоположные друг другу. В то время как эффективность преобладает при капитализме, справедливость восторжествует при социализме. Капитализм продвигает свободную рыночную экономику, в то время как социализм подчеркивает абсолютный контроль государства над экономикой. Хотя обе системы отличаются друг от друга, у них есть общие элементы. Эти элементы дополняют системы, обеспечивая экономическую справедливость при капитализме и рыночную экономику при социализме. Однако при социализме отсутствие рыночной экономики и экономических, социальных и политических свобод человека тормозит развитие страны. Ограничения свобод и другие политические причины препятствуют ввозу иностранных инвестиций в страну. Однако при капитализме ограниченная справедливость, отсутствие защиты морали в условиях конкуренции и крайнее социальное неравенство делают его упадок неизбежным. Глобализм, возникший в результате упадка обеих систем, в конечном итоге стал новым мировым порядком. В глобализме силы, влияющие как на экономику, так и на мировую политику, больше не являются государствами. Основными субъектами, определяющими международные отношения, являются транснациональные компании, неправительственные организации, медиа-картели, исследовательские и аналитические центры. Сегодня ведущие неправительственные организации, такие как Amnesty International, Гринпис и Врачи без границ, Всемирный экономический форум в Давосе, один из ведущих исследовательских и аналитических центров, или CNN-Time Warner, крупная медиа-империя, входят в число крупнейших мировых компаний. по рыночной стоимости. Microsoft и другие крупные компании, подобные ей, имеют большее влияние на мировой порядок, чем государства.

*Ключевые слова*: Капитализм, социализм, глобализм, информационализм, социальная формация.

**MANAF BAGIRZADEH**
*Lecturer at the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Political Science*

**ULKAR MUKHTAROVA**
*Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## THE CAUSES OF THE DECLINE OF CAPITALISM AND SOCIALISM, THE NEW WORLD ORDER

The most common systems of government in the world today are capitalism and socialism. In explaining, both systems are described as opposite to each other. While efficiency prevails in capitalism, justice prevails in socialism. Capitalism promotes a free market economy, while socialism emphasizes the absolute control of the state over the economy. Although both systems differ from each other, they both have common elements. These elements complement the systems by providing

economic justice in capitalism and a market economy in socialism. However, in socialism, the lack of a market economy and economic, social and political freedoms of individuals hinders the development of the country. Restrictions on freedoms and other political reasons prevent foreign investment from entering the country. In capitalism, however, limited justice, a lack of protection of morals in competition, and extreme social inequality make its decline inevitable. Globalism, which emerged from the decline of both systems, eventually became a new world order. In globalism, the forces that influence both the economy and world politics are no longer states. The main actors defining international relations are multinational companies, non-governmental organizations, media cartels, research and think tanks. Today, leading non-governmental organizations such as Amnesty International, Greenpeace and Doctors Without Borders, the Davos World Economic Forum, one of the leading research and think tanks, or CNN-Time Warner, a major media empire, is one of the world's largest companies by market value. Microsoft and other large companies like it have more influence on the world order than states.

*Keywords*: Capitalism, socialism, globalism, informationalism, social formation.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 26 noyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: s.ü.f.d.Cahangir Cahangirov, s.e.d. Adil Mirabdullayev.*

**UOT 32:93/94**

**ŞƏHRİYAR MƏMMƏDLİ**
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
**shahriyarmmd@gmail.com**

**ELMƏDDİN HƏBİBLİ**
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
**elmeddinhebibli3@gmail.com**

## AZƏRBAYCAN RESPUBLİKASINDA APARILAN BƏLƏDİYYƏLƏŞMƏ SİYASƏTİ

*Məqalədə yerli özünüidarətmənin tarixi və müstəqil Azərbaycan tarixində bələdiy-yələşmə siyasəti araşdırılmışdır. Məqalədə Azərbaycanda bələdiyyələrlə bağlı qəbul edilən qanunlar, bələdiyyə sistemi və yerli icra hakimiyyətlərinin formalaşdırılması üsulu sadalanmışdır. Azərbaycanda bələdiyyələrin problemlərinə diqqət yetirilmiş və onların həll yolları göstərilmişdir. Bələdiyyələr böyük nəzəri və praktiki əhəmiyyət daşıdığı üçün bu mövzuya toxunulmuşdur. Məqalədə Azərbaycan Respublikasında Bələdiyyələşmə siyasətinin nə dərəcədə uğurlu həyata keçirilməsi sualı cavablandırılmağa çalışılmışdır. Azərbaycan Respublikasında bələdiyyələşmə siyasətinin nə dərəcədə uğurlu həyata keçirilməsi təhlil edilmişdir.*

*Açar sözlər*: Azərbaycanda bələdiyyələr, bələdiyyələrin problemləri, yerli özünüidarəetmə, icma bələdiyyələri.

*Giriş*. Azərbaycanda yerli əhəmiyyətli məsələlərin həlli və yerli inzibatı işlərin idarə olunması üçün qanunla müəyyən edilmiş hüdudlar daxilindəki ərazilərə verilən özünüidarəetmə hüququna bələdiyyə deyilir. Bələdiyyə ərəb mənşəli sözdür və Avropa dillərindəki qarşılığı "munisipal", "munisipaliti" kimi işlənir. Qədim Roma imperiyasında munisipalis ölkənin əsas ərazisindən ayrı olan, sakinləri Roma vətəndaşı olan, Romanı ordu ilə təchiz edən və məhdud muxtariyyət statuslu olan icmalara verilən ad idi. İcmaların özünüidarəetmə hüququ xalqın özünüidarəetmə hüququ ilə əlaqələndirilmirdi. Daha sonra qərb ölkələrində demokratik təsisatlar əsasında yerlərə yerli xarakterli işlərin idarə olunması üçün özünü idarə etmək imkanı verildi. 1918-ci ildə qurulmuş Azərbaycan Cümhuriyyətində də yerli özünüidarəetmə ilə bağlı müəyyən işlər görülmüşdü. Hər tərəfdə bələdiyyə və məhəlli idarələr qurulmuşdu (8, s.42). Göründüyü kimi Azərbaycan Cümhuriyyətində yerli özünü idarəetmə həm bələdiyyə, həm də məhəlli komitələr formasında həyata keçirilmişdi. Azərbaycan Cümhuriyyətində Konstitusiyanın mövcud olmaması bələdiyyələşmə siyasətinə mane olan amillərdən biri idi. Daha sonra bolşevik istilası müstəqil Azərbaycanda bələdiyyələşmə siyasətini müvəqqəti olaraq yarımçıq qoymuş oldu.

*Qanunvericilikdə bələdiyyə*. Yerli özünüidarəetmə orqanlarına verilmiş səlahiy-yətlər nəticəsində dövlət öz idarəçilik imkanlarına qənaət etmiş olur. Həmçinin, yerli özünüidarəetmə orqanları icraedici hakimiyyətdən yerli əhəmiyyətli məsələlərdə daha səmərəli fəaliyyətə sahibdirlər. Bunun üçün də Azərbaycanda müstəqillik bərpa edildikdən sonra bələdiyyələşmə siyasətinə ciddi fikir verilməyə başlanıldı. Ulu Öndər Heydər Əliyev hər bir sahədə olduğu kimi yerli özünüidarəetmə sahəsinə də diqqət ayırırdı. İlk görülən iş yerli özünüidarəetmə sahəsinə Azərbaycan Respublikasının əsas qanununda yer verilməsi oldu. Belə ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyindəki xüsusi komissiya tərəfindən hazırlanan və 1995-ci ilin 12 Noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilən 5 bölmədən ibarət olan Azərbaycan Respublikası Konstitusiyasının 4-cü bölməsi yerli özünüidarəetməyə həsr edilmişdi. Konstitusiyanın tərtibi ilə Azərbaycanda bələdiyyələşmə siyasətinin təməli atılmışdı. Bələdiyyələrin formalaşdırılması, işinin təşkili, səlahiyyətləri, fəaliyyətinin və müstəqilliyinin təminatı ilə bağlı qanunda əsas şeylər tərtib edilmişdi. Lakin tək Konstitusiya ilə bələdiyyələrin normal fəaliyyətini təmin etmək mümkün deyildi. Konstitusiyada bələdiyyələrin yerli büdcəsi və maliyyə əsasları haqqında yetərli bilgi yox idi. Bələdiyyələr öz gəlirlərini hansı sahələrdən əldə edəcəkləri barədə məlumat yox idi. Bələdiyyə üzvlərinin səlahiyyətləri haqqında yetərli məlumat yox idi. Bələdiyyələri səsvermə yolu ilə formalaşdıran əhalinin yerli özünüidarəetmə ilə bağlı daha hansı fəaliyyətlə məşğul olacağı göstərilməmişdi. Azərbaycanda yerli özünüidarəetmə ilə bağlı əsas prinsiplər

Konstitusiyada tam olaraq göstərilməmişdi. Bələdiyyənin mülkiyyətinin nələrdən ibarət olduğu, mülkiyyətinin formalaşması haqqında heç bir məlumat yox idi. Bələdiyyələrin maliyyəsinin iqtisadi əsasları, əmlaklarının yaranma mənbələri, inkişaf proqramlarının mahiyyətləri ilə bağlı yetərli məlumat yox idi. Ümumilikdə tək konstitusiya ilə bələdiyyələşmə siyasətini aparmaq qeyri-mümkün olardı. Buna görə də 2 iyul 1999-cu ildə "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, 7 dekabr 1999-cu ildə "Bələdiyyələrin maliyyə əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu, 18 aprel 2000-ci ildə isə "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikasının Qanunu Ulu Öndər Heydər Əliyevin qərarı ilə qüvvəyə minmişdi. 25 dekabr 2001-ci ildə isə "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdi. Azərbaycan Respublikasında bələdiyyələrin səlahiyyətləri və fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, Bələdiyyələrin nizamnaməsi və digər qanunvericilik aktları ilə müəyyən edilir. Bunlara əsaslanaraq Azərbaycanda bələdiyyələşmə siyasətinin nə dərəcədə uğurla həyata keçirildiyini müəyyən edə bilərik.

*Bələdiyyələr ilə bağlı problemlər*. Azərbaycanın bələdiyyələşmə siyasətinə bir az gec, 1995-ci ildə Konstitusiyanın tərtibi ilə başladığını nəzərə alaraq bu məsələyə Azərbaycanda 1990-cı illərin əvvəllərində baş verən separatçılıq meyillərini, ölkənin bütün sahələrinə ziyan vuran müharibəni, ölkədəki xaosu və bu kimi digər məsələləri səbəb kimi göstərə bilərik. Ancaq eyni dövrdə bizlə aşağı-yuxarı eyni problemləri yaşayan Gürcüstanda bizdən fərqli olaraq 1995-ci ildə təkcə konstitusiyanın qəbulu ilə kifayətlənmədi, həmçinin konstitusiyadan dərhal sonra yerli özünüidarəetmə orqanlarının yaradılmasına başlanıldı. Fərz edək ki, Azərbaycan tək konstitusiya ilə bu siyasətə başlamaq istəmədi və bələdiyyələrlə bağlı digər qanunların qəbul edilməsini və daha sonra bələdiyyə seçkilərinin keçirilməsini məqbul hesab etdi. Gürcüstanda isə fəaliyyət tam əksinə olaraq aparıldı. Əvvəlcə bələdiyyələr formalaşdırıldı. Sonra isə müşahidələr, təcrübələr və Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyələri əsasında boşluqlar doldurulmağa çalışıldı. Bələdiyyələrin yerli icra hakimiyyətinin formalaşdırılmasında iştirakı 3 formada həyata keçirilir: parlamentar, prezident və qarışıq seçim. Azərbaycanda hal-hazırda qarışıq seçimdən istifadə edilir. Qarışıq seçim də isə yerli icra hakimiyyəti seçilmir, mərkəzi hakimiyyət tərəfindən təyin olunur. Yerli icra hakimiyyəti də xalqa deyil, mərkəzi icra hakimiyyətinə tabe olur. Azərbaycanda bələdiyyələrlə bağlı ən böyük problemlərdən biri yerli icra hakimiyyətlərin prezidentin xüsusi nəzarət nümayəndəsi kimi deyil, birbaşa yerli hökümət kimi çıxış etməsidir (3). 2012-ci ilin iyununda qəbul edilən "Yerli icra hakimiyyətləri Əsasnaməsi"ndə yerli problemlərin həlli ilə bağlı bütün məsuliyyətin məhz yerli icra hakimiyyətlərinə məxsus olduğu aydın görünür. Beynəlxalq təcrübədən fərqli olaraq Azərbaycanda bələdiyyələrin hakimiyyət statusu qazanmaması, yerli hakimiyyətlərin bilavasitə mərkəzi hakimiyyətin təyinatı ilə formalaşan, yerli əhalinin deyil, mərkəzi hökumətin qarşısında məsuliyyət daşıyan icra hakimiyyətləri kimi tanınmasını şərtləndirib (3). Azərbaycanda digər bir problem isə kənd və şəhər bələdiyyəsi arasında heç bir fərqin qoyulmamasıdır. Hər ikisi eyni səlahiyyətləri daşımış olurlar. Yəni, Azərbaycanda hələ də böyük şəhər bələdiyyələri yaradılmır. 2006-cı ilin payızında Azərbaycanda kənd, qəsəbə və şəhər bələdiyyələrinin təmsil olunduğu 3 müxtəlif Assosiasiya yaradılıb. Bu Assosiasiyaların məqsədi ölkədə yerli özünüidarənin möhkəmlənməsinə və inkişafına nail olmaqdır. Assosiasiyalar üzv bələdiyyələri zəruri məlumatlarla təmin edə, beynəlxalq təşkilatlarda bələdiyyələrin təmsilçiliyini təşkil edə, üzvlər üçün maarifçilik fəaliyyətini həyata keçirə, ixtisasartırma kursları təşkil edə, qabaqcıl təcrübəni yaya, xarici ölkələrdə fəaliyyət göstərən bələdiyyələrlə əlaqələr qura bilərlər (9, s.196). Bu cür Milli Assosiasiyaların təşkili Azərbaycan üçün müsbət addımdır. Ancaq, bu Milli Assosiasiyaların heç biri bir rayonun şəhər bələdiyyəsi ilə kənd bələdiyyəsi arasında güclü fəaliyyət bağı yaratmır. Ölkədə fəaliyyət göstərən 1771 bələdiyyədən 1300-dən çoxu kənd bələdiyyəsidir. Bələdiyyələrin 46 faizinin əhalisi 1000 nəfərdən azdır. Əhalinin hər 100 min nəfərinə düşən bələdiyyələrin sayı 34-dür (9, s.193). Əhalisi 1000 nəfərdən az olan bələdiyyənin səs vermə qabiliyyətli seçici sayı da, təxminən, 500-600 nəfər civarında olacaq. Əlbəttə ki, bu 500-600 nəfər seçici ilə bir yerli özünüidarəetmə qurumu nə ideal yerli idarəçilik yarada bilər, nə də məqsədlərini həyata keçirə biləcək yetərli bir maliyyəsi olar. Söz yox ki, qanunvericilikdə bələdiyyənin gəlir mənbələrinə çoxlu sahələr yazıb. Ancaq, sayı 800-ü aşan, əhalisi 1000 nəfərdən az olan bu bələdiyyələr nə dərəcə də bu

gəlir mənbələrinin hamısından yararlana bilər? Gəlir əldəetmə potensialı təbii səbəblərdən aşağı düşmüş bələdiyyələrin yeganə ümid yeri mülkiyyətindəki torpaq olacaq ki, sonradan da bu bələdiyyələr "torpaq satan" qurum kimi tanınacaq.

*İqtisadi rayonlar*. 7 iyul 2021-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü aparılıb. Bununla da 14 iqtisadi rayon formalaşdırılıb (2). Bu əla bir təşəbbüsdür. Ancaq bu iqtisadi rayonlar Gürcüstandakı 12 regional administrasiya kimi fəaliyyət göstərmirlər. Bələdiyyələr öz müstəqilliklərini resurslarına və qanunvericiliyin ona verdiyi səlahiyyətlərə borcludurlar (3). Əhalisi 1000 nəfərdən az olan bir kənd bələdiyyəsinin faktiki olaraq resursları da azalmış olur. Avropa Şurası Yerli və Regional Demokratiya Komitəsinin 2007-ci ildə hazırladığı "Avropada yerli hakimiyyətlərin səlahiyyətləri adlı sənəddə bildirilir ki, yerli özünüidarə müstəqil sistemdir, lakin onların müstəqilliyinin səviyyəsi bilavasitə malik olduqları səlahiyyətlərin və resursların həcmindən asılıdır (3). Beləliklə bələdiyyələrin faktiki olaraq resursları azaldıqca müstəqillik səviyyəsi də azalmış olur. "Bələdiyyələrin maliyyə əsasları haqqında" Azərbaycan Respublikasının qanununun 8-ci maddəsinin 6-cı bəndinə əsasən bələdiyyələrdə xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər (5). Bələdiyyələr dotasiya hesabına mərkəzi icra hakimiyyətindən asılı vəziyyətə düşmüş olur. Həmçinin, dotasiyalar bələdiyyələrdə "holland sindromu" yarada bilər. Bu vəziyyətin xroniki hal alması isə Azərbaycan Respublikasının öz büdcəsinə təsir edə bilər. Əslində vurğulanan həmin məsələlər qeyri-qəti gələcək zamanda deyil, keçmişdə baş verən və indi də davam edən bir hadisədir. Azərbaycanda 2000-ci illərə qədər aparılan bələdiyyələşmə siyasətini uğurlu olduğunu deyə bilərik. Azərbaycan Respublikası Konstitusiyasında bələdiyyənin əsaslarının təsbit olunması, bunun ardınca bələdiyyələrlə bağlı qanunların qəbul edilməsi bu nəticəyə gəlməyimizə əsas verir. Bələdiyyə böyük əhəmiyyət daşıyan bir sahədir. Bələdiyyələşmə siyasəti ilə bağlı keçid ölkələrində durma və ləngimə hadisələri olmamalıdır. Azərbaycanda isə hal-hazırda ləngimə hadisəsi müşahidə olunur.

*Nəticə. Problemin həll yolları*. Gürcüstanda 2017-ci ildə bütün bələdiyyələrin büdcəsi ümumilikdə 750 milyon dollar təşkil edib. Paytaxt Tbilisi bələdiyyəsinin büdcəsi isə 2018-ci ildə 350 milyon dollar təşkil edib. Gürcüstanda bələdiyyələrin gəlir və xərclərinin ÜDM-də payı isə 5%-dən bir qədər çoxdur (4). Azərbaycanda isə 2018-ci ildə bütün bələdiyyələrin ümumi büdcəsi 20 milyon dollardan aşağı olub. (Gürcüstandan 17,5 dəfə az). Bələdiyyələrin gəlir və xərclərinin ÜDM-də payı isə 0,05% olub (3). Gürcüstan təcrübəsindən də göründüyü kimi problemin köklü həll yolu qanunvericilikdə yerli özünüidarəetmənin yerli hakimiyyət statusu qazanması, onların "müstəsna", "təbii" və "ötürülə bilən" səlahiyyətlərinin çox dəqiqliklə ayrılmasıdır (3). Digər bir problem isə ölkədə əhalisinin sayı 1000 nəfərdən az olan 800-dən çox bələdiyyənin və eyni tip yerli özünüidarə təsisatlarının mövcud olmasıdır. Problemin həlli əksər ölkələrdə olduğu kimi yaşayış məskənlərinə bələdiyyələrin yaradılması ilə bağlı əhalinin sayı meyarının qoyulmasıdır. Məsələn, Türkiyədə əhalisinin sayı 5000-dən az olan yaşayış məntəqələrində bələdiyyə qurulmasına icazə verilmir. Əksər ölkələrdə bu məhdudiyyət isə 2000 nəfərdir (9, s.193). Əksər ölkələrdə yerli özünüidarəetmə 2 təsisatda həyata keçirilir. Məsələn, Gürcüstanda "Yerli Özünüidarəetmə Məcəlləsi"nə əsasən yerli özünüidarəetmə təsisatları 2 səviyyədə mövcuddur: icma bələdiyyələri və şəhər bələdiyyələri. Azərbaycanda da bu cür yerli özünüidarəetmə təsisatları formalaşdırmaq mümkündür. Azərbaycanda da Türkiyə və Gürcüstandakı kimi böyük şəhər bələdiyyələri yaradıla bilər. Bakı şəhərində böyük şəhər bələdiyyəsi yaradılmaqla Azərbaycan Avropa Şurasının "Paytaxt şəhərlərin statusu haqqında" 219 saylı tövsiyəsinin tətbiqinə də başlaya biləcək.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, – 2002, – 48 s.
- http://president.az/azerbaijan/constitution/ [Müraciət tarixi: 03.12.2021].

2. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // 7 iyul 2021-ci ildə qəbul edilmişdir. - https://president.az/az/articles/view/52389 [Müraciət tarixi: 03.12.2021].

3. Ağayev R. Bir region, iki model, üç ölkə: Cənubi Qafqazda yerli özünüidarə sisteminin müqayisəli təhlili. Baku Resarch İnstitute, 27 oktyabr 2019-cu il. - https://bakuresearchinstitute.org/az/one-region-two-models-three-countries-a-comparative-analysis-of-local-self-government-in-the-south-caucasus/ [Müraciət tarixi: 03.12.2021].
4. Angelopoulos M., Dickson S. Local and regional democracy in Georgia. Council of Europe, Congress of Local and Regional Authorities, 7 November 2018. https://search.coe.int/congress/pages/result_details.aspx?objectid=09000016808e551 [Müraciət tarixi: 03.12.2021].
5. "Bələdiyyələrin maliyyə əsasları haqqında" Azərbaycan Respublikasının qanunu // 7 dekabr 1999-cu ildəqəbul edilmişdir, №772-IQ. - http://www.e-qanun.az/framework/5231 [Müraciət tarixi: 03.12.2021].
6. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının qanunu // 2 iyul 1999-cu ildə qəbul edilmişdir, №698-IQ. - http://www.e-qanun.az/framework/4770 [Müraciət tarixi: 03.12.2021].
7. "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikasının qanunu // 18 aprel 2000-ci ildə qəbul edilmişdir, №863-IQ. - http://www.e-qanun.az/framework/507 [Müraciət tarixi: 03.12.2021].
8. Rəsulzadə M.Ə. "Əsrimizin Siyavuşu". Bakı, "Mücrü" Nəşriyyatı, 2021, 63 s.
9. Yusifov S., İsmayılov V., Hüseyn A. Yerli özünüidarəetmə hüquqi və maliyyə əsasları. Bakı, "Ləman nəşriyyat poliqrafiya" MMC, 2016, 206 s.
10."Yerli özünüidarə haqqında" Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu. // 25 dekabr 2001-ci ildə qəbul edilmişdir, №238-IIQ. - http://www.e-qanun.az/framework/1026 [Müraciət tarixi: 03.12.2021].

**ШАХРИЯР МАМЕДЛИ**
*Академия Государственного Управления при Президенте Азербайджанской Республики*

**ЭЛЬМАДДИН ГАБИБЛИ**
*Академия Государственного Управления при Президенте Азербайджанской Республики*

## ПОЛИТИКА МУНИЦИПАЛИЗАЦИИ РЕАЛИЗОВАННАЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

As everyone knows, at all times, art has been continuously associated with human creativity, and was also a means of communication between people. Thus, among the world's works of art, anthropomorphic female figurines are considered the main creative theme of the Upper Paleolithic period. Anthropomorphic figurines on the territory of Azerbaijan are found in archaeological sites starting from the 7th-5th millennia BC. The continuation of this tradition can be traced in the archaeological monuments of antiquity. The figurines found during archaeological excavations have a small and convex shape, and were mainly made of stoneшey, bone and clay. They were designed in accordance with the religious and ideological requirements of that time.

Since women were a creative force, primitive artists copied geometric images of the forces of nature, signs, patterns and symbols associated with "fertility" and "reproduction" on their sculptures and used them during various ceremonies.

*Keyword*: Eneolite, feminine, fertility, figurine, spiritual culture.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 dekabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Qüdrət İsmayılzadə, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24); UOT 902**

**FUAD HÜSEYNOV**
*AMEA Lənkəran Regional Elmi Mərkəzinin elmi işçisi*
**huseynfuad477@gmail.com**

# AZƏRBAYCAN RESPUBLİKASININ CƏNUB-ŞƏRQ BÖLGƏSİNİN ENEOLİT VƏ İLK TUNC DÖVRÜNÜN DƏFN ETMƏ ADƏTLƏRİ

*Məqalədə 1971-ci ildə Cəlilabad rayonu ərazisində yerləşən Əliköməktəpə eneolit dövrü abidəsində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən qəbirlərdə müşahidə edilən dəfn etmə adəti və eləcə də 1965-ci ildə Astara rayonunun Telman kəndindəki ilk tunc dövrü kurqanlarında arxeoloji qazıntı işləri aparılarkən müşahidə edilən dəfn etmə adəti xarakterizə edilmişdir. Belə ki, Əliköməktəpədə bütün mərhumların eyni dəfn adəti üzrə basdırıldığı müəyyən edilmiş və bəzi qəbrlərdə isə yalnız ölünün sifəti qarşısında qoyulmuş cam formalı su qabı tapılmışdır. Telmankənd kurqanlarında isə mərhumlarla yanaşı qəbirə onlara məxsus şəxsi əşyaları da qoyulmuşdur. Bu əşyalar saxsı parçaları, araba təkəri modeli, yastı balta, bizlər, iskənə və s. ibarətdir. Bu tapıntılar Cənub-Şərq bölgəsi daxil olmaqla bütün Azərbaycan ərazisində artıq ilk tunc dövründə dəfn etmə adətində böyük dəyişiliklərin baş verdiyini söyləməyə əsas verir.*

*Açar sözlər*: qəbir; saxsı qab; mərasim; kurqan; tunc nizə; iskənə; bardaq; küpə; tayfa; axirət.

*Giriş*. Azərbaycanın Cənub-Şərq bölgəsinin eneolit və ilk tunc dövrü dəfn etmə adəti Cəlilabad rayonu ərazisində yerləşən Əliköməktəpə eneolit dövrü abidəsi və Astara rayonu ərazisində yerləşən Telmankənd ilk tunc dövrü qəbir abidələri əsasındı daha yaxşı öyrənilmişdir. Belə ki, Əliköməktəpə yasayış yeri 1966-cı ildə qeydə alınarkən üstü əkin sahəsi kimi istifadə olunmusdur. Ərazidən yol salınarkən abidənin cənub kənarı dağıdılmış və mədəni təbəqə üzə cıxmışdır. Abidəni gələcək dagıntılardan xilas etmək və elmi əhəmiyyətini üzə cıxarmaq məqsədilə 1971-ci ildə görkəmli arxeoloq F.R.Mahmudovun başçılığı ilə Əliköməktəpə qədim yasayış yerinin simal ətəyində təqribən 80 kv metrlik ərazidə kəşfiyyat qazıntı sahəsi salınmış və ilk tədqiqatlara başlanılmışdır. 1973-cü ilə qədər davam edən qazıntı sahəsi daha da genişləndirilərək 140 kv metrə qədər ərazini əhatə etmişdir. 1980-ci ildə tədqiqi dayandırılmış bu yaşayış yeri ərazisində eneolit dövrü ilə yanaşı qismən erkən və orta tunc dövrunə aid qiymətli maddi mədəniyyət nümunələri, o cümlədən çoxlu tikili qalıqları, sobalar, əkinçilik məmulatları, müxtəlif qab nümunələri və bir cox nümunələr əldə edilmisdir. O cümlədən yasayış yerində 20-yə qədər də qəbir açılmışdır. Bu qəbirlərdən biri inşaat qatında, digərləri isə 1, 2 və 3-cü inşaat qatlarında açılmışdır. Qeyd edək ki, Əliköməktəpə yaşayış yerində eneolit təbəqəsi üst inşaat qatlarının bəzi qalıqları həm də orta tunc dovrunə aid 3 qəbir vasitəsilə kəsilmişdir. Abidənin 79 və 80 nömrəli qəbirlərində zəngin avadanlıqlara rast gəlinmişdir. Bura əsasən ev təsərrüfatında istifadə edilən məişət avadanlıqları - müxtəlif qablar daxildir. Əliköməktəpə yasayış yerində askar edilən qəbirlər əsasən yaşayış evlərinin döşəmələri və binalarının arasında yerləşmişdir. Müşahidələr zamanı bütün mərhumların eyni dəfn adəti üzrə basdırıldığı müəyyən edilmişdir. Belə ki, qəbirlərin hər birində mərhum sağ və ya sol böyrü üstündə tam bükülü halda, dayaz torpaq çala üzərinə çəkilmiş həsir üstündə qoyulmuşdur. Onu da qeyd edək ki, mərhumlar qəbirlərdə eyni istiqamətdə deyil, müxtəlif istiqamətlərdə dəfn edilmişlər. Bəzi qəbirlərdə mərhumların sümükləri üzərində qırmızı boya və qırmızı oxra izləri müşahidə edilmişdir. Eneolit dövründə də mərhumların üzərinə qırmızı boya və oxra səpilməsi, görünür dəfn adətinin xüsusiyyətlərindən biri olmuşdur. Ehtimal etmək olar ki, bu həm də o dünyaya inam və yaxud da mərhumları son mənzilə yola salarkən onlara göstərilən ehtiramlardan biri olmuşdur. Mərhumların üzərinə müxtəlif boyaların, yağların və ətriyyatların səpilməsi ən qədim dövrlərdən başlayaraq orta əsrlərdə və hətta müasir dövrdə də dünyanın əksər xalqları tərəfindən həyata keçirilir. Əgər biz bir qədər də irəli getsək həm xristian, həm də islam dini dəfn etmə adətlərində mərhumların üzərinə müxtəlif ətriyyatların (maddələrin) səpilməsinin də şahidi oluruq. Ümumiyyətlə, eneolit dövrü dəfn etmə adətində əsasən qırmızı boyalardan istifadə edilməsi müasir dəfn etmə adətinin qədim variantı olmuşdur. Məhz qırmızı boyalardan istifadə edilməsinə gəldikdə isə hələ qədim insanlar, ov zamanı ovladıqları heyvanın bədənindən qırmızı rəngdə mayenin (qanın)

axaraq öldüyünün və eləcə də vəhşi heyvanların yaraladığı və oldürdüyü insanların bədənindən eyni ilə qırmızı rəngdə mayenin (qanın) axdığının şahidi olmuşdular. Onlar başa düşmüşdülər ki, məhz insanlar və heyvanlar bu rəngdə olan mayenin köməyi və gücü ilə yaşayırlar. Ona görə da onlar ölən adamin bədəninə qırmızı rəngli boya və oxra səpməklə ona yeni həyatın veriləcəyinə ümüd edirdilər. Əliköməktəpə abidəsinin qəbir avadanlığı yalnız ölünün sifəti qarşısında qoyulmuş cam formalı su qabından ibarətdir [4, s.62]. Çox güman ki, bu qablar mərhum qəbrə qoyularkən su ilə doldurulmuşdur. Tapıntıların çoxuna görə Cənubi Azərbaycanın və Mesopotamiyanın eneolit dövrü abidələrinin tapıntılarına yaxın olan Əliköməktəpə yaşayış yeri insanlarının dini inancları da qeyd etdiyimiz ərazilərdəki eneolit dövrü insanlarının dini inanclarına yaxın olmuşdur. Belə ki, bu ərazilərdə olan qəbirlərdə də saxsı qablar tapılmışdır ki, bu qablar su və qida ilə doldurulmuşdur. Demək olar ki, qəbirlərdə su və qida ilə doldurulmuş qabların qoyulması mərhumların o dünyada bunlardan istifadə etməsi inamı ilə bağlı olmuşdur. Axı qədim dövr insanları suyun təbiətdə və eləcə də insanların və heyvanların həyatında nə kimi böyük rol oynadığını yaxşı dərk edirdilər. Bu qəbir avadanlıglarından əldə edilən məlumatlara əsasən deyə bilərik ki, bəhs edilən bu dövrdə Əliköməktəpə yaşayış yeri sakinləri arasında mülki və ya ictimai təbəqələşmə əlaməti yoxdur. Nəticədə o da aydın olur ki, Cənubi Qafqazda Naxçıvanın Kültəpə I abidəsindən [6, s.29-44] sonra Əliköməktəpə abidəsi ölülərin yaşayış yeri ərazisində dəfn edildiyi ikinci abidədir. Bundan başqa hər iki abidə də mərhumların bükülü vəziyyətdə sağ və sol böyrü üstündə dəfn edilməsi müşahidə edilən amillərdəndir. Məhz bu xüsusiyyətlərinə görə Əliköməktəpə yaşayış yeri və Naxçıvandakı Kültəpə yaşayış yeri Cənubu Azərbaycanın Urmiyə gölü hövzəsində aşkar olunan Yanıqtəpə [10, s.56] və Hacı Firuz [9; 11, 72] abidələrinə daha yaxındır. Belə ki, bu abidələrdə də mərhumlar yaşayış yeri ərazisində dəfn edilmişlər. Qeyd edilən yasayıs yerlərində yəni Əliköməktəpə, Kültəpə və eləcə də Yanıqtəpə və Hacı Firuz abidləri də ölülərin eyni və ya oxsar formada dəfn edilməsi bəhs edilən dövrdə Azərbaycanın böyük bir hissəsində tayfalar arasında iqtisadi əlaqələrin olmasından xəbər verir ki, bu da eneolit dövrundə bu ərazilərdə yaşayan tayfalarin dini və mənəvi cəhətdən bir-birinə yaxın olduğunu göstərir. Ümumiyyətlə, eneolit dovründə ölülərin yaşayış yeri ərazisində xüsusilə də yaşayış evlərinin altında və ya yanında dəfn edilməsi bir-başa axirət dünyasına inamla bağlı olmuşdur. Bunu görkəmli arxeoloq C.H.Bibikovun fikirləri də təstiqləyir. Belə ki, C.H. Bibikovun fikrincə, ölülərin binaların altında basdırılması mərasimi ölmə və dirilmə inancı ilə bağlı olmuşdur [7, s.198-199]. O.H.Həbibullayev isə ölülərin yaşayış yeri ərazisində dəfn edildiyini, insanların həqiqi dünya ilə axirət dünyasının vəhdətliyi haqqında təsəvvür olduğunu göstərən ölüyə sitayiş adəti nəticəsində əmələ gəldiyini qeyd etmişdir [3, s.131].

Qeyd olunan abidələrdən başqa Cənubi Qafqazın və eləcə də Azərbaycanın digər eneolít abidələrində yaşayış yeri ərazisində heç bir qəbir abidəsi tapılmayıb, bu da onunla izah oluna bilər ki, bu yaşayış yerlərində insanlar öz ölülərini yaşayış yerindən bir qədər uzaqda dəfn etmişlər.

Cənub-Şərq bölgəsində, bütövlükdə isə Azərbaycan ərazisində ilk tunc dövrü dəfn etmə adətləri eneolit dövrundən fərqli olaraq daha yaxşı öyrənilmişdir. Artıq bu dövrdən başlayaraq ölülərin yaşayış yerindən uzaqda torpaq, daş, kurqan və sərdabə tipli qəbirlərdə dəfn edirdilər.

Belə ki, bu dövrə aid dəfn etmə adətləri Astara ərazisində kurqanlar əsasında daha yaxşı öyrənilmişdir. Bunun səbəbi Eneolit dövrunə nisbətən tunc dövru qəbir abidələrin daha yaxşı qalmasıdır. Belə ki, Astara rayonundakı arxeoloji abidələrin bir qismi müxtəlif böyüklüklərdə kurqanlardan ibarət olmuşdur. Düzən ərazilərdə bu kurqanlar toplu halında deyil, tək-tək, iki-bir və ya üc-bir say formasında yayılmışdır. Bu kurqanlar tikintisinin xarakterinə və ölçülərinə görə müxtəlif formalardan ibarət olmuşdur. Belə kurqanlara Astara rayonunun Telmankəndi, Pensər, Tengerud, Maşxan və Alaşa kəndlərindəki ərazilərdə rast gəlinmisdir. Bu kəndlərdəki kurqanlar içərisində yalnız Telmankənddəki kurqanları daha yaxşı öyrənilmişdir.

Belə ki, 1965-ci ilin yayında Telman kəndinə kəşfiyyat səfəri zamanı torpaq kurqanlarla yanaşı, daş töküntülü kurqanlar da qeydə alınmış və onların da ikisi tədqiqat üçün seçilmişdir [5, s.1220].

Qeyd edək ki, hər iki kurqan ilk tunc dövrünə aiddir. Bunlardan 1№-li kurqanın hündürlüyü 2,3 m, özüldə diametri 14 m-dir. Kurqanın töküntüsü müxtəlif ölçülü daşlardan ibarət olub, üzəri nazik torpaq qatı ilə örtülmüşdür. Tədqiqat zamanı qəbirdən mərhuma aid kəllə, qol va qıç lülə sümüklərinin çürük parçaları qeydə alınmış və müəyyən edilmişdir ki, ölü sağ böyrü üstə, başı şimala, ayaqları

cənuba, üzü qərbə doğru bükülü vəziyyətdə dəfn edilmişdir. Tapilan maddi-mədəniyyət nümünələri isə üç müxtəlif qaba aid qırжqlar, at başı təsvir olunmuş uzunsov daş, xart daşж, beş müxtəlif metal əsya, yastı balta, araba təkəri modeli, saplaqlı tunc nizə ucları, dörd tilli bizlər, iskənə və daşdan düzəldilmiş qaban fiqurundan ibarətdir. Burada tapılan qablardan biri silindirik boğazlı kiçik bardaq formasındadır. Xarici səthi tutqun bozumtul rəngdə olub şüyrələnmişdir. Astarı isə açıq boz rəngdədir. Cam tipli qab parçaları isə tarkibinə qum qarışdırılmış gildən hazırlanmışdır. Bişirilmə zamanı qablar har iki üzdən qırmızı rəng almışdır. Çox rütübət çəkdiyi üçün əlda rəng izi qalır. Qeyd edək ki, «ələ bulanan» xassəli saxsı məmulatı Azərbaycan ərazisində yalnız Telmankənd kurqanında tapılmışdır.

Birinci kurqandan 1 km cənubda yerləşən 2№-li kurqan isə kəndin Dirankəş adlı yerində qeydə alınaraq öyrənilmişdir. Bu kurqan da forma və xarakterinə görə 1№-li kurqanla eynidir. Hündürlüyü 2 m, diametri 11 metr olmuşdur. Tədqiqat zamanı qəbrin qarət olunduğu müəyyən edilmişdir. Baxış zamanı qəbirdə meyit əlamətinə rast gəlinməmişdir. Bunun səbəbi bölgənin kəskin rütubətli olması ilə bağlidir. Burada yalnız bardaq küpə və cam tipli müxtəlif qablara aid qırıntılar əlda edilmişdir. Ehtimal etmək olar ki, bu qabların sındırılması qarət zamanı baş vermişdir . Əsasən qara rəngli və nazik divarları olan iki qab qırığının tərkibinə qum qarışdırılmış gildən hazırlandığı müəyyən edilmişdir. Qabın xarici səthi şüyrələnmişdir. Analoji qab parçalarının nümunələri Cəlilabad rayonunun Mişarçay I yaşayış yerinin [8, s.5] ilk tunc dövrünə aid alt təbəqəsindən də tapılmışdır. Telmankənd kurqanlarından tapılan saplıqlı nizə ucları, iskənə və gil qab nümunələri və s. bu ərazidə yaşayan əhalinin Ön Asiya və Müğan ərazilərində yaşayan tayfalar ilə çox sıx əlaqə də olduğunu əks etdirir. Bundan başqa Telmankənd kurqanlarından tapılan maddi mədəniyyət nümunələri e.ə.III minilliyin ortalarında cənub-şərq bölgəsində metallurgiyanın, dulusçuluğun, daş işləmə və s. sənət sahələrinin inkişafını göstərməklə yanaşı burada dini inancların da daha geniş şəkildə yayıldığını göstərir. İndi insanlar ölülərin o dünyada yaşadığına daha çox inanaraq qəbirə onunla birlikdə əşyalarını da qoyurdular. İlk tunc dövrünə aid qəbir abidələri Azərbaycan digər ərazilərində də çox yayılmışdır. Onlara Xanlarada, Mingəçevirdə, Daşkəsəndə, Mil düzündə və s. kifayyət qədər rast gəlinmişdir [2, s.4-43].

Mingəçevirdə üzə çıxarılan sadə torpaq qəbirlərdə skelet bükülü vəziyyətdə müxtəlif istiqamətlərdə dəfn edilmişdir. Hər qəbirdə skeletin baş tərəfində bir gil qab qoyulmşdur.

Xaçbulaqda öyrənilən qəbirlərdə isə skelet arxası üstə, oynaqlardan bükülü formada, başı qərbə doğru istiqamətdə dəfn edilmişdir [1, s.35]. Bu və ya digər qəbir abidələrinindən Telmankənd kurqanlarında olduğu kimi ilk tunc dövrünə aid çoxlu maddi mədəniyyət qalıqları əldə edilmişdir. Ümumiyyətlə, Azərbaycanın Cənub-Şərq bolgəsində həm Eneolit və həm də Tunc dovrunə aid muxtəlif qəbir formalarının tapılması və bu qəbirlərdən əldə edilən maddi mədəniyyət nümunələri və eləcə də dəfn adətlərinin oxşarlıgı və bu dəfn adətlətinin istər Cənubi Azərbaycan yaşayış yerlərin və istərsə də Mesopatomiya qədim yaşayış yerlərinin dəfn etmə adətlətinə yaxınlığına baxsaq belə nəticəyə gəlməyə əsas verir ki, bu dövrdə yeni və yüksək iqtisadi-ictimai münasibətlərlə yanaşı, dini-ideologiya sahəsində də əsaslı dəyişiliklar baş vermişdir.

*Nəticə.* Məhz bu dövrdən başlayaraq Azərbaycanın həm şimalında həm də Cənubunda, Cənubu Qafqazın və eləcə də, Mesopatomiyanin müxtəlif ərazilərində ölu yandırma mərasimi meydana çıxmışdır, bütövlükdə tunc dövründə baş veren tayfalar arası münaqişə və müharibələr nəticəsində cəmiyyətdə kəskin təbəqələşmə yaranmış və nüfuzlu şəxslərə, nəsl tayfa başçılarına məxsus möhtəşəm kurqanlar uçaltmaga başlatmışlar.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1.Göyüşov Rəşid. Azərbaycan Arxeologiyası. Bakı, Azərnəşr, 1986, 191 s.
2.Hüseynov M.M., İsmayılov Q.S., Quliyev N.M. Azərbaycan arxeoloji abidələri. Bakı, Gənclik, 1981, 368 s.
3.Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı, Elm, 1959, 327 s.

4.Mahmudov F.R. Əliköməktəpə arxeoloji qazıntıların ilkin yekunları. Daş dövrü və Azərbaycanda eneolit. Bakı, Elm, 1984, 217 s.
5.Mahmudov F.R. Astara rayonundan ilk tunc dövrü kurqanları haqqında. A.M.M. X-cild. Bakı, Elm, 1987, 278 s.
**Rus dilində**
6.Абибуллаев О.А. Погребальные памятники из поселения Кюльтепе. / Сб.: Археологические исследования в Азербайджане. Баку, 1965, с.22-44.
7.Бибиков С.Н. Раннетрипольское поселение Лука-Врублевецкая на Днестре // МИА, № 38, М-Л., 1953, 460 с.
8. Махмудов Ф.Р. Культура Юго-Восточного Азербайджана в эпоху бронзы и раннего железа. Баку, Нафта-Пресс, 2008, 215 с.
9. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку, Элм, 1987, 259 с.
**İngilis dilində**
10. Burney C.A. The Excavations at Yanıktepe Azerbaijan 1962 / Published by the British School of Archaeolojy in IRAQ, Volume XXVI, Part I, Spring 1964, p.54-61.
11. Mellaart I. Earliest Civilizations of the Near East. London, McGraw-Hill, 1965, p.72.

**ФУАД ГУСЕЙНОВ**
*Научный сотрудник Ленкоранского регионального научного центра НАНА*

## ЮГО-ВОСТОЧНОГО РЕГИОНА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ПЕРВОГО БРОНЗОВОГО ПЕРИОДА ЭНЕОЛИТА

В статье описаны погребальные обычаи, соблюдаемые в захоронениях, обнаруженных при археологических раскопках на энеолитическом памятнике Аликомектепе в Джалилабадском районе в 1971 году, а также погребальный обычай, наблюдаемый при археологических раскопках в первых курганах бронзового века в селе Тельман Астаринского района в 1965 году. Таким образом, было установлено, что все умершие были захоронены в Аликомектепе по одному и тому же обычаю захоронения, а в некоторых могилах перед лицом умершего находился только сосуд для воды в форме стакана. В курганах Тельман, наряду с усопшими, их личные вещи были помещены в могилы. Эти предметы включают керамические изделия, модель колеса телеги, плоский топор и т.д. Эти данные свидетельствуют о том, что серьезные изменения в погребальных обычаях уже произошли по всему Азербайджану, включая Юго-Восточный регион.

*Ключевые слова*: могила; керамика; церемония; курган; бронзовое копье; долото; чашка; кувшин; племя; потусторонний мир.

**FUAD HUSEYNOV**
*Researcher of Lankaran Regional Scientific Center of ANAS*

## CHALCOLITHIC AND EARLY BRONZE AGE BURIAL CUSTOMS IN THE SOUTHEAST REGION OF THE AZERBAIJAN REPUBLIC

Jalilabad district is located in the stone age burial mounds of the bronze age in the village of Astara region and buried during archaeological excavations carried out in the territory of the monument discovered in 1965 during excavations of burial was characterized by the usual archeological first observed in the usual observed in the article in 1971, Alikomektepe and Telman. So, all the same funeral of the deceased habitually defined only in the face of a bowl of water and some graves set before gabi was found dead buried Alikemektepe Burial mounds and in addition to set their own object Telmankand late. Pottery fragments of wagon wheels, axes, etc, we were flat

chisel, is a model of these things. These findings suggest that occurred in the first bronze age burial customs in the Southeastern region of the republic of Azerbaijan, including.

*Keywords*: The graves; Earthenware; The ceremony; The mound; Bronze spear; Chisel; The pitcher; Jugs; Tribes; The afterlife.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 dekabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Sənan Həsənov, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 902**

**MAYİS CƏFƏROV**
*AMEA -nın Lənkəran Regional Elmi Mərkəzinin*
*aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*
**mayis1968@mail.ru**

# AZƏRBAYCANIN CƏNUB-ŞƏRQ REGİONUNDA AŞKARLANMIŞ XIII-XIV ƏSRLƏRƏ AİD SİKKƏ DƏFİNƏLƏRİ

*Məqalədə Cənub-Şərq regionunda tapılmış XIII-XIV əsrlərə aid sikkə dəfinələri ilk dəfə tədqiq edilərək elmi dövriyyəyə cəlb olunmuşdur. Dəfinənin XIII-XIV əsrlərdə mövcud olmuş Dərbəndlə Sultaniyyəni birləşdirən iri ticarət karvan yolunu kəsən Lənkəran çayının kənarında tapılması da təsadüfi deyildir. Belə ki, çayın yatağında tapılmış qeyd olunan dövrə aid saxsı parçaları, gəmi lövbəri sübut edir ki, daxili və xarici ticarətdə adı çəkilən çaydan gəmiçilik üçün istifadə edilmişdir. Tapılmış dəfinələr bəhs olunan dövrdə regionun əmtəə-pul münasibətlərinin öyrənilməsində qaynaq rolunu oynayır.*

*Açar sözlər*: Numizmatika, dəfinə, sikkə, zərbxana, seqment, təqlid, nominal, avers, revers.

*Giriş*. Müxtəlif dövrlərdə Azərbaycan ərazisində aşkarlanan XIII-XIV əsrlərə aid numizmatik tapıntılar Azərbaycanın sosial-iqtisadi tarixinin, o cümlədən pul təsərrüfatının araşdırılmasında önəmli rol oynayır.

Məqalədə təqdim edilən Lənkəran rayonunun Sütəmurdov, Burcəli və Masallı rayonunun Mahmudavar dəfinələri yalnız cənub-şərq regionunun numizmatik materialları kimi deyil, həm də milli numizmatikamızın tədqiqində əhəmiyyətli rol oynayır.

AMEA-nın müxbir üzvü, Azərbaycan sikkəçiliyinin patriarxı, Yevgeni Paxomov (1885 - 1965) ötən əsrdə Lənkəran rayonundan 12 km cənubda yerləşən Bürcəli kəndində (1992-ci ilə qədər Alekseyevka adlanıb) yerli sakinlərin təsərrüfat işləri zamanı saxsı küp aşkarladığı qeyd etmişdir. Araşdırılmalara əsasən, 1902-ci ildə aşkarlanan və ümumi çəkisi 1 kiloqramdan ibarət küpdəsikkə dəfinəsinin olduğu müəyyən edilmişdir [7, s.36].

Bu dəfinədəki sikkələrdən bəzilərinin üzü kağız üzərinə köçürülmüş və numizmat-alim Yevgeni Paxomov məhz bu rəsmlərə istinadən təyinat vermişdir.

Elxanilərin (müasir tədqiqatlarda - Hülakülər – 1256-1357) yeddinci sultanı Qazan xanın (1294 - 1303) və səkkizinci hökmdarı - Ulcaytunun (1303 - 1316) hakimiyyət illərində Təbriz, Marağa, Ərzincan və digər şəhərlərdə (dəqiq qeyd edilməyib) zərb edilmiş gümüş sikkələrdən ibarət bu dəfinə təəssüf ki, dağıdılmış və tarixi fakt olaraq günümüzədək qorunmamışdır.

Qazan xan Mahmudun hakimiyyəti dövrü bir sıra siyasi və iqtisadi islahatlarla yadda qalmışdır. Dini adı "Mahmud" (həmd edən) olan bu hökmdarın 1295 – 1304-cü illərdə sikkə islahatı nəticəsində ölkədə pul təsərrüfatı sabitləşmiş, iqtisadiyyatda yüksəlişə nail olunmuşdur [10, s. 224].Qazan xanın adından zərb olunan sikkələr 2 dövrə bölmək olar:

- islahata qədərki dövr;
- islahatdan sonrakı dövr.

Qazan xan dünyasını dəyişəndən sonra onun vəsiyyətinə əsasən qardaşı – Ulcaytu Məhəmməd (1304 - 1316) hakimiyyətə gəlir. Bu sultanın dini adı - "Muhəmməd Xudabəndə" (Yaradanın bəndəsi Muhəmməd) olmuşdur [5].

Cənub-şərq bölgəsində aşkarlanan numizmatik materiallara əsasən, Muhəmməd Xudabəndənin hakimiyyəti dövründə iqtisadi islahatdan əvvəl Təbrizdən əlavə Mardin, Astarabad, Tus, Bağdad, Cəzirə, Curcan, Kabucamə, Nişapur və d. zərbxanalarda (orta çəki - 2,5 q) gümüş dirhəmlər, yarım dirhəmlər (1,08 q) və ikili dirhəmlər (4,32 q) zərb edilmişdir. Müxtəlif tipli adı çəkilən sikkələrin səciyyəvi cəhətləri aşağıda verilmişdir.

Üz tərəfdə ərəb dilində uyğur əlifbasının elementləti ilə: "Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın rəsuludur" sözləri,əks tərəfdə: seqmentlərdə əs-soltane əl-əzəm... / Böyük sultan... hakimiyyəti daimi olsun / Xəllədəlləhu mülkəhu....

Elxanilər dövründə Azərbaycanda Təbriz, Bərdə, Gülüstan (Şamaxı yaxınlığında qala), Varran (İsfəhan yaxınlığında), Gəncə, Marağa, Qarabağ (ərazi adı), Urmiya, Naxçıvan, Tovuz, Əlincə, Sarayi-Mansuriyyə (Muğan düzündə), Səlmas (Urmiya gölündən şimali-qərbdə), Beyləqan, Qazaniyyə (Arquniyyə də adlandırılır, Təbriz yaxınlığında məntəqə), Əcnan (Naxçıvanda mis mədənləri ilə zəngin məkan), Şəhristani-Raşidi (Təbriz şəhərindən cənub-qərbdə) və d. zərbxanalar fəaliyyət göstərmişdir.

Araşdırmağa cəlb etdiyimiz Elxani sikkələrindən Yaxın və Orta Şərq, hətta Avropa ilə ticarət əməliyyatlarında istifadə edilmiş, çoxsaylı italiyalı tacirlərin Təbrizə gəldiyi, Hindistanla iqtisadi-mədəni əlaqələrin olması tədqiqatlarla təsdiqlənmişdir.

Çingizxan nəvələrinin təsis etdiyi Elxanlı və Qızıl Orda dövlətlərinin islamlaşması və türkləşməsi monqol istilasının müsbət tərəflərindəndir.

Bürcəli dəfinəsindən əlavə Elxanilərin sikkələri həm də Bakı, Füzuli, Ağdam, Beyləqan, Gəncə, Naxçıvan MR-da və d. məkanlarda aşkarlanmışdır. Azərbaycan ərazisində aşkara çıxarılmış və elmi dövriyyəyə daxil edilmiş numizmatik materiallar Azərbaycan tarixinin öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir. Onlar hər hansı bir bölgənin iqtisadi inkişafı, siyasi tarixinin bəzi hadisələri və mədəni səviyyəsi haqqında mühakimə yürütməyə imkan verir.

2004 - cü ilin martında Masallı rayonunun Mahmudavar kəndinin "Səğombə məhəllə"sində torpaq işləri zamanı saxsı qabın içərisində gümüş sikkələrdən ibarət dəfinə aşkar edilmişdir. Əldənələ keçən sikkələrdən biri Masallı şəhər sakini Məmmədov Ülvi Əziz oğlu tərəfindən bizə göstərilmişdir. Dəfinənin tərkibi, tapıldığı şəraiti və qalan 17 sikkəylə tanışlıqdan sonra onun aşağıdakı elmi təyinatı müəyyən olunmuşdur.

1. Şeyx Uveys (1356-1374 h.t.ilə 757-776)[1] [5, 215]. Gümüş dirhəm. Zərb olunan şəhərin adı pozulmuşdur. X60 hi = 1358/59, çəkisi = 2,05q. Üz tərəfdə: Əs-soltane adil Şeyx Uveys…X60[2]. Əks tərəfdə: Lə iləhə İlləllahu Muhəmmədun rəsulullahi[3]. Əbubəkr, Ömər, Osman, Əli.

2-14. Şeyx Uveys (1356 -1374 h.t.ilə 757-776). Gümüş dirhəm. Zərb olunan şəhərin adı pozulmuşdur. X60 hi = 1358/59 çəkisi= 2,15q. Üz tərəfdə: Əs - soltane adil Şeyx Uveys…X60. Əks tərəfdə: Lə iləhə İlləllahu Muhəmmədun rəsulullahi. Əbubəkr, Ömər, Osman, Əli.

15. Şeyx Uveys (1356 -1974). Gümüş: İkili dirhəm. Təbriz. 762 h.i.=1360/61, çəkisi 2,15q. Üz tərəfdə: mərkəzdə üç xətli dairənin içərisində əs-soltan Şeyx Uveys. Təbriz. Bahadur xan. Xəllədəllahu mülkəhu[4] 762.

Əks tərəfdə üçxətli dairənin mərkəzində: Lə iləhə İlləllahu Muhəmmədun rəsulullahi, ətrafında: Əbubəkr, Ömər, Osman, Əli.

16. Şeyx Uveys (1356-1374). Gümüş dirhəm. Arran (zərb ili pozulub). çəkisi=2,13. Üz tərəfdə: mərkəzdə iki xətli dairənin içərisində Əs soltan…..adil Bahadur xan, zərbe be-Arran[5], Xəllədəllahu mülkəhu.

17. Şeyx Uveys (1356-1374). Gümüş, ikili dirhəm. Bağdad. 762 h.i. =1360/61, çəkisi = 8,40q. Üz tərəfdə: Əs-soltane-əzəm Bahadur xan. Xəllədəllahu mülkəhu. Aşağıda: zərbe Bağdad 762 Əks tərəfdə: Lə iləhə İlləllahu Muhəmmədun rəsulullahi ətrafında: Əbubəkr, Ömər, Osman, Əli.

Qeyd olunmalıdır ki, Şeyx Həsən Cəlairinin 1340, 1641 və 1344-cü illərdə Azərbaycanı ələ keçirmək cəhdləri uğursuzluqla nəticələnmişdi. 1356-cı ildə Şeyx Həsən Cəlairinin ölümündən sonra Şeyx Uveys də atası kimi Azərbaycana olan iddialarından əl çəkmədi. Belə ki, o, 1359-cu ildə Qızıl Orda xanı Canı bəyin Azərbaycana geri qayıtmasından, Əxicunun başçılığı ilə çobani əmirlərinin və

[1] *Hicri tarixi ilə - 757-776.*
[2] *Ədalətli Sultan Şeyx Üveys.*
[3] *Allahdan başqa Allah yoxdur, Məhəmməd onun rəsuludur.*
[4] *Allah onun mülkünü daimi etsin.*
[5] *Arran Zərbi.*

başqa feodalların hakimiyyət uğrunda apardıqları ara müharibələrdən [3, 33] yararlanaraq, 760-cı ildə (1358/59) Təbrizi tutur və şəhəri Cəlairilər dövlətinin paytaxtı elan edir. Hicri tarixi ilə 757-ci ildən (1356) başlayaraq [9, 77] Cəlairilərə xidmət edən, hicri tarixi ilə 759-cu ildən adsız sikkələr zərb edən [4, 336] Təbriz zərbxanası, 15-ci numizmatik faktdan göründüyü kimi, yenidən cəlairilərin adına sikkələr kəsməyə başlayır.

Şeyx Uveysin adına kəsilmiş sikkənin təyinatında təsvir edilən 1-ci sikkənin üzərində zərb olunma tarixinin "X60" ikinci və üçüncü rəqəmləri aydın oxunur. Əgər biz ikinci Cəlairi hökmdarının hicri tarixi ilə 757-776-ci (1356-1374) illərdə hakimiyyətdə olduğunu nəzərə alsaq, belə bir nəticəyə gələrik ki, sikkə üzərində pozulmuş birinci rəqəm "7" rəqəmidir. Deməк, 1-ci sikkə h.t. ilə 760 -cı (m.t. ilə 1358/59)[6], 15-17-ci sikkələr isə h.t. ilə 762-ci illərdə (1360/69) zərb edilmişdir. Yuxarıda verilən tarixlər həm Mahmudavar dəfinəsinin xronoloжi sərhədlərini, həm də Cəlairilər hakimiyyətinin Azərbaycanda möhkəmləndiyi illəri əks etdirir.

2004-cü ilin 5 sentyabrında Lənkəran rayonunun Sütəmurdov kənd sakini Əskərov Hasil Əlipaşa oğlu həyətyanı sahəsində qazıntı apararkən, 80 sm dərinlikdə saxsı qabda gümüş sikkələr aşkar edir. Üstündən bir müddət keçəndən sonra həmən sikkələrdən 8-nə baxış keçirilir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, sikkələrin 8-i də Cəlairi hökmdarı Sultan Hüseynin (h.t. ilə 776-784; 1374-1382) [5, 215] adına kəsilmişdir.

1.Hüseyn (1374-1382). Gümüş dirhəm. Astara. 78X h.i.=137X. Çəkisi=1,4q. Üz tərəfdə: Lə iləhə İlləllahu Muhəmmədun rəsulullahi Əbubəkr, Ömər, Osman, Əli. Əks tərəfdə: seqmentlərdə[7] Əs-sultanul əzəmu[8] Hüseyn Bahadur xan, mərkəzdə: Xəllədəlləhu mülkəhu 87X.

2.Hüseyn (1374-1382). Gümüş dirhəm. Astara. Hicri tarixi ilə XX3. Çəkisi=1,5q. (birinci 2 rəqəm pozulmuşdur.) Üz tərəfdə: Lə iləhə İlləllahu Muhəmmədun rəsulullahi Allah. Əbukəbr, Ömər, Osman, Əli. Əks tərəfdə: seqmentlərdə Əs-sultanul əzəmu Hüseyn Bahadur xan, mərkəzdə: Xəllədəlləhu mülkəhu XX3.

3-5.Hüseyn (1374-1382). Gümüş dirhəm. Astara. (Zərb olunma tarixi pozulmuşdur). Çəkisi=1,6q. Üz tərəfdə: Lə iləhə İlləllahu Muhəmmədun rəsulullahi Əbukəbr, (Ömər, Osman, Əli) - (üç Rəşidi xəlifələrinin adları pozulmuşdur) Əks tərəfdə: seqmentlərdə Əs-sultanul əzəmu Hüseyn Bahadur xan, mərkəzdə: Xəllədəlləhu mülkəhu.

6-8.Hüseyn (1374-1382). Gümüş dirhəm. (Zərb olunan şəhərin adı və tarixi pozulmuşdur). Çəkisi=1,7q. Üz tərəfdə: Lə iləhə İlləllahu Muhəmmədun rəsulullahi. Əbukəbr, Ömər, Osman, Əli. Əks tərəfdə: seqementlərdə Əs-sultanul əzəmu Hüseyn Bahadur xan, mərkəzdə: Xəllədəlləhu mülkəhu.

Biz yuxarıda qeyd olunmuş 8 sikkənin zərb olunma və yerə gömüldüyü ili araşdırsaq görərik ki, birinci sikkənin yalnız zərb olunma tarixinin üçüncü rəqəmi (Sultan Hüseynin sikkələrinin 1 təyinatı) pozulmuşdur. Əgər biz nəzərə alsaq ki, üçüncü cəlairi hökmdarı I Hüseynin hakimiyyət illəri hicri tarixi ilə 776-784-cü illəri əhatə edir, onda görərik ki, qeyd olunan sikkə 780-784-ci illərdə Astarada zərb olunmuşdur. İkinci sikkənin üzərində zərb olunma tarixinin üçüncü rəqəminin olması "XX3" (Sultan Hüseynin sikkələrinin 2 təyinatı) bir daha təsdiqləyir ki, dəfinə hicri tarixi ilə 783-cü ildən gec, 784-cü ildən isə tez olmayaraq yerə gömülmüşdür.

Araşdırılan Sütəmurdov dəfinəsinin 1-3-4-5-ci sikkələri Astara və Mahmudavar dəfinəsinin 15-16-17-ci sikkələri Təbriz, Arran, Bağdad zərbxanalarını təmsil edirlər. Numizmatik ədəbiyyatda [8, 48] dəfələrlə qeyd olunduğu kimi iqtisadi və siyasi durumun inkişaf etdiyi vaxtlarda kəsilən sikkələr, dövlətin zəiflədiyi, tənəzzülə uğradığı dövrlərdə kəsilən sikkələrdən öz çəkisi ölçüsü, əyarı və s. baxımdan fərqlənirlər. Hər iki dəfinənin tərkibi mənsub olduqları dövrün sosial-iqtisadi həyatını əks etdirirlər. Bu baxımdan Markovun araşdırmaları daha maraqlıdır. Belə ki, Ənuşirəvanın 1,28 qrama qədər azaldılmış dirhəmi Həsən Buzurq tərəfindən cəlairilərin sikkə sisteminin əsası kimi qəbul edilmişdir. Sonralar sikkələrin aşağı çəkisi Şeyx Uveyirin hakimiyyəti illərində 1,05 qram, sultan

---

[6] *Miladi təqvimi ilə - 1358/59.*
[7] *Şəbəkələrdə.*
[8] *Böyük Sultan.*

Hüseynin hakimiyyəti illərində isə 0,85 qrama qədər aşağı düşmüşdür. Şeyx Əhmədin hakimiyyət illərində dirhəmin çəkisi yenidən 1,05 qrama qədər yuxarı qalxmışdır [6,129-130]. Bu çəki sisteminin bütövlükdə Mahmudavar və Sütəmurdov dəfinələrinin sikkələri kəsilən zərbxanalarda (Təbriz, Arran, Bağdad, Astara) tətbiq edilməsi haqqında mülahizə yürütmək çətindir. Çünki bizə gəlib çatan cəlairilərin pul təsərrüfatı tarixini özündə yaşadan numizmatik materiallar problemin həlli üçün azlıq təşkil edir.

Mahmudavar və Sütəmurdov dəfinələrinin numizmatik faktları təkcə mədəniyyət, incəsənət, metalisləmə, metal emalı, sənətkarlıq, texniki tərəqqi abidələri deyil, həm də siyasi amil kimi əhəmiyyətlidir. Belə ki, bəhs olunan dövrdə Azərbaycan vilayətlərinin sərhədləri, bu gün ermənilər tərəfindən təkzib edilərək torpaqlarımıza qarşı əsassız iddialar irəli sürürlər. Onlar Arran ərazisinin ermənilərə məxsus olduğunu və bəzən də Ermənistanın Şərq şərhədlərinin Xəzər dənizinə kimi uzandığını vuğrulayırlar. Lakin, Mahmudavar dəfinəsinin yuxarıda verilən 16-cı sikkəsi, orta əsr müəlliflərinin "Nəşava-Azərbaycanda və bəzilərinin dediyi kimi Arranda şəhərdir... Arran və Muğan əyalətlərinin iqlimi isti və rütubətlidir. Onlar Ermənistan, Azərbaycan və Xəzər dənizi ilə sərhədlənirlər” [1, 65] (kimi məlumatları ermənilərin tarixi saxtalaşdırmağa cəhd etdiklərini üzə çıxardır.

Cəlairilərin adından Bağdad, Mosul, Sultaniyyə, Ala-Kir, Bazar, Qaraağac, Xoy, Xabusan, Quştəsfi, Sərab, Marağa, Həmədan, İrbil, Van, Qəzvin, Ərdəbil, Ani, Hilə, Bəsrə, Şiraz, İdadc, Savə, Tusan, Vəstan, Şərur, Naxçıvan, Astara, Bərdə, Gəncə, Arran, Tiflis [9, 88; 103] zərbxanalarında müxtəlif ölçüdə və vəzndə sikkələr zərb olunmuşdur. Zərbxana-şəhərlərindən göründüyü kimi Cəlairilərin hakimiyyəti illərində Azərbaycan vilayəti, Monqolların dövründəki hüdudlarında qalaraq əsaslı dəyişikliyə uğramamışdır.

XIII-XIV əsrlərə aid sikkə dəfinələri A.Markovun, E.A.Paxomovun, Ə.M.Rəcəblinin, V.Şpulerin, M.A.Seyfəddininin, S.Bəyaninin, Q.Pirquliyevanın əsərlərində də araşdırılmışdır.

XIII-XIV əsrlərin sikkə tapıntılarının topoqrafiyasının tədqiqində Ə.M.Rəcəblinin əməyi xüsusi ilə diqqətəlayiqdir. Belə ki, o Azərbaycan Respublikasının ərazisində XIII-XIV əsrlərə aid edilən sikkələrin tapıldığı yerlərin xəritəsini tərtib edərkən Cəlairilər dövlətinin sikkələrinin 15 məntəqədə aşkarlandığını qeyd etmişdir. Həmin xəritəyə görə [8, 192] Sütəmurdov kəndində tapılmış Cəlairilər dövlətinin sikkələri, Lənkəran ərazisində adı çəkilən dövlətə aid edilən və qeydə alınan ilk dəfinədir. Sütəmurdov dəfinəsinin əhəmiyyətindən danışarkən qeyd etmək lazımdır ki, dəfinə XIII-XIV əsrlərdə mövcud olmuş Dərbənd-Şabran-Şamaxı-Mahmudabad-Varsan-Ərdəbil-Xalxal-Zəncan-Sultaniyyəni birləşdirən iri ticarət karvan yolunu [2, 96] kəsən Lənkəran çayından bir qədər kənarda aşkar edilmişdir. Çayın yatağında tapılmış qeyd olunan dövrə aid saxsı parçaları, gəmi lövbəri bu mülahizəni bir daha sübüt edir. Bu da onu göstərir ki, daxili və xarici ticarətdə adı çəkilən çaydan gəmiçilik üçün istifadə olunmuşdur. Bu keyfiyyət bir tərəfdən ucqar rayonların əmtəə-pul münasibətlərindən kənarda qalmadığına dəlalət edir. Digər tərəfdən cəlairi sikkələrinin ölkədə həm dövriyyə vasitəsi, həm də yığım və tədavül vasitəsi rolunu oynadığını göstərir.

*Nəticə*. Lənkəran rayonunun Sütəmurdov, Burcəli və Masallı rayonunun Mahmudavar dəfinələri XIII əsrin sonu – XIV əsrin əvvəllərində Azərbaycanın pul təsərrüfatında istifadə edilən gümüş sikkələr barədə təsəvvür yaratmaqla yanaşı, müvafiq dövrün ticarət əlaqələri haqqında məlumat verən dəyərli faktlardır.

Məhz müvafiq dövrün numizmatik tapıntılarına əsasən, Elxanilər imperiyasının gündəlik ticarətində əsasən - gümüş dirhəmlərdən (bəzən dinar kimi qeyd edilir), beynəlxalq ticarət əməliyyatlarında qızıl dinarlardan, xırda ticarətdə isə mis felslərdən istifadə edilmişdir.

Lənkəran rayonunun Sütəmurdov, Burcəli və Masallı rayonunun Mahmudavar dəfinələrinin tarixi - topoqrafik icmalları, dövrün dövlətçilik ənənələrini, ticarət yollarının öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Bir sıra milli numizmatik tapıntılarımızın qanundan kənar yollarla digər ölkələrə ötürülməsi halları müasir dövrümüzün acınacaqlı problemidir. Belə tapıntıların xarici muzeylərdə qorunması və nümayiş edilməsi təbliğat baxımından önəmli olsa da (yanlış izahlar da istisna deyil), gənc nəslə bu tapıntıları muzeylərə təhvil vermək və müasir qanunları izah etmək hər bir vətəndaşın borcudur.

ƏDƏBİYYAT


1. Piriyev V.Z., Azərbaycanın tarixi coğrafiyası. Bakı: Araz, 2002, 158 s.
2. Piriyev V.Z., Azərbaycan XIII-XIV əsrlərdə . Bakı: Azərbaycan, 2003, 458 s.
3. Qəzvini Zeynəddin Bin Həhdullah, Zeyl-e tarix-e qozide (farscadan tərcumə M.Kazımov və V. Piriyevdir), Bakı:Elm, 1990, 211 s.

*Rus dilində*

4. Ализаде А.А., Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку: Изд. Академии Наук Аз.ССР, 1956, 420 с.
5. Босворт К.Э., Мусульманские династии. Справочник по хронологи и генеологии. М.: Наука, 1971, 324 с.
6. Марков А.К., Каталог Джелаиридских монет. Спб, 1897, 640 с.
7. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку, 1938.
8. Раджабли А.М., Нумизматика Азербайджана. Баку: Элм ва хаят, 1997, 232 с.
9. Сейфеддини М. Монетное дело и денежное обращение в Азербайджане XII-XV вв. Баку: Элм, 1978, 265 с.
10. Сейфеддини М. Краткий обзор денежной реформы Газан-хана. Характеристика и описание монет Газан-хана и Ольджайту-султана // Монетное дело и денежное обращение в Азербайджане. Баку, Элм, 1978, с.224-240.



**МАЙИС ДЖАФАРОВ**

*Доктор философии по истории,*

*Ведущий научный сотрудник Ленкоранского регионального научного центра НАНА*


## МОНЕТНЫЕ КЛАДЫ XIII-XIVВЕКОВНАЙДЕННЫЕ НА ЮГО-ВОСТОЧНОМ РЕГИОНЕАЗЕРБАЙДЖАНА


В статье исследуются монетные клады XIII-XIVвеков, найденные в Юго-Восточном регионе Азербайджана. Обнаруженные клады на побережье Ленкоранчая, находившегося на торговом пути между Дербентом и Султанийя в XIII-XIV веках, неслучайно. Найденные на дельте реки глиняные останки и якорь корабля доказывают тот факт, что для внутренней и внешней торговли было использовано речное судоходство. Найденные клады является источником в изучении товарно-денежных отношений XIII-XIVвеков Юго-Восточного региона Азербайджана.



*Ключевые слова*: нумизматика, клад, монета, монетный двор, сегмент, имитация, номинал, аверс, реверс.



**MAYIS JAFAROV**

*PhD on History,*

*Leading researcher of Lankaran Regional Scientific Center of ANAS*


## COIN TREASURE FOUND IN SOUTH EASTERN REGION OF AZERBAIJAN IN XIII-XIV CENTURIES


Coin treasures belonging to the Jalair State found in the South Eastern region having been investigated in this article were drawn into scientific circulation. Treasure of 17 silver coins found in the village Mahmudavar in Masalli are referred to the second Jalairi ruler Sheikh Uveys. Chronological borders of Mahmudavar treasures are related to 760-762. In that period Azerbaijan was entirely included to the Jalairlar State. The territory of the state surrounds Iraqi-Arab, Iraqi-Ajam, Georgia and Armenia provinces. Coins in the treasure found in the village Sutamurdov in

Lankaran are minted in the name of Sultan Huseiyn, the ruler of Jalairi. The investigated treasure found in Lankaran is the first treasure that belongs to the Jalairlar State. The investigation of the both treasures plays the role of source in the learning of money economy and commodity-money relations of the Jalairlar State.

*Keywords*: Numismatics, treasure, coin, mint, segment, imitation, nominal, obverse, reverse.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 dekabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Sənan Həsənov, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 39**

**XATİRƏ AĞAYEVA**
*Tarix üzrə fəlsəfə doktoru,*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
**Kloudi-13@mail.ru**

# QƏRBİ AZƏRBAYCANLILARIN SPESİFİK AİLƏ MƏİŞƏT MƏSƏLƏLƏRİ

*Məqalədə Qərbi Azərbaycan əhalisinin ailə-məişət məsələlərinin mahiyyəti, onun spesifik terminologiyası kimi məsələlərə toxunulmuşdur. Qərbi Azərbaycanlıların ən qədim dövrlərdən başlayaraq günümüzə qədər əldə etdiyi mənəvi dəyərlər geniş araşdırılmışdır. Müəllif məqaləni yazarkən dövrün tədqiqata cəlb edilməyən əsərlərindən bəhrələnmiş, ailə-məişət məsələlərinin spesifik tərəflərini sistemli şəkildə izah etmişdir.*

*Açar sözlər*: Qərbi Azərbaycan, mənəvi dəyərlər, ailə, böyüklərə hörmət.

*Giriş*. XX-XXI əsrlər mədəniyyətlərin mübarizəsi əsri kimi özünü göstərdiyinə görə, Azərbaycan xalqının mənəvi mədəniyyətinin öyrənilməsi və təbliği, eyni zamanda gələcək nəslə çatdırılması qarşıya əsas məqsəd kimi qoyulmalıdır. Son 30 ildə isə Ermənistanın işğalçı siyasəti nəticəsində Qərbi Azərbaycan, Qarabağ və ona bitişik ərazilərdəki tarixi torpaqlarımızın, doğma bölgələrimizin bir çox qeyri-maddi və maddi sərvətləri talana uğramış, dəyərlərimiz aşınmaya məruz qalmış, qaçqın və məcburi köçkün soydaşlarımız doğma diyarlarından qovulub çıxarılmış, bütün bunların sonucunda ailə dəyərlərimiz – ağsaqqallıq və ağbirçəklik institutumuz zəifləmiş, deformasiyaya məruz qalmışdır.

Qərbi Azərbaycan əhalisi tarixinin öyrənilməsi həm elmi-dərki, həm də praktik baxımdan vacibdir. 44 günlük müharibə nəticəsində işğal altında qalan Azərbaycan torpaqları işğaldan azad oldu və bu tarixi qələbə Qərbi Azərbaycanlıların tarixi, mədəniyyəti, ailə-məişət kimi məsələlərini aktuallaşdırdı.

Tarixən Azərbaycanın qərbində, Qarabağ ərazilərində yaşayan azərbaycanlılar ermənilər tərəfindən saysız-hesabsız soyqırımınlara, amansız deportasiyalara məruz qalmışlar. Hələ Zəngəzur qəzasında 10 mindən çox, Şamaxı qəzasında 10 min 270 nəfər, şəhərlə birlikdə isə 18 min 270 nəfər azərbaycanlı amansızlıqla öldürülmüşdür. 1918-1920-ci illərdə indiki Ermənistan Respublikasının ərazisində yaşamış 575 min azərbaycanlının 565 min nəfəri öldürülmüş və yaxud doğma torpağından didərgin düşmüşdür. Bu rəqəmi Z.Korkodyan özünün "Sovet Ermənistanının əhalisi 1831-1931" kitabında təsdiq edərək yazır: "1920-ci ildə sovet hökumətinə daşnaklardan cəmi 10 min nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdır. 1922-ci ildə 60 min qaçqın geri qayıtdıqdan sonra azərbaycanlılar burada 72 min 596 nəfər, 1931-ci ildə isə 105 min 838 nəfər olmuşdur".

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan da özünün zəngin milli, əxlaqi və mənəvi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr verərək özünəbənzər adət və ənənələri, yüksək mənəvyyatı ilə diqqəti cəlb edib. Min illər boyu formalaşan və Azərbaycan xalqının yüksək mənəvi dəyərlərə malik olduğunu göstərən təkraredilməz adət və ənənələr millətimizin keçmişi ilə bu günü və gələcəyi arasında sarsılmaz bir mənəvi körpü rolunu oynamaqdadır. Təsadüfi deyil ki, adət və ənənələrin hər bir millətin həyatında oynadığı əvəzsiz rolunun yüksək qiymətləndirən Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev: "Milli adət və ənənələr hər bir xalqın milli mədəniyyətinin zənginliyindən, qədim tarixi kökə malik olmasından xəbər verir", -deyib [2, s. 36].

Müasir dünyanın, çağdaş həyatın bütün sahələrinin elektronlaşdığı, qloballaşdığı, internetləşdiyi bir vaxtda xalqımızın yeni nəsil nümayəndələri, eləcə də başqa ölkələrdə yaşayan və yad mədəniyyətlərin daşıyıcılarına çevrilən soydaşlarımız arasında Azərbaycan milli-mənəvi yaşam düşüncəsində etnik kimliyimizin bir hissəsinə çevrilən ailə mədəniyyətimizin ayrılmaz tərkib hissəsi hesab edilən ağsaqqallıq-ağbirçəklik dəyərlərinin dirçəldilməsi zəmanəmizin əsas milli-mental məsələlərindən biridir. Tarixi Azərbaycan coğrafiyasının zaman-zaman qonşu dövlətlər tərəfindən parçalanıb işğal altına alınması və bu dövlətlərin tərkibində milli-mənəvi assimilyasiyaya məruz qalması probleminin həssaslığını şərtləndirən amillərdəndir. Xüsusilə xalqımızın böyük bir kəsiminin – Qərbi Azər-

baycan türklərinin uzun illər Azərbaycan Respublikasından kənarda – tarixi düşmənimiz olan ermənilərin siyasi və sosial basqısı altında yaşaması və 1988-1991-ci illərdə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində minillər boyu yaşadıqları ata-baba yurdlarından vəhşicəsinə deportasiyası və Qarabağ münaqişəsi nəticəsində insanlarımızın Qarabağdakı doğma yurdlarından qovulub çıxarılması xalqımızın ailə dəyərlərinə sarsıdıcı zərbə vurmuşdur.

Xalqımız hər zaman öz böyüklərinə, yaşlı insanlara hörmət göstərib, qadına – anaya, bacıya, xala-bibiyə, gəlinə, qaynanaya dəyər verib, bir sözlə, yol bö- yüyündür deyiblər. Cəmiyyətimizdə yaşlı insanların həyat təcrübəsini bu dəyər konsepti çərçivəsində araşdırmağa xüsusi ehtiyac vardır [4, s.24].

Azərbaycan cəmiyyəti də müasir dünyanın bir parçasıdır, Qərb və Şərq mədəniyyətlərinin ən dəyərli cəhətlərini özündə birləşdirir. Dünyayla mədəni inteqrasiyamızın güclənməsi, informasiya texnologiyalarının sürətli inkişafı planetdə yaşayan xalqları bütövləşməyə və vahid dəyərlər sisteminə doğru aparır. Belə bir şəraitdə ənənəvi mədəniyyətin qorunması, milli-mənəvi dəyərlərin yaşadılması üçün səylərin səfərbər edilməsi daha aktualdır. Ona görə də ilk növbədə cəmiyyətdə mövcud olan dəyərlərin günümüzdəki vəziyyəti öyrənilməlidir.

Təbii ki, bütün dövrlərdə mütərəqqi adət və ənənələrin yaradıcısı, eyni zamanda onu qoruyub zənginləşdirən və gələcək nəsillərə çatdıran xalqdır. Bayram adət-ənənələri, toy, yas mərasimləri, islam dininin bəşəri hissləri təbliğ edən dəyərləri xalqımızın milli-mənəvi simasının aynası hesab edilir. Bu müstəvidə də zəngin adət-ənənələrimizi özündə cəmləşdirən milli mənəvi dəyərlər sistemində Novruz bayramı özünəməxsus yer tutur. Novruz süfrəsi adət və ənənələrimizin zənginliyini göstərir. Belə ki, çərşənbələrdə, istərsə də Novruz axşamında süfrədə milli xörəklərimiz, ən başlıcası isə plov olmalıdır. Şəkərbura, paxlava, şəkər çörəyi və digər şirniyyatlar, kişmiş, püstə, badam, boyanmış yumurtalar süfrələrimizi bəzəyir. Çərşənbələrdə olduğu kimi, Novruz axşamında da tonqal qalanır, evlərdə ailə üzvlərinin hər birinin adına şam yandırılır. Bu bayramda kimsəsizlərə, ehtiyacı olanlara, ahıl insanlara baş çəkmək, onlara bayram sovqatı vermək savab hesab edilir.

Azərbaycanda toy şənlikləri də qədim və zəngin xalq adət-ənənələrinə söykənir. Elçi getmə, nişan taxma və toy adətlərinin dərin kökləri vardır. Əgər qız və oğlan bir-birini bəyənib, talelərini nikah vasitəsilə birləşdirmək arzusundadırlarsa, onlar, ilk növbədə, valideynlərinin razılığını almalıdırlar.

Yas mərasimləri ilə bağlı da azərbaycanlıların bir maraqlı adət və ənənələri var. Qadınlar zinət əşyaları taxmır, qara paltar geyinir, qara yaylıq bağlayırlar. Kişilər üzlərini qırxmırlar. Bu günlər ərzində qohumlar bayram keçirməməli, toy etməməli, musiqi alətlərində çalmamalıdırlar. Yas günlərində mərhumun yaxınları özgə toylarına, şənliklərə və hətta təqdimat mərasimlərinə belə getmirlər [3, s. 56].

Ailə dəyərlərimizin mühum tərkib hissəsi kimi götürdüyümüz ağsaqqallıq-ağbirçəklik institutunun müəyyən tarixi mühitlə əlaqəsi problemləri də diqqətdə saxlanılmalıdır. Heç kəsə sirr deyil ki, Qarabağ köçkünlərinin coğrafi baxımdan bağlı olduğu Qarabağ bölgəsində yaşanan humanitar fəlakət mədəni institutlara, ailə dəyərlərinə və ictimai-sosial, mədəni-mənəvi dünyagörüşə təsirsiz ötməmişdir. O baxımdan, humanitar fəlakət şəraitində ailə dəyərlərinə – ağsaqqallıq və ağbirçəklik institutuna dəyən ictimai-mədəni zədələrin öyrənilməsi aktual problemlər sırasındadır [1, s.12]. Xüsusilə şəxsiyyət və onun aid olduğu doğma mühit, el-oba, qohum-əqrəba, camaat kimi sosial-mədəni aspektlər ailə institutunun strukturunu və funksiyasını öyrənmək, onun zədələnmiş elementlərini bərpa etmək, qorumaq və gələcəyə çatdırmaq yollarını müəyyənləşdirmək baxımından son dərəcə vacibdir. Həm bu gün yaşayan ağsaqqal və ağbirçəklərin ictimai fəaliyyətini öyrənmək, həm də keçmişdən gələn tarixi-mədəni təcrübəni təhlil edərək milli ailə institutunun mövcud vəziyyətini, problemlərini və perspektivlərini müəyyənləşdirmək ailə mər- kəzlərinin əsas prioritet sahələrindən olmalıdır.

Araşdırmalar zamanı milli ailə dəyərləri sisteminin əsas istiqamətini təşkil edən ağsaqqallıq-ağbirçəklik insti- tutu ilə yanaşı, yaşlı insanların problemlərinin, əsas qayğılarının öyrənilməsi də diqqət mərkəzində saxlanılmalıdır. Mənəvi dəyər daşıyıcıları olan insanların qorunması, onların gənclərlə ünsiyyətinin artırılması, vətənpərvərlik düşüncəsinin möhkəmləndirilməsi ağsaqqalların-

ağbirçəklərin yaşadaraq günümüzə daşıdıqları milli ailə-yaşam formatlarının rolunun aktivləşdirilməsi, ağsaqqalların cəmiyyətin bütün sferalarına inteqrasiya olunma imkanlarının araşdırılması istiqaməti də nəzərdən qaçırılmamalıdır.

Gənclərin böyüklərə, övladların valideynlərə münasibətində ağsaqqallıq institutunun mövcud vəziyyəti aydın görünür. Ağsaqqalın, ağbirçəyin ailədə, camaat arasında və cəmiyyətin daha geniş dairələrindəki mövqeyinin öyrənilməsi ilə ictimaiyyətimizi zənginləşdirən mənəvi resursları aktivləşdirmək və populyarlaşdırmaq mümkündür. Bunun üçün müxtəlif sosial qruplar arasında araşdırma aparılmalı və mövcud vəziyyət təhlil edilməlidir. Bir ailənin, bir nəslin, bir elin ağsaqqalı aid olduğu sosial çərçivədəki mənəvi mühit kontekstində götürülməli və ictimai-mənəvi baxımdan öyrənilməlidir.

Dünyada elə bir millət də tapmaq çox çətindir ki, ailə dəyərləri ilə yaşayan insanların həyatı bütövlükdə poeziya ilə əhatələnsin: azərbaycanlı doğulanda – bayatı ilə qarşılanır, evlənəndə nəğmələrlə təbrik edilir, həyatdan köçəndə də mərsiyələrlə – ağılarla yola salınır [6, s.34]. Azərbaycan milli bədii söz sənəti kimi, kökləri qədimlərə çıxan poeziyası da bu təsirlərə görə həm açıq, həm sinkretik, həm də qlobal kulturoloji hadisədir. Bunu biz miladdan əvvəlki Qobustan qayalarına həkk olunmuş ilkin qayaüstü poetik rəsmlərdə də, xalqın lirik geninə çevrilmiş 51 bayatılarda da, dini baxışlarının toplusu olan «Avesta»da da, ədəbi-bədii fikirlərin cəmi kimi qiymətləndirilən “Kitabi-Dədə Qorqud” eposunda da görürük, eyniliklə qədim türkcəmizdə, ərəbcə, farsca, çağdaş azərbaycanca, daha sonralar rusca, ingiliscə və başqa dillərdə yaradılan ədəbi-bədii nümunələrdə də müşahidə edirik [5, s.120]. Daha peşəkar baxışla nəzər salsaq, Qədim Şərq, türk, Azərbaycan, yunan, ərəb, İslam, Avropa, Qərb, Rusiya, keçmiş sovet, eləcə də dünyanın modern ədəbi-poetik texnologiyalarının tələblərinə cavab verən zəngin ədəbi irsin də biz araşdırıcılara yuxarıdakı kulturoloji mülahizəni yürütməyə imkan yaratdığını görərik. Müqayisəli-tarixi metodla Azərbaycan, deməli, həm də Şərq və Qərb – dünya ailə-məişət əlaqələrini tədqiqə cəlb edəndə görürük ki, bu kulturoloji hadisə çox mürəkkəb və ənənəviliyini qoruyub saxlamaqla, həm də istənilən zaman üçün moderndir – yenilikdir.

Vaxtilə xaricdən gətirilən, dövrümüzdə isə əsasən də internet, yeni media, sosial şəbəkələr və KİV vasitəsilə həyatımıza yeridilən basqıların qarşısını almaq xeyli çətindir. Bu istiqamətdə araşdırmalarımızı cəmiyyətə təqdim etməklə milli ailə dəyər sistemimizin, ağsaqqallıq-ağbirçəklik institutunun, fəlsəfəsinin zəifləməsinin qarşısını almaq, ailələrdəki münaqişələrin, boşanmaların, nəsillərarası mənəvi-psixoloji toqquşmaların qarşısını, qismən də olsa, almaq üçün ictimai-virtual aksiyaların həyata keçirilməsi dəstəklənməlidir. Eyni zamanda, bu istiqamətdə güclü maarifçilik işləri aparılmalı, sadalanan problemin həllinə yönəli bir çox məsələlər vaxtında ictimailəşdirilməlidir.

Bu araşdırmamıza ailə dəyərləri, ağsaqqallıq-ağbirçəklik institutu haqqında daha geniş təsəvvürləri, sosial təcrübələri olan yaşlı insanların, həm də onlar vasitəsilə öz mədəni davranışlarını daha da zənginləşdirməyə ehtiyacı olan gənclərin faydalanması üçün müəyyən mülahizələrimizi sistemləşdirməyə çalışdıq. Bütövlükdə araşdırmamız yaşlı nəslin malik olduğu mənəvi dəyərlərin gənc nəslə tam və mükəmməl şəkildə ötürülməsinə yardımçı olacağını nəzərdə tutduğumuz üçün geniş əhatə dairəsinə malikdir və ümummilli xarakterlidir: istərdik ki, bu tədqiqatlarımızdan Azərbaycan cəmiyyəti faydalansın.

*Nəticə.* Azərbaycan ərazisinin son dərəcə əlverişli iqlim şəraiti, zəngin flora və faunası, yerli əhalinin qədimliyi, təsərrüfat məişəti, çoxsahəli sənətkarlığı, maddi və mənəvi dünyası onun etnoqrafik baxımdan daha çeşidli və məzmunlu olmasına əsaslı zəmin yaratmışdır. O da həqiqətdir ki, xalq minilliklərdən başlayaraq Qafqaz, Yaxın Şərq və başqa ölkələrin xalqları ilə davamlı və arasıkəsilməyən sıx iqtisadi və mədəni əlaqədə olmuşdur. Yaranan bu qarşılıqlı təmasdan, qovuşuqluqdan çox şey əxz etmiş, faydalanmış və zənginləşmişdir. Xalqın etnoqrafiyası Qafqaz, bir qədər də geniş mənada, Yaxın və Orta Şərq xalqlarının etnoqrafiyasının ayrılmaz tərkib hissəsidir. Hər bir xalqın maddi mədəniyyəti yalnız onun özünəməxsus spesifik-lokal cəhətləri və fərdi xüsusiyyətləri ilə seçilir. Bu isə bir etnosa məxsus mədəniyyəti digər etnosun mədəniyyətindən əsaslı surətdə fərqləndirilir. Bu baxımdan Azərbaycan xalqının çoxəsrlik empirik təcrübə, bilik və vərdişlərə əsaslanan maddi mədəniyyət tarixi zəngin olub, özünün spesifikasını və milli xüsusiyyətlərini maddi mədəniyyətin bütün sahələrində bariz şəkildə nümayiş etdirir.

ƏDƏBİYYAT

1. Azərbaycan etnoqrafiyası. I cild. Bakı, "Şərq-Qərb", 2007, 543 s.
2. Azərbaycan etnoqrafiyası. II cild. Bakı. "Şərq-Qərb", 2007, 384 s.
3. Azərbaycan etnoqrafiyası. III cild. Bakı. "Şərq-Qərb", 2007, 568 s.
4. Cəmilə Çiçək (İsbəndiyarova). Klassik ənənə və XX əsr Azərbaycan məhəbbət dastanları. Bakı, Elm və Təhsil, 2018, 146 s.
5. Kitabi-Dədə Qorqud ensiklopediyası, I cild. Bakı, "Yeni nəşrlər evi", 2000, 622 s.
6. Kitabi-Dədə Qorqud ensiklopediyası, II cild. Bakı, "Yeni nəşrlər evi", 2000, 567s.
7. Nərgiz Quliyeva. Etnoqrafiya və etnologiya. Bakı, ADPU, 2009, 157 s.

**ХАТИРА АГАЕВА**
*Доктор философии по истории,*
*Институт археологии и этнографии НАНА*

## ОСОБЕННОСТИ СЕМЬИ И БЫТА ЗАПАДНЫХ АЗЕРБАЙДЖАНЦЕВ

В статье затрагиваются такие вопросы, как сущность семейной проблемы населения Западного Азербайджана, ее специфическая терминология. Моральные ценности, приобретенные западными азербайджанцами с древних времен до наших дней, широко изучены. При написании статьи автор воспользовался работами того периода, которые не были задействованы в исследованиях, и систематически разъяснил специфические аспекты проблем семьи.

*Ключевые слова*; Западный Азербайджан, моральные ценности, семья, уважение к старшим.

**KHATİRA AGAYEVA**
*Doctor of Philosophy in History,*
*Institute of Archeology and Ethnography of ANAS*

## SPECIFIC FAMILY AND HOUSEHOLD ISSUES OF WESTERN AZERBAIJANIS

The article touches on issues such as the essence of family issues of the population of Western Azerbaijan, its specific terminology. The moral values acquired by Western Azerbaijanis from ancient times to the present day have been extensively studied. While writing the article, the author took advantage of the works of the period that were not involved in research, and systematically explained the specific aspects of family issues.

*Keywords*; Western Azerbaijan, moral values, family, respect for elders.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 dekabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Sənubər İsmayılova, t.e.d. Nərgiz Quliyeva.*

**UOT 930.2**

**AYDIN MƏMMƏDOV**
*Bakı Dövlət Universitetinin Mənbəşünaslıq, Tarixşünaslıq və metodika kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*
**aydin.mmmdov.67@ mail.ru**

# XX ƏSRİN İKİNCİ YARISI AZƏRBAYCAN VƏ RUSİYA TARİXÇİLƏRİNİN İBTİDAİ CƏMİYYƏTDƏ MƏSKUNLAŞMA VƏ ONA TƏSİR EDƏN AMİLLƏRLƏ BAĞLI TƏDQİQAT ƏSƏRLƏRİNDƏ TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

*Bəşər tarixinin ən dərin kökləri ibtidai cəmiyyətə, daş dövrünə gedib çıxır. Əlverişli iqlimə, rəngarəng relyefə, təbii-coğrafi amillərə malik olan doğma Azərbaycanımızda ulu əcdadlarımızın hələ alt paleolit dövründən üzü bəri məskunlaşması üçün hər cür şərait olmuşdur. İbtidai icma dövrü bəşər tarixinin ən uzun sürən mərhələsidir. Məhz bu səbəbdəndir ki, bu dövr, onun xüsusiyyətləri dünyanın, o cümlədən Azərbaycanın bir çox tarixçiləri tərəfindən uzun illərdir ki, böyük bir maraqla araşdırılır. Sözügedən dövrdə əhalinin məskunlaşması, təbii və mexaniki artımı, ümumiyyətlə, nəsil artımına təsir edən obyektiv, subyektiv amillər hər zaman tarixi demoqrafiyanı araşdıran alimlərin diqqətini cəlb etmişdir.*

*Açar sözlər*: Azərbaycan tarixşünaslığı, Rusiya tarixşünaslığı, əhali məksunlaşması, əhali artımı, ibtidai cəmiyyət, tarixi demoqrafiya.

*Giriş.* İnsan təbiətin ən böyük möcüzəsi olmaqla, onun ağuşunda milyon illər boyunca formalaşaraq, onun resursları hesabına yaşayaraq, nəsil artıraraq, eyni zamanda, onun özünə də təsir edərək bu günümüzə gəlib çatmışdır. Alimlərin son elmi araşdırmalarına görə, Yer kürəsinin yaşı 5 milyard ildir. Onun üstündə dünyaya gəlmiş, ayaq tutub yerimiş insanların yaşı isə, 2-3 milyon ildir. Belə ki: "...Olduvay dərəsində aparılan tədqiqatlar nəticəsində ...ibtidai insanların 3 milyon il bundan əvvəl başlamış 20-15 mininci illərə qədərki böyük tarixi dövrdə yaşadıqları elmi əsaslarla sübuta yetirilmişdir" [3, s.22-23]. Rusiyalı alim P.Boriskovskinin "Bəşəriyyətin ən qədim keçmişi" adlı kitabında oxuyuruq: "Sübut edilmişdir ki, insan heyvanlar aləmindən 800 min il deyil, 2,6 milyon il bundan əvvəl ayrılmışdır". Müəllif öz fikrinə davam edərək yazır ki, elə qədim insanların ilk məskunlaşma yerləri olan qədim insan düşərgə və mağaralarının yaşı da həmin dövrə aiddir: "Həmin dövrdə - qədim paleolitdə süni yaşayış yerlərinin mövcudluğu sübuta yetirilmişdir. ...Bilavasitə insanların əcdadları olan insanabənzər meymunlar – dreopiteklər, ramapiteklər artıq neogen dövründə mövcud olmuşdur" [16, s.6]. Müəllif haqlı olaraq, qədim əcdadlarımızın ilk məksunlaşma yerinin seçilməsini təbii amillərlə bağlayır. Eyni fikirlərə digər bir çox rus tədqiqatçılarının əsərlərində rast gəlirik (Бунак В.В. Череп человека и стадии его формирования у ископаемых людей и современных рас. Москва, 1959; Иванова И.К. Геологический возраст ископаемого человека. Москва, 1965; Марков С. К., Лазуков Г.И. Николаев В.А. Четвертичный период (ледниковый период – антропоген). Т.I, II. Москва, 1965; Марков К.К., Величко А.А., Лазуков Г.И., Николаев В.А. Плейстоцен. Москва, 1968; Величко А.А. Природный процесс в плейстоцене. Москва, 1973). Adı çəkilən müəlliflərin fikrincə, hələ eopleystosen, xüsusən də pleystosen dövrü üçün Yer kürəsində, o cümlədən Pireney, Alp və Qafqaz dağlarında və onlara bitişik düzən ərazilərdə bərk soyuqlar olmuşdur. Qədim buzalaşma dövründə məskunlaşma üçün əlverişli olan nəhəng ərazilər buz səhralarına çevrilmişdir. Temperatur 0-dan yuxarı qalxmadığına görə insan həyatı yalnız sözügedən ərazilərdən cənubda mövcud ola bilərdi: "Buzlaqlar bu və ya digər ərazinin məskunlaşmasına mane olaraq keçilməz sədlər yaratmış və ayrı-ayrı insan qruplarının bir-birindən təcrid olunmasına səbəb olmuşdur" [16, s.8]. Məhz böyük buzlağın əriməsindən sonra, e.ə.10 min il əvvəl, riss və vürm (güns və mindel alt, riss orta, vürm isə, üst pleystosen dövrünə aiddir – A.M.) istiləşmə dövrünün başlanması ilə insanların geniş ərazilərə məskunlaşması üçün əlverişli şərait yaranmışdır. Eyni fikirə, V.Alekseyev və A.Perşiçin ali məktəb tələbələri üçün birgə yazdıqları "İbtidai icma tarixi" adlı dərslikdə də rast gəlirik [14, s.8].

Ümumiyyətlə, yuxarıda adları qeyd olunan Rusiyalı tədqiqatçıların hamısı, o cümlədən Yulian Bromleyin fikrincə, bəşər tarixinin ilk günlərindən insanın məskunlaşmasına ətraf mühit və onunla sıx bağlı olan təbii-coğrafi amillər son dərəcə ciddi təsir göstərmişdir. Y.Bromley "İbtidai icma tarixi" adlı əsərində yazır ki, məhz əlverişli təbii amillər, o cümlədən iqlim və relyef insanların qida əldə etməsinə, habelə münbit ərazilərdə məskunlaşmasına təsir göstərmişdir. Lakin, müəllif iqlim və məskunlaşma məsələlərinin hələ də ciddi tədqiqata ehtiyacı olduğunu da xüsusi olaraq vurğulayır: "Bir sıra soyuq və mülayim ərazilərdə stasionar (daimi – A.B.) məskunlaşma yerlərinin mövcud olması hələ də, açıq sual olaraq qalır" [17, s.193]. Buna rəğmən o, hələ ən qədim dövrlərdən üzü bəri məskunlaşmanın məhz iqlimlə sıx əlaqəsini istisna etmir: "İsti ölkələrdə üst paleolitdə hələ də, uzunmüddətli süni məskunlaşma yerlərinin, soyuqların uzanması ilə əlaqədar geniş yayılmadığını ehtimal edə bilərik" [17, s.193].

Y.Bromley də geniş və sabit insan məskənlərinin yaranmasını təxminən 11 min il əvvəl müasir buzaqların geri çəkilməsi ilə əlaqələndirir. Ümumiyyətlə, müəllif ibtidai icma dövründə məskunlaşma sahələrinin istər sahəsinin, istərsə də daimi və ya mövsümi olmasının sırf ətraf mühit amilləri ilə sıx şəkildə bağlı olmasını vurğulayır [17, s.171-177, 182].

Hələ 1,5 milyon il əvvəl Qarabağ silsiləsinin cənub-şərq ətəklərində yerləşən Quruçay və Köndələnçayın vadiləri artıq əcdadlarımız tərəfindən məskunlaşdırılmışdır. Belə ki, bu yerlər istər məskunlaşma, istər nəsil artımı, istərsə də əmək alətlərinin hazırlanması üçün lazım olan materialların əldə olunması baxımından son dərəcə böyük imkanlara malik idi. Azıx mağarasında aparılan elmi tədqiqatlar göstərir ki, "ibtidai insanlar 1,2 milyon il bundan əvvəl məskən salmış, 120 min əvvəl isə, mağaranı tərk etmişlər. Lakin, ibtidai insanlar yenidən, 20 min il keçdikdən sonra mağaraya qayıtmış və burada daha 50 min il yaşayış olmuşdur" [3, s.22-23].

Qeyd etmək lazımdır ki, ibtidai insanlar dünyanı bizdən tam fərqli bir şəkildə duyur, ətraf mühitin obyekt və hadisələrini özünəməxsus bir şəkildə qəbul edirdilər. Belə ki, onlar mahiyyətini dərk edə bilmədiklərinə görə hər şeydən ehtiyat edir, çəkinir, eyni zamanda hər bir hadisənin baş vermə səbəblərini öyrənməyə cəhd edirdilər. Digər tərəfdən, onlar məskunlaşmaq üçün təbii-coğrafi baxımdan əlverişli olan ərazilərə daha çox üstünlük verərək, məhz həmin yerləri yaşayış yeri kimi seçirdilər: "İbtidai cəmiyyətdə insanların məskunlaşması artıq məskunlaşmış ərazilərdən yeni ərazilərə doğru, daha əlverişli həyat məkanı axtarmaq istəyinin təzahürü kimi min illər boyu davam etmişdir. Onlar üçün ətraf aləmdə mövcud olan hər şey sadə olduğu qədər mürəkkəb və müəmmalı idi. ... Təbii ki, ibtidai insanlar ilk növbədə əvvəllər yaşadıqları ərazilərin iqlimi ilə eyni, yaxud ona oxşar ərazilərdə məskunlaşmağa üstünlük vermişlər. İqlimin oxşarlığı ibtidai insanların yeni ərazilərdə ətraf aləmlə adaptasiyasını xeyli asanlaşdırırdı. Çünki, hər bir coğrafi zonallıqda ibtidai insanın yaşayışı üçün zəruri olan bitki və heyvanat aləminin formalaşmasına ilk növbədə iqlim və iqlimi yaradan coğrafi enlik təsir göstərir. O zaman ibtidai insanların daha yuxarı enliklərə, yəni şimala doğru hərəkətini və belə əraziləri məkunlaşdırmaq cəhdlərini bacardıqlarını yalnız bir şeylə – insanların təbiətlə artıq min illər boyu çarpışmasında əldə etdiyi nailiyyətlərlə, qazandıqları təcrübə ilə izah etmək olar" [12, s.38-39].

Görkəmli Rusiyalı tarixçi A.Monqayt da ibtidai icma dövründə yaşayan insanların məskunlaşma prosesinə ətraf mühitin ciddi təsir göstərdiyini qeyd etmişdir. Onun fikrincə, alt paleolit dövründən son tunc – erkən dəmir dövrünə qədər insanların istehsal prosesində əldə etdikləri nailiyyətlərdən onların yaşadıqları ərazini diqqətlə öyrənmələri, əlverişli həyat sferası uğrunda mübarizəsi təbiətdəki proseslərlə sıx şəkildə bağlı olmuşdur [19, s.53-83].

Azərbaycanın dünyaca məşhur olan tarixçi və arxeoloqu Məmmədəli Hüseynovun elmi yaradıcılığı bu baxımdan xüsusilə diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, Azərbaycanda qədim daş dövrünün əsaslı şəkildə öyrənilməsi 1953-cü ildən başlanmışdır. Hətta, bu məqsədlə Azərbaycana daş dövrü üzrə görkəmli tədqiqatçı S.N.Zamyatin dəvət olunmuş, onun rəhbərliyi ilə Damcılı mağarasında tədqiqat işlərinə başlanılmışdır. İkinci paleolit ekspedisiyası 1956-cı ildə təşkil edilmiş, ibtidai cəmiyyətə dair çoxsaylı məksunlaşma düşərgələri aşkar edilmişdir. Bütün bu və ya digər problemlər 1968-ci ildə 18 yaşlı qıza məxsus alt çənə sümüyünü aşkar M.Hüseynovun 1973-cü ildə nəşr olunmuş "Uzaq daş dövrü" adlı əsərində geniş şəkildə işıqlandırılmışdır: "Paleolit ekspedisiyası Daşsalahlı, Damcılı, Azıx və Tağlar mağara düşərgələrini qazıb tədqiq etmişdir" [11, s.14].

Maraqlıdır ki, M.Hüseynov da ilk "Homo habilis"lərdən danışarkən: "Qazıntı nəticəsində aşkar edilmiş əmək alətlərindən və onların hazırlanmasının primitiv texnikasından görünür ki, Şell-Aşel dövründə istehsal qüvvələrinin səviyyəsi hələ çox aşağı olmuşdur. Bununla yanaşı, bir düşərgədə həyat sürən insanların dəstələri böyük olmamışdır. Qazıb üzə çıxardığımız düşərgənin sahəsi 200 $m^2$-dən çox deyildir. Belə kiçik sahədə yaşayanların sayı da 40-50 nəfərdən çox ola bilməzdi. Onlar yeməli həşəratların, bitkilərin, istehsal üçün xammalın toplanması kimi işləri birlikdə, kollektiv surətdə görürdülər" – deyə, yazmışdır. Müəllifin fikrincə, Azıx adamı dünyada ən qədim tapıntılardan biridir: "Azıx adamının dövrünə aid tapıntılar dünyanın üç-dörd nöqtəsində aşkar edilmişdir. ...Azıx mağarasının lap alt təbəqələrindən birində aşkar edilmiş daş məmulat öz hazırlanma texnikasına və formasına görə şell-aşel dövrünü xarakterizə edən tapıntılardandır [11, s.20-23]. M.Hüseynov haqlı olaraq Vətənimizdə ulu əcdadlarımızın artıq şell-aşel dövründə geniş şəkildə məskunlaşması qənaətinə gəlir: "Bütün bu amillər ilk insanların Azərbaycan ərazisində hələ şell-aşel dövründə yayılmasını göstərir" [11, s.23].

Azərbaycan ərazisində insanların bəşər tarixinin ən qədim dövrülərində məskunlaşması konsepsiyası M.Hüseynovun 1970-80-ci illərdə nəşr olunmuş "Azərbaycan arxeologiyası (daş dövrü)", "Azərbaycanın qədim paleolit dövrü", "Azərbaycanda paleolit" və d. qiymətli əsərlərində geniş şəkildə öz əksini tapmışdır (Гусейнов М.М. Археология Азербайджана (каменный век). Баку, АГУ, 1975, 162 с.; Гусейнов М.М. Древний палеолит Азербайджана: культура Куручай и этапы её развития: 1,500,000-70 тысяч лет назад. Баку, Элм, 1985, 71 с.; Гусейнов М.М. Палеолит Азербайджана (в соавторстве с А.К.Джафаровым). Баку, Элм, 1986, 17 с). Alt paleolit dövründə ibtidai insan sürüləri, yaxud ulu icma şəklində yaşayan qədim əcdadlarımızın demoqrafik artımında tədqiqatçıların fikrincə bioloji qanunauyğunluqlar heç də az rol oynamamışdır. İbtidai icma quruluşu dövründə doğumun səviyyəsini aşağı salan ciddi səbəblərdən biri də yetkinlik yaşına çatmayan gənc qızların vaxtından xeyli əvvəl, özlərindən yaşca böyük kişilərlə münasibətə girmələri idi. Məhz bu amil qızların vaxtından xeyli əvvəl qocalmalarına, uşaq doğma qabiliyyətlərinin aşağı səviyyəyə enmələrinə səbəb olur. Adətən qadınların uşaq doğmaq qabiliyyəti dedikdə sırf təbii doğum yolu ilə dünyaya gələn uşaqların artım səviyyəsi başa düşülür. Digər tərəfdən qadınların uşaq doğmaq qabiliyyəti dedikdə, həmçinin onların dünyaya uşaq gətirə bilmək üçün malik olduqları potensial imkanlar da nəzərdə tutulur. Sözügedən problemə ibtidai icma quruluşu dövrünün malik olduğu spesifik xüsusiyyətlər baxımından yanaşıldıqda istər yığıcılıq, istər ovçuluq, istərsə də neolit dövründən başlayaraq əkinçiliklə də məşğul olan qadınların da kişilər kimi xeyli enerji sərf etmələri səbəbindən hamilə qalmaq və uşaq doğmaq üçün çox az qüvvəyə malik olmalarının şahidi oluruq. Qeyd etmək lazımdır ki, ibtidai insanların nəsil artımı prosesində ətdən geniş istifadə etmələri böyük əhəmiyyət kəsb etmişdir. Azərbaycanın görkəmli arxeoloq alimi M.Hüseynov ibtidai insanların ətdən çox istifadə etməsindən bəhs edərkən yazırdı: "Azıx mağarasının aşağı təbəqələrindən daş alətlərlə birlikdə, eyni yerdən külli miqdarda – 30 növdən çox heyvanın daşlaşmış sümük qalıqları aşkar edilmişdir. Sümüklər, əsasən, mağara ayılarına, nəhəng marallara və s. aiddir. Belə nəhəng heyvanların ovlanması göstərir ki, mağaranın sakinləri ətdən çox istifadə etmişlər" [12, s.30-31].

Məhz ətdən istifadə ibtidai insanların üzücü əmək prosesində itirdikləri enerjinin müəyyən qədər bərpa etməyə kömək edirdi. Məhz uğurlu ov, kifayət qədər ərzaq ehtiyatının əldə edilməsi nikah münasibətləri (burada nikah şərti olaraq iki əks cinsin yaxınlığı anlamını ehtiva edir) üçün zəmin yaradırdı. Lakin əmək alətlərinin aşağı inkişaf səviyyəsində olduğu ibtidai icma quruluşu dövründə insanlar heç də həmişə uğurlu ov, yaxud bu və ya digər qida məhsullarını asan və rahat əldə edə bilmirdilər. Məhz bu səbəbdən də; 1) ulu icmada, sonralar isə qəbilə icmasında hamı işləməli idi, heç kəs başqasının hesabına dolana bilməzdi. 2) İcmada əhalinin mümkün olan normadan, yaxud zəruri bir həddən artıq artımından söhbət belə gedə bilməzdi. Təbii ki, burada zəruri hədd dedikdə ilk növbədə ərzaq ehtiyyatının insan artımı üçün yaratdığı imkanlar nəzərdə tutulur [12, s.33].

Əsədulla Cəfərovun ibtidai icma tarixinə dair yazdığı əsərlər də bu baxımdan böyük maraq və əhəmiyyət kəsb edir. Müəllifin fikrincə: "Artıq qədim insan özünə daimi yaşayış yeri tapmış, əmək alətləri hazırlamış və ovçuluq təsərrüfatlarına yiyələnmişdir" [4, s.37]. Ə.Cəfərovun 1989-cu ildə "Azərbaycan abidələri" adlı elmi məqalələr toplusunda" dərc etdirdiyi "Azərbaycan qədim insan məskənidir" adlı məqaləsində Vətənimizin ən qədim dövrlərdən məskunlaşmaya məruz qalmasını

konkret elmi faktlarla əsaslandıra bilmişdir. Müəllifin fikrincə, dünyada hələlik elə bir məskunlaşma yeri yoxdur ki, orada mədəni təbəqələr Azıx mağarasındakı kimi zəngin olsun və yaşayış üçün uzun müddət davam etsin. Ə.Cəfərovun sözügedən məqaləsində oxuyuruq: "Aparılan elmi tədqiqatlar göstərir ki, ibtidai insanlar burada 1,2 milyon il bundan əvvəl məskən salmış, 120 min il əvvəl isə mağaranı tərk etmişlər". Burada istər məskunlaşma, istər nəsil artımı, istərsə də əmək alətlərinin hazırlanması üçün lazım olan materialların zənginliyi ulu əcdadlarımızın diqqətindən yayınmamış, müəllifin təbirincə desək: "İbtidai insanlar yenidən, 20 min keçdikdən sonra mağaraya qayıtmış və burada daha 50 min il yaşayış olmuşdur" [3, s.21-29]. Ə.Cəfərov 1990-cı ildə nəşr edilən "Quruçay dərəsində" adlı monoqrafiyasında ibtidai cəmiyyətdə yaşayan soydaşlarımızın sosial-iqtisadi vəziyyətini son dərəcə faktoloji materiallar əsasında fundamental şəkildə tədqiq etmişdir [5].

Ə.Cəfərov ibtidai cəmiyyətə dair digər tədqiqat əsərlərində də, Azərbaycan ərazisində məskunlaşma prosesinin fasiləsiz olaraq davam etməsi fikrini əsaslandıra bilmişdir. Belə ki, müəllif 1994-cü ildə işıq üzü görən "İnsanlığın səhəri" adlı əsərində yazır: "Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı Mustye mədəniyyətinə aid Azıx, Tağlar, Daşsalahlı, Qazma və Buzeyir mağara düşərgələri aşkar olunmuşdur" [4, s.43]. Müəllif Azərbaycan ərazisində tunc dövrü və sonrakı dövrlərdə də məskunlaşma prosesinin geniş vüsət alması qənaətinə gəlmişdir: "Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Qarabağ ərazisi tunc dövrünün yaşayış məskənləri ilə də zəngindir" [4, s.25].

XX əsrin ikinci yarısı Azərbaycan tarixçilərinin ibtidai cəmiyyətə dair tədqiqat əsərlərində sözügedən problemlərə dair zəngin məlumatlara rast gəlmək olar. Azərbaycan tarixçilərinin ibtidai cəmiyyətə dair tədqiqatları içərisində görkəmli alim Teymur Bünyadovun əsərləri diqqəti cəlb edir. O, 1960-cı ildə nəşr olunan "Azərbaycan arxeologiyası oçerkləri" adlı kitabında ibtidai icma dövründə mövcud olan məskunlaşma, nəsil artımı və digər tarixi demoqrafiya məsələlərinə geniş diqqət ayırmışdır. Müəllifin fikrincə, Azərbaycanda əhali məskunlaşması üçün əlverişli şərait olduğuna görə burada artıq paleolitin əvvəllərində insanlar yaşamışlar. Müəllif haqlı olaraq ibtidai cəmiyyətdə məskunlaşma üçün əlverişli təbii-coğrafi amilləri ön plana çəkir: "İbtidai insanlar təbii şəraitdən çox asılı olmuşlar. Odur ki, onlar özləri üçün əlverişli yerlərdə məskən salmışlar. Bu ondan irəli gəlir ki, ibtidai insanların əmək alətləri və silahları çox sadə, təbiətə qarşı mübarizələri isə, sonrakı dövrlərə nisbətən xeyli zəif olmuşdur" [1, s.28].

Müəllif fikrinə davam edərək yazır: "Əlverişli şəraitdə yaşayan ibtidai insanlar, müxtəlif yabanı bitkilərin meyvə və köklərini toplamaqla məşğul olmuşlar. Bu dövrdə onlar isti iqlimdə yaşayan heyvanları ovlamaqla öz güzəranlarını keçirmişlər. ... İnsanlar iqlimin istiliyi ilə əlaqədar olaraq paltarsız gəzmiş və istədikləri yerlərdə kiçik qruplarla məskən salıb yaşamışlar" [1, s.28].

Müəllif məskunlaşma üçün Azərbaycan ərazisində çoxlu sayda təbii mağaraların olmasını da vacib amillərdən biri hesab edir. Müəllifin haqlı olaraq, Azərbaycanda təbii mağaraların çoxluğunu Vətənimizdə məskunlaşmanın geniş yayıldığını təsdiq edən danılmaz fakt kimi qəbul edir: "Azərbaycandakı təbii mağaraların bir çoxunda ibtidai insanların yaşamaları şübhəsizdir. ...Bizdə elə təbii mağaralar var ki, onlarda metal dövründə, hətta bir qədər sonralar da yaşayış olmuşdur" [1, s.30].

İbtidai icma quruluşu dövründə əhalinin artım xüsusiyyətlərindən danışarkən alimləri ilk öncə belə bir sual düşündürür. Görəsən, bu dövrdə ibtidai insanların hansı məskunlaşma formaları mövcud olmuşdur? Teymur Bünyadovun sözügedən kitabında bu sualın cavabı ilə rastlaşırıq. Müəllif yazır ki, ibtidai icma dövrünün iqlimin mülayimləşməsi, əhalinin artması ilə müşayiət olunan sonrakı mərhələlərində, xüsusən də eneolit dövründə Zaqafqaziyada əhali oturaq həyat sürmüşdür. Müəllif bu fikrini əsaslandırmaq üçün maraqlı arqumentlərə istinad edir: "Eneolit dövrü abidələrində həm iri, həm də xırdabuynuzlu heyvanların sümükləri çoxdur. Lakin faiz hesabı ilə götürüldükdə iribuynuzlu heyvanın sümükləri çoxluq təşkil edir. Buna əsasən də söyləmək olar ki, eneolit dövründə Zaqafqaziyada əhali oturaq həyat sürmüşdür" [1, s.57].

Müəllif fikrini əsaslandırmaq üçün etnoqrafik materiallara da istinad edir: "Etnoqrafik dəlillər göstərir ki, oturaq maldarlıqa həmişə iribuynuzlu heyvanların saxlanılması əlverişli olmuşdur. Köçəriliklə əlaqədar olaraq əhali xırdabuynuzlu heyvan saxlamışdır" [1, s.57]. T.Bünyadovun bu konsepsiyasını "Azərbaycanda maldarlığın inkişafı tarixindən" adlı digər qiymətli tədqiqat əsərində də görürük: "Azərbaycanın topoqrafik quruluşu və iqlim şəraiti köçmə maldarlığın yaranması üçün xüsusi zəmin yaratmışdır" [2, s.12]. Göründüyü kimi, müəllif burada məskunlaşmanın bir növü olan

yarımköçəri həyat tərzinin yaranmasını təbii-coğrafi amillərlə izah edir. Digər amil kimi isə: "Bu formanın inkişaf edib, daha geniş şəkildə yaranmasına səbəb bir də heç şübhəsiz, heyvan sürülərinin, xüsusilə xırdabuynuzlu heyvanların sayının tez və sürətlə artması olmuşdur" [2, s.12]. Təbii ki, xırdabuynuzlu heyvanların sayının artması onların yemlə təminatı məsələsini zərurətə çevirirdi: "Odur ki, yerli əhali heyvan sürülərini yaşayış yerinin ətrafında deyil, bir qədər aralı olan örüşlərdə otarır, axşam isə geri qaytarırdılar" [2, s.12]. Lakin zaman keçdikcə, maldarlıq daha da inkişaf etdikcə: "Maldarlar axşamlar yaşayış yerlərinə qayıtmayıb müəyyən müddət üçün təxminən oradan 15 km aralı iqlim və otlaqları əlverişli olan düşərgələr seçirdilər" [2, s.12]. Yalnız soyuqların düşməsi və yaşayış yerlərinin ətrafında qoruğa qoyulmuş otlaqların əhəmiyyətli yem bazasına çevrilməsindən sonra insanlar heyvan sürülərini daimi məskunlaşdıqları ərazilərə qaytarırdılar. Müəllifin fikrincə, belə məskunlaşma forması artıq e.ə. III minillikdə Kür-Araz mədəniyyəti dövründə daha da inkişaf etmişdi. [2, s.13]. Digər tərəfdən, Tunc dövründə etnik baxımdan yaxın olan tayfa və tayfa ittifaqlarının yaranması insanların məskunlaşdıqları ərazilərdə uzun müddət yaşamalarina əsaslı zəmin yaratmış oldu: "Burada uzun sürən yaşayış nəticəsində ...bir-birindən quruluş, dövr və tikinti materiallarına görə fərqlənən binalar olmuşdur. Binaların böyük ailələrə məxsus olmasında etnoqrafik dəlillər çox mühüm elmi əhəmiyyətə malikdir" [1, s.77]. Təbii ki, iri və sabit məskunlaşma ərazilərində böyük ailələr ilk növbədə qohumluq köklərinə əsaslanaraq bir neçə cüt nikah nəticəsində meydana gəlirdi. Etnoqraf alim H.Həvilovun fikrincə, Azərbaycanda külfətli ailə, bərəkətli ailə, ağır külfət, kələkülfət, veyə xizun və digər adlarla məlum olan böyük ailələr patriarxal ailənin nəsli qəbilə quruluşunun dağılması dövründə yaranmasına baxmayaraq, o uzun bir tarixi inkişaf yolu keçmiş hətta XX əsrin əvvəllərinə kimi mövcud olmüşdur [10, s.200]. P.Yefimenko və P.Boriskovskiyə istinad edərək V.Alekseyev və A.Perşiç belə hesab edirlər ki, qəbilə icmasına keçidin başlanğıcı üst paleolit dövrünə aid olub bəşər tarixinin böyük bir dövrü üçün sabit insan birliyi forması olaraq qalmışdır [14, s.137].

İ.Andreyev L.Fayenberqlə birgə yazdıqları "İbtidai periferiyanın yeni və çağdaş dövrdə taleyi" adlı elmi məqaləsində oxuyuruq ki, bir sıra şimal xalqlarında, o cümlədən şimali Yamalda qəbilə icmasının qalıqları hətta XX əsrin 30-cu illərinə qədər mövcud olmuşdur. Burada, əhali kolxozlar təşkil olunarkən oraya yalnız eyni qəbilə icmasının üzvlərinin yazılması şərti ilə razılıq vermişlər ki, buna da hakimiyyət orqanları ciddi şəkildə müqavimət göstərmişdilər" [15, s.256].

Hidayət Cəfərovun fikrincə, böyük ailələrin məskunlaşdıqları ərazilərdə kiçik ailələrin yaranması ilk növbədə əmək bölgüsü ilə və onun nəticəsində ayrı-ayrı qəbilə başçılarının əlində izafi gəlirin toplanması ilə bağlı idi [18, s.19-20]. Sözügedən əsərin qayəsindən bəlli olur ki, ibtidai icma cəmiyyətinin sonlarına doğru son tunc, erkən dəmir dövründə Azərbaycanda hələ orta tunc dövründə meydana gələn şəhərlər daha da inkişaf etmiş, Yaxın Şərqin ən iri, inkişaf etmiş ölkələri ilə geniş ticari-iqtisadi əlaqələr qura bilmişdir. Müəllifin fikrincə sözügedən dövrə dair Xocalıdan tapılan, üzərində Assuriya hökmdarı Adadnirarinin adı yazilan muncuq, silindrik möhürlər buna əyani sübutdur [18, s.40-47].

Sözügedən dövrdə Azərbaycanın Yaxın Şərqin qüdrətli ölkələri ilə geniş əlaqələrini Vəli Əliyevin tədqiqat əsərlərində də izləmək olur. Müəllifin 1975-ci ildə nəşr olunan "Tarixin izləri ilə" adlı kitabında belə bir fikir vurğulanır ki, Azərbaycan ərazisi artıq ibtidai icma cəmiyyəti dövründə insanların uzun müddət – min illər boyu məskunlaşdıqları sabit və əlverişli yaşayış yerləri kimi fəaliyyət göstərmişdir. Naxçıvanda orta tunc dövrünə aid olan Kültəpə yaşayış yeri buna ən parlaq nümunədir. Müəllifin sözügedən abidə ilə bağlı fikirləri maraqlıdır: "...Kültəpə qədim yaşayış yeri öz möhtəşəmliyi ilə bir çox görkəmli tədqiqatçıların diqqətini cəlb etmişdir" [7, s.30-31]. Müəllif haqlı olaraq Zaqafqaziyada ilk dəfə geniş planda tədqiq olunan bu çoxtəbəqəli yaşayış yerinin qədim nəsillərin yaşayış binalarını, təsərrüfat tikintilərini, məşğuliyyətini, mədəni və ictimai həyat tərzlərini, adət və ənənələrini öyrənmək üçün çox zəngin materiallar verməsi qənaətinə gəlir [7, s.31].

Qeyd etmək yerinə düşər ki, yer səthindən 22 metr hündürlükdə olan və tarixi demoqrafik baxımdan son dərəcə böyük əhəmiyyət kəsb edən bu yaşayış yerində tədqiqat işləri ilk dəfə 1951-1964-cü illərdə adını hər zaman ehtiramla xatırlatdığımız, görkəmli arxeoloq alimimiz Osman Həbibullayev tərəfindən aparılmışdır. Ümumiyyətlə, sözügedən dövrə dair Kültəpə maddi mədəniyyət abidələrinin, yaşayış yerlərinin öyrənilməsinin elə nəticələri də ilk dəfə öz parlaq elmi ümumiləşməsini

XX əsrin 50-60-cı illərində O.Həbibullayevin nəşr etdirdiyi bir sıra qiymətli tədqiqat əsərlərində tapmışdır (Абибуллаев О.А. Археологические раскопки холма Кюльтепе. (Поселение конца неолита — начала железа). Автореф. канд. дисс. (АГУ им. С.М. Кирова). Баку, АН АзССР, 1959, 17 с; Абибуллаев О.А. К изучению холма Кюльтепе // Труды Института истории и философии. Баку, АН АзССР, 1956, Т. IX, с. 5-25; Абибуллаев О.А. Некоторые итоги изучения холма Кюль-Тепе в Азербайджане // Советская археология, № 3, 1963, с. 157-168. Абибуллаев О.А. Раскопки холма Кюльтапа // Краткие сообщения ИИМК, Вып. 51, 1953. с.36-45). Adları qeyd olunan bu əsərlər ibtidai icma cəmiyyəti dövründə Azərbaycan ərazisində yaşamış əcdadlarımızın nəsil artımı, məskunlaşması, ictimai-iqtisadi həyatı, mədəni tərəqqisi barədə son dərəcə qiymətli məlumatlar verir. O, sübut edə bilmişdir ki, Kültəpə Azərbaycanın ən qədim yaşayış yerlərindən biridir və burada əhalinin məskunlaşması prosesi artıq e.ə. V-I minilliklərdə mövcud olmuşdur.

Unikal arxeoloji abidə olan Kültəpə demoqraf alimlərə ibtidai icma cəmiyyəti dövrünün yaşayış xüsusiyyətləri və mədəniyyətini ardıcıl şəkildə izləməyə imkan verir. Sözügedən yaşayış yerində ulu əcdadlarımızın minilliklər boyu məskunlaşmasını bu ərazidən tapılan maddi mənəniyyət nümunələri də sübut edir: "Qədim Kültəpə sakinləri 5000-7000 il bundan əvvəl müxtəlif buğda və arpa növlərindən əkinçilikdə geniş istifadə etməklə yanaşı, paxlalı bitkilər və meyvə ağacları da becərmişlər" [7, s.31].

Məlumdur ki, əkinçilik biləvasitə oturaq həyatla bağlıdır. Əlǝlxüsus da əgər ulu əcdadlarımız sözügedən yaşayış yerində V.Əliyevin təbirincə desək, əkinçilikdə müxtəlif buğda və arpa növlərindən geniş şəkildə istifadə etmişlərsə, deməli minilliklər boyu ərazinin təbii-coğrafi xüsusiyyətlərini fasiləsiz olaraq öyrənərək, yerli şəraitə uyğun olan dənli bitkilərin ən məhsuldar növlərini seleksiya etməyə də nail olmağı bacarmışlar. Sözügedən yaşayış yerindən daşdan və sümükdən tutmuş (bu alətlər neolit, enolit və tunc dövrünə aid olsa da – A.M.) ta ki, xəlitədən-tuncdan hazırlanan əmək alətlərinin tapılması da fikrimizcə, deyilənləri, yəni sözügedən yaşayış yerində ulu əcdadlarımızın ibtidai icma quruluşunun ən qədim dövrlərindən üzü bəri məskunlaşmasını aşkar şəkildə sübut edir. Çünki, biz burada əslində əmək alətlərinin inkişaf dinamikasını, minilliklər boyu dayanmadan davam edən təkamül prosesini görürük. Digər tərəfdən, məhz uzun müddət ərzində eyni ərazidə olmaq insanlara məskunlaşdıqları yerin təbii sərvətlərini öyrənmək, sınaqdan keçirtmək imkanlarını bəxş etmişdir. Təbii ki, misin tərkibinə qatmaq üçün lazım olan qalay, sürmə, mərgümüş, nikel, qurğuşun və bu kimi çoxsaylı komponentlərin axtarılaraq tapılması, fiziki-kimyəvi xüsusiyyətlərinin tədqiq və tətbiq edilməsi prosesinin özü də fikrimcə əcdadlarımızın sözügedən yaşayış yerində minilliklər boyu fsiləsiz olaraq yaşamasını israrlı bir şəkildə tələb edib. Digər tərəfdən həm I, həm də II Kültəpədən tapılan yaşayış yerləri-mədəni təbəqələrin aşırı qalınlığı (II Kültəpədə alt təbəqənin qalınlığı 6 metrə çatır. - A.M.) da yuxarıda deyilənlərə əyani sübutdur: "Ümumiyyətlə Kültəpədə həyat ardıcıl olaraq 4000 ilə qədər davam etmiş və bu uzun müddət ərzində bir-birini əvəz edən nəsillərin iqtisadi-mədəni həyatında maraqlı və mühüm dəyişikliklər baş vermişdir" [7, s.32]. Artıq erkən tunc dövründə Azərbaycanda əhalinin sayının artması prosesini yaşayış yerlərinin sahəsininin ərazicə böyüməsində də müşahidə edə bilirik. Belə ki, sözügedən dövrə dair Naxçıvan ərazisindəki Şahtaxtı kəndinin şimalında-hündür təpə üzərində salınmış Govurqalanın ümumi sahəsi 6-8 hektardır [7, s.73].

V.Əliyev sözügedən dövrə dair özünün "Gəmiqaya abidələri" adlı digər maraqlı tədqiqat əsərində də yaşayış yerlərinə, məskunlaşmaya dair son dərəcə maraqlı məlumatlar verir.

Ümumiyyətlə, müəllifin sözügedən kitabını oxuyarkən ibtidai icma cəmiyyətində yaşayan ulu əcdadlarımızın həyata və ətraf mühitə olan münasibətini, yaxud yaşam fəlsəfəsini özündə son dərəcə real əks etdirən qədim inancları ilə də rastlaşırsan. Belə ki, burada söhbət insan həyatının, onun daxili mənəvi aləminin tükənməzliyindən, potensial imkanlarının nəhayətsizliyindən gedir. İnsan özü ilə ətraf mühit, xəyal və istəkləri və təbii reallıqlar arasında körpü yaratmağa çalışır, özünü sirli-sehrli dünyanın ayrılmaz varlığı kimi dərk edirdi. Ulu əcdadlarımızın göyə, yerə, dağlara, daşlara, suya, oda, ocağa tapınması Gəmiqaya abidələrindəki təsvirlər əsasında geniş tədqiq olunub. Bu təsvirlər ibtidai icma cəmiyyətində yaşayan insanların nəsil artımını himayə edən xeyirxah ruhlara tapınmasını, insan- təbiət münasibətlərini elə həmin dövrün "öz dili ilə" əks etdirir. Belə ki, yer üzündə həyatın əsas mənbəyi olan Günəşə insanlar artiq ibtidai icma cəmiyyətində, onları qaranlıqdan, bəd hadisələrdən, şər ruhlardan qoruyan, nəsil artımını himayə edən xeyirxah varlıq kimi sitayiş edirdilər.

Elə Gəmiqaya abidələrindəki günəş təsvirləri də bu inancların bariz əksidirlər. Ulu əcdadlarımız Günəşə və onun simvolu olan oda, ocağa həmişə özlərinin himayədarı kimi baxmışlar. Hətta indinin özündə belə, azərbaycanlılar oda təbiətin ən təmiz və ən müqəddəs ünsürlərindən biri kimi böyük ehtiramla yanaşırlar. Məhz bu gün də oda, ocağa and içmək, müqəddəs ziyarətgahlara çox zaman "ocaq" demək, ər evinə köçən qızın oğullu-qızlı, xoşbəxt və ruzili olması üçün onu ocağın başına dolandırmaq, yaxud oda-ocağa and içmək kimi odla bağlı bir çox adətlər, ayinlər, inanclar, mərasimlər mövcuddur.

İbtidai insanların əsasən nəsil artımı ilə bağlı tarixi demoqrafik inaclarının qədim izləri ilə bağlı V.Əliyevin fikirləri diqqət çəkir. O, Gəmiqaya abidələrində dağ kəllərinin başında buynuz əvəzinə dairələrin təsvir edilməsi ilə bağlı yazır: "Heyvanın buynuzlarının bu şəkildə verilməsi təsadüfi olmayıb, müəyyən inamla bağlı semantik məzmun kəsb edir. Çox ehtimal ki, qədim Naxçıvan tayfalarının əsas inamlarından olan günəşə sitayişlə bağlıdır" [6, s.30]. Müəllifin gəldiyi qənaətə görə günəş simvolikasının heyvan rəsmləri ilə birgə təsvir edilməsi, ibtidai insanların təsəvvürlərində həmin heyvanların bu səma cisminin totemləri kimi yer üzündə həyatın daşıyıcıları hesab etməsi inancından əmələ gəlmişdir. Əslində isə, bu təsvirlər ibtidai insanların doğum, təbii artım kimi demoqrafik düşüncəsini, insanların yaşamaq və gələcək uğrunda apardıqları çox çətin mübarizəni əks etdirir: "Bu təsvirlərdə sanki insanların həyatının qorunması, onlara işıq, həyat üçün istilik (yəni nəsil artımı üçün güc, dəstək, enerji – A.M.) hərarət və gələcək arzulanır" [6, s.30].

Başqa sözlə desək, bu təsvirlərdə ibtidai insanların nəsil artımı ilə bağlı tarixi demoqrafik baxışları incəsənətin ən qədim növü olan təsviri sənətlə ifadə olunmuşdur. Y.Həsənovun təbirincə desək, ibtidai icma incəsənətinin əsas xüsusiyyəti onun real təbii varlığı olduğu kimi verməyə səy etməsindədir [9, s.100]. Biz belə təsvirlərlə Qobustanda da rastlaşırıq. Qobustanda günəş kultu ilə bağlı olan, əlində günəş təsviri olan insan petroqlifi, günəş rəmzi olan keçi rəsmləri və kromlex tikintisi də vardır [13, s.82-83].

Artıq erkən tunc dövründə Azərbaycanda əhalinin sayının artması, maldar tayfaların dağətəyi və dağlıq zonalarda əlverişli – suya, geniş otlaq sahələrinə yaxın yerlərdə daha çox əraziləri ələ keçirtmək cəhdləri ayrı-ayrı tayfa və tayfa ittifaqları arasında qarşısı alınmaz müharibələrə səbəb olurdu.

Sərvətlərimizin toxunulmazlığı uğrunda gedən bu qanlı qovğalarda şəhid olan soydaşlarımızı ulularımız həmişə dərin ehtiram hissi ilə anmış, xatirələrini əbədiləşdirməkdən ötəri onlar üçün simvolik qəbirlər belə hazırlamışdılar. İçərisi boş olan belə simvolik qəbirlərdə adətən kiçik ölçülü küplərdən istifadə edilirdi. Belə küplər, qəbirlərdə böyrü üstə müxtəlif istiqamətlərdə qoyulurdu. Tarixi ədəbiyyatda genotaf adlanan bu növ qəbir abidələrinə dünyanın bir çox ölkələrində təsadüf edilir. Lakin, genotaf qəbirlərdən ibarət bütöv bir qəbiristanlığa ancaq Qarabağda rast gəlmək olur. Sözügedən bu cür qəbiristanlığın aşkar edilməsində iştirak edən mərhum arxeoloq R.Göyüşov yazır ki, ekspedisiyamızın Qarabağda genotaflardan ibarət açdığı qəbiristanlıq dünyada nadir hadisələrdəndir. Haqqında danışdığımız qəbiristanlıq indiki Xocavənd bölgəsinin Ağoğlan məbədi ərazisindədir [8, s.27]. Bəs nə üçün döyüşlərdə şəhid olan yaxud bu və ya digər səbəblər üzündən yurduna, məmləkətinə dönməyən insanlar üçün belə məzarlıqlar düzəldilirdi? Bu, ilk növbədə ən qədim zamanlarda mövcud olan dini inanclar sistemi ilə bağlı idi. Belə ki, insanlar qəbri olmayan yaxın mərhumlarının ruhlarının rahatlıq tapa bilməməsinə inanaraq narahat olur, onlar üçün simvolik boş qəbirlər düzəldərək yanlarına yastı daşlar qoyurdular. İbtidai icma cəmiyyətində qədim inanclara görə, ölən insanın ruhu məhz bu daşlara hoparaq rahatlıq tapırdılar. Zaman-zaman belə boş qəbirlər ziyarət edilir, onların ətrafında müəyyən ayin və mərasimlər icra olunurdu. Başqa sözlə desək, belə genotaf qəbirlərdə şəhid ruhlarının əbədi olaraq rahat uyuması üçün mümkün olan hər şey edilirdi. Bu isə, soydaşlarımızın bəşər tarixinin ən qədim çağlarından üzü bəri torpaq uğrunda canını fəda edən insanlara rəğbət, hörmət və sevgi hisslərindən xəbər verir. Ulu əcdadlarımızın bu cəhdləri təbii ki, hər şeydən öncə düşmən qüvvələrini ram etmək, işğalçı niyyətlərini dəf etmək, düşmən tapdağından azad olunmuş vətənlərində normal həyat və məişətlərini təmin etmək ehtiyacından, yaşamaq uğrunda apardıqları çox çətin, mürəkkəb mübarizədən irəli gəlirdi.

Burada maraqlı bir cəhət ondan ibarətdir ki, tədqiq olunmuş bütün genotaf küp qəbirlərində, bir qayda olaraq, küpün kənarına yastı bir daş parçası qoyulmuşdur. Heç şübhəsiz ki, bu əhalinin ənənə-

vi daş inancları ilə bağlı olmuşdur. R.Göyüşov haqlı olaraq yazırdı: "Küp qəbirləri belə bir dini əqidənin məhsulu olmuşdur ki, guya insan torpaqdan yaranmışdır. O, müvəqqəti dünya üçün doğularkən ana bətnində necə yatmışdırsa, daimi dünyaya gedərkən də eyni şəkildə olmalıdır. Beləliklə, küp ana bətninin rəmzi kimi yaradılmışdır" [8, s.27].

*Nəticə.* Beləliklə, XX əsrin ikinci yarısında Azərbaycan və Rusiya tarixçiləri Yer üzündə, o cümlədən də Vətənimizdə milyon illər boyunca davam etmiş ibtidai icma cəmiyyətinin məskunlaşma, nəsil artımı və s. bu kimi proseslərin inkişaf dinamikasını əks etdirən sanballı monoqrafiyalar ərsəyə gətirməklə xalqımızın tarixi demoqrafik həyatını elmi obyektiv müstəvidə təsvir etməyə nail olmuşlar.

## ƏDƏBİYYAT


1. Bünyadov T. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, Azərnəşr, 1960, 236 s.
2. Bünyadov T. Azərbaycanda maldarlığın inkişafı tarixindən. Bakı, Elm, 1969, 185 s.
3. Cəfərov Ə. Azərbaycan qədim insan məskənidir / Azərbaycan abidələri. Bakı, Azərnəşr, 1989, 125 s.
4. Cəfərov Ə. İnsanlığın səhəri. Bakı, Azərnəşr, 1994, 80 s.
5. Cəfərov Ə. Quruçay dərəsində. Bakı, Azərnəşr, 1990, 64 s.
6. Əliyev V. Gəmiqaya abidələri. Bakı, Azərnəşr, 1993, 79 s.
7. Əliyev V. Tarixin izləri ilə. Bakı, Gənclik, 1975, 77 s.
8. Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı, Azərnəşr, 1993, 83 s.
9. Həsənov Y. İbtidai icma tarixi. Bakı, Azərnəşr, 1963, 209 s.
10. Həvilov H. Azərbaycan etnoqrafiyası. Bakı, Elm, 1991, 256 s.
11. Hüseynov M. Uzaq daş dövrü. Bakı, Gənclik, 1973, 71 s.
12. Məmmədov A. Tarixi demoqrafiya. Bakı, ADMİU, 2019, 230 s.
13. Rzayev N. Əcdadların izi ilə. Bakı, Azərnəşr, 1992, 102 s.
14. Алексеев В., Перщиц А. История первобытного общества. Москва, Высшая школа 1990, 351 с.
15. Андреев И.Л., Файнберг Л.А. Судьбы первобытной периферии в новое и новейшее время // Первобытное общество. Москва, Наука, 1974, 288 с.
16. Борисковский П.И. Древнейшее прошлое человечества. Ленинград, Наука, 1979, 230 с.
17. Бромлей Ю. В. История первобытного общества. Эпоха первобытной родовой общины. Москва, Наука, 1986, 574 с.
18. Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа. Баку, Элм, 1984, 106 s.
19. Монгайт А.Л. Археология в СССР. Москва, АН СССР, 1955. 436 с.



**АЙДЫН МАМЕДОВ**

*Доцент кафедры источниковедения, историографии и методики*
*Бакинского Государственного Университета, доктор философии по истории*


## ВОПРОСЫ ИСТОРИЧЕСКОЙ ДЕМОГРАФИИ ВО ВТОРОЙ ПОЛОВИНЕ XX ВЕКА В ИССЛЕДОВАТЕЛЬСКИХ РАБОТАХ АЗЕРБАЙДЖАНСКИХ И РОССИЙСКИХ ИСТОРИКОВ ПО НАРОДОНАСЕЛЕНИЮ И ФАКТОРАМ, ВЛИЯЮЩИМ НА ЕГО В ПЕРВОБЫТНОМ ОБЩЕСТВЕ

Глубочайшие корни истории человечества уходят в первобытное общество - каменный век. В нашем родном Азербайджане с благоприятным климатом, колоритным рельефом, природными и географическими факторами были созданы все условия для поселения наших великих предков со времен нижнего палеолита. Период первобытного общества - самый продолжительный период в истории человечества. Именно поэтому этот период, его особенности на протяжении многих лет с большим интересом изучаются многими историками мира, в том числе и Азербайджана. В этот период народонаселения, естественный и механический прирост, в целом объективные, субъективные факторы, влияющие на рост населения, всегда привлекали внимание ученых, изучающих историческую демографию.

*Ключевые слова:* Азербайджанская историография, Российская историография, народонаселения, рост населения, первобытное общество, историческая демография.

**AYDIN MAMMADOV**
*Associate Professor of the Department of Source Study,*
*Historiography and Methodology of Baku State University, Ph.D. in History*

## ISSUES OF HISTORICAL DEMOGRAPHY IN SECOND HALF OF XX CENTURY IN THE RESEARCH WORKS OF AZERBAIJANI AND RUSSIAN HISTORIANS ON POPULATION SETTLEMENT AND FACTORS AFFECTING IT IN PRIMARY SOCIETY

The deepest roots of the history of mankind go back to the primitive society - the Stone Age. In our native Azerbaijan with a favorable climate, picturesque relief, natural and geographical factors, all conditions were created for the settlement of our great ancestors from the time of the Lower Paleolithic. The period of primitive society is the longest period in the history of mankind. That is why this period and its features have been studied with great interest by many historians of the world, including Azerbaijan, for many years. During this period of population settlement, natural and mechanical growth, in general, objective, subjective factors affecting population growth, have always attracted the attention of scientists studying historical demography.

*Keywords:* Azerbaijani historiography, Russian historiography, population settlement, population growth, primitive society, historical demography.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24); UOT 930:314**

**HİKMƏT ƏHMƏDOV**
*Tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti*

**LEYLA VAQİF QIZI**
*Tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti*
**Leyla-vaqif@mail.ru**

# XIX ƏSRDƏ GƏNCƏ BÖLGƏLƏRİ ÜZRƏ ƏHALİNİN ETNİK TƏRKİBİ

*Məqalə XIX əsrdə Gəncə bölgəsinin demoqrafik durumu və əhalinin etnik tərkibi məsələləri tarixi-xronoloji konteksdə tədqiq edilmişdir.*

*Tədqiqatın aparılması zamanı mənbələrdən Qafqaz Arxeoqrafik Komissiyasının Aktları (Акты Кавказской Археографической Комиссии), 1851-ci ildə Rusiyanın quberniya və qəzaları üzrə əhali tədqiqatları (О народонаселении России по губерниям и уездам) və Qafqaz Statistik Komitəsinin (Кавказский Статистический Комитет) müxtəlif illər üzrə təqvim-məlumatlarından istifadə olunmuşdur. Proseslərin tarixi konteksdə elmi əsaslarla qiymətləndiriməsi üçün statistik, müqayisəli təhlil metodlarından geniş şəkildə istifadə edilmişdir.*

*Açar sözlər:* Yelizavetpol, əhali, siyahıyaalma, statistik məlumat, etnik tərkib.

*Giriş.* Azərbaycanın qədim tarixə və zəngin mədəniyyətə malik Gəncə bölgəsinin XIX əsrdə demoqrafik durumu, o cümlədən etnik tərkibi məsələsi, Vətən tarixşünaslığında aktual məsələlərdən biri olaraq qalmaqdadır. Bu, bir tərəfdən, XIX əsrdə Azərbaycandakı mürəkkəb hərbi-siyasi hadisələrlə, digər tərəfdən də, həmin hadisələrin davamı olaraq çarizmin bütövlükdə Qafqazda apardığı köçürmə siyasəti nəticəsində bölgənin milli və etnik tərkibinin zoraki şəkildə dəyişdirilməsi, demoqrafik durumun bütün ölkə miqyasında etnik qarşıdurmalara, ağır sosial və iqtisadi porblemlərə yol açması faktı ilə bağlıdır.

Məlum olduğu kimi, 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə Azərbaycandakı işğallarını təsbit edən çarizm ölkənin inzibatı idarəçiliyini də işğal rejiminə uyğunlaşdırmışdı. İşğaldan sonra ilk mərhələdə Qarabağ, Şəki, Şamaxı xanlıqlarında idarəçilik sistemi saxlanılsa da, ruslara ciddi müqavimət göstərən xanlıqlarda, o cümlədən Gəncə xanlığında xan üsul-darəsi ləğv edilmişdi. Tezliklə bu siyasət digər Azərbaycan xanlıqlarına da şamil edildi: əyalətlərin və inzibati dairələrin başına rus komendantları gətirildi, bütün ölkədə komendant üsul idarəsi bərqərar edildi [3, s.33]. Lakin çarizmin müstəmləkəçilik sistemi genişləndikcə və Azərbaycanın Rusiyanın xammal bazasına çevrilməsi prosesi sürətləndikcə onun idarəçilik sisteminin təkmilləşdirilməsi, daha doğrusu, inzibati və fiskal baxımdan mərkəzə tam tabe etdirilməsi zərurəti ortaya çıxdı. 1837-ci ildə senator Qanın başçılığı ilə idarəçilik sisteminin islahatı layihəsi (*"Учреждение для управления Закавказским краем")* hazırlandı və bu layihədə "yerli sosial-hüquqi və mədəni-etnik xüsusiyyətlərin heçə sayılması son həddə çatdırıldı" [12, s.33]. Layihə əsasında 1840-cı ilin aprelində verilən Fərman ilə Cənubi Qafqaz Gürcü-İmeretiya və Kaspi quberniyalarına ayrıldı. Sonradan bu Fərmana bəzi düzəlişlər edildi, çar I Nikolayın 1846-cı il 14 dekabr tarixli fərmanı ilə isə Cənubi Qafqazın inzibati-ərazi bölgüsündə yeni dəyişikliklər həyata keçirildi. Diyar Tiflis, Kutais, Şamaxı və Dərbənd quberniyalarına bölündü. Keçmiş Kaspi vilayətinə daxil olan qəzalar Şamaxı quberniyasına birləşdirildi, Quba qəzası isə Dərbənd quberniyasında qaldı [ətraflı bax: 6, s.1-42].

Əsas hədəfi Qafqazdakı üsyankar elementləri təslim etmək, yerli əhalini tamamilə siyasi və idarəçilik həyatından uzaqlaşdırmaq, müstəmləkəçiliyi geniş bir şəkildə bərqərar etmək olan bu islahat gözlənilən nəticəni verməyincə, çarizm yeni inzibati idarəçilik sistemini qurmaq qərarına gəldi. Gəncə və ətraf bölgələr Rusiyanın Qafqazdakı müstəmləkəçi sistemində əhəmiyyətli yer tuturdu. 1804-cü ildə Gəncə şəhəri ruslar tərəfindən işğal edildikdən sonra [1, s.120-123], 1804-cü ilin aprelində Gəncənin adı da dəyişdirilərək çar I Aleksandrın arvadı Yelizavetanın şərəfinə "Yelizavetpol" adlandırıldı [8, c.594]. Yaradılan Yelizavetpol dairəsi yuxarıda qeyd etiyimiz islahatdan sonra Gürcü-İmeretiya quberniyasının, 1846-cı ildə Tiflis quberniyasının tərkibinə daxil edildi. 1867-ci il dekabrın 9-da verilən Fərman ilə Yelizavetpol quberniyası yaradıldı. Bakı quberniyasından Şuşa və Nu-

xa qəzaları, Tiflis quberniyasından Yelizavetpol qəzası, İrəvan quberniyasından ləğv edilmiş Ordubad qəzasının bir hissəsi onun tərkibinə daxil edildi, yeni Qazax və Zəngəzur qəzaları yaradıldı. 1873-cü ildə Yelizavetpol quberniyası tərkibində Ərəş, Cəbrayıl və Cavanşir qəzaları təşkil olundu [11, s.III].

İşğaldan sonrakı dövrdə Şimali Azərbaycanın, o cümlədən Gəncə bölgəsinin əhalisi, say və hərəkət dinamikası, eləcə də etnokonfessional durumunu müəyyən etmək üçün statistik materiallar xeyli dərəcədə olsa da, 1897-ci il əhali siyahıyaalınmasına qədərki dövr üçün məlumatlar xeyli kasaddır. Gəncə bölgəsinin demoqrafik vəziyyəti ilə bağlı mənbələrin arasında Qafqaz Arxeoqrafik Komissiyasının Aktları (*Акты Кавказской Археографической Комиссии*), 1851-ci ildə Rusiyanın quberniya və qəzaları üzrə əhali tədqiqatları (*О народонаселении России по губерниям и уездам*) və Qafqaz Statistik Komitəsinin (*Кавказский Статистический Комитет*) müxtəlif illər üzrə təqvim-məlumatlarıdır. O zamana qədər imperiyada əhali siyahıyaalınması keçirilmədiyi üçün, bu mənbələrdəki məlumatları müqayisə etmək çox çətindir, çünki mötəbərlik dərəcəsi yüksək deyildir.

Gəncə bölgəsinin, eləcədə bütün Şimali Azərbaycanın demoqrafik vəziyyəti haqqında əlimizdə ən mötəbər mənbə isə 1897-ci ildə keçirilmiş əhali siyahıyaalması ilə bağlı 1904-cü il nəşridir. Yelizavetpol quberniyası 1867-ci ildə təşkil edilmişdir, bu müddətdə isə Rusiya imperiyasında siyahıyaalmanın həyata keçirilməsi nəzərdə tutulsa da, müxtəlif səbəblərdən, onu yalnız 1897-ci ildə reallaşdırmaq mümkün olmuşdur. 1895-ci il iyunun 5-də çar II Nikolayın fərmanı ilə 1897-ci ildə baş tutan əhali siyahıyaalmasında başlıca diqqət əhalinin sayına, dil və din mənsubiyyətinə, yaş və cinsinə, təsərrüfat məşğuliyyətinə, savadlılıq dərəcəsinə yönəldilmişdir [7]. Siyahıyalmanın nəticələri öz əksini 1904-cü il nəşrində tapmışdır (*Первая Всеобщая перепись населения Российской империи 1897 года* - 13).

1851-ci ildə Rusiyanın quberniya və qəzaları üzrə əhali tədqiqatlarına görə, Qori, Yelizavetpol, Sığnaq, Telavi və Tiflis qəzalarını, həmçinin Dağ dairəsini, Car-Balakən hərbi dairəsini, Osetiya dairəsini və Tuş-Pşav-Xevsur dairəsini əhatə edən Tiflis quberniyasının əhalisi 491.485 nəfər olub, onlardan 267.786 nəfəri kişilər, 223.699 nəfəri isə qadınlar idi. Bu araşdırmalardan bəlli olur ki, Yelizavetpol qəzasında kişilərin sayı 48.888 nəfər olmuşdur, qadınların sayını məyyən etmək isə mümkün olmamışdır [10, s.139-140].

1885 və 1886-cı illərə görə Yelizavetpol quberniyasının əhalisinin qəzalar üzrə bölgüsü aşağıdakı şəkildə olmuşdur:

**1885-ci il 1 yanvar tarixinə aid məlumat:** Yelizavetpol - 91.649; Ərəş - 45.755; Nuxa-79.171; Qazax - 85.683; Cavanşir - 56.143; Cəbrayıl - 59.323; Zəngəzur - 96.210; Şuşa - 79.865 (Cəmi: 670.111 nəfər) [9, s.202].

**1886-cı il 1 yanvar tarixinə aid məlumat:**Yelizavetpol - 92.621; Ərəş - 46.267; Nuxa - 80.209; Qazax - 86.861; Cavanşir - 56.667; Cəbrayıl - 59.778; Zəngəzur - 96.902; Şuşa - 81.157 (Cəmi: 677.645 nəfər) [9, s.202].

1880 və 1886-cı illərin statistik məlumatlarını müqayisə etsək, quberniyanın əhalisinin etnik tərkibində aşağıdakı dəyişiklikləri görə bilərik:

**1880-ci il 1 yanvar tarixinə aid məlumat:**Azərbaycan türkləri – 60,28 %; Ruslar – 1,5 %; Kürdlər – 2,59 %; Udilər – 1,63 %; Ermənilər – 32,63 %; Digəriləri – 1,37 % [13, s.22].

**1886-cı il 1 yanvar tarixinə aid məlumat:** Azərbaycan türkləri – 62,8 %; Ruslar – 1,91 %; Udilər – 1,04 %; Ermənilər – 33,1 %; Digəriləri – 1,15 % [9, s.203].

Yelizavetpol quberniyasının konfessional durumuna gəlincə, 1886-cı il məlumatlarına görə, əhalinin 63,25 %-ni müsəlmanlar, 36,47 %-ni xristianlar, 0,28 %-ni isə yəhudilər təşkil etmişdir [9, s.203].

1897-ci ildə keçirilmiş əhali siyahıyaalması ilə bağlı 1904-cü il nəşrində göstərilir ki, "Yelizavetpol quberniyası Zaqafqaziyanın ən böyük quberniyalarından olub ... səkkiz qəzadan ibarətdir: Yelizavetpol, Ərəş, Nuxa, Qazax, Cavanşir, Cəbrayıl, Zəngəzur və Şuşa" [11, s.III]. 1897-ci əhali siyahıyaalmasına görə, Yelizavetpol quberniyasının əhalisinin sayı 878.415 nəfər olub qəzalar üzrə aşağıdakı şəkildə olmuşdur: Yelizavetpol - 162.778; Ərəş - 67.277; Nuxa - 129.555; Qazax - 112.074; Cavanşir - 72.719; Cəbrayıl - 66.360; Zəngəzur - 137.871; Şuşa - 139.771.

Quberniyada əhalinin sayına görə ən böyük qəzalar Yelizavetpol, Şuşa və Zəngəzur, sıxlığına görə isə Nuxa olmuşdur; əhalinin ən az sayı olan qəza Cəbrayıl, sıxlığın ən seyrək olduğu qəza isə Cavanşir olmuşdur [11, s.III-IV, 1-2].

Yelizavetpol quberniyasında şəhər əhalisi ümumi əhalinin 10,16 %-ni, kənd əhalisi isə müvafiq olaraq – 89,84 %-ni təşkil edirdi. Quberniyada kişilərin sayı, Rusiya imperiyasının digər bölgələrinə nisbətən, üstünlük təşkil edirdi, o cümlədən, Yelizavetpolda – 55,62 %, Ərəşdə – 82,20 %, Qazaxda – 76,20 %, Cavanşirdə – 56,34 %, Cəbrayılda – 70,96 % əhali kişilərdən ibarət idi [11, s.IV, 1-2]. Kənd və şəhər yerlərində bu faizlər xeyli dəyişirdi. Yaş qrupuna görə də quberniya əhalisi seçilirdi. Belə ki, kəndlərdə 1-10 yaş arası uşaqların faiz üstünlüyü şəhərlərdə 20-29 yaş üstünlüyü ilə əvəz olunurdu [11, s.V, 7-17]. Bölgə əhalisinin ailə vəziyyətinə gəlincə, evli olanların ən böyük faizi 40-49 yaş arası, subayların ən böyük faizi isə 20-29 yaş arası olaraq göstərilir. Qadınların 77,56 %-i, kişilərin isə 68,00 %-i evli olmuşdur [11, s.VI, 20-25].

Ümumiyyətlə, 1897-ci il əhali siyahıyalması etnik tərkibə görə məlumatları əks etdirmir, sadəcə danışdıqları dilə görə bu mənsubiyyəti müəyyən edir. Bu səbəbdən də, həmin məlumatların nə qədər dəqiq olması sual altındadır. Digər tərəfdən, nəşrdə Azərbaycan türk dili ifadəsi də işlədilməşmişdir, konkret Gəncə quberniyasının əhalisi ilə bağlı isə "tatar dili" sözündən sonra "Azerbaydjanski" (*азербайджанский*) ifadəsi istifadə edilmişdir [11, s.3, 63]. Azərbaycan əhalisinin dinamikasını və quruluşunu araşdıran Ş.Muradov haqılı olaraq qeyd edir ki, bu dövrdə Azərbaycan, türk və tatar dillərində danışanların sayının qəsdən qarışıq salınması siyasi məqsəd daşımışdır [4, s.47]; bu məqsədin də mahiyyəti bölgədə Azərbaycan türklərinin üstün millət olduğunu gizlətməkdən ibarət olmuşdur.

Beləliklə, 1897-ci il əhali siyahıyaalmasına görə, digər Azərbaycan bölgələrində olduğu kimi, Gəncə quberniyasında da Azərbaycan türkləri (mənbədə tatarlar olaraq qeyd edilməkdədir) üstün olub 60,80 % idi [11, s.3, 63]. Nəşrdə erməni dilində danışanların faizi 33,26 göstərilmişdir ki, bu da 1897-ci ilə doğru çarizmin bölgədə həyata keçirmiş olduğu köçürmə siyasətinin, dəqiq desək, ermənilərin tarixi Azərbaycan torpaqlarına yerləşdirilməsinin nəticəsidir.

1828-ci il Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən İran ərazisində yaşayan ermənilərin kütləvi şəkildə tarixi Azərbaycan torpaqlarına köçürülməsi rəsmiləşdirilmişdir [5, s.69]. Təkcə 1828-ci ilin fevral-iyun ayları içərisində Qacar dövlətindən Şimali Azərbaycan ərazisinə 8249 erməni ailəsi, yəni 40.000 nəfər (bəzi mənbələrə görə isə 90.000) erməni köçürülmüşdür [5, s.74; həmçinin bax: 14, s.180]. Yenə eyni qaydada, Rusiya ilə Osmanlı dövləti arasında imzalanan 1829-cu il Ədirnə müqaviləsinin 4-cü maddəsinə görə, Osmanlı dövlətindən köç edən ermənilərin Şimali Azərbaycan torpaqlarında yerləşdirilməsinə qərar verilmiş, təkcə 1830-cu ildə bu bölgələrə 22.000-ə yaxın erməni köçürülmüşdür [2, s.37; həmçinin bax: 15, s.539-540].

Gəncə quberniyasının əhali tərkibində digər etnik nümayəndələrə gəlincə, qeyd etdiyimiz 1897-ci il siyahıya almasında bu məlumatlar aşağıdakı şəkildə əks olunmuşdur: Velikoruslar -1,61; Maloruslar - 0,10; Beloruslar - 0,33; Polyaklar - 0,07; Almanlar - 0,36; Yunanlar -0,06; Tatlar - 0,20; Kürdlər - 0,35; Yəhudilər - 0,02; Gürcülər - 0,14; Ləzgilər - 2,57; Digəriləri - 0,13 [11, s.VII, 3, 62-63].

Quberniyada konfessional vəziyyətə gəlincə, bu dövrdə əhalinin yarıdan çoxu – 62,93 %-i müsəlmanlar olub, digəriləri qriqoryan, pravoslav, yəhudi, protestant və katoliklər olmuşdur. Pravoslavlar əsasən ruslar və gürcülər, qriqoryanların əksəriyyəti isə ermənilər idi, hərçənd ki, ermənilərin arasında katolik olanlar da var idi [11, s.VII, 60-61, 65-67].

Beləliklə, 1886-cı il ilə müqayisədə Yelizavetpol quberniyasının etnokonfessional durumunda böyük olmasa da, bəzi dəyişikliklər olmuşdur: Azərbaycan türklərinin sayı 62,8 %-dən 60,80 %-ə, müsəlmanların sayı isə müvafiq olaraq 63,25 %-dən 62,93 %-ə düşmüş, xristianların sayı 36,47 %-dən 37,07 %-ə yüksəlmişdir [müqayisə et: 9, s.202-203]. Bu faktlar, bir tərəfdən, çarizmin Şimali Azərbaycanda apardığı köçürmə siyasətinin,daha doğrusu, xristian əhalinin sayının artırılması siyasətinin nəticəsidirsə, digər tərəfdən də, ölkədə türk-müsəlman əhalinin sosial vəziyyətinin daha ağır olması və nəticə etibarilə ölüm faizinin də göstəricisidir.

*Nəticə*. XIX əsrdə Yelizavetpol quberniyasının demoqrafik tədqiqi nəticəsində belə qənaətə gəlmək olur ki, Gəncə bölgəsində yaşayan əhalinin əsas hissəsini Azərbaycan türkləri və digər mü-

səlman xalqlar təşkil etmişdir. Nəzərdən keçirdiyimiz mənbələrin məlumatları göstərir ki, bu dövrdə yaşanan hərbi-siyasi proseslər, o cümlədən Rusiyanın Şimali Azərbaycan torpaqlarını işğal etməsi və müstəmləkəyə çevriməsi, o cümlədən yerli əhalinin münbit torpaqlardan zorla köçürülməsi və həmin torpaqlarda ermənilərin yerləşdirilməsi bəzi miqrasiya proseslərinə gətirib çıxarmış, Gəncə bölgəsinin əhalisinin etnokonfessional tərkibində dəyişikliklərə səbəb olmuşdur. Lakin bu prosesləri əks etdirən mənbələr, eyni zamanda ermənilərin Qafqazda gəlmə bir xalq olduğunu isbatlayır.

## ƏDƏBİYYAT

1. Babazadə E.T. Gəncə xanlığının tarixindən (rus dilindən tərcümə, 2-ci nəşri). Bakı, “Şərq-Qərb”, 2012 – 428 s.
2. Əliyeva F. Ermənilərin “Erməni vilayəti”ndə məskunlaşdırılması məsələsi // “Tarix və onun problemləri”, 2011, sayı 2, s.33-43.
3. Məmmədzadə N.A. XIX əsrin birinci yarısında çar Rusiyasının işğalçılıq siyasəti və Şimali Azərbaycan // “Tarix və onun problemləri”, 2011, sayı 4, s.33-36.
4. Muradov Ş. Azərbaycan Respublikası əhalisinin dinamikası və qurluşu: əsas demoqrafik və etno-demoqrafik dəyişikliklər (1897-2007-ci illər). Bakı, “Elm”, 2008 – 240 s.
5. Nəcəfli G.C. Ermənilərin İrandan Şimali Azərbaycan torpaqlarına məqsədyönlü şəkildə köçürülməsi (yeni qaynaqlar işığında) // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2015, sayı 3, s.68-77.
6. Акты, собранные Кавказской Археографической Комиссией. Тифлис, Типография Главного Управления Наместника Кавказского, том IX, 1884 – 1013 с.
7. Высочайше утвержденное 5-го июня 1895 года Положение о первой всеобщей переписи населения Российской империи. Санкт-Петербург: издание Центрального статистического комитета Министерства внутренних дел, 1895, [2], 3 – 18 с.
8. Высочайший рескрипт генерал-лейтенанту кн. Цицианову, от 5-го февраля 1804 года // АКАК, том II, 1868, док. № 1186, с.593-594.
9. Кавказский Статистический комитет. Е.Кондратенко. 1886 // Кавказский календарь на 1887 год. Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1886 – 490 с.
10. О народонаселении России по губерниям и уездамъ LIII. Тифлисская губерния // Девятая ревизия. Исследование о числе жителей в России в 1851 году Петра Кеппена. Санкт-Петербург: Типография Императорской Академии наук, 1857, 297 стр.
11. Первая Всеобщая перепись населения Российской империи 1897 года / под ред. и с предисловием Н.А.Тройницкого. [Санкт-Петербург]: издание Центрального Статистического Комитета Министерства внутренних дел, 1899-1905. Елизаветпольская губерния. – 1904, XII, 184 с.
12. Петрушевский И.П. Система русского колониального управления в Азербайджане в первой половине XIX века // Колониальная политика российского царизма в Азербайджане в 20-60-х годах XIX века. Часть первая. Феодальные отношения и колониальный режим 1827-1843 гг. Баку, «Renessans A», 2014, с.7-44.
13. Пространство и население Кавказского Наместничества // Кавказский календарь на 1881 год. Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1880.
14. Смирнов Н.А. Политика России на Кавказе в XVI-XIX веках. Москва, 1958.
15.Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852 – 1001 с.

**ХИКМЕТ АХМЕДОВ**
*Доктор философии по истории, Бакинский Государственный Университет*
**ЛЕЙЛА ВАГИФ КЫЗЫ**
*Доктор философии по истории, Бакинский Государственный Университет*

## ЭТНИЧЕСКИЙ СОСТАВ НАСЕЛЕНИЯ ГЯНДЖИНСКОГО РЕГИОНА В XIX ВЕКЕ

В статье исследуется демографическая ситуация и этнический состав населения Гянджинского региона в XIX веке в историко-хронологическом контексте.

В ходе исследования источниками послужили акты Кавказской археологической комиссии (Акты Кавказской археологической комиссии), перепись 1851 г. губерний и уездов России (О населении России в губерниях и уездах) и Кавказского статистического комитета (Кавказский статистический комитет). Методы статистического и сравнительного анализа широко используются для оценки процессов в историческом контексте на научной основе.

*Ключевые слова*: Елизаветполь, население, перепись, статистика, этнический состав.

**HIKMAT AHMADOV**
*Doctor of Philosophy in History, Baku State University*
**LEYLA VAGİF QIZI**
*Doctor of Philosophy in History, Baku State University*

## ETHNIC COMPOSITION OF THE POPULATION OF THE GANJA REGION IN THE XIX CENTURY

The article examines the demographic situation and ethnic composition of the population of the Ganja region in the 19th century in a historical and chronological context.

In the course of the study, the sources were the acts of the Caucasian Archaeological Commission (Acts of the Caucasian Archaeological Commission), the 1851 census of the provinces and districts of Russia (On the population of Russia in the provinces and districts) and the Caucasian Statistical Committee (Caucasian Statistical Committee). Statistical and benchmarking methods are widely used to assess processes in a historical context on a scientific basis.

*Keywords*: Elizavetpol, population, census, statistics, ethnic composition.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 noyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Sevil Heydərova, t.e.d. Qabil Əliyev.*

UOT 94(479.24)

**LEYLA ƏSƏDOVA**
*Füzuli rayonu Üçbulaq tam*
*orta məktəbinin tarix müəllimi*
**leylaasadova2412@gmail.com**

# FÜZULİ RAYONUNUN İLK ZİYALILARINDAN BİRİ *ƏKBƏROV ƏSKƏR RÜSTƏM OĞLU HAQQINDA*

*Məqalədə haqqında bəhs edilən Əskər Rüstəm oğlu Füzuli rayonunda ilk yerquruluşu ixtisası almış mütəxəssis, həmçinin ilk ali iqtisad təhsilli ziyalılarımızdan biri olmuşdur. O, Naxçıvan MSSR-də və Qaradonlu (Sabirabad) və Karyagin (Füzuli) rayonlarında məsul vəzifələrdə çalışmış, hər dəfə erməni intiriqalarının qurbanı olmuşdur.*

*Açar sözlər*: Füzuli rayonu, Hoğa (Üçbulaq) kəndi, Tuğ Türk Əmək məktəbi, bölgənin ilk yer-quruluşçusu, ali təhsilli iqtisadçı, erməni xəyanəti.



Məqalədə haqqında bəhs edilən şəxs Əskər Rüstəm oğlu Füzuli rayonunda və ya o zamankı adı ilə desək Karyagində ilk ali təhsilli ziyalılarımızdan biri olmuşdur. O, 1914-cü ildə Karyagin qəzasının Hoğa (Üçbulaq) kəndində yoxsul bir ailədə dünyaya göz açmışdı. Atasını çox erkən yaşlarında itirmiş, ona görə də anasını və bacısını saxlamaq üçün sözün əsil mənasında özünü oda-közə vurmuşdu. Həm də çox fəhmli bir uşaq olmuş, zamanın tələbini düzgün anlamış, bütün fürsətlərdən yararlanaraq təhsilini daim artırmağa çalışmışdı. O, 1924-1929-cu ildə Tuğ kəndində yerləşən Türk Əmək məktəbində təhsil almış, 1929-cu ildə tam beşillik kurs bitirmişdi. Bu haqda məktəbin müdiri M.Cahangirovun 30 may 1929-cu il tarixdə imzaladığı vəsiqədə məlumat verilmişdir [Baxın: 1 saylı sənəd].

Əskər Əkbərovun tərcümeyi-halında əks olunmuş bu faktın günümüzdə böyük əhəmiyyəti vardır. Bu fakt aydın göstərir ki, Azərbaycan Ordusunun 44 günlük müharibədə azad etdiyi Xocavənd (o zamankı Hadrut) rayonunun Tuğ kəndi 1920-30-cu illərdə əhalisinin əksəriyyəti türk (azər-

baycanlı – L.Ə.) idi. Ona görə də buradakı ilk təhsil verən yeddillik məktəb Türk Əmək məktəbi adlanırdı və həmin məktəbin müdiri də azərbaycanlı M.Cahangirov idi.

Tuğ kəndi Qarabağın cənub hissəsində yerləşən Dizaq mahalının, daha öncədən mövcud olan eyni adlı məlikliyin mərkəzi olmuşdur. 1727-ci ildə tərtib edilmiş Qarabağ əyalətinin müfəssəl dəftərinin məlumatına görə Tuğ kəndində 73 ailə yaşayırdı. Orta yüzilliklərdən burada müsəlman dini məktəbi mövcud idi və Rusiya işğalı dövründə fəaliyyətini davam etdirmişdi. XIX əsrin ortalarında isə bu məktəb fəaliyyətini daha da genişləndirmişdi. Bu fəallıq 1859-cu ildə Şıxımlı kəndindən Tuğa köçən görkəmli şair və tarixçi Mirmehdi Mirhəşimbəy oğlu Qarabağinin (Xəzani) buradakı məktəbdə pedaqoji fəaliyyətə başlaması idi [1]. 1883-cü ildə çar III Aleksandrın fərmanı ilə Tuğ məktəbi rus dilində təhsil verən ikisinifli ibtidai kənd məktəbinə çevrilmişdi. 1894-cü ilə kimi bu məktəbin müdiri Mirmehdi Xəzani, 1894-1922-ci illərdə Məhəmməd bəy Məlik-Yeqanov olmuşdular. Məhəmməd bəy Məlik-Yeqanov Qori Müəllimlər Seminariyasını bitirmişdi. Onun müəllimliyi dövründə Tuğ məktəbi dördsinifli məktəbə çevrilmişdi [2]. AXC Yollar və Rabitə naziri Xudadat bəy Məlikaslanov, AXC Parlamenti üzvü Cavad bəy Məlik-Yeqanov Tuğ məktəbinin məzunu olmuşdular [3]. Sovet hakimiyyəti qurulduqdan sonra Tuğ məktəbi yeddiillik təhsil verən Türk Əmək məktəbinə çevrilmişdi.

Gənc Əskər məktəbi bitirdikdən sonra Hoğa kəndində yenicə təşkil edilmiş "İnternasional" kolxozunun ilk üzvlərindən biri olmuşdu [Baxın: 2 saylı sənəd]. O, digər yoxsul kəndlilər kimi kolxoza bir dolanışıq mənbəyi kimi baxır, ailəsini keçindirmək üçün var qüvvəsi ilə çalışırdı.1930-1931-ci illərdə kolxozda müxtəlif işlərdə işləmişdi. Lakin təhsilini davam etdirmək xəyalından da vaz keçməmişdi.

Belə bir fürsət 1931-ci ildə yarandı. Gənc Əskər həmin il Bakıda Ağamalı oğlu adına Azərbaycan Torpaq quruluşu və meşə təsərrüfatı texnikumuna daxil oldu. 1931-1934-cü illərdə bu texnikumda Torpaq quruluşu ixtisası üzrə təhsil aldı. Bu ixtisas həmin dövrdə kəndlilərin pay torpağı, dövlət torpağı, kolxoza verilən əkin və örüş yerləri, kolxoz üzvlərinin yardımçı təsərrüfatı üçün ayrılan ərazilərin ölçülməsi və sənədləşməsi ilə bağlı ən gərəkli ixtisasların önündə gəlirdi.

1934-cü ildə Ə.Əkbərov gənc mütəxəssis kimi Azərbaycan SSR Xalq Torpaq Komissarlığında işə başladı. Həmin vaxt Naxçıvan MSSR-də yer quruluşçusu ixtisası üzrə mütəxəssislərə çox böyük ehtiyac olması ilə əlaqədar onu bu regiona ezam etdilər.

Ə.Əkbərovun şəxsi sənədlərindən bəlli olur ki, o, 19 yanvar 1935-ci ildən Naxçıvan rayonu Torpaq şöbəsində yer quruluşçusu vəzifəsinə təyin edilmişdir. Qnun bu vəzifəyə təyin olunması Naxçıvan rayonu Torpaq şöbəsini müdiri Nersesyanın ürəyincə olmamış, azərbaycanlı gənc mütəxəssisə qısqanclıqla yanaşmış, özünə rəqib saymışdı. Əskər də öz işinə vicdanla yanaşaraq, bütün tapşırıqları vaxtında yerinə yetirməklə diqqət çəkmişdi. 1935-ci ilin 28 avqustunda Naxçıvan MSSR Xalq Torpaq Komissarının müavini Markarov Bakıya Az.SSR Xalq Torpaq Komissarlığına müraciət edərək muxtar respublikada yer quruluşçusu işçilərinə kəskin tələbat olduğunu bildirmiş və Ə.Əkbərovun Naxçıvanda saxlanmasını xahiş etmişdi. Lakin erməni intiriqası nəticəsində həmin il sentyabrın 7-də vəzifəsindən azad olunmuşdu. O, Naxçıvanda olarkən orada doqquzillik məktəbi bitirmişdi.

Əsgərin şəxsi işində 20 sentyabr 1935-ci il tarixli bir arayış vardır. Hoğa kənd soveti sədrinin azərbaycanca yazıb, imzaladığı həmin arayışda Hoğa kəndinin sakini Əkbərov Əskər Rüstəm oğlunun yoxsul kəndli ailəsindən olduğu, valideynlərinin vəfat etdiyi və onun özünə məxsus torpağı və ev əşyaları olmadığı qeyd edilmişdi [Baxın: 3 saylı sənəd]. Bu arayış həmin dövrdə geniş yayılmış qaralama kompaniyası ilə əlaqədar alınmışdı. 1930-cu illərdə kolxoz quruculuğuna qarşı varlı kəndlilər – qolçomaqlar çıxış etdikləri üçün Sovet hökumətinin düşməni elan edilmişdilər. Ona görə birisini şərləmək istəyəndə: "o, qolçomaq ailəsindəndir" – demək kifayət edirdi. Görünür, Naxçıvanda belə qaralama kompaniyasına məruz qaldığı üçün Əskər Naxçıvandakı vəzifəsindən öz ərizəsi ilə çıxmaq məcburiyyətində qalmış və belə bir arayış təqdim etmişdi.

Növbəti təyinatla iş yeri Qaradonlu (Sabirabad) royonu oldu. Əskər Əkbərov 10 sentyabr 1935-ci ildən 1 iyun 1936-cı ilə kimi Qaradonlu (Sabirabad) royonunda rayon yer quruluşçusu vəzifəsində çalışmış, həmçinin rayon komsomol komitəsində pulsuz təlimatçılıq vəzifəsini aparmışdı [Baxın: 4 saylı sənəd]. 26 fevral 1936-cı ildə Qaradonlu (Sabirabad) royon partiya komitəsi katibinin göstərişilə komsomol işinin təşkili üçün rayonun bütün kolxozlarında iclaslar keçirmişdi.

Ə.Əkbərov bu rayonda işlərkən hərbi xidmətə çağrılmışdı. Qaradonlu rayonu Torpaq şöbəsi müdiri Şirinov 1 iyun 1936-cı ildə Az.SSR Xalq Torpaq Komissarı Vəzirova müraciət edərək Ə.Əkbərovun kolxozlara torpaq və kolxozçulara həyəyanı sahə ayrılması üçün rayonda yeganə yer quruluşçusu mütəxəssisi olmasını nəzərə alaraq, ona əsgərliyə çağırışdan möhlət verilməsini xahiş etmişdi. Lakin xahiş cavabsız qalmış, Ə.Əkbərov 2 iyun 1936-cı ildən 1 oktyabr 1936-cı ilə kimi 1912 saylı hərbi hissədə xidmət etmişdi.

Gənc, yaşayıb-yaratmaq həvəsi aşıb-daşan Əskər hərbi xidməti bitirən kimi sənədlərini K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna vermişdi. O, 1936-1940-cı illərdə bu ali məktəbin Plan-İqtisad fakültəsində sənayenin planlaşdırılması ixtisası üzrə ali təhsil almışdı [Baxın: 5 saylı sənəd]. Heç yerdən yardım almayan bu kasıb gənc hər yay tətilində işləməklə özünün dolanışıq xərclərini çıxarmışdı.

Onun şəxsi sənədlərindəki arayışlardan məlum olur ki, 1937-ci ildə yay tətilində 20 iyundan 21 avqusta kimi Azərbaycan SSR Xalq Torpaq Komissarlığının Heyvandarlıq idarəsində katib işləmişdi. 1938-ci ilin yay tətilində isə Bazarçay Qırmızı çadırı müdiri vəzifəsində çalışmış, ayda 300 rubl maaş almışdı. Qaradonlu rayonu Köçəri müvəkkili Əli Mamedovun imzaladığı 8 sentyabr 1938-ci il tarixli arayışa görə həmin il iyunun 16-dan sentyabrın 8-nə kimi yaylaqda köçəri kəndlilər içərisində mədəni iş aparmışdı. Arayışda onun savadsızlığı ləğv etmə kursları təşkil etməsi xüsusilə yüksək qiymətləndirilmişdi.

25 aprel 1939-cu ildən 25 iyun 1939-cu ilə kimi həmin institutun VI semestrində təhsil alan tələbə kimi Bakı şəhərində Volodarski adına Tikiş fabrikinin Plan şöbəsində təcrübə keçmişdir. Bu haqda müsbət xasiyətnaməni fabrikin plan şöbəsini müdiri Ovanesov imzalamışdır. Xasiyətnamədə Əskər Əkbərov "diqqətli, praktikada qarşısına qoyulan tapşırığa vicdanla yanaşan işçi" kimi xarakterizə edilmişdir.

25 iyun 1939-cu ildə Molotov rayonu RXMŞ-də metodist vəzifəsinə təyin olunmuş, 25 iyun 1939-cu ildən Şamaxı şəhəri 139 saylı məktəbində müdir vəzifəsini müvəqqəti icra edən kimi fəaliyyətə başlamışdır. 27 avqust 1939-cu ildə bu vəzifəni və məktəbin inventarını yeni təyin olunmuş B.Baqramyana təhvil vermişdi.

22 oktyabr 1939-cu ildən 13 yanvar 1940-cı ilə kimi Samur-Dəvəçi kanalının İnşaat İdarəsində 1-ci sahədə mühasib-iqtisadçı vəzifəsində çalışmışdı Bu haqda İnşaat İdarəsi rəisi Kavsardjanın imzaladığı arayışda məlumat verilmişdi. 1-ci sahə rəisi B.Qavanevin imzaladığı xasiyətnamədə Əskər Əkbərovun kanalın inşası zamanı torpaq işləri uçotunda qayda yaratması, sərf edilən tikinti materialının, çalışan kolxozçuların əmək günlərinin düzgün uçotunu aparması razılıqla qeyd edilmişdi.

Ali təhsilini uğurla başa vurduqdan sonra Əskər Əkbərov öz doğma rayonuna qayıtmışdı. Rayonun ilk ali təhsilli yerli kadrlarından biri kimi dərhal diqqəti cəlb etmişdi. 1940-cı ilin avqust ayında Karyaqin rayon zəhmətkeş deputatları Soveti İcraiyyə Komitəsini Plan şöbəsinin müdiri təyin edilmişdi. Həmin ilin oktyabr ayında Karyaqin rayon zəhmətkeş deputatları Soveti İcraiyyə Komitəsi sədri Vəliyevin vəsiqəsi ilə Hadrut rayonuna ağac tədarükünə ezam edilənlərə rəhbərlik etmiş və bu tapşırığı yüksək səviyyədə icra etmişdi. O, rayon Plan Komissiyasının sədri kimi bacarıqla çalışmış, el-obada böyük nüfuz qazanmışdı. Lakin ailə üzvlərinin sonralar bəhs etdiyi kimi, burada da hər addımda erməni intiriqaları ilə üzləşmişdi.

Əskər Əkbərov 1941-ci ildə müharibə başlandıqdan dərhal sonra könüllü cəbhəyə getmiş, mühüribə gedişində itkin düşmüşdü.

Prof.Qabil Əliyev: Füzuli rayonu Üçbulaq tam orta məktəbinin tarix müəllimi Əsədova Leyla Ənvər qızının bu məqaləsi ulu nənəsinin qardaşı haqqındadır. Bu həm bir tarix müəlliminin öz eli, obası, kəndinin keçmişi haqqında vəfa borcu, həm keçmişə işıq tutan çox maraqlı faktların şərhi kimi əhəmiyyətlidir.

1 saylı sənəd.
*Tuğ türk əmək məktəbinin vəsiqəsi*




2 saylı sənəd.
*Hoğa həndində təşkil edilmiş "İnter" adlı kolxozun üzvü olması haqqında arayış*



3 saylı sənəd.
*Hoğa həndində yoxsul ailəsinə mənsub olması haqqında arayış*


20. IX.
№ 150

Справка.

дана настоящая Председсельсоветом Корягинского района сел. „Коғя" жителю того-же селения Акперу Рустамовичу Акперову в том что, он является по происхождении бедняк син. умерших родителей крестьянина не имеющаго земли и домашности.

В чем удостоверяется подписью и приложением печати.

Пред-Сел-Совет

Секретар.

4 saylı sənəd.
*Qaradonlu rayonunda işləməsi haqqında arayış*


1 VI 6
883.

Справка

Выдана настоящая Райземлемеру Карадонлинского Р-на т. Акперову Акеру в том что он проработал в указанной Р-не с 10-сентября 1935 г. по 1-июня 1936 года т. Акперов к работе относился аккуратно и добросовестно который себя хорошо показал в работе по подготовке закрепления земли за колхозами и приусадебных участков колхозников.

Зав. Райзо: /Ширинов/

Сек:

5 saylı sənəd.
*Ali təhsil alması haqqında arayış*



Приложение к диплому № 381531

ВЫПИСКА ИЗ ЗАЧЕТНОЙ КНИЖКИ
/ без диплома недействительна/

Тов.АКПЕРОВ АСКЕР РУСТАМ оглы за время пребывания на Планово-Экономическом фак-те Азерб.Госуд.Института Народного Хозяйства им.К.Маркса сдал следующие дисциплины:

| | |
|---|---|
| I. Политэкономия | - посред,посред,отлично |
| 2. История Народного Хоз-ва | - посред,посред. |
| 3. Экономгеография | - посред,посред. |
| 4. Математика | - посред,посред. |
| 5. Химия | - посредственно |
| 6. Физика | - посредственно |
| 7. Иностранный язык | - посред,посред |
| 8. Физкультура | - зачет |
| 9. Статистика | - посредственно |
| I0. Военное дело | - отлично |
| II. Товароведение | - отлично |
| I2. История эконом.учений | - посредственно |
| I3. Бухгалтерский учет | - посредственно |
| I4. Диалектический материализм | - посредственно |
| I5. Организация и планирован.промышлен | - посредственно |
| I6. Промстатистика | - посредственно |
| I7. Эконом.и планирован.промышлен | - отлично |
| I8. Основы Маркс-Ленинизма | - отлично |
| I9. Гражданское право | - отлично |
| 20. Нархозпланирование | - посредственно |
| 2I. Энергетика | - хорошо,отлично |
| 22. Анализ хоз.деятельности | - отлично |
| 23. Эконом.и планир.с/хоз-ва | - отлично |
| 24. Технология | - отлично |
| 25. Русский язык | - посредственно |

Тов.Акперов Аскер Рустам оглы сдал государственный экзамен по следующим предметам:

| | |
|---|---|
| I. Политэкономия | - посредственно |
| 2. Экономгеография | - посредственно |
| 3. Основы Маркс-Ленинизма | - хорошо |
| 4. Соципланирование | - хорошо |
| 5. Экономпланирование | - отлично |

Директор Азерб.Госуд.Института Народного Хоз-ва им.К.Маркса /ГашимЗаде/.-

Декан Планово-Экон.Фак-та /Гаджинский/.-

Секретарь фак-та /Айрапетова/.-

" 6 " Июля I940 года
гор. Баку

Регистрац № 480..

6 saylı sənəd.
*Ali təhsil alması haqqında diplomun surəti*



КОПИЯ

ДИПЛОМ № 381531.

Пред вител сего тов.Акперов Аскер Рустам оглы в 936г поступил и в 940г окончил полный курс Азербайджанского Государственного института Народного хозяйства имени К.Маркса по планово экономическому факультету по специальности социалистическое планирование /промышленность/ и решением Государственной Экзаменационной Комиссии от 2-го июля 940г ему присвоена квалификаци экономиста плановика.

Председатель Государственного Экзамен.комиссии подпись

Директор подпись

Секретарь подпись

Гор.Баку 6 июл 940г
Регистрационный №480

Верно:

ƏDƏBİYYAT

1. Quliyev N. Xəzani // "Elm və həyat" jurnalı, 1977, № 2, s.48-51.
2. Əhmədov H. XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişaf tarixi. Bakı, Maarif nəşriyyatı, 1972, 432 s.
3. Tuğ (Xocavənd). - https://az.wikipedia.org/wiki/ [Müraciət tarixi: 13.10.2021].

**ЛЕЙЛА АСАДОВА**
*учитель истории полный средней школы*
*село Учбулаг Физулинского района*

## ОДИН ИЗ ПЕРВЫХ ИНТЕЛЛЕКТУАЛОВ ФИЗУЛИНСКОГО РАЙОНА. ОБ АКБАРОВЕ АСКЕР РУСТАМ ОГЛУ

Упомянутый в статье Аскер Рустам оглу Акберов был первым специалистом в области землеустройства, а также одним из первых кадров с высшим экономическим образованием в Физулинском районе. Он занимал ответственные должности в Нахчыванской АССР, Гарадонлуинском (Сабирабадском) и Карягинском (Физулинском) районах и каждый раз становился жертвой армянских интриг.

*Ключевые слова*: Физулинский район, село Хога (Учбулаг), Туркская Трудовая Школа в селе Туг, первый землеустроитель региона, экономист с высшим образованием, председатель Плановой Комиссии района, армянское предательство.

**LEILA ASADOVA**
*history teacher, complete secondary school,*
*Uchbulag village, Fizuli region*

## ONE OF THE FIRST INTELLECTUALS OF FIZULI REGION. ABOUT AKBAROV ASKER RUSTAM OGLU

Asker Rustam oglu Akberov mentioned in the article was the first specialist in the field of land management, as well as one of the first cadres with higher economic education in Fizuli region. He held positions of responsibility in the Nakhchivan Autonomous Soviet Socialist Republic, Garadonlui (Sabirabad) and Karyagin (Fizuli) regions, and each time he became a victim of armenian intrigues.

*Keywords*: Fizuli region, Khoga (Uchbulag) village, Turkic Labor School in Tug village, the first land surveyor of the region, economist with higher education, chairman of the Planning Commission of the region, armenian betrayal.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 oktyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2021-ci il.*
*Rəyçilər: t.ü.e.d. Qabil Əliyev, t.e.d. İsmayıl Məmmədov.*

**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər**

- Məqalələrdə müəllif(lər)in adı və soyadı açıq şəkildə, elmi adı və dərəcəsi, işlədiyi müəssisə, həmçinin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr  Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildə annotasiya, əlavə digər 2 dildə xülasə verilməlidir. Xülasənin üstündə məqalənin adı mütləq göstərilməlidir. Xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununu əks etdirməli, elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla 8-12 səhifə həcmində qəbul edilir (A4 format, səhifənin ölçüləri: yuxarı – 2 mm, aşağı – 2,5 mm, sol – 3 mm, sağ – 1,5 mm).

- Məqalədə UOT indekslər, 3 dildə açar sözlər göstərilməlidir.

- Məqalə Giriş, Əsas mətn (yarımbaşlıqlar göstərilməklə) və Nəticə hissələrindən ibarət olmalıdır. Məqalədə elm sahəsinin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, müəllifin gəldiyi nəticə aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da mətndə rast gəlindiyi ardıcıllıqla və [1] və ya [1, s.119] kimi nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbilərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının “Dissertasiyaların tərtibi qaydaları”  barədə qüvvədə olan təlimatının “İstifadə edilmiş ədəbiyyat” bölməsinin 10.2 – 10.4.6. tələbləri əsas götürülməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Ədəbiyyat siyahısı avtomatik nömrələmə ilə yığılmış məqalələr qəbul edilməyəcəklər.

- Məqaləyə mütləq 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Elmi jurnallarda “*əvvəli ötən sayımızda*”, *“ardı növbəti nömrədə”* adı altında seriya məqalələrin dərs olunmasına icazə verilmir.

- Texniki baxımdan düzgün tərtib edilməyən, həmçinin plagiatlıq faktı aşkar edilən məqalələr çap olunmayacaq.

***Redaksiya ilə əlaqə*:**
**TarixVeOnunProblemleri@gmail.com**

## Требования к оформлению научных публикаций

- В статье должны быть указаны место работы и адрес, электронный адрес автора (авторов).

- Статьи могут быть опубликованы на Азербайджанском, турецком, русском и английском языках. Резюме статьи должно быть на двух языках, помимо языка написания статьи. Оба резюме должны быть одинаковыми и отображать содержание статьи. В резюме должны быть показаны научный результат, научная новизна, практическая ценность и др. Резюме должно быть научно и грамматически отредактировано. В резюме должны быть полностью указаны название статьи, имя автора (авторов).

- Текст статьи должен быть набран шрифтом Times New Roman, кегль 14, 1,5 интервал латинской графикой для статей на азербайджанском турецком языках и английском, кириллицей для статей на русском языке.

- В статье должны быть указаны UOT индексы или коды типа PACS, а также ключевые слова. Ключевые слова должны быть на трех языках (на языках написания статьи и резюме).

- В конце статьи должны быть даны научная новизна, практическая ценность, экономический результат и др.

- В статье должны быть даны ссылки на научные источники. Список литературы должен быть либо по порядку (например, [1] или [1, с.119]) или же по порядку шифра. Если дается сноска на ту же литературу в другом месте текста, тогда номер сноски должен быть таким же как и прежде.

- Информация о каждой сноске, данной в списке литературы, должна быть полной и точной. Библиографическое описание источника должно быть дано в соответствии с его видом (монография, учебник, научная статья и т.д.). При ссылке на статью, материалы симпозиумов, конференций и других научных изданий, должно быть указано название доклада или тезиса. При библиографическом описании ссылаемых источников должны браться за основу требования 10.2-10.4.6 отдела «Используемая литература» действующей инструкции по «Правилам составления диссертационных работ» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

- В статье преимущество должно быть дано научным статьям, монографиям и другим источникам, опубликованным в течении последних 5-10 лет.

- Статьи, список литературы которых набраны в режиме автоматической нумерации, не принимаются.

- К статье должны быть приложены 1 рецензия (с указанием имени, научной степени, научного звания и научного титула, места работы рецензента), выписка из протокола научного совета (кафедры, отдела) учреждения, рекомендующего публикацию статьи.

- Статьи, которые не являются технически корректными, а также содержат плагиат, не будут опубликованы.

***Электронный адрес журнала "История и ее проблемы":***
**TarixVeOnunProblemleri@gmail.com**

## Requirements for scientific publications

- The place of work and the address, e-mail address of the author(s) should be indicated in the article.

- Articles may be published in Azerbaijani, Turkish, Russian and English. The summary of the article should be in two languages, in addition to the language of the article. Both summaries should be the same and display the content of the article. The summary should show the scientific result, scientific novelty, practical value, etc. The summary should be scientifically and grammatically edited. The summary should contain the full title of the article, the name of the author(s).

- The text of the article should be typed in Times New Roman, 14, 1.5 interval, Latin script for articles in Azerbaijani Turkish and English, Cyrillic for articles in Russian.

- The article should indicate UOT indexes or PACS type codes, as well as keywords. Keywords should be in three languages (in the languages of the article and resume writing).

- At the end of the article scientific novelty, practical value, economic result, etc. should be given.

- The links to the scientific sources should be given in the article. References should be either in order (for example, [1] or [1, p.119]) or in order of cipher. If a footnote is given for the same literature elsewhere in the text, then the footnote number should be the same as before.

- Information about each footnote given in the list of references should be complete and accurate. The bibliographic description of the source should be given in accordance with its type (monograph, textbook, scientific article, etc.). When referring to an article, materials of symposia, conferences and other scientific publications, the title of the report or thesis should be indicated. In the bibliographic description of the referenced sources, the “Used literature” section 10.2-10.4.6 of the current instruction on the “Rules for writing dissertations” of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan should be taken as the basis.

- In the article, the advantage should be given to the scientific articles, monographs and other sources published in the last 5-10 years.

- The article should be accompanied by 1 review (indicating the name, scientific degree, academic title and scientific title, place of work of the reviewer), an extract from the protocol of the scientific council (chair, department) of the institution that recommends publication of the article.

- Articles that are not technically correct, as well as plagiarism, will not be published.

**Email**: **TarixVeOnunProblemleri@gmail.com**

*Çapa hazırlayanlar:* *Sevinc Ruintən, Şəbnəm Cəfərova, Elmar Axundov*
*Tərcüməçi radaktorlar:* *Anar Kərimov, Aynur Məmmədova, Elmira İsmayılova*
*Web-redaktor:* *Nigar Nurəddin qızı İsmayılova*

**Yığılmağa verilmişdir: 15.12.2021. Çapa imzalanmışdır: 21.12.2021.**
**Redaksiyanın ünvanı: Bakı – 370148, akad.Z.Xəlilov küç.23**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi. Tel.: 539 08 56**
**E-mail: TarixVeOnunProblemleri@gmail.com**